GÜLXANİ PƏNAH
SALATIN ƏHMƏDLI

Azərbaycan ədəbiyyatı məsələləri

(Müasir ədəbi mühitə ümumi baxış)

AMEA-nın Folklor İnstitutunun Elmi Şurasının 15 iyun 2014-cü il tarixli qərarı ilə çap olunur

Bakı-2014

Elmi redaktorlar: **QARA NAMAZOV**
filologiya elmləri doktoru, prof.

SEYFƏDDİN RZASOY
filologiya elmləri doktoru, prof.

RAMİN ƏHMƏDOV
filologiya elmləri doktoru, prof.

Azərbaycan ədəbiyyatı məsələləri (müasir ədəbi mühitə ümumi baxış). Bakı, «UniPrint», Bakı, 2014, 628 səh.

Kitabda Azərbaycan Yazıçılar Birliyinin yaradılmasının 80 ili müddətində Azərbaycan poeziyasının, nəsrinin, dramaturgiyasının, ədəbi-tənqidinin, publisistikasının, bədii tərcüməsinin əldə etdiyi müvəffəqiyyətlər, Azərbaycan ədəbiyyatının misli görünməmiş inkişafı, onun inkişafında böyük xidmətləri olan Azərbaycan Yazıçılar Birliyinin üzvlərinin yaradıcılıq fəaliyyəti araşdırılır, qısa da olsa 80 il ərzində yaradılan ədəbiyyatımızın qazandığı uğurlar diqqətə çəkilir.

Kitab ali məktəb tələbələri, magistrlar, tədqiqatçılar, ədəbiyyatşünaslar üçün nəzərdə tutulmuşdur.

ISBN 978-99-52-440-01-5

© Gülxani Vaqif qızı Şükürova (Pənah),
Salatın Alı qızı Əhmədova (Əhmədli), 2014.

Ön söz

Azərbaycan ədəbiyyatı milli tarixi köklərə malik olub bəşər ədəbiyyatının tərkib hissəsidir. XX əsr Azərbaycan xalqının tarixində olduğu kimi ədəbiyyatında da dərin izlər buraxmışdır. Əsrin əvvəllərində Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) yarandı. Xalqımızın böyük sənətkarları az bir müddət ərzində fəaliyyət göstərən azad, tərəqqipərvər ideyalarla silahlanmış milli dövlətçilik prinsiplərini əsas tutan bu dövlətin silahdaşlarına çevrildi.

Azərbaycanda Xalq Cümhuriyyəti hökuməti qısa müddət ərzində maarifin, mədəniyyətimizin, ədəbiyyatımızın inkişafında böyük bir canlanmaya təkan verdi. Azərbaycan dilini dövlət dili elan etdi, Azərbaycan ədib və şairləri müəyyən məktəblər, üslublar üzrə fəaliyyət göstərirdi.

Demokratik Azərbaycan dövləti bolşeviklər tərəfindən devrildi, onlar hakimiyyətə gələndən sonra da, baxmayaraq ki, ədəbiyyatımızın böyük simalarının bir hissəsi aparılan çirkin siyasət nəticəsində məhv edildi, Azərbaycanın ədəbi prosesində inkişaf dayanmadı.

Sovet hakimiyyətinin idarəetmə prinsipi vardı. Sovet dövründə Azərbaycan ədiblərini, ədəbiyyatşünaslarını bir mərkəzdə birləşdirən Azərbaycan Yazıçılar Ittifaqı yarandı. Bütün ədəbi qurumlar bu təşkilatda birləşdirildi. 1934-cü ildə yaranmış Azərbaycan Yazıçılar Birliyi 80 ildir fəaliyyət göstərir.

Azərbaycan ədəbiyyatının inkişafinda çox böyük xidmətləri olan Azərbaycan Yazıçılar Birliyinin 80 illik fəaliyyəti ilə bağlı hazırlanmış Gülxani Pənahın və Salatın Əhmədlinin gərgin əməyinin, böyük zəhmətinin bəhrəsi olan «Azərbaycan ədə-

biyyatı məsələləri *(Müasir ədəbi mühitə ümumi baxış)*» kitabında ədəbi proses ardıcıl və sistemli şəkildə araşdırılmışdır. Sevindirici haldır ki, ilk dəfə olaraq Azərbaycan Yazıçılar Birliyinin 80 illik ədəbi-mədəni mühiti, onun poeziya, nəsr, dramaturgiya, tənqid və ədəbiyyatşünaslıq sahəsində qazandığı uğurlar araşdırılmış, konkret şəkildə Azərbaycan ədəbiyyatının böyük uğurlarına ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən düzgün qiymət verilmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvlərinin Azərbaycan ədəbiyyatı tarixində rolu, xalqımızın tarixində 80 il müddətində baş verən hadisələrin ədəbi əsərlərdə əksi, bu sahədə qazanılmış ədəbi uğurlar haqqında aparılan araşdırmaların nəticəsi olan bu kitabın yenilikləri çoxdur. Hər şeydən əvvəl bir məsələni qeyd etmək yerinə düşər ki, BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının müəllim kollektivi 2006-ci ildə «Müasir Azərbaycan ədəbiyyatı» dərsliyini yenidən işləylb, təkmilləşdirib nəşr etdirmişdir. Gülxani Pənahın və Salatın Əhmədlinin «Azərbaycan ədəbiyyatı məsələləri *(Müasir ədəbi mühitə ümumi baxış)*» kitabı da bir dərslik kimi əhəmiy-yətlidir. Və bu kitabdan tələbələrimiz, tədqiqatçı alimlərimiz də çox yaxşı yararlanacaqlar.

Bu kitabdakı yeniliklərdən biri 70 ildən sonra belə öz azadlığını qanı, canı bahasına yenidən əldə edən xalqımızın milli-azadlıq hissləri, müstəqillik uğrunda apardıqları mübarizələri özündə əks etdirən əsərlərə, onun müəllifləri olan böyük sənətkarların Müstəqil Azərbaycan Respublikasının vətəndaşı kimi azad yaşamaq-yaratmaq arzusunun reallaşmasına, son 20 ildə ədəbi prosesdə əldə edilən uğurlara geniş yer ayırmasıdır.

Digər bir yenilik bu kitabda hər bir Azərbaycan Yazıçılar Birliyinin üzvlərinin-şairinin, yazıçısının, dramaturqunun, eləcə

də tənqidçi və ədəbiyyatşünasının ədəbi uğurlarımızda rolunun araşdırılması, oxucuya çatdırılmasıdır.

Bazar iqtisadiyyatı ədəbi prosesə də öz təsirini göstərir. 50 milyonluq Azərbaycan oxucusu üçün yazıçı öz imkanı daxilində 500, 200, 100 tirajla kitab çap etdirir, bütün oxucular bu əsərləri əldə edə bilmir, kitab oxumaq marağının az olması nəticəsində də bizdə belə bir təsəvvür yaranıb ki, yaxşı, maraqlı əsərlər az yaranır. Gülxani Pənahın və Salatın Əhmədlinin «Azərbaycan ədəbiyyatı məsələləri *(Müasir ədəbi mühitə ümumi baxış)*» kitabında bu məsələlər araşdırılır, aydınlıq gətirilir.

Müasir Azərbaycan ədəbiyyatı, onun janr və üslub əlvanlığı, yaranan əsərlərin ideya, estetik xüsusiyyətləri, ideologiyada gedən dəyişikliklərin ədəbi prosesə təsiri, dünyada baş verən bütün ictimai, siyasi, mədəni, sosioloji hadisələrin, bugünkü aləmin aktual problemlərinin Azərbaycan ədəbiyyatının yaradıcılarının əsərlərində bədii əksini tapdığı bu kitabda geniş şəkildə araşdırılmışdır.

Kitabın bir yeniliyi də xüsusilə qeyd edilməlidir. Bu da Azərbaycan Yazıçılar Ordusunu birləşdirən Azərbaycan Yazıçılar Birliyinin üzvlərinin, eləcə də bu qurumun 80 illik fəaliyyətinin dövrlər üzrə tam, əhatəli şəkildə araşdırılmasıdır.

Kitabın yeniliklərindən birini də xüsusi olaraq qeyd etməliyik. Bu da Azərbaycan Yazıçılar Birliyinə Azərbaycan dövlətinin, xüsusilə siyasi xadim, Azərbaycan dövlətçiliyinin inkişafında, qorunub saxlanılmasında misilsiz xidmətləri olan siyasi xadim, dilçi, ədəbiyyatşünas, filosof, yüksək bədii təfəkkür sahibi Ümummilli Lider Heydər Əliyevin xüsusi qağısı sayəsində fəaliyyət göstərməsinin faktlarla araşdırılması, xalqa çardırılmasıdır.

Gülxani Pənahın və Salatın Əhmədlinin «Azərbaycan ədəbiyyatı məsələləri *(Müasir ədəbi mühitə ümumi baxış)*» kitabı ali

məktəblərin filologiya, jurnalistika, kitabxanaçılıq, şərqşünaslıq tələbələri, dissertantlar, magistrlar, doktorantlar, eyni zamanda ədəbiyyatı sevən, onun inkişaf tarixi ilə maraqlanan oxucuları üçün sanballı mənbədir.

QARA NAMAZOV
filologiya elmləri doktoru, prof.

GİRİŞ

«Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edir. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edirlər»

(Qurani-Kərimin Əl-Bəqərə surəsinin 269-cu ayəsi)

Tanrı insana fikir, düşüncə, şüur kimi ən yüksək nemətlər bəxş etmişdir. Yalnız insana məxsus olan bu nemətlər sayəsində insan «təbiətin tacı» kimi ən yüksək səviyyəyə qalxa bilmişdir. Yer üzünün əşrəfi insan öz böyüklüyünü yaxşı anlayıb. Qədim yunan filosofu Protaqorun «insan bütün şeylərin ölçüsüdür», Sokratın «özünü dərk et» fikirlərində insan, onun həyatının mənası, əxlaq məsələləri əsasdır. Yaşadığı dünyada xoşbəxt olmaq istəyən insan mükəmməl zəkaya malik olmalı, bu zəka hərəkət və davranışları idarə etməli, mükəmməl zəkayla xeyrə doğru yolla getməlidir ki, bu insanın xoşbəxtlik əldə etməsini reallaşdırsın. Özünün bütün hərəkət və əməlləri, davranışları ilə insan, onun həyatı, mənsub olduğu cəmiyyət, mühit ədəbiyyatın əsas mövzularından olub.

Bədii ədəbiyyat insana, onun mövcud olduğu cəmiyyətə təsir edir. Hər kəs sevdiyi, ona təsir edə bilən ədəbiyyatla maraqlanır: «Bədii ədəbiyyat onu yaradanlarla dinləyicilər və ya oxucular arasında mənəvi körpüdür». Bədii

ədəbiyyat hər yaşda insana bir şəxsiyyət kimi formalaşmaqda böyük təsir qüvvəsinə malikdir. Ədəbiyyatşünaslarımız fikirlərində haqlıdırlar ki, «bədii əsərlər keçmişi öyrənmək üçün tarix elmi ilə yol yoldaşıdır. Tarix elmi hadisəni tarixən səciyyələndirir, bədii ədəbiyyat tarixi keçmişlərdə cəmiyyət həyatını bədii boyalarla canlandırır, onu sanki göstərir, gərəkli şeyləri sevdirə, lüzumsuz şeyləri pisləyə bilir. Güman etmək olmaz ki, N.Gəncəvinin «Kərpickəsən qoca və gənc» hekayəsini oxuyan gənc onun didaktikasına biganə qalsın. Mümkün deyil ki, Şirinin bəlalı həyatı gənc qızlar üçün ibrətli olmasın. Otello və Yaqo surətlərini oxuyub tanıyanlar bu iki təbiət sahibindən kimə rəğbət, kimə nifrət etmək lazım gəldiyini seçə bilməsinlər. Ola bilməz ki, Fərhadın, Məcnunun macəralarındakı romantik şərtilikləri gənclik çoxdan ötüb keçmiş əfsanə sayıb aşiqlərin dərdinə yanmasın.

Bədii ədəbiyyat yalnız gəncliyə deyil, yaşlılara da ibrətli həyat məktəbi olmuşdur. Biliyi dərin olanlar «Xəmsə»dən, «Kitabi-Dədə Qorqud»dan, təriqət ədəbiyyatı xadimləri sufi şairlərdən öyrənirlər, öyrəndikcə mənən zənginləşirlər, sanki keçmişimizi görüb ayılmış kimi olurlar.

Oxuculardan şair və yazıçılarımızın, dramaturqlarımızın aldığı yüzlərlə məktublarda yazılan əsərlər, oradakı obrazlara münasibət, hadisələrin oxucularda yaratdığı maraq, bir sözlə, bu əsərlərin oxuculara dərin təsir etdiyi danılmazdır. Böyük Vətən Müharibəsində silahla söz birliklə düşmən üzərində qələbəni təmin etdi. Odlu, alovlu, mübariz ruhlu əsərlərimiz döyüşlərdə qələbələr qazanmaqda, faşist Almaniyasının vəhşi simasını dünyada tanıtmaqda misilsiz rol oynadı. Səməd Vurğuna, Əhməd Cəmilə, Rəsul Rzaya, Süley-

man Rüstəmə, Məmməd Rahimə döyüş bölgələrindən ünvanlanan məktublar...

Və yaxud: Mir Cəlalın «Bir gəncin manifesti»i əsərini oxuyan rus uşağı yazıçıya məktub yazır, Qumrunun körpə qızının ağaca çırpılmasından nigaran qalıb, onun sağ qalıb-qalmadığını soruşur.

Belə faktlar çoxdur. Bədii ədəbiyyatın təsir gücü böyükdür. Əsrinin, zəmanəsinin övladı olan yazıçı qabaqcıl fikirli «ictimai xadimdir», «xalqın tərbiyəçisidir». XX əsrin mollanəsrəddinçilərini yada salaq. Bu məktəbin nümayəndələrinin «tutduğu yol xalq həyatı, mübarizə və arzularının təbliği üçün ən münasib, məqbul yol idi. Bu sənətkarlar xalqa nə demək lazım olduğunu bildikləri kimi, nəsə demək, hansı ədəbi formalardan, hansı sənət, üslub məharətindən faydalanmaq lazım olduğunu da yaxşı müəyyən etmişdilər. Bu sənətkarlar oxucunun qəflət yuxusunda nadanlıq tiryəki ilə zəhərlənən şüurunu ayıltmaq, onu mövhumi fikirlərin, vahimələrin, xürafatın paslı zəncirindən xilas etmək üçün münasib üsul və formalar axtarıb tapırdılar. Bunun üçün düşmənin «öz müddəalarını öyrənib ifşa edirdilər».

Və yaxud, XX əsrin 30-cu illərində Stalinin mədhnamələri ədəbiyyata ayaq açanda nə qədər istedadlı qələm sahiblərimiz bu məfkurədən uzaq olduğundan damğalanıb tutuldu, məhv edildi, bununla belə, bir çoxları zəncirli, senzuralı ədəbiyyatı içindən dağıtdı, ona tənqidi münasibətini yaratdığı əsərləri ilə dedi. M. Hüseyn, İ.Əfəndiyev, İ.Hüseynov, Anar, Elçin, B.Vahabzadə, F.Qoca, İ. Hüseynov, Tofiq Bayram kimi onlarla istedadlar «sovet ictimai varlığının astarını üzünə çevirdilər». Bu nəsil və sonradan gələn gənc nəsil bu rejimin axırına çıxdı. Yüz ilə yaxın kökündən ayrı düşənlərimizin qəlbindəki türkçülük ideyaları bütün türk dünyasının daha da yaxınlaşmasını sürətləndirdi. Azadlıq

ideyaları ilə köklənmiş, 1918-ci ildə qurulmuş, bolşeviklər tərəfindən süquta uğradılmış Xalq Cümhuriyyəti əsrin son illərində yenidən bərqərar oldu. Azərbaycan müstəqilliyini yenidən qanı bahasına əldə etdi, Müstəqil Azərbaycan Respublikasını, öz müstəqil dövlətini qurdu və ədəbi proses onun əsas hərəkətverici qüvvələrindən oldu.

XX əsr ədəbiyyatımız möhtəşəm, köklü-köməcli, qollu-budaqlı, başı göylərə dəyən xan çinarlara bənzəyən bir ədəbiyyat olub, kökü tarixin minilliklərinə gedib çıxır. Azərbaycan ədəbiyyatı çox qədim ədəbiyyatdır. Bütün dünya xalqlarında olduğu kimi bizim ədəbiyyatımız da soyumuz, kökümüz tərəfindən yaradılmış kollektiv yaradıcılıq xüsusiyyətlərinə malikdir. Nəsildən-nəslə, ağızdan-ağıza keçərək daha da cilalanmış, uzaq keçmişimizdən üzü bəri qorunub saxlanmışdır. Azərbaycan ədəbiyyatının tarixi inkişaf mərhələləri, qədim dövrdən başlayaraq bu günədək inkişafı müəyyən qədər öyrənilmiş, tədqiq edilmişdir. Ədəbiyyatımızın tarixini tədqiq edən alimlərimiz «bu ədəbiyyatın öz daxili aləmi, öz xüsusi qanunları ilə necə inkişaf etdiyini, hansı ənənələr əsasında hansı yeni nailiyyətlər əldə etdiyini, hansı yaradıcılıq prinsipləri, üsulları yaratdığını, hansı məktəblər, üslublar və fərdi istedadlarla tarixi zənginləşdirdiyi»ni üzə çıxarmağa çalışmışlar.

VII əsrə qədərki Azərbaycan ədəbi prosesi folklorumuzda yaşayır. Bu dövrə qədərki ədəbiyyatımızdan danışarkən ortaq türk ədəbi abidələrinə üz tutmalıyıq. Hər bir xalq öz keçmişini öyrənmədən, onu bilmədən özünü dərk edə, bu gününü və sabahını qura bilməz. Xalqın bəsirət «işığı» sayılan ziyalı və gələcəyi olan gənclik də belədir: o, öz keçmişini bilməlidir, kökünü, əsil-nəsəbini, əcdadını tanımalı, mənsub olduğu xalqın mənəvi dünyası ilə yaxından tanış ol-

malıdır. Xüsusilə, indiki şəraitdə bu zamanın qarşıya qoyduğu zəruri tələbdir.

Azərbaycan xalqının mənşə tarixi, milli mənsubiyyəti-onun soykökü çox əski dövrləri özündə ehtiva edir: «Azərbaycan xalqının mənşəyi, soykökü və inkişaf yolunu üç mühüm mərhələ üzrə öyrənmək, tədqiq etmək olar:

1). Şumer (Sumer)-türk mərhələsi. Miladi tarixdən öncəki III-II minilliklər (və ondan əvvəlki dövrlər);

2. Turan-İskit (skif)-türk mərhələsi-(massaget, sak, hun, kaspi və onların yeni eradakı davamı olan hun, az, basil, bulqar, sabir//savir, xəzər və b.)-miladi öncəki son minillik və miladi tarixin ilk yüzillikləri;

3. **Türk mərhələsi** (ə n q ə d i m t ü r k: bulqar, uyğur, çuvaş, yakut və b.; q ə d i m t ü r k: oğuz, tuvin, xakas, şor və b.; y e n i t ü r k: azərbaycan, qaqauz, qıpçaq, peçeneq, poloves, salar, türkmən, özbək, cığatay və b. «ə n y e n i türk: başqırd, qazax, qaraqalpaq, qırğız, kumık, noqay, tatar, ğoyrot və b.-miladi tarixin başlanğıcından bu günə qədərki dövr» (E.Əlibəyzadə).

Ümumtürk dünyasının şah əsərləri qədim dünyamızın ulu kitabəsi «Bilqamıs» və ümumən Şumer-Babil mədəniyyəti, «Avesta», «Orxon-Yenisey kitabələri», «Dədə Qorqud» kitabı sayılır. Nizaminin «Xəmsə»si də bu dühalardan biridir. Və buna görə də onun tarixi, mədəniyyəti kimi ədəbiyyatı da ümumtürk xalqlarının ədəbiyyatı ilə bağlıdır.

Və alimlərimiz həm də bu fikirdədirlər ki, Azərbaycanın, bir sözlə, bütün türk xalqlarının «xəmiri» əzəldən şeirlə yoğrulub. «Ümumtürk köküdə «Göy Tanqrı»-Avesta» müqəddəs dini kitabı və «Bilqamıs»//»Gilqamış» dastanı, türklərdə «Alp ər Tonqa», azərbaycanlılarda «Dədə Qorqud», özbəklərdə «Alpamıs//Alpamış», qırğızlarda «Manas», başqırdlarda «Uralbatır» və s. dastanları məhz şeirlə

nəsrin vəhdəti-növbələşməsilə yaranmış dünyəvi sənət incilərdir. Türk xalqları hələ «bələkdə» ikən şeirlə nəfəs alıb, ona şeirlə ana laylası çalınıb; çox vaxt onun fəlsəfəsi şeirlə yazılıb, hətta bəzən lüğət kitabları şeirlə düzülüb-qoşulub» (E.Əlibəyzadə). Bu poetik ruhun məhz 8-10 min illik, bəlkə də 12 min illik tarixi olan qədim abidələrdən gəldiyi fikrində bir məntiq var. Dünya ədəbiyyatına bir-birindən dəyərli, nadir incilər bəxş edən Azərbaycan ədəbiyyatını yaradan Azərbaycan kimi möhtəşəm xalq var. Tarixin müəyyən mərhələlərində dağıdılan, talanan, parça-parça qoparılan, İrana, Rusiyaya zorla qatılan, qonşusu tamah salan qərbli, şimallı, cənublu, şərqli bütöv bir Azərbaycan vardır ki, bu gün öz mədəniyyəti, tarixi, ədəbiyyatı ilə qürur duyur. Aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi mədəniyyət qalıqları, qədim kitabə və abidələr, antik müəlliflərin əsərlərində inqilabdan sonra aparılan tədqiqatlar sübut edir ki, Azərbaycan Şərqin ən qədim mədəniyyət ölkələrindəndir.

Yazılı ədəbiyyatdan əvvəl yaranmış ədəbi dövr haqqında tarixçilərin qələmə aldığı əsərlərdə, salnamələrdə yarı gerçək, yarı əfsanə olan rəvayətlər, əfsanə və əsatirlər, etnoqrafik məlumatlar Azərbaycan ədəbiyyatının çox zəngin qədim şifahi ədəbiyyatının varlığından xəbər verir. Qədim Azərbaycanın ədəbiyyatı ortaq türk mədəniyyətinin, ədəbiyyatının tərkib hissəsi olub, çox böyük inkişaf yolu keçmişdir.

Eramızdan neçə-neçə əsr əvvəl yaranmış «Avesta» abidəsində, şifahi xalq yaradıcılığında-əsatir, nağıl, dastan, əfsanələrdə, yazılı ədəbi nümunələrdə-Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin ölməz əsərlərində dərin fəlsəfi fikirlər, hikmətli ifadələr yaşayır. Fəlsəfi fikir bədii yaradıcılığımızla, söz sənətimizlə möhkəm bağlı olub. Böyük sənətkarlarımızın söylədiyi dahiyanə fikirlər bədii və fəlsəfi tə-

fəkkürün vəhdətindən yaranıb. Xalq ədəbiyyatımız dərin fikirlərlə, hikmətlə, fəlsəfə ilə zəngindir. Şeir, sənət, söz bahadırlarının hikmətli sözləri dildən-dilə keçdikcə, büllur sellər axınında zərgər əlinə düşdükcə elə cilalanmışdır ki, min illər keçsə, yenə də öz dəyərini, qiymətini saxlayacaq.

«Azərbaycan ədəbiyyatı keşməkeşli bir təkamül, inkişaf yolu keçmişdir. Onun ilk izləri Midiya əfsanələrində, «Avesta»da axtarılır. Qədim türkdilli yazılı abidələrimizin Azərbaycan ədəbiyyatının təşəkkülündə diqqətəlayiq rol oynadığı getdikcə daha artıq yəqinləşir. Bu ədəbiyyat yalnız Azərbaycan sərhədləri daxilində deyil, İranda, Türkiyədə, İraqda, Hindistanda, Suriyada... belə yaradılmış və bəzən indi də yaradılır. Onun nümayəndələri yalnız doğma dilin deyil, ərəb-fars dillərinin bədii abidəsi kimi şöhrət qazanmış əsərlərin müəlliflərididir» (Araz Dadaşzadə.)

Yeni eranın başlanğıcından VII əsrə qədər Azərbaycan mədəniyyəti müxtəlif inkişaf dövrləri keçirmişdir: «Hələ Sasanilər dövründə, Azərbaycan xalqının şimal və cənub düşmənlərinə qarşı mübarizə illərində ölkəni müdafiə məqsədilə tikilən qalalar, çəkilən sədlər, burada memarlıq işini qüvvətləndirmişdi. IV əsrdən etibarən xristianlığın Azərbaycanda qismən yayılması ilə əlaqədar olaraq tikilən kilsələr və bu kilsələr ətrafında təşəkkül edən xristianlıq təlimi ölkənin mədəni həyatına müəyyən dərəcədə təsir edirdi. Xristianlığın qəbul edildiyi yerlərdə bizans təsirlərinin qüvvətlənməsini, yeni alban əlifbasının yaradılmasını və yazılı ədəbiyyatın inkişafını da təxmin edə bilirik. Arran dilində olan bu ədəbiyyatın bir nümunəsi bizə qədər gəlib çatmamışdır. Hələ VII əsrdə Azərbaycanda müstəqil Alban dövlətinin yaranması ilə yüksələn mədəniyyət ərəb istilasına qədər inkişaf edərək gəlmişdi» (Azərbaycan ədəbiyyatı tarixi). Ərəb istilasından əvvəlki dövrə aid erməni tarixçilərin əsərlərində ərəb işğalçılarına, Sasani qəsbkarlarına qarşı, xalqının müstəqilliyi uğrunda mübarizə aparan Cavanşirin qəhrəmanlığı haqqında, xəyanət nəticəsində ölümündən doğan kədəri ifadə edən VII əsrdə Davdağın yazdığı mərsiyə vardır. Bu mərsiyə yüksək üslubda, böyük bir bədii keyfiyyətlərlə zəngindir və bu, mərsiyənin müəllifinin bir çox əsərlər yazmış olduğunu da sübut edir. Bu mərsiyə ərəb istilasından əvvəlki dövr Azərbaycan ədəbiyyatının «yeganə yadigarı» hesab edilir.

VII əsrdə ərəblər Azərbaycanı işğal etdilər. Atəşpərəstliyin bütün nişanələrini məhv etməyə çalışan ərəb istilaçıları atəşgahları dağıdır, yandırırdılar və o məbədlərdə saxlanan tarixi sənədlər, ədəbi materiallar da məhv olurdu.

Ərəblər öz dillərini qəbul etdirir, mədrəsələr açdırır, təlim-tərbiyə işləri ərəb dilində aparılırdı. Alban və pəhləvi əlifbaları qadağan edilir, ərəblərin özləri üçün də çətin olan kufi xətti qəbul etdirilirdi.

İslam dini qəbul edildikdən sonra ərəb dili hakim dilə çevrilir. Az bir zaman içərisində müxtəlif xalqlar arasında əsas ünsiyyət vasitəsi kimi qəbul olunur. Bütün əsərlər bu dildə yazılır, bu dildə yayılır, bu dilin vasitəsilə ümummüsəlman xarakteri alır. Fransız şərqşünası Qustan Löbenin dediyi kimi, «latın dili orta əsrlərdə Avropada necə yayılmışdırsa, ərəb dili də müsəlman xalqları arasında elə intişar tapmışdı». Bu hal ədəbiyyatda, ilahiyyatda qabarıq şəkildə özünü göstərir. Orta Asiya, Zaqafqaziya, İran xalqları nümayəndələri ərəb dilində yazır, bu dildə ümummüsəlman mədəniyyəti meydana gəlir. İsveçrə şərqşünası Adam Mets yazırdı ki, «əhalinin tərkibinin dəyişməsi, onun bu vaxtaqədərki-X əsrə qədərki aparıcı hissəsinin qüvvəsinin tükənməsi və qarışıq irqlərin qədim əhalisinin ön cərgəyə keçməsi ədəbiyyatda özünü qabarıq göstərir».

Ərəbdilli orta əsrlər ədəbiyyatı müxtəlif xalqların birgə yaratdığı, inkişaf etdirdiyi və formalaşdırdığı mədəni irsdir. Bu irsin əsas yaradıcılarından biri də Azərbaycan xalqı olmuşdur.

VII əsrin ikinci yarısından başlayaraq Azərbaycan sənətkarları öz əsərlərini ərəb dilində yazır. Artıq Əməvilər dövründə İsmayıl ibn Yəsar, Musa Şəhəvat, Əbu-l-Abbas əl-Əma kimi qüdrətli qələm sahibləri yetişir. Müxtəlif elmlər sahəsində, xüsusən ilahiyyat, fiqh və hədis sahələrində azərbaycanlıların səsi daha qüvvətli eşidilməyə başlayır. XI əsrin əvvəllərində Əbu Mənsur əs-Səalibi X əsr ərəbdilli Azərbaycan şairləri haqqında qiymətli məlumatlar verir. Az sonra isə Əbu-l Həsən əl Baxərzi öz məcmuəsində ərəbcə yazan azərbaycanlı şairlərə ayrıca bölmə ayırır. Xətib Təbrizi, Eyn-Əl-Quzat, Yusif Xoylu, Şühavəddin Sührəvərdi bütün ərəb aləmində tanınır. Şərqin elminə, mədəniyyətinə və ədəbiyyatına, onun inkişafına böyük təsir göstərir. Zəngin kitabxanaların yaradılması, ədəbi-elmi məclislərin təşkil olunması ümumi xarakter alır. Ərəb dilli Azərbaycan ədəbiyyatı XII əsrdən sonra da davam edir, Nizami, Füzuli kimi nəhəng söz ustaları ana diliylə yanaşı ərəb və fars dilində də əsərlər yazır.

Ərəbcə yazan azərbaycanlıların öz ölkələri ilə, öz xalqı ilə bağlılığı xeyli güclənir. Sonrakı şairlərin, ədiblərin yaradıcılığında milli zəminlə əlaqə ilk baxışdan özünü göstərir. XI əsr Azərbaycan şairləri Eyn-Əl-Quzat, Sührəvərdi, Xoylu və başqaları ərəb ölkələrindən kənarda fəaliyyət göstərir. Ərəb dili onlara öz fikirlərini ifadə etməkdə zahiri forma rolunu oynayır. Ərəbdilli Azərbaycan ədəbiyyatının XI əsrdə müstəqilliyi artır. Bununla belə, bu əsərlər ümummüsəlman ədəbiyyatının tərkib hissəsi idi. Oxşar cəhətlər çox idi, bunu inkar etmək olmazdı, «yalnız ərəbcə yazmış azərbaycanlı şair və ədiblərin yaradıcılığına həsr olunub, əsasən Azərbaycan xalqının ədəbi fikir tarixi ilə əlaqədar olsa da, ümummüsəlman mədəniyyətinin də öyrənilməsi baxımından səciyyəvidir» (Əbu Mənsur).

Doğrudur, ərəb dili bütün Azərbaycanın əqli və mədəni həyatına daxil olmayıb. O, tədricən dini və siyasi bir dil kimi yayılıb, müəyyən vaxt keçdikdən sonra elmi və ədəbi əsərlərin dili kimi qərarlaşıb. Doğrudur, bu dil Azərbaycanda hakim mövqe tutmazdan əvvəl ərəblər tərəfindən əsir alınmış bir sıra azərbaycanlı şairlər də öz qələmlərini ərəb dilində sınamış, hətta ərəbləri belə heyrətə salan kamil sənət nümunələri yaratmışlar. Onlar «məvali» adlanan şairlər idi. İbn Qüteybə-əd-Dinavəri özünün «Kitab-əş-şer və ş-şüəara» adlı məşhur kitabında Əbu-l-Yəqzana əsaslanaraq yazır: «Mədinədə məvalilərdən elə bir şair yoxdur ki, o əslən Azərbaycandan olmasın. Sonra İsmayıl ibn Yəsar və onun qardaşının, Musa Şəhəvatın və Əbu-l-Abbasın adını çəkmişdir».

İbn Qüteybənin göstərdiyi bu şairlər VII əsrin sonlarında və VIII əsrin birinci yarısında yaşayıb yaratmışlar. Onlar «məvali» (bu sözün mənası «yaxın olmaq, hər kəsin ardınca getmək, ona qoşulmaq» deməkdir) idilər və bu ad islamdan əvvəl və islamın ilk dövrlərində əsir tutularaq müsəlmanlığı qəbul etmiş, yaxud da ərəblərin içərisində yaşayan və könüllü surətdə yeni dinin bayrağı altına keçən qeyri-ərəblərə verilirdi. Təkəbbürlü ərəblər arasında məvalilərə qarşı təkəbbür, lovğalıq, nifrət vardı. Məhəmməd Peyğəmbər, Əli yanında məvalilər xüsusi hörmətə malik idilər. Onları bəzən ərəblərdən üstün tuturdular» (Əbu-l-Abbas əl-Mütərrəd).

Şəhəvat Qüreyş qəbiləsinin mövlası olmuşdur. Əldə olan şeirləri onun yaradıcılığının cüzi hissəsini təşkil edir. Onun mədhiyyələri, həcvləri qalıb. Musa Şəhəvatın şeirləri məşhur idi. Onlar hikmətli sözlər, zərb-məsəllər kimi ağızdan-ağıza keçirdi, cariyələrdən tutmuş xəlifələrə qədər onun şeirlərini əzbər söyləyirdilər. O, şeirlərində özündən razı adamlara, mənsəb və vəzifəsinə arxalanıb heç kəslə hesablaşmaq istəməyən lovğalara üz tutur, «insan daimi yaşamır, o, gec-tez ölüb gedəcəkdir»,-deyir, xeyirxahlıq, saflıq kimi nəcib insani sifətləri tərənnüm edir. Dünyada insanın ancaq yaxşı əməllərinin əbədi qalacağını söyləyir. Onun aşağıdakı beyti bunu təsdiq edir:

Mərdlik düşmənlərinə de ki, Xaliddə səxavət
məhv olmuşdur.
Ancaq Səidin fəzilətləri məhv olmayacaqdır.

Belə dəyərli fikirləri ondan sonra gələn şairlər üçün də ilham mənbəyi olmuş, bir çox qiymətli fikirləri digər qəsidələri də bəzəmiş, məzmununu xeyli qüvvətləndirmişdir. Dövrünün aktual məsələləri onun şeirlərində var. Ədalətsiz qazi və valilərə düşmən olan şair Allah adından istifadə edib min fırıldaq törədənləri ifşa edir, cəmiyyətdə gördüyü eybəcərliklərdən iyrənib həyatdan əl üzmür, əksinə, ədalətin, haqqın gücünə inanır, zülmkarlara lənət yağdırdığı kimi yaxşı əməlləri də alqışlayır. Ailə münasibətlərinə aid şeirlərində yaxşı qızların ləyaqətli adama ərə getməsini alqışlayır, özünə layiq ər seçməyənləri məzəmmət edir. Onun əsərlərindən görünür ki, yüksək sənətkar olub, ərəb dilinin incəliklərinə dərindən bələd olub, şeir qanunlarını mükəmməl öyrənib, ərəb şeirlərinin əlavə vəznlərini məharətlə öz yaradıcılığında tətbiq etməyi bacarmışdır.

İsmayıl İbn Yəsar ərəbdilli Azərbaycan poeziyasının qüdrətli nümayəndələrindən biridir. VII-VIII əsrlərdə yaşa-

yıb-yaratmış bu görkəmli şairin ədəbi fəaliyyəti şərqşünasların diqqətindən kənarda qalıb. Onu müasir fars tədqiqatçılarından Zəbihullah Səfa və ərəb alimi Əhməd Əmin heç bir əsasları olmadan fars şairlərinin siyahısına daxil etmiş, Məhəmmədəli Tərbiyət isə onun Azərbaycan şairi olduğunu bir daha təsdiqləmişdir. O, ədəbiyyat tarixinə kəskin siyasi şeirlər, zərif mədhlər, yanıqlı mərsiyələr, səmimi vəsflər, incə aşiqanə şeirlər müəllifi kimi daxil olmuş, o Musa Şəhəvatdan fərqli olaraq ömrü boyu ərəb hegemonluğuna qarşı çıxmış, qələmini əsarət altına alınmış xalqların heysiyyatının qorunmasına həsr etmişdir. Əhməd Əmin onun yaradıcılığını, şeirlərinin xüsusiyyətlərini xüsusi qeyd edir, göstərir ki, «orada hekayəçilik ruhu, gözəl məntiqi ardıcıllıq hakimdir. İsmayıl ibn Yəsar köhnə ənənələri cəsarətlə qırmış, şeirin yalnız formaca deyil, məzmunca da sabitliyini ərəbdilli ədəbiyyata gətirmişdir. Artıq onun aşiqanə şeirlərində dəvə karvanlarının, səhraların boz qumlarının, qəbilələrin təsvir və tərənnümünə rast gəlmirik. Ondan qabaqkı ərəbdilli şairlərin hamısı bu köhnə ənənənin çərçivəsindən çıxa bilmir, müxtəlif hadisələr yığımını bu şeirdə əlaqəsiz şəkildə əks etdirirdilər. İbn Yəsarın böyük xidmətlərindən biri elə bu şeiri səliqəsizlikdən xilas etmək, mövzu vəhdətini poeziyaya gətirmək olmuşdur: bunu tənqidçilər qədim Azərbaycan ədəbiyyatının təsiri ilə bağlayırlar. Onun sözləri, tərkiblər, poetik vəzni ərəb qəlibində verilsə də, Azərbaycan təfəkkürü, Azərbaycan ruhu onun şeirlərinə daxil ola bilmiş, yeni məna və mahiyyət kəsb etmişdir. Onun şeirlərində poetik obrazlar, bədii ifadə vasitələri yüksək sənətkarlıq nümunəsi kimi qiymətləndirilir, əsassız mübaliğələr, şit təşbehlər, real həyatdan uzaq bənzətmələr yoxdur. Dili yığcam və canlı, axıcıdır.

Əbul Abbas əl əma Cəzimə ibn Əli ibn əd Deyl ibn Bəkr ibn Əbd Mənat qəbiləsinin mövlası olmuşdur. Onun yaradıcılığı Yəsar və Şəhəvat kimi müasirlərindən bəzi xüsusiyyətləri ilə fərqlənsə də, ardıcıl, qəti mövqeyi ilə seçilib. Əldə olan mədhləri, həcvləri siyasi xarakter daşıyır. Maraqlı şeirlərindən biri bir atanın dilindən nankor oğula qarşı çevrilmiş və yüksək sənətkarlıqla yazılmış kiçik bir şeir parçasıdır. Atanın duz-çörəyi ilə boya-başa çatan oğul ata qəlbinin yanıqlı fəryadını dərk etmir:

Anadan olan gündən sənə çörək verib, su qabını
dodaqlarına yaxınlaşdırıb,
Qurtum-qurtum içirdərək səni boya-başa çatdırdım.
Gecələr sənə bir bədbəxtlik üz verdikdə gözlərimi
Səhərə qədər yummayıb sənin dərdin üçün
narahatlıq keçirdim.
Sanki sənə üz verən bəla mənə də sirayət edib
hönkür-hönkür ağladırdı.

VII-VIII əsrlərdə yaşayıb yaratmış və məvali şairlər adlanan bu təfəkkür sahibləri-azərbaycanlı şairlər ərəbdilli poeziyanın inkişafına xeyli köməklik göstərmiş, eyni zamanda öz xalqının bədii və fəlsəfi təfəkkürü ilə bağlı olmuşlar. Onların yaradıcılığı sübut edir ki, Azərbaycan xalqının həmin dövrdəki bədii təfəkkürü digər müsəlman xalqlarının mədəni səviyyəsindən heç də geri qalmamış, bir çox millətlərin birgə səyi nəticəsində meydana gəlmiş ərəbdilli poeziyanın yeni keyfiyyətlər kəsb etməsində, forma və məzmunca dərinləşməsində, ictimai və siyasi həyata dərindən nüfuz etməsində öz faydasını əsirgəməmişdir. Azərbaycanlı ruhu, azərbaycanlı təfəkkürü, azərbaycanlı zövqü ərəbdilli ədəbiyyata daxil olaraq bu ədəbiyyatın mövzuca genişlənməsinin əsas amillərindən birinə çevrilmişdir. X-XI əsrlərdə Azərbaycanda yaranan ərəbdilli poeziya məhz belə bir zəmin

üzərində yüksələrək, məzmunca daha da müstəqilliyə doğru getmişdir.

Əbul-Həsən əl Baxərzinin «Dumyat əl-qəsr və usrat əhl əl-əsr» məcmuəsində XI əsr Azərbaycan poeziyasının səkkiz Azərbaycan şairinə yer verilməsi o dövrdə poeziyamızın çox zəngin olduğundan xəbər verir. Onların yaradıcılığı haqqında ərəbdilli mənbələrdə öz əksini tapmamasına səbəb onların öz şəhərləri ilə bağlı olması, ümummüsəlman ədəbiyyatının geniş meydanına çıxmaq imkanı olmamasıdır. Başqa bir səbəbin də siyasi hadisələrlə bağlı olduğunu bildirir: «Belə ki, səlcuqların zəifləməsindən sonra vahid imperiyanın dağılması və bununla əlaqədar müxtəlif dövlətlərin, ayrı-ayrı əlaqəsiz elm və mədəniyyət mərkəzlərinin meydana gəlməsi bir zamanlar çox möhkəm olan ümummüsəlman mədəniyyətinin bütövlüyünü, sıx rabitəsini və vahidliyini aradan qaldırır. Bu da öz növbəsində ərəbdilli ədəbiyyatın ümumi ahənginin pozulmasına, onun ayrı-ayrı ölkələrdə müstəqil inkişafına gətirib çıxarır. Təbii ki, belə bir şəraitdə təzkirə müəllifləri bütün şərq aləmini əhatə etmək imkanından məhrum olurlar». Bu dövrdə monqol işğalları, ölkədə baş verən siyasi dərəbəyliklər, müharibələr bir çox sənətkarların əsərlərinin məhvinə, unudulmasına səbəb olmuşdur. Baxərzinin məcmuəsinin bu cəhətdən misilsiz dəyəri var. Məhz həmin məcmuədə XI əsrin səkkiz Azərbaycan şairinin adı çəkilir. Bu məcmuədəki Azərbaycan şairlərinin siyahısı Mənsur Təbrizinin şeirləri ilə açıldığı söylənir. Baxərzi yazır: «Təbriz əhli içərisində böyük istedadı ilə məşhurlaşmış, mənaları saf qızıltək cilalanmışdır. Bu kafiyədə gətirdiyim (parçalar) onun adı üçün kifayətdir. Bu, Şam diyarında yüksək zövqü oxşayan, indi də söz xəzinəsinin incisi hesab olunan bir qəsidədir». Mənsur Təbrizinin buradakı şeirlərini araşdıran

tədqiqatçılar onun məcmuədəki şeirlərini «nadir poetik ilhamın, qanadlı təfəkkürün, vüqarlı mənliyin vəhdətindən yoğrulan, bakir sənətkarlığın əlçatmaz qüdrəti ilə süslənən poeziya çələngi, nəğmələr dünyası» (M. Mahmudov) adlandırır. M. Təbrizi poeziyaya yüksək amallarla yanaşırdı, onu ictimai həyatın bütün dərinliklərinə nüfuz edən, «həyat nəfəsli bir qüvvə» bilirdi. XI əsrin mütəfəkkir şairi doqquz yüz il bundan əvvəl yazırdı:

(Şeir) zəiflərə elə bir qətiyyət verir ki,
Taqətdən düşmüş hər bir kəs belə kəsərli qılınc
hesab olunur.

Bu misraların əsas ideyası müasir ədəbiyyatın qarşısına qoyulan estetik tələblərlə, ictimai məzmunla səsləşir. Şeir xalqın ruhunu, fikrini ifadə etməlidir, şəxsi maddi maraqlara deyil, böyük amallara xidmət etməlidir. Poetik sənətinin böyük ictimai təsir qüvvəsinə inanan şair xalqın düşmənlərini sarsıtmaq üçün qələmin mübariz gücünü görürdü. Söz, qələm hər zaman bütün tarixi dövrlərdə mübarizə meydanında qələbə çalmış, sözün qüdrətiylə neçə-neçə hökmdar qılıncı endirilmiş, sözün qüdrəti neçə-neçə qüdrətli hökmdarların gücündən daha təsirli olmuşdur.

(Qələm) öz ucu ilə nə qədər qəddar düşmənləri məhv etmişdir?

Həm də düşmənin qanını tökməklə yox, öz qanını axıtmaqla.

Burada şair fikrini obrazlı ifadə edir. Qələmindən vərəqlərə tökülən mürəkkəbi onun qanına bənzədir. Qələmin «qanının» nəyə qadir olduğunu metaforik bir dillə ifadə edir. Mənsur Təbrizinin şeirlərində həm də əsas mövzu məhəbbətdir. Özünü məhəbbət dünyasının əbədi yolçusu bilən şair, ilahi eşqi insan ruhunun ayrılmaz «pərisi» bilir. Onun yaradıcılığından zəmanəmizə az nümunələr gəlib çatsa da,

bu azacıq nümunələrdəki bəşəri məsələlər, onların qoyuluşu, şair təfəkkürünün zənginliyi Mənsur Təbrizinin dövrünün ərəbdilli şairləri içərisində qüdrətli bir Azərbaycan şairi olduğunu göstərir. «Dumyat əl qəsr» məcmuəsində adı çəkilən Xətibi Urməvinin qəsidəsindən bir parça nümunəyə daxil edilmişdir. Klassik ərəb poeziyasının təsiri altında yazılmış bu şeir parçası kiçicik bir nümunədir və şair onu 1070-ci ildə Uşnə yaxınlığında Nizam əl-Mülkü qarşılayarkən qələmə alıb. Baxərzi diqqətini cəlb edən bir parça qəsidəni məcmuəyə daxil etmişdir.

Hüseyn Təbrizinin (Əbu-l-Məhasin Hüseyn ibn Əli ibn Nəsr Təbrizi) Nizam əl-Mülkün tərifinə həsr etdiyi qəsidə şairin daxili hissləri, dövrün tənələrinə qarşı şikayəti ilə başlayır: «Şair onu bürüyən ətraf mühitdən uzaqlaşmağı, tənhalığın qoynunda bir qədər dincəlməyi arzulayır. Çünki onu məzəmmət edənlərin tənə və danlaqları şairin ruhunu sanki qandallamış, sevgi ağırlığından rahatlığı əldən getmişdir:

Əgər təsəlli bircə saat mənə kömək etsəydi,
Ruhumu məzəmmət edənlərin qandalından
dərhal xilas edərdim.
Məhəbbətin ağırlığından uzaqlaşaraq rahatlanar,
Tənə yükündən təkliyə çəkilərdim.

Şair ona görə təklik istəyir ki, təbiətin gözəlliyinin seyrinə dalsın, bu gözəllikdən həzz alsın, ilham çırağı daha da şölələnsin, bu gözəlliklər içində gözəllikləri bir də duysun... yüksək sənətkarlıqla, böyük şairanəliklə yaradılmış təbiət mənzərəsi kimi Nizam əl-Mülkün tərifi verilir. Onu ağıllı, tədbirli, islam dünyasını zülmdən qurtaran xilaskar kimi mədh edir. Şeirin sonunda ona bəslədiyi səmimi arzularını ifadə edir. Şeir ərəb dilində yazılmış olsa da, burada Azər-

baycan təbiətinin tərənnümü, doğma yurdun gözəlliklərinə vurğunluğunu böyük sənətkarlıqla verir.

Əli Təbrizinin (Əli ibn Hibətullah ibn Məhəmməd ibn Xalid Təbrizi) yalnız üç beyti məcmuəyə daxil edilmişdir. Bu parçada şairin fəlsəfi düşüncələri verilir, həyata fəlsəfi münasibəti duyulur.

Baxərzi XI əsrin Azərbaycan şairlərindən olan Xəttat Nizami Təbrizini şəxsən tanımış, onun şeirlərini şairin öz məclisində dinlədiyini etiraf etmiş və göstərmişdir ki, Nizam əl-Mülk tərəfindən Nişapurdakı mədrəsəyə müəllim təyin olunan şair «öz xətti ilə kağızlar torpağında dürr əkirdi». Onun vətən həsrəti ilə yazılmış rübaisində vətən həsrəti ilə çırpınan qəlbinin səsi duyulur:

Torpağıma can atıram, təəccüblü deyildir ki,
Neçə-neçə qəribin qəlbi vətənlərinə can atmışdır.
Səhərin şəfəqləri mənə tutqun görünür, sanki o,
Mənim qürbətimdən bir pay götürmüşdür.

İskafi Zəncani yaradıcılığından məcmuəyə salınmış dörd beyt onun ayrı-ayrı şeirlərindən seçilmişdir. Bir beytində insan mənəviyyatının təmizliyi, saflığı, digərində dövrün ədalətsizliklərinə qarşı üsyan, digərində «yaylığa layiq olan başlarda «çələng» görəndə keçirdiyi xəcalət hissləri ifadə edilib. Cəhalətin hökm sürdüyü bir dövr, azad fikirlərin amansızlıqla boğulmasından doğan qəzəb hissi onun qəlbini xəstə salıb. Keçirdiyi sarsıntıları ifadə etdiyi aşağıdakı beytində haqsızlığı görüb qəzəbindən alışıb yanan bir şairin üsyankar səsi duyulur:

Əgər mən od olsam, sirr isə buzdan olsa,
Onu məndən qoruyun ki,
alovum ona xətər yetir-məsin.

Orta əsr şairləri içərisində yeganə şairdir ki, Xətib Təbrizi haqqında məlumatlar xeylidir. Daha çox həyatı araşdırılmış, ona diqqət daha çox yetirilmişdir. Onun ədəbiyyat və dilçilik elmləri sahəsindəki fəaliyyətindən bəhs etməklə yanaşı bəzi mənbələr bədii yaradıcılığına da toxunmuş, şeirlərindən bəzilərini əsərlərinə daxil etmişlər. Baxərzinin məcmuəyə daxil etdiyi şeiri Nizam əl-Mülkə həsr etmişdir. Onunla arasında olan dostluq münasibətlərinin möhkəmləndirilməsi ilə bağlı yazılmış əsər kimi xarakterizə edilir. Xətib Təbrizi Səlcuq vəzirini səxavətiylə, xalqı mərhumiyyətlərdən qurtarmaq üçün göstərdiyi məqsədyönlü fəaliyyəti ilə mədh edir.

Xətib Təbrizi yüksək şairlik istedadına, incə zövqə malik, dərin müşahidə qabiliyyətli bir sənətkardır. İbn Xəlliqan onun beytlərini «ən duzlu və lətif şeirlər cərgəsində» olduğunu etiraf etmişdir.

Haqqında söhbət açdığımız şairlərin yaradıcılığı az da olsa XI əsr ərəbdilli Azərbaycan poeziyasının həm kəmiyyət, həm də keyfiyyət baxımından əhəmiyyətli dərəcədə inkişaf etdiyini, poeziyanın ədəbi həyatımızın bütün sahələrinə nüfuz etmiş poeziya olduğunu sübut edir. XI əsr poeziyamız özündən əvvəlki dövrlərdə yaranmış ərəbdilli Azərbaycan ədəbiyyatının əvvəlki ənənələrinin zəruri inkişafının təzahürüdür: «Bu dövrdə Mənsur Təbrizinin ədəbiyyatı siyasi vuruşlar meydanına çevirməsi, ona yüksək amallar carçısı kimi baxması, habelə İskafi Zəncaninin mühüm ictimai problemləri öz şeirlərinin mövzusu etməsi, Nizami Təbrizinin şeirlərindəki vətənpərvərlik ruhu yalnız XI əsr Azərbaycan bədii fikrinin deyil, ümumiyyətlə, Yaxın və Orta Şərq xalqlarının estetik təfəkküründün nailiyyəti kimi» (M. Mahmudov) qiymətləndirilir.

XII əsrdə Azərbaycan ədəbiyyatı, xüsusilə poeziyamız xeyli inkişaf etmişdir. Bu əsrdə Eyn əl-Quzatın şəxsində bə-

dii nəsrin ilk nümunələri yaranır və ədəbi-bədii fikrin tərkib hissəsinə çevrilir. XII əsrdə farsdilli poeziya geniş şöhrət tapsa da ərəbdilli ədəbiyyat öz mövqeyini saxlayırdı. Dövrünün məşhur şairi, şairlər xaqanı təxəllüsü almış Xaqani fars diliylə yanaşı ərəb dilində də gözəl əsərlər yaradırdı. Bu da ərəb dilinin hər sahədə oduğu kimi ədəbi sahədə də bu dövrdə işlədildiyinə sübutdur.

XII əsrdə fars dili Azərbaycan poeziya dili kimi hakim mövqe tutmasına baxmayaraq, ərəb dilində yazan sənətkarlar olmuş, onlar elmi və bədii əsərlərini bu dildə yazmışlar. Sührəvərdi Şərqin mədəniyyət və elmində qüdrətli bir filosof olmaqla yanaşı şairdir. O, 38 illik ömründə özündən sonra böyük fəlsəfi bir irs («Hikmət əl-işraq», «Həyakil ən-nur», «Ət-Təlvihat əl-lavhiyyə va-l-ərşiyyə»), «Risalə fi itiqad əl-hukəmə», («Əl-Mutarahat»), («Əl-Əlvah əl-imadiyyə»), «Əl-Muqavamat», «Əl-Məaric» və s) qoyub getmişdir. Təbiət və cəmiyyət məsələləri, həyatın hikmətinə aid nəzəri fikirləri verilən bu əsərləri ilə yanaşı, o, qələmini poeziya sahəsində sınamış, lirik incə qəlbli bir şair kimi tanınmışdır. Mənbə və məxəzlərdə onun poeziya yaradıcılığı haqqında qiymətli fikirlər var. Sührəvərdinin divanı Həmid Araslı tərəfindən tapılmış və əlyazmasının fotosurəti respublikamıza gətirilmişdir. Bu tapıntı filosof şairin yaradıcılığını geniş və hərtərəfli tədqiq etməyə imkan verir. Həcmcə kiçik divan tamamlanmamışdır. Onun yaradıcılığı ərəbdilli Azərbaycan poeziyasında xüsusi yer tutur. VII-VIII əsr şairlərinin ənənələrini davam etdirmiş, keyfiyyətcə zənginləşdirmişdir. Ona qədər poeziyada real hisslərin tərənnümü qüvvətli idi, Sührəvərdinin şeirlərində isə «rassionalist istiqamət, fəlsəfi dərinlik, romantik vüsət» üstünlük təşkil etdiyi, onun poeziyasının «fəlsəfi ümumiləşdirmənin, əqli mühakimənin gözəl nümunələri kimi» diqqəti cəlb etdiyini qeyd edən alimlər

bildirirlər ki, «əgər Musa Şəhəvat ərəbdilli Azərbaycan poeziyasına ictimai motiv gətirmişsə, İsmayıl ibn Yəsar onu siyasi və ideoloji vuruşmalar meydanına çevirmiş, Mümkan Təbrizi isə sənətin xalq həyatı ilə bağlılığı ideyasını meydana atmışdır. Həmin poeziyanın filosofu isə məhz Sührəvərdi olmuşdur».

Zəncan yaxınlığındakı Sührəvərdi şəhərində anadan olan, Marağada təhsil alan, elmi, biliyi ilə diqqəti cəlb edən, Hələbə gələrkən oranın hakiminin hörmətini qazanan, bilik və bacarığına həsəd aparılan, «cəsarətli fəlsəfəsindən qorxuya düşən «Hələb fəqihləri alimin qətlinə fitva verirlər».

Onun kimi tale sahibi Eyn əl-Quzat dövrünün böyük filosofu, həm də nasiri və şairi olmuşdur. Babası dövrünün tanınmış şairlərindən olmuşdur. Eyn əl-Quzatın Azərbaycanın fəlsəfi, ictimai, siyasi, ədəbi fikir tarixində rolu alimlər tərəfindən yüksək dəyərləndirilir.

Ərəbləşdirmə siyasətindən narazı Yaxın Şərq xalqlarının üsyan və mübarizələri Əməvilər sülaləsini süquta uğratdı və Abbasilər sülaləsi hakimiyyət başına keçdi. Onların hakimiyyətə gəlməsində fars zadəganlığı xüsusi rol oynadığından ərəb dili öz hakim mövqeyini saxlamaq istəsə də, fars dili də xilafət sarayına yol tapdı. IX əsrdən fars dili poeziya dili oldu: dini və elmi əsərlər ərəb dilində yazılsa da, şəriət qanunları ilə əlaqədar məsələlər bu dildə aparılsa da, ərəb dili din dili kimi öz hüququnu saxlasa da, fars dili şeir dili olaraq daha geniş yayıldı və bu dil Orta Asiya, İran və Azərbaycan hökmdarlarının saraylarında rəsmi dövlət dili və ədəbi dil kimi möhkəmlənməyə başladı. Fars dilində şeir yazdırmaq dəb şəkli aldı, xalq kütlələrindən fərqlənmək üçün dillərinə xor baxan feodallar idi. XI əsrdən etibarən fars dili uzun müddət ədəbi dili olduğundan ana dilində yazan sənətkarlar

fars dilində də əsər yazmaq məcburiyyətində qaldılar. Bununla belə bu dövrdə yaranan şifahi xalq ədəbiyyatı qədim atəşpərəstlik ənənələrini mühafizə edir, xalqın şikayətlərini, etirazlarını, baş verən gündəlik tarixi hadisələri, eyni zamanda məişət, adət və ayin məsələlərini bu ədəbiyyatda qoruyub saxlayırdı. Xalq ədəbiyyatı dünyəvi hadisələri tərənnüm edirdi və bu ədəbiyyatı xalqın içərisindən çıxmış sənətkarlar yaşadırdı, bunlar nəsildən-nəslə keçərək ağızlarda dolaşırdı. Hakim dini dairələr bu ədəbiyyatı dinə, şəriətə zidd adlandırıb təqib edirdilər. Belə bir dövrdə Azərbaycan ədəbiyyatının qüdrətli qələm ustadları dilimizin yüksək bədii ifadə vasitələrindən istifadə etməklə, Azərbaycan şeirinin şah əsərlərini həm öz dilində, həm ərəb, həm də fars dilində yaratmağa məcbur oldular. Qətran Təbrizi, Əfzələddin Xaqani, Nizami, hakim feodal ruhani görüşləri təbliğ edən Əbül-Üla Gəncəvi, Fələki, İzzəddin Şirvani, Qivami Mütərrizi, Məhsəti, Mücirəddin Beyləqani kimi şairlər yazıb-yaradırdılar. Xaqaninin yaradıcılığının onun özündən sonra gələn şairlərin yaradıcılığına böyük təsiri olmuş, onun sənətkarlıq şöhrəti bütün Yaxın Şərqdə, Hindistan, İraq, İran, Orta Asiyada yayılmış, Mücirəddin Beyləqani onu öz ustadı sanmış, xarəzmli Rəşidəddin Vətvat, Fərqanəli Əsir Axsiketi kimi şairlər onunla şeirləşməyə çalışsalar da, «Xaqani sənəti öz qüdrət və üstünlüyü ilə həmişə qalib gəlmişdir». Onun «Qəsideyi-şiniyə» əsəri XII əsrdə klassik Şərq poeziyasında elə bir yenilik oldu ki, dünyanın böyük ustadlarını yerindən tərpətdi. Qəsidənin məzmunundan «təsirlənmiş» XIII əsrin böyük hind şairi Əmir Xosrov Dəhləvi «Meratüs-səfa» (saf güzgü) adlı 174 beytlik qəsidəsini, böyük tacik şairi Əbdürrəhman Cami (XIV əsr) «Cilair-ruh» («Ruhun cilası») 130 beytlik qəsidəsini, Füzuli «Ənisül-

qəlb» 138 beytlik əsərini yazır, onun bu qəsidəsinə hamıdan öncə Nizaminin nəzirə yazdığını Əbülqasim Şirazi Əmri Xaqaninin qəsidəsinə nəzirə olaraq yazdığı «Ənvarül-üyun» («Gözlərin işığı») qəsidəsində qeyd edir, o qəsidə bizə gəlib çatmayıb. Xaqani yaradıcılığının özündən sonra gələn sənətkarların yaradıcılığına böyük təsir göstərdiyini sübut edən bu siyahını artırmaq olar. Xaqani kimi böyük dühalara pərəstiş edilir, onun ayrı-ayrı əsərlərinə nəzirə yazılırdı. Azərbaycan klassik şairləri Xaqaniyə dərin hörmət bəsləyirdilər. Zəmanəsindəki ictimai ədalətsizliklərə qarşı cəsarətli çıxışları, böyük sənətkarlıq keyfiyyətləri Xaqanini Azərbaycanın bir çox şairləri üçün müəllim və ustad etmişdir. Nizami Gəncəvi, Mücirəddin Beyləqani, Füzuli öz əsərlərində Xaqaninin sənətkarlıq xüsusiyyətlərindən istifadə ilə onu daha da inkişaf etdirmişdir».

Nizaminin yaradıcılığı ilə orta əsr Azərbaycan ədəbiyyatında və ictimai fikir tarixində yeni bir dövr başlanmışdır. Misilsiz sənətkarlıqla yazılmış əsərləri xalqının ibrətamiz, hikmətamiz, mütərəqqi əxlaqi görüşləri ilə zəngin olub. Dünya ədəbiyyatı tarixində «Xəmsə» adlanan beş böyük əsəri bədii sözün dəyərini bilənlər tərəfindən ölməz əsərlər kimi dəyərləndirilmiş, bu misilsiz bədii qüdrətə malik əsərləri bütün dünyaya yayılaraq hələ sağlığında belə ona dünya şöhrəti qazandırmışdır. XIII əsrdən başlayaraq Nizami motivləri əsasında əsərlər yaranmağa başlayır. Sədi Şirazinin «Bustan», Cəlaləddin Ruminin «Məsnəvi» əsərlərini görürük. Onun «Xəmsə»si əsasında XIII əsrin klassik şairi Əmir Xosrov Dəhləvi, Əlişir Nəvai, Əbdürrəhman Cami «Xəmsə»lər yaratdılar. Yaxın və Orta Şərq xalqlarının ədəbiyyyatına böyük təsir göstərmiş, XVII əsrdən Avropa, Amerika alimləri (fransız şərqşünası dErbelo, Hammer Pur-

qştal, F.Erdman, Eduard Braun, M.Xautsma, R.Levi, Xorn, F.B.Şarmuan, V.Baxer, Y.Rıpka, Y.E. Bertels, Çaykin, Z.Dunayevski, Y.Marr, A.N.Boldıryev, Vəhid Dəstgirdi, Səid Nəfisi və s) dünyanın başqa qitələrinə yayılmış əsərlərin müəllifi Nizaminin qüdrətli bir sənətkar olduğunu qeyd edirdilər. Ana dilində yazılan əsərləri əlimizə gəlib çatmasa da, bu böyük sənətkarın öz dilinə, xalqına sevgisi farsca yaratdığı bu əsərlərin qanında, canındadır. «Leyli və Məcnun» əsərinin yazılmasını istəyən Axsitandan şair əsərin hansı dildə-türk, yoxsa fars dilində yazılmasını soranda hökmdarın ona :

Fars, ərəb dilində vur ona ziynət,
Kamal cövhərinin xəzinəsindən.
Gör kimin sapına inci düzürsən,
Türk dili yaramaz şah nəslimizə.
Əskiklik gətirər türk dili bizə.
Yüksək olmalıdır bizim dilimiz,
Yüksək yaranmışdır bizim nəslimiz

-deyən şahın doğma dilinə «yuxarıdan aşağı» baxmasına dözmür. Axsitanın bu təklifinə bərk əsəbiləşən şair «Şahın halqasının qulağıma taxıldığını gördükdə, qan ürəyimdən beynimə vurdu. Nə bu təklifi rədd etməyə cürətim var idi, nə də xəzinəyə yol tapmaq üçün gözüm...»-deyir və şahın əmrini rədd etmək istəyirdi. Ancaq öz «canından əziz tutduğu» oğlu Məhəmmədin xahişi ilə bu əsəri yazmağa razılıq vermiş olduğu, misralarında dilinə sevgisini, məcburən farsca yazmalı olduğunu göstərən tutarlı faktlar var. Bununla belə, söz, sənət xiridarı, bədii təfəkkür nəsibi olan, bu cəhətdən dünyanı heyrətdə qoyan Azərbaycan bədii şeir təfəkkürü ilə zəngin Nizami hansı dildə yazmasından asılı olmayaraq ədəbiyyatımızın qüdrət və vüsətini dünyaya nümayiş etdirmişdir. Azərbaycan ədəbiyyatı tarixində ilk mənzum romanı («Xosrov və Şirin») ilə öz zəmanəsinin artıq böyük şairi kimi tanınan Nizaminin «misilsiz istedadına, yüksək dühasına, qabaqcıl ideyalarına pərəstiş edənlərin» öz dövründə belə sayı artmışdı. Xaqaninin əlimizə gəlib çatan bir məktubunda Nizamiyə böyük bir sənətkar kimi hörmət bəslədiyi, ona yüksək ehtiram göstərdiyi aydın olur.

XIII-XIV əsrlərdə monqol əsarətində olan Yaxın Şərq və Avropanın bir hissəsi kimi Azərbaycan da ağır dövrünü yaşayırdı, ədəbiyyatımız, mədəniyyətimizin inkişafına ağır zərbələr vurulurdu. Qarətlər, əhalinin qul kimi alınıb-satılması, yad ölkələrə aparılması alim və sənətkarların vətəndən uzaqlarda işləməyə aparılması, xalqın iqtisadi həyatının, maddi durumunun ağırlığı, törədilən qırğınlar, dəhşətlər xalqın bayatılarındadır. Xalq bu zülmlərdən cana doyur, dağlara çəkilir, silahlı dəstələr yaradır, istilaçılara qarşı mübarizə aparırdı. Ağır iqtisadi bir durumunda xalq öz yaradıcılığını davam etdirir, müharibələrdə dağıdılmış ölkənin yeni mədəni abidələrini qururdu. Təbrizdə, Naxçıvanda, Bakıda, Zəngilanda, Marağada böyük məqbərələr tikilirdi. Bu dövrdə astronomiya, tarix, fəlsəfə ilə yanaşı, poetikaya aid əsərləri ilə Yaxın Şərqdə tanınmış Xacə Nəsirəddin Tusi Marağa rəsədxanasının banisi idi. Onun astronomiyaya aid «Zic-Elxani» əsəri Avropada da geniş yayılmışdı. XIII-XVI əsrlərdə Marağa rəsədxanası Yaxın Şərqdə məşhur bir elm mərkəzi idi. Bu dövrdə elmdə, mədəniyyət kimi ədəbiyyatda da müəyyən məzmun dəyişikliyi duyulur. Saray ədəbiyyatı, qəsidə şeiri nisbətən zəifləyir. Monqol istilası feodal hakimiyyətlərini dağıtdığından saray ədəbiyyatı da zəifləmişdi. «Dövrün Fəzlullah Nəimi, Nəsimi, Əhvədi kimi görkəmli şairləri öz yaradıcılıqlarının ideya istiqaməti etibarilə saray ədəbiyyatına, məddahlığa tamamilə yabançı idilər». Bunun-

la belə, Arif Ərdəbili, Seyid Zülfüqar Şirvani kimi saray şeirin ənənələrini davam etdirən şairlər olsa da, onların da dünyagörüşü «ziddiyyətlidir». Z.Şirvani saray mühiti ilə bağlı olub feodalları mədh etməklə yanaşı, istedadlı bir sənətkar kimi dövrün ictimai hadisələrindən də kənar qalmamış, zəmanədən şikayətləri qəzəl və rübailərində çoxdur. Onun bu əsərlərində monqol istilaçılarının ölkədəki özbaşınalığının doğurduğu ümidsizlik var. Arif Ərdəbili yaradıcılığının yaxşı cəhətlərindən biri onun Nizami ənənələrini davam etdirməsi, onu təkrar etmədən, «Xosrov və Şirin» əsərinin təsiri ilə «Fərhadnamə» kimi orijinal bir əsər yaratmasıdır. XIV əsrdə onun «Fərhadnamə»si, Əssar Təbrizinin «Mehr və Müştəri» əsəri, Azərbaycanın ağır həyatı, zülm və ədalətsizliklərin bədii ifadəsi olan Marağalı Əhvədinin «Cami-Cəm» əsəri əvvəlki əsərlərdən fərqlənirdi. Bu əsərlərdə həyat lövhələri, canlı insan surətləri «poeziyanın mistikadan uzaqlaşdığını, onun həyat ilə əlaqələrinin qüvvətləndiyini" göstərirdi.

Yarı fəlsəfi, yarı dini-mistik cərəyan olaraq VII əsrdə Ərəbistanda və Suriyada meydana gələn sufizm («suf» yun parça mənasındadır, sufi ideyalarını daşıyanların geydikləri paltar mənasında işlədilmişdir) dünyagörüşü XIII-XIV əsrlərdə Azərbaycanda da geniş yayılmışdı, Mahmud Şəbüstəri fəlsəfi və elmi fikrin inkişafında öz tərəqqipərvər fikirləri ilə əhəmiyyətli rol oynayan mütəfəkkir və alim kimi dəyərləndirilir.

Monqolların, Teymurləngin işğalları zamanı Azərbaycanın həm sənətkarları, həm mədəniyyəti, həm insanları talan və qırğınlara məruz qaldı. Xalq asanlıqla təslim olmurdu, feodal istismarları, aramsız qətl və qarətlər əhalinin həyatını ağırlaşdırdığı şəraitdə Azərbaycanda hürufilik təriqəti meydana çıxdı. Öz fəlsəfi məzmunu ilə sufizm ilə üzvi surətdə bağlı olan hürufilik təriqətinin banisi Fəzlullah Nəimi saraydan uzaq ömür sürən, xalqla, sənətkarlarla bir olan bir insan olmuş və hürufilik təlimini «Cavidannamə» əsərində şərh etmişdir. Onun bu əsərini dostu və sirdaşı Şeyx Əbülhəsən nəzmə çəkmişdir.

Fəzlullah Nəimi öz əsərlərində ilahi eşqi əsas götürür, «Allahın insanda təcəlli etməsini, insanın müqəddəsləşərək, nəhayət Allaha qovuşmasını, bədəndə olan fəna ünsürlərin məhv olmasını, yalnız ilahi təcəllinin qalmasını irəli sürür». O, kamil insanı müqəddəsləşdirmiş olur, «özünü mal-dövlət əndişəsi ilə məşğul edən zülmkarlara, qaniçən hökmdarlara yaltaqcasına xidmət edən riyakar və fitnəkar şəriət xadimlərinə qarşı qoyur». Buna görə də, hakim feodal-ruhanilər kafir, din düşməni kimi onun ölümünə fitva verdilər. Onun qətlindən sonra bu ideyaların ən böyük təbliğatçısı olan Nəsiminin (XIV əsrin sonu, XV əsrin əvvəli) yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixində «yeni bir mərhələnin başlanğıcı» kimi dəyərləndirilir. Nəsiminin böyük tarixi xidmətləri öz ana dilində yazıb-yaratmasıdır, Azərbaycan ədəbi dilini, şeir dilini Həsənoğlu və Qazi Bürhanəddindən sonra inkişaf etdirməsidir. O, Azərbaycan dilində yaradılmış şeirin böyük ustadlarından biri kimi yüksək qiymətləndirilir.

XIII əsrin ikinci yarısında, XVI əsrin əvəllərində yaşayıb yaratmış İzzəddin Həsənoğlu vaxtilə Azərbaycanda, Rumda, Misirdə şöhrət qazanmışdı, «Divanı» olduğu söylənsə də, əlimizdə dörd qəzəli vardır ki, bunlardan biri farsca, üçü türkcədir.

XIII əsrdən başlayaraq xalq dili əsasında inkişaf etmiş Azərbaycan-türk yazılı ədəbi dili XV əsrdə yüksək səviyyəyə çatır. Bu dövrdə Azərbaycan dilində-doğma ana dilində

yazılan əsərlərin sayı artır. «XIII əsrdən ölkədə ədəbi dilin üçləşməsi müşahidə olunur. Ərəb, fars dilləri ilə yanaşı Azərbaycan (türk) dili də dövlət, sənət, elm dili kimi işlənmək hüququ qazanır» (T. Hacıyev).

İzzəddin Həsənoğlu, Əbdülqadir Marağayi, Şah Qasım Ənvar, Sultan Əhməd kimi şairlərin yaradıcılığı, onların əldə olunan şeirləri Nəsimiyə qədərki yazılı ədəbi dilimizin abidələri kimi tarixi əhəmiyyətlidir. Əbdülqadir Marağayi böyük istedad sahibi kimi həm də incəsənət aləmində məşhur idi. Gözəl səsə malik olan şair yüksək təfəkkür sahibi olub, «musiqi sənətinə hərtərəfli yanaşan musiqi alimi» olub, «maraq dairəsinin böyüklüyü, zehniyyətinin vüsəti, görüş üfüqlərinin genişliyi etibarilə zamanının görkəmli alimi, mümtaz musiqişünası və mahir ustadı sayılır» (Əfrasiyab Bədəlbəyli).

Əbdülqadir Marağayinin şairliyi və xəttatlığı haqqında İran alimi məlumat verir. Onun «Məqasidül-Əlhan» («Təranələrin məqsədləri») və «Cameül-Əlhan» («Təranələr külliyyatı») əsərləri əlyazma nüsxələri əsasında, Təqi Binişin tərtibatı ilə çap edilmişdir. Birinci əsərinin sonuna şairin farsca və türkcə bir sıra şeirləri daxil edilmişdir. Müəllif onları bəstələdiyi musiqi əsərlərinə mətn kimi yazmışdır. Onun «Məqasidül-Əlhan» kitabında «Ey canü cəhan bəhər səfa, bizi unutma» misrası ilə başlanan şeiri yazılı ədəbi dilimizin ilk nümunələrindən biri kimi qiymətləndirilir.

XV əsrdən etibarən Azərbaycan ədəbiyyatı əsasən milli dildə inkişaf etməyə başlayır: «Teymurilərin qovulmasından sonra Cənubi Azərbaycanda təşəkkül edən Ağqoyunlu və Səfəvilər dövlətlərinin Azərbaycan dilinə əhəmiyyət verməsi, xüsusən Səfəvilər dövlətinin bu dildən dövlət dili kimi istifadə etməsi Azərbaycan dilinin ədəbi-bədii dil olaraq sürətlə inkişaf etməsinə şərait yaradır. Hələ XIV əsrdən başlayıb

inkişaf etməkdə olan Azərbaycan ədəbi-bədii dili XV əsrdə möhkəmlənir, XVI əsrdə isə yüksək zirvəyə çatır. Bu əsrdə əsas əsərlərini ana dilimizdə yaradan dünya şöhrətli sənətkarlar yetişir.

Bu dövrdə fars dilində də şeir yazan şairlər vardı. Katibi, fars dilində «Həqiqi» təxəllüsü ilə şeirlər yazan Şahcahan, fars dilində «Xəmsə» yazan Marağalı Əşrəf kimi şairlərlə yanaşı, bu dövrdə ölkədə baş verən siyasi hadisələrlə razılaşmadıqlarından vətəni tərk edənlər də vardı; Türkiyəyə köçüb yaradıcılıqlarını davam etdirən Hamidi, Haşimi (XV əsr), Süruri, Şahi, Həbibi, Xəlili, Matəmi, Arifi, Qasimi, Gülşəni, Bidari, Pənahi, Hafiz, Xəlifə, Xəzani, Həsiri, Mir Qədri vardı; Əlişir Nəvainin başçılıq etdiyi ədəbi məktəbə maraq göstərib Herata köçən, orada hörmət qazanandan sonra vətənə dönən, Nəvai dilinə yaxın bədii dili olan əsərlər yaradan Azərbaycan şairləri (Xülqi, Allahi, Ziyayi) vardı. Qəzvində doğulub Təbrizdə yaşayıb-yaratmış, öz ana dilində yazdığı şeirləri ilə müasirlərindən fərqlənən Kişvəri, dostu Həbibi, «dünyəvi meyilləri, canlı, sadə dili ilə xalq kütlələri içərisində geniş yayılmış və Azərbaycan şeirinin sonrakı inkişafında müəyyən müsbət rol oynamış», «aşıq şeiri üslubunda, sadə, canlı xalq dili ilə yazılan və saz havalarına uyğun gələn» qoşmalar müəllifi, Azərbaycan dilində məsnəvi tərzində yazılan ilk əsərlərdən olan «Dəhnamə» poemasının müəllifi, üç dildə şeir yazmaq qabiliyyətinə malik «Divan», didaktik mənzumələr, lirik qoşmalar, «Nəsihətnamə» məsnəvisi, «Dəhnamə»si olan Şah İsmayıl Xətayi vardı; Nizami, Xaqani ədəbi ənənələri ilə qidalanmış, o ənənələri davam və inkişaf etdirərək Azərbaycan ədəbiyyatına yeni məzmun, yeni bədii keyfiyyətlər gətirmiş, üç dildə ölməz əsərlər yaratmış, dünya ədəbiyyatına, xüsusilə,

Yaxın Şərqin ədəbi həyatına, Türkiyə, İran, Orta Asiya xalqlarının ədəbiyyatına dərin təsir göstərmiş, Azərbaycan poeziyasında lirikanın ən gözəl nümunələrini yaradan və onu yüksək zirvəyə qaldıran, qəzəl ustadı, Azərbaycan bədii dilinin banisi, dilinin sadəliyini, təbiiliyini göz bəbəyi kimi qoruyan, dili məcaz və təşbehlərlə, istiarə və mübaliğələrlə, əlvan epitet və surətlərlə zəngin dili olan, Azərbaycan poeziyasını vəzn cəhətdən zənginləşdirən, vəznlərə yeni ruh, yeni ahəng gətirən» bir sənətkar kimi dəyərləndirilən Füzuli kimi qüdrətli sənətkarlar vardı və onlar təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə tanınmış sənətkarlar olmuşdur. Xüsusilə, əsərlərində dərin elmi, fəlsəfi məzmun olan, mövzu cəhətdən rəngarəng, forma gözəlliyinə malik əsərlər yaradan, əsrlər boyu ədəbi inkişafa təsir göstərən, yalnız Azərbaycanda deyil, bütün Yaxın Şərqdə yetişən şairlər üçün əsl yaradıcılıq məktəbi olan Füzuli vardır.

XVII əsrdə xalq yaradıcılığından-xalqın mübarizəsini, zəhmətkeş kütlələrin istək və arzularını ifadə edən əsərlərdən qüvvət alan yazılı ədəbiyyat təkmilləşir, xalq şeiri təsiri altında yazan yeni tipli şairlər meydana çıxır. Folklor təsirindən yaranan şeir məzmun və şəkli ilə saray şeirindən fərqlənirdi, xalqın, yoxsul təbəqənin istək və arzuları, əməyi, zəhməti ön plana çəkilirdi, xalqın istilaçılara, feodal zülmünə qarşı mübarizəsindən, el gücündən bəhs edilirdi. Xalqın istək və arzularını ifadə edən xalq ədəbiyyatı şəkli xüsusiyyətləri ilə də feodal, ruhani və tacir ruhunu oxşayan ədəbiyyatdan fərqlənirdi. Bu şeir xalq şeiri ilə səsləşirdi. Onun vəzni heca vəzni idi. Bədii ifadələr canlı həyatdan, kənd və şəhər yoxsullarının məişətindən alınırdı, təşbeh və istiarələri ənənəvi qəzəl, qəsidə ifadələrindən fərqli olaraq canlı həyatdan götürülürdü.

Bu dövrdə xalq şeiri tərzində yazan Tufarqanlı Abbas, Sarı Aşıq daha çox məşhur olub, əsərlərində məhəbbətlə yanaşı, daha çox dövrün ictimai-siyasi məsələlərini əks etdirirdilər. XVIII əsrdə şifahi xalq şeiri tərzində yazan şairlərin yaradıcılığı daha geniş, daha əhatəli olub, dövrün ədəbi inkişafına istiqamət verirdi. Xəstə Qasım, Vidadi, Vaqif kimi böyük sənətkarlar bu ədəbi cərəyanı yüksək səviyyəyə qaldırdılar. Xalq ədəbiyyatına olan bu meyil getdikcə qüvvətlənərək şifahi xalq şeirinin bütün xüsusiyyətlərini yazılı ədəbiyyatda əks etdirirdi.

Həm xalq yaradıcılığından, həm də klassik ənənələrdən yararlanmaqla orijinal keyfiyyətlərə malik XVIII əsr Azərbaycan lirikasının yaradıcıları Vaqif, Vidadi, Nişat, Ağa Məsih, Məhcur, Xəstə Qasım kimi sənətkarlardır. Bu dövrün sənətkarlarının əsərlərində «romantik və dünyəvi məhəbbətin tərənnümü, həyatın mənası barədə fəlsəfi düşüncələr feodal dünyasında hökm sürən qeyri-bərabərliyə, ədalətsizliyə etiraz, xeyirxahlıq və nəcibliyə çağırış, konkret hadisə və insanların təsviri... bütün bu motivlər» XVIII əsr lirikasında öz rəngarəng bədii əksini tapmışdır. Həmin lirikada əyani səslənən dünyəvilik və nikbinlik notları orta əsr şeirinə yeni ruh gətirirdi.

Bu dövr sənətkarlarımız həm əruz, həm də heca vəznində əsərlər yazsa da, heca vəzni-Azərbaycan şeirinin ana vəzni daha mühüm mövqe qazanmaqda idi. Onların əsərlərinin dili xalq ifadələri, xalq dili, deyimləri ilə zənginləşirdi, ərəb-fars tərkibli ifadələrdən təmizlənirdi. Alimlər bu dövrün bir əlamətdar cəhəti kimi sənətkarlarının yaradıcılığında «həyat hadisələrinə, insana münasibətdə realistik dünyabaxışın üstün gəlməsi faktı»nı dəyərləndirir və bu «realistik meyil» realist ədəbiyyatın inkişafına yol açmış olur.

XIX əsr Azərbaycan ədəbiyyatı tarixində «ən zəngin, məhsuldar, rəngarəng, maraqlı və eyni zamanda ən ziddiyyətli bir dövr» kimi təhlil edilir. Bu əsrdə Azərbaycan ədəbiyyatında köhnə ədəbi üsulların mövcud olduğu şəraitdə realizm ədəbi yaradıcılıq metodu inkişafa başlayır, dramaturgiya, milli mətbuat, ədəbi tənqid, estetika, bir sıra janr və formalar, ictimai və fəlsəfi fikir sahəsində müəyyənləşmiş və sistemləşmiş materialist və ateist baxışlar meydana çıxır. Abbasqulu ağa Bakıxanov, professor Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, İsmayıl bəy Qutqaşınlı, Mirzə Baxış Nadim, Baba bəy Şakir, Qasım bəy Zakir, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, aşıq şeiri tərzində yazan Seyid Əbülqasım Nəbati kimi simalar yetişir, onlar xalqımızı dramaturgiya və teatrla, milli mətbuatla, inqilabi-demokratik fikirlərlə, azadlıq ideyaları ilə tanış edir, onların yaradıcılığında real, gördükləri hadisələr öz əksini tapır və bu realizm M. F.Axundovun yaradıcılığında kamala çatır: «Öz dövründəki ictimai-mədəni həyatın elə bir sahəsi tapılmaz ki, oraya böyük mübariz yazıçı nəzər salmamış və öz qəti, hərarətli sözünü söyləməmiş olsun. Ədəbiyyat, sənət, fəlsəfə, din, siyasət-bütün bu mühüm sahələrdə M. F. Axundov yorulmadan mübarizə aparmış və döyüşkən bir materialist-ateist kimi köhnə ideyaları alt-üst etməyə çalışmışdır. Bütün ideoloji mübarizəsində Avropanın mütərəqqi, demokratik burjua yazıçılarından və böyük rus maarifçilərindən ruhlanan M.F. Axundovun fikirləri ardıcıl və möhkəmdir. Parlaq istedad, geniş bilik sahibi olan yazıçı toxunduğu hər bir məsələdə dərin məlumat, fikir genişliyi, gözüaçıqlıq və uzaqgörənlik göstərmişdir». Nizami, Füzuli, Nəsimi, Vaqif... Azərbaycan ədəbiyyatında «poeziyanı dünya meydanına çıxardıqları

halda, bədii nəsr və dramaturgiya öz böyük sənətkarını M.F.Axundov simasında qazandı» (M. Arif).

M.F.Axundovun özündən sonra yetişən realist sənətkarların (N.B.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, C.Cabbarlı...) yaradıcılığına böyük təsiri olmuş, böyük sənətkarlarımız M.F.Axundovun yolu ilə getmiş, onun realizmini inkişaf etdirmişlər.

XIX əsrin ikinci yarısında aşıq poeziyası ilə yanaşı, qəzəl şairlərinin sayı getdikcə çoxalır. Qarabağda («Məclisi-üns» və «Məclisi-fəramuşan»), Şamaxıda («Beytüs-səfa»), Bakıda («Məcməüş-şüəra»), Ordubadda («Əncüməni-şüəra»), Lənkəranda («Fövcül-füsəha») şeir məclisləri fəaliyyət göstərir, Seyid Əzim Şirvani, Xurşudbanu Natəvan, Fatma xanım Kəminə, Mirzə Ələsgər Növrəs, Əbdülxalıq Cənnəti, Mirzə İsmayıl Qasir, Bahar Şirvani, Cənubi Azərbaycanda Mirzə Məhəmmədbağır Xalxali və b. yetişir.

Bu dövrdə Axundovdan sonra tanınmış ikinci böyük ictimai xadim Həsən bəy Zərdabi «Əkinçi» (1875-1877) qəzetinin nəşrinə nail olmaqla, milli Azərbaycan mətbuatının bünövrəsini qoydu. Onun səhifələrində şairlərin imzaları da vardı.

Ustad sənətkar Cəlil Məmmədquluzadə milyonlarla xalq kütləsi ilə danışmağın «qaydasını bilən», böyük təsiredici, təşviqedici qüvvəyə malik olan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla hər sahədə olduğu kimi, Azərbaycan ədəbi təfəkküründə də nələrə qadir olduğunu bir daha sübut etmiş oldu. Bu jurnal müsəlman Şərqində, bütün Yaxın və Orta Şərqdə ən qabaqcıl satirik jurnal olub, dövrün mühafizəkar və mürtəce qüvvələrini, ictimai bəlalarını inqilabi-demokratik cəhətdən cəsarətlə tənqid edən bir ədəbi orqan kimi dünyada məşhur idi. «Məktəb», «Dəbistan», «Təkamül», «Hürriyyət», «Rəhbər», «Həyat», «İr-

şad», «İşıq», «Füyuzat», «Şəlalə», «Dirilik», «Qurtuluş» kimi mətbu orqanlarla birlikdə «Molla Nəsrəddin» öz səhifələrində A.Səhhət, M.Ə.Sabir, N.B.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, Ə. Qəmküsar, Ə.Nəzmi, Məhəmməd Hadi, M.S.Ordubadi, R.Əfəndiyev, S.M.Qənizadə kimi ədibləri birləşdirirdi. Bu dövrdə C.Məmmədquluzadə ədəbiyyatımızın inkişafında misilsiz xidmətləri olan böyük şəxsiyyətdir. «Azərbaycan ədəbiyyatında qədim dövr humanizminin mahiyyət və xarakterini öyrənmək üçün Nizami poeziyası, orta əsrlər şeiri və məhəbbət lirikasının ictimai və intim keyfiyyətlərini bilmək üçün Füzuli yaradıcılığı, XX əsr romantizminin mürəkkəb xüsusiyyətlərini araşdırmaq üçün Hüseyn Cavid dramaturgiyası nə qədər zəngin, əlvan material verirsə, yeni ədəbiyyatın ən qüdrətli məktəbi olan realizm üslubunun şəkil və məzmun xüsusiyyətlərini dürüst müəyyən etmək üçün də Mirzə Cəlilin əsərləri əvəzsiz və tükənməz mənbədir» (Mir Cəlal).

Təxminən 25 il ömür sürən «Molla Nəsrəddin» jurnalı ədibin ictimai fəaliyyətində, Azərbaycan mətbuatı tarixində əsas yer tutur. Onun səhnə əsərləri təkcə Azərbaycanda deyil, bütün müsəlman şəhərlərində tamaşaya qoyulub. Mirzə Cəlil elə bir sənətkardır ki, Azərbaycan dili başa düşülən ölkələrdə sağlığında belə məşhur idi. Yaratdığı jurnal «Azərbaycan xalqının oyanması, mənəvi cəhətdən silahlanması və inqilab yoluna düşməsində, əsrlərcə feodal zülm və zülmətində yaşayan kütlələrin əsarətindən, «ölülər» aləmindən qurtarmasında, tərəqqi və səadət üçün çarpışmasında, öz müqəddəratı, azadlığı və hüququ uğrunda mübarizəsində, maarif və mədəniyyətin təbliğ edilməsi və yayılması işində, elm işığı ilə işıqlanmasında» elə böyük rol oynadı ki, ikinci belə bir xalq jurnalını o dövrdə göstərmək çətindir...

Onun məsləkdaşları M.Ə.Sabir, N.Nərimanov, Ə. Haqverdiyev, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Qəmküsar, M.Ə. Möcüz, S.S.Axundov, M.Hadi, A.Səhhət, Y.V.Çəmənzəminli, S.M.Qənizadə, A.Şaiq məktəbinin davamçılarının gətirdiyi güclü dalğa möhtəşəm bir ədəbiyyatın gələcəyindən xəbər verirdi. Elə bir ədəbiyyatın ki, bəşər tarixində öz sıralarında bu qədər ədəbiyyat adamını birləşdirməmişdi, bu qədər sistemli şəkildə millətinə, xalqına xidmət işini öz çiyinlərinə götürməmişdi. O elə bir dalğa idi ki, özüylə Azərbaycan ədəbiyyatına daha bir qüdrətli nəfəs gətirdi, 70 il ərzində minlərlə ziyalısı, onlarla ədəbiyyatçısı repressiyalara məruz qaldı, dissident həyatı yaşadı. Amma əqidəsini, amalını yeni həyat uğrunda silahlanmış ideyalarını həyat yolunun devizi etməkdən çəkinmədi. Mirzə Cəlil kimi sənətkarların yaratdığı abı-hava ilə köklənən yeni ədəbiyyatın nümayəndələri yetişirdi, 70 illik ədəbi prosesi kommunist ideologiyası idarə etmiş olsa da, senzura hökm sürsə də, bu məmləkətdə azad düşünmək, azad yaşamaq, yaratmaq hissini tamamilə boğa bilmədi.

1929-37-ci illərdə əhməd cavadlar, müşfiqlər, cavidlər... məhv edildi, almaslar, ceyhunlar, məmmədəminlər... mühacirət həyatı yaşamalı oldu, amma onların əqidəsinə, amalına hörmət və ehtiram göstərənlər onların fəaliyyətini təqdir edən əsərlər yazdılar. Onların közərtmək istədikləri kiçik tonqalları 60-70-ci illərdə ədəbiyyata gələnlər elə alovlandırdılar ki, senzura, kommunist ideologiyası qarşısında aciz qaldı. İlk bünövrəsini Cəlil Məmmədquluzadələrin qoyduğu mübarizə bundan sonra sönmədi və bu gün də alovlanmaqdadır, şöləsi bütün aləmə yayılmaqdadır...

Bu möhtəşəm, sistemli, bütövlükdə xalq və dövlət tərəfindən xüsusi qayğıyla da əhatə olunmuş ədəbiyyatın yetişməsində özündən əvvəlki nəsillərin, ulların, onların

yaratdığı şifahi xalq ədəbiyyatının rolu böyük olduğu yada salındı; ərəb-fars dilində yazıb-yaratmağa məcbur olmuş, təzkirələrin, tarixi əsərlərin yaddaşında qalan simalar xatırlandı; yol üstündə yerləşdiyindən, zaman-zaman çapılıb, talanmış Azərbaycan torpağının yetişdirdiyi nadir dühalara nəzər salındı; onları bir-iki cümlə ilə yada salmaqda, min illərin ədəbi-bədii lövhələrini bir lent kimi göz önündən «ötürməkdə» məqsədimiz budur ki, deyək ki, «ot kökü üstündə bitər».

Hər əsrdə, hər nəsildə yetişən bir və ya bir-iki böyük sənətkarların yaradıcılığı haqqında məlumatımız vardır, bu şeir, sənət dühaları barədə, Azərbaycan söz sənətinin tarixiliyi, qədimliyi haqqında məhz XX əsrin ilk iki onilliyindən üzü bəri və indi daha geniş məlumatlar əldə edə bilirik. Bu dövrdə Azərbaycan xalqının bu günü, sabahı, uzaq keçmişi, kökü, soyu, tarixi, millət kimi formalaşması üçün keçib gəldiyi yollar, mərhələlər araşdırılmış, tədqiq edilmiş, min illərin açılmamış səhifələri açılmış, böyük sənətkarlarımızın bədii irsi toplanmış, nəşr edilmiş, tədqiq edilmiş, haqqında cild-cild tədqiqat işləri aparılmış, neçə-neçə yazıçımız, şairimiz içərisində alimlər-folklorşünaslar, ədəbiyyatşünaslar, qorqudşünaslar, nizamişünaslar, füzulişünaslar, nəsimişünaslar, dilşünaslar... yetişmiş, onların yaradıcılığı, keçdiyi həyat yolu neçə-neçə romanların, povestlərin, dram əsərlərinin mövzusu olmuşdur.

Xalq bir əsr ərzində on iki minillik tarixini, mədəniyyətini, ədəbi prosesini üzə çıxarmaq üçün yüksək biliyə, məlumata sahib olmuşdur. Maarifin, elmin inkişafı insanı, xüsusilə ədəbi prosesin nümayəndələrini xalqına, tarixinə, keçmişinə, eləcə də bu gününə və sabahına diqqət kəsilməyə «məcbur edilmişdi». Bununla xalqımız, millətimiz öz keçmişi, qədim keçmişi, şanlı keçmişi, zəngin elmi, bədii, fəlsəfi,

ədəbi keçmişi ilə dünya dövlətləri, sivil dövlətlər arasında yeri olduğunu sübut etməyə nail olmuşdur. Bu böyük işi bacarmaq, yerinə yetirmək üçün getdiyi yolda başı müsibətlər də çəkdi...

XX əsrin əvvəllərinə qədər hər hansı bir Azərbaycan sənətkarı haqqında nadir kitablarda, cünglərdə bir-iki cümlə ilə məlumat verilmişdirsə, XX əsrin 30-cu illərindən üzü bəri Azərbaycan ədəbiyyatı tarixi qədim dövrdən üzü bəri mərhələlərlə araşdırılmış, tədqiq edilmişdir. Onların dövrünü, həyatını, ədəbi irsini, dilini öyrənmiş ədəbiyyatşünaslar ordusu yaranmış, Azərbaycan Elmlər Akademiyasında Nizami adına Ədəbiyyat İnstitutu, Dilçilik İnstitutu yaranmış, onların irsi ədəbi-tarixi, etnik mövqedən araşdırılmış, bu böyük irsin tədqiqi nəticəsində cild-cild ədəbi-tənqid, ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən sanballı kitablar yazılmışdır, yazılır.

Bu kitabda 80 illik Azərbaycan ədəbiyyatının keçdiyi tarixi mərhələlər, yaranan əsərlər, Azərbaycan dövlətinin bir dövlət kimi formalaşmasında, qurulmasında ədəbiyyatın fəaliyyəti, verdiyi qurbanlar, əqidə dönməzliyi, ədəbiyyat sahəsində qazandıqlarımız, itirdiklərimiz, itirdiklərimizin içində möhkəmlənən Azərbaycan Respublikası, onun ədəbiyyatı, bu ədəbiyyatın inkişafında az da olsa belə rolu olan qələm sahiblərimiz haqqında, ədəbiyyatımızın inkişafı haqqında qısa, konkret məlumat verməyə çalışmışıq.

XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ƏDƏBİYYAT
(1918-1920)

Y.V.Çəmənzəminli yazır: «Hankı yolda qənaət olunsa, nəşriyyat üçün qənaət olmasın. Çünki bugünkü basılan kitablar kəsilən pullardan qiymətlidir. Bir çox pullar var ki, sərf olunur və əməli nəticələr vermir. Nəşriyyata xərclənənlər millət üçün böyük sərmayə vücudə gətirər. Bütün gələcəyimiz mədəni binalarımız, tərəqqi məhsullarımız bu sərmayə üzərinə binalanacaqdır».

XX əsr Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni həyatında elə bir əsrdir ki, onda daha böyük oyanış var, bu əsr milli azadlıq hisslərinin güclənməsi, dövlətçilik, azadlıq və tərəqqipərvər hisslərlə zəngindir. Bu milli azadlığın şirinliyini XX əsrin ilk onilliyində daddıq, sonra itirdik və əsrin son iki onilliyində yenidən əldə etdik. Qanımız, canımız bahasına əldə etdik...

Azərbaycanda Xalq Cümhuriyyətinin qurulması ölkəmizdə ictimai həyatda olduğu kimi, mədəni, ədəbi həyatda böyük bir canlanmaya təkan verdi. Xalqımızın milli azadlıq, dövlət müstəqilliyi uğrunda mübarizə apardığı və arzularına nail olduğu və qurduğu Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddətdə milli ideya mübarizəsində, o cümlədən, romantizm və realizm yaradıcılıq axınında birləşir. Və bu dövrdə fəaliyyətə başlayan parlament Azərbaycan dilini dövlət dili elan edir. XX əsrin əvvəlindən Azərbaycan ədib və şairləri müəyyən məktəblər, üslublar üzrə qruplaşmaqda idi. «Həmin birliklər ədəbiyyatın get-gedə daha çox ideoloji məzmun kəsb etdiyini, zamanın siyasi konyukturasına tabe olduğunu göstərirdi. Bu və ya digər siyasi-ideoloji mərama mənsubluq ilk yaradıcılıq təşkilatlarının, yaxud cəmiyyətlərinin fəaliyyəti ilə yanaşı, adında da özünü göstərirdi. «Yaşıl qələm», «Qırmızı qələm» və s. ədəbiyyatın bu cür «rənglənməsi» sənət baxımından o qədər təbii olmasa da, bədii təfəkkürün cəmiyyət həyatına yaxınlığından irəli gəlirdi. «Yaşıl» rəng türkçülüyün, müsəlmançılığın, «qırmızı» isə inqilabi müasirliyin ifadəsi idi.

XX əsrin ilk iki onilliyində Azərbaycan çox mürəkkəb, ictimai-siyasi cəhətdən ən ağır dövrünü yaşadı. Rusiya-Yaponiya müharibəsi, rus imperiyasının məğlubiyyəti, ictimai - siyasi prosesləri Azərbaycanda güclənən milli-azadlıq hərəkatı ədəbi prosesə də öz təsirini göstərdi. Ölkədə maarifçilik hərəkatının güclənməsi, maarifçi ədəbiyyatın inkişafına kömək etdi. Milli problemlərin həlli yollarını axtarmaqda ziyalılar bir araya gəlməkdə idilər. «Şərqi-rus», «Hümbət», «Molla Nəsrəddin», «Füyuzat», «İrşad», «İqbal», «Tərəqqi», «Təkamül», «Yoldaş», «Məktəb», «Dirilik» kimi mətbu orqanlar fəaliyyətə başladı, ana dilimizdə yaranan bu mətbu orqanlar xalqımızın ədəbiyyatının inkişafına kömək etmiş olurdu. Bunlarda ictimai-siyasi və milli-mənəvi problemlər öz əksini tapırdı.

Bu dövrdə realizm və romantizm ədəbi məktəbləri dövrün ədəbi proseslərini özündə əks etdirirdi. «Molla Nəsrəddin», «Füyuzat» jurnalları ətrafında toplanan maarifçi zi-

yalılar realist və romantizmin ideya-estetik düşüncələrini ifadə edirdilər.

Cəlil Məmmədquluzadənin nəşrə hazırladığı «Molla Nəsrəddin» jurnalı realist şair və yazıçıları öz ətrafında birləşdirir, mollanəsrəddinçilər kimi tanınan ədiblər ədəbi dili xalqın danışıq dilinin bazası əsasında yaratmağı düşünür. Əli bəy Hüseynzadənin başçılıq etdiyi «Füyuzat» jurnalı romantiklərin ideya və düşüncələrini müdafiə edir və füyuzatçılar kimi tanınan ziyalılar «ortaq türk dilinin formalaşdırılması ideyası»nı əsas bilir və «bu məsələdə Türkiyə türkcəsini əsas götürməyi» düşünürdülər.

Rusiyada 1905-ci il inqilabı məğlubiyyətə uğradı və bu azadfikirli, maarifçi Azərbaycan ziyalılarının işini ağırlaşdırırdı. 1908-1910-cu illərdə Məmməd Əmin Rəsulzadə, Əli bəy Nüsrətzadə, Əhməd bəy Ağaoğlu kimi ziyalılar Azərbaycanı tərk etməyə məcbur olmuş, təqib olunduqlarından İranda (Məmməd Əmin Rəsulzadə), Türkiyədə (Əli bəy Nüsrətzadə, Əhməd bəy Ağaoğlu) fəaliyyətlərini davam etdirməli olmuşlar.

1905-1901-ci illərdə Səttarxan hərəkatı bütün İrana, eləcə də Şərqə, məşrutə hərəkatının qələbəsi ictimai-siyasi hərəkata, eləcə də ədəbi prosesə ciddi təsir göstərir. Bu hadisələri Məmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə silsilə məqalələrlə dərindən izləyir. «Məşrutə hərəkatını yaxından izləyən M.Ə. Rəsulzadə yazdığı silsilə məqalələrlə milli mətbuatda ictimai tendensiyanın, vətəndaşlıq amalının güclənməsinə təkan vermişdir. Əli bəy Hüseynzadə isə «Siyasəti-fürusət» adlı fəlsəfi-publisistik traktatında şərti-simvolik üslubun imkanlarından bəhrələnərək diqqəti Azərbaycanın Güneyində cərəyan edən siyasi hadisələrə yönəldir, hər bir millət üçün azadlığın qaçılmaz olduğu zərurətini vurğulayırdı (V. Sultanlı).

«Səfa», «Niğam», «Nəşri-maarif», «Cəmiyyəti-xeyriyyə» kimi ədəbi mədəni mühitə təsir edən cəmiyyətlərin rolu, xüsusilə qeyd edilməlidir. Onların köməyi ilə keçirilən yubiley tədbirləri, nəşr olunan kitablar, səhnələşdirilən dram əsərləri ədəbi prosesin inkişafına göstərilən dəyərli köməklər idi. M.Ə.Rəsulzadə «Açıq söz» qəzetinin nəşrinə başlamaqla Azərbaycan mətbuatı tarixində yeni bir yol açdı. Bu qəzet «milli ideologiyanın formalaşdırılmasında, səhifələrində dərc olunan yazılar Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında «böyük təkan» kimi dəyərləndirilir.

Ölkədə (1918-1920) baş verən ictimai-siyasi hadisələr, inqilabi hərəkatın geniş vüsət alması, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın həyatında misilsiz rol oynadı. Qısa bir müddət yaşasa da, Azərbaycanın ilk müstəqil dövləti kimi böyük çətinliklərlə qurulan bir dövlət idi və bu yolda Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, ziyalılarının xüsusi fəallığı nəzərə alınmalıdır. 1918-1920-ci illər «millətimizin həyatında xüsusi bir mərhələ oldu. Onun gələcək inkişafına ciddi təsir göstərdi. Bu dövrdə xalqımız yüz ildən artıq sürən köləlik zəncirindən xilas oldu, müstəqil həyata qədəm qoydu, yalnız ictimai-siyasi sferalarda deyil, ədəbi-mədəni sahələrdə də köklü dəyişikliklərin gerçəkləşdirilməsi üçün zəmin yarandı. Türk dili dövlət dili elan olundu, milli mətbuatın nəşr imkanları genişləndi, ictimai ideallarla zəngin bir ədəbiyyat yaranmağa başladı».

Azərbaycanda 1919–cu ildə Bakı Dövlət Universiteti fəaliyyətə başladı. Bununla belə, «Azərbaycan Dövlət Teatrı», «Teatr xadimləri cəmiyyəti», «Müsəlman Mühərrir və Ədiblər Cəmiyyəti», «Yaşıl qələm» ədəbi birliyi yarandı, fəaliyyətə başladı. Milli mətbuat bu illərdə öz inkişafında uğurlar qazandı: Belə ki, bu dövrdə «Azərbaycan» (rusca,

türkcə), «Azərbaycan hökumətinin əxbarı», «İstiqlal», «Al bayraq», «Bəsirət», «İttihad», «Gələcək», «Şeypur», «Doğru yol», «El», «Əfkari-nəfisə», «Xalq sözü», «Hürriyyət», «Zəhmət səsası», «Məşəl» və s. qəzet və dərgilər çap olunmuşdur. 1919-cu ildə Azərbaycanda 92 adda qəzet və dərgi nəşr olunmuşdu ki, bunlardan qırx ikisi türkcə, qırx dördü rusca, altısı isə digər dillərdə yayımlandığı məlumdur.

1918-1920-ci illərdə Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad, Ümgülsüm Sadıqzadə, Əli Yusif poeziya sahəsində uğurlar qazandılar. Məhəmməd Hadi «Əsgərlərimizə, könüllülərimizə», «Məfxureyi-aliyəmiz», «Şühədayi-hürriyyətimizin əhvalinə ithaf» kimi şeirlərində əldə edilən milli azadlığın qorunub saxlanması uğrunda millətini mübarizəyə səsləyir. «Şühədayi-hürriyyətimizin əhvalinə ithaf» şeirlərində 1918-ci ildə erməni daşnaqlarının törətdikləri qanlı cinayətlər, erməni-müsəlman faciəsi, tökülən günahsız qanlardan sarsılmış şair bu yolda şəhid olanlarımıza ağlayır:

Sizin məzarınız iştə qülubi-millətdir,
Bu sözlərim ürəyimdən gələn həqiqətdir.
Sizi unutmayacaq şanlı millətim əsla,
Əmin olun buna, ey ziynəti-cahani fəna.
Sizinlə buldu bu millət həyati -püriqbal.
Sizinlə buldu bu millət şərəfli istiqlal.

«Əsgərlərimizə, könüllülərimizə» şeirində müstəqillik uğrunda mübarizədə igid vətən oğullarına üz tutur, onları vətənpərvər olmağa, torpağı, milləti, dövləti qorumağa çağırır:

Bil ki, vətənin sevgili bir madəri-candır,
Vermə bunu düşmən əlinə, rəhm et, amandır,
Hürriyyətimiz hürri-füsunsazi- cahandır.
Bax bir, nə gözəldir, necə candır, nə cavandır,

Biz verməriz əldən bunu, düşmənlərə qandır!

M. Hadinin bu sətirlərində M.Ə.Rəsulzadənin «Ah, Azərbaycan! Biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün... nə qədər töhmətlərə məruz qaldıq...» kəlmələrində yaşayan bir ruh, amal, ideya var. M. Hadi bolşeviklərin hakimiyyətə gəlməsinə, Xalq Cümhuriyyətinin süqutuna dözməyərək Gəncə üsyanında yaxından iştirak etmiş, bu amal, məqsədə xidmət etmiş, bu yolda həlak olmuşdur.

Türkçülük, turançı ideyaları ilə köklənmiş Abdulla Şaiqin yaradıcılığında Xalq Cümhuriyyətinə bəslənən hörmət və ehtiram əsasdır. «Yeni Ay doğarkən», «Marş», «Vətənin yanıq səsi», «Arazdan Turana» şeirlərində vətəndaş şairin qəlbinin səsi duyulur. Bu şeirlərdə azad, müstəqil dövlətə, Xalq Cümhuriyyətinə sevgi yaşayır. Milləti, xalqı haqsızlığı yıxmağa, «Turanda gün doğunca» zülmətlə çarpışmağa, irəlidə mübarizə yolu ilə qazanılacaq qələbələrə, orada doğacaq Günəşə-yeni dövlətə, dövlətin qurduğu gözəl, xoşbəxt, firavan, cənnət kimi həyata səsləmə var.

Haydı, yola çıxalım, haqsızlığı yıxalım,
Turanda gün doğunca, çarpışalım.
Arş iləri, ilərdə cənnət kimi çəmən var.
Günəş orda hər doğar, səadət orda parlar.

Türk firqəsi Müsavat,
Açalım quş tək qanad.
Sarılıb hürriyyətə,
Bulalım şanlı həyat.

Milli ədəbiyyat tarixində «istiqlal şairi» kimi tanınan Əhməd Cavadın «Türk ordusuna», «Şəhidlərə», «Azərbaycan bayrağına», «Elin bayrağı», «İngilis», «İstanbul», «Ba-

kı deyir ki» və s. şeirlərində ölkədə milli azadlıq uğrunda gedən mübarizələr tərənnüm olunur, bu yolda canını qurban verənlərə hörmət və ehtiram göstərilir. Bu şeirlərdə «Bir kərə yüksələn» və bir daha enməyən, onu endirməyə çalışanlara qarşı xalqın apardığı mübarizə əsasdır, bu mübarizədə «müvəqqəti məğlubiyyət» olsa da, beşiyində boğulmuş müstəqil Azərbaycan dövlətinin bayrağının 70 ildən sonra yenə başımız üstündə dalğalanması həqiqəti yaşayır, xalqın mübarizə dolu həyatında qanı, canı bahasına əldə etdiyi müstəqilliyə yenidən qovuşması, milli duyğular güclüdür, bu gün də şairin «Azərbaycan bayrağına» şeirində milli qürur, bayrağımızın milli dövlətçiliyimizin atributlarından biri kimi öyülməsi, hər zaman özünü qoruyub saxlayan müasirlik hissi-qan bahasına əldə edilmiş dövlətə, onun bayrağına hörmət və ehtiramdan yoğrulmuş misralar yaddaşlara həkk olunub:

Türküstan yelləri öpüb alnını,
Söylüyor dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən,
Ərmağan yollasın yara, bayrağım!

Əhməd Cavad yaradıcılığında ölkəni yenidən işğal edən rus imperiyasına nifrət hissi var. «Göygöl» şeirinin ideya məzmununda azadlıq göynərtisi, müstəqillik arzusu, milli istiqlal yanğısı ilə yanaşı üsyankar bir qəlbin səsi duyulur.

Türkçülük, turançılıq ideyalarına gənc yaşlarından böyük səmimi rəğbəti olan Cəfər Cabbarlı milli hərəkatın genişləndiyi ilk illərdə «Trablis müharibəsi» və «Ədirnə fəthi» pyeslərini yazdı və bu əsərlər Türkiyədə baş verən inqilabi-tarixi hadisələri, türk xalqının öz suverenliyi, ərazisini qoruyub saxlamaq uğrunda mübarizəsini əks etdirirdi.

Milli hökumətin yarandığı illərdə parlamentdə stenoqraf işləyən C. Cabbarlı dramaturgiya, eləcə də lirik yaradıcılığını davam etdirir, milli dövlətçiliyi, vətənin, torpağın gözəlliyini tərənnüm edir. İlk şeirlərində-«Azərbaycan bayrağına», «Sevdiyim», «Sevimli ölkəm», «Salam» və s. şeirlərində Xalq Cümhuriyyətinin şirin dadını duyan, bu dövlətin məhəbbətini qəlbində yaşadan vətənpərvər qəlbin səsi duyulur. Bayrağımız, türkçülük, turançılıq məfkurəsi ön planda verilir. Şairin «Azərbaycan bayrağına» şeiri şairin «azadlıq və istiqlal» sevgisini orijinal formada əks etdirən əsərlərdən» biri kimi yüksək qiymətləndirilir.

«Azərbaycan bayrağına» şeirində üçrəngli Azərbaycan bayrağının rəmzlərini bədii şəkildə verir:

Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya İslamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı!
Səkkiz uclu şu yıldız da səkkiz hərfi od yurdu,
Əsarətin gecəsindən fürsət bulmuş quş kibi
Səhərlərə uçmuşdur.

«Sevdiyim» şeirində də şair üçrəngli bayrağa, vətənə müqəddəs hisslərlə yanaşır, bu bayraqda türkçülük, turançılıq ideyalarını ümumiləşdirir.

Ölkədə milli hökumətin süqut etməsiylə, Xalq Cümhuriyyətinin qurucuları, ədəbiyyata gələn gənc istedadlı qələm sahibləri mənəvi cəhətdən yaralanmışdılar. Bu zərbənin ağrılarını çəkirdilər və C.Cabbarlı da onlardan biri idi. «Aydın», «Oqtay Eloğlu» kimi əsərlərində milli kədərin motivləri vardır. Qorxmaz, mübariz C. Cabbarlı 1920-ci il aprelin 27-də hakimiyyətin süqutu haqqında qərar qəbul edilən axşamı bu milli hərəkatın bir çox cavan fəalları ilə Məmməd Əmin Rəsulzadənin evinə yığışırlar. «Gənc müsavatçılar»

hərəkatı yaranır. Bu gizli təşkilatın sədri Mirzə Bala Məmmədzadə, baş katib Cəfər Cabbarlı oldu. Təşkilatın bir sıra yığıncaqları Cəfər Cabbarlının bağında keçirilir, bolşevizmə qarşı mübarizə aparan özəklər yaradılır, «İstiqlal» qəzeti dərc edilirdi. 1923-cü ildə təşkilatın üzvləri, o cümlədən C. Cabbarlı da bolşevik hökuməti tərəfindən həbs edilsə də, avqustun ortalarında müxtəlif şərtlər əsasında azadlığa buraxıldı. Onun yaradıcılığını ətraflı tədqiq edən alimlər bu qənaətdədirlər ki, «Cəfər Cabbarlı heç bir zaman bolşevik ideyalarını qəbul etməmiş və sovet quruculuğunun kor-koranə təbliğatçısı olmamışdır. Onun bu rejimlə birbaşa həmfikirliyini göstərən heç bir yazısı yoxdur. Lakin müəyyən mənada aydın və oqtayların prototipi olan C. Cabbarlının bir xüsusiyyəti vardı: doğma xalqa bağlı olan ədib üçün idealsız, qayəsiz, Azərbaycanın sabahına inamsız yaşamaq qeyri-mümkün idi. Belə qayələri Cəfər Cabbarlı qismən 20-ci illərdə bolşeviklərin xüsusi ardıcıllıqla həyata keçirdikləri mədəni inqilabda tapdı. Bu inqilab Azərbaycan xalqını Avropa mədəniyyəti yoluna yönəldirdi və məhz bu cəhət Cəfər Cabbarlının xalqımızın gələcəyi barədə arzularına uyğun idi. Ona görə də bu prosesdə iştirak edən C. Cabbarlını mənəvi iflasdan və əzablardan xilas etdi».

Xalq Cümhuriyyətinin köməyini, dövlətin qayğısını üzərində hiss edən, onun dəstəyi ilə xaricdə təhsil alan, elmə, biliyə yiyələnən Əli Yusifin «Azərbaycanlıya», «Bayraq», «İdeal», «Bir türk yanqısı deyir ki», «Qarabağ xainlərinə» və s. şeirlərində xalq, millət, vətən sevgisi əsasdır. «Əli Yusifin şeirlərini səciyyələndirən başlıca keyfiyyət onların canlı hiss və təəssüratlardan qaynaqlanması yüksək mübarizlik əhval-ruhiyyəsinin məhsulu olmasıdır. Bu cəhət bir tərəfdən şairin fitri poetik keyfiyyətlərinin göstəricisi kimi özünü büruzə verirsə, qarşı tərəfdən onun yazılarının Cümhuriyyət idealları ilə bağlılığından mayalanır» (Müasir Azərbaycan ədəbiyyatı. I cild. Bakı. Bakı Universiteti nəşriyyatı. 2007).

Repressiya qurbanı olmuş, həbsxanalara salınmış Umgülsüm Sadıqzadənin «Əsgər anasına», «Çəkil, dəf ol», «Bir mayıs günündə», «Yolunu bəklərdim» şeirlərində azadlığını, müstəqilliyini əldə etmiş Azərbaycan xalqına, onun yenicə qurduğu azad, müstəqil, suveren dövlətinə məhəbbət, Vətənin sabahı üçün narahatlıq, xalqın çətin anda köməyinə çatan, onu düşmən caynağından qurtarmağa gələn Türk ordusunun arxa, dayaq olmasından ürəyində doğan qürur hissi, dili bir, qanı bir Azərbaycan xalqının, türklərinin hiss və duyğuları, bu tarixi həqiqətlərin xalqın ruhunda, yaddaşında buraxdığı dərin izlər yaşayır. Onun şeirlərində eyni zamanda ölkədə Xalq Cümhuriyyətinin süquta uğraması, başımıza gətirilən müsibətlər, tarixi ədalətsizliklər öz əksini tapmışdır.

Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Cavid, Əli Şövqü, Davud Ağamirzadə və başqa sənətkarlarımız Xalq Cümhuriyyətinin yaşadığı dövrün ümumi mənzərəsini poeziyada verdiyi kimi, Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Seyid Hüseyn, Tağı Şahbazi kimi tanınmış ədiblər də öz nəsr yaradıcılıqlarında bunu əks etdirirdilər.

Cəlil Məmmədquluzadə hekayələrində qadın azadlığı («Konsulun arvadı» «Xanın təsbehi», «Qəssab») problemlərinə toxunur. «Zırrama» hekayəsində mənfi əxlaqi keyfiyyətlər tənqid olunur. Ə.Haqverdiyevin «Mirzə Səfər», Seyid Hüseynin «Həzin bir xatirə», «İsmailiyə» hekayələri diqqəti cəlb edir. «İsmailliyə» hekayəsində ədəbiyyatşünaslar Seyid Hüseynin «bu tarixçənin istiqlal və azadlıq hərəkatı ilə bağlı məqamlarına diqqət yetirildiyini, əslində İsmailliyənin sima-

sında yazıçının bütün ruhu və qəlbi ilə bağlı olduğu doğma Azərbaycanın obrazını yaratdığını bildirirlər.

Abdulla Şaiqin «Əsrimizin qəhrəmanları» romanının bir hissəsini Cümhuriyyət dövründə qələmə aldığı, bu əsrdə birinci dünya müharibəsi, çar Rusiyasının tənəzzülü, Oktyabr inqilabı dövründə yeni nəsli düşündürən və narahat edən problemlərin diqqət mərkəzinə çəkildiyi qeyd edilir.

Ağababa Yusifzadənin «Sınan qanad» romanında xalqın, millətin qayğılarını bir vətəndaş kimi irəli çəkmək məsələləri, vətənin azad və abad yaşaması, qurulması ideyaları verilir.

Bu dövrdə Cəfər Cabbarlının «Ədirnə fəthi», «Trablis müharibəsi», yaxud «Ulduz», «Aydın», Hüseyn Cavidin «İblis», Cəlil Məmmədquluzadənin «Anamın kitabı», «Kamança» əsərləri Cümhuriyyət dövrünün dramaturji əsərləri kimi bədii cəhətdən yüksək qiymətləndirilir. Cəfər Cabbarlının dram əsərlərində Türkiyə mövzusunun daha qabarıq şəkildə verildiyi və bu cəhətdən kamil əsərlər kimi səciyyələndirildiyi məlumdur.

Tədqiqatçılar Hüseyn Cavidin «İblis» faciəsinin «bu illərdə cərəyan edən hadisələrin ümumi ruhundan və mahiyyətindən qaynaqlan»dığını bildirir: «Dramaturq I Dünya savaşının ağır siyasi böhranının və erməni-daşnak birləşmələrinin fitvası ilə törədilmiş Mart faciəsinin onun şüurunda və dünyagörüşündə yaratdığı güclü təəssüratın təsiri ilə belə bir əsərin yaradılmasını» vacib hesab etmişdir.

Dramaturqun «İblis» faciəsinə ziddiyyətli münasibət olsa da, Abdulla Şaiq bu əsəri tənqid edənlərə qarşı çıxır: «Cavidin «İblis» faciəsini ideoloji cəhətdən tənqid edənlərə onun nə kimi təsir altında yazıldığını xatırlatmaq üçün şairin keçdiyi müdhiş bir fəlakəti yazmaq məcburiyyətindəyəm.

Cavid Bakıda Nikolayevski küçəsində yerləşən «Təbriz» otelində yaşayırdı. 1918-ci ilin mart hadisəsindən sonra yazıçı və münəqqid Hüseyn Sadiq ilə bərabər bizə gəlmişdi. Cavidin bət-bənizi ağarmışdı. O, son dərəcə nəşəsiz və mütəəssir görünürdü. Əhval sordum. Hüseyn Sadiq Cavidin əsir düşdüyünü və ölümdən qurtulduğunu söylədi... Cavid Azərbaycan səhnəsinin şah əsərlərindən olan «İblis» faciəsini bu acı təsirlər altında yazmışdı».

Milli birlik, mənəvi bütövlük ideyaları üzərində qurulan dövlətin tərəfdarı olan Cəlil Məmmədquluzadənin «Anamın kitabı» pyesinin ədəbi tənqiddə dərin təhlili verilmişdir: «Böyük mütəffəkkirin fikrincə, birliyi və bütövlüyü olmayan millətin iqtisadi, siyasi, mənəvi güc, qüdrət sahibi olması, tarix səhnəsində uzun müddət duruş gətirməsi mümkün deyildir. Dramaturq pyesdə bir ananın övladları olan Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahidin timsalında köləlik və əsarətin millətin xarakterində qoymuş olduğu acı nişanələrə diqqəti yönəldə bilmişdir. Eyni zamanda, müəllif millətin ruhuna hopdurulmuş yabançı xislətləri diqqət mərkəzinə çəkməklə kifayətlənməmiş, bu bəlalardan xilas olmağın yollarını göstərmişdir» (V.Sultanlı).

Azərbaycan ədəbiyyatı tənqidi və ədəbiyyatşünaslığı Cümhuriyyət dövründə özünəməxsus inkişaf yolu keçib. «Bu özünəməxsusluq, hər şeydən öncə, ədəbi irsin millinəzəri fikir müstəvisində təhlil və tədqiqinin aktuallıq kəsb etməsi, həmçinin ədəbiyyatşünaslığı məşğul edən problemlərin daha operativ şəkildə diqqət mərkəzinə çəkilməsi ilə şərtlənməkdədir. Belə ki, Cümhuriyyət dövründə bir tərəfdən klassik ədəbi irsin tədqiqi istiqamətində mühüm addımlar atılmış, digər tərəfdən çağdaş ədəbi proses yetərincə dəyərləndirilmiş, həmçinin ədəbiyyatın nəzəri-estetik prob-

lemlərinin araşdırılması ilə bağlı müəyyən işlər görülmüşdür» (V.Sultanlı).

Məmməd Əmin Rəsulzadə milli azadlıq yolunda əldə edilən müvəffəqiyyətlərin qazanılmasında bədii ədəbiyyatın rolunu belə dəyərləndirir: «Azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur» və «Qurtuluş günü» məqaləsində yazır: «Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər, millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz».

Cümhuriyyət dövründə Seyid Hüseyn «Yaşıl qələm» ədəbi-elmi cəmiyyət yaradır. Bu cəmiyyət Məmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Seyid Hüseyn, Nəcəf bəy Vəzirov, Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Əhməd Cavad, Cəfər Cabbarlı, Salman Mümtaz, Əli Yusif və digər ziyalıları, sənətkarları özündə birləşdirirdi. «Cəmiyyətin məqsədi Azərbaycan xalqının fikrən yüksəlməsinə çalışmaq və Azərbaycan ədəbiyyatında müşahidə edilməkdə olan yeniliyi qüvvətləndirmək, onu türklüyə və sadələşməyə sövq etmək» idi. Onlar müxtəlif yığıncaqlar keçirir və bu yığıncaqlarda qələm sahiblərinin yaradıcılığı müzakirə edilir, əsərlərin nəşri (məsələn, Sabirin «Hop Hopnamə»sinin nəşri) məsələsi müzakirə edilir, ədəbiyyatımızın tarixinin öyrənilməsi, araşdırılması məsələləri ilə yanaşı ədəbi tənqidin inkişafına da diqqət göstərirdi.

Yusif Vəzir Çəmənzəminli bu dövr ədəbiyyatşünaslığına dəyərli əsərlər vermişdir. «Azərbaycan ədəbiyyatına bir nəzər» monoqrafik tədqiqat əsəri 1919-cu ildə İstanbulda nəşr edilmiş öz elmi-nəzəri əhəmiyyəti ilə seçilir. Firidun Köçərli Tiflisdə «Azərbaycan teatrının ədəbiyyatı» əsərini rus dilində nəşr etdirir.

F. Köçərli elə bir dövrdə fəaliyyətə başlamışdır ki, həmin dövrdə Rusiyada ictimai-siyasi ziddiyyətlər kəskinləşir. Azərbaycanda milli şüur getdikcə qüvvətlənirdi. Azərbaycanda dramaturgiya, nəsr, nəzm, realizm üslubu ilə inkişaf edir, ədəbiyyat ideyaca zənginləşir, qəzet və jurnallar dilimizdə nəşr edilir. Azərbaycan ədəbiyyatı tarixinin sistemli şəkildə öyrənilməyə meyil artırdı. Firidun Köçərli silsilə məqalələrini, «Azərbaycan türklərinin ədəbiyyatı» əsərini, «Azərbaycan ədəbiyyatı» əsərlərini yazır. Onun ən böyük xidməti «çox əsrlik Azərbaycan ədəbiyyatı irsini toplayıb, elmi prinsip və ardıcıllıqla öyrənərək öz tədqiqatının nəticələrini «Azərbaycan ədəbiyyatı» əsərində xalqın istifadəsinə verməsi»dir.

Yusif Vəzir Çəmənzəminli tədqiqatlarında Nəsimi, Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Qasım Bəy Zakir, Mirzə Ələkbər Sabir və başqa şairlər, sənətkarlar haqqında, onların yaradıcılığı haqqında nəzəri fikirlərini söyləmişdir, Mirzə Fətəli Axundov irsinə xüsusilə yüksək qiymət verilmişdir: «Milliyyət hissi birinci dəfə olaraq bu ədibdə oyanmışdır və intibahın dəlili olan kritisizm də Mirzə Fətəlinin əsərlərilə başlayır».

Yusif Vəzir Çəmənzəminli «Milli-mədəni işlərimiz» silsilə məqalələrində kitab nəşrinin vacibliyini qeyd edir. O yazır: «Hankı yolda qənaət olunsa, nəşriyyat üçün qənaət olmasın. Çünki bugünkü basılan kitablar kəsilən pullardan qiymətlidir. Bir çox pullar var ki, sərf olunur və əməli nəticələr vermir. Nəşriyyata xərclənənlər millət üçün böyük sərmayə vücudə gətirər. Bütün gələcəyimiz mədəni binalarımız, tərəqqi məhsullarımız bu sərmayə üzərinə binalanacaqdır».

Firudin Köçərlinin Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı tədqiqatlarını yüksək dəyərləndirir: «Ədəbiyyatımızı

müntəzəm bir şəklə salmaq və ümumə tanıtmaq əhəmiyyətli, həm də çox əhəmiyyətli məsələlərdəndir. Bu yolda yigirmi ildən bəri çalışmasilə və ədəbiyyatımızı nizama salmasilə məşhur Firidun bəy Köçərlidir. Firidun bəy ən müqtədir, ən sevimli ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaq ilə bütün keçmişimizi diriltdi...».

Tədqiqatçılarımız Cümhuriyyət dövrünün araşdırıcılarından Adilxan Ziyadxanın «Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat» (1919) əsərinin «milli ədəbiyyat tarixinin öyrənilməsi baxımından» dəyərli bilirlər. A.Ziyadxan Çəmənzəminlidən fərqli olaraq azərbaycanlı müəlliflərin, ərəb və fars dillərində yazıb-yaradan ədiblərin irsini milli ədəbiyyatımızın ayrılmaz tərkib hissəsi kimi tədqiqata cəlb edir: «tədqiqatda ayrı-ayrı klassiklərin yaradıcılığının bağlı olduqları ədəbi-kulturoloji və ictimai-siyasi mühit kontekstində təhlilə cəlb olunması bütövlükdə milli ədəbiyyatın regional çalarlarının üzə çıxarılmasına imkan vermişdir» (V.Sultanlı).

Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli və b. Azərbaycan ədəbiyyatını, mədəniyyətini təbliğ etmək məqsədilə bir sıra məqalələr, kitablar Avropada çap etdirmişlər. Bu dövrdə Abdulla Şaiq, Cəfər Cabbarlı, Abbas Səhhət yaradıcılığı ilə bağlı müxtəlif məqalələr yazılmış, bu məqalələrdə «ədəbi-estetik fikrin milli məfkurəyə üstünlük» verdiyi, «bədii əsərləri bu yöndə dəyərləndirmək meyli» diqqəti çəkir.

1920-1940-ci İLLƏRDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

XX əsrin 20-ci illərində poeziya xüsusilə inkişafda idi. Lirikada köhnə motivli, Sabiranə, məzmun etibarilə mücərrəd şeirlər də yaranırdı. Bir cəhət daha önəmdə idi ki, lirik şeirlərdə xəlqilik, həyatilik daha güclü özünü göstərməyə başlamışdı, realist və romantik meyillər bir-birinə yaxınlaşırdı. Onlarla romantizm ədəbi üslubunda əsərlər yazan H.Cavid kimi sənətkarlar «Azər» dastanını, H.Sanılı «Aran köçü», «Zülmün sonu», «Namus davası» kimi əsərlər yazırdı ki, bunlar ədəbi prosesdə böyük hadisələr idi, gənc qələm sahibləri inqilabi ideyalara sədaqətlə yanaşı, vətənə, xalqa bağlılıq hisslərini də geniş şəkildə yaratdıqları əsərdə əsas götürürdülər. Ölkədə qurulan fəhlə-kəndli hökuməti ədəbi prosesə də təsirini göstərməyə başladı. Xalqın müstəqilliyinin, dövlətimizin suverenliyinin, ölkədə qurulan Xalq Cümhuriyyətinin qələbə müjdəli arzularını, istiqlalını tərənnüm edən şairlərlə yanaşı, xalqının inkişafını, maariflənməsini, ölkədə gedən quruculuq işlərinə, yaxşılığa, inkişafa, tərəqqiyə doğru meyli görən şairlər bu işdə sadə xalq kütlələrinin böyük rolunu görüb dövrün nəbzini tutmağı-xalqının, vətənin səadəti uğrunda yazıb-yaratmağı «şeirin manifesti» elan etdi. Səməd Vurğunun bu misraları o manifestin ilk sətirləri idi:

Kimindir sabahdan axşama qədər,
Yağışda, yağmurda çalışan əllər.
Kimindir gecələr yuxusuz qalan,
Səhvlər buraxan, töhmətlər alan,
Fəqət hər ağrıya köksünü gərən,

İşıqlı bir günə yollar göstərən,
Günəşin altında, suyun içində
Əkində, tarlada, suda, biçində,
Dərisi çatlayan, gönü qaralan.
Torpağın bağrını təpiklə yaran.
Tərlan səhərlərin laçın övladı,
Şeirə yaraşmazmı onların adı?

Səməd Vurğunun bu fikirləri aktuallığı ilə yeni yaradıcılığa gələn qələm sahibləri üçün bir deviz oldu. Hüseyn Cavid kimi sənətkarın «Azər» dastanı yaratması bu aktual məsələlərin dərkinin nəticəsi kimi tədqiqatçılar tərəfindən qəbul edilir, «Azər» dastanında Böyük Azərbaycan xalqının həyatının əvvəlinin

Hər günəşə vardım, ləkəli gördüm,
Hər vicdana girdim, kölgəli gördüm.
Parlaq imanları şübhəli gördüm,
Məgərsə hər cilvə bir xülya imiş...

-görən şair sonrasını isə belə təsəvvür edir:

....Hər günəşə vardım, çiçəklər güldü,
Sövdalı bülbüllər salama gəldi.
Hər bəzmə uğradım, meylər töküldü,
Qədəhlər öpüşüb xurama gəldi.

Bu təzadlı bəndlərdəki məzmun, fikir, hətta ruh ayrılığı açıq hiss olunur. Şair burada böyük bir xalqın kədər və sevincini poetik bir düstura sığışdıra bilmişdir. «Həmin misralar yeniləşmənin fəal dəyişdirici rolunu, onun günəşə, işığa, həyata, yaşamağa, yaratmağa çağıran səsini eşidən, duyan bir şairin qələmindən çıxmışdır» (C. Abdullayev).

Bu dövrdə ədəbiyyatda görkəmli şair, şeirlərində milli koloriti, dil sadəliyi, təbiət təsvirlərindəki ustalığı ilə seçilən Hacı Kərim Sanılının yaradıcılığının mövzu dairəsinin «genişliyi», «müxtəlif bədii səviyyəli şeirləri», «bir-birindən

fərqlənən poemaları», haqqında az da olsa B.Çobanzadə «Azərbaycan ədəbiyyatının yeni dövrü» əsərində danışmış, onun poeziyasının ideya və poetik qaynaqları haqqında fikirlərini bildirmiş, «şairin lirik şeirlərinin oxucuda gözəl və təmiz hisslər oyatdığını, onlarda xalq ruhunun canlı, təbii və sadə dildə ifadə olunduğunu, xüsusilə aşıq poeziyasından səmərəli istifadə etdiyini» söyləmişdir. A.Musaxanlı, Əli Nazim, H.Zeynallı onun yaradıcılığına diqqət göstərmişlər. Azərbaycan sovet tarixi poemasını ilk dəfə Hacı Kərim Sanılı yazıb. Onun «Namus davası», «Zülmün sonu», «Novruz və Gülarə», «Qurub qaçaqları» poemalarını məharətlə qurulmuş süjetləri, xarakter aləmləri, bitkin tabloları ilə işlədiyi qeyd edilir: «Onun poemalarının əsas problemləri xalqın qəhrəman keçmişi, inqilab tarixi və yeni dövrün sosial, iqtisadi həyatının geniş, əhatəli mənzərəsi ilə yaxından bağlıdır». «Aran köçü» adlanan ilk poeması da təbiət lirikasına aid gözəlliklərlə, poetik ifadələrlə zəngindir: «Aran köçü» təbii gözəlliyin tərənnümü, təsviri, elat həyatının daha çox zahiri dəbdəbəsi, hay-küyü, romantik örtüyü barədə şairin heyranlıqla oxuduğu müxtəlif nəğmələrin, çəkdiyi bədii lövhələrin müəyyən ideya məhvərində hərəkət edən təravətli çiçəklərdən tutulmuş gül dəstəsini xatırladır. Əlbəttə, onu da deməliyik ki, şair təbiət qarşısında sanki heyran qalır, əfsunlanmış, sehrlənmiş kimi baxır» (C. Abdullayev).

Bununla belə, əsərdə bu gözəlliyin «insanla təmasda olduğunu» unutmaq, konkret insan surəti yaratmaması, ədəbi təcrübənin azlığı tənqidçilərin nəzərindən qaçmır. Bununla belə, səmimi, emosional, düşündürücü köçəri həyatının bədii təsvirini Əli Nazim kimi tənqidçilər dəyərləndirir: «...Ədəbiyyatımızda xalqın saf, doğru, məsum, həssas və

aşiq qəlbi çırpınır. Xalqın, avam camaatın, bilxassə kəndlilərin ruhu qeyri-təbiilikdən uzaqdır. Onların bütün ruhları, mühitləri kimi təbii və safdır. Məsələn, Sanılının «Axşam», «Sabah», «Bəzək» şeirləri («Aran köçü»nün ayrı-ayrı parçalarıdır) el ədəbiyyatının ən təbii bir ədəbiyyat olduğunu sübut etməzmi?»

İnqilabi mövzuya həsr etdiyi «Zülmün sonu», köhnə, istismarçı, dünyaya nifrət, «müasir cəmiyyətə hüsn-rəğbət» ruhunda yazılmış «Turut qaçaqları», yığcamlığı, lakonikliyi, bitkinliyi ilə seçilən «Novruz və Gülarə» və s. poemaları dövrün ədəbi tənqidinin diqqətindədir, lakin onun yaradıcılığı geniş şəkildə yalnız 1956-cı ildən sonra tədqiq edilməyə başlandı.

Bu sırada Əhməd Cavadın da adı layiqli yer tutur. O, yurduna, vətəninə, xalqına bağlı sənətkar idi. Sadə zəhmətkeş, əliqabarlı insanların, mənəvi azadlıqlardan məhrum, haqları tapdanan qadınların xoşbəxt, azad gələcəyini arzulayan («At bu çadranı», «Qurban olduğum», «Sənsiz», «Gəlin», «Səsli qız», «O qıza», «Leyla») şeirlərində qadın qəlbinin incəliklərini duymaq, bu incəlikləri şirin nəğmələrə çevirmək bacarığını göstərmişdir. Əhməd Cavad xalq şeirindən, aşıq qoşmalarından bəhrələnmiş, onun həm şəkillərindən, həm də ifadə və ibarələrindən yararlanmışdır. Bir sənətkar kimi özünəməxsus orijinal deyim tərzi, ədəbi baxışları vardır. Həzin lirikası, dünya gözəlliklərinə məftunluq, böyük həyat eşqi vardı, «hiss və duyğular şairi» idi.

Ə.Cavad V.Şekspirin «Otello», «Romeo və Cülyetta», F.Rablenin «Qarqantua və Pantaqruel» əsərlərini, eyni zamanda Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» poemasını orijinaldan Azərbaycan dilinə çevirmiş «mahir tərcüməçi», «əsrin səsinə səs verən», «ədəbiyyat tarixində

orijinal və lirik şeirlər» müəllifi kimi tarixdə layiqli yerini tutmuşdur.

Bu dövrdə Azərbaycan ədəbiyyatında bədii nəsr-hekayə, povest, roman yaradıcılığı inkişaf edirdi. M.S. Ordubadi, Y.V.Çəmənzəminli kimi nasirlərlə yanaşı, H.Nəzərli, Ə.Əbülhəsən, S.Rəhimov, M.Hüseyn, Mir Cəlal, Ə.Vəliyev, S.Rəhman kimi gənc nasirlər də yetişməkdə idi. Onlar povest, roman, hekayə janrlarında yaratdıqları əsərlərdə xalqın mənafeyini, ictimai mənafeyi əsas tutur, cəmiyyətdə, ictimai həyatda olduğu kimi, düşüncə və şüurlarda da inkişafı əsas götürürdülər.

Dövrün yeni ədəbiyyatını yaratmaq lazım idi. Bu illərdə yaranan əsərlərin əksəriyyətinin «köhnəliklə yeniliyin mübarizəsi, münaqişəsi» üzərində qurulmasını tənqidçilər «təsadüfi kimi deyil, zəruri və təbii bir hal» kimi qiymətləndirirlər: «Çünki köhnə cəmiyyət daxilində yerləşən yeni münasibətlər saf, təmiz halda, göydəndüşmə şəkildə əmələ gəlmirdi. Onda içərisindən çıxdığı cəmiyyətin bir sıra xüsusiyyətləri bərkimiş, sabitləşmiş şəkildə qalırdı. Bu cəhət özünü xüsusilə geriliyə və fanatizmə, mövhumata və başqa təsisatlara ictimai əzabın, istismarın amansız buxovlarından yenicə azad olmuş adamların münasibətlərində özünü göstərirdi».

S.S.Axundovun «Molla Qasım» hekayəsi bu cəhətdən «ibrətamiz» sayılır və hekayədə əhvalat inqilabdan əvvəl baş versə də, keçmişlə bu günün müqayisəli təsviri əsasında yazılsa da, «müasir səslənirdi».

30-cu illərdə Azərbaycan bədii nəsri «coşqun inkişaf mərhələsinə» qədəm qoydu, ictimai həyatda baş verən dəyişikliklə bağlı olaraq, ədəbiyyatın da qarşısında «yeni tələblər dururdu, «başlıca vəzifələrdən biri ictimai varlığı dolğun və hərtərəfli əks etdirən, zəhmətkeşlərdə quruculuq işinə səda-

qət ruhu aşılayan dərin mündəricəli, «bitkin formalı» əsərlər yaratmaqdı, bunlar həm tanınmış, həm də gənc yazıçıların qarşısına qoyulan vəzifələr idi. Onlar yeni bir ədəbiyyat uğrunda mübarizə aparır, nəsrin geniş imkanlarından yararlanmaqla qələmə aldıqları həyatı geniş, hərtərəfli təsvir edir, insan mənəviyyatı, psixologiyasında gedən yeniliyi, inkişafı bədii boyalarla ifadə edir, yazdıqları əsərlərdə aktual məsələləri ön plana çəkir, «yeni şüurun, ictimai əxlaqın, humanizm ruhunun formalaşmasını, yaşanılan tarixin ayrı-ayrı mərhələlərini bədii sənətin qüdrəti ilə yenidən canlandırırdılar. Tənqidçilər Ə.Haqverdiyevin «Xortdanın cəhənnəm məktubları», Qantəmirin «Kolxozıstan», V.Talıblının «Dirək», Ə.Məmmədxanlının «Burulğan», «Bakı gecələri», M.Hüseynin «Daşqın», «Komissar», İ.Əfəndiyevin «Kənddən məktublar» kimi əsərlərində dövrün bir sıra diqqətəlayiq və səciyyəvi ictimai-mənəvi məsələləri əks etdirildiyini qeyd edirlər.

Bu dövrdə C.Məmmədquluzadə bədii nəsr sahəsində fəaliyyətini davam etdirir. 1920-ci ildə Cənubi Azərbaycana gedən, böyük çətinliklə «Molla Nəsrəddin» jurnalının səkkiz nömrəsini çap etdirən, 1922-ci ildə Bakıya qayıdıb ətrafına yenidən məsləkdaşlarını (Ə.Haqverdiyev, M.S.Ordubadi, Ə.Nəzmi) yığaraq jurnalın nəşrini davam etdirən C.Məmmədquluzadə kiçik hekayələr ustası, qüdrətli dramaturq, publisist kimi fəaliyyətini davam etdirir. Dövrünün böyük ziyalısı, açıqfikirli mütəfəkkiri, ictimai-siyasi ədalətsizliklərə, zülm və əsarətə qarşı kəskin mübarizə aparan, avamlığı, geriliyi tənqid edən, qadın əsarətinə, dini fanatizmə və mövhumata qarşı çıxan, C.Məmmədquluzadə inqilabdan sonra da köhnəlik qalıqlarına qarşı mübarizə aparır.

Yaradıcılığını üç əsas istiqamətdə (dramaturgiya, bədii nəsr, publisistika) inkişaf etdirən C.Məmmədquluzadə

«Anamın kitabı» (1919-20), «Kamança» (1920), «Danabaş kəndinin məktəbi» (1921), «Dəli yığıncağı» (1927) və s. dramatik əsərlərində vətən, xalq birliyi ideyasını irəli sürür: cəmiyyətin bir-birinə zidd qüvvələrinin arasındakı daxili ziddiyyətləri açıb göstərir, ana dilinin saflığı məsələsini qoyur. Hekayələrində qadın azadlığı, realist demokratik sənət və ədəbiyyat uğrunda mübarizə, mövhumata, bürokratizmə qarşı kəskin çıxış, dilin təmizliyini qorumaq, gənc nəslin sağlam ruhda tərbiyəsi məsələləri qoyulur. Çadraya qarşı çıxan, qeyri-qanuni evlənmə qaydalarını gülüş hədəfinə çevirən («Yuxu», «Qoşa balınc» və s.), cəmiyyətdə gedən yeniliklərə mane olan yaramaz, tüfeyli, süründürməçi, şöhrətpərəst, xalqı aldadıb varlanma istəyində olanlara qarşı («Taxıl həkimi», «Qəza müxbiri», «Ucuzluq», «Oğru inək» və s.) çıxan, tərbiyə mövzusunda («Şərq fakültəsi», «Saqqallı uşaq», «Buz» və s.) hekayələrini yazır. Publisist yazıları ilə də xalqına, millətinə, onun inkişafına xidmət edən yazıçı beynəlxalq imperializmə qarşı yazdığı kəskin yazılarında xarici imperialistləri tənqid edir. İngilis irticaçılarının müstəmləkəçilik siyasətini ifşa edir: C.Məmmədquluzadənin inqilabdan əvvəlki bədii nəsrinə xas xəlqiliyi, mənalı gülüşü, lakonizmi, sadəliyi və mübarizliyi bu hekayələrdə də görürük. Ədib cəmiyyət quruculuğuna mane olan yaramazlara, tüfeylilərə, oğrulara, süründürməçilərə, xalqı aldatmaq yolu ilə varlanmaq istəyənlərə, şöhrətpərəstlərə qarşı mübarizə aparır, «Taxıl həkimi», «Qəza müxbiri», «Ucuzluq», «Oğru inək» «İki alma», «Toy» və s. əsərlərində rəhmdillik, qonaqpərvərlik, kimsəsizlərə əl tutmaq kimi hissləri təbliğ edir, Azərbaycanın milli sərvətlərinə göz dikənləri, diş qıcırdanları kəskin felyetonları ilə ifşa edir. Publisist yazılarında («Şərq qadını», «Beynəlxalq qadınlar günü», «Səkkiz mart

qadınlar günü») qadın azadlığı uğrunda mübarizəni də əsas götürən ədibin apardığı mübarizənin səmərəsindən duyduğu iftixar hissi öz ifadəsini tapır. «Proletar şairi», «Şeir bülbülləri», «Sənət və ədəbiyyat», «Şeir nəşəsi», «Mədfən» kimi əsərlərində «C.Məmmədquluzadə sənət və ədəbiyyatın qarşısında həyatilik, ideyalılıq, sadəlik və aydınlıq kimi ciddi, mühüm tələblər qoyur. O, sənət və ədəbiyyatı ictimai məzmundan məhrum etməyə çalışanlara, sənətlə həyat arasında keçilməz sədd qoyanlara, xalqa yabançı, qəliz və anlaşılmaz dildə danışanlara, qafiyəpərdazlara düşməndir. Ədib yeni mövzulara, böyük ideyalara biganəlik göstərən formalist şeirə qarşı qəti etiraz edir, məzmunsuz, bayağı şeirlərdən «nəşə alanlara» üz tutaraq tənqid edir: «İxtiyar məndə olsa, şeir nəşəsini qadağan edərəm. Necə ki, tiryək nəşəsi qadağandır».

Azərbaycan nəsrinin inkişafında Seyid Hüseynin rolu böyükdür. Hekayə janrının inkişaf tarixi onun adıyla bağlanır. 20–ci illərin sonundan 30-cu illərin birinci yarısınadək yazdığı hekayələr öz müasirliyi ilə, bədii tutumu ilə ona şöhrət qazandırmışdır. İnqilabdan əvvəl onu tanıdan tənqidi əsərləri olmuşsa, 1927-ci ildən nəsr-hekayə sahəsindəki uğurları ilə şöhrət qazanmışdır. «Gələcək həyat yollarında», «Bir günəşin tarixi», «Sarıköynək», «Onun oğlu», «Hacı Sultan» (1927), sonralar «Mehriban», «Daxili naziri», «Həzin bir xatirə» hekayələri «İnqilab və mədəniyyət» («Azərbaycan») jurnalının səhifələrində çap etdirilmişdir. 1927-1937-ci illər arasında çağdaş Azərbaycan ədəbiyyatının yaranması tarixində mühüm rol oynamış, həyatiliyi və bədii lirikliyi ilə oxucu kütləsinin rəğbətini qazanan S. Hüseynin nəsrindəki müasirlik idi: «... o zaman biz gənclər «İnqilab və mədəniyyət» jurnalının yeni nömrəsini alan kimi Seyid Hüseynin hekayəsini axtarırdıq. Onun hekayələrində əks

olunan ictimai, əxlaqi və bədii məsələlər oxucular arasında müzakirə və mübahisə yaradırdı, çünki Seyid Hüseyn müasirlərini düşündürən canlı hadisələrə toxunur, həyatdan, xalqın mübarizəsindən yazırdı» (Mirzə İbrahimov).

1920-ci ildən sonra Seyid Hüseyn həm də publisistik, tənqidi yazıları ilə də mətbuatda müntəzəm çıxış edirdi. O, Sabir, Hadi, C.Cabbarlı, Abdulla Şaiq haqqında məqalələr, xatirələr yazmış, Məhəmməd Hadinin Azərbaycan ədəbiyyatı tarixində əhəmiyyətli fəaliyyətini təqdir etmişdir. Sabirin həyatı, mühiti haqqında maraqlı məlumatlar vermişdir. Mehdi Hüseyn Seyid Hüseyn ədəbi fəaliyyətinin ideya-siyasi istiqamətinə belə qiymət verir: «Seyid Hüseyn... proletar hakimiyyəti illərində bitərəf qalmağın qətiyyən müəyyən olmadığını söyləyir. O, «Çarxların hücumu» adlı hekayəsində hücuma keçən inqilabın obrazını verməyə çalışaraq, bu hücum zamanında bitərəf qalan və öz yolunu təyin edə bilməyən adamların ayaq altında əzilməkdən başqa bir yol tapa bilməyəcəklərini anladır».

O, 1920-ci il inqilabından sonra da inqilabdan əvvəlki kimi «demokratik, realist sənət haqqında doğru estetik» görüşlərini tənqidi görüşlərində davam etdirir.

Süleyman Sani Axundov da həm inqilabdan əvvəl, həm də inqilabdan sonra 1939-cu ilə qədər ədəbiyyatımızın inkişafında mühüm rol oynayan simalardandır. 20-ci illərdəki yaradıcılığında dramaturgiya əsas yer tutan S.S.Axundov «mən mövhumat, avamlıq və ətalətlə mübarizə etmək üçün ən yaxşı vasitələrdən biri də teatr olduğunu anlayaraq pyes yazmağa başladım»-deyir. 1921-22-ci illərdə irili-xırdalı on bir pyes, 23-cü ildə isə «Yeni həyat» adlı kiçik pyesini yazmış və sonralar bədii nəsrlə məşğul olmuşdur. «Tənqid-təbliğ» teatrı üçün yazdığı doqquz pyesi aktual möv-

zuları özündə əks etdirən kiçik həcmli əsərlərdir. Ümumiyyətlə, «Tənqid-təbliğ» teatrının repertuarında S.S.Axundovun əsərləri mühüm yer tutmuşdur.

«Laçın yuvası», «Eşq və intiqam», «Şeytan», «Bir eşqin nəticəsi», «Səadət zəhmətdədir», «İki yol», «Qaranlıqdan işığa», «Çərxi-fələk» və s. pyeslərinin bir qisminin müasir həyatın aktual məsələlərindən bəhs etdiyi, bir qisminin isə «mövzusu inqilabdan əvvəlki həyatdan götürülsə də, günün vacib sosial problemlərinə» həsr olunduğu, «ümumilikdə isə bu pyeslərin iyirminci illər ictimai mühitin vacib aktual məsələlərinin təhlil və təbliğinə» xidmət etdiyi bildirilir. 20-ci ildən sonrakı nəsr yaradıcılığında-«Kövkəbi-hürriyyət», «Yuxu», «Qatil uşaq», «Cəhalət qurbanı», «Ümid çırağı», «Təbrik». «Sona xala» kimi hekayələrində müasir həyatın təsviri, qadın azadlığı məsələsi, köhnə həyatla yeni həyatın müqayisəli təhlili, («Namus», «Mister Qreyin köpəyi», «Son ümid» və s.) əsasdır.

XX əsr Azərbaycan ədəbiyyatının realist ənənələrini inqilabdan sonra da inkişaf etdirən, bədii və dramaturgiya sahəsində tanınan, bu sahələri mövzuca zənginləşdirən görkəmli yazıçılarımızdan biri də Əbdürrəhim bəy Haqverdiyevdir. Ə.Haqverdiyev yazdığı pyes, hekayə, məqalə, xatirələrilə yanaşı, rus və dünya ədəbiyyatından tərcümələri ilə də ədəbiyyat tariximizdə mühüm yer tutur. «Ağac kölgəsində», «Köhnə duman», «Qadınlar bayramı», «Yoldaş Koroğlu», «Çox gözəl», «Sağsağan» pyeslərində yeni həyat, xalqın şüurunda yaranan dönüş, «insanların şüurunda əmələ gələn dəyişmə», «yeniləşmə» əsasdır.

1920-37-ci illərdə Tağı Şahbazi Simurqun yaradıcılığında qadın azadlığı məsələsi əsas yer tutur. «Zərifə», «Haqsızlıq dünyası», «Hacı Salman», «Ağanın kənizi», «Məşədi Qədimin evində bədbəxtlik», «Küləkli bir axşam», «Mirzə

Badımcan». «Qayçı», «Aldanmış ümid» hekayələri, «Düşmənlər» (1932) povesti onun sənətkarlığını qiymətləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. H.Nəzərli, B.Talıblı, S.Hüseyn kimi T.Ş.Simurq da hekayələr müəllifi olmuş, 1935-ci il, 1960-cı ildə I cilddən ibarət «Seçilmiş əsərləri» Azərnəşr, 1983-cü ildə I cildlik «Seçilmiş əsərləri» «Yazıçı» nəşriyyatı tərəfindən nəşr olunmuşdur.

1920-ci illərdən bədii yaradıcılıqla məşğul olan «keçmişə qəzəbli və istehzalı münasibət» (M.Hüseyn) bəsləyən Hacıbaba Nəzərli 30-cu illər Azərbaycan nəsrində ilk dəfə olaraq «döyüş lövhələri və döyüşçü surətləri»ni yaratmışdır. «Nişanlı gözləri», «Casusun yardımçısı», «Laçın», «Satqın», «Üç dövrün canlı arxivi», «120-dən ikisi», «Təəssüb», «Əyyaş», «Rəfail», «Qəhrəmanın romanı», «Sarıköynək» və s. kimi dövrün oxucuları arasında tanınan əsərlərin müəllifidir. O, nəsrlə yanaşı, dram əsərləri də yazmışdır. «Yollar», «Sabir» və Süleyman Rüstəmlə birgə «Yanğın» komediyasını yazmış, maraqlı, yaddaqalan obrazlar yaratmışdır. Onun əsərlərində mənfi, yaramaz, qeyri-insani hisslər pislənir, mərdlik, səxavət, qoçaqlıq, başqalarına kömək etmək, vətənpərvərlik kimi yaxşı keyfiyyətlər təbliğ olunur, bədiiləşdirilir.

O, hekayələrlə yanaşı, yazdığı dram əsərlərində də istedadlı sənətkar kimi diqqəti cəlb edir. Onun «Casusun yardımçısı» (1926), «Qaratel» (1927), «Laçın» (1928), «Satqın» (1930), «Ölülər rəqs edərkən» (1930) kitabları nəşr olunmuşdur.

O, ictimai xadim kimi tanınmış, repressiyaya uğramış, 1958-ci il yanvarın 28-də xalq düşməni kimi güllələnmiş, on yeddi ildən sonra bəraət almışdır.

Digər dramaturqlar kimi C.Cabbarlı da dramaturgiyamızın inkişafında böyük əmək sərf etmişdir. 1930-1940-cı illər dramaturgiyada «yüksəliş dövrü» kimi qiymətləndirilir. Cəfər Cabbarlının bu sahədə rolu çox böyükdür və o, «Almaz»da (1929) Azərbaycan kəndində kollektivləşmə illərində gedən sinfi mübarizəni əks etdirir, müxtəlif ictimai təbəqənin nümayəndələrinin dolğun obrazlarını yaradır.

1932-ci ildə hadisələrin inkişafı cəhətdən «Almaz»ın «davamı» olan «Yaşar» pyesini, 1932-1933-cü illərdə «Dönüş» pyesini yazır və 20-30-cu illər arasında Cəfər Cabbarlı Azərbaycan dramaturgiyasının «sonrakı inkişafı üçün bir ədəbi məktəb» yaratmış olur. Hüseyn Cavid də bu illərdə «Dəli Knyaz», «Telli saz», «Səyavuş», «Xəyyam» kimi qiymətli pyeslərini yazır və bu əsərləri ilə yaradıcılığında ictimai motivlərin, mütərəqqi görüşlərin, həyat hadisələrinin qüvvətli verilməsiylə həm oxucu kütləsinin, həm də tənqidçilərin diqqətində olur.

Cəfər Cabbarlının realist ənənələrini davam etdirən gənc dramaturqlar yetişməyə başlayır. M.İbrahimov, S.Vurğun dram əsərlərinə üz tuturlar. M.İbrahimov «Həyat» pyesini yazır. Onun bu əsəri C.Cabbarlıdan sonra «səhnədə yaranan ilk dolğun məzmunlu, sənətkarlıqla yazılmış, müasir varlığı geniş ümumiləşdirmələr yolu ilə əks etdirən əsər» kimi qiymətləndirilir. İkinci dram əsəri «Madrid»də böyük ideallar uğrunda vuruşan qəhrəman ispan xalqının mübarizəsi öz əksini tapmışdır.

1937-ci ildə S.Vurğun «Vaqif» pyesi ilə tarixi dram janrını yeni bir pilləyə qaldırdı və bu, zəngin xarakterlərə malik coşqun ehtiraslar dramı kimi tamaşaçıların rəğbətini qazanan əsər oldu. Mövzusu inqilabi mübarizəyə həsr olunmuş «Xanlar» əsərini yazır.

Çar məmurlarına və yerli mülkədarlara qarşı mübarizəni özündə əks etdirən Süleyman Rüstəmin «Qaçaq Nəbi» pyesində xalq mənafeyini müdafiə edən, xalqın istismardan qurtulması uğrunda mübarizə aparan, şüurlu şəkildə bu xalq hərəkatına başçılıq edən Qaçaq Nəbinin mükəmməl obrazı yaradılmışdır.

Bu illərdə tarixi dramlarla yanaşı, yeni tipli komediyalar da yaranır və bu sahədə Sabit Rəhmanın rolu böyükdür. Axundov, Vəzirov ənənələrini davam etdirən Sabit Rəhman «Toy», «Xoşbəxtlər» (1940) komediyalarını yazır.

30-cu illərdə ədəbi tənqid və ədəbiyyatşünaslıq bədii əsərlərlə elə qüvvətli bir zəncirlə bağlı idi ki, 80 illik ədəbi mühiti nəzərdən keçirdikdə ondan bir addım da uzaq olmadığını görürük. Ədəbi tənqidi, ədəbiyyatşünaslığı inkişaf etdirən də elə yazıçı və şair kimi ədəbi mühitə gələnlər idi. Azərbaycan ədəbi tənqidində yaranan bədii əsərlərin təhlil və tədqiqini verən Salman Mümtaz, Əli Nazim, Cəfər Cəfərov, Mehdi Hüseyn, Məmməd Arif, Həmid Araslı, Əziz Şərif, Cəfər Xəndan, Mir Cəlal, Feyzulla Qasımzadə, Mikayıl Rəfili, Əkbər Ağayev... kimi peşəkar tənqidçilər var. Yazıçılarımızın, şairlərimizin əksəriyyəti (Cəfər Cabbarlı, Abdulla Şaiq, Mehdi Hüseyn, Mir Cəlal, Mikayıl Rzaquluzadə, Səməd Vurğun, Mirzə İbrahimov və s.) bədii yaradıcılıqla yanaşı nəzəriyyə və tənqid məsələləri ilə məşğul olmuşlar.

Ədəbi tənqid bu illərdə lirik əsərlərin təhlil və tədqiqini diqqət mərkəzində saxlayırdı. Lirik əsərlərdə qoyulan mövzular, məsələlər bəzən bir-biri ilə toqquşur, biri o birini tamamlamır, əksinə bir-birinə zidd olurdu.

S. Vurğunun bu nəzəri fikirlərini alimlər qiymətləndirirdi ki, «Bəziləri elə düşünürlər ki, sosializm dövründə guya

insan zövqlərinə, insan hisslərinə ədəbiyyatda yer verilməməlidir. Guya proletar əməkçilərdə dərin hisslər, incə zövqlər, ilhamlar yoxdur. Bu, qətiyyən doğru deyildir.

Biz işçi sinfinin əmək prosesindən aldığı dərin həyəcanları, təmiz duyğuları və onların bu əməyi ilə həyata keçirdikləri böyük ideallardan aldıqları mənəvi zövqləri lirika vasitəsilə ifadə etməliyik...».

Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Osman Sarıvəlli, Əhməd Cəmil yaradıcılığında da lirik qəhrəmanın zəngin mənəvi aləmi, mənəviyyatı, kamilliyi məsələləri əsas planda idi.

Ədəbi tənqid klassik irsə, tarixi mövzuda yazılmış əsərlərə də diqqətlə yanaşırdı. Yaranan tarixi mövzuda əsərlər haqqında tənqidçilər çoxlu sayda resenziya, məqalə, monoqrafiyalar yazır, tarixi hadisələrin müasir həyatla səsləşən, «bu günü yaxşı dərk etməkdə» oxucu və tamaşaçılara yaxından kömək edən ideyalar, qayələr olduğunu üzə çıxarırdılar.

Məmməd Səid Ordubadinin «Dumanlı Təbriz» kimi çoxcildli, çoxsüjetli, monumental əsəri ədəbi tənqidin diqqətini cəlb etdi. Bu roman Azərbaycan bədii nəsrinin böyük müvəffəqiyyəti, Azərbaycan romançılığının qüdrət və qüvvətinin nəticəsi kimi dəyərli idi. Mir Cəlalın «Böyük problemlər romanı» məqaləsini digər tənqidçilər tarixi inqilabi romanın bir sıra nəzəri probleminin həlli sahəsində «özünün konseptual monoqrafik xarakterinə, obyektivliyinə, yüksək tənqidi təfəkkürünün parlaqlığına, aydınlığına görə seçilən» qiymətli məqalə kimi yüksək dəyərləndirir. Bu məqalədə «tənqidçi romanın əsas tarixi və əfsanəvi macəra qaynaqları ilə bərabər, onun süjet, kompozisiya, fabula üslubundakı şairanəlik, obrazlar aləmi, sənətkarlıq problemlərinin və ən başlıcası əsərin ictimai-siyasi, fəlsəfi, həyati məsələlərin, xüsusilə azadlıq uğrunda gedən mübarizələrin faciəli mahiyyətini proffessional tənqidçi mövqeyindən təhlil etmişdir» (C.Abdullayev).

30-cu illərdə yaranan «Şamo», «Dirilən adam», «Daşqın», «Dünya qopur», «Gizli Bakı», «Döyüşən şəhər» kimi tarixi və əfsanəvi mövzuda yazılmış əsərlərdə konkret tarixi-inqilabi mübarizələri müəlliflərin böyük sənətkarlıqla əks etdirdikləri bildirilir. Bəzi cüzi çatışmazlıqlar nəzərə alınmaqla, nöqsanlar göstərilməklə geniş təhlil və tədqiqini tapmışdır. Bu dövrün Salman Mümtaz, R.Axundov, Əli Nazim, H.Zeynallı, M.Hüseyn, M.Arif, M.Cəfər kimi tənqidçiləri yetişmişdi. Bu dövrün tənqidi və ədəbiyyatşünaslığı «sənət sənət üçündür» nəzəriyyəsinə, vulqar sosiologizmə, hər cür yad meyillərə qarşı mübarizələrdə bərkimiş, inkişaf etmiş olduğunu sonrakı dövr alim və tədqiqatçıları dönə-dönə söyləmişlər.

Bu illərdə ədəbiyyatşünaslıqda bir sıra məsələlərin həlli yolları, klassik irsimizin, ədəbiyyat tarixinin müxtəlif problemləri araşdırılır. Nizami, Füzuli, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə və başqalarının həyat və yaradıcılığı əhatəli şəkildə tədqiq edilir, monoqrafiyalarda Azərbaycan ədəbiyyatının tarixi araşdırılır, öyrənilir. Klassik irs dərindən öyrənilirdi, dünya ədəbiyyatına böyük sənət inciləri bəxş etmiş Nizaminin 800 illik yubileyi ərəfəsində ədəbiyyatşünaslığın bütün sahələri bu işlə məşğul olmuş, onun əsərləri farscadan ana dilimizə tərcümə edilmiş, yaşadığı dövr, həyat və yaradıcılığı ilə bağlı məqalələr, monoqrafiyalar yazılmışdı.

Bu illərdə Füzuli yaradıcılığı da geniş şəkildə tədqiq olunmağa başlandı. Mir Cəlal «Füzulinin poetik xüsusiyyətləri» (1940) əsəri ilə ilk dəfə çıxış etdi. F. Qasımzadə, M. Rəfili, filosof H.Hüseynov M.F.Axundov irsinin öyrənilmə-

sində müstəsna xidmətlərə malikdirlər. Onların tədqiqatlarında ilk dəfə Axundovun həyatı, fəaliyyəti, şair, filosof, dramaturq, tərcüməçi, ictimai xadim, maarifçi, islahatçı kimi tədqiq olunmağa başlanıldığı məlumdur. 1938-ci ildə əsərlərinin 3 cildliyi çapdan çıxdı və bu onu daha yaxşı tanımaq üçün oxuculara kömək etdi. Bu illərdə Ə. Nazim «Molla Nəsrəddin» (1936), Mirzə İbrahimov «Böyük demokrat» (1939), Cəfər Xəndan «Sabir» (1940) və s. irihəcmli tədqiqat əsərləri yazdı. Tədqiqatçılar təkcə Azərbaycan ədəbi irsini deyil, eyni zamanda rus, dünya xalqlarının ədəbiyyatı, onun nümayəndələri haqqında Azərbaycan oxucusuna məlumat verir, bu mövzuda əsərlər çap etdirirdilər.

Azərbaycan sovet ədəbiyyatı öz inkişafı dövründə çox çətinliklərə, mənəvi təqiblərə, cismani cəzalara məruz qalmış ədib və şairləri ilə də tarixə düşüb.

20-ci ildə Bolşevik Rusiyası Azərbaycanı işğal etdi. Xalq Cümhuriyyəti süquta uğradı və ölkədə yaranan gərgin ictimai-siyasi vəziyyət ideoloji ovqatı da dəyişməyə başladı. Milli məfkurəyə qarşı amansızlıqlar baş alıb gedir, xalq, ziyalı təbəqəsi kommunist ideologiyası ilə «silahlandırılırdı». Bu çox çətin, ağır illərdə yaradıcılıqları çiçəklənən, müdriklik dövrünü yaşayan C. Məmmədquluzadə, Hüseyn Cavid, Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn bu dövrün ədəbi tələblərinə uyğunlaşa bilmir, müqavimət göstərirdi. Buna görə də inqilabi kommunist quruluşun düşmənləri kimi təqib olunurdular. Azərbaycan ədəbi posesinin belə sürətlə inkişafı düşmənlərimizin xoşuna gəlmirdi. Siyasi-ictimai gərginlik onların xeyrinə idi. «Yaşlı» ədəbiyyata qarşı yeni formalaşmaqda olan gənc ədəbi qələm sahiblərindən istifadə olunmağa başlandı. Ədəbiyyata qarşı kommunist siyasətinin bu üsulundan yararlanmaq üçün 1925-ci ildə Bakıda müxtəlif

ədəbi dərnəkləri öz ətrafında birləşdirən «Qızıl qələmlər» cəmiyyəti yarandı və onun bölgələrdə fəaliyyət göstərən şöbələri ətrafında da oktyabr inqilabının təntənəsini tərənnüm edən, təbliğ edən gənc ədib və şairlər toplaşırdı. «Qızıl qələmlər» cəmiyyətinin fəaliyyətini genişləndirmək üçün Bakıda qurultaylar keçirilirdi. 1928-ci ildə Azərbaycan Yazıçılar Cəmiyyəti yaradıldı. Bütün nəsillərdən olan yazıçıların sovet ideologiyası ətrafında birləşdirilməsi üçün bütün cəhdlər göstərilirdi. Baxmayaraq ki, milli əqidəyə sədaqətli sənətkarlarımız kommunist partiyasının hakim ideologiyasına tabe olmaqdan boyun qaçırır, müxtəlif yollarla da bundan imtina edirdilər. Belə bir dövrdə proletar beynəlmiləlçiliyindən, rus xalqının qüdrətindən, Lenindən yazmayan bu sənətkarlar «sosialist inqilabını gözü götürməyən» sənətkarlar kimi amansız təqibə məruz qalırlar.

1934-cü ildə Azərbaycan Yazıçılar Cəmiyyəti əsasında daha mütəşəkkil yaradıcılıq təşkilatı olan Azərbaycan Yazıçılar İttifaqı yaradıldı. Senzura sosialist prinsiplərini öz yaradıcılıqlarında yetərincə ifadə edə bilmədiyi bəhanəsiylə Azərbaycan yazıçılarının böyük bir hissəsini təqib etməyə başladı və onlar bu repressiyanın qurbanı oldular. Ölkədən gedən, mühacirət həyatı yaşayan, vətəndən didərgin salınan sənətkarlarımız oldu.

Kommunist-sovet ideologiyası milli məfkurəyə qarşı mübarizə aparırdı və tədqiqatçılar bu mübarizənin özünü aşağıdakı sahələrdə də göstərdiyini bildirir:

(A) azərbaycançılığın əsas əlaməti olan türkçülük, tamamilə əsassız olaraq, millətçilik hesab edilir; ədəbiyyatda milli tarixi mövzuların, ideyaların yer tutmasına imkan verilmir; milli mənafe əvəzinə sinfi mənafelərin mübarizəsindən danışılır, vulqar beynəlmiləlçilik təbliğ olunurdu.

B) azərbaycançılığın ikinci əlaməti olan müsəlmançılıq, ümumiyyətlə, hər cür dini dünyagörüş bütünlüklə inkar edilir: onun mənəvi-əxlaqi imkanlarından, bədii yaradıcılıqdakı ənənəvi rolundan imtina olunurdu;

C) azərbaycançılığın üçüncü əlaməti olan müasirlik vulqarlaşdırılaraq sosialist inqilabının, sovet gerçəkliyinin tərənnümü ilə məhdudlaşdırılır; dünyaya geniş pəncərə açılmasına icazə verilmirdi».

Bütün bunlara baxmayaraq azərbaycançılıq- milli məfkurə beşiyində boğula bilmədi. Demək olar ki, bütün şair, yazıçı, dramaturqların əsərlərində millilik qorundu, inkişaf etdirildi, özünü bir xalq kimi təsdiq etdi.

Bu dövrdə xalq ədəbiyyatının toplanması, nəşri, onun yazılı ədəbiyyata təsiri, xalq ruhunun ədəbiyyatda əksi görünməmiş bir şəkildə kütləvi hal almışdı və xalq ədəbiyyatını öz ana dilində yaradırdı. Böyük çətinliklər, ağırlıqlar olsa da, xalqın döyünən ürəyi, vuran əli ədəbiyyatı, milli məfkurəni yaşadırdı.

Keçmiş Sovetlər birliyi tərkibində olan xalqların ədəbiyyatı «məzmunu, ideyaları yalnız sosialist dünyagörüşünə əsaslanan» ədəbiyyat kimi fəaliyyət göstərməyə məhkum edildiyindən Azərbaycan sənətkarlarının da yaradıcılıq imkanları məhdudlaşdırılırdı. Sosializm realizmi metodu qorunub saxlanması tələb olunan ədəbiyyat sosializm quruluşunu, onun müvəffəqiyyətini tərənnüm etməyə məcbur edilirdi və sosializm quruculuğunun hökm sürdüyü Sovetlər birliyinin cəmiyyətini-sosializm cəmiyyətindəki nöqsanları göstərmək, öz fərdi duyğularını ictimai duyğulardan ayırıb, «fərdi yaşantılarını əks etdirilmək istəyindən məhrum idi. Sosializm quruluşunun, kommunist ideologiyasının hökm sürdüyü bir zamanda İkinci Dünya Müharibəsinə sürüklənmiş Sovet ittifaqında müharibə başlandı. Xalq, eləcə də

sovet ədəbiyyatının bir qolu olan Azərbaycan sovet ədəbiyyatı «Hər şey cəbhə üçün, hər şey qələbə üçün» şüarının ədəbiyyata da aid olduğunu gözəl bilirdi. Bütün ideologiyası, yaradıcılıq imkanları ilə bu şüardan irəli gələn tələblərə cavab verən əsərlər yazırdı. Bununla belə faşizmə nifrət edən, fəlakətlər, ölüm, kabus, müharibə, onları törədənlərə nifrət Azərbaycan şair və yazıçılarına da imkan verirdi ki, milli qürur, milli vətənpərvərlik ruhunu əks etdirən, yadelli işğalçılara, imperialist qüvvələrə qarşı kinini, nifrətini ifadə edən qüvvətli əsərlər yaratsın. Əsərlərində qoyduqları problemlərin bədii həlli onları xalqına, millətinə sevdirirdi. Azad, müstəqil yaşamaq, öz müqəddaratlarını özləri həll etmək, hər hansı imperialist ölkəsinin müstəmləkə boyunduruğuna boyun əyməmək istəyini ifadə edirdilər, humanist, azad, müstəqil yaşamaq arzularına çıxanlara qarşı humanizm prinsiplərinə əsaslanaraq kin, nifrət, qəzəb dolu duyğularını ifadə edən, bədii cəhətdən qüvvətli əsərlər yaradırdılar, milli ideologiyalarını da inkişaf etdirmək arzularını həyata keçirməyə çalışırdılar.

40-cı illərin sonlarında Cənubi Azərbaycandan Şimali Azərbaycana mühacirət edən Balaş Azəroğlu, Hökumə Bülluri, Mədinə Gülgün, Əli Tudə, Söhrab Tahir kimi qələm sahibləri Cənubi Azərbaycan, Təbriz həsrətini öz yaradıcılığında qoruyub saxlamaqla o taylı-bu taylı Vahid Azərbaycan ideologiyasını istər-istəməz öz yaradıcılıqlarında cücərdirdilər. Vətənin bütövlüyü ideyaları şimallı-cənublu Azərbaycan ədəbiyyatının inkişafına xidmət edirdi. Cümhuriyyət dövründə vətəni tərk etməyə məcbur edilmiş Türkiyədə, Qərbi Avropada məskunlaşan yazıçılarımız milli demokratik ideyaları ifadə edən, milli ruhu güclü əsərlər yazır, sovet ideologiyasının təsirindən uzaq Azərbaycan ədəbiyyatını

yaradır, inkişaf etdirirdilər. Şimali Azərbaycanda sosialist realizmi metodlarının tüğyan etdiyi bir zamanda bu odun, alovun içində müasir Azərbaycan poeziyası formalaşırdı. Və bu poeziyanı yaradan görkəmli sənətkarlar yetişirdi və onların əsərlərində Azərbaycanın tarixi, təbii gözəllikləri, milli vətənpərvərlik hissləri, azərbaycançılıq hissləri güclənirdi. Cümhuriyyətin alovlu tərənnümçüsü Əhməd Ca-vad vətənpərvər şeirləri ilə təqiblərə məruz qalır. 1937-ci ildə güllələnir. Öz mübariz milli məfkurəsi, alovlu vətənpərvərliyi, gözəl milli duyğuları ilə sosialist ideologiyalarına sığmayan, azad yaşamaq-yaratmaq eşqilə çırpınan, xalqının öz müqəddaratını özü həll etməsini istəyən, heç bir ideoloji çərçivəyə sığmayan Mikayıl Müşfiq sovet rejiminə sığmadığı üçün 1937-ci ildə həbs edildi, 1938-ci ilin əvvəllərində o da güllələndi.

Belə acınacaqlı taleyi olan sənətkarlarımızın biri də Seyid Hüseyn idi.

1937-ci ildə Sovet İttifaqına düşmən kimi həbs edilərək güllələndi. Lakin bu odlar, alovlar içində ömrünü Azərbaycan haqqında epopeya yaratmağa həsr edən Səməd Vurğun yetişirdi.

Nədən şeirimin baş qəhrəmanı,
Gah İrandan gəlir, gah da Turandan?

-deyən qüdrətli qələm sahibi milli duyğuları, azərbaycançılıq müstəvisi üzərində milli dərkin nümunələrini yaradırdı və istər-istəməz sosialist metodu, sosializm ideologiyası içində elə milli məfkurəvi ideyaları yaşatmış olurdu.

İstedadlı qələm sahibləri Ağahüseyn Rəsulzadə, Atababa Musaxanlı, Bəkir Çobanzadə, Böyükağa Talıblı, Vəli Xuluflu, Qantəmir, Əmin Abid, Əlabbas Müznib, Əli Nazim, Əli Razi, Əhməd Cavad, İsmayıl Katib, Yusif Vəzir Çəmənzəminli, Məmmədkazım Ələkbərli, Mikayıl Müşfiq,

Mustafa Quliyev, Ömər Faiq Nemanzadə, Ruhulla Axundov, Salman Mümtaz, Seyid Hüseyn, Seyfulla Şamilov, Soltanməcid Qənizadə, Tağı Şahbazi Simurq, Hacıbaba Nəzərli, Hacıkərim Sanılı, Hənəfi Zeynallı, Hüseyn Cavid repressiya qurbanları olmuşlar.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində mühüm yer tutan, dramaturgiyada romantik ədəbiyyatın qüdrətli nümunələrini yaradan, bütöv bir silsilə təşkil edən ictimai-siyasi, fəlsəfi şeirlər müəllifidir. Yaratdığı şeirləri, nəzm və nəsrlə qurulan «kəskin münaqişə xətləri ilə seçilən dramatik əsərləri, fikir dərinliyi ilə seçilir, «problematikasının siqləti baxımından dünya dramaturgiyasının bir sıra nümayəndələrinin yaradıcılığı ilə müqayisə edilə bilən» sənətkar kimi ədəbiyyatımızda yaşayır: «Hüseyn Cavidi ədəbi yaradıcılığının ilk dövrlərindən başlayaraq son əsərlərinə qədər sinfi bərabərsizliyin doğurduğu faciələr düşündürürdü. O, əzənlə əzilənlər arasındakı ziddiyyətləri erkən yaşlarından duymuş, ədalətsizliyi, istismarı, zorakılığı, bir sözlə insanın həyatını zəhərləyən mənfilikləri pisləmiş, tənqid etmişdir. Həm də bu tənqid və inkar mücərrəd mövqedən, ümumiyyətlə pisliyə, yamanlığa, mənfiliyə qarşı mübarizə mövqeyindən aparılmır, sinfi ziddiyyətlərin konkret hüdudları, tərəfləri açılıb göstərilməklə ictimai məzmun qazanırdı. Ədibin yaradıcılığına diqqətlə yanaşılsa, asanlıqla görmək olar ki, ictimai cizgiləri dərin və mənalı xarakterlər, problemlər, dramatizm Cavid dramaturgiyasını şərtləndirən cəhətlərdir» (Müasir Azərbaycan ədəbiyyatı. I cild. Bakı. Bakı Universiteti nəşriyyatı. 2007).

Yaradıcılığının zirvəsi «Şeyx Sənan», «İblis» faciələrində dini təəssübkeşliyi və müharibəni, onun ancaq fəlakət, ölüm gətirdiyini ifşa etmişdir. «Peyğəmbər» (1926), «Səya-

vuş» (1934), «Şeyda» (1925), «Topal Teymur» (1926), «Şeyx Sənan» (1926), «Uçurum» (1926), ölümündən sonra «Seçilmiş əsərləri» (1958), «Pyeslər» (1963), «Seçilmiş əsərləri» (1968, 1970, 1971), «Dram əsərləri» (1975), «Seçilmiş əsərləri» IV cilddə (1982-1985), «Pyeslər» II cilddə, rusca (1982-1983) nəşr olunub. Yaratdığı əsərlərdə bəşəri hissləri əsas tutan, bütün insanlığı düşündürən problemləri qabardan, Azərbaycan xalqının ictimai fikir tarixində mühüm yer tutan, əsərlərində insanın mənəvi, əxlaqi inkişafı, inqilabi yetkinliyi əsas tutulan, adı XX əsrin böyük filosof şairləri ilə bir sırada çəkilən, «şərq romantizminin mütərəqqi növü»nü yaradan, «soyğunçu müharibələr, böyük inqilabi təbəddülatlar dövründə» yetişən Hüseyn Cavid sovet dövründə birbirinin ardınca «Knyaz», «Səyavuş», «Xəyyam», «Topal Teymur», «Peyğəmbər», «İblisin intiqamı» kimi məşhur dram əsərlərini yazmışdır. Bu əsərlərində «bəşəri düşüncə», əbədi, sabit ideya dünyanın xalqlarını birliyə, dostluğa, qardaşlığa çağıran qüdrətli bir humanizm» olduğunu tənqidçilər, ədəbiyyatşünaslar yetərincə yaradıcılığının bütövlüklə təhlil və tədqiqində üzə çıxarmışlar. Dramaturgiyasında olduğu kimi, lirikasında da lirik növün bütün janr və şəkilləri əhatə olunmuş, əruz, heca, hətta sərbəst şeirlərində «ustad sənətkar ruhu», «pafosu» aydın duyulur. Lirikasında inqilabdan əvvəl bir «məhzunluq, nisgil, şikayət» vardısa, 1922-ci ildə yazdığı «Mənim Tanrım» şeirində «sevgi və gözəllik ən ülvi bir hiss, ən ali din, tanrı» səviyyəsində tərənnüm edilir. Yeni həyatla bağlı, müasir mövzuda şeir yazmamasını «müasir varlıqdan uzaqlaşmasını, Mehdi Hüseyn «onun inqilaba zidd cəbhə tutması ilə deyil» inqilabi mürəkkəbliyin Cavid tərəfindən «çətin anlaşılması» kimi qəbul edir. Onun haqqında monoqrafiya yazan M.Cəfər bunlarla yanaşı, bunu göstərir ki, «bu illərdə Hüseyn Cavid sosialist inqilabının mahiyyətini başa düşməmişdir. Caviddə yeni həyat, bu həyatın böyük mənası və gələcəyi haqqında aydın bir təsəvvür yox idi. Onda proletar inqilabının xilaskar roluna qəti bir inam da yox idi». Tənqidçilər şairi «haqlı» bilirlər. «Azər» poemasını, «Koroğlu» kinossenarisini və bir sıra başqa əsərlərini qələmə almış Hüseyn Cavid repressiya qurbanı olmuş, Sibirə sürgün edilmiş, 1941-ci ildə Sibir sürgünündə vəfat etmiş, Stalinin ölümündən sonra bəraət almış, Heydər Əliyevin rəhbərliyi ilə nəşi 80-ci illərdə Azərbaycana gətirilmiş, doğma yurdu Naxçıvanda torpağa tapşırılmış, xatirə ev muzeyi açılmış, məzarı üstündə möhtəşəm məqbərə ucaldılmışdı, adına küçə, bağ , məktəb var.

Repressiya qurbanlarından biri də görkəmli yazıçımız, tədqiqatçı Y. V. Çəmənzəminlidir. İlk kitabı «Cənnətin qəbzi» 1923-cü ilə çap olunmuşdur. Sonralar yazıçının «Keçmiş səhifələr» (1926), «Məlikməmməd» (1926), «Arvadlarımın halı» (1928), «Studentlər» (1930), «Qazanc yolunda» (1930), «Qaranlıqdan işığa» (1932), «Qızlar bulağı» (1934), «Yaramaz» (1934), «Bir cavanın dəftəri» (1966), «Əsərləri», III cilddə, «Romanlar» (1968), «Qan içində» (1967), «Qayınananın oyunları» (1970), «Ayrılıq axşamı» (1971) və s. kitabları nəşr olunub. 1925-ci ildə Türkiyə və Fransada olduğu illərdə Azərbaycan tarixinin və ədəbiyyatımızın tədqiqi ilə məşğul olmuş, «Azərbaycan ədəbiyyatına bir nəzər» kitabını yazmış, 1920-ci ildə Türkiyədə Azərbaycan dilində, 1922-ci ildə Fransada fransızca çap etdirmişdir. Y.V.Çəmənzəminli bədii yaradıcılığında rəngarəng tiplər yaratmış, «Molla Nəsrəddin» tənqidi realizm yolu ilə getmiş, mütərəqqi fikirli yazıçı olmuş, dövrün demokratik ədəbiyyatı ilə bağlı olmuşdur. Dövrün tənqidçiləri onun əsərlərinin mövzusunu məişətimizdən götürdüyünü, «asan və sadə dil ilə»

yazdığını (F. Köçərli), «qüdrətli hekayələr ustası», romanlar müəllifi olduğunu bildirir, o, xalq dilinin saflığını, sadəliyini yaratdığı əsərlərində qoruyan, «Dil məsələsi», «Bizə ciddi mətbuat çoxdan lazım idi» kimi məqalələrində də Azərbaycan ədəbi dilinin «sadəliyi, təmizliyi və xəlqiliyi uğrunda» mübarizədə yaxından iştirak edən, «sözdən özünəməxsus istifadə üsulu» olan sənətkar kimi dəyərlidir. 30-cu illər yaradıcılığında «konflikt çox halda yeniliyin və köhnəliyin açıq və ya gizli münaqişəsi əsasında qurulur, süjet yeniliyin qələbəsinə və köhnəliyin süqutuna doğru inkişaf etdirilirdi. Ədib hekayələrində istifadə etdiyi bu cür konflikti və onun bədii həlli istiqamətini özündən uydurmurdu. Həyatın, mühitin özündən götürürdü və müvafiq bir fabulada əhəmiyyətli ictimai məzmun ifadə etməyə müvəffəq olurdu. Bu, ədibin 30-cu illər hekayələrini o dövrün qələm sahiblərinin bir çoxunun yaradıcılığında rast gəldiyimiz sxematizmdən xilas edirdi».

Atamız dünyadan «eh»-dedi getdi,
Tez sönən ömrünə «meh»-dedi getdi.
Gül əkdi, vay dərdi cahan bağından,
Tökdüyü yaşlara «şeh»-dedi getdi.

Bu misralar Mikayıl Müşfiqin «Duyğu yarpaqları»ndandır. Bu rübaidir. Müşfiq klassik poeziyanın bu formasından istifadə etməklə «yeni, ictimai məzmunun, vətəndaşlıq hissinin ifadəçisi kimi çıxış etmiş, lirika ilə fəlsəfəni zamanın ruhu ilə qovuşdurmuşdur». «Gənc işçi» qəzetində 1926-cı ildə çap olunan «Bir gün» şeiri ilk şeiridir. İlk kitabı 1936-cı ildə nəşr olunan «Küləklər» adlanır. «Küləklər» kitabından sonra 1930-cu ildə «Günün səsləri», 1932-ci ildə «Buruqlar arasında», «Vuruşmalar», «Pambıq», «Bir may» kitablarını, 1934-cü ildə «Şeirlər», 1935-ci ildə «Qaya», «Kəndli və ilan», 1934-cü ildə «Şəngül, Şüngül, Məngül» kitablarını nəşr etdirib. Sağlığında on kitabı nəşr olunub. 1965-cı ildən bəri II cildlik Seçilmiş əsərləri (1957-1960), «Duyğu yarpaqları» (1965). İki cilddə «Əsərləri» (1968-1973), «Yenə o bağ olaydı» (1976), «Əbədiyyət nəğməsi» (1978), «Həyat sevgisi» (1988), «Məktəb kitabxanası» silsiləsindən «Seçilmiş əsərləri» (1983), «Könlümü al, oxu» (2002) və s. kitabları nəşr olunub. Əsərləri dünya xalqlarının dillərinə tərcümə olunmuş Mikayıl Müşfiq bənzərsiz sənətkar idi: «Yeni poetik formalar yaratmaq poeziya tarixində hər şairə qismət olmur. Müşfiq bu cəhətdən seçilən şairlərimizdəndir. Onun elə şeirləri vardır ki, bu ancaq onun özünə məxsus formada yazılmışdır («Tərtərhes nəğmələri» və s). «Tərtərhes nəğmələri»ndə şair beş üçlükdən ibarət 15 misralıq bənd yaratmışdır ki, burada birinci üçlüyün iki misrası öz aralarında qafiyələnir. Üçüncü misra isə o biri üçlüklərin üçüncü misrası ilə həmqafiyə olur. Bəndlərin bu cür quruluşunun ümumi ahəngi coşğun çayların (Tərtər də belə çaylardan biridir) gur axınını xatırladır» (G. Hüseynoğlu).

Yaradıcılığa 20-ci illərin ikinci yarısında gələn M.Müşfiqin şeirlərinin əsas hissəsini ictimai-siyasi lirika təşkil etsə də, aşiqanə şeirləri («Yenə o bağ olaydı», «Sənin gözlərin», «Sənin gülüşlərin», «Məhəbbət», «Ulduzlar», «Şirin qız», «Ürək», «Maral» və s.), insan hissləri, məhəbbətin şirin cəfası, «hicrandan doğan intizar», sevdiyi insanı Xəzərin damcılarına belə qısqanan coşqun məhəbbətlə sevən ürək çırpıntıları, «sevdalı cavanların ümid qapılarının gah açılıb, gah qapanması və s. poetik yüksəkliyə qaldırılır. Müşfiq lirikası özünün yalnız ictimai, əxlaqi-tərbiyəvi məzmunu ilə deyil, orijinal sənətkarlıq cəhətləri ilə də diqqəti cəlb edir.

Şair şeir, sənət və sənətkarlar haqqında xüsusi məqalələr yazmasa da, bəzi əsərlərində («Gözəl şeir», «Yeni il»,

«Buludlar», «Şeirim», «Sənətkar», «Duyğu yarpaqları», «Şair və vətəndaş» və s) poeziyanın vəzifələri haqqında bir sıra maraqlı fikirlər irəli sürmüş, ədəbiyyat xadimlərinə həsr olunmuş «Sabir üçün», «Şairin ölümü», «N.Ostrovski üçün», «Ustamıza» və Ömər Xəyyam, Sabir, Cəlil Məmmədquluzadənin yığcam, eyni zamanda əhatəli yaradıcılıq səciyyəsini verən «Şən teyflər» əsərlərində şair ədəbi və estetik görüşlərini yüksək poetik dillə ifadə edir.

Müşfiqin uşaqlar üçün yazdığı əsərlərdə («Vuruşmalar», «Qaya» poemaları, «Kəndli və ilan», «Şəngül, Şüngül, Məngül» mənzum nağılları, «Bir may», «Məktəbli şərqisi», «Pioner», «Coğrafiya», «Zəhra üçün» və s.) şair onların yaş xüsusiyyətlərini də nəzərə almış, «təsvir etdiyi hadisələri oynaq bir vəznlə, axıcı bir dillə» ifadə etdiyini tənqidçilər yüksək dəyərləndirmiş, «30-cu illər uşaq ədəbiyyatımızın yaxşı əsərləri sırasında olduğunu» göstərmişlər.

Xalq ədəbiyyatı motivləri əsasında yazdığı mənzum nağıllarda haqq, ədalət uca tutulur, zülm pislənir, «Qaya» poemasında əvvəllər vaxtını boş keçirən, faydalı əməklə məşğul olmayan Qaya qayğıkeş müəlliminin köməyi ilə doğru yola çəkilir, zəhmətkeş, sağlam ruhlu insanlara qoşulur.

M. Müşfiqin tərcümə sahəsindəki uğurları böyükdür. Taras Şevçenkonun «Kobzar» əsərini Ə. Cavadla birlikdə, Puşkinin «Qaçaqlar» əsərini Ş. Abbasovla birlikdə, R.Rza ilə birlikdə Lermontovun «Demon» poemasını, Puşkinin «Yevgeni Onegin» mənzum romanından «Tatyananın Oneginə məktubu»nu R. Rza ilə birlikdə, «Poltava» əsərindən bir parçanı, «Dustaq» şeirini, M. F. Axundovun «A. S. Puşkinin ölümünə həsr olunmuş «Şərq poeması»nı, Lermontovun «Yelkən», «Şairin ölümünə» şeirlərini, Ömər Xəyyamın rübailərini, Mirmehdi Seyidzadə ilə birlikdə Firdovsinin «Şahnamə»sindən «Rüstəm və İsfəndiyar dastanı»nı, «Sultan Mahmud haqqında həcv» hissələrini, rus sovet şairlərindən A.Jarovun, İ.Utkinin, A.Bezemenskinin və başqalarının əsərlərindən nümunələri dilimizə tərcümə etmişdir. 1926-32-ci illərdə istedadlı şair kimi tanınan Mikayıl Müşfiq lirik şeirləri ilə yanaşı, poemalar da («Buruqlar arasında», «Çoban» «Əfşan», «Dağlar faciəsi», «Mənim dostum», «Şölə», «Sındırılan saz», «Azadlıq dastanı» və s.) yazmışdır. Yaratdığı poemalarda lirik, dolğun, əhatəli, bədii surətlər yaratmışdır. Poemaları lirik və epik-lirik poemalardır. «Epik-lirik poemalarda müəyyən süjet xətti, surətlər, xarakterlər olmaqla bərabər, lirik haşiyələr də vardır; şair müəyyən dərəcədə hadisələrə müdaxilə edir, bəzən əsas iştirakçılardan olur və hadisələrə yekun vurur («Çoban», «Sındırılan saz», «Dağlar faciəsi» və s. poemalarda olduğu kimi).

Lirik poemalarda isə çox vaxt əsərin lirik qəhrəmanı şairin özüdür, onun ideyaları, hiss və həyəcanları, sevinc və ürək çırpıntılarıdır. Şair hər yerdə bütün hadisələrə münasibətini açıq ifadə edir, təsvir etdiyi şəxsiyyət haqqında mülahizələrini deyir, hadisələrlə əlaqədar ricətlərə geniş yer verir. Bu cəhətdən «Azadlıq dastanı» daha səciyyəvidir.

M.Müşfiq repressiyaya məruz qalmış, 1938-ci il yanvarın 6-da güllələnmişdir. Şairin faciəli ölümü onu sevən xalqını, dostlarını sarsıtmış, Müşfiq böyüklüyü, Müşfiq istedadı, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, bütövlükdə Azərbaycan xalqına az yaşıyla böyük xidmətlər göstərdiyi, onun kimi qələmiylə xalqına, millətinə, onun ədəbiyyatına xidmət edən Müşfiqlərin faciələrini unutmamışlar. Onun haqqında gözəl əsərlər yaranmışdır. Ədəbiyyatşünaslar, tənqidçilər Müşfiq poeziyasını tədqiq etmiş, «böyük coşqunluqla, ilhamla yaratdığı bədii əsərləri tədqiq etmiş, onun sənətkarlıq qüdrətini üzə çıxarmışlar. Müşfiq yaradıcılığı-

nın müasir Azərbaycan poeziyasının yaranmasında, inkişafında böyük rol oynadığını dönə-dönə qeyd etmişlər. Xalq şairi, repressiyaya məruz qalmış Gülhüseyn Hüseynoğlu bütün ömrünü onun yaradıcılığının tədqiqinə, əsərlərinin nəşrinə həsr etmiş, əsərlərinin 3 cildliyini hazırlayıb nəşr etdirmiş, şairin istedadlı qızı, alim, tədqiqatçı Aytəkin Abdullayeva «Müşfiq və folklor» mövzusunda yazdığı elmi monoqrafiyada şairin folklorla əlaqəli yaradıcılığını tədqiq etmiş, qiymətli bir əsər yazmışdır.

R. Rzanın «Qızılgül olmayaydı» poemasında M. Müşfiqin yaddançıxmaz obrazı yaradılıb. Rəsul Rza «qüvvətli fitri istedad», çağlar poetik təbə, həm ötkəm, çılğın, həm də kövrək, romantik bir təbiətə, kəskin və müstəsna hafizəyə malik olan» Mikayıl Müşfiqə həsr etdiyi «Qızılgül olmayaydı» poemasında onun xarakteri haqqında səmimiyyətlə yazır:

O hamıdan sadəydi,
hamıdan açıq ürək.
Yetim kimi kövrək
Dilindəydi çox zaman
acığı, qəzəbi.

Gah görürdün,
Kəskin, odlu sözüylə.
Rəqibini dağladı.
Gah görürdün,
bircə sözdən
qısılıb bir bucağa,
xısın-xısın ağladı.

Hər il iyun ayında şairin xatirəsi yad edilir, doğma yurdu Xızıya yığışıb gedən AYB-nin üzvləri, şairlər, alimlər, qələm sahibləri onun büstü önünə əklil qoyur, Müşfiq taleli sənətkarlarımız da xatırlanır.

Yaradıcılığının çiçəkləndiyi bir zamanda çirkin siyasətin qurbanı olan Ağahüseyn Rəsulzadə yaradıcılığına Sabirin ciddi təsiri olub. «Qırmızı Gəncə» qəzetinin redaktoru, 1934-cü ildən AYB-nin üzvü olub. Bir sıra məsul vəzifələrdə çalışan ictimai xadim olmaqla yanaşı, bədii yaradıcılıqla da məşğul olmuş, «Muzdur» adlı kitabı 1927-ci ildə çapdan çıxmışdır. Şuşada «Azərbaycan ədəbiyyatı cəmiyyəti» şöbəsinə rəhbərlik etmiş, Azərbaycan Yazıçılar İttifaqının yaradıcılarından biri olmuş, həyatının son illərində «Yeni yol» qəzeti redaksiyasında redaktor müavini olmuşdur, 1938-ci ildə repressiyaya məruz qalmışdır.

Atababa Musaxanlı da Ağahüseyn Rəsulzadə kimi ciddi cəza sisteminin qurbanıdır. Ədəbi fəaliyyətə şeirlə başlamış, hekayə və mənsur şeirləri ilə yanaşı tənqid və ədəbiyyatşünaslıq da yaradıcılığında əsas yer tutur. 1929-1930-cu illərdə yazdığı «Şaiq-şair və müəllim», «Ədəbiyyatımız tarixində Sabir», «Aran köçü və müəllifi» «Mirzə Fətəlinin ictimai-tərbiyəvi mülahizələri», «Azərbaycan ədəbiyyatının inkişafı və xüsusiyyətləri» və s. məqalələrin müəllifidir. Eyni zamanda «Kitabi-Dədə Qorqud»la, klassik ədəbiyyatla bağlı tədqiqatları ədəbi fikri zənginləşdirir. 1941-ci il avqustun 14-də cəza tədbirlərinin qurbanı olmuşdur.

Böyükağa Talıblı ədəbi fəaliyyətə 1911-ci ildə Bakı realnı məktəbin 3-cü sinfində oxuyarkən yazdığı «Yaxşı məsləhət hər şeydən yaxşıdır» hekayəsi ilə başlamışdır. Sonralar ədəbi fəaliyyətini müntəzəm davam etdirmiş, hekayə, publisistik məqalələri ilə mətbuatda çıxış etmişdir. 1916-cı ildə «Keyf içində» pyesini yazmışdır. Azərbaycan Ədəbiyyatı Cəmiyyətinin sədri kimi fəaliyyət göstərmiş, milli mədə-

niyyətimizin inkişafında xeyli fəal olmuşdur. Bədii tərcümələrlə də məşğul olmuş, Tiflis Azərbaycan Proletar Yazıçıları bölməsini təşkil etmişdir.

Onun «Erkək Tükəzban» (1926), «Qırx zopa» (1927), «Keyf içində» (1929), «Tövbə» (1030), «Dirək» (1930) əsərləri, ölümündən sonra «Seçilmiş əsərləri» (1966; 1983) və s. kitabları yenidən nəşr olunmuşdur. 1938-ci ilin repressiya qurbanı olmuş Böyükağa Talıblı nasir, publisist kimi Azərbaycan ədəbiyyatı tarixinin inkişafında böyük xidmətləri olan şəxsiyyətdir.

Bəkir Çobanzadə ədəbiyyatşünas, dilçi, mətnşünas olmaqla yanaşı şair idi. Bir şəxsiyyət kimi adı Azərbaycan ədəbiyyatı tarixinə yazılıb. İlk şeirlərini, «Anan harda» poemasını tələbəlik illərində yazan şair İstanbul Universiteti nəzdində olan üçillik ali kursda ərəb və fars dillərini öyrənmiş, Türkiyədə «Müstəqil tatar Krımı» ideyası ilə yaşayan gəncləri birləşdirən «Krım-tatar tələbə cəmiyyəti»nin yaradıcılarından və rəhbəri olmuş, Budapeşt Universitetində elmi fəaliyyətini davam etdirmiş, doktorluq dissertasiyası müdafiə etmişdir. «Krım», «Göy kitab» (İstanbul), «Şərq» (Budapeşt) qəzetində şeirləri dərc olunan (1918-1919) Bəkir Çobanzadə məqalələri ilə ədəbiyyatda, mətbuatda çıxış etmiş, Krıma qayıdıb Krım Universitetinin Şərq fakültəsində krımtatar dili və ədəbiyyatından mühazirələr oxumuş, S. Ağamalıoğlunun dəvəti ilə Azərbaycanda yeni əlifba komitəsinin sədri, Yeni Türk əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin rəhbəri təyin edildiyində Bakıya gəlmiş, Türk xalqlarının yeni əlifbaya keçməsi sahəsində fəal mübarizə aparmış, Azərbaycan Baş Elmi İdarəsində terminologiya komitəsinə rəhbərlik etmiş, həm də Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində kafedra müdiri, dekan (1924-1929) olmuşdur: «Moskvada Şərq xalqları institutunun həqiqi üzvü seçilmişdir (1928). Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspirantura şöbəsinin müdiri (1929), SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin (1932), SSRİ EA Azərbaycan filialının (1935) həqiqi üzvü seçilmişdir. Paris Dilçilik Cəmiyyətinin üzvü olmuşdur. Bir sıra Avropa yazıçıları onun tədqiqat və elmi maraq dairəsinə vüsət vermişdir. Nəzəri-filoloji irsi zəngin və çoxcəhətli idi. Sovet Şərqində yaşayan türk xalqlarının bədii ədəbiyyatının, müasir ədəbi prosesin nəzəri problemlərinin tədqiqində və dil tarixinin yaranmasında təqdirəlayiq xidmətləri olmuşdur. O, bir sıra monoqrafik əsərlərlə yanaşı, «Türk dilinin metodikası» (1932), «Elmi qramerin əsasları» (1932) kitablarını şərikli tərtib etmişdir. Elmi məqalələri və bədii əsərləri dövri mətbuatda müntəzəm çap olunmuşdur. İlk şeirlər məcmuəsi özbək dilində kütləvi tirajla buraxılmışdır (1971). 1937-ci ildə Kislovodskidə «Qornyuk» sanatoriyasında istirahətdə ikən həbs edilmişdir. 1937-ci il oktyabrın 3-də şəxsiyyətə pərəstiş dövrünün qurbanı olmuşdur.

Əli Razi (Şəmsizadə Əli Məşədi Yəhya oğlu) 1934-cü ildən AYB-nin üzvü olmuş, şair, publisist kimi tanınmışdır. 1906-cı ildə «Molla Nəsrəddin» jurnalında satirik yazısı dərc olunmuş, onun dünyagörüşünün formalaşmasında bu jurnalın böyük rolu olmuşdur. Satirik hekayələrini «Dabanıçatdaq xala», «Heyvərə» və s. kimi satirik imzalarla çap etdirmişdir. «Eşq və məhəbbət», «Nalələrim», «Fəğanlarım» adlı şeirlər kitabları, «İslam qiraətxanası», «Yaman qardaş» pyesləri ilə dövri mətbuatda tanınmış Əli Razi sovet hakimiyyəti illərində «Yeni Gəncə» (Gəncə), «Qızıl Talış» (Lənkəran), «Mədəni hücum» (Bakı) qəzet və jurnalların məsul katibi, Azərbaycan Yazıçılar İttifaqının Gəncə bölməsinin

məsul katibi işləmiş, Firdovsinin «Şahnamə»sindən parçaları dilimizə tərcümə etmişdir. Ölüm hökmü alıb.

Şair, tərcüməçi Əhməd Cavad tanınmış Azərbaycan sənətkarıdır. Ərəb, fars dillərini mükəmməl bilən ədib İstanbulda «Qafqaz könüllü dəstəsi» tərkibində qəsbkarlara qarşı vuruşmuşdur. Onun «Qara dəniz» (1914) şeiri Türkiyədə məşhurdur. İlk mətbu əsəri L.Tolstoydan tərcümə etdiyi «İlyas və övrəti Şamşimaçı» hekayəsidir. İlk şeirlər məcmuəsi «Qoşma» (1916), «Dalğa» (1919), «Türk dilinin sərf və nəhvi» (1919) dərsliyi Bakıda çap olunub. Müəllimlik fəaliyyəti ilə yanaşı ədəbi fəaliyyətini davam etdirmiş Əhməd Cavad Azərbaycan Şura Yazıçılar Cəmiyyətinin məsul katibi (1924-1926) işləyib. «Göygöl» şeirinə görə bir neçə dəfə həbs edilmiş, Türkiyədə «İstiqlal» məcmuəsində (1928) çap olunan şeirlərinə görə də təqiblərə məruz qalmışdır. «1929-1937-ci illərdə A.S. Puşkinin, İ. S. Turgenevin, M. Qorkinin, T. Şevçenkonun, K. Hamsun və başqalarının əsərlərini tərcümə etmiş və tərcümələrdən ibarət 17 kitabı müxtəlif illərdə çap olunmuşdur. 1937-ci ildə «Xalq düşməni» kimi Yazıçılar Birliyinin tərkibindən çıxarılmış, iki aydan sonra həbs olunmuş, 1937-ci ilin oktyabrın 12-də güllələnmişdir. «18 ildən sonra «işində» cinayət tərkibi olmadığı üçün bəraət verilir. Bundan sonra adı və əsərləri qadağan edilən şairin «Şeirlər» (1958) və «Sən ağlama, mən ağlaram» (1991) kitabları, tərcümə etdiyi F. Rablenin «Qarqantua və Pantaqruel» (1961) əsəri, V. Şekspirin «Otello», «Romeo və Culyetta» faciələri (1962), Ş. Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» poeması (1978) nəşr olunur». Bakı küçələrindən birinə adı verilən Əhməd Cavadın xatirəsi əbədiləşdirilmiş, xalqımız onu Azərbaycanın qüdrətli şairlərindən biri kimi bu gün də yad edir.

Əhməd Cavad taleyi yaşamış, 1938-ci ildə güllələnmiş Məmmədkazım Ələkbərli tənqidçi kimi ədəbiyyatımızın inkişafı istiqamətində öz işini quran istedadlı qələm sahibi olmuşdur.

Bu adlarını çəkdiyimiz şair, nasir, dramaturq, ədəbiyyatşünas alimlərimiz Azərbaycan Yazıçılar İttifaqının ilk fəal üzvləri olmuşlar. Azərbaycan ədəbiyyatı tarixində ağır cəza tədbirləri illəri dəhşətli qorxunc iz qoymuşdu.

Fikrət Qoca 37-cilər haqqında düşüncələrində onları oddan, alovlardan keçənlər kimi qəbul edir. «Oddan keçənlər» əsərində yaratdığı obrazlar xalqının nurlu, ziyalı şəxsiyyətlərinin ümumiləşdirilmiş obrazıdır. Bu əsərdə insan taleyinə, zəka sahiblərinə, millətin düşünən beyinlərinə, millətini, xalqını sevənlərə qarşı qurulmuş edam kürsülərinə nifrət əsasdır. Əsərdəki Tahir bu obrazlardan biridir. O Tahir ki, əsl Azərbaycan ziyalısıdır, qorxmadan, çəkinmədən «biz türkdillilərik, türkük»,-deyir. Başına yığılardı xalqının düşünən oğulları, qəlbinin səsinə qulaq asardı Tahir, həqiqəti söyləyərdi. Qorxunc 37-ci il qara taun kimi kəsdirmişdi millətin başının üstünü. O taun Tahirin də evinin astanasında idi. Lakin vətənpərvərlik hissləri başından aşıb-daşan, yurd, millət sevgisi içərisində alovlanan Tahir öz tarixini, şərəfli keçmişini, öz ölkəsini öyürdü:

Deyirdi: «Ölkəmdə hər şey düzündü.
Dövlət də, tarix də özümüzündü.
Keçmişsiz bu günü neyləyirəm mən,
Mənim keçmişimə atmayın güllə.
İftixar, iftixar eyləyirəm mən,
Keçmişim, bu günüm, gələcəyimlə.

Bu günlər Tahir kimilərin arzuları gül açan günlərdir. Pantürkist, panislamizm adlarıyla ittiham olunan, güllələ-

nən, Sibir çöllərində məhv olan oğullarımızın arzuları gül açan günlərdir bu günlər. Kommunist ideologiyası 70 il xalqı öz əsarət buxovunda saxlasa da, qırım-qırım qırıldı, çünki Xəlil Rzalar o zəncirlərə nifrət edirdi və bu nifrət idi ki onları mübarizəyə səsləyirdi, sinəsindən alov kimi püskürürdü bu zəncirləri «gərək qıram-qıram»,-deyən səs. Tahirləri, Cavidləri yadına düşəndə azadlıq nəğməkarına çevrilirdi Bəxtiyarlar, F. Qocalar, F. Sadıqlar, Cabirlər, Rövşənlər, Sabirlər, Nərimanlar, Mədət kimilər isə F. Qocanın dediyi kimi, nə vicdanın gözünə, nə ailənin üzünə baxmağa üzü yoxdur, «öz evində adı» olan, «özü» olmayanların «aşkarlıq» iç üzünü açdı:

Bu aşkarlıq da bir yandan gəldi,
Bu Mədət üçün dövr deyil,
Şərəfsiz bir əcəldi, gəldi.

Azərbaycan Yazıçılar Birliyinin üzvləri repressiya dövründə ədəbiyyatımızın başına gətirilən müsibətlərin, faciələrin, yaşanan həyəcanların, qorxu və iztirabların acısını dadmışlar, qəlbi, ruhu yazmaq, yaratmaq eşqi ilə çırpınan qəlblərin ölümdən də dəhşətli «xalq düşməni», «vətən xaini» kimi damğadan qorxması təbii idi, bu adlar vətəndaş sənətkarların, vətənpərvər şairlərin, alimlərin, yazıçıların ağır, qorxunc yaşantılarıdır... Bir çox istedadlı sənətkarlarımızın damğalandığı damğa ilə çox sənətkarlarımız qarşılaşa bilərdi. Bu böyük dəhşətləri yaşayan S.Vurğun, C. Cabbarlı... daha kimlər, kimlər yaradıcılığının çiçəkləndiyi bir vaxtda dünyasını dəyişdilər. Ölüm qorxulu deyildi yazıçı üçün, ləyaqət, ad, vətəndaşlıq hissi, xalqa, vətənə sədaqət hissi, əqidə, amal, məslək saflığının məsuliyyəti idi onları qorxudan. «Vətən xaini», «xalq düşməni» damğasıyla damğalanan neçə-neçə insanlarımızın öz övladlarının gözlərinə dik baxmaq, saflığını sübut etmək üçün nə qədər zamana ehti-

yacları olub. Nə qədər zaman keçəndən sonra oğul, uşaq, qohum-əqrəba günahsız qurbanların yaşadığı mənəvi dəhşətləri anlayıb, əzab çəkib, əzabından stalinizmin faşist qəddarlığına nifrətini silib ata bilməyib. Bu gün də o nifrət qəlbimizdədir. Gözümüz önünə yüzlərlə Müşfiqlər, Əhməd Cavadlar, Almas İldırımlar gəlir. 80 illik bir yubiley ərəfəsində olan Azərbaycan Yazıçılar İttifaqı nə qədər qüdrətli qələm sahiblərinin, şair və ədiblərinin günahsız yerə təqibini, təhdidini, faciəsini görüb, içində bişib, yanıb, köşələnib... Bu gün də Sovet maşınının polad təkərləri altında əzilənlərini, sərt, amansız, qəddar ideologiyasının qurbanı olanlarını unutmur. Onların Yazıçılar Birliyinin binasından asılan xatirə lövhələrinə baxanda insanın damarlarında qanı donur. «Göz qəlbin güzgüsüdür»,-deyiblər. Hər üzdə, gözdə bir həyat eşqi, sevgi, səmimilik, həzinlik, eyni zamanda mübarizlik var... Belə göz sahiblərinin bəlkə də elə o humanist baxışlarından qorxub, haçansa qurduğu taxtı başına çevirəcəyindən hürküb millətin düşünən beyinlərini, vuran ürəklərini susdurublar. Bir dəfə müstəqillik, azadlıq şərbətini içmiş xalqın gec-tez «Bir kərə yüksələn bayraq bir daha enməz»-şüarındakı həqiqətin qorxusundan kürklərinə birə düşüb, onları qara basıb, gözlərinə hər düşünən insan sabah qılıncını qaldırıb haqqını, azadlığını, müstəqilliyini geri qaytarmaq istəyən azadlıq aşiqi kimi görünüb, özü də inanıb, inanıb ki, zor üstündə qurduğu hakimiyyəti çox davam gətirə bilməz. Allah istedad, ilham verən insanın duyğu və düşüncələrini zorla bir ideologiyaya tabe etdirmək olmaz. Həllac Mənsurlar, Nəimilər, Nəsimilər yetişdirən bir dünyada onların da zamanı gələcək, qanla qurduqları taxtı-taracı dağılacaq. Sadəcə olaraq bu vaxtı uzatmaq, bir az vaxt qazanmaq, xalqın içinə vahimə salmaqla öz hökm-

ranlığını bir az da olsa qorumaq istəyi içində çırpınanların törətdiyi faciələrdə əli qanlı bir ovuc hakimiyyət ehtirası ilə yananlar daha böyük günah sahibi idi, heç bir səhvini qəbul etməyən şəxsiyyətə pərəstiş ideyaları ilə hakimiyyətini quran, bir ovuc qaniçən millətimizin, keçmiş Sovetlər birliyinin ən istedadlı oğul və qızlarını öz eqoist ideologiyalarının qurbanları etdilər.

Bu dəhşətləri yaşayan, hər an qələm dostlarının oxşar talelərini yaşamalı olacaqlarından qorxan, «xalq düşməni» damğası alacağından ehtiyatlanan, bununla belə mübarizə meydanından çəkinməyən əqidə, məslək sahibləri sənətkarlarımız Azərbaycan ədəbiyyatının inkişafı naminə ömrünü şam eləmişdi... belə sənətkarlardan biri də C. Cabbarlı idi... C. Cabbarlı Azərbaycan ədəbiyyatı və teatrının inkişafında mühüm xidmətləri olan sənətkardır. Ədəbi-bədii yardıcılığı ilə yanaşı ədəbi-tənqidi məqalələri ilə ədəbiyyatımızın elmi-nəzəri, həm də praktik cəhətdən formalaşmasına, möhkəmlənməsinə çalışmışdır. C. Cabbarlı ədəbiyyata şair, nasir, felyetonçu-jurnalist kimi gəlsə də, dramaturq kimi fəaliyyət göstərmiş, Azərbaycan sovet dramaturgiyasının banilərindən biri kimi ədəbiyyat tarixinə adı yazılmışdır. Azərbaycan teatr sənətinin inkişafında böyük uğurlara imza atan C. Cabbarlı özündən sonra yetişən yazıçılara, dramaturqlara yol açmışdır.

Bədii yaradıcılığa 1915-ci ildə yazdığı «Bahar» şeiri ilə gəlib. «1905-ci ildə», «Qız qalası», «Almas», «Firuzə», «Əsərləri» (3 cilddə), «İlk dram əsərləri», «Seçilmiş əsərləri», «Aslan və Fərhad», «Dilarə», «Od gəlini», «Əsərləri» (4 cilddə), «Ey dan ulduzu», «Ədirnə fəthi» və s. kitabları nəşr olunub. Əsərlərinə olan tələbat seçilmiş əsərlərinin dönə-dönə nəşrinə imkan yaradıb. «Solğun çiçəklər», «Ədirnə fəthi». «Trablis müharibəsi» və ya «Ulduz», «Nəsrəddin şah». «Aydın», «Oqtay Eloğlu», «Od gəlini», «Sevil», «Yaşar», «Dönüş» kimi dram əsərləri onu sovet dramaturgiyasının banisi kimi tanıtmışdır. O yorulmadan ədəbi fəaliyyətini davam etdirmiş, gənc yaşlarından kamil bir sənətkar kimi yetişmiş, «yaradıcılığının demokratik istiqaməti ilə seçilən böyük söz sərrafına çevrilmişdir». Zamanın bədii nəbzini tutmağı bacaran sənətkar bir-birindən dəyərli əsərləri ilə şöhrət qazanmışdır, «gənc yazıçı əvvəlkinə nisbətən böhranlı düşüncələrdən, dolaşıq fikirlərdən uzaqlaşmaq üçün» yeni həyatın qaynar nəfəsini duymağa, onu öyrənib əks etdirməyə səylə çalışırdı.

C. Cabbarlı həm də tərcüməçi kimi tanınmış, rus və dünya ədəbiyyatı klassiklərinin bir çox qiymətli əsərlərini-Şekspirin «Hamlet», «Otello», Şillerin «Qaçaqlar», L.N. Tolstoyun «Uşaqlıq», Bomarşenin «Fiqaronun toyu», Afinogenovun «Qorxu», Slavinin «Müdaxilə» və s. əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Onun poeziyası, nəsri, dramaturgiyası, ədəbi-tənqidi görüşləri C.Cabbarlı irsinin zənginliyindən xəbər verir. Təbiət təsviri verilmiş «Bahar» şeirindən sonrakı şeirlərində gənc şair qəlbinin narahatlıqları, cəmiyyət, onun ehtirasları, nöqsanları, ictimai mövzular yaradıcılığında əsasdır. Lirik və satirik şeirləri ilə yanaşı, qadın hüquqsuzluğu, Azərbaycan qadınının savadsızlığının ağır nəticələri, nadanlığın törətdiyi faciələr, azadlıq, savadlanmaq uğrunda mübarizə əsas qayəsini təşkil edən «Gülzar», «Dilbər», «Dilarə», «Aslan və Fərhad». «Firuzə» və s. adda onlarla hekayələrini yazmışdır.

Yaradıcılığının böyük bir sahəsini dramaturgiya təşkil edən C.Cabbarlı bir məktəb idi. M. Qorki onun vaxtsız ölümündən doğan kədəri Yazıçılar İttifaqının plenumunda belə ifadə etmişdir: «Yazıçı və şair 30-35 yaşlarında yazmağa başlayırsa, Cəfər Cabbarlı 35 yaşında tamamlanmış,

püxtələşmiş bir dramaturq idi. Gələr bir zaman, dünyanın bir çox darülfünunlarında və tədqiqat ocaqlarında Cəfər Cabbarlının yaradıcılığını təhlil edər; onun dramaturgiyasını sətir-sətir öyrənərlər...».

Məmməd Səid Ordubadi sovet dövrü ədəbiyyatımızın ilk klassiklərindən biri kimi ilk, dolğun və mənalı bir yaradıcılıq yolu keçmiş, yaradıcılığa maarifçiliyin təbliği ilə başlasa da, sonralar inqilabçı demokrat və nəhayət, böyük yazıçı səviyyəsinə yüksəlmiş sənətkardır. «Analıq» (qadınlar həyatından şeirlər), «Leninə», «Şeirlər», «Kənd alverçisi», «Mollanın yuxusu» (1929), «Mənim şeirlərim», «Köhnə adamlar» və s. kitablarında felyetonları və şeirləri toplanmışdır. Bu əsərlərdə daxili və xarici düşmənlərin ifşası, yeni həyat quruculuğu sahəsində əldə edilən qələbələrin tərənnümü, mühüm beynəlxalq məsələlər və s. əsas yer tutur. Onun «Oktyabr inqilabı», «Azərbaycanda inqilab». «İşsizlər», «Cəmiyyəti-əqvam» və s. dramlarında köhnə həyatla yeni həyat arasındakı ziddiyyətləri, cəmiyyətdə iflasa uğramış, öz nüfuzunu itirmiş varlı təbəqənin yeni cəmiyyətə qarşı düşmən mövqe tutmaları, onların işinə mane olmaq, xeyir verməkdənsə onları ziyana salmaq cəhdləri təsvir edilirdi.

Onun qələmə aldığı «Dumanlı Təbriz» əsəri ilk tarixi romandır. Dörd kitabdan ibarət romanın əsas mövzusu 1906-1911-ci illər İran inqilabı, Səttərxan hərəkatıdır. Bununla belə, ədib həmin dövr hadisələri ilə kifayətlənmir, 1917-ci il inqilabı ilə fikri tamamlamağa çalışır.

«Dumanlı Təbriz» əsərindən sonra «Gizli Bakı», «Qılınc və qələm», «Döyüşən şəhər» romanlarını yazır. «Gizli Bakı» trilogiyası ədəbiyyatımızda yeni, orijinal bir əsər olmaqla bütün sovet dövrü ədəbiyyatın tarixi-inqilabi mövzudakı nailiyyətlərindən bəhrələnmiş yazıçının böyük müvəffəqiyyəti» kimi tənqidçilər tərəfindən dəyərləndirilir.

«Qılınc və qələm» romanı Nizaminin həyatını, yaşadığı dövrü, ölkənin xarici əlaqələrini, əsrin ədəbiyyat və incəsənətini, sənətkarlarını, dövlət xadimlərini, xalqın azadlıq mübarizələrini özündə əks etdirən bir romandır. M. S.Ordubadi əvvəlki romanlarından fərqli olaraq daha uzaq keçmişdən bəhs etdiyindən burada daha ətraflı tədqiqat işi aparmışdır. Əsər külli miqdarda tarixi, elmi, ədəbi məxəzə istinadən yazılmışdır. Nizami haqqında, xüsusilə onun həyatı barədə məlumatın azlığı müəllifi bir çox halda öz yazıçı təxəyyülünə qanad verməyə vadar etmişdir. Tarixi sənədlə bədii təxəyyül romanda ustalıqla əlaqələndirilmişdir. Buna görə də deyə bilərik ki, digər tarixi romanlarına nisbətən «Qılınc və qələm»də yazıçı surətlərin təsvirində daha sərbəst hərəkət etmişdir» (Müasir Azərbaycan ədəbiyyatı. I cild. Bakı. Bakı Universiteti nəşriyyatı. 2007).

Onun şeirləri, hekayələri, felyetonları, məqalələri, librettoları, romanları mövzu aktuallığı, bədii ideya zənginliyi ilə diqqəti cəlb edir. «Serjant İvanov adına körpələr evi», «Dilruba» hekayələri, «Gənc çekistlər», «Kiçik şəhər» romanları vətən müharibəsi mövzusunda yazılmış ilk roman kimi də dəyərləndirilir. «Maral», «Qara Məlik», «Camal» «Səttarxan», «Tarix və qələbə» və s. kimi oçerk portretlərdə vətənpərvər el qəhrəmanlarından söz açır. Zəngin ədəbi irsi ilə yanaşı ədibin Puşkinin «Baxçasaray fantanı», «Boris Qodunov», D. Bedninin «Baş küçə», «Zeynəbin andı», Bomarşenin «Sevilya bərbəri» və s. rus və dünya ədəbiyyatından tərcümələridir.

Döyüş ruhlu poeziyamızın gözəl nümunələrini yaratmış, «xalqlar dostluğu, humanizm ideallarının alovlu tərənnümçüsü» Süleyman Rüstəmin ilk şeirlər toplusu «Ələmdən nəşəyə» adlanır. İlk şeirləri «Qızıl gənc qələmlər» (1926),

«Oktyabr alovları» (1927), «Ədəbi parçalar» (1927) almanaxlarında dərc edilib. İnqilab mövzusunun «bədii şəkildə canlandırılmasının» ən gözəl nümunələrini yaradan Süleyman Rüstəm «Adamlar» (1930), «Səs» (1932), «Şairin səsi» (1934), «Ulduzlar» (1934), «Çapayev» (1936), «Gecənin romantikası» (1938) kitablarını nəşr etdirir.

Böyük Vətən müharibəsi illərində «And», «Ana və poçtalyon», «Qəhrəmanın vəsiyyəti», «Ana ürəyi», «Qocanın dedikləri», «Gün o gün olsun ki», «Yağılara vermə aman», «Qəhrəmanımsan», «Məktublar» silsilə şeirlərində və s. əsərlərində döyüş, qələbə ruhu duyulur.

S. Rüstəm yaradıcılığında Cənubi Azərbaycan, ikiyə bölünmüş Azərbaycanın taleyi, Təbriz həsrəti, göynərtisi yaşayır. «Bəli, Cənubluyam». «Yenə Araz qırağında». «Uzun yol», «Könlümə Təbriz düşdü», «Ana dilimə dəymə», «Ürəyimi verərəm», «Araz gözlü». «Səbəb nədir» şeirində «silsiləvi bədii suallar vasitəsilə yeri, göyü, asimanı sorğuya tutaraq söyləyir ki, nəyə görə o sahildən bu sahilə, bu sahildən o sahilə bulud, durna, yaşılbaş sona, odlu nəğmə, külək, xəyal, arzu, dilək icazəsiz keçir, amma şair bu yollardan keçə bilmir? Savalanın şəffaf sularından öz təşnəliyini söndürmək üçün bir doyunca içə bilmir? O göstərir ki, küləyin əsməsində bəzən Arazın şikayətini eşidir. Dağlar, daşlar da dilə gəlir, hay-haray çəkir, belə anlarda şairin göz yaşları sözünə baxmır, səddini uçurmuş çaylar kimi çağlayır...» (M.Cəlal).

Cənubi Azərbaycanda yaşayan Azərbaycan poeziyasının nümayəndəsi Şəhriyara həsr olunmuş şeirləri, «Cənub şeirlərinin poetik zirvəsi kimi şah-şahrah beytlərlə dolu» şeir kimi yüksək qiymətləndirilir.

Gəl söyləyim ürəyimin sözünü,
Bir kərə də görməmişəm üzünü,

Nigaranam yetir mənə özünü,
Məhəbbətin bağrımdadır, Şəhriyar,
Mənim ürək ağrımdadır, Şəhriyar!

Kim deyir ki, lisanımız ayrıdır?
Nə adımız, nə sanımız ayrıdır.
Nə canımız, nə qanımız ayrıdır,
Ürək birdir, bədən birdir, Şəhriyar,
Vətən birdir, vətən birdir, Şəhriyar!

Rəngarəng yaradıcılığa malik Süleyman Rüstəmin satirik-yumoristik şeirləri («Yad adam», «İki yolçu», «Qəribə aşiq», «Artıq gec deyilmi?», «Necə deyərlər», «Tənqidçi dostuma açıq məktub», «Qəribə tanışlıq», «Xəstəlik», «Qəribə məclis», «Üçüncü sağlıq», «Rəhbərzadə», «Əhsən belə dostlara» və s) ilə yanaşı poemaları da mühüm yer tutur. «Yaxşı yoldaş», «İldırım», «Gülbahar», «12-ci tüfəng», «Qafurun ürəyi», «Nakam məhəbbət», «Şairin ölümü», «Yeni kəndin işıqları», «Səbuhini düşünərkən» və s. poemaları müasir mövzuda yazılmış əmək prosesində dəyişən, tərbiyələnən insanın yeni həyat uğrunda mübarizəsi məsələsindən bəhs edir, müharibədə böyük qəhrəmanlıqlar göstərən, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən Qafurun döyüş yolundan, şair, dramaturq, filosof M. F.Axundovun fəaliyyətindən və s. bəhs edir.

Süleyman Rüstəmin yaradıcılığında dramaturgiyası («Çimnaz xanım yuxudadır», «Yanğın», «Qaçaq Nəbi», «Gəldi-gedər», «Durna» libretto mətni və s.) mühüm yer tutur. Şair, dramaturq, ictimai xadim S.Rüstəm xalqına, vətəninə bağlı olan, onun müvəffəqiyyətindən, qazandığı uğurlardan vəcdə gələn, əmək qəhrəmanlarının əldə etdiyi nailiyyəti dastanlara çevirən, şeirləri, qəzəlləri dillər əzbəri

olan nəğməkar şairdir. «Seçilmiş əsərləri» 4 cilddə (1969-1972), «Xəzərin şəhəri» (1976), «Seçilmiş əsərləri», 2 cilddə (1976), «Mənim Günəşim» (1986), «Əsərləri» 6 cilddə nəşr olunub. Xidmətlərinə görə üç Lenin ordeni, Sovet Sülhü Müdafiə komitəsinin fəxri fərmanına, yüksək adlara layiq görülmüş, xalq şairi, Sosialist Əməyi Qəhrəmanı, alovlu mübariz, nəğməkar şair kimi bu gün də sevilir. Qəzəlləri xanəndələrin dillər əzbəridir, sözlərinə yazılmış mahnılar bəstəkarlara da şöhrət gətirən əsərlərdir.

Qısa da olsa həyat və yaradıcılığı, ədəbiyyatımızın inkişafında rolu araşdırılan bu böyük ədəbi şəxsiyyətlər Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışlar. Həm repressiya qurbanlarının, həm də təsadüfən sağ qalmış Azərbaycan şair və ədiblərinin yaradıcılığının ədəbiyyatımızın inkişafına təsiri araşdırılmış, monoqrafiyalar yazılmış, ədəbiyyat tariximizdə yeri müəyyənləşdirilmişdir.

SÖZ MÜHARİBƏ MEYDANINDA QÜDRƏTLİ SİLAHDIR

(1941-1945)

Azərbaycan şair və yazıçıları İkinci Dünya müharibəsi illərində vətən, torpaq, xalq naminə böyük fədakarlıqlar göstərdilər. Onlar bütün qüvvə və imkanlarını «hər şey cəbhə üçün, hər şey qələbə naminə» sərf etdilər. 1941-1945- ci illər Böyük Vətən müharibəsinə qədər ədəbiyyatımız, incəsənətimiz dinc quruculuq şəraitində inkişaf edirdi. Onlar xalqımızın nailiyyətlərini qələmə alır, xalqı vətənpərvərlik ruhunda tərbiyələndirmək sahəsində öz nəcib fəaliyyətlərini davam etdirirdilər. Müharibə illərində xalqın faşizmə qarşı müharibədə göstərdikləri qəhrəmanlığı, igidliyi, arxa cəbhədə sadə xalqın fədakar əməyini, hər iki cəbhədə xalq, vətən, torpaq naminə misilsiz rəşadət, mərdlik nümayiş etdirən sovet xalqlarının, o cümlədən o xalqı təmsil edənlərdən azərbaycanlıların nələrə qadir olduğunu vəsf edirdilər. «Ədəbiyyat və incəsənət işçiləri şeir, hekayə, musiqi, təsviri sənət əsərləri kimi böyük ideya silahı ilə sovet adamlarında Vətənə dərin məhəbbət, düşmənə qarşı sönməz nifrət, kin hissləri tərbiyə edir, faşist işğalçıları üzərində qələbə çalacağımıza böyük inam yaradırdılar» (B. Nəbiyev).

Müharibənin ilk illərindən həm ədəbiyyat, həm də incəsənət xadimləri öz vəzifə borclarını başa düşür, düşmənə qarşı mübarizə aparmağı gənc nəslə öyrətməyi qarşılarına məqsəd qoyurlar. Üzeyir Hacıbəyov yazırdı: «Bədii xalq məsəlində deyilir ki, toplar dinəndə musiqi susmalıdır... Bizim musiqimiz bizim zəhmli toplarımızla birlikdə var qüv-

vəsi ilə səslənəcək, onun mərmiləri faşist canilərini yer üzündən siləcəkdir.

Bizim artistlərimiz düşmənə öldürücü zərbə vurmaq, döyüşçülərimizi qələbə marşı və qələbə mahnısı ilə döyüşə ruhlandırmaq üçün hər cür şəraitdə-arxada, cəbhədə, səngərlərdə çıxış edəcəklər. Biz təkcə incəsənət silahı ilə çıxış etməyəcəyik. Biz xalq könüllüləri sıralarına gedəcək, düşmənlə hər cür silahla vuruşacaq və onu məhv edəcəyik».

Alman faşistləri bütün Avropanı, eləcə də Sovet İttifaqını məğlub etmək, bütün dünyada ağalıq etmək üçün başladıqları ədalətsiz, işğalçı müharibədə udmaq, qələbə əldə etmək üçün yüksək səviyyədə hərbi texnika, sursatla, silahlanmışdılar. Onların dəhşətli sarsıdıcı silah-sursatına qarşı dünya xalqlarının-işğal etdikləri Avropa və Sovetlər Birliyi xalqlarının torpaq, vətən sevgisi və ədalətli mübarizə hissi dururdu. Bu vətənpərvərlik hisslərinə faşistlər misilsiz qəddarlıq, vəhşiliklə cavab verirdilər. Onlar 1933-cü il 27 fevralda az bir müddətdə yüz minə yaxın tərəqqipərvər, sülhsevər, elm, sənət adamlarını siyasi məhbus kimi, həbsxanalara saldılar. 15 gün müddətində inkişaf etmiş Avropa dövlətlərindən Polşanı bütövlükdə işğal edib, digər ölkələri Danimarka, Norveç, Belçika, Hollandiya, Fransa, Yunanıstan, Yuqoslaviyanı zəbt etdilər. Öz faşist, işğalçı bayraqları başları üzərində dalğalanan Avropa xalqları gizli partizan dəstələri yaradır, faşist Almaniyasının məhvi naminə ölümdirim mübarizəsinə girdilər. Belə bir zamanda faşist Almaniyası Sovet İttifaqına, bu tərkibdə yaşayan xalqlara qarşı elə bir mübarizə planı hazırlamışdı ki, sorğusuz, sualsız, qeydsiz-şərtsiz məğlubiyyətə diz çökməli idilər. Belə bir zamanda sovet xalqında düşmənə nifrət, mübarizə ruhu artırılmalı, onların mənəvi birliyi təmin edilməli, daha da möhkəmlənməli idi. Müharibənin ilk günlərindən ağır sınaqlara

məruz qalsa da, Avropanın iqtisadi, hərbi potensialını ələ keçirən faşist Almaniyası ilə təkbətək döyüşə girməyə məhkum edilsə də, düşmən xalqların humanist duyğuları önündə elə ilk günlərdən mənəvi boşluğunu duydu. 1941-42-ci illər dövründə aparılan hərbi əməliyyatlardan birində-Moskva yaxınlığındakı döyüşlərdə böyük hərbi məğlubiyyətə uğradıldı. Hitler Almaniyasının «məğlubedilməz» olduğu puça çıxdı. Milli tərkibcə çoxluq təşkil edən Sovet İttifaqında xalqlar arasında düşəcək milli ixtilaflarda ordunu zəiflədib, istəyinə nail olacağını düşünən faşist Almaniyasının böyük səhvə yol verdiyi göz qabağında idi. Alman siyasətçisi Görinqin Hitler Almaniyasının yüksək vəzifəli zabitlərinə göndərdiyi məktubda deyilir: «Baltik sahili ölkələrində... orada yaşayan almanlara arxalanmaq, litvalılar, latışlar və estonlarla ruslar arasındakı ziddiyyətlərdən Almaniyanın mənafeyi üçün istifadə etmək lazımdır. ...Cənubda ukraynalılar və velikoruslar arasında baş verə biləcək ziddiyyətlərdən faydalanmalıyıq. Qafqazda isə yerli gürcü, erməni və tatarlarla ruslar arasındakı ziddiyyətlərdən bizim xeyrimizə istifadə olunmalıdır» (B. Nəbiyev).

Belə bir dövrdə xalqlar rəşadət nümayiş etdirdi. Ölkənin bütün ziyalıları bir araya toplaşdı. Xalqın faşizmə qarşı mübarizədə bütün qüvvə və bacarıqlarının birləşdirilməsi yolunda sovet şairlərinin, yazıçılarının, jurnalistlərinin rolu misilsiz oldu. Qələbə naminə göstərilən fədakarlıqlarda Azərbaycan şairləri, yazıçıları böyük rol oynadı. Onlar sülhsevər xalqının, millətinin iradəsini ifadə etdilər. Onların arzusu, amalı faşizmə qarşı mübarizədə öz vəzifəsini başa düşüb xalqı müharibəyə, işğalçılara qarşı nifrət ruhunda tərbiyə etmək idi. Bir əsgər kimi döyüş meydanlarında bir əlində qələm, bir əlində süngü olan Azərbaycan şair və yazı-

çıları bu şanlı qələbənin əldə edilməsi yolunda göstərdikləri fədakarlıqlara görə adlarını tarixin şanlı səhifələrinə yazdılar. Zaqafqaziya xalqlarının milli bərabərlik, birlik, qardaşlıq duyğuları ilə «silahlanması» yolunda apardığımız məqsədyönlü işdə xalqımız öz müdrikliyini göstərdi. Bütün müharibə boyu Yazıçılar İttifaqına sədrlik etmiş Səməd Vurğun Tbilisidə mitinqdə çıxış edərkən qədim dostluq ənənələrinə söykənərək deyirdi: «Zaqafqaziyanın qardaş xalqları olan gürcülər... azərbaycanlılar öz tariximizdə dəfələrlə ümumi düşmənlərimizə qarşı, yəni yadelli işğalçılara qarşı əlbir mübarizədə birləşmişik. Biz dəfələrlə düşmən qoşunlarını qırıb dağıtmış, onları Kürün və Arazın coşğun sularında qərq etmişik... Biz bu gün ümumi düşmənimiz olan nemes faşizmi ilə üz-üzə durmuşuq. Böyük babalarımız olan Tariyel, Sasunlu David, Babək və Koroğlunun ölməz simaları fikrimizdə yenidən canlansın. Qoy keçilməz Qafqaz dağlarının dibi görünməyən dərələri nemes işğalçıları üçün məzarıstan olsun...».

S. Vurğun müharibənin ilk günündə yazdığı «Vətənin keşiyində» şeirində bütün qələm dostlarını, xalqını, millətini döyüşə çağırır, faşizm üzərində qələbəyə səsləyirdi. Əli silah tutan xalqının vətənpərvər oğullarını düşmənə qarşı nifrət ruhunda tərbiyələnməsini istəməklə yanaşı, bütün qələm dostlarını cəbhəyə, döyüşə, silaha sarılmağa, ən böyük silah olan qələmiylə, sözüylə qələbənin qazanılmasına yardımçı olmağa səsləyirdi. Müharibənin ilk günündən

Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən!
Bu gün bir süngüdür əlimdə qələm.

-deyən şair yüzlərlə Azərbaycan şairinin, sənətkarının istək və arzularını ifadə etmiş oldu. Könüllü olaraq 40 mindən çox ərizə ilə müraciət edib döyüşə gedən, 150-mindən artıq

ordu sıralarına daxil olan Azərbaycan oğlu və qızları arasında bu xalqın düşünən beyinləri, şairi, alimi, jurnalisti, yazıçısı da vardı. Xalqın qəhrəman oğulları «əfsanəvi Brest qalasının müdafiəsində qəhrəmanlıqla həlak olmuş hərbi həkim M.Qədirovun, məharətlə hazırladığı partlayışlarla Prut çayı sahilində düşməni ağır fəlakətə uğratmış siyasi işçi Kamal Qasımovun, ilk döyüşdə on bir faşisti məhv etmiş snayper İlyas İsmayılovun, Leninqrad göylərindəki vuruşmalarda yeddi düşmən təyyarəsini vurub salan, on yeddi yara aldığına baxmayaraq, qırıcısını öz təyyarə meydanımıza endirən Hüseynbala Əliyevin, qeyri-bərabər döyüşdə on nəfərlik düşmən dəstəsini məhv edib həlak olan Bəxtiyar Kərimovun, Stalinqrad müdafiəçisi Baloğlan Abbasovun adlarını» məhz şairlərimiz, yazıçılarımız tarixə həkk etdilər. O zamanlar Sovet İttifaqı Marşalı F. İ. Tolbuxin yazırdı: «...azərbaycanlı döyüşçülər hücum zamanı yüksək vətənpərvərlik, dönməzlik, mərdlik, alman faşist quldurlarına qarşı kin və nifrət kimi öz xalqlarının ən gözəl keyfiyyətlərini nümayiş etdirirlər».

Bu böyük qələbələrin əldə edilməsində Azərbaycan ədəbiyyatı əsl silah oldu. Ədiblərimiz Əbülhəsən Ələkbərzadə, Böyükağa Qasımzadə, Ənvər Əlibəyli, Əyyub Abbasov, Zeynal Cabbarzadə, İslam Səfərli, Əbil Yusifov, Oruc Qoşqarlı, Hüseyn Abbaszadə, Fərrux Həsənli... müharibənin dəhşətlərini öz gözləri ilə görmüş, ağır döyüşlərin şahidi olmuşlar. Hüseyn Natiq, Ənvər Qazıyev kimi qələm sahibləri bu döyüşlərdə qəhrəmancasına həlak olmuşlar. Torpağın azadlığı uğrunda döyüşlərdə iştirak edən bu insanlar ölümdirim mübarizəsində döyüşçüləri mübarizəyə ruhlandıran şeirlər yazır, onların qəhrəmanlıq dolu döyüşlərini qələmə alır, şeirlərində, məqalələrində hekayələrində onları tərən-

nüm edirdilər. Döyüşçülərimizin qüdrətini, onlarda Vətənə olan sonsuz məhəbbəti, çiyin-çiyinə döyüşən dilləri, dinləri müxtəlif xalqların humanist ideyalarını, sülhsevərliyini, faşizmə, vəhşiliyə nifrətini bu əsərlərdə əks etdirirdilər. Bu döyüşlərdə bütün xalqların şair və yazıçıları bir əqidə, məslək uğrunda vuruşur, qələmiylə xalqa, sülhə xidmət edirdi. Bu yolda qazax şairi Abdulla Cuma Qalib həlak olub. Şair Ənvər Əlibəyli 416-cı Taqanroq diviziyasının igid zabitlərindən biri kimi cəbhəyə getdiyi gündən ön cəbhədə vuruşmuş, düşmənin canlı qüvvə və texnikasını məhv etmiş, bir zabit kimi qızğın döyüşlərdə öz topları ilə döyüşçü dostlarının irəliləməsinə kömək etmiş, döyüşlər səngiyəndə, dinclik tapanda hamı yatıb dincələndə qələminə sarılmış, yazıb-yaratmışdır. Əliylə qazdığı səngərlərdə vahid Vətən bildiyi Ukrayna torpağına olan sevgisini də ifadə edirdi:

Bu gün səngər qazdığım bu yerdə
Sarı sünbül əkilərdi əzəllər.
İşləyərdi, oxuyardı, gülərdi,
Bu yerlərdə xoş baxışlı gözəllər.

Yazdığı şeirlər qəzet və jurnallarda çap edilirdi. 1944-cü il 31 yanvar «Ədəbiyyat qəzeti»nin səhifələrində onun haqqında Yazıçılar İttifaqına ünvanlanmış belə bir məktub dərc edilmişdi: «Böyük Vətən Müharibəsi cəbhələrində böyük rəşadət və fədakarlıq göstərən həqiqi Azərbaycan balası, sizin yetişdirməniz gənc cəbhəçi şair Ənvər Əlibəyli haqqında sizə yazmağı və belə bir vətənpərvər şair tərbiyə etdiyinizə görə sizə təşəkkür etməyi borc bilirik.

Baş leytenant Ənvər Əlibəyli bizim hissənin ən qabaqcıl, bacarıqlı, mübariz kommunist zabitlərindən biridir... Əlibəyli yoldaş azğın alman işğalçılarına qarşı döyüşlərdə igidlik və rəşadət göstərdiyinə görə dövlət tərəfindən «Qır-

mızı ulduz», «İkinci dərəcəli Vətən müharibəsi» ordenləri ilə təltif edilmişdir.

Komandanlıq ... şair Ənvər Əlibəylinin simasında, özünün ən bacarıqlı və döyüşkən zabitini tanıyır. Sizin qəhrəman şairinizlə fəxr etməyə haqqınız vardır».

Ənvər Əlibəyli kimi müharibənin ilk günlərindən «Ədəbiyyatımızın «çevik və kütləvi» növü olan şeir, oçerk, publisistik məqalələri ilə döyüşə başlayan S.Vurğun, M.Rahim, S.Rüstəm, Əliağa Vahid, Ə.Cəmil, R. Rza, Zeynal Xəlil, O. Sarıvəlli öz əsərlərində xalqını ağır döyüşlərdə mətin və iradəli olmağa səsləyir, qələbəyə onlarda dərin inam hissi oyadır, möhkəmləndirirdi. S. Vurğun «Ananın öyüdü» şeirində övlad, vətən, torpaq sevgisiylə oğul-qız tərbiyə edən annalarımızın-övladlarını qəhrəmanlığa, döyüşə səsləyən, mərdliklə düşmənə qarşı vuruşmağa çağıran, nəcib analarımızın ifadəçisi kimi çıxış edir:

Dedi: oğul, göz bəbəyim! Sən ey ömür çiçəyim.
Tarixlərin şahididir mənim bu ağ birçəyim...
Biz sənsiz də dolanarıq, uğur olsun yoluna,
Qılıncını çalan zaman qüvvə gəlsin qoluna!
İgid balam! Hərçəndi ki, öz ananam mən sənin,
Çörəyilə böyümüsən bizim ana Vətənin!

Rəssam Kazımzadə bu şeirdən ilhama gəlib oğluna öyüd verən ananı təsvir etmiş və ondan təşviqat işlərində uğurla yararlanmışdır. Bu şeir bütün analaların qəlbinə yol tapan, öz oğullarını döyüşə yollayan analar üçün bir örnək olan şeir idi. Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun anası Gülsüm Məmmədova S.Vurğunla görüşəndə demişdir: «Sənin şeirini mənə oxudular. Lap bizim arzumuzu yazmısan. Mən İsrafili yola salıb xeyir-dua verəndə o, mənə demişdi ki, ana, düşmənləri qıracağam, orden almamış qa-

yıtmayacağam. Mən isə onu yola salan zaman dedim ki, Oğul! Düşmənə heç vaxt arxanı çevirmə! Əgər sən bu müharibədə arxadan yaralansan, südüm sənə haram olsun!»

Bu mövzuda Rəsul Rzanın «Əsgər anasının sözləri», Süleyman Rüstəmin «Qocanın dedikləri», «Yaxşı yol» şeirlərində qardaşını cəbhəyə yola salan bacının səmimi duyğuları, övladlarını yola salan ata-ananın, qocanın diləkləri ifadə edilir. Bu şeirlər xalqda, döyüşən əsgərlərimizdə vətənpərvərlik duyğularını artırırdı. Radio və mətbuatdan Azərbaycan şairlərinin, ədiblərinin çıxışlarını dinləyən, onların şeirlərini oxuyanlar keçirdikləri hissləri yazırdılar. S. Vurğunun odlu-alovlu çıxışını dinləyən döyüşçülər yazırdılar: «... Siz şeirinizi oxuduğunuz zaman biz səngərdə idik. Səsinizi və odlu misralarınızı dinlərkən, elə bil ki, üzərimizdən canlandırıcı bir bahar yeli əsdi. Qolumuza yeni qüvvət, gözümüzə yeni işıq gəldi... Biz sizi əmin edirik ki, gözəl sovet torpağını tezliklə yırtıcı düşmənlərdən təmizləyəcəyik! Qalib ordunun döyüşçüləri kimi tezliklə sizinlə görüşəcəyimizə əminik».

Şair sözünün oyatdığı yüksək vətənpərvərlik, qəhrəmanlıq duyğularıyla dolu on minlərlə Azərbaycan şairinə ünvanlanan məktublara da böyük ürək sahibləri cavab məktubları yazır, ən incə məqamlarda səbrli, dözümlü, qayğıkeş, diqqətli olmağı vəzifə borcları bilirdilər. Onlar tez-tez hərbi hissələrə gedir, döyüş gedən cəbhə xətlərində olur, döyüşçülərin vəziyyəti, güzəranı ilə yaxından tanış olurdu. Döyüş bölgələrində bəzi xoşagəlməz hadisələrin şahidi olan şairlərin dövlət səviyyəsində qaldırdığı problemlərin həllini tapması, bu da əsgərlərə mənəvi güc, qüvvət verirdi. Krım cəbhəsindən qayıdan kimi Rəsul Rza Mir Cəfər Bağırova ünvanladığı məktubunda yazır: «1942-ci il yanvarın sonunda Azərbaycan K (b) PMK-nın göndərişiylə siyasi işçilər və redaksiya işçiləri Kerçə-Krım cəbhəsinin Siyasi İdarəsinin

sərəncamına gəldilər... Limanın sərxoş komendantı əlində tapanca azərbaycanlı leytenantı komendaturaya salıb ən pis küçə söyüşləri ilə söyürdü. Söyüşlərin arasında «yeldaşı-paraziti» sözləri eşidilirdi. Həmin bu sözləri komendant Kerçdə öz rəhbərləriylə danışanda da təkrar edirdi: «Yenə bu parazitlər-yeldaşlar gəlib». Sonralar məlum oldu ki, komendantın söydüyü leytenantın heç bir təqsiri yoxmuş. Sərxoş komendant isə silahla hədələyərək leytenantı ardınca apardı. Biz bunu öz gözlərimizlə gördük və bu barədə akt tərtib etdik. Sonralar aydın oldu ki, Qamış-burun limanının komendantının hərəkətləri təsadüf deyilmiş. Ordu qərargahında bəzi rəhbər yoldaşların himayədarlığı ilə müxtəlif yerlərdə bu cür işlər olur, ayrı-ayrı yerlərdə-vaqonlarda, küçələrdə, ictimai yerlərdə belə söhbətlər eşitmək olar ki, guya Feodosiyanı azərbaycanlılar təslim ediblər, azərbaycanlılar vuruşmaq istəmir. Çox vaxt belə söhbətlərdə «azərbaycanlılar» əvəzinə «yeldaşı» sözünü işlədirlər ki, bu da rus dilində xüsusilə nalayiq və təhqiramiz səslənir.

Ordunun siyasi idarəsində ayrı-ayrı döyüşçülərin və komandirlərin belə qeyri-sağlam münasibətlərini bilə-bilə belə faktların aradan qalxması üçün heç bir şey etmirlər. Cəbhəyə yollanmaqdan əvvəl milli respublikalardan gəlmiş siyasi işçilərin ümumi iclası oldu və bu iclasda yoldaş Mexlis çıxış etdi. O dedi ki: «azərbaycanlılar hamıdan pis döyüşür». Heç bir real əsası olmayan belə bəyanatlar Qamış-burun komendantının özbaşınalığı kimi qeyri-sağlam hərəkətlərə qida verir. Sonrakı hadisələr göstərdi ki, Mexlisin sözləri tamamilə yersiz imiş, faktlara deyil, ayrı-ayrı şəxslərin yanlış və qərəzli məlumatlarına əsaslanırmış. O şəxslərin ki, hərbi uğursuzluqlarını döyüş əməliyyatlarına rəhbərlik etməkdə bacarıqsızlığını döyüşçülərin və ilk növbədə, azərbaycanlı, gürcü və erməni döyüşçülərinin boynuna qoymaq istəyir.

Fərarilik, düşmən tərəfinə keçmək, əzalarını zədələmək kimi biabırçı faktları bu və ya digər xalqın xüsusiyyətləri ilə bağlamaq köküdən yanlışdır. «Yeldaşı» və «Tiflis duxanşikləri» kimi ifadələrin müəllifləri məhz belə etmək istəyirlər. «396-cı diviziya» azərbaycanlılardan təşkil olunmuşdur. Bu diviziya yaranana qədər döyüşçülərimiz Krım cəbhəsinin başqa hissələrində idilər. Onların 90 faizi rus dilini, bu hissələrin komandirləri və siyasi işçiləri isə Azərbaycan dilini bilmir. Bunun nəticəsində acınacaqlı hadisələr baş verir. Rus dilini bilməyən döyüşçü komandirin əmrini başa düşmür və yerinə yetirmir. Belə hallarda komandir işin mahiyyətinə varmadan əmrə itaət etməyən döyüşçünü yerindəcə güllələyirdi. Ana söyüşünün (materşina) geniş yayılması da böyük bəladır. Məlumdur ki, bu, azərbaycanlılar üçün ölümdən betərdir».

«Rəsul Rza».

Qələm sahiblərinin belə sərt, ciddi, obyektiv müraciətləri təsirsiz qalmır. Mir Cəfər Bağırov özü bu işə qarışır, cəbhədə azərbaycanlıların vuruşduqları dəstələr onların dilini bilən komandirlərlə təmin edilir.

Azərbaycanın şair və yazıçılarının yaradıcılığında vətən və vətənpərvərlik mövzusu güclü idi və bu mövzunun müharibə illərində yeni keyfiyyətlərlə zənginliyi ədəbiyyatşünasların diqqət mərkəzində idi: «Vətən və xalq sənətkarın gözləri önündə indiyədək görünməmiş yeni bir qüvvətlə canlandı. Şairlər bu məfhumların hər ikisinə sıx-sıx, özü də həm müasir, həm də tarixi baxımdan onları vəhdətdə götürərək müraciət edirdilər. Qüvvətli hiss, daxili hərarət, poetika bu şeirlərin bir çoxunu birləşdirən ümumi cəhətlər idi. Şairlərimiz kəskin surətdə fərqlənən və biri digərinə zidd olan iki rəngdən-ağ və qaradan geniş istifadə edirdilər. Bu iki rəng iki duyğunun, iki hissin bədii ifadəsini vermək üçün

onlara kömək edirdi: vətənə, xalqa məhəbbət, faşizmə, düşmənə nifrət.

Şairlər vətəni əzizlərin əzizi, müqəddəslərin müqəddəsi kimi tərənnüm edir, onun böyüklüyündən, əzəmət və qüdrətindən qanuni iftixar hissi ilə söhbət açırdılar. Ana məfhumu ilə Vətən məfhumunun yanaşı qoyulduğuna və birbirinin sinoniminə çevrildiyinə də ən çox həmin illərin şeirlərində rast gəlirik (B. Nəbiyev).

Ana-Vətən «bir-birinin sinoniminə çevrildiyini, bu dövr əsərlərdə xüsusilə qüvvətli olduğunu görürük. Süleyman Rüstəm «Mən istərəm» şeirində yazır:

Mən istərəm sağ çıxmayım bahara,
Təki anam düşmənə baş əyməsin.
Bu müqəddəs, son davada hər yara,
Mənə dəysin, vətənimə dəyməsin!

«Vətəni ömrünə sonsuz yaraşıq» bilən şairlərimiz şeirləri ilə on minlərlə döyüşçü qəhrəmanlarımızın ruhuna, duyğusuna hakim kəsilən hissləri ifadə edirdilər. Şairlərimiz əsərlərində Vətənin obrazını yaradır, Osman Sarıvəlli «Ala çinar», S. Vurğun «Azərbaycan» şeirində bu ölkənin qədimliyini, möhtəşəmliyini, qüdrətini, ona olan hörmət və ehtiramını ümumiləşdirirdi.

Şeirlərin Vətənə məhəbbət, düşmənə, faşizmə nifrət hissini artırmaq qüdrəti vardı. İnsani simasını itirmiş faşistlərə, hərbçilərə nifrət qəlbini alovlandıran Məmməd Rahim «Vur, ölən faşistdir», Rəsul Rza «İntiqam», Əhməd Cəmil «Nişan üzüyü» və s. şeirlərində düşmənə xalqın qəlbində kini, nifrəti gücləndirir:

Gəzdim döyüş meydanını, cəbhələri dolaşdım,
O yerdə ki, sərin sular çağlardı dupduru,
Evlər gördüm külə dönmüş, çaylar gördüm qupquru.

Körpə gördüm dodağından damla-damla qan sızır;
Süngüsünə keçirmişdi onu faşist qansızı.
Qoca gördüm-əyilmişdi sinəsinə ağ başı,
Bacı gördüm-basdırılmış yerə diri qardaşı.
Ana gördüm-gənc yaşında gur saçları ağarmış,
Göyə sordum-yay günündə buluddan qar yağarmış?
Göylər dedi: bu qar deyil, cinayətin barıdır.
Zənn etmə ki, o gördüyün ömrü keçmiş qarıdır.
İyirmi altı bahar görmüş həyatında bu qadın,
Saçlarını ağartmışdır qanlı əli cəlladın.

(Rəsul Rzanın «İntiqam» şeiri)

Ukrayna torpaqlarının faşist işğalçılarından azad olmasında iştirak edən rota komandiri şair Böyükağa Qasımzadə qələm dostlarına yazırdı:

«Mən indi rota komandiri vəzifəsində çalışıram. Nifrətə layiq olan quldurlarla vuruşmalarda, günahsız körpələrin, dar ağaclarından asdırılan Vətən qızlarının və ağsaçlı anaların, nəhayət, böyük Şevçenko yurdunun, Şevçenko poeziyasının azadlığı uğrunda vuruşmalarda ölməkdən şərəfli şey yoxdur. Mən gecə-gündüz bu əqidə ilə yaşayır, öz döyüşçülərimi bu ruhda silahlandırır və hərəkət edirəm» («Ədəbiyyat qəzeti» 31 yanvar 1944-cü il).

Böyükağa Qasımzadə İkinci Dünya müharibəsinin ilk günlərindən səfərbərliyə alınmış, hərbi məktəbdə kursant, 1941-ci ilin dekabrında Cənub cəbhəsində atıcı rotasının komandiri, siyasi şöbənin təlimatçısı, Zaqafqaziya cəbhəsində «Döyüşçü» qəzeti redaksiyasında məsul katib (1941-1945) işləmişdir. 1948-ci ilə kimi orduda çalışan şair sonra «Ədəbiyyat qəzeti»ndə incəsənət şöbəsinin müdiri (1948-1950), daha sonra «Azərbaycan» jurnalında poeziya şöbəsinin müdiri (1953-1957) işləmişdir.

Ədəbi yaradıcılığa 30-cu illərdə başlayan, ilk şeirlərini məktəblilərə həsr edən B. Qasımzadənin «Murad» (1937), «Şirin sözlər» (1939), «Anarsan məni» (1945), «Bahar şəfəqləri» (1949), vəfatından sonra isə «Əsərləri» (1961), «Şirin sözlər» (1961), «Seçilmiş əsərləri» (1976) çap olunmuşdur. 41 yaşında dünyasını dəyişən şairin yaradıcılığında tərcümələri də mühüm yer tutur. A.S.Puşkin, N.Nekrasov, N.V. Qoqol, T.Şevçenko, İ.Franko, M.Bajan, P. Tıçina və bir sıra xarici ölkə yazıçılarının əsərlərini ana dilimizə çevirmişdir. Füzulinin «Yeddi cam», M.F. Axundovun «Puşkinin ölümünə Şərq poeması»nı farscadan, «Sasunlu Davud» eposunu ermənicədən tərcümə etmişdir.

Böyükağa Qasımzadə ilə birlikdə Zeynal Cabbarzadə, İslam Səfərli bir əli qələmli, bir əli süngülü Azərbaycan şairləri idi. S.Vurğun, R.Rza, O. Sarıvəlli, M. Rahim, S.Rüstəm və s. döyüşçülərə ünvanlanan şeirlərində onlarda doğma torpaqlarını sevmək üçün yazına, yayına vurğunluq, vətənə dərin məhəbbət hissini artırırdılar.

80 illik fəaliyyəti dövründə Azərbaycan Yazıçılar Birliyinin üzvləri olan və üzvü olmayan neçə-neçə qələm sahibləri müharibənin dəhşətlərini yaşadılar, yaşadıqları dünyanın dəhşətini, faciəsini ibrət dərsi olsun deyə gələcək nəsillərə çatdırmaq üçün kitablara köçürdülər. Cild-cild kitablarda sülhsevər, humanist Azərbaycan xalqının fikir və ideyalarını, arzu və istəklərini ifadə etdilər. Sovetlər Birliyinin bir parçası olan Azərbaycanın düşmən əlinə keçməməsi üçün millətinə, xalqına döyüşlərdə dəstək oldular. Qanlı müharibədə milyona yaxın qurban verən xalqımızın mərdlik, qəhrəmanlıq dolu ömrünü, onların cəsur, mərd, mübariz bir xalqın övladları olduğunu sübut edən qəhrəmanlığını, döyüş şücaətini vəsf etdilər. Koroğlu, Nəbi cəsurluğu ilə se-

çilən, sevilən, Qazan, Beyrək qeyrəti ilə fəxr edən Azərbaycanımızın şəninə dastanlar, epopeyalar yaratdılar. Müharibənin ən dəhşətli döyüş səhnələrini öz gözləri ilə görüb, qələmə alan şairlərimiz, yazıçılarımız oldu ki, həyatını bu yolda qurban verdilər. Rəsul Rza, Ə.Cəmil, M.Rahim, S. Vurğun, S.Rüstəm, Zeynal Cabbarzadə, Ənvər Əlibəyli, Böyükağa Qasımzadə… müharibənin odu-alovu içində bərkidilər. Neçə-neçə cəsur keyfiyyəti ilə seçilən oğullarımız öz istedadı, qabiliyyəti ilə müharibənin içində yetişdilər. AYB-nə üzv seçildilər. Zeynal Cabbarzadə döyüşlərdə ağır yaralanıb, gözlərini itirəndə onun yazdığı şeirlərin vurğunu olan S.Vurğun şairə baş çəkir, onu Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə qəbul edir.

33-37-ci illərin dəhşətli repressiyalarını yaşamış Azərbaycan yazıçısı müharibənin dəhşətləri içində milli azadlıq, bütövlük, bütöv Azərbaycan naminə Ordu sıralarında Cənubi Azərbaycanlılarla bir oldular, şah rejiminə qarşı vuruşan, mübarizə aparan Söhrab Tahirlərin, Balaş Azəroğulların, Əli Tudələrin, Mədinə Gülgünlərin... mənəvi arxası, dəstəyi oldular, «Təbrizim, Təbrizim»-deyib keçmişiylə fəxr edən, bu gününə dözməyən, şah rejimindən qurtulması üçün hər bir fədakarlığa hazır olduğunu çəkinmədən birbaşa mətbuatda bəyan edən, cəbhədə döyüşçü, ideologiyada döyüşçü S.Vurğun, R.Rza, S.Rüstəm, Ə.Vahid, M.Rahim, O.Sarıvəlli, Ə.Cəmil... daima Azərbaycan-Vahid Azərbaycan istəyindən əl çəkmədiklərini bildirdilər, bu hisslə yaşayan oğullarımız kimi fəaliyyət göstərdilər.

Böyük Vətən müharibəsi illərində qələmlə yanaşı silahla da düşmənə qarşı döyüşlərdə qəhrəmanlıqla vuruşan, şəhid olan şairlərimiz Abdulla Faruk, Məhərrəm Əlizadə, Hüseyn Natiq kimi tarixə düşmüş, qısa ömür ərzində söz sənəti cəbhəsində də öz izlərini qoymuşlar. 1934-cü ildən

bədii yaradıcılığa başlayan mənalı, sadə və aydın bir dilə malik hekayələr müəllifi kimi tanınan Məhərrəm Əlizadənin yaradıcılığı ədəbi tənqidçilərin diqqətini cəlb etdi, o zamankı «bədii nəsrimizə, son dərəcə parlaq istedada malik bir nasir» gəldiyini gördülər. Yazıçının 1936-cı ildə çapdan çıxan «Dostlar» adlı hekayələr kitabında «Yadındamı?», «Dostlar», «Qız Musa», «Südabənin son məktubu» və s. hekayələrinin «orijinal və dolğun məzmunu», müasir ideya, cazibədar bədii forması ədəbi ictimaiyyətin marağına səbəb oldu. M. Əlizadənin əsərlərində ailə-məişət, təlim-tərbiyə, xalqlar dostluğu, yeni həyat uğrunda mübarizə kimi aktual problemlər dövrün bədii-estetik fikri səviyyəsindən həll olunurdu: «Qonaq» adlı ikinci hekayələr kitabı çapdan çıxdığı zamanlarda yazıçı odlu-alovlu, qanlı-qadalı döyüş meydanlarında vuruşurdu. «Əsir», «Kədər və sevinc», «Mərəkə», «Bacıqızının konspektləri», «Qonaq», «Köməк», «Ata və oğul», «Rəna» adlı hekayələr toplusunun nəşrini görmək yazıçıya nəsib olmadı.

Bu hekayələrdə təhsil, tərbiyə, seçdiyi ixtisasa ciddi yanaşma («Bacıqızının konspektləri»), ali təhsilə qeyri-ciddi münasibət, zəhmətdən qaçmaq, mədəni, mənəvi gerilik tənqid olunur, xalqın inqilabi dirçəlişinə («Ata və oğul»), geriliyə səbəb olan problemlər qoyulur.

Məhərrəm Fərəc oğlu Əlizadə İkinci Dünya müharibəsi başlanandan könüllü əsgər getmiş, topçu alayında vuruşmuş, 1942-ci il noyabrın 17-də Krasnodar vilayətinin Tuapse rayonu İndyuk kəndində gedən vuruşmalarda həlak olmuşdur. İstedadlı yazıçının seçilmiş hekayələri 1962-ci ildə («Kədər və sevinc») toplanıb nəşr olunmuşdur.

M. Əlizadə taleyini yaşayan, şeirlərindəki «tribunluğu, romantik coşqunluğu, qüdrətli publisistik üslubu ilə tanın-

mış» Abdulla Faruk az ömrüylə xalq arasında, geniş oxucu kütlələri içində tanınmış istedadlı şairlərdən idi. «Üfüqlər qızaranda» (1929), «Yarış» (1933), «Talış dağları» (1935), «Döyüş yollarında» (1936), «Dalğalar» (1937), «Qızıl əsgər» (şeirlər) (1938), ölümündən sonra «Sahilsiz qəlbimin dalğaları» (1989) kitabları nəşr olunub. Böyük Vətən müharibəsi illərində kiçik leytenant rütbəsində cəbhədə (1942-43) iştirak etmiş, «Sovet Gürcüstanı», «Qızıl əsgər» cəbhə qəzetlərinin səhifələrində döyüş ruhlu şeirləri ilə iştirak etmiş, «Qara Məmməd» (5 pərdəli, 15 şəkilli mənzum pyesini), «Otuz qəhrəman» poemasını yazmışdır. Tənqidçilər onu «müasir ruhlu sənətkar», yeni quruculuq işərinə başlayan, həyatını yenidən qurmağa çalışan, bu yolda müvəffəqiyyətlər əldə edən xalqın həyatı, tarixi keçmişini əsərlərində əks etdirən, yaşadığı dövrdə baş verən beynəlxalq hadisələri qələmə alan əsərlər müəllifi kimi yüksək qiymətləndirir. Onun «Buruqlar», «Yarış» adlı şeirlərində qurucu, yaradıcı xalqın əməyi tərənnüm edilir. İnqilabdan sonrakı dövrdə Azərbaycanda baş verən dəyişikliklər «On bir il» şeirində maraqlı bir kompozisiya üzərində verilir. O, xalqını, onun həyatında baş verən hadisələri, eyni zamanda dünyanı düşünür, planetimizin taleyi, gələcəyi («Not-Front») haqqında düşüncələrini verir, almanları ali irq adlandıran faşist nəzəriyyəçilərinin havadarlarına qəzəbini ifadə edir.

Utansın Avropanın bugünkü vəhşətindən,
Bəyaz irqlər nəslini mədh edən, tərif edən.
Mühərrirlər, ədiblər, alimlər, filosoflar,
Həyat fəlsəfəsindən bixəbər filosoflar.

Bu şeiri alimlər, ədəbiyyatşünaslar, tənqidçilər Səməd Vurğunun «Ölüm kürsüsü», Rəsul Rzanın «Almaniya» əsəri ilə bir «sırada dura biləcək, siyasi kəskinliyə malik poeziyamızın gözəl incilərindən biri» kimi qiymətləndirir. «Həbəşistan yollarında» şeiri də beynəlxalq mövzuda yazılmış şeirlərindəndir və burada həmin illərdə Roma, İtaliya, İspaniya, Həbəşistan və b. ölkələrdəki milli-azadlıq hərəkatı, Avropa ölkələrinin bir çoxunda faşizmin baş qaldırması şairin diqqət mərkəzindədir. Abdulla Faruk lirik şair, eyni zamanda poema janrında maraqlı əsərlər yaradan bir sənətkar idi. «Talış dağları» poeması lirik səpkidə yazılmış, Vətənimizin təbiətinə həsr olunmuş əsərdir.

Böyük Vətən müharibəsi iştirakçısı, bu müharibədə şəhid olmuş, Mehdi Hüseynin «Buruqlar şairi» adlandırdığı Hüseyn Namiq erkən yaşlarında şeirlər yazmağa başlamış, «Buruqlar» adlı ilk şeirlər kitabı 1931-ci ildə çap edilmişdir. Bu kitaba M.Hüseyn ön söz yazıb, bir tənqidçi kimi onun «yaradıcılığının poetik istiqamətini» müəyyənləşdirib. Şeirlərinin əsas mövzusu neft sənayesidir. Yaradıcılığa 1927-ci ildə «Yeni yol» qəzetində çıxan «Alqış» şeiri ilə gəlib. Neft sənayesində çalışan fəhlələrin əməyini, onların obrazını yaratmağa çalışan şair özünün «neft və mazut şairi» olmasıyla fəxr edirdi:

Siz ey yaylaqlarda ömür sürənlər,
Mazıt şairini salın bir yada.
Nə qədər istilər deşsə beynimi,
Yenə mən sərinəm odlu dünyada.

«Əsərlərində fəhlə əməyinin ülviyyəti «yeni münasib bənzətmə və metaforalarla, obrazlı bir dil ilə öz bədii ifadəsini tapırdı».

«Qızıl karvanlar» (1974) kitabı da şairin ölümündən sonra 1974-cü ildə çap olunub. Onun şeirlərinə Ü.Hacıbəyov («Qara gözlü», «Süvarilər marşı», «Qızıl əsgər»), Niyazi, S. Rüstəmov («Yar məktubu») mahnılar bəstələmişlər. M.Y.Lermontovun, Süleyman Stalski, M.Tursunzadə və başqalarının

əsərlərini tərcümə etmiş H.Natiq İkinci Dünya müharibəsinin ilk günlərindən döyüşlərdə iştrak etmiş, 1941-ci ilin axırlarında Belarusiya uğrunda döyüşlərdə həlak olmuşdur.

Məmməd Aranlı tələbəlik illərində «Qara xal qız», «Gecənin qəlbi», «Aldanmış ümid» və s. hekayələrini qələmə almış, 1940-cı ildə keçirilən müsabiqədə «Fırtına» hekayəsinə görə mükafata layiq görülmüşdür. İkinci Dünya Müharibəsi başlayarkən səfərbərliyə alınanda institutun son kursunda oxuyurdu. Suxumi hərbi piyada məktəbini kiçik leytenant rütbəsi ilə bitirir. 416-cı atıcı diviziyası yaradılanda vzvod, səhra rota komandiri olan gənc şair 1942-ci ildə Mozdok uğrunda gedən döyüşlərdə iki dəfə yaralansa da, sağalandan sonra «Sovet döyüşçüsü» cəbhə qəzetinə ədəbi işçi, sonra məsul katib (1943-1944) təyin edilir. Müharibə dövründə Ruminiya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriya ölkələrində olur, cəbhə qəzetlərində oçerk və hekayələri çap olunur. Gündəliyi döyüş təəssüratı ilə, səhnələri ilə zəngindir. 1945-ci ildə avqustda Sovet Ordusunun siyasi idarəsi onu Bakı hərbi dairəsinin orqanı olan «Vətən şərəfi uğrunda» qəzeti redaksiyasına göndərmişdi, hərbi şücaətinə görə iki dəfə «Qırmızı ulduz», «Vətən müharibəsi» orden və medallarla təltif olunmuş yazıçı Məmməd Aranlı 30 yaşında, yaradıcılığının çiçəkləndiyi bir vaxtda vəfat etmiş olsa da, adı müharibə dövründə sənət adamlarının, xüsusilə şair və yazıçılarımızın sıralarındadır, yazdığı vətənpərvər əsərləri ilə Azərbaycan ədəbiyyatımızın səhifələrindədir.

Xalqımızın yüz minlərlə qurban verdiyi Böyük Vətən müharibəsi, onun qanlı-qadalı səhnələri və müharibədə göstərdikləri misilsiz qəhrəmanlıqlar, eləcə də arxa cəbhədə fəaliyyət göstərən zəhmətkeş insanların əməyi şair və yazıçılarımızın əsərlərində yetərincə öz ifadəsini tapmışdır.

Müharibənin dünya xalqlarına, eləcə də xalqımıza vurduğu zərbələr, bu müharibəyə nifrət, sülh, əmin-amanlıq istəyi ilə zəngin əsərlər Azərbaycan ədəbiyyatı tariximizi zənginləşdirən dəyərli əsərlər kimi ədəbiyyatşünaslar, tənqidçilər tərəfindən geniş şəkildə təhlil və tədqiq edilmişdir.

1946-1960-ci illərdə Azərbaycan ədəbiyyatı

Bütün dövrlərdə olduğu kimi, müharibədən sonrakı dövr ədəbiyyatında da insan, onun xarakteri, yaşadığı mühit, həyatı təsvir obyektidir. Müharibədən sonrakı dövrlərdə dünya xalqlarının təfəkküründəki təəssürat, müstəqillik, azadlıq duyğularının güclənməsi, dünya xalqlarının müstəməkə zəncirindən tamamilə qurtulması üçün beynəlxalq həmrəylik nümayiş etdirməsi, baş verən hadisələrə aktualcasına yanaşmaq-insan xoşbəxtliyi, səadəti naminə mübarizə bu dövr ədəbiyyatının ruhu idi.

S. Vurğun ən yeni dövr Azərbaycan poeziyasının, müasir Azərbaycan dilinin banisi, azərbaycançılıq ideologiyasının yaradıcılarından biri, milli şair, mütəfəkkirdir. Yaradıcılığının ilk dövrü 20-ci illərə təsadüf edən S. Vurğunun poetik üslubu və onun əsərləri ilə heca vəzni milli şeir düşüncəmizin ən gözəl, ən qüdrətli ifadə tərzi olduğu sübut olundu. 1932-ci ildə bolşevik partiyası ədəbi təşkilatları yenidən qurmaq üçün qərar verdi. Bu qərarda müsavatçılıq-burjua millətçiliyi tənqid olunurdu. Klassik şeir üslubuna, əruza üstünlük verən, bu yöndə əsl mədəni və savadlı ədəbiyyat sayılan romantik türk şairləri ruhunda yazılan-poeziyaya-romantik və millətçi türk inqilabi poeziyasına yolu tapdı. Türk millətçiliyinin əvəzinə Azərbaycan millətçiliyinin poeziyasında «azərbaycançılıq, vətənçilik məfkurəsi»ni əsas tutaraq xalqımızın qəhrəmanlarını, mədəniyyətini, onun tarixini vəsf etməyə başladı. Azərbaycanın öz milli şeir üslubu uğrunda mübarizəsi missiyasını üzərinə götürdü. Ona qədər Azərbaycan poeziyasında Azərbaycan xalqının öz varlığı ilə fəxr edən əsərlər az idi. S.Vurğun A.A.Bakıxanov, M.F.Axundov, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Ə.Rəsulzadə, C.Cabbarlı tərəfindən əsası qoyulan «azərbaycançılıq məfkurəsi»ni inkişaf etdirən «Azərbaycan» şeirini yazdı və ömrünün sonuna qədər Azərbaycan epopeyası yaratdı, amma bitirmədi...

Şair başa düşürdü ki, ən ali vətənpərvərlik hissi doğma vətənin varlığıyla, onun zəngin mənəvi sərvətləriylə fəxr etmə hissidir. Onun «Azərbaycan» şeiri ümumilikdə «milli qürur hisslərimizi tərənnüm edən epopeya» kimi dəyərləndirilir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan! Azərbaycan.

Dağlarının başı qardır,
Ağ örpəyi buludlardır,
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin!

«Komsomol poeması» şairin şəxsi duyğuları, özünün daxili aləmi, fərdi həyat müşahidələrinə əsasən yazılmış, şeiriyyət baxımından gözəl «şairin yaradıcılıq ruhunu ən parlaq əks edən bir abidə» kimi qiymətləndirilir.

Faşistlərin ölkəmizə hücum xəbərini eşidən kimi yazdığı «Vətənin keşiyində» şeirində faşizm üzərində qələbə çalacaqlarına inam dolu hisslərini ifadə etdi.

Bu ellər gecəni qatıb gündüzə,
Faşist ordusuyla gəlib üz-üzə.
Dastanlar yazacaq öz hünəriylə,

Ordular basacaq öz zəfəriylə.

Müharibənin ilk günlərində əynində hərbi paltar, bir əlində qələm, bir əlində silah cəbhə bölgələrində olan, döyüşçülərə mənəvi ruh verən, onlara xalqımızın azadlıq uğrunda qazandığı qələbələrdən söz açan, əsgərlərin sabaha inamını artıran-sözüylə, şeiri ilə bir Ordunun «işini görən» qələm dostları ilə birlikdə oldu. Tərənnüm etdiyi qəhrəmanların döyüş şücaətləri ilə fəxr edirdi, azərbaycanlı döyüşçülərin, təyyarəçi igidlərin, qəhrəmanlığı dövlət tərəfindən yüksək qiymətləndirilən, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən həmvətənləri qədər vətənpərvər şair sevinirdi və bu sevinc yazıb-yaratdığı şeirlərin, poemaların mövzu və ideyasına çevrilirdi.

Müharibədən sonra Vətəninə, onun daşlı-qumsallı, aranlı-dağlı, yaylı-yaylaqlı, zümrüd meşəli gözəlliklərinə, heyran S. Vurğun «Muğan» poemasını torpağının, vətəninin gözəlliklərinə, Muğan-Mil düzündə gedən quruculuq işlərinə, yeni salınan gözəl şəhərlərə, bu şəhərlərin tikintisində xarüqələr göstərən vətən oğullarının istedadına, qabiliyyətinə, əməksevərliyinə məftunluğunu ifadə edir. Bolşeviklərin zəhmətkeş siniflərin ədəbiyyatı kimi dəyərləndirdiyi xalq ədəbiyyatına S.Vurğun xəlqilik ideyaları baxımından yanaşır. Xalq ədəbiyyatının toplanması, nəşri, bu mövzuda əsərlər yazılması onu sevindirir. «Bulaq əfsanəsi», «Qız qayası», «Aslan qayası», «Ayın əfsanəsi», «Hörmüz və Əhriman» kimi poemalarının süjetini xalq əfsanələrindən götürməklə folklorla zəngin gözəl əsərlər yaradır. S.Vurğunun tarixi mövzularda qələmə aldığı əsərlərdə müasirlik güclüdür. Müraciət etdiyi mövzu müasir ideya və motivlərlə şərtləndirilirdi. «Dar ağacı», «26-lar», «Üsyan», «Zamanın bayraqdarı», «Macəra» kimi poemaları buna nümunədir. Həmişə Azərbaycan qadınlarının ağır taleyini düşünən, onlara poemalarında xüsusi yer ayıran, Azərbaycan qadının səadətini, xoşbəxtliyini arzulayan motivlər onun «Aygün» mənzum romanında daha geniş planda öz əksini tapır. Aygünün timsalında «azərbaycanlı qadın idealını ümumiləşdirmiş» şairin ailə-məhəbbət problemlərinə həsr olunmuş bu poeması yüksək bədiiliyi ilə də diqqəti cəlb edir. Poemada qoyulan problemlər, sədaqətli, ismətli Azərbaycan qadının mükəmməl obrazı ədəbi tənqidin diqqətindən yayınmır.

Səməd Vurğunun dramaturgiyası da yaradıcılığında mühüm yer tutur. Azərbaycan ədəbiyyatında adətən mənzum dramlar əruz vəznində yazılırdı. Hüseyn Cavidin yaradıcılığında bunu görürük. S.Vurğun bu sahədə də bir novator şair kimi özünü sübut etdi. Şeirmizin ana vəzni olan heca vəznində «Vaqif» (1937), «Xanlar» (1939), «İnsan», «Fərhad və Şirin» (1945) mənzum dramlarını yazdı. «İnsan» dramını çıxmaq şərtilə yerdə qalan dramları tarixi mövzuda yazmış S.Vurğun bu əsərlərdə C.Cabbarlının davamçısı kimi çıxış etdiyi bildirilir. Tarixi mövzulardan o da «xalqımızın qədimlərdən gələn taleyi barədə görüşlərini ifadə etmək üçün istifadə edirdi». Bu dramlar içərisində «İnsan»da şair müharibə və sülh problemləri ilə bağlı fəlsəfi düşüncələrini verir. 20 milyondan çox insanını itirmiş Sovet xalqının düçar olduğu bu müharibə bəşəriyyət tarixində ən böyük, ən dəhşətli müharibə idi. Şair bu pyesdə müharibənin səbəblərini düşünür, dünya müharibəsinin bəşər sivilizasiyası üçün nə kimi böyük təhlükə olduğunu anlayan şair bu müharibələrə son qoyulmasını, bəşəriyyətin sabahı üçün narahatçılıqlarını ifadə edirdi.

«Vaqif» dramı şairin dramaturgiya yaradıcılığının «zirvəsi» sayılır. Əsas mövzusu Azərbaycan xalqının XVIII əsrin

sonunda xarici işğalçılara qarşı mübarizəsidir, pyesdə xəlqilik güclüdür. Xarici işğalçılara qarşı mübarizənin önündə xalqın özü durduğunu görürük. Əsərin sonunda da xalq zəfəri özü qazanır. Zəfərlə bitən sonluq «əslində xalqın öz ixtiyarını öz əlinə alması, öz mənliyini təsdiqləməsi, müstəqil dövlət və güc kimi birləşməsi» demək olduğunu tənqidçilər söyləyir. Bu fikirlərin əsərdə aydın səslənə bilməməsinə səbəb isə kommunist senzurası idi. Bu poemada qızğın vətənpərvərlik ruhu, Səməd Vurğun poetikasının gözəlliyi əsasdır. Azərbaycan şeirinin, dram dilinin nadir incisi kimi dəyərləndirilən əsərdə dramatik replikalar, nəsrlə yazılan dramatik replikalardan daha «yığcam», «yüksək şeiriyyətə» malik olduğu dönə-dönə qeyd edilmişdir.

Nizaminin «Leyli və Məcnun», Ş. Rustavelinin «Pələng dərisi geyinmiş pəhləvan», A.S.Puşkinin «Yevgeni Onegin», Maksim Qorkinin «Qız və ölüm» poemalarını, İ. Çavçavadzenin «Şair», «Vətən», C.Cambulun «Ellər baharı» şeirlərini dilimizə yüksək sənətkarlıqla tərcümə etmişdir. Orijinal keyfiyyət baxımından da şairin tərcümələri seçilir.

S.Vurğunun «Şairin andı» (1939), «Fanar» (1932), «Könül dəftəri» (1934), «Şeirlər» (1935), «Azad ilham» (1939), «Səadət uğrunda» (1942), «İstiqbal təranəsi» (1947), «Muğan» (1950), «Aygün» (1956), «Dağıstan» (1940), «Dram əsərləri» (1950), «Dünyanın xəritəsi» (1951) kitabları çap olunmuşdur. Ölümündən sonra «Çiçək» (1957), «Lirika» (1957), «Komsomol poeması» (1958), «Seçilmiş əsərləri 2 cilddə (1966), «Azərbaycan» (1970), «Böyük sənət uğrunda» (1970), «Əsərləri 5 cilddə (1972) və s. kitabları nəşr edilib. Əsərləri, bir sıra kitabları rus, gürcü, türkmən və b. xalqların dilində çap edilib. 1954-55-ci illərdə 3 cildliyi, 1960-1972 ci illərdə 6 cildliyi, 1985-ci ildə 7 cildliyi nəşr edilmişdir.

1935-1945-ci illər arasında şairin yaradıcılığında yeni bir dövr açılır. Müasir siyasi hadisələr, yeni məfkurənin ardıcıl təbliği, müharibənin odlu-alovlu illəri, arxa cəbhə, ön cəbhə əsgərlərinin, zəhmətkeşlərinin vətəni təhlükədən qurtarmaq üçün apardığı mübarizə şairin yaradıcılığında mühüm yer tutur. Onun əsərlərindəki «filosof xəyalı», alim təmkini, təfəkkür üstünlüyü, həyatı, hadisələri, adamları hər tərəfli, birinci növbədə məfkurəvi tərəfdən, yəni məna cəhətindən işaqlandırma» qabiliyyəti, təbiət mövzusunun onun şeirlərində «başqa bir məzmun və keyfiyyət kəsb etməsi, «realizm işində romantikasının da «yeni keyfiyyət» daşıması, yaratdığı əsərlərdə «həyata arxalanıb qanadlı xəyala meyil etməsi» tənqidçilərin tədqiqatında araşdırılır, təhlilini tapır.

Meyvəsiz ağacdır xəyalsız insan.
Günəşsiz bir bahar saralıb solar.
Xəyalsız gələcək qaranlıq olar

-deyən şairin duyğularında tənqidçilər «bu xəyalın zəminsiz, bünövrəsiz» olmadığını söyləyir: «S.Vurğunda xəyal ictimai hadisələrin istiqamətverici cəhətlərini tapıb, ilk sıraya çəkmək və onları yüksək əməllər baxımından mənalandırmaq şəklində verilir. Adamların şəxsi, daxili aləmi lirik üslubla veriləndə də Səməd Vurğun gələcəyi, ideallarla yaşamağı və fərəhlənməyi unutmur. Bu hal şairə imkan verir ki, hadisələri bəsitlikdən, məişətin min cür xırdalığından xilas edib, onları tarixin əsas inkişaf qanunları ilə işıqlandırsın» (M.Cəlal).

Onun beynəlxalq mövzuda, müasir dövrün proseslərini özündə əks etdirən «Zəncinin arzuları» poeması «məzlum xalqların, imperialist qüvvələrin pəncələri altında əzilməkdən təngə gələn xalqların, xüsusilə qara dərili xalqların fa-

şizmə, dünya imperializminə qarşı «quruluş mübarizəsini» təsvir edən sağlam siyasi istiqamətli əsəridir və bu mövzuda şairin silsilə şeirləri («Mən də bir əsgər kimi», «Ölüm kürsüsü», «Yandırılan kitablar» və s.) vardır və burada həm zəncinin taleyi göstərilir, həm də imperializmin yırtıcı, qəddar siması ifşa edilir: «Zənci kimdir? O, Amerika imperialistlərinin zülmü altında yaşayan və əsrlər boyu istismar məngənəsində sıxılan bir xalqın tipik nümayəndəsidir. İndi, bütün xalqların öz azadlıqları uğrunda ayağa qalxdıqları bir zamanda, şübhəsiz ki, «iliyinə bıçaq dayanan» qara zənci «ayaqdakı tüfəng kimi açılacaqdır», «qəfəsdəki pələng kimi zəncirini gəmirəcəkdir». Zənci üzünü tərəqqipərvər bəşəriyyətə, azad xalqların nümayəndələrinə tutaraq dollar dünyasının zülm və işgəncələrindən acı-acı şikayətlənir:

-Amerika, yeni dünya, Vətənimdir, dedim bayaq,
Qızıl, gümüş mədənidir yarandığım qara torpaq.
Fəqət, mənim bu torpaqda yaşamağa haqqım varmı?
Vətənsiz də insan olan insan kimi yaşayarmı?»

Səməd Vurğun gözəl şair, epik əsərlər, dram əsərlər müəllifi, tərcüməçi, siyasi xadim olmaqla bərabər yüksək elmi-nəzəri məsələləri özündə ehtiva edən fikirlər müəllifidir. Onun tribunalardan müxtəlif qurultaylarda söylədiyi məruzələrdə ədəbiyyatımızın düzgün fəaliyyəti, sənət, yaranan əsərlər, poeziyanın inkişaf istiqamətləri öz əksini tapır. 1954-cü ildə Sovet yazıçılarının II Ümumittifaq qurultayındakı məruzəsində lirika haqqında söylədiyi fikirlər, xalq ədəbiyyatının toplanması, nəşri ilə bağlı dəyərli fikirləri var: «Həyatımızın çoxtərəfli və rəngarəng olması lirik formaların da rəngarəngliyi üçün imkan yaradır, lirik şairdən surətlərin müxtəlifliyini, canlılığını və boyaların rəngarəng bolluğunu tələb edir. Lirika zəmanəmizin ən qabaqcıl ideyalarını təbliğ edərək vəhşi eqoizm əleyhinə insanı, onun

iradəsini və şəxsiyyətini zəiflədən və pozğunlaşdıran bədiilik əleyhinə, insanı şikəst edən, fəaliyyətsizliyə çəkən hisslər əleyhinə mübarizə aparır, yeni insani hissləri təsdiq edir».

Müasir Azərbaycan şeirinin, müstəqil poetik istiqamətin formalaşmasında ardıcıl, sistemli mübarizə aparan Rəsul Rzadır. Yaradıcılığının ilk günlərindən yaratdığı əsərlərlə Azərbaycan poeziyasının zirvələrinə yüksələn Rəsul Rza böyük sənətkarlar arasında özünəməxsus yer tutmuşdur. «Bu yolda istər sənətkarlıq baxımından, istərsə də obyektə münasibətdə şairin yaradıcılıq tərəddüdləri bəlkə də olmalıdır: otuzuncu, qırxıncı, əllinci, altmışıncı illərin şairləri, mövzu müxtəlifliyinə baxmayaraq bir-biri ilə səsləşir. Onların hamısında Rəsul Rza ruhu vardır» (Y.Seyidov).

Rəsul Rza Azərbaycan poeziyasında sərbəst vəznin möhtəşəm abidəsini qaldırıb. Ondan əvvəl də Azərbaycan ədəbiyyatında sərbəst şeir nümunələri olmuşdur. Ancaq poeziyamızda sərbəst şeirə vətəndaşlıq hüququ qazandırıb, onu istiqamətləndirib, başqa vəznli şeirlər səviyyəsinə qaldırıb: «Onun sərbəst şeirləri formasına eləcə də mövzusuna, məzmununa, həyat həqiqətinin ifadə tərzinə görə də heca vəznli şeirlərdən fərqlənir. Tənqidçilər, dilçilər onun heca vəznli şeirlərinin «əksəriyyətində xəfif bir romantika izləri görünürsə, sərbəst şeirləri realistliyi ilə səciyyələnir. Birincilərdə hiss, ikincilərdə fikir güclüdür»-deyirlər. Məmməd Arif bu fikirlərində haqlıdır ki, «fikir Rəsul Rza şeirlərinin hərəkətverici qüvvəsini, onun mayasını təşkil edir».

Rəsul Rza heca vəzninin bütün əsas ölçülərində şeirlər yazmışdır. «Bunların içində «Beşik nəğməsi», «Oğullar», «Pioner qızım»-yeddilik, «Dəniz», «Gözəl», «Bülbül»-səkkizlik, «Bəxtiyar»-onluq, «Şam»-on üçlük, «İki lövhə», «Bakı danışır», «Firdovsiyə»-on dördlük, «Yurdumuzun qəhrə-

manları», «İntiqam»-on beşlik, «Lövhə», «Vətən», «Pilot qardaş»-on altılıqdır. Yeddi, səkkiz hecalı şeirləri kimi on beş, on altı hecalı şeirləri də rəvan oxunandır, Rəsul Rzanın heca vəznində yazdığı şeirləri də onun yaradıcılığında əhəmiyyətli yer tutur. Doğrudur, sərbəst şeir poeziyamızın inkişafının müəyyən mərhələsində meydana gəlib, böyük bir inkişaf yolu keçib, formaca fərqlənsə də, klassik poeziyamızla bağlıdır, heca vəznindən, hətta əruzdan da qidalanır. Azərbaycan sərbəst şeirini bu milli zəmindən ayırmamalıyıq. Rəsul Rza yaradıcılığında sərbəst şeir daha ciddi inkişaf etdirilib, qol-qanad atıb, onun sayəsində sərbəst şeir yaradıcıları, özü də bu dəyərli bədii əsərlər bu formada yaranıb, oxucunu öz sehrində əritməyi bacarır. Bəzi şairlər bu şeir şəklindən sui-istifadə edib, qarışıqlıq tənqidçilərin etirazına səbəb olub. Onlarda sərbəst şeirlə daxili qafiyəli, ritmli nəsr əsəri olan mənsur şeir bir-birinə qarışır, nəsrlə şeir arasına körpü salınır, bu müxtəlif janrların dilləri eyniləşməyə doğru gedir. Bu isə artıq sərbəst şeir problemlərinin sərhəddini aşıb nəzm və nəsr məsələsinin ümumi probleminə çevrilir və narahatlıq yaradır. Nəzərə almaq lazımdır ki, sərbəst şeir də şeirdir, nə qədər sərbəst olsa da, özünəməxsus xüsusiyyətləri nə qədər çox olsa da, yenə şeirdir və şeirin ümumi tələblərinə tabe olmalıdır (Y.Seyidov).

Rəsul Rza məhz bu vəznin öyrədilməsi yolunda öz şeirləri ilə əsl müəllim, bir məktəb oldu. Özündən sonra bu vəznin mükəmməl nümunələri ilə Fikrət Qoca, Fikrət Sadıq, Əli Kərim, İsa İsmayılzadə... kimi ədəbiyyat aləmində öz sözünü, imzasını qoymuş şairlər yetişdi.

Rəsul Rza «Bir gün» şeiri ilə ədəbiyyata gəlib. Dövrün mətbu orqanlarından «Dan ulduzu», «Yeni fikir», «Şəfəq»in səhifələrində dərc olunan «Oğul qatili», «Dilarə» hekayələri, şeirləri, bir sıra məqalələri onu ədəbiyyat aləmində

tanıdıb. Sənətiylə xalqa, millətə xidmət edən şair ilk qələm təcrübələrindən son əsərinə qədər bir amala söykənmiş, yazıb-yaratmış, novator şair kimi yüksək qiymətləndirilmişdir. Ümummilli liderimiz, ədəbiyyatımızın mənəvi dostu Heydər Əliyev yazır: «Rəsul Rza yaradıcılığının səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dünya ədəbiyyatının, inqilabi rus poeziyasının ən yaxşı nümunələrinin təsiri altında, böyük Mayakovskinin poetik irsinin səmərəli təsiri altında o, zəngin milli ədəbi əməllərdən istifadə edərək, Azərbaycan poeziyasında bir novator kimi çıxış etmiş, Azərbaycan poeziyasını yeni bədii ifadə vasitələri ilə, yeni şeir formaları ilə zənginləşdirmişdir».

Rəsul Rza haqqında dövlət başçısı da, alim də, şair də, bəstəkar da, rəssam da öz duyğularını bir oxucu kimi bölüşür. Fikirlər, sözlər, düşüncələr bir nöqtəyə cəmləşir. Rəsul Rza yaradıcılığının milliliyi və bəşəriliyi inkarolunmazdır. Toğrul Nərimanbəyovun bu sözlərindəki bir həqiqəti etiraf etmək hamımızın mənəvi borcudur: «Rəsulu oxuyanda hiss edirəm ki, müasir dünyamızı düşündürən problem məsələlər hər dəqiqə onu narahat edir. Şairin duyğu və düşüncələri bəşəri çeşmədən qidalanır. Lakin bu əlamət Rəsulun poeziyasındakı xəlqiliyə, milliliyə ziyan gətirmir, əksinə, onu yeni–yeni keyfiyyətlərlə zənginləşdirir, inkişaf etdirir, tamamlayır. Rəsul haradan, nədən yazırsa yazsın ilk sətirlərini oxuyan kimi duyursan ki, o, Azəri şairidir. Bu torpağın oğludur, bu yerin havası ilə nəfəs almışdır. Öz milli zəmini üzərində yüksələn sənətkar üçün bundan da böyük xoşbəxtlik olarmı? Gələcəkdə onun dərin məzmunlu əsərlərinə illüstrasiyalar çəkiləcək bir rəssam kimi məni düşündürür».

Rəsul Rza müharibə illərində qələmiylə yanaşı süngüsüylə də döyüşə girir. 1941-ci ildə Azərbaycan dilində qəzet

çıxarmaq üçün Krıma göndərilən Rəsul Rza müharibənin dəhşətlərini gözləri ilə görür. «İntiqam, intiqam» (1943), «Vətən» (1942), «Qəzəb və məhəbbət» (1943) kitablarında qəzəbini, düşmənə nifrətini, düşməndən qisas almaq hissini ifadə edən əsərləri toplanıb. «Vəfa», «Sevgilim», «Bəxtiyar», «Azərbaycan döyüşçülərinə» şeirlərində bu döyüş ruhu, qəzəb, nifrət «duyğusu», qələbəyə inam əsasdır.

Rəsul Rza döyüşlərdə, müharibədə təkcə bir şair kimi şeirləri ilə çıxış etmirdi. Azərbaycan döyüşçülərinin qəhrəmanlığını qələmə almırdı, onların igidliklə faşizmə qarşı mübarizədə hünər və cəsarətini tərənnüm etmirdi, o həm də minlərlə stalinizm siyasətinin qurbanı olan müharibədə də guya «yetərincə döyüş komandirlərinin sözünü eşitməyən, intizamsız» adlandırılan, əslində isə bütün varlığı ilə faşizmə qarşı vuruşan Azərbaycanlı döyüşçülərin qayğılarını, problemlərini dövlət səviyyəsində qaldıran qorxmaz, cəsarətli «döyüşçü» idi. «Vəfa» pyesində də, cəbhədən yazdığı şeirlərdə, oçerklərdə də məhz azərbaycanlı əsgərlərin, zabitlərin, komandirlərin, pilotların, sanitarların, şəfqət bacılarının hünərindən ağız dolusu danışarkən, ardıcıl surətdə yazarkən R.Rza yalançı bir mifi-guya azərbaycanlıların vuruşmaq istəmədikləri, döyüşə bilmədikləri, rəşadətsizliyi, hətta fərariliyi, xəyanətkarlığı haqqında bəzi sovet dairələrinin qəsdən, bilərəkdən yazdığı və yaydığı mifi darmadağın etmək istəyirdi». Onun Krım cəbhəsindən qayıdan kimi Azərbaycan hökumətinin başçısına ünvanladığı məktubu cəsarətli şairin vətəndaş səsi idi.

«Bakı danışır», «Vətən, «Leninqrad», «Yurdumun qəhrəmanı», «And», «İntiqam», «Pilot qardaş», «Sovet tankı», «Üç oğul», «Əsgər anasının sözləri», «Əsirin dedikləri», «416», «Gəlsə də, gəlməsə də», «Vətənə hədiyyə» kimi əsərlərində müharibə, onun ağrısı, acısı, faciəsi, «ciddi düşündürücü sosial siyasi situasiyalar» əks etdirilir.

Müharibədən sonra da yazdığı bir çox əsərlərində sülh, demokratiya əsas mövzusudur. Dünyanın bir çox yerlərində olan, xalqların milli azadlıq uğrunda mübarizələrinə biganə qalmayan, Afrika ölkələrinin qara dərili zəncilərinin müstəmləkə zəncirindən qurtulması üçün apardığı mübarizələri görən narahat qəlb sahibi bunları şeirlərinin, iri həcmli poemalarının mövzusuna çevirir. Bu da şeirlərində, əsərlərində Rəsul Rzanın «insan konsepsiyası»nın, «əvəzsizliyi»nin bir problem kimi qoyulması haqqında fikirlərin doğruluğundan xəbər verir. «Ümid yollarında», «Güllük», «Qara dəniz sahilində», «Ömür keçdi, gün keçdi» kimi əsərlərində «bu problemin həlli» məsələləri əsasdır.

Rəsul Rzanın poemaları yaradıcılığında mühüm yer tutur. «Almaniya», «Ana», «Lenin», «Qızılgül olmayaydı», «Füzuli», «Bir gün də insan ömrüdü», «Hilal» kimi poemaları epik poeziyanın gözəl nümunələridir. Bu poemalar ədəbi tənqidin təhlilində əsas mövzulardır. Bu poemalardan «Qızılgül olmayaydı» poeması repressiya qurbanı, Azərbaycan poeziyasının qüdrətli nümayəndəsi Mikayıl Müşfiqə həsr olunub. Əsərin orijinal keyfiyyətləri, Rəsul Rza yaradıcılığındakı özünəməxsusluq, düşünmə, düşündürmə bacarığı diqqəti cəlb edir.

«1418», «Bir gün də insan ömrüdür» poemasında şairin «orijinal, maraqlı priyomlar vasitəsilə həqiqi insan, əsl vətəndaş obrazı yaratmağa müvəffəq olduğu, «1418»də «fakt və sənədlərdən», hadisə və epizodlardan daha çox müharibə dövrünün özü, psixologiyası, hiss və təfəkkürlərdə dərki» şairi «maraqlandırdığı» tənqidçilərin fikirlərində əsasdır.

Ümumiyyətlə, Rəsul Rzanın «Pəncərəmə düşən işıq», «Duyğular, düşüncələr», «Mənim fikrimcə», «Vaxt var ikən», «Kövrək budaq», «İşıqlar üşüyəndə», «Calasan günü günə», «Hava haqqında», «Seçilmiş əsərləri» 4 cilddə, «Güneylər, quzeylər», «Çöl quşları», «Lirika», «Seçilmiş əsərləri (5 cilddə), «Mən torpağam» kimi əlliyə yaxın kitablarında toplanan əsərləri haqqında tənqidçilər həqiqəti deyir ki: R.Rzanın çox zəngin poetik yaradıcılığı Azərbaycan poeziyasında mühüm bədii hadisələrdən biridir. Ümumilikdə şairin yaradıcılığı Azərbaycan sovet dövrü poeziyasının keçdiyi inkişaf mərhələlərini, onun ümumi, spesifik cəhətlərini, uğur və nöqsanları əks etdirmək baxımından səciyyəvidir. R.Rza poeziyasına novatorluq, cəmiyyətin sosial-mənəvi yüksəlişi ilə bağlı çevik şəkildə dəyişmə, yenilik və təzəlik xasdır. Bu onun şeirlərinin müasirliyini şərtləndirən əsas cəhətlərdəndir. Bu müasirlik bir çox komponentlərdən-mövzu və onun bədii həlli, ideya-siyasi problematika, lirik qəhrəmanın daxili dünyası, forma, dil, üslub baxımından qabarıq şəkildə duyulur.

Sərbəst şeirin müəyyən nəzəri problemlərinin həlli zamanı tənqidçilər, ədəbiyyatşünaslar, onun yaradıcılığından material kimi gen-bol istifadə edə bilir. O, təkcə keçmiş SSRİ məkanında deyil, dünyada tanınırdı. Kanadalı yazıçı, ictimai xadim, nəşriyyat redaktoru D.Karter «Sovetskaya literatura» jurnalının redaksiyasına yazırdı: «Sizə Rəsul Rzanın üç şeirini göndərirəm. Nəşriyyatımız bunları təqribən bir il bundan əvvəl çap etmişdi. Bizə təəccüblü gəldi ki, həmin əsərləri ikinci dəfə, indi isə üçüncü dəfə nəşr etməli oluruq. Ola bilər ki, bu sizi təəccübləndirməsin: ancaq Kanadada poeziyanı az oxuyurlar və şeiri çox nadir hallarda təkrar nəşr edirlər. Amma Rəsul Rzanın şeirləri elə yüksək

humanizmə malikdir ki, Kanadada və ABŞ-da minlərlə oxucu onları cəmi bir neçə ay ərzində alıb oxudu».

Şairlərimiz, ədiblərimiz ədəbiyyatın inkişafı naminə, dünya miqyasına çıxa biləcək ədəbiyyatın uğrunda mübarizə aparırdılar. Milli ədəbiyyatımızın yeniləşməsini, orijinal keyfiyyətlərlə zənginləşməsini vacib bilən bu şəxsiyyətlər bir-birini təkrar etməyən, yamsılamayan, bir-birinin yaradıcılığına kor-koranə səcdə etməyən sənətkarlar idi. Səməd Vurğun və Rəsul Rza yaradıcılığındakı novatorluq sənətə belə əzəmət və vüqarla yanaşmaqdan irəli gəlib.

Əhməd Cəmil Azərbaycan şeirinin zənginləşməsində böyük rol oynayan «zamanı ilə, həyatla ayaqlaşa bilən şair, həqiqi ilham sahibi olan şair» idi. Əhməd Cəmilin ilk kitabı «Yadigar» 1942-ci ildə müharibənin odlu-alovlu illərində çapdan çıxıb. İkinci Dünya müharibəsi illərində Şimali Qafqaz, Krım cəbhə qəzetləri («Döyüş zərbəsi», «Hücum», «Vətən uğrunda irəli» (1942-43) redaksiyalarında çalışmışdır. Əhməd Cəmil şeirinin əsas istiqamətini siyasi lirika təşkil edir. O yazdığı əsərlərində günün siyasi məsələlərini, zamanın qabaqcıl ideyalarını yaradıcılığında əks etdirirdi. «Lenin», «Söz verin yoldaşlar!», «Partizanın qəbri», «Adlar», «Şahinlər», «Daş qəfəs», «1914» kimi ilk şeirlərindən Əhməd Cəmilin yaradıcılığının bu istiqamətdə inkişafını görürük. Qələmə aldığı mövzularda sənətkarlıq-lakonizm, sadəlik, fikri aydın ifadə, özü də sadə ifadə edə bilmək bacarığı var. Deyilmiş fikirləri, təşbehləri təkrardan qaçmağa çalışan, orijinallığı ilə seçilən şeirlərində həyata yaxınlıq güclüdür. «Şairin gözəl süjetli şeirlər yarada bilməsi, təsvirlərdə realistik detallara geniş yer verməsi, dərin psixoloji vəziyyətləri təbii, aydın göstərməsi, sadə dialoqlar işlətməsi, mövzunu konkret şəkildə, uzunçuluğa yol vermədən canlan-

dırması onun xalq həyatına, cəbhə həyatına bir sənətkar kimi müdaxiləsi nəticəsində meydana gəlmişdi» (Kamal Talıbzadə).

«Can nənə, bir nağıl de», «Laylay», «Nişan üzüyü» kimi şeirləri insan qəlbinə, ruhuna nüfuz edir. Yaratdığı yeni məzmunlu, xalq ruhundan süzülüb gələn, arzu, dilək, övladına səadət, xoşbəxtlik, sakit, xoşbəxt həyat arzulayan ana laylalarından fərqli, hər misrasına, «hər sətrinə dövrün, zamanın möhürü vurulmuş» laylay idi:

Gecə keçir... Göylər qara, ay para...
Ahu olub qaçır yuxun dağlara.
Ömrüm-günüm!... sənə laylay dedikcə,
Ürəyimdə qövr eləyir min yara.
Laylay gülüm, gözlərindən öpsün ay,
Laylay quzum, laylay balam, a laylay!
Atan sənin bir igiddir büsatlı,
Çal papaqlı, boz şinelli, boz atlı.
Düşmən üstə şığıyanda deyirsən,
Qızıl quşdur, uçur şimşək qanadı!
Laylay gülüm, gözlərindən öpsün ay,
Laylay quzum, laylay balam, a laylay!
(Ə.Cəmilin «Can nənə, bir nağıl de» şeirindən)

Bu sətirlərdə Nənə və Nəvə dialoqunun şirinliyi könül oxşayır, onların söhbətində dövrün, zamanın təsviri ilə yanaşı, milyonlarla gözü yolda qalan «ata, bala, oğul» gözləyən insanların dərdi, həsrəti ifadə edilir. Tənqidçilərin, ədəbiyyatşünasların diqqətindən yayınmayan bu misralarda nə yox idi: «Körpənin yuxusuna, görüş lövhəsinin təsvirinə həsr olunmuş sətirlər o zaman cəbhəyə öz nümayəndəsini göndərmiş hər ailə üçün nə qədər şirin idi!.. Şeir oxucuya təsəlli verirdi, onun arzularına, xəyalına ümid qatır, başladığı mübarizəsinə inam oyadırdı. Özü də müharibənin lap

odu-alovu içində! Özü də nənə ilə nəvənin kiçik bir mükaliməsi ilə! Ancaq son dərəcə şirin, son dərəcə təbii, nəvənin yuxusu, söhbəti qədər arzulu bir mükaliməsi ilə!» (B.Nəbiyev).

«Əsgər qardaşıma» (1942), «Şaxta baba» (1943), «Can nənə, bir nağıl de» (1943), «Təməl daşları» (1951), «Qələbə yolları» (1954), «Şeirlər» (1957), «Mənim azad torpağım» (1960), «Bahar şəfəqləri» (1964), «Seçilmiş əsərləri» (1967), «Seçilmiş əsərləri» (1975), «Vaxtında gəlmişik bu dünyaya biz» (1979), «Xoşbəxt uşaqlara» (1981), «Dünyanın gözəlliyi» (1983) kitablarında Əhməd Cəmilin lirikasında təbiət təsvirinin, peyzajın, insan düşüncələrinin, həyəcanlarının, hisslərinin dəqiq, təbii ifadə edildiyini, zəhmətə, sülhə, qardaşlığa çağırışı, xalqlar dostluğu ideyalarını, vətənə, xalqa məhəbbəti, cəsarətli mövzular seçmək bacarığını görürük.

Ə.Cəmil S.M.Mixalkovun, M.Y.Lermontovun, A. Tvardovskinin, S.M.Marşakın, Y.V.Hötenin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Rus, gürcü, ukrayna, özbək, belarus, tacik və s. dillərdən etdiyi tərcümələr onun yaxşı tərcüməçi də olduğunu göstərir.

Poeziyada-Azərbaycan poeziyasında müasirlik əsas problem olaraq qalırdı. Şairlərimiz həyatda, dünyada baş verən prosesləri yaratdıqları əsərlərdə yüksək sənətkarlıqla yaradırdılar. Balaş Azəroğlunun «Elə oğul istəyir vətən», Rəsul Rzanın «Zənci balası Villi haqqında ballada», Cabir Novruzun «Yox, Hitler ölməyib», Məmməd Arazın «Nobel mükafatı», Xəlil Rzanın «Afrikanın səsi», Tofiq Bayramın «Los-Ancelos matəmi» və s. əsərlərində dünyada baş verən hadisələr, beynəlxalq aləmdəki ictimai-siyasi ideologiyaların gərginliyi, müstəqillik uğrunda hərəkatda xalqların humanizmə qarşı arzularına qarşı çıxan imperialist qüvvələrinin

vəhşi simaları öz canlı əksini tapırdı. Xəlil Rzanın «Afrikanın səsi» şeiri Afrika xalqlarının deyil, bütövlükdə insanındoğulan, doğulduğu dünyanın gözəlliklərindən kam almaq istəyən, səadət içində, sülh, əmin-amanlıq, xoşbəxtlik axtaran, humanist ideyalarla köklənən humanist insanların qəsbkar, imperialist, yırtıcı qüvvələrə qarşı sərt ittihamıdır:

Azadlığı istəmirəm
zərrə-zərrə,
qram-qram
Qolumdakı zəncirləri gərək
qıram,
qıram.
Azadlığı istəmirəm
bir həb kimi,
dərman kimi.
İstəyirəm səma kimi,
Günəş kimi,
Cahan kimi.
Çəkil,
Çəkil, ey qəsbkar!
Mən bu əsrin gur səsiyəm:
Gərək deyil sısqa bulaq,
Mən ümmanlar təşnəsiyəm.

Bu dövrdə şairlərin yaradıcılığında qoyulan həyat, dünya, kosmos insan kontekstində çox güclü ifadəsini tapırdı. Müasir fəlsəfi düşüncələri özündə əks etdirən əsərlər yaranırdı. Səməd Vurğun, Rəsul Rza yaradıcılığında fəlsəfi estetik münasibətlər, sonrakı dövrlərdə Bəxtiyar Vahabzadə, Əli Kərim və başqalarının yaradıcılığında inkişaf etdirilmişdir.

Əliağa Vahid klassik sənətkarlarımızın, xüsusilə Füzuli ədəbi məktəbinin müasir dövrümüzdə davamçısı kimi qiy-

mətləndirilir. İlk şeirlərini, qəzəllərini, meyxana və felyetonlarını «İqbal», «Bəsirət», «Tuti», «Məzəli»nin səhifələrində dərc etdirmiş, M.Ə.Sabirə nəzirələr yazmış, sonrakı illərdə digər mətbuat orqanlarında dərc etdirdiyi şeirləri ilə istedadlı sənətkar kimi tanınmışdır. Müasir dövrümüzdə daha geniş şəkildə inkişaf etdirilməyə başlayan meyxana janrının ən yaxşı nümunələrini yazmışdır. Lakin yaradıcılığında müasir dövrün qəzəl ustadı kimi tanınmış, qəzəlləri kütləvi tirajlarla nəşr olunmuş, xanəndələrin dillər əzbəridir. Böyük Vətən müharibəsi illərində öz odlu şeirləri, düşmənə nifrət ruhunda satirik şeirləri ilə xalqı mübarizəyə ruhlandırmışdır. «Meyxana», 1939, 1942, 1944, 1945, 1954, 1956, 1961, 1964-cü illərdə nəşr olunmuş «Qəzəllər» kitabları məşhurdur. Sonralar şairin «Seçilmiş əsərləri» (2 cilddə, 1975; 1982) nəşr olunmuşdur.

Bu dövr sənətkarlarımızın yaradıcılığında insan kimi təbiət də canlandırılırdı, canlandırılmış təbiət hadisələrində fəlsəfi məna və çalarlar zəngin verilirdi. Yaranan lirik əsərlərdə «lirik romantik», «lirik emosional analitik, intellektual meyil və təmayülə, üsluba, ifadə, yazı tərzinə» meylin artdığını, bir çox hallarda «mürəkkəb assosiativ, ekspressiv-romantik təsvir və boyalar» olduğunu, o dövrün lirikasının real mənzərəsini alimlər araşdırır, təhlil və tədqiqini aparırlar. Bu cəhətdən Səməd Vurğun, Mikayıl Müşfiq, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Osman Sarıvəlli, Zeynal Xəlil kimi sənətkarlar həyata, insana, təbiətə aydın baxışları ilə, obrazlı dili, lirik romantik üslubu ilə, ciddi fərdi şair xarakteri və insani keyfiyyətləri ilə seçilirdilər. Bu dövrdə Zeynal Xəlil (1914-1973) ədəbi prosesin düzgün istiqamətdə inkişafına qoşulan, zamanın nəbzini əsərlərində tuta bilən, oxucunun məhəbbətini yaratdığı bədii cəhətdən

mükəmməl əsərləri ilə qazanan şairlərimizdən idi. On dörd poema, bir roman, beş mənzum dram müəllifi olmaqla yanaşı, çoxlu sayda publisistik məqalələrin müəllifi idi. Bir tərcüməçi kimi də tanınmış Zeynal Xəlil R.Antoqolski, R.Həmzətov, D.Quramişvili, Q.Qulam və b. xarici ölkə yazıçılarının əsərlərini dilimizə tərcümə etmişdir. Sülhsevər lirikanın ən yaxşı nümunələrini yaradan Zeynal Xəlilin özünəməxsus lirikası vardır. Tədqiqatçılar onun yaradıcılığında «obyektlə subyekt arasında olan möhkəm əlaqə və bağlılıq, müqayisə və bənzətmələrin çoxmənalılığı, bir-birini tamamlamaq, fikri, mətləbi təsdiq etmək, konkret lövhə yaratmaq xarakteri»ni şairin «bədii kateqoriyalara bələdçiliyi, sədaqəti və istifadə məharəti ilə» bağlayırlar. Eyni zamanda tənqidçilər, tədqiqatçılar onun vətənə, torpağa, əmək və yaradıcı adamlara məhəbbətini, «müqəddəs əxlaq normaları, daşınılan adət-ənənələri qorumaq, ulu tarix, doğma ana dilinə məhəbbət»nin də onun müasirliyinin əsasını təşkil etdiyini nəzərdən qaçırmırlar. «Dünya, ey gözəl dünya», «Şair olmaq istəyirəm», «Atılıb yol üstə qalan bir daşa», «Sən nə gözəlsən», «Külək və ağac», «Dəniz kənarında», «Açıl, çiçəklər açıl», «Bulaq», «Mən» kimi lirik əsərlərində, «Ulduzlar» romanında, «Dağlar oğlu» pyesində və digər əsərlərində, təbiətlə insan arasındakı ülviyyəti yaşadır.

Orijinal yaradıcılıq üslubu ilə seçilən, ədəbiyyatımızın inkişafına öz gözəl töhfələrini verən sənətkarlarımızdan biri də Osman Sarıvəllidir. «Dəmir sətirlərim», «Bənövşə», «Şairin hədiyyəsi», «Gətir, oğlum, gətir», «Gənclik eşqi», «Şeirlər», «Bahar çiçəkləri», «Yeni dünyanın qapısı», «Seçilmiş əsərləri», «Balaca dostlar», «Misirli qardaşlar», «Seçilmiş əsərləri» (II cilddə 1958-62), «İqlimdən iqlimə», «Mən sabaha gedirəm», «Bizim balalar, bizim nəvələr» və s. kitabları nəşr olunmuş, əsərləri rus dilinə tərcümə olunmuşdur,

«fərdi üsluba, orijinal yaradıcılıq yoluna» malik bir şair kimi, yüksək dəyərləndirilir: «təravət, şuxluq, nikbinlik, obrazlılıq, yüksək şeiriyyətlə bərabər təbii gözəlliklərə vurğunluq, xalq poeziyasına yaxından bağlılıq, doğma paytaxtımız Bakı şəhərinə, kənd həyatına, onun qabaqcıl adamlarına, Vətənimizin böyük gələcəyinə dərin inam və sonsuz məhəbbət hissləri hakim»dir.

Onun müharibə illərində düşmənə nifrət, qəzəblə dolu «Vətən eşqinə», «Kişisən dayan», «Vur, başına dönüm, vur», «Qafqazdan Dona doğru» əsərləri, cənub mövzusunda («Arazın o tayında», «Son qar», «Təbriz gözəli», «Dəvə karvanı», «Panamalı dilənçi» və s.), beynəlxalq mövzuda («Burjua diplomatlarına», «Sadəcə suallar», «Ana» və s.) əsərləri, yaşadığı dövrün tələblərindən doğan ictimai-siyasi lirikası («Bayraqlar», «Qurultay açılır», «Üç saz», «Marslı qardaşlar arasında»), cəmiyyətdə inkişafı, yeniliyi («Var olsun birləşən qələmlərimiz», «Mən sabaha gedirəm», «Yaşımız», «Yolumuz», «Minnətdaram» və s.), doğma Azərbaycanın bərəkətli, füsunkar gözəlliklərindən, zəhmətkeş, sadə, qonaqpərvər adamlarından bəhs edən əsərləri dəyərlidir. Bunlarla yanaşı satirik (Yazıq şair», «Hələ yol gedir», «Sabiri andım», «Fərsiz oğul», «Canavar», «Daş», «Görmək və götürmək» və s.) əsərlərin müəllifidir.

Uşaqlar üçün yazdığı («Bahar nəğməsi», «Qaranquşlar gələndə», «Qara çuxa», «Çal papaq», «Quşların da dili var» və s.) şeirlərində «şair balaca oxucularla onların psixologiyasına, mənəvi dünyalarına, yaş səviyyələrinə uyğun bir dillə danışır, təsvirlərində sadə, təbii, təsirli boyalar işlədir, son dərəcə əlvan, rəngarəng bədii ifadə vasitələrinə müraciət edir, misraların ahənginə, ritmə, axıcıllığa xüsusi fikir verir. Uşaqlarımızın həyat, təbiət, heyvanat aləmi haqqındakı

təsəvvürlərini genişləndirməyə, onlarda Vətən məhəbbəti, dostluq, sədaqət, böyüklərə hörmət, insani həqiqət kimi nəcib əxlaqi keyfiyyətlər tərbiyə etməyə çalışır...». Osman Sarıvəlli nəcib insan, istedadlı sənətkar kimi ədəbiyyat tariximizə daxil olub.

Məmməd Rahim böyük sənətkardır. Ədəbiyyata gəldiyi gündən şeirin, sənətin vəzifəsini, mahiyyətini anlamış, xalq üçün yazıb-yaratmış, yaradıcılığının ilk dövrlərində yeni həyatını, zəhmətkeş xalqımızın əməyini, zəhmətini tərənnüm etmiş, xalqının xoşbəxt, azad gələcəyini, yaşayışını vəsf edən şeirlərini yaratmışdır. Səməd Vurğun yazır: «Hələ birinci lirik şeirlərində Məmməd Rahim göstərmişdir ki, onun şeir ilhamının mənbəyi həyatdır. Xalqımızın həyatı, Azərbaycan torpağının gözəl və rəngarəng təbiətidir, şair də xalqımızın ruhu ilə nəfəs alıb yaşayır. Onun ən yaxşı arzusu və meyillərini ifadə edir». Dövrünün Vurğun, Rüstəm, Rza, Sarıvəlli kimi böyük sənətkarları ilə çiyin-çiyinə çalışan sənətkardır. «Arzular» şeirlər kitabı 1930-cu ildə çap edilmişdir. «İkinci kitab», «Partizanın tüfəngi», «İldırımın kitabı», «Nübar», «Arzu qız», «Vətən sevgisi», «Onu Don qucaqladı», «Ölməz qəhrəman», «Xəzər sahilində», «Leninqrad göylərində», «Abşeron torpağında», «Məhəbbət baharı», «Arzular gül açanda», «Tonqal başında», «Seçilmiş əsərləri» üç cilddə, «Dayağım» və s. kimi otuzdan çox kitabın müəllifidir. «Yeddi gözəl» poemasını farscadan, Şota Rustavelinin «Pələng dərisi geyinmiş pəhləvan» poemasının birinci hissəsini, Y.M. Lermontovun əsərlərini, Puşkinin «Ruslan və Lyudmila» əsərini, Aleksandr Blokun «On ikilər» əsərini və digər xalqların əsərlərini dilimizə tərcümə etmişdir.

Onun ictimai-siyasi lirikasında («Lenin Bakıda», «Zəfər təranəsi», «Kür salındı kəməndə», «Partizanın tüfəngi»,

«Görmüşəm», «Mən sülhə səs verirəm») və s. əsərlərində vətəninin müasir həyatı, onun əmək adamları, keçmişlə müasir həyatın müqayisəli təsviri, beynəlxalq mövzu əsas yer tutur. Böyük Vətən müharibəsi mövzusu yaradıcılığında geniş yer tutur. «Ürəyimi medal kimi qaldırıram göylərə», «O yaran da sağalar», «Müqəddəs kədər», «Tək məzar», «Onu Don qucaqladı» mübarizə mövzusunda yazılmış ən yaxşı əsərləridir. «Bu əsərlərdə düşmənə bəslənən kin, qəzəb, müqəddəs hüzn, vətən məhəbbəti, qələbəyə inam, insana ehtiram hissi hakimdir. Vətən yolunda döyüşlərdə qəhrəmanlıqla vuruşan, Azərbaycanlı balasının məğrur surətini («Onu Don qucaqladı») yaradır:

-Azərbaycan oğluyam,
«Əsir düşmərəm,-dedi.
Ağrılar duya-duya
Şığıdı tərlan suya.
«Gözəl Don qulac-qulac
qollarını mənə aç».
Deyib yumdu gözünü
Atdı çaya özünü.

Mərdanə ölümü sadəcə təsvir etməklə kifayətlənməyən şair bu faciəli ölümün yaratdığı kədəri, hüznü realist bir qələmlə ifadə edir.

İran və Cənubi Azərbaycan həyatından bəhs edən «Cənub şeirlər»ində Arazın o tayından bu tayına həsrətlə baxan qardaş və bacılarımızın həyatı («Arazın şikayəti», «Xalçaçı qız», «Mən nə gətirmişəm» və s.), həsrəti-bu hiss, bu duyğu əsasdır. Onun cənub mövzusunda yazdığı əsərlərdə İran Azərbaycanlılarının bugünkü ağır həyatından doğan qüssə ilə yanaşı, ədalətin qələbəsinə sarsılmaz inam və coşqun bir nikbinlik vardır. Beynəlxalq mövzularda

yazdığı əsərlərdə («Yeddi zənci», «Pol Robsana məktub», «Mən sülhə səs verirəm», «Hindli qardaşıma və s.) dünyada baş verən hadisələr, müstəmləkə ölkələrdə güclənən milli azadlıq hərəkatları, məzlum xalqların ədalətli mübarizəsi tərənnüm olunur.

«Uzaq ellərdə» silsilə şeirlərində şairin beynəlxalq mövzuda yazdığı əsərlərdə əsas motiv və mətləblər dolğun təsəvvür edilir. «Livan bağında», «Sanki heç nə olmayıb», «Durnalar», «Fatimənin taleyi», «Yeddi zənci», «Hindli qardaşıma», «Nazim Hikmət azaddırmı?», «İşıq» və s. şeirlərində daha çox ərəb xalqının həyatından bəhs edir. Şərq xalqlarının, ərəblərin başına gələn fəlakətlərin canlı lövhələrini yaradır, insanların taleyini qələmə alır.

«Hindistana ləkəsən» adlı şeirində də müstəmləkəçilərə qəzəb və nifrət əsasdır. Zəngin və çoxcəhətli lirikasının əsas predmeti insan və onun idealları olan şair müasir həyatın müxtəlif sahələrinə aid mövzuları seçə bilmiş, vətənpərvərlik, humanizm, xalqlar dostluğu, dinc quruculuq işləri, yeni həyatın, mənalı insan əməyinin təsviri və s. mövzularda gözəl lirik şeirlər yarada bilmişdir.

Azərbaycan şeirinin görkəmli nümayəndələrindən biri İslam Səfərlidir. İkinci dünya müharibəsi illərində döyüşçü şair, «Vətən eşqi» qəzetində maraqlı oçerkləri, odlu şeirləri ilə döyüşçülərdə döyüş ruhunu artırmışdır. «Mingəçevir nəğməsi», «Pıçıldaşan ləpələr», «Həyatın nəfəsi», «Qoşa söyüd», «Qığılcım», «Qağayılar yorulanda», «Torpağın ətri», «Çiçək təranəsi», «Seçilmiş əsərləri», «Dan ulduzu, bir də mən»), «Ağ şanı, qara şanı», «Əbədi beşik» və s. çap olunmuş kitabların müəllifidir. Yaradıcılığında «poetik ümumiləşdirmə bacarığı», «lirik əsərlərində xəlqilik, el üslubu, oynaq və axıcı ifadə tərzi» əsasdır, poeziyasında Azərbaycan şeirinin «bütün poetik şeirləri» öz əksini tapıb, dilinin axıcılığı, üslubunun sadə, əlvan və obrazlılığına görə «xalq şeirinə, oynaq və mənalı aşıq poeziyasına» yaxındır, onun poeziyasına «dərin və sağlam romantika» gətirən orijinal bənzətmələr, təşbehlər, ritmik işarələr, digər bədii ifadə vasitələri var, «əməyə, torpağa, vüqarlı təbiətə və məğrur insana qələbə və qəhrəmanlıq məsələlərinə aid şairin yeni düşüncələri», «yeni günlərin yeni adamı olmaq əzmi»nin əsərlərinin əsas məziyyətlərindən» olduğu ədəbi tənqidçilərin təhlil və tədqiqat obyektidir. Eyni zamanda «Göz həkimi», «Yadigar», «Ana ürəyi», «Yol ayrıcında» pyesləri nəğməkar şairin Azərbaycan teatr tarixində uzun müddət səhnəmizdə mühüm yer tutan pyesləri kimi də qiymətləndirilmişdir.

Hüseyn Arif yaradıcılığı bu dövr ədəbiyyatımızda mühüm yer tutur. Onun yaradıcılığında («Əbədi ünvan», «Xalqlar dostlaşanda», «Torpaq», «Ana təbiət», «Deyirlər qar düşüb», «Gülü qorumaq üçün», «Damcılı», «Palıd yanır, tək yanır», «Həmişə gülən», «Bir sözlə getmədin…», «Az, çox», «Qorxuram yenidən», «Sənlə sənsizdim», «İnana bilmirəm» və s. kimi yüzlərlə əsərlərində bu motivlər qələmə alınır.

Yazdığı əsərlərin mövzusunu müşahidə etdiyi konkret həyat hadisələrindən götürən Cabir Novruz yaradıcılığı oxucular tərəfindən sevilir. Qələmə aldığı mövzuların əsas «qəhrəmanı» özüdür. Cabir Novruzun «Mənim muğamatım», «İnsan məhəbbəti», «Həyat, sən nə qəribəsən», «Taleyin töhfələri», «İnsan himnləri», «Nə qədər ki, sağam», «Anam vardı, dünyam vardı», «Özünü qoru xalqım» və s. Kitablarında səmimi hisslər, duyğular əsasdır. Yazdığı əsərlərin böyük bir qismində «bilavasitə» özü iştirak edir. Bu ondan irəli gəlir ki, başqalarını tərbiyə etmək istəyən özü də tərbiyə olunmalıdır, başqalarına mənəvi saflıqdan,

düzlükdən, sədaqətdən danışan hər kəs bu sifətləri ilk növbədə özündə aşılamalı, öz vicdanı qarşısında təmiz və müqəddəs olmalıdır». Bu baxımdan «Mənim ömrüm» şeiri çox maraqlıdır. Bu şeir, bir növ şairin öz ömrü, qəlbi, vicdanı ilə təsirli həsbi-halı, mükaliməsidir:

Nə qədər dünyada mən sağam, ömrüm,
Üstündə titrəyən yarpağam, ömrüm!
Qoymaram ruhuna bir ləkə düşsün,
Təmiz saxlamışam səni dünyada....

Cabir Novruz İlqar İsayevin «Yaddaş məhkəməsi», «Samuel», Marşanın «Yekə cib», O. Süleymenovun «Səhraların nəğməsi», Robert Rojdestvenskinin «Sizin üçün yaşayıram» əsərlərini ana dilimizə tərcümə etmişdir. Onun əsərləri keçmiş SSRİ xalqlarının dillərinə, o cümlədən xarici dillərə tərcümə olunmuşdur.

Müharibədən sonrakı illərdə S.Vurğun «Muğan», «Zəncinin arzuları», «Leninin kitabı», «Zamanın bayraqdarı», «Aygün», Süleyman Rüstəm «Qafurun ürəyi», «On ikinci tüfəng», «Gülbahar», «Memarın faciəsi», Rəsul Rza «Qızılgül olmayaydı», «Lenin», «Bir gün də insan ömrüdü», Osman Sarıvəlli «Misirli qardaşlar», Zahid Xəlil «Ulduzlar», «Tatyana», Məmməd Rahim «Leninqrad göylərində», «Abşeron torpağında», «Xəzər suları», «Sayat Nova», «Sarı Aşıq», Mirvarid Dilbazi «Əlcəzairli qız», Balaş Azəroğlu «Mingəçevir», Novruz Gəncəli «Göndərilməmiş məktub», «İnsan, od, su», «Şəhla», «Odlu ürəklər», «Şairin arzusu» poemalarını yaratdı. Ədəbiyyata yeni gələn nəslin nümayəndələri də maraqlı mövzuda poemalar yazır: «Bəxtiyar Vahabzadənin «Sadə adamlar», «Etiraf», «Şəbi-hicran», «Yollar, oğullar», «Muğam», «Atılmışlar», Nəbi Xəzrinin «Sumqayıt səhifələri», «Günəşin bacısı», «İki Xəzər», «Ana», «İnam», Hüseyn Arifin «Məhəbbət», «İbrahim körpüsü»,

«Yolda», «Dilqəm», «Sonaxanım», «Üçlər», Qabilin «Mehparə», «Tramvay parka gedir», «Nəsimi», İ. Kəbirlinin «Səhralar çiçəklənir», «İlk məhəbbət», Əli Kərimin «İki simfoniyası», «Üçüncü atlı», İslam Səfərlinin «Aşıq Ələsgər», Adil Babayevin «Tikanlı məftillər arxasında», Ələğa Kürçaylının «Durnalar cənuba uçur», «Sınaq», «Təbəssüm», «Qəzəb», Xəlil Rzanın «Kommunizm qəhrəmanları», Nəriman Həsənzadənin «Nəriman», «Zümrüd quşu», «Kimin sualı var», Məmməd Arazın «Əsgər qəbri», «Qayalara yazılan səs», «Atamın kitabı», «Üç oğul anası», «Araz axır», «Mən də insan oldum», «Paslı qılınc», «Ömür təzələnir», «Ömür keçir, gün keçir», Fikrət Qocanın «Salam, Vyetnam», «Xose Risal», Fikrət Sadığın «Ömrün bir günü», «Sevgi yağışı», Cabir Novruzun «Kəndimizin antik heykəli», «Zaman», «Cəfərlə görüş», «İnsan məhəbbəti», «Qərbi Berlin», «İnsan himnləri», Tofiq Bayramın «Səhər yelləri», «Təbrik çiçəkləri», «Səbuhi», «Yaralı nəğmə», Famil Mehdinin «Xatının dastanı», «İllər və talelər», «İnsan unudulmur», «Səni gözləyirəm», Ayaz Vəfalının «Dörd yaşımda fikir çəkdim», «Sağ gözüm sənə qurban», «Daşkəsən dəftəri» və s. kimi müxtəlif formalı, rəngarəng məzmunlu əsərləri çap olunmuşdur.

Bu əsərlərdə Azərbaycan xalqının dövlət xadimlərinin, maarifçi şəxsiyyətlərinin, ziyalılarının obrazları yaradılırdı. Nəriman Həsənzadənin «Nəriman» poemasının Nəriman Nərimanovun yaşadığı «mənalı ömrün bəzi əlamətdar cəhətlərini, xalqımızın tarixində müəyyən mərhələ təşkil edən hadisələri» əks etdirdiyi, «məzmunca dolğun, ictimai-siyasi pafosla aşılanmış, şeiriyyətcə gözəl, poetik lövhələrlə zəngin bir poema» olduğu bildirilir.

Müharibədən sonrakı illərdə Azərbaycan nəsri də öz zəngin mövzuları ilə oxucu kütləsinin rəğbətini qazanmışdı.

Bir-birindən maraqlı, dəyərli əsərlər yazan nasirlərimizdən biri də Süleyman Rəhimov idi.

S. Rəhimov Azərbaycan Sovet ədəbiyyatının inkişafında mühüm xidmətləri olan sənətkarlardandır. Azərbaycan ədəbiyyatını canlı, orijinal surətlərlə zənginləşdirən, 40 cilddən çox zəngin ədəbi irsi olan, yaradıcılığında milli dəyərlər, xəlqilik, torpağa, xalqa bağlılıq əsas olan Süleyman Rəhimov Beş cildlik «Şamo» epopeyasını, üç cildlik «Qafqaz qartalı», «Qüdrətov», «Medalyon», «Aynalı», «Torpağın səsi», «Saçlı» üç hissəli, «Ata və oğul», «Mehman», «Ağbulaq dağlarında» (I-II kitab), «Pəri çınqılı», «Ana abidəsi», «Mahtaban», «Qafqaz qartalı» kimi qiymətli kitabların, maraqlı hekayələrin, «Yazıçı və həyat» adlı ədəbi-tənqidi və publisistik məqalələr məcmuəsinin müəllifidir. Azərbaycanda gedən ictimai, siyasi, mədəni hadisələrin kənd həyatına təsiri, Azərbaycan kəndlisinin oyanaraq yeni həyat uğrunda mübarizəyə qalxması, xalq həyatı, məişəti, adət-ənənələri, onların xüsusiyyətləri, müxtəlif təbiətli insanların psixologiyası, xalq həyatı, inqilab və xalq hərəkatı onun ilk bədii əsəri olan «Şamo» epopeyasında bütün genişliyi ilə təsvir edilir. Görkəmli yazıçı, ictimai xadim N.Nərimanovun bu əsərdə bitkin obrazı, onun xalq, millət naminə apardığı mübarizələr, dağlara, daşlara, kahalara, qayalara sığınıb xalqın səadəti uğrunda mübarizə aparan, partizan ömrü yaşayan insanların realist-romantik bir səpkidə təsviri, bu insanların fədakarlığı, qəhrəmanlığı romantik-realist bir dillə təsvir edilir.

Otuzuncu illərdən başlayaraq, müharibə illəri də daxil olmaqla böyük bir dövrü əhatə edən «Saçlı»da bu illərin ictimai-siyasi mənzərəsi canlandırılır. Məğlub olan sinfin məhkum qüvvələrinin amansızlığı, yırtıcılığı, onların hiyləgərliyi, riyakar əməlləri təsvir edilir. Tənqidçilər Süleyman

Rəhimovun nə dil, üslub, nə həyatı əks etdirmək, nə də canlı yaddaqalan xarakterlər yaratmaq baxımından heç kimə bənzəmədiyini bildirirlər: «O, görkəmli nasir kimi ayrı-ayrı nəzəriyyəçilərin müddəalarını deyil, həyatın dialektik məntiqini əsas götürür. Buna görə də onun bütün əsərlərinin əsasında böyük qayəli məqsədlər və bu məqsəd ətrafında qruplaşan adamlar dayanırlar» (C.Abdullayev).

Onun romanları üçün səciyyəvi olan, çoxplanlılıq, zəngin və rəngarəng yaddaqalan xarakterlər, ciddi ictimai–siyasi konfliklərdir.

Müharibə illərində yazdığı əsərlərində xalqlar dostluğu, xalqların, müxtəlif millətlərin öz vətənləri uğrunda fədakarlığı, vətənə olan məhəbbət əsasdır. Təmiz, sinfi düşmənlərdən qorxmayan, prinsipial, millət, vətən, xalq yolunda canından keçən oğullarla yanaşı, boşboğaz, dil pəhləvanlarının da surətlərini yaratmışdır. Onun «Kəpəz», «Kəsilməyən kişnərti», «Güzgü göl əfsanəsi» povestlərinin üslubu keyfiyyətləri, maraqlı olması, rəngarəngliyi tənqidçi alimlərin dəyər verdiyi məsələlərdir. Süleyman Rəhimov «Öz minnətinə» povestində əyilməz, vuqarlı, məğrur təbiətli bir insanın obrazını yaradır. «Mahtaban» əsərində dərin ictimai-siyasi problemlərə diqqəti yönəldir. Böyük azadlıq ideyaları ilə silahlanmış Mahtaban mənəvi kamilliyə malik yük-sək fikir və duyğular sahibidir.

Onun povestləri ilə yanaşı «Pəri çınqılı», «Gülən balıq», «Gülsabah» kimi kitablarında toplanan hekayələri xalq ədəbiyyatı motivləri əsasında yazılıb. Bunlar yazıçının xalq yaradıcılığına dərindən bələd olduğunu, canlı, real həyatı səhnələr yaratmaq qabiliyyətini, istedadını nümayiş etdirir. «Yazıçı və həyat» kitabında, məqalələrində xalq yaradıcılığı, müsbət qəhrəman, ədəbi tənqid, xalqlar dostlu-

ğu, xəlqilik və s. məsələlər barədə dəyərli mülahizələri toplanmışdır: «S.Rəhimov xalq dilinə, Azərbaycan dilinin bədii ifadə imkanlarına dərindən bələd olan yazıçıdır. Onun üslubunda klassik və müasir ədəbi-bədii dilimizin ən yaxşı ənənələri birləşmişdir. S.Rəhimovun dil və üslub cəhətdən Azərbaycan nəsrinin klassiki C.Məmmədquluzadəyə yaxın olduğunu deyənlər haqlıdırlar. Xalq danışıq dilinin və onun zəngin ifadə xüsusiyyətlərinin incəliklərindən məharətlə istifadə hər iki sənətkarı dil və üslub cəhətdən bir-birinə yaxınlaşdırır. Dahi ədibin duzlu yumoristik və kəskin satirik üslubunu S.Rəhimov böyük ustalıqla mənimsəmiş və onun ən yaxşı davam və inkişaf etdiricilərindən biri kimi tanınmışdır» (Müasir Azərbaycan ədəbiyyatı. I cild. 2007).

Mir Cəlal Azərbaycan nəsrinin inkişafında böyük rol oynamış sənətkarlarımızdan biridir. «Sağlam yollarda» oçerklər kitabı 1932-ci ildə işıq üzü görüb. Sonralar «Boy» kitabında novellaları və oçerkləri toplanıb. 1935-ci ildə nəşr olunub. «Dirilən adam», «Bostan oğrusu», «Axundun iştahası», «Gözün aydın», «Bir gəncin manifesti», «Vətən», «İlyas», «İsrafil», «Şərbət», «Vətən yaraları», «Həyat hekayələri», «Yeni kəndin adamları», «Təzə şəhər», «Sadə hekayələr», «Fitnə», «Yaşıdlarım», «Seçilmiş əsərləri 2 cilddə», «Yolumuz hayanadır», «İnsanlıq fəlsəfəsi», «Gülbəsləyən qız», «Seçilmiş əsərləri 4 cilddə, «Şəfəqdən qalxanlar», «Silah qardaşları», «Dağlar dilə gəldi», «Yaşıdlar», «Ləyaqət» (hekayələr və povestlər) və s. kitabların müəllifidir.

Mir Cəlal ədəbiyyatşünaslıq, ədəbi tənqid sahəsində elmi-nəzəri əsərlərin də müəllifidir. XX əsr Azərbaycan ədəbiyyatının ziddiyyətli və mürəkkəb bir dövrünü faktlarla təhlil etmiş, realizm, romantizm, naturalizm və s. haqda ədəbi, elmi-nəzəri mülahizələrini söyləmiş, bu cərəyanlara xüsusi fəsillər ayırmış, dövrün ən kiçik ədəbi hadisələrini,

şəxsiyyətlərini öyrənməyə, tədqiq etməyə çalışmış, təkcə XX əsr Azərbaycan ədəbiyyatı deyil, həm də klassik ədəbiyyatımızı tədqiq etmiş, Nizamidən başlayaraq ədəbiyyat tarixizdə mühüm yer tutan sənətkarların böyük bir qismi haqqında tədqiqat işləri yazmış, bunların hamısı haqqında sözünü deyə bilmiş, Füzuli irsini dərindən təhlil etmiş, onun sənətə baxışı, əsərlərinin dil-üslub xüsusiyyətləri, xalq danışıq dilindən qaynaqlanması, əsərlərindəki təsvir və ifadə vasitələri, poetikası haqqında geniş təhlil və tədqiqat aparmışdır.

«Füzulinin poetik xüsusiyyətləri» (1940), «Cəlil Məmmədquluzadənin realizmi haqqında» 1966), «Gülüş bədii silah kimi» (1968), «XIX əsr Azərbaycan ədəbiyyatı» (dərslik) (1969), «Ədəbiyyatşünaslığın əsasları» (1972), «Klassiklər və müasirlərimiz» (1973), «XX əsr Azərbaycan ədəbiyyatı» (şərikli) (1982) «Füzuli sənətkarlığı», «Azərbaycanda ədəbi məktəblər» (2005) elmi kitabların, monoqrafiyaların müəllifidir. «Füzulinin poetikası» mövzusunda namizədlik, «Azərbaycanda ədəbi məktəblər» mövzusunda doktorluq dissertasiyası müdafiə edən Mir Cəlalın ədəbiyyat tarixinin yazılmasındakı fəaliyyətini xüsusilə göstərməliyik. O həm iki cildlik, həm də üç cildlik Azərbaycan ədəbiyyat tarixlərinin əsas müəlliflərindən olmuşdur. Bu da göstərir ki, o həm nasirdir, həm də ciddi elmi əsərlərin müəllifidir. Bütün ömrü boyu elmi, ədəbi-bədii yaradıcılıqla məşğul olmuş, ədəbi tənqidimiz üçün çox iş görmüş, elmi yaradıcılığı ilə bədii yaradıcılığı «yanaşı, qoşa irəliləmiş, bir-birinə kömək etmiş, bir-birini tamamlamışdır» (Kamal Talıbzadə).

Onun «Bir gəncin manifesti» əsərində nəsrimizin ənənələrinin ustalıqla davam etdirildiyini görürük.

Mir Cəlal ədəbiyyatımızda satirik-yumoristik əsərlər müəllifi, istedadlı bədii gülüş ustası kimi də tanınır. Mir

Cəlal əlliyə yaxın bədii, elmi və publisistik kitabın, beş yüzdən çox məqalə, resenziyanın, elmi-nəzəri əsərlərin, dərsliklərin müəllifidir.

Mir Cəlal ilk öncə hekayə ustasıdır. Hekayə janrının inkişafında onun xidmətləri böyükdür. Yazıçının «Bostan oğrusu», «Həkim Cinayətov», «Anket, Anketov», «Özündən naxoş», «İclas qurusu», «Mirzə Şəfi», «Möhlətovun tərcümeyi-halı», «Elçilər qayıtdı» və s. əsərləri yumoristik satirik üslubu ilə seçilir. Hekayələrin hər birində irihəcmli bir nəsr əsərinin materialı olsa da yazıçı onu bir hekayə çərçivəsində yerləşdirə bilir, tənqid hədəfini daha «sərrast» nişan almaqla istəyinə nail olur.

Onun hekayələrində qələmə aldığı həyat hadisələri hərtərəfli öz ifadəsini tapır. Bu hekayələrdə köhnəliklə yeniliyin mübarizəsi əsasdır, ölkəmizin inkişafına mane olanlar tənqid olunur, vətənpərvərlik, övlad, ata-ana məhəbbəti bu əsərlərin ruhuna hopub. Bir sıra hekayələrində satirik, yaxud yumoristik gülüş var. «Badam ağacları», «Subaylıq fəlsəfəsi», «Vətən yaraları», «İki ananın bir oğlu», «Muştuluq», «Göylər adamı», «Ailə», «Ayaz», «İnsanlıq fəlsəfəsi» və s. hekayələri qüksək sənətkarlıqla yazılmış əsərlərdəndir.

Mir Cəlalın «Dirilən adam», «Bir gəncin manifesti», «Açıq kitab», «Yaşıdlar», «Təzə şəhər», «Yolumuz hayanadır?» romanlarını oxuculara sevdirən mətləbin «konkret, yığcam bədii formada, dinamik süjet daxilində ifadə edə bilmək» məharətində görülür. Onun hekayələrində lakonizm əsas keyfiyyətdir. Lüzumsuz təsvirlərdən yan qaçan ədib hadisənin məğzini, özəyini təşkil edən, mətləb və məzmunu ön plana çəkir, fikrini, ideyasını müxtəsər, yığcam fabula əsasında şirin, axıcı, bəzən ciddi, bəzən isə yumoristik tərzdə oxuculara çatdırır» (İ.Əliyeva).

Onun yaradıcılığında diqqəti cəlb edən məsələlərdən biri də budur ki, iri həcmli əsərlərində surətlər az olur, onların hər birinin mənəvi aləmini, xarakterlərini dolğun verməklə yaddaşlarda qalmasına nail olur. Azərbaycan kəndinin həyatını, kəndli psixologiyasını yaxşı bilən, dərin müşahidə qabiliyyətinə malik olduğundan onların həyatının yüksək bədii bir dillə qələmə alan sənətkardır.

Mir Cəlalın alim, tənqidçi, ədəbiyyatşünas kimi Azərbaycan ədəbiyyatşünaslığına, eləcə də dünya ədəbiyyatına verdiyi dəyərli elmi-tədqiqat əsərləri var. Adı ədəbiyyatşünaslıq və ədəbi tənqidimizin inkişafında da birinci çəkilir. Onun öz tənqid-təhlil üsulu, metodu var. Mir Cəlal Azərbaycan ədəbiyyatının inkişafına ədəbiyyatşünaslıqla bağlı əsərlərində də misilsiz xidmət göstərmişdir. Onun yazıçı və şairlər haqqında dediyi sözlər olduğu kimi yadda qala bilir, oxucu hafizəsinə hopur: «Mir Cəlal bəzən adi, kiçik, replika və yazılarında, tutarlı bir müqayisəsində, obrazlı deyilmiş bir cümləsində tədqiqat obyektinin bir cəhətini sərrast ifadə edə bilir: filan yazıçı həyatdan, filan isə kitabdan gəlmişdir; Əhməd Cəmil az yazır, saz yazır; Səməd Vurğun bir çoxları kimi yaradıcılığının ilk illərində kağız korlamamışdır; Ənvər Məmmədxanlı özünün məharəti ilə bəzən az ağlabatan vaqeələrə belə oxucunu inandıra bilir və s».

Mir Cəlalın ədəbi fəaliyyətindən danışarkən onun elmi, ədəbi-bədii əsərlərinin dilini unutmaq olmaz. Onun əsərlərinin dili canlı xalq dilidir, folklor abidələrindən, Mirzə Cəlil nəsrinin dilindən qidasını alıb. Sözə qənaət edən, fikri yığcam, lakonik, təsirli şəkildə «təbii tərzdə ifadə edən»dir, bəzək-düzəksiz, həyat hadisələrinin sadə və səmimi bir təhkiyə üzərində qurandır. Bütün yaradıcılığı boyu bir dram əsəri yazmışdır ki, bu da müharibə illərinə təsadüf edir.

«Mirzə Xəyyam» «şən və ifşaedici» komediyadır. Mir Cəlalın adı gözəl nasir, müəllim, ədəbiyyatşünas, tənqidçi kimi Azərbaycan ədəbiyyatının tarixinə yazılıb.

Müasir Azərbaycan nəsrinin inkişafında Əbülhəsən Ələkbərzadənin də rolu böyükdür. O, cəmiyyətin «ictimai və siyasi hadisələrin qaynar burulğanında» yetişən, gördüklərini «bədii sənət dilində əbədiləşdirməyi» bacaran ədiblər sırasındadır. Ədəbi fəaliyyətə «Maarif və mədəniyyət» jurnalında çap olunan «Sofi» hekayəsi ilə başlayan Əbülhəsən yaradıcılığının ilk illərində şeirlər yazmışdır. «Dalğalar», «Şahbuzdağ», «Bahar yağışları», «Etirafdan» və s. şeirlərində təbiət lövhələri öz əksini tapır. Bununla belə, «Sofi» hekayəsi ilə istedadlı, orijinal bir yazıçı kimi diqqəti cəlb edib.

20-ci illər Azərbaycan nəsrinin bir növ hekayə dövrü kimi qiymətləndirilir. Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Abdulla Şaiq. Amma müasir Azərbaycan romanı və povesti yox idi. Tənqidçilər nasirlərimizin «uzaq və əzəmətli yürüşə hazırlaşan ordular kimi özlərinin potensial gücünü, sənətkarlıq qüdrətini» yoxladıqlarını, roman, povest üçün «ciddi məsuliyyətli hazırlıq» getdiyini, Ə. Ələkbərzadənin də bu dövrdə yetişdiyini bildirirlər. Tarixi mövzularda, ictimai-siyasi hadisələri özündə əks etdirən «Şamo», «Dumanlı Təbriz», «Dirilən adam», «Qəhrəman» romanlarını tənqidçilər «uğurlu romanlar» kimi dəyərləndirirdilər. Əbülhəsənin yaradıcılığında «Yoxuşlar» romanını isə müasir Azərbaycan romanının ilk nümunəsi kimi qiymətləndirirlər. Kənddə kollektivləşmə hərəkatına həsr olunan əsərdir.

Əbülhəsən Ələkbərzadə gördüyü, şahid olduğu hadisələri əsərinin mövzusuna çevirirdi. Yazıçı Q. Korabelnikov

yazırdı ki, Əbülhəsən «nədən yazmışsa, həmişə iştirakçı və şahid kimi onları öz gözü ilə görmüşdür. Sanki taleyin özü ona həyat təcrübəsi bəxş edir, onu əsrin həlledici vuruşları gedən döyüş, mübarizə meydanına gətirir».

Əbülhəsən Ələkbərzadənin yaradıcılığı üçün əsas səciyyəvi cəhətlər müasirlik və aktuallıqdır. Onun «Araz», «Dünya qopur», «Boşandı», «Yoxuşlar», «Tanışlar», «Atalar və oğullar», «Müharibə» I kitab, «Dostluq qalası», «Dünya qopur», «Tamaşa qarının nəvələri», «Krım hekayələri», «Utancaq», «Sədaqət», «Üç ildən sonra» və s. kitablarındakı bu müasirlikdir: «Əsl müasirlik onun qəhrəmanlarının xarakterində, amallarında, düşüncə və əməllərindəndir, bədii süjetin və konfliktin səciyyəsində, əsərin ümumi pafosunda və ideya məzmunundadır; nəhayət, onun özünün sənətkar kimi zəmanəsinin sosial tendensiyalarını, ictimai ideallarını məqamında, sərrast duya bilməsində, vətəndaş kimi onların həyati qələbəsi uğrunda mübarizənin ön cərgəsində getməsindədir» (T. Mütəllimov).

Əli Vəliyev Azərbaycan nəsrinin inkişafında böyük xidmətləri olan sənətkarımızdır. «Nənəmin cəhrəsi», «Sübut», «Sovqat», «Cəbhə hekayələri», «Gülşən», «Ürək dostları», «Anaqız», 6 cildlik «Seçilmiş əsərləri», «Narahat adam», «Madarın dastanı», «Budağın xatirələri» kimi əlliyə yaxın kitabların müəllifidir. Əli Vəliyev Azərbaycan həyatını, onların Böyük Vətən müharibəsi illərində faşizmə qarşı həm arxa, həm də ön cəbhədə apardığı mübarizəni, qazanılan qələbələri, ölkədə gedən quruculuq işlərini nəsr əsərlərində, hekayə, povest və romanlarında yüksək sənətkarlıqla təsvir etmiş, Azərbaycan nəsrinin inkişafında öz dəsti-xətti ilə seçilmişdir. Əsərləri bu gün də sevilir, oxunur.

Ənvər Məmmədxanlı Azərbaycan ədəbiyyatına orijinal əsərlər bəxş edən gözəl sənətkardır. İlk kitabı «Burulğan» 1934-cü ildə çapdan çıxmışdır. «Bakı gecələri», «Ayna» (kinossenari), «Qəribə atəş», «Analar və yollar», «Dirilik çeşməsi», «And», «Hekayələr», «Balaca Nərgiz», «Hekayələr», «Seçilmiş əsərləri», «Seçilmiş əsərləri» 2 cilddə, «Qızıl qönçələr» və s. kitabların müəllifidir.

1936-cı ildə ədibin «Bakı gecələri» kitabı çap olunur. Bu kitabdakı hekayələri, sonralar yazdığı «Ananın nəziri», «Kiçik məktub», «Qaralmaz günəş» əsərləri Ənvər Məmmədxanlını ədəbi mühitdə istedadlı qələm sahibi kimi tanıdır. İkinci Dünya müharibəsi dövründə «Qızıl ordu» cəbhə qəzetinin Azərbaycan redaksiyasının xüsusi müxbiri olmuş, Stalinqrada göndərilmiş, müxtəlif cəbhə bölgələrində olmuşdur. Müharibə illərində qələmə aldığı hekayələrində müharibənin dəhşətlərini yaşayan insanların həyatı qələmə alınır. Onun «Buz heykəl» əsəri adi hekayə deyil «başdan-ayağa müharibəyə, faşizmə nifrət, anaya, həyata və günəşə dərin məhəbbət fəlsəfəsidir. Müharibə təkcə ananı baladan ayırmır, o, qardaşı bacıdan, atanı oğuldan, sevgililəri birbirindən didərgin salır, çox arzuları ürəklərdə, çox diləkləri gözlərdə qoyur... Ədib təhkiyəni elə sağlam bədii məntiqlə qura bilir ki, hadisəyə hökmən inanmalı olursan» (T. Mütəllimov).

«O, mahnılarda qayıtdı» hekayəsində də müharibə, onun ağrı acıları verilir. «Qərb cəbhəsindən məktub», «Analar yollara çıxdılar», «Yeni ilin hökmü», «Qərbə atəş», «Silahlı dağlar», «Qanlı möhür», «Haralısan, əsgər qardaş», «Ananın ölümü», «Ulduz» «Vasya Luçik», eləcə də «Buz heykəl» hekayələrində tənqidçilər ədibin üslubunda təmkinli hekayəçiliklə, mübariz, döyüşkən, odlu publisistikanın vəhdət təşkil etdiyini görürlər.

Ənvər Məmmədxanlının «Boyunbağı», «Karvan dayandı», «Baş xiyabanda», «Qızıl qönçələr» və s. əsərləri cəbhə mövzusunda yazılmış əsərləridir.

Böyük Vətən müharibəsi illərində sovet ordusu sıralarında Tehrana getmiş yazıçı orada yaşayan qardaşlarının həyat tərzinin, ağır güzəranının şahidi olmuşdur. Təbriz camaatının acınacaqlı taleyindən bəhs edən «Baş xiyabanda» hekayəsinin mövzusu ürəkağrıdandır. Müharibənin dəhşətləri, ac, yoxsul insanların fəlakəti, ata-anasını erkən itirdiklərindən çöllərdə ac qalan, ömrü çöllərdə keçən uşaqlardan birinin diləndiyi çörəyi itlərə payladığını təsvir edir. O itlərə ki, «o, hər gecə üşüməsin deyə büzüşüb həmin itlərin arasında yatarmış». Şəhərin baş xiyabanında gördükləri, bütövlükdə İran zülmü altında inləyən məmləkətimizin bir hissəsinin təbrizlilərin-cənubi azərbaycanlıların, ağır, faciəvi həyatından bir səhnə idi.

Tənqidçilər romantika, lirizm, lakonik, yığcam forma, rəvan poetik dil, incə duyğularla yanaşı yazıçının əsərlərində zamanın, dövrün xüsusi möhürü olduğu fikrindədir. Öz təhkiyəsində «həm də surətlərin söhbət və monoloqlarında fəal, çevik, publisistik ifadə tərzindən» məharətlə yararlandığı da diqqətdən yayınmır.

Uzun müddət səhnədən düşməmiş «Şərqin səhəri» pyesi də Ənvər Məmmədxanlınındır. Bu pyesdən sonra Ənvər Məmmədxanlı «Od içində» (1950) pyesini yazır ki, burada 1945-46-cı illərdə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı məğlubiyyətə uğrayandan sonra baş verən hadisələr təsvir olunur. Sah rejimi tərəfdarları ölkəni ingilislərə, amerikalılara satmaq istəyirlər, xalq onlara qarşı çıxır. Mübariz xalqın əzmini qırmaq üçün şahın xəfiyyələri hər cür cinayətlərə əl atır. Təbriz gizli təşkilatının qüvvələrini axtarır, bu təşkilatı

dağıtmaq, onun Azər kimi başçılarını məhv etmək üçün dəridən-qabıqdan çıxırlar.

Dramaturq «Şirvan gözəli» komediyasını da yazmışdır. Ənvər Məmmədxanlının ssenarisi əsasında «Bəxtiyar», «Məhəbbət dastanı», «Babək», Mehdi Hüseynlə birlikdə yazdığı «Fətəli xan» bədii filmləri çəkilmişdir. Qorkinin «Özgə qapılarında», «Uşaqlıq» əsərlərini dilimizə tərcümə etmişdir. Özünəməxsus bədii sənətkarlıq xüsusiyyətləri, orijinal üslubu olan Ənvər Məmmədxanlının həmişə bədii formaya xüsusi diqqət yetirdiyi, əsərlərinin çoxunda «möhkəm fabula, bitkin süjet xətti, maraqlı kompozisiya» olduğu, təsvir etdiyi hadisəyə mümkün qədər fəal müdaxilə etdiyi, «öz münasibətini ustalıqla ortaya çıxartdığı» onun sənətkarlıq keyfiyyətləri kimi ədəbiyyatşünasların tədqiqatında mühüm yer tutur.

Ömrünün son illərində qələmə aldığı «Babək» romanı və «Xürrəmilərin ağ şahini» dram əsərləri də orijinallığı ilə tədqiqatçıların diqqətini cəlb etmiş, oxucuların ən çox sevdiyi əsərlərə çevrilmişdir. Onun dilindən danışarkən publisist təhkiyə üsulunda şirin, axıcı, şairanəlik əsas olduğu, poeziya təsiri bağışladığı xüsusilə qeyd edilir. Ənvər Məmmədxanlı Azərbaycan xalq dilini, onun şifahi sənət incilərini gözəl bilir və bunlardan yerli-yerində yaradıcı şəkildə istifadə edir. Onu oxucuya sevdirən cəhətlərdən biri də budur.

Müharibədən sonrakı ilk onilliklərdə nəsr, poeziya sahəsində olduğu kimi dramaturgiya sahəsində də dəyərli əsərlər yaranmışdır. Dram əsərlərində əməkçi insanlar, zəhmətkeşlərin obrazları yaranırdı. İlyas Əfəndiyev «İşıqlı yollar» pyesində Bakı neftçilərinin, rayondan şəhərə gəlib neft mədənlərində işləməyə başlayan gənclərimizin əmək naliyyətlərini səhnədə canlandırır. Mirzə İbrahimov «Kəndçi qızı», Sabit Rəhman «Əliqulu evlənir», «Yalan», İlyas Əfəndiyev «Atayevlər ailəsi», «Sən həmişə mənimləsən», İmran Qasımovla Həsən Seyidbəyli «Sən nə üçün yaşayırsan», İslam Səfərli «Ana ürəyi», Bəxtiyar Vahabzadə «Vicdan», Şıxəli Qurbanov «Sənsiz», M. Şamxalov «Qaynana» kimi dram əsərlərini yazırlar. Bu pyeslərdə ölkədə iqtisadiyyat, mədəniyyət sahəsində əmək adamlarının böyük əməyi ilə yanaşı ailə, tərbiyə məsələsi, ailə-məişət məsələləri, meşşan xarakterli, cəmiyyətin yarıtmaz qüvvələri, insanların ictimai fəaliyyəti ilə şəxsi mənafeyi arasındakı münasibət, dostluq, məhəbbət, eləcə də, nifrət və s. duyğuları öz əksini tapır.

Uşaqların və gənclərin tərbiyəsinə müsbət təsir göstərən bir sıra dəyərli dram əsərləri də müharibədən sonrakı dövrdə səhnələrimizin yaraşığı idi. A.Şaiq «Bir saat xəlifəlik», Ə.Abbasov «Aqil və Sərvinaz», Z.Xəlil «Gənc ustalar», C.Məcnunbəyov «Ayrılan yollar», H.Seyidbəyli «İmtahan» N.Gəncəli «Şəlalə», Y.Əzimzadə «Anacan», «Aprel səhəri», «Nəsrəddin», «Qonşular» pyeslərində dolğun müəllim, valideynlər, gənclər döyüşçü surətləri yaratmışlar. Gülbahar («Anacan»), Gövhər («Qonşular»), Cövdət («İmtahan») kimi yeni nəslin müsbət qəhrəmanlarının obrazları yaradılır.

Yaxın keçmişimiz, Cənubi Azərbaycanda baş verən milli-azadlıq hərəkatından bəhs edən Ənvər Məmmədxanlının «Şərqin səhəri», «Od içində» kimi əsərlərində Cənubi Azərbaycanın milli-azadlıq uğrunda çarpışan, ölkədə irticanın yüksək həddə çatdığı bir zamanda güclənən azadlıq hərəkatı, bu hərəkatda fədakarlıq göstərən, mərdliklə döyüşən Ədalət, Zeyni baba, Əli Boyaqçı kimi mükəmməl surətlər var. Bu əsərlərdə yerli irticaya, xarici müdaxiləçilərin milli-azadlıq hərəkatına qarşı apardıqları mübarizəyə nifrət vardır. Azərbaycanın neftini ələ keçirmək məqsədilə Bakıya

gəlmiş ingilis imperializminin tipik nümayəndəsi General Tomson («Şərqin səhəri»), Cənubi Azərbaycanda milli-azadlıq hərəkatını yatırmaqda iran-şah hökumətinə yardım göstərən və bunun müqabilində ölkənin zəngin yataqlarına sahib olmaq məqsədini güdən amerikan hərbi müşaviri general Xart, Təbrizdəki Amerika xəstəxanasının müdiri Parşan, ingilis konsulu mister Gipson («Od içində») kimi mənfi surətlər yaradan yazıçının xarici imperialist qüvvələrə qarşı bəslədiyi nifrət bu əsərlərin əsas qayəsidir.

Bu dövrdə yaranan dram əsərlərində mükəmməl inqilabi obrazlar yaradılır. Mirzə İbrahimovun «Közərən ocaqlar», İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı», Sabit Rəhmanın «Küləklər», Yusif Əzimzadənin «Silahdaş» pyesi yaxın inqilabi keçmişimizi özündə əks etdirən əsərlərdir.

Lirik psixoloji xüsusiyyətləri özündə əks etdirən İlyas Əfəndiyevin «Qəribə oğlan» «Bağlardan gələn səs», tarixi mövzuda yazdığı «Xurşidbanu Natəvan» pyesləri, B.Vahabzadənin «İkinci səs», «Yağışdan sonra», «Yollara iz düşür», N.Xəzrinin «Əks-səda», müasir Azərbaycan komediyasının əsasını qoymuş Sabit Rəhmanın yaradıcılıq ənənələrini davam etdirən qələm sahiblərindən Ş.Qurbanovun «Əcəb işə düşdük», «Özümüz bilərik», «Milyonçunun dilənçi oğlu». Anarın «Adamın adamı», «Şəhərin yay günləri» S. Dağ-lının «Mənziliniz mübarək», «Adı sənin, dadı mənim», «Təzə gəlin», S.Qədirzadənin «Şirin bala bal yığır», A.Məmmədovun «Kişilər», S.Axundovun «Şirin layla», «Qaragilə», «Əməllər yaşayır» əsərlərində tiplər, kütbeyin, saxtakar, əliəyri-cəmiyyətin tör-töküntüləri gülüş hədəfinə çevrilir.

Müharibədən sonra da uzun illər, bu gün də unudulmayan dəhşətli illər, faşistlərin törətdikləri qanlı faciələr, Böyük Vətən müharibəsində mərdliklə vuruşan qəhrəmanlar, onların parlaq obrazları yaradılırdı. S.Axundovun

«Anaların səsi» Y.Əzimzadənin gənc qvardiyaçılar arasında faşizmə qarşı mərdliklə vuruşan Əli Dadaşovun xatirəsinə həsr etdiyi «Unutmayın» dramı, İ.Coşqunun «Ana laylası», N.Gəncəlinin «Yanmış planetin sərvətləri» fantastik pyesi böyük tərbiyəvi əhəmiyyətə malik, gənclərdə milli vətənpərvərlik, onlarda vətənə, torpağa məhəbbət hissi tərbiyə edən əsərlər kimi dəyərlidir.

Müasir həyat hadisələrindən götürülmüş, komediya materialı ola biləcək cəhətləri seçib ümumiləşdirməyə səy göstərən Seyfəddin Dağlının «Mənziliniz mübarək», Anarın «Qaravəlli», «Adamın adamı», Salam Qədirzadənin «Gurultulu məhəbbət», C.Məmmədovun «Qaçırılmış qız» kimi əsərlərində «komizm replikalarda, atmacalarda yox, vəziyyətin özündə, situasiyalarda, personajların hərəkət və davranışlarında» təzahür etdiyi bildirilir.

Altay Məmmədov «Həmyerlilər» komediyasında yerliçiliyi ifşa edir. İşdən yayınıb günü çayxanalarda, pivəxanalarda keçən, ora-bura baş vuran, halal əməkdən, zəhmətdən qaçan, arvadın hesabına «kişi» olanları tənqid hədəfi götürdüyü «Kişilər» komediyasını, M.F.Axundovun «Aldanmış kəvakib» povestinin motivləri əsasında «Ulduzlar görüşəndə» pyesini yazır.

Bu illərin dramaturgiyasında Anar, B. Vahabzadə, R.İbrahimbəyov, M.İbrahimbəyov, N.Xəzri, Ə.Əylisli, İ.Əfəndiyev və Elçinin yaradıcılığı daha çox diqqəti cəlb edir. R.İbrahimbəyovun «Öz yolu ilə», M.İbrahimbəyovun «Mezozoy əhvalatı», N.Xəzrinin «Əks-səda», Ə.Əylislinin «Vəzifə» kimi dram əsərlərində bu günün, elmi-texniki tərəqqi dövrünün problemi və qayğıları ilə, onun zəngin, dolğun xarakterə malik insanları ilə qarşılaşırıq.

Müharibədən sonrakı illərdə ədəbiyyatşünaslığın inkişafında tənqidçilər, alimlərlə yanaşı S.Vurğun, M.İbrahimov M.Hüseyn kimi yazıçı və şairlər də fəallıq göstərirdilər. S.Vurğun yazdığı məqalələrdə ideyalılığı, müasirliyi, xəlqiliyi təbliğ edir, formalizmə, nihilizmə, naturalizmə qarşı barışmaz mövqe tutur. Müasir həyatda nöqsanları tənqid etməklə yanaşı, müsbət keyfiyyətləri daha çox qələmə almağın tərəfdarı idi. Bədii əsərlərdə romantikanı müdafiə edirdi. «Uşaqlarımız üçün gözəl əsərlər yaradaq», «Sənətdə formalizm və naturalizm əleyhinə» və s. məqalələrində romantikanı müdafiə etməkdə məqsədi vardı; bəzilərinin ədəbiyyatı romantikadan ayırıb «onu məişətçiliyə endirmək» istəklərini tənqid edirdi. S.Vurğunu düşündürən məsələlərdən biri də müsbət qəhrəman, müsbət ideal, klassik irsə münasibət məsələləri idi.

Klassik və müasir sənətkarlar haqqında, Azərbaycan ədəbiyyatının inkişafı, ayrı-ayrı ədəbi şəxsiyyətlər haqqında düzgün elmi-nəzəri mülahizələr irəli sürən yazıçılardan M. İbrahimov Füzuli, C.Məmmədquluzadə, Sabir və başqa klassiklərin bədii yaradıcılığından, dünyagörüşlərindən danışarkən tarixilik prinsipinə ciddi riayət edir.

«Dramaturgiyanın bəzi sənətkarlıq məsələləri» məqaləsində «Konfliktsizlik nəzəriyyəsinin» əsassızlığını açır, bunun ədəbiyyata vurduğu zərərləri nümunələrlə açıb göstərir. Tənqidçilər «bu bədnam nəzəriyyənin» uzun müddət insanların fikirlərində «dolaşıqlıq və çaşqınlıq» yaratdığını bildirirlər.

Bu dövrdə ədəbi-tənqidi fəaliyyəti ilə seçilən, dəyərli ədəbi-tənqidi fikirləri ilə tanınan M. Hüseyinin 1945-1953-cü illər arasında yazdığı məqalələrdə ədəbiyyatşünaslıqla bağlı çox mühüm nəzəri məsələlər irəli sürdüyü, ədəbiyyatmızın «ideya saflığı, yüksək sənətkarlığı uğrunda mübarizə

apardığı öz mülahizələrini də bu istiqamətdə inkişaf etdirdiyi tənqidçilər, ədəbiyyatşünaslar tərəfindən xüsusilə qeyd edilir. Nəzəri cəhətdən yüksək səviyyəli əsərləri olan «Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri» (silsilə məqalələr), «Böyük sənət uğrunda», «Qılınc və qələm» haqqında qeydlər», «Ədəbi tənqidimizin nəzəri saflığı uğrunda» və s. əsərlərdə həm bədii yaradıcılığın, həm də ədəbiyyatşünaslığın ümdə məsələlərinə dair dərin elmi-nəzəri ümumiləşdirmələr olduğu söylənir.

Ədəbiyyatşünaslığımızın ən böyük nailiyyətlərindən biri də filosof Heydər Hüseynovun «XIX əsr Azərbaycan ictimai fikir tarixindən» əsəridir. Bu əsərdə alim «bütöv bir əsr ərzində Azərbaycanda yaranan fəlsəfi, ictimai-bədii fikrin» bütün problemlərinə toxunur.

Azərbaycan ədəbiyyatşünaslığının, eləcə də ədəbiyyatımızın inkişafında böyük xidmətləri olan şəxsiyyətlər içərisində Məmməd Arifin öz dəsti-xətti var. Müasir Azərbaycan tənqidinin formalaşması və inkişafında misilsiz xidmətlər göstərib, elmi-bədii yaradıcılığa XX əsrin 20-ci illərindən başlayan Məmməd Arif kiçik şeirlər, hekayələr, felyetonlarla yaradıcılığa başlayıb. İlk əsərlərini «Molla Nəsrəddin», «Qızıl gənc qələmlər», «Şərq qadını», «Maarif və mədəniyyət» jurnallarında, «Kommunist» qəzetində çap etdirib. Müasir ədəbi proseslə, mədəniyyətlə, eləcə də bədii yaradıcılıq məsələləri ilə dərindən bağlı olan Məmməd Arif 20-30-cu illərdə dövrü mətbuatda şeir və hekayələri, felyetonları ilə vaxtaşırı çıxış etsə də, bu dövrdən başlayaraq Sovet ədəbiyyatşünaslığının, ədəbi tənqidin yaranmasına, inkişafına həsr etmiş, bütün qüvvəsini, fəaliyyətini «insan və zaman», «sənətkar və vətəndaşlıq borcu» məsələlərinin düzgün-müasir həllinə yönəltmişdir».

Akademik Məmməd Arif Azərbaycan ədəbiyyatı tarixinin yaradıcılarından biri olub, ikicildlik «Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi» (1943-1944), üç cildlik «Azərbaycan ədəbiyyatı tarixi» (1967), «Azərbaycan sovet ədəbiyyatı tarixi oçerki» kitablarını ərsəyə gətirib. «C.Cabbarlının yaradıcılıq yolu» mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 20-30-cu illərdən başlayaraq ədəbiyyatşünaslıq (sovet ədəbiyyatşünaslığı), ədəbi tənqid sahəsində dəyərli əsərləri yazmış, «bədii sənətkarlıq», bədii dil, xəlqilik, bədii tərcümə və s. məsələlər, Azərbaycan, rus və dünya xalqları klassik ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, müasir ədəbi proses, ədəbi-tənqidi əlaqələr əsas tədqiqat obyekti olmuşdur. «Mehman» povesti və müsbət qəhrəman məsələsi», «Bədii dil və üslub», «Azərbaycan sovet şeirində lirika», «Azərbaycan sovet dramaturgiyasında sənətkarlıq məsələləri» və s. məqalələri tənqid və ədəbiyyatşünaslıq elminə xidmət edir. H.Araslı, F. Qasımzadə, Əli Sultanlı, M. Rəfili, S.Xəndan ilə birlikdə Məmməd Arif də orta məktəb və ali məktəb tələbələri üçün dərsliklərin yaradılmasında böyük rol oynamışdır. Tənqidçi, ədəbiyyatşünaş, tərcüməçi, nasir, pedaqoq, 1936-cı ildən AYB-nin üzvü, Azərbaycan EA-nın həqiqi üzvü, Azərbaycan dövlət mükafatı laureatı M. Arif rus klassik ədəbiyyatına dair də maraqlı elmi-nəzəri mülahizələr irəli sürmüşdü. N.Qoqol, L.Tolstoy, A.Çexov, M.Qorki, Servantes, İ.Bexer, M.E.Remarkdan bədii tərcümələr etməklə yanaşı, «Qədim rus ədəbiyyatı (XI-XVII əsrlər), «Rus ədəbiyyatı» (XVIII əsr) kimi ali məktəblər üçün dərsliklərin redaktoru və müəlliflərindən biri olmuşdur.

1950-1954-cü illərdə Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin rektoru olmuş, ədəbiyyatşünas alim, lirik şeirlər, poemalar müəllifi, Azərbaycan satirasının banisi M. Ə.Sabir haqqında ilk monoqrafiyanın («Sabir». 1940) müəllifi, ilk

Azərbaycan elmində «Ədəbiyyat nəzəriyyəsi»nin müəllifi (1940), ilk İran Azərbaycanı ədəbiyyatının tədqiqatçısı (1949) Cəfər Xəndan Zeynal oğlu Hacıyev ədəbiyyatşünaslıq tariximizə adı yazılmış böyük simalardan biridir.

Cəfər Xəndan maraqlı, bir-birindən oxunaqlı, orijinal keyfiyyətləri ilə seçilən şeir, poemaları ilə yanaşı Azərbaycan elminə, ədəbiyyatşünaslığına dəyərli tədqiqat əsərləri də vermiş alimdir.

O, yaşadığı dövrün müasir həyatı ilə səsləşən dəyərli sənət əsərlərini, onu yaradan şair və yazıçıların yaradıcılığını təhlil və tədqiqata cəlb etməklə yanaşı, klassik ədəbi irsimizə də qayğı və diqqətlə yanaşmış, qüdrətli sənətkarlarımızın yaratdığı sənət əsərlərini araşdırmış, onların həyatı, dövrü ilə bağlı tədqiqatlar aparmışdır. Nizamişünaslıq elmimizin, Sabir ədəbi məktəbinin, Cəlil Məmmədquluzadə, Molla Nəsrəddinçilər məktəbinin yaradıcılarının həyat və yaradıcılığını geniş şəkildə araşdırmış, ədəbiyyatımızın inkişafında bu böyük sənətkarlarların tutduğu yeri müəyyənləşdirmişdir.

Öz fəaliyyəti dövründə elmi araşdırmalarını davam etdirmiş, mövzu və janr etibarilə zəngin olan ədəbi mühitimizi, onun inkişaf mərhələlərini, müxtəlif dövrlərdə yaşamış qüdrətli qələm sahiblərinin bədii təfəkküründün müxtəlif qatlarını araşdırmış, mədəniyyətimizin, ədəbiyyatımızın yaradıcılarının sənətkarlıq imkanlarını nəzərdən keçirmiş, mənəvi gözəllikləri, ülvi hissləri, humanist keyfiyyətləri, bəşəri duyğuları, əxlaqi, milli-mənəvi dəyərləri özündə birləşdirən yüksək bədii dəyərə malik ədəbi nümunələrin hər bir klassik sənətkara xas olan cəhətlərini üzə çıxarmışdır.

Şair, alim, müəllim C. Xəndan klassik və müasir sənətkarlarımızın yaradıcılığını, onların sənətkarlıq xüsusiyyətlərini dərindən öyrənmiş, ədəbiyyat tariximiz, ədəbi tənqidimiz və ədəbiyat nəzəriyyəsi sahələri ilə ciddi məşğul olmuş və buna görə də o dövrün böyük alimlərindən biri olan yazıçı, alim, müəllim Mir Cəlal kimi, «bir çox klassik və müasir sənətkar-

ların yaradıcılıq xüsusiyyətlərinin öyrənilməsində, ədəbiyyat tariximizə dair ciddi tədqiqat əsərlərinin yazılmasında, elmi-tənqidi fikrimizin düzgün inkişafında, onun da diqqətəlayiq xidmətləri, yazıçı alim təfəkküründün vəhdətindən yaranan məntiqli və orijinal fikirləri var»-desək yanılmarıq.

Bu dövrün ədəbiyyatşünaslıq elmindən danışarkən artıq 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunan Məmməd Cəfərin rolu unudulmazdır. «Azərbaycan şeirində novatorluq və ənənə», «Tipiklik haqqında», «Şairin düşüncələri», «Mirzə Ələkbər Sabir», «Cəlil Məmmədquluzadə», «Klassiklərimiz haqqında» (1948), «Mirzə Fətəli Axundovun ədəbi-tənqidi görüşləri» (1950), «Sidqi Ruhulla» (1949), «Ədəbi düşüncələr» (1958), «Füzuli düşünür» (1959), «Hüseyn Cavid», «Azərbaycan ədəbiyyatında romantizm», «Səməd Vurğun», «Nizaminin fikir dünyası» (1982),» «XIX əsr rus ədəbiyyatı» I (1970), II (1974), III (1974) cildlər və s. kitablarında ədəbi-tənqidi-publisistik məqalələri toplanmışdır. Adları çəkilən Azərbaycan ədəbiyyatının korifeylərinin yaradıcılığı haqqında tənqidçi, ədəbiyyatşünas alim elmi-nəzəri fikirlərini irəli sürür.

Müharibədən sonrakı dövrdə klassik şeirimizi dərindən tədqiq etmək, böyük sənətkarlarımız Nizami, Füzuli, Nəsimi və digərlərinin yaradıcılıq dövrünü əhatəli, geniş şəkildə araşdırmaq, öyrənmək sahəsində ədəbiyyatşünas alimlər xeyli iş görür. Nizamişünaslardan M.Əlizadə, M.Rəfili, Ə.Ağayev, Bertels, Krımski, H.Araslı rus yazıçılarından Nikolay Tixonov və b. dəyərli əsərlər, məqalələr yazdılar. Nizami yaradıcılığı haqqında onlarca əsərlər, monoqrafiyalar yazıldı. M.Rəfilinin «Nizami və XII əsr Azərbaycan mədəniyyəti», M.Cəlalın «Yeddi gözəl»dəki hekayələr haqqında, Əli Sultanlının «İsgəndərnamə» və «Qərbi Avropa ədəbiyyatı», Ə.Ağayevin «Nizami və dünya ədəbiyyatı»

silsilə məqalələri, H.Araslının Nizami haqqında yazdığı məqalələr buna misal ola bilər. Ədəbiyyatımızın inkişafına, onun möhtəşəm bir özül üzərində qurulduğuna, 20-ci illərdən sonra da Azərbaycan ədəbiyyatının sürətlə, düzgün inkişafına-«sağlam metodologiya əsasında» düzgün yolla inkişafına bir mayak olan ədəbi tənqid, ədəbiyyatşünaslıq elmi küll halında tədqiq edilmişdir. Bunlara M.Arifin «Seçilmiş əsərləri» (üç cilddə, (1967-1970), «Əsrin oğlu», «Sənətkar qocalmır» (1980), M.C.Cəfərovun «Mütəfəkkirin şəxsiyyəti» (1966), «Həyatın romantikası» (1966), «Seçilmiş əsərləri» (İki cilddə) (1973-1974), «Sənət yollarında» (1975), «Həmişə bizimlə», (1980), B.Nəbiyevin «Ədəbi düşüncələr» (1971), «Tənqid və ədəbi proses» (1976), «Təzə izlər sorağında» (1979), «Kamalın təntənəsi» (1981), «Söz ürəkdən gələndə» (1984), «F.Köçərli» (1984), B.Vahabzadənin «Sənətkar və zaman» (1976), «Sadəlikdə böyüklük» (1978), «Vətən ocağının istisi» (1982), «Səməd Vurğun» (1984), Əkbər Ağayevin «Əsrin tərənnümü» (1980), S.Əsədullayevin «Tarix, sənətkar, müasirlik» (1975), Y.Qarayevin «Tənqid, problemlər və portretlər» (1976), «Poeziya və nəsr» (1979), «Azərbaycan realizminin mərhələləri» (1980), T.Mütəllimovun «Ə.Əbülhəsənin yaradıcılığı» (1969), «Sənət qayğıları» (1981), X.Əlimirzəyevin «Ədəbi qeydlər» (1975), «Problemlər və xarakterlər dramaturgiyası», (1979), «Bədii həqiqət uğrunda» (1984), Y.Axundovun «Azərbaycan sovet tarixi romanı» (1979), Ş.Salmanovun «Azərbaycan sovet şeirində ənənə və novatorluq» (1964), «Müasirlik mövqeyindən» (1982), K.Talıbzadənin «Tənqidimiz haqqında qeydlər» (1967), «Ədəbi irs və varislər» (1974), «Sənətkarın şəxsiyyəti» (1978), «Azərbaycan ədəbi tənqidinin tarixi» (1985), Q.Xəlilovun «Azərbaycan romanının inkişaf tarixindən

(1973), «Həyat yaradıcılıq çeşməsidir» (1974), «Həyat və idrak» (1080), «Həyatdan gələn səslər» (1984), P.Xəlilovun «Nəsrimizin üfüqləri» (1982), A.Hacıyevin «Mirzə İbrahimov» (1982), A.Zeynallının «Keçilməmiş yollarla» (1970), Q.Namazovun «Azərbaycan uşaq ədəbiyyatı» (1984), «Azərbaycan aşıq sənəti» (1984), Arif Hacıyevin «Romantizm və realizm» (1972), «Azərbaycan realizmi» (1984), A.Vəfalının «Füzuli öyrədir» (1977), «Sənətkar və xalq» (1983), 1976-cı ildə nəşr olunmağa başlayan «Ədəbi proses» topluları Azərbaycan şair, dramaturq, yazıçılarının yaradıcılığının sənətkarlıq, dövr, zaman, mühit, tarixi proseslə əlaqəli şəkildə geniş təhlil və tədqiqat mövzusu olduğunu göstərir.

Xalq yazıçısı İmran Qasımov dramaturq, nasir, ssenarist və publisist kimi ədəbiyyat tariximizdə yaşayır. Kinossenarist kimi fəaliyyətə başlayan İ.Qasımov «Yeraltı uğultu», «Yeni üfüqlər» (1940) kinossenarilərini və «Arzu» (1938) pyeslərini yazmışdır. 1942-ci ildə hərbi rəis məktəbinin dinləyicisi olmuş, 1944-cü ilədək «Azərbaycanfilm»də ssenari şöbəsinin rəisi işləmiş, Azərbaycan Nazirlər Sovetinin yanında Kinomatoqrafiya nazirinin birinci müavini, kollegiya üzvü, «Literaturnaya qazeta»nın xüsusi müxbiri (1944-1953), Azərbaycan Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi (1953-1954), «Literaturnıy Azerbaydjan» jurnalının baş redaktoru (1954-1956), 1961-ci ildə Azərbaycan yazıçılarının qurultayında Yazıçılar İttifaqının katibi seçilmiş, 1975-ci ilin yanvarından AYİ-nın idarə heyətinin birinci katibi kimi çalışmışdır. N.Seyidbəyliylə birlikdə yazdığı «Uzaq sahillərdə» romanı bir çox dillərə tərcümə olunmuş, həm ölkə daxilində, həm də xarici ölkələrdə geniş yayılmışdır. «Ceyran» povestində müharibə zamanı döyüşlərdə qəhrəmancasına həlak olan, qərib ellərdə dəfn olunan azərbaycanlı qızın həyatından bəhs edilir.

Zəngin irsinə pyesləri, hekayələri, povest və romanları, oçerkləri, esseləri, ssenariləri, publisistikası daxildir. Əlliyə yaxın qısametrajlı filmlərin (novella, oçerk, dizi film) ssenaristidir. İlk kino əsəri olan «Yeni horizant» (1940) filminin ssenarisini yazan istedadlı xalq yazıçısı «Dəniz üzərində şəfəq», «Dairəni genişləndirin», «Ömrümüz çox qısadır» pyeslərini, «Yeni üfüqlər», «Odlar ölkəsi», «İradə», «Abşeron ritmləri» və s. kinossenarilərin, «Ceyran», «Fransız qobeleni», «İtaliya mozaikası» əsərlərini, «Xoşbəxt gün», «Xəzərin şəfəqləri», «Xəzər neftçiləri haqqında dastan», «Sən nə üçün yaşayırsan», «İnsan məskən salır», H.Seyidbəyli ilə birlikdə «Dəniz cəsurları sevir», «İllər keçir» və s. roman, povest, ssenarilərin müəllifidir.

İ.Qasımovla birlikdə bir sıra gözəl əsərlərin müəllifi Həsən Seyidbəyli «Bizim Astarada», «Qiymətli damcılar», «Kür sahillərində» hekayələr kitablarının, «Kənd həkimi», «İllər keçir», «Tərsanə», «Çiçək» və s. roman, povest və dram əsərlərinin müəllifi kimi oxuculara tanışdır. İ.Qasımovla birlikdə yazıdığı «Uzaq sahillərdə» romanı Azərbaycan bədii nəsrində bir hadisəyə çevrilir, onun «Tərsanə» romanı tənqidçi və alimlərin diqqətini çəkmişdir: «hər şeydən əvvəl özünün bitkin, mükəmməl süjeti, maraqlı kompozisiyası, aydın ideyası, fərdi, ümumi cizgilərə malik xarakterləri, sadə, axıcı, bədii dil, nəhayət, əsərin bütün səhifələrinə, sətirlərinə çilənmiş müasirlik və intellektual səviyyəsi ilə diqqəti cəlb etməkdədir». Burada yazıçının ədəbiyyatımızda az işlənmiş bir mövzuya toxunması, «istehsalat prosesinin təsviri ilə əsəri yükləmədən, daha çox əmək prosesində çalışan, yetişən, inkişaf edən, kamilləşən adamların iş

və əməllərini, duyğu və düşüncələrini tamamilə yeni planda, yeni poetik boyalarla bizə çatdırmağa müvəffəq olduğu» dəyərləndirilir.

Uşaqlar üçün «Vəfalı it və oğru pişiyin nağılı», «Qaraca toyuğun balaları» ilə yanaşı «Cəbhədən cəbhəyə» povestini yazmışdır. Yaratdığı əsərlərin dinamik süjet xətti, üslub, maraqlı kompozisiyası onun əsərlərini oxuculara sevdirib.

Azərbaycan nəsrinin inkişafında Süleyman Vəliyevin yaradıcılığı diqqəti cəlb edir. «Əmanət kassası» «Bığlı ağa» (1937) povesti, «Şeir cüllütü» (1939), «Molla Məmiş və sandıq» (1939), «Səadət yollarında» (1957), «Mübahisəli şəhər» (1962), «Düyünlər» (1970), «Gül dəstəsi» (1972), «Həyatın dadı» (1980), «Daşlı bulaq» (roman), «Seçilmiş əsərləri» 2 cilddə (1983), «Qanadı sınmış quş da uçarmış» (1989) kitablarında toplanan hekayə, povest, roman, xatirə və oçerkləri haqqında sənətkarlıq baxımından tənqidçilər dəyərli fikirlərini söyləmişlər. Müharibə illərində faşist hərbi düşərgələrinə düşmüş, zülm və işgəncələri gözləri ilə görmüş, sonralar qaçıb partizanlara qoşulmuş, İtaliya və Yuqoslaviya müqavimət hərəkatının fəal iştirakçılarından olmuş Süleyman Vəliyev yazdığı əsərlərdə gördüklərini yazmışdır. «Mübahisəli şəhər» romanını tənqidçilər bu cəhətdən təhlil edir: «Romanın real, sənədli əsası ədibin xəyalı, təxəyyülü ilə birləşərək hadisələrin təhkiyəsində bir cazibədarlıq, şirinlik yaradır. Xüsusilə əsərin əsas qəhrəmanlarından olan Aslanla mübahisəli şəhər olan Triqlavanın talelərindəki oxşarlıq, hər ikisinin əsirlikdən, köləlikdən xilasolma cəhdləri müəllif tərəfindən çox inandırıcı verilmişdir. Ümumiyyətlə, romanı oxuyarkən italyan həyatı, məişəti, təbiət mənzərələri oxucunu cəlb edir, onu düşündürür» (Müasir Azərbaycan ədəbiyyatı. I cild. Bakı. 2007).

Onun «Usta Pirinin ulduzları» (1970), «İşıqlı» (1975) povestləri, qiymətli bədii oçerkləri müasir həyatdan bəhs edən əsərlər kimi dəyərləndirilir. Yaradıcılığının mühüm hissəsi «istehsalat mövzusuna, fəhlə sinfinin həyatının təsvirinə» həsr olunduğu, bu əsərlərdə onların əmək rəşadətləri verildiyi, müharibədən əvvəlki dövrdə fəhlə sinfinin həyatından, işindən bəhs edən «Bığlı ağa» povestində yeni həyat uğrunda gedən mübarizə, «Şeir cüllütü» povestində isə zəhmətkeşlərin ağır həyatı təsvir edildiyi də tənqidçilərin təhlil və tənqidində öz əksini tapmışdır.

50-ci illərin əvvəllərində ədəbi nəsrə gələn istedadlı yazıçılardan biri də Salam Qədirzadədir. «Oqtay» adlı ilk hekayəsini «Pioner» jurnalında çap etdirmişdi. «İlk hekayələr», «Gənclik», «Sarmaşıqlı aynabənd», «Qış gecəsi», «Yarpaqlar pıçıldaşır», «Şərəfnisə qışqırır». «Başabəla Paşabala», «Burada insan yaşamışdır», «46 bənövşə», «Sevdasız aylar», «Sən olmasaydın», «Bir qız bir oğlanındır», «Təbəssümün mükafatımdır» və s. kitablardakı nəsr əsərlərində müasir gənclərin surətini yaradan S. Qədirzadə öz xatirələrində yazırdı ki, «ömrümün ən yaxşı, ən kövrək xatirələri gəncliklə bağlıdır. Onlardan yazanda mənə elə gəlir ki, yaş fərqimiz azalır, bir sırada dayanır. Təsvir etdiyim hadisələrin bilavasitə iştirakçısına çevrilirəm».

Böyük Vətən Müharibəsi cəhbələrində iştirak etmiş yazıçı «Burada insan yaşamışdır» (1963) povestini müharibə mövzusuna həsr etmişdir. «Kəndimizdə bir gözəl var», «46 bənövşə», «Ülkər», «Aytəkin» roman və povestlərində yazıçı gəncliyi əsas götürür, ailə-məişət məsələlərini, ülvi məhəbbəti ön planda verir. Müstəqil həyata yenicə qədəm qoyan gənc nəslin nümayəndələrini üzləşdikləri çətinlikləri, onların həyatda qazandıqları uğurları, məişət təmizliklərini, həyatda

amallarını, bu yolda əzmlə apardıqları mübarizəni şirin bir dillə təsvir edir. Yazdığı yumoristik, satirik hekayə, novella və komediya janrlarındakı əsərlərində cəmiyyətin inkişafına pis təsir göstərən, yeniliklərə mane olan mənfi əməlləri, nöqsan və qüsurları tənqid edir. Tənqidçilər komediya janrında yazdığı «Şirin bala bal yığır», «Hardasan, ay subaylıq», «Həmişəxanım», «Gurultulu məhəbbət» komediyalarında yazıçının nəsr əsərlərində qaldırmış olduğu problemləri bir qədər başqa aspektdə, sənət əsərlərinin tələbləri səviyyəsində «həll etməyə» çalışdığını söyləyirlər.

Mehdi Hüseyn qüvvətli nasir, dramaturq, prinsipial tənqidçidir. Milli ədəbiyyatımızın inkişafı yolunda həyatını sərf edən M. Hüseyn Azərbaycan ədəbiyyatının inkişafı üçün çox işlər görmüş sənətkarlar sırasındadır. İlk hekayəsi «Xavər»dir. «Bahar suları» kitabı ilə «Xavər» kitabı 1930-cu ildə çapdan çıxmışdır. Bu hekayələrin bir qismində Azərbaycan kəndinin ağır vəziyyəti, cəmiyyətdə hökm sürən ədalətsizlik, özbaşınalıq («Könül dəftəri», «Qan içində», «Tunel») öz əksini tapır və keçmiş həyatımızdan bəhs edirsə, bir qismi də inqilabdan sonra ölkədə gedən dəyişikliklər, köhnəliklə yenilik arasında mübarizə, müasir quruculuq işləri, yeni ailə münasibətləri («Xavər», «Bahar suları», «Sevgidən sonra», «Qayıtmalı», «Əlli iki» və s.) təsvir olunurdu.

İrihəcmli «Daşqın» romanı vətəndaş müharibəsi nəticəsində Azərbaycan-Gürcüstan sərhəddində baş verən qanlı faciələrə həsr olunub. Ölkədə baş verən inqilabi hadisələrin ucqar kəndlərə də təsiri, Azərbaycan kəndlərində xalqın öz azadlığı uğrunda mübarizəsi, yerli bəylərə, xanlara, qüvvəcən qoluzorlulara qarşı kəndlilərin silahlı dəstələr təşkil edib mübarizəyə qalxması, geniş xalq kütlələrinin ümumi mübarizədə birləşməsi, baş verən hadisələrin dövrün tarixi hadisələri ilə bağlılığı bu romanda əsas götürülür.

Mehdi Hüseyn Avropa, rus, milli ədəbiyyatımızın sənətkarlıq xüsusiyyətini öyrənən, özünəməxsus üslubu, tərzi, müəyyən yaradıcılıq yolu olan mükəmməl ədəbi təcrübəyə malik sənətkar kimi Azərbaycan ədəbiyyatı tarixində iz qoymuşdur. Çoxcəhətli yaradıcılığa malik, qüdrətli sənətkar, həm nəsr, həm dramaturgiya, həm də ədəbi tənqid sahəsində çalışan M.Hüseyn «Daşqın», «Tərlan», «Komissar», «Kin», «Səhər», «Qara daşlar», «Yeraltı çaylar dənizə axır», «Abşeron» və s. romanlarla yanaşı, «Şöhrət», «Şamil», «Nizami», «Cavanşir» tarixi dramlarının müəllifidir. Əsərlərində qoyduğu problemlər (xalq və qəhrəmanlıq, xalq və saray, xalq və hökmdar) tənqidçi alimlər tərəfindən yüksək qiymətləndirilmişdir: «M.Hüseyn tarix və yazıçı, tarix və sənət, tarix və xalq, tarix və qəhrəman problemlərini yaxşı bilən, bütünlükdə sənətkar və tarix anlayışına çox ciddi yanaşan, sağlam məfkurəli, nəzəri cəhətdən hazırlıqlı yazıçılarımızdan biri» kimi yüksək dəyərləndirilir. Onun bu problemlər haqqında «maraqlı, orijinal mühakimələri, aydın, prinsipial konsepsiya»sı var, «yazıçının ən birinci obyekti insan və onun həyatıdır, ən birinci qəhrəmanı isə xalq və onun mübarizəsidir» dediyini bildirən ədəbiyyatşünaslar bu fikirdədirlər ki, yazıçı xalqın mənəviyyatını, mübarizəsini düzgün dərk etmək üçün onun keçmişinə, həm də bütün məqamlarda tarixə obyektiv yanaşmalı, onun mütərəqqi məzmununa, fəlsəfi mahiyyətinə sadiq qalmalıdır. «Yazıçının tarixə münasibətində başlıca prinsip tarixi həqiqətin mahiyyətini tam mənası ilə mühafizə edib göstərməkdən ibarətdir» (M.Hüseyn). M.Hüseynin «həm ümumi yaradıcılığında, həm də dram əsərlərində məhz bu prinsipləri»

rəhbər tutduğu, dövrünün tanınmış, mötəbər sənətkarlarından biri səviyyəsinə yüksəldiyi bildirilir.

M.Hüseyni sənətkar, onun xalq üçün dəyəri, xalqın həyatında onların yaratdıqları əsərlərin rolu düşündürmüş, hər dövrdə xalq üçün yaşayan, yaradan qüdrətli qələm sahiblərinin məqsədi, amalı ona doğma olduğundan yaratdığı «Nizami» tarixi dramında Nizaminin mükəmməl obrazını yaratmışdır. «Nizami» tarixi dramında yazıçının poetik axtarışları, yaradıcı təxəyyülü daha üstündür. Nizaminin «mənəvi dünyası, ictimai fəaliyyətini və fərdi həyatını daha çox üç problem ətrafında ümumiləşdirməyə» meyli tənqidçilərin təhlilində öz yerini tutur: «Mehdi Hüseynin yaratdığı Nizami dərin, fəlsəfi, poetik dühası ilə dövrünün bütün sənətkarlarından yüksəkdə dayanan böyük şair, həmişə doğma yurdunun və xalqının taleyini düşünən, onun hüquq və şərəfini ləyaqətlə müdafiə edən mütəfəkkir bir şəxsiyyət, həm də bütün varlığı ilə sevən və bu məhəbbəti öz həyatının məzmunu, ilhamının tükənməz mənbəyi hesab edən bir aşiq» kimi dəyərləndirilir.

Dramaturqun «Şamil», «Cavanşir» dram əsərləri də «ədəbiyyatımızın tarixində xüsusi yeri olan və bu gün də öz bədii təsir gücünü, tərbiyəvi əhəmiyyətini itirməmiş gözəl sənət nümunələri» kimi dəyərlidir. Müharibənin odlu-alovlu illərini özündə əks etdirən hekayə və povest, oçerklərində də faşizmin cinayətkar, qaniçən, qəddar simasının ifşası, xalqımızın faşizmə qarşı mərdliklə mübarizəsi vətənpərvərliyi, düşmənə bəslənən nifrət, arxa cəhbə ilə ön cəhbənin vahid bir amal uğrunda birləşib alman faşizmini məhv edib, tarixi qələbəmizi əldə etmək kimi böyük tarixi, təxirəsalınmaz vəzifələri əsas götürülürdü. Onun «Nişan üzüyü», «Çiçəklər», «Dost», «Cəbhə xatirələri» başlığı altında

çap etdirdiyi «Möcüzə», «Qanlı sular», «Satqın» hekayələri, «Fəryad» povesti bu mövzuda dəyərli əsərlərdir.

Kənd həyatına dair yüksək bədii keyfiyyətlərə malik əsərlərlə yanaşı, M.Hüseynin Neft sənayesi işçilərinin həyatı, mübarizənin müxtəlif pillələrinə mənsub insanların humanist duyğularla bir məqsəd ətrafında birləşib xoşbəxt, firavan gələcəyini təmin etmək üçün xalq təsərrüfatının inkişaf etdirilməsi yolunda mübarizəsi bu əsərlərdə ön plana çəkilir, «Abşeron», «Neft daşları»nda kəndlərdən şəhərə gəlmiş gənclərin geniş quruculuq işlərində fəal iştirak etdiklərini, qazanılan uğurlarda onların da şəxsi əməyinin böyük rol oynadığını, «belə gənclərin düşdükləri yeni şəraitdə necə dəyişdiklərini, bütün nöqsan və tərəddüdlərinə baxmayaraq tədricən öz sənətlərini ürəkdən sevən yüksək ixtisaslı kadr kimi yetişdiklərini bu obrazların simasında göstərdiyini görürük.

Yaradıcılığında xalqın inqilabi tarixindən bəhs edən «Səhər» romanı, «zəngin tarixi materialların öyrənilməsi və uzun həyati müşahidələrin nəticəsi kimi» qiymətləndirilir. Bir-birinin əksi olan, bir-birinə zidd qüvvələr arasında gedən mübarizə üzərində qurulan bədii konflikt, əsərdə yüksək sənətkarlıqla qorunub saxlanan tarixi gerçəklik, Bayram, Əzizbəyov, Səlminaz, Xanlar, Aslan, İsgəndər, Səlim müəllim, Pəri nənə kimi surətlərin simasında ümumiləşdirilən inqilabi hərəkatın səciyyəvi cəhətləri, istismarçı qüvvələrə qarşı namuslu, mərd adamların həyat və mübarizəsini romanda daha qabarıq geniş planda təsviri, əsərdəki xalqlar dostluğu ideyasının da əsas olması, müxtəlif xalqları istismarçılara qarşı bir cəhbədə birləşdirən «qüvvə» sadə xalq nümunələrini öz müqəddarlarını özləri həkk etmək arzusu, istismarçı boyunduruğundan qurtarmaq ehtirası bu roma-

nın bədii məziyyətləri kimi qiymətləndirilir. Klassik və müasir ədəbiyyatın mühüm problemlərinə dair yazdığı qiymətli ədəbi-tənqidi məqalələri, müasiri olan yazıçıların yaradıcılığına, eləcə də, ümumilikdə ədəbiyyatımızın inkişafı üçün əhəmiyyətli olan məqalələrində klassik irsə, şifahi xalq ədəbiyyatına, dramaturgiyaya münasibəti, povest, roman, şeir, poeziya haqqında mülahizələri yazıçı M.Hüseynin dövrünün əsl sənətkarı olduğuna sübutdur.

Ədəbiyyatımızın, mədəniyyətimizin inkişafında böyük xidmətləri olan sənətkarlardan biri də Mirzə İbrahimovdur. O həm xalqımızın milli şüurunun inkişafında, xalq maarifinin çiçəklənməsində, inkişafında**,** həm də ədəbiyyatımızın inkişafında müstəsna xidmətlərə malik Azərbaycanın görkəmli şəxsiyyətləri sırasındadır. Böyük ictimai xadim, yazıçı, ədəbiyyatşünas alim Mirzə İbrahimov «Böyük demokrat» (1939), «Həyat və ədəbiyyat» (1947), «Azərbaycan dili» (1957), «Sarı sim» (1958), «Xəlqilik və realizm cəbhəsindən» (1961), «Gözəlliyin qanunu ilə» (1964), «Aşıq poeziyasında realizm» (1966), «Ədəbi qeydlər» (1970), «Tufanlara kömək edən qələm» və b. elmi-nəzəri əsərlərin müəllifidir.

Azərbaycan ədəbiyyatının inkişafında böyük rolu olan Mirzə İbrahimov yaradıcılığının ilk illərində xırda şeirlər yazsa da, nəsrə-roman, povest, hekayə, dramaturgiyaya, eləcə də elmi sahəyə daha çox həvəs göstərmişdir. İlk hekayələri «Zəhra», «Mələk» onun bu sahədə istedadını üzə çıxarır. «Cənub hekayələri»ndə dərin həyati müşahidələri «sənətkar ilhamı və müasir yazıçı tendensiyası» tənqidçilərin diqqətindən yayınmır. «Cənub hekayələri»ndə toplanmış əsərlərində «ümumxalq hərəkatının tarixi kökləri, sevincli və kədərli anları, onun təsir gücü xüsusi ilhamla» verildiyi, Azadın («Azad» hekayəsi) simasında «əldə etdiyi nailiyyətləri qorumaq, müdafiə etmək uğrunda mübarizə aparan

və bu yolda on minlərlə Təbriz və zənci fədailərinin» obrazının ümumiləşdirildiyi, azadlıq hərəkatının xalq üçün müqəddəsliyi əsasdır. M.İbrahimovun «Cənub hekayələri»nin başlıca məziyyətlərindən biri xalqın vahid məqsəd uğrunda birgə fəaliyyətini, xalqlar dostluğunu konkret faktlarla tərənnüm etməsidir. Bu cəhət bütün hekayələrin əsas məziyyətidir. Hekayə qəhrəmanlarından olan inqilabçı müəllim Azər komissara Hitler faşizminin dəhşətlərindən, Cənubi Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizənin əbədiliyindən danışır» (A. Abasov).

Cənub mövzusunda yazdığı ən irihəcmli «Gələcək gün» romanı «son dərəcə tipik real və canlı materiallarına, xəlqi dilinə, güclü ideya istiqamətinə, kamil və zəngin surətlər aləmi və inqilabi pafosuna görə» digər cənub mövzusunda yazılmış əsərlərdən fərqli olduğu bildirilir: «Romanda 40-cı illərdə Rza şah Pəhləvinin daxili və xarici siyasət aləmindəki mühafizəkar mövqeyi, yürütdüyü ikiüzlü siyasət, fars olmayan millətlərə tutduğu dəhşətli divanlar, xüsusilə də yerli feodalların satqınlığı üzündən İranın İngiltərə, Amerika, Almaniya kimi iri kapitalist dövlətlərin əlində oyuncağa və kəşfiyyat mərkəzinə çevrilməsi inandırıcı faktlarla» təsvir olunduğu, «qırğınlar, sürgün, dar ağacı və həbsxanalar yuvası İran ağır, ziddiyyətli və böhranlı» yaşadığı günlərin təsviri, müəllifin dərin ümumiləşdirmələr yolu ilə gedərək «Rza şah üsul-idarəsinin dəhşətlərinə boyun əymək istəməyən İran zəhmətkeşlərinin azadlıq hərəkatını zəngin tarixi faktlar və real səhnələrlə» verdiyi dəyərləndirilir və «romanın ideya-mövzusu ilə bağlı olan, son dərəcə tipik, müxtəlif və maraqlı hadisə, əhvalat və vəziyyətlərin» əsər boyu iki əsas xətt üzrə «işgəncələr yuvası İranın və onun zəhmət adamlarının ağır həyatının təsviri və inqilabi müba-

rizəsinin-xalq hərəkatının tərənnümü» üzrə davam və inkişaf etdirildiyi bildirilir. İranda xalqın çar üsul-idarəsinə Amerika-ingilis imperializminə qarşı mübarizəsini geniş planda təsviri verilən M.İbrahimovun «Gələcək gün» romanı ədəbi tənqidin diqqətində idi. «Gələcək gün» romanında mübarizənin bir qütbündə «zəhmətkeş xalqın nümayəndəsi-Firidun, Rza Qəhrəmani, Kürd Əhməd, Kərimxan Azadi durduğu, «digər qütbündə şah üsul-idarəsinin nümayəndələri-Hikmət İsfahani, Sərhəng, Səfayi, amerikan-ingilis imperializminin nümayəndələri-Mister Tomas, Mister Harold və alman faşizmini təmsil edən Fon Valter»in dayandığı, yazıçının «inqilabi mübarizənin getdikcə xalq kütlələrinin geniş təbəqələrini daha çox əhatə etdiyini qüdrətli nümayiş» etdirdiyini qeyd edirlər.

Belə bir möhtəşəm tarixi əsərdən sonra Mirzə İbrahimovun müasir mövzuda yazılmış «Böyük dayaq» əsərində kənddə gedən quruculuq işləri, təsərrüfatları idarə edən rəhbərliyin fəaliyyəti, kənd təsərrüfatının inkişafı dövründə «dövrlərin xarakterinə uyğun inkişaf yolları və üsullarının ildən-ilə təkmilləşmə prosesi keçməsi və bu qanunauyğunluğun dərk olunmasının idarəetmə işində əhəmiyyəti, əxlaq və tərbiyə məsələlərində əmələ gələn yenilik və ona köhnə təsəvvürlərlə yanaşmağın zərərli nəticələri» romanın süjet xəttinə daxil olan məsələlərdir. Mirzə İbrahimovun yaratdığı Rüstəm kişi surəti ilə Böyük Vətən müharibəsi illərində qanlı döyüşlərdə mərdliklə vuruşan, bu döyüşlərdən üzüağ çıxan, gözəl ailə başçısı, gözəl təsərrüfat rəhbəri, sadə, prinsipial, xalq malına sədaqətli, xalqının malını göz bəbəyi kimi qoruyan, əyri əməllərdən uzaq, məğrur, öz gücünə, qüvvəsinə, özünə arxalanan, bütün ziddiyyətləri ilə verilən mükəmməl obraz yaratmışdır. Əsərdə qoyulan problemlər, müasir həyatımızdakı ziddiyyətli məqamlar, zamanın tələb-

lərinə uyğun gəlməyən köhnə təsəvvürlərin işimizə vurduğu ziyanların təsviri, tipik və yaddaqalan surətlər «Böyük dayaq» romanının üzərində yazıçının məsuliyyətlə işlədiyini göstərir.

Onun ən mükəmməl romanlarından biri olan «Pərvanə» də rus-bolşevik qoşunların Azərbaycana gəlməsinə qədər olan dövrdə baş verən hadisələrdən bəhs edir. Azərbaycanın İran, Türkiyə, Rusiya, Qərbi Avropa ölkələri arasında «körpü olması», «iri dövlətlərin kəşfiyyat, diplomatik danışıqlar və hərbi toqquşmalar mərkəzinə çevrilməsi» məsələləri əsərdə müəllif tərəfindən qoyulur. Bu əsər «xalq tarixinin ən böyük və mürəkkəb bir mərhələsini» əks etdirmiş olduğu fikrini irəli sürürlər.

Mirzə İbrahimovun «Kəndçi qızı» (1962), «Yaxşı Adam» (1965), «Közərən ağaclar»(1967), «Don Juan və yaxud bəşərin komediyası» (1978) kimi dram əsərləri onun zəngin dramaturji qabiliyyətindən xəbər verir.

Elmi-nəzəri, publisistik fəaliyyəti yaradıcılığının bir hissəsidir. Üzeyir Hacıbəyovun həyat və fəaliyyətindən bəhs edən «Tufanlara kömək edən bir qələm» və digər («Yol üstündə düşüncələr», «Mənim respublikam», «Günəş yurdu», «Sülh-bərabərlik, birlik», «Həyat dəyişir, insan dəyişir», «Kəndin qabaqcıl adamları») oçerkləri bu gün də yüksək bədii və idraki əhəmiyyətini saxlayır.

Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasında böyük xidmətləri olan Mirzə İbrahimov üçcildlik «Azərbaycan ədəbiyyatı tarixinin» (1957), İkicildlik «Azərbaycan ədəbiyyatı tarixi»nin (1967), «Azərbaycan klassik ədəbiyyatı kitabxanası» 20 cilddə seriyasının redaktoru olub, dünya xalqlarının əsərlərindən tərcümələri onun fəaliyyətinin əsas istiqamətlərindən biridir. A.H.Çexovun «Üç bacı», V.Şekis-

pirin «Kral Lir», «On ikinci gecə», Molyerin «Don Juan», Şərəf Rəşidovun «Güclü dalğa», A.H.Ostrovskinin «Quduz pullar» əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

«Xəlqilik və realizm cəbhəsindən» məqalələr toplusunda müasir ədəbiyyat, klassik ədəbiyyat və incəsənətlə bağlı Mirzə İbrahimovun elmi-nəzəri müşahidələri verilir. «Ədəbiyyat və incəsənətdə satira», «Mübariz ədəbi tənqid uğrunda», «Sənətdə həyatilik və xəlqilik», «İki dünya, iki ədəbiyyat», «Komediya, həyat və əxlaq», «Səməd Vurğunun həyat və yaradıcılığı», «Sabir», «Çernışevski», «Lev Tolstoyun realizmi haqqında», «Məhəmməd Füzuli», «Tükənməz xəzinə», «Azərbaycan bülbülü», «Xalq sənətkarı» və s. məqalələri onun güclü ədəbiyyatşünas alim kimi də ədəbiyyatımız tarixində şərəfli yer tutduğunu göstərir.

Mirzə İbrahimovun tədqiq, təhlil etdiyi məsələlər, problemlər geniş və rəngarəngdir. O, bədii yaradıcılığın əsas məsələlərindən bəhs etmişdir. Kamal Talıbzadə yazır: «Mirzə İbrahimov məsləkdir, məqsəd adamıdır. Buna görə də hər hansı sənət əsərinin ideya istiqaməti onun üçün birinci dərəcəli şərtdir. Əgər bədii əsərin qayəsi, ideyası onu tutursa, o, bu əsər haqqında yüksək sözlər deməkdən çəkinmir, ona görə ki, o fikirlər elə indi xalqa çatdırılmalıdır, ona deyilməlidir. Buradan da Mirzə İbrahimovun tənqidi məqalələri siyasi, publisistik bir əhəmiyyət kəsb edir».

Azərbaycan nəsrinə, dramaturgiyasına zəngin sənət əsərləri bəxş edən «rəngarəng üslublar, forma və məzmun yenilikləri gətirən», «özünəməxsus fərdi yaradıcılıq yolu, cığırı olan sənətkarımız İlyas Əfəndiyev «realist və romantik yaradıcılıq qovşağından» yaranmış sənətkardır. Realist və romantik yaradıcılıq ənənələri qovşağından yaranan İ.Əfəndiyev sənətinin sirrini həm də onun «sinkretizmində, insana, həyata, təbiətə doğma-ideal münasibətində dərin, əlçatmaz

qatlarda gizlənən mənəvi-əxlaqi, ruhi-psixoloji hissləri, idrakı və düşüncə məqamlarını tapıb üzə çıxarmaq, onları müasirlərinin həyatı, mənəviyyatı ilə əlaqələndirmək, bağlamaq bacarığında» görürlər. Ona görədir ki, İ.Əfəndiyevin obrazları özlərinin qəribəlikləri, həyata fərdi baxışları, bənzərsiz xarakterləri, hissi, idrakı və psixoloji tutumları ilə cəmiyyətdə yeni tərzdə görünən, ciddi təsir gücünə malik olan insanlar təsiri bağışlayırlar» (A. Abasov. Ə. Ağayev).

Bütün yaradıcılığı xalq ədəbiyyatı ilə bağlı olub, onun zəngin xəzinəsindən, xalq ədəbiyyatı motivlərindən yararlanıb, yazdığı əfsanəvi, tarixi əsərlərdə də «müasir» olub, ilk əsərlərində «şairanə bir dilə, lirik-romantik yazı tərzinə, poetik üsluba» malik olub, daha çox «müasir, mənəvi, psixoloji mövzulara» maraq göstərib. Ədəbiyyata «mürəkkəb, ziddiyyətli, maraqlı» «insanlar» gətirib. Yaradıcılığı «sənətkar və zaman», «yazıçı və müasirlik» baxımından «ədəbiyyatımızda xüsusi bir mərhələ» təşkil edən İlyas Əfəndiyevi böyük sənətkar kimi əbədiləşdirən onun istedadı, qabiliyyəti idi. Ədəbiyyatşünaslar fikirlərində haqlıdırlar ki, «Əllinci illərin sonlarından başlayaraq İ.Əfəndiyevin yaradıcılığında şairanə nəsrçilik, şairanə dramçılıq, şairanə dil, şəffaf, həzin, son dərəcə lirik bir üslub özünün yüksək məqamına yetişir. Real həyatın lirik-romantik tərənnümü, ümumhəyat materialının obrazlığının bütün imkanlarının tələb və prinsipləri ilə əhatə olunması İlyas Əfəndiyevə klassiklərə məxsus şöhrət gətirir. Üstəlik müasir zaman və bədii həqiqət faktının tipik şəraitin ruhuna uyğunluğu, insan obrazlarının bütövlüyü, cəmiyyətə, müasirlərinə təsir edə bilmək bacarığı, xalq ədəbiyyatından, klassik irsdən, təbiətdən, bədii təsvir vasitələrindən sənət və sənətkarlığın tələb və prinsiplərinə uyğun

istifadə etmək bacarığı İ.Əfəndiyevi əsrinin böyük sənətkarı kimi əbədiləşdirdi» (Ə. Ağayev).

İlk hekayələr kitabı «Kənddən məktublar» (1939), ilk hekayəsi «Berlində bir gecə»dir (1939). İlk kitabının oxucular arasında maraqla qarşılanmasının səbəbini tənqidçilər onun «çoxlarının keçib getdiyi tanınmış yolla deyil, mümkün qədər yeni və orijinal yolla getməyə göstərdiyi meyil»də görür və bildirirlər ki, onun ilk hekayələri göstərir ki, İlyas Əfəndiyevin yaxşı həyat müşahidəsi, qüvvətli bədii təfəkkürü, şirin və aydın bədii dili var, yeniliyi duymağa, həyatın yeni keyfiyyətini dərk və tərənnüm etməyə xidmət edir.

Müharibə illərində və ondan sonrakı illərdə çap olunan «Aydınlıq gecələr», «Torpağın sahibi» (1952), «Qoruqlarda», «Şamama» əsərləri onun istedadlı bir qələm sahibi olduğunu göstərir.

Müharibə, cəbhə həyatı haqqında yazdığı əsərlərdə cəbhədə gedən döyüşlər, müharibə epizodları olmasa da, tənqidçilər haqlı olaraq «bu hekayələrdə müharibə və döyüş qəhrəmanlığı bir növ daxildən, psixoloji-mənəvi aləmdən keçir. Bu hekayələrdə insanın vətənə olan eşqi və şəxsi məhəbbəti birləşir. İnsanları fədakarlığa və qəhrəmanlığa təşviq adən qadir məhəbbətin böyük qüdrəti tərənnüm olunur», «Yarımçıq qalmış portret haqqında mahnı»-var deyirlər. «Qəhrəman və bülbülün nağılı», «Qarı dağı», «Apardı sellər Saranı» hekayələri folklordan gələn, yazıçının dövrü, zəma-nəsi ilə səsləşən vətənpərvərlik, humanizm, xalq mənafeyinin üstünlüyü kimi yaxşı xüsusiyyətlərlə zəngin hekayələrdir.

Çoxlu sayda kiçik həcmli hekayələri ilə yanaşı İlyas Əfəndiyevin «Söyüdlü arx», «Körpüsalanlar», «Dağlar arxasında üç dost», «Sarıköynəklə Valehin nağılı», «Üçatılan», «Geriyə baxma, qoca» kimi irihəcmli povest və romanlarında, hekayələrində olduğu kimi hamısında güclü «müasirlik duyğusu», yaşadığı dövrün ictimai həyatını, qarşıya çıxan çətinlikləri görmək və onları bədii cəhətdən dərk edib qələmə almaq» bacarığı var. Onun əsərlərinin dilinin «canlı, oynaq, şirin təbii»liyi, «ahəngdar, aydın və səlis boyaları»n yaradıcılığına böyük təsiri var, tənqidçilərin fikrincə, «bu cəhət İ.Əfəndiyevin əsərlərindəki incə psixoloji vəziyyətlər və müasirlik duyğusu ilə birləşdikdə, onun qələmi daha əlvan bədii lövhələr yaradır, bədii dilində parlaqlıq, cazibədarlıq artır, bu isə, öz növbəsində, bədii əsərlərin ümumi bədii təsirini, emosionallığını gücləndirir».

İlyas Əfəndiyev yaradıcılığında dram əsərləri də mühüm yer tutur. Uzun müddət Azərbaycan səhnəsini boş qalmağa qoymayan İlyas Əfəndiyev dramaturgiyası olmuşdur. Ona böyük məhəbbət qazandıran dram əsərləri səhnələrimizin bəzəyidir.

«Unuda bilmirəm» (1968), «Məhv olmuş gündəliklər» , «Qəribə oğlan», «Bağlardan gələn səs», «Xurşudbanu Natəvan», «Büllur sarayda», «Qəribə oğlan», «Şeyx Xiyabani», «Bizim qəribə taleyimiz», «Tənha iydə ağacı», «Hökmdar və qızı» və s.pyeslərində insanı yaşamağa, yaratmağa, ömrünü mənalı keçirməyə, xalqa, millətə yaramağa çağırır, özünü düşünən, sabahına güvənməyən laqeyd insanlar tənqid edilir: «insanlarda saf mənəviyyat uğrunda mübarizə hissi tərbiyə edir, tarixi dramlarında da tarixi hadisələr deyil, zamanın ruhuna uyğun olaraq insan, onun mənəvi dünyası ön planda verilir. Həyatda baş verən nöqsanları tənqid etməkdən çəkinməyən yazıçı şöhrətpərəstliyi, xalq mənafeyinə xor baxanları, məhdud hisslərlə yaşayanları tənqid edir.

İlyas Əfəndiyev bədii əsərləri ilə yanaşı, bir çox publisistik məqalələrin müəllifidir, dövrünün yazıçıları ilə yanaşı klassiklərimiz haqqında ədəbi-tənqidi məqalələr yazmış,

yeni kitablar, kino-incəsənətlə bağlı fikirlərini ifadə edən dəyərli yazılarla dövrü mətbuatda müntəzəm çıxış etmişdir. Ə.Əfəndiyev yazır: «Ümumiyyətlə, uzun yaradıcılıq yolu keçmiş, ədəbiyyat, teatr, kino, rəssamlıq, dil, təlim-tərbiyə və s. məsələlərə dair dörd yüzdən çox elmi-nəzəri və publisistik məqalə yazmış İlyas Əfəndiyevin ədəbi estetik görüşlərini təxminən aşağıdakı kimi qruplaşdırmaq olar: a) Bədii ədəbiyyat haqqında düşüncələr, bədii teatr və səhnə sənəti. b) Elm, mədəniyyət və incəsənətə dair fikirlər».

Yazıçıların müraciət etdiyi mövzular müxtəlif idi. Yazıçıların öz sevdiyi, dərindən bələd olduğu mövzular, sahələr vardır. İmran Qasımov, Yusif Əzimzadə, Hüseyn Abbaszadə, Qılman İlkin, Salam Qədirzadə, C.Məmmədov, Seyfəddin Dağlı, M.Süleymanov, Həsən Seyidbəyli, Süleyman Vəliyev, Vidadi Babanlı, Anar, Elçin, Ə.Əylisli, C.Hüseynov, G.Hüseynoğlu, Y.Səmədoğlu belə nasirlərdəndir.

Azərbaycan Sovet ədəbiyyatının başlıca mövzularından olan müasir kəndə yazıçı və şairlər məhəbbətlə, rəğbətlə yanaşardılar, kəndlərdə gedən quruculuq işlərini dərindən bilən, kənd həyatına yaxından bələd olan Mehdi Hüseyn, Mirzə İbrahimov, Sabit Rəhman, Mir Cəlal, Əli Vəliyev, İlyas Əfəndiyev kimi sənətkarlar 30-cu illərdən sonra «Saçlı», «Tərlan, «Qəhrəman», «Söyüdlü arx», «Ayrılan yollar», «Yarpaqlar», «Ayrılıq», «Yanar ürək» kimi onlarla povest və romanlar yazdılar. Kənd həyatı ilə bağlı bu əsərlərdə mühüm məsələlər, kəndin vacib həyati problemləri epik vüsətlə əks etdirilirdi.

Akif Hüseynov yazır: «Yanar ürək», «Böyük dayaq», «Qara daşlar» tipli romanlarla nəsrimiz mürəkkəb, ziddiyyətli və qüvvətli xarakterlər canlandırma sahəsində də mühüm qələbələr çalmışlar. Bu qələbələrin ədəbi fikrin sonrakı inkişafında əhəmiyyətini-müharibədən sonrakı nəsrdə insan

xarakterinin tez-tez birrəngli boyaların qatı fonunda təsvir edilməsi ilə müqayisədə xəyala gətirmək olar».

İlyas Əfəndiyev kənd mövzusunun nəsrimizdə ifadəsini yeni ideya, estetik keyfiyyətlərlə zənginləşdirən yazıçıdır. Bu illərin problemlərini, mənzərəsini canlandıran əsərlərdə, kənd təsərrüfatında ictimai münasibətlər, köhnəliklə yeniliyin mübarizəsi, elmi nailiyyətlərdən kənd təsərrüfatı məhsuldarlığını artırmaq üçün istifadə olunması, xalqlar dostluğu məsələləri («Dağlar arxasında üç dost») də təsvir edilir.

Əli Vəliyev, Ə.Ələkbərzadə Azərbaycan kəndinin inkişaf yolunu, hər mərhələdə, hər dövrdə təsvir edən yazıçılar idi. Əbülhəsənin «Yoxuşlar» romanı Azərbaycanın kəndinə həsr olunmuş klassik əsərlərdəndir. Əli Vəliyevin quruculuq işlərində fəal zəhmətkeşlərin əməyini, onların ailə münasibətlərini əks etdirən «Ürək dostları», «Gülşən», «Çiçəkli», «Narahat adam» əsərləri kəndi, orada gedən quruculuq işlərini dərindən, müntəzəm müşahidə edib təsvir edilən romanlar, povestlər kimi dəyərlidir.

Kənd həyatından bəhs edən əsərlər müəllifi İsa Hüseynovun yaradıcılığı da müasir nasirliyin bir sıra ideya-estetik keyfiyyətləri haqqında fikir söyləmək üçün zəngin material verir. İlk dövrlərdə yazdığı hekayələri tənqidçilər «nəsrimizin yeni gözəl nümunələrindən» sayırlar.

İsa Hüseynovun bir çox əsərlərində, Bayram Bayramov «Açılmamış kitab», Ə.Yusifoğlu «Düşmənimin düşməni», S.Əhmədov «Dünyanın arşını», «Dan qaranlığı», Əfqan Əsgərov «Gülyanaq», Fərman Kərimzadə «Qarlı aşırım», Sabir Azəri «Yol üstündə toy» kimi nəsr əsərlərində sağlam ruhlu əsl vətəndaş, namuslu, əməksevər, çətinlikdən qorxmayan, mənəviyyatı saf «canlı surətlər» yaradır və ədəbiyyata yenicə gəldikləri zamanlarda bu yazılarda

«hadisə, əhvalat ardınca getmək əvəzinə, hadisələrin daxili mənasını kəşf etmək, insan münasibətlərini araşdırmaq, müəyyən həyat problemini işıqlandırmaq və yığcamlıq səciyyəvidir» (Kamal Talıbzadə).

Kənd mövzusuna həsr olunmuş Gəray Fəzlinin «İldırımlı dağlar» romanında yurdumuzun gözəlliyi, füsunkarlığı, bu yerlərdə yaşayan kənd adamları, onların apardıqları yeni həyat uğrunda mübarizə «realist planda, təbii münasibətlərdə» canlandırıldığı, müəllifin burada «mənəvi təmizliklə pozğunluğun, düzgünlüklə əyriliyin mübarizəsini» əsas götürdüyü, «bəzi sevgi xətlərinin qeyri-təbiiliyinə, süjet tamlığına və dinamikasına xələl gətirən artıq səhnələrin olmasına baxmayaraq» yazıçının öz qarşısına «kənd əməkçilərinin arzu və əməllərini, öz gündəlik həyatlarında rast gəldikləri çətinlikləri göstərmək kimi mühüm bir məqsəd» qoyduğu tənqidçilərin təhlilində öz inikasını tapmışdır.

Ədəbiyyata «Ölkə», «Mənim səsim», «Təzə ünvan» şeirlər kitabı ilə gələn Gəray Fəzli «İldırımlı dağlar», «Yeddi ulduzlu səma», «Gecə günəşi», «Bir qəlbin asimanı», «Xatirəli dünyam» kimi roman və şeirlər kitablarının müəllifidir. Dövrü mətbuatda şeirləri, hekayə və romanları ilə yanaşı yaşadığı dövrün, həyatın aktual problemlərini özündə əks etdirən «Torpaq anamızdır», «Aşkarlıq işığında», «Özgə yolumuz yoxdur», «Tənqidin sözü, həqiqətin özü» və s.) publisistik məqalələrin də müəllifidir.

Kənd həyatından bəhs edən ən yaxşı əsərlərimizdə həmişə kəndlilərlə şəhərlilər bir-birini tamamlayan ictimai qüvvələrin mənbəyi kimi təsvir edilmişdir.

1920-80-ci illər arasında kəndlə şəhər arasındakı ictimai-mədəni əlaqələri göstərən Bayram Bayramovun «Yazılmamış kitab» romanı diqqəti cəlb edir. Burada inqilabın ilk günlərində Bakıya gələn kənd ziyalılarının Bakının qaynar

mədəni həyatına qarışıb şəhər ziyalılarına» çevrilməsi prosesini, bu prosesin mürəkkəbliyini, ziddiyyətlərini qələmə aldığı, ölkədə Sovet hakimiyyəti qurulduğu illərdə Azərbaycan ziyalılarının «formalaşmasını», «bu prosesdə kənd ziyalılarının rolunu əks etdirməyə çalışdığı və canlı təbii-bədii lövhələr yarada» bildiyi tənqidçilərin diqqətindən yayınmayıb.

Azərbaycan nəsrinin inkişafında Bayram Bayramovun öz yeri var. Ədəbiyyata «Körpü» adlı hekayəsi ilə gəlib. İlk kitabı «Tək adam» çapdan çıxıb. «Yarpaqlar», «Sənsiz», «Onun gözləri», «Xəzinə», «Bəlalı sevgim», «Arakəsmələr», «Üç gün, üç gecə» (1967), Seçilmiş əsərləri, «Yasəmən», «Fəhlə qardaş», «Yazılmamış kitab», «Karvan yolu», «Üzlü, astarlı dünyam» roman, xatirə, publisistik məqalələr və s. kitabları oxucuların sevdiyi əsərlərdir. Böyük Vətən müharibəsi illərində Mozdok uğrunda döyüşlərdə iştirak etmiş, ağır yaralanmış, sağaldıqdan sonra yenidən ordu sıralarına qayıtmış Bayram Bayramovun yaradıcılığı haqqında tənqidçilər dəyərli fikirlərini söyləmişlər. Azərbaycanın xalq yazıçısının sağlığında yaradıcılığına qiymət verilmiş, «Şərəf nişanı» (1968), «Xalqlar dostluğu» (1985), «Qırmızı əmək bayrağı» (1982) ordenləri ilə təltif olunmuşdur.

Nəbi Xəzri müasir ədəbi prosesin fəal iştirakçılarından biri, lirik şairdir. «Çiçəklən arzular», «Sülh əsgəri», «Salxım söyüdlər», «Vətən və qürbət», «Kim məni xatırlasa», «Şeirlər və poemalar», «Sumqayıt səhifələri», «Dəniz, göy, məhəbbət», «İllər və sahillər», «Dərələr», «Seçilmiş əsərləri» 2 cilddə, «Ulduz karvanı», «Ümmandan damlalar», «Heykəlsiz abidə», 4 cildlik «Seçilmiş əsərləri», «Şeir mənim üçün bir kainatdır», «Torpaq sənə and içirəm», «Qəm dəftəri», «Peyğəmbər», «Əsrin qanlı laləsi» və s. kitablarının

müəllifidir. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir. Özü də V.Terma («Dost sözü»), A.Prokafyev («Sən çağır məni»), V.Luks («Eşq olsun»), Ş.Əlimcan («Sən gülümsədin»), A.Koşokov («Qaranquş nəğməsi»), S.Mişel («Yerdən doğan günəş»), V.Astemirov («Şimşək), V.M.Oleynikin («Torpaq üstə dayanmışam») əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Nəbi Xəzri bir şair kimi klassik Azərbaycan şeirinin ənənələri qoynunda yetişən, həm də müasir ədəbi prosesin tələblərini gözləyən şairdir: «Nəbi Xəzrinin poeziyası özünün müasirliyi və mübarizliyi ilə seçilməkdədir. Müasirlik isə hər cür bədii əsər üçün ən böyük məziyyət, ən müqəddəm keyfiyyət kimi mənalandırılmalıdır. Çünki istər lirik, istərsə də epik poeziyada ilkinlik, lirik başlanğıc və hərarət əsas və aparıcı bir xüsusiyyət kimi təzahür etməkdədir» (C.Abdullayev).

Bəxtiyar Vahabzadə ədəbiyyata «Ana və şəkil» (1943) şeiri ilə gəlib. Bədii yaradıcılığı ilə elmi fəaliyyətini paralel şəkildə davam etdirən sənətkar «Səməd Vurğunun həyatı və yaradıcılığı yolu» adlı doktorluq dissertasiyası yazıb. Bədii əsərləri gənc yaşlarından müxtəlif qəzet və jurnallarda, almanaxlarda nəşr olunub. «Mənim dostlarım», «Bahar», «Ədəbi heykəl», «Dostluq nəğməsi», «Çinar», «Sadə adamlar», «Ceyran», «Aylı gecələr», «Şeirlər», «Etiraf», «Şəbihicran», «İnsan və zaman», «Açılan səhərlərə salam», «Payız düşüncələri», «Bir ürəkdə dörd fəsil», Seçilmiş əsərləri, «Səməd Vurğun», «416», «Bir baharın qaranquşu», «Dan yeri», «Sənətkar və zaman», «Pyeslər», «Muğam», «Seçilmiş əsərləri iki cilddə, «Vətən ocağının istisi», «Dərin qatlara işıq» (məqalələr), «Axı dünya fırlanır», «Gəlin açıq danışaq», «Ümidə heykəl qoyan», «Vətəndaş» və s. altmışa

yaxın kitabın müəllifi Bəxtiyar Vahabzadə yaradıcılığında müasir dövrün problemləri lirik-fəlsəfi planda, əlvan boyalarla təsvir edilir.

Bəxtiyar Vahabzadə orijinallığı ilə seçilən sənətkardır. Həyat hadisələrinə münasibətdə bu orijinallıq özünü göstərir. Bəxtiyar konkret həyati varlığın poetik mənasını, daxili mahiyyətini açmağı, varlıq haqqında, onun zahiri gözəlliklərinə dair qanadlı ibarələr, hikmətli aforizmlər işlətməkdən üstün tutur (C.Abdullayev). Həyatın poetik anlarını fəlsəfi ümumiləşdirmələr yolu ilə vermək bacarığı onun şeirlərində güclüdür. Yaradıcılığındakı «hisslə düşüncə, ağılla duyğu, həssas qəlblə, fəlsəfi idrakın qırılmaz bir vəhdət təşkil etdiyi bildirilir və bu xüsusiyyət onun bütün yaradıcılığına şamil edilir:

Yarpağı tez solar tək ağacın da,
Daldası yoxdursa necə solmasın?
Meşələr sultanı, meşələr şahı,
Aslanın özü də yalqız olmasın!

Şeirlərində ömrü mənasız keçirənlərə, başqalarına qayğısı, xeyirxahlığı olmayanlara nifrəti, öz səadətini, xoşbəxtliyini isə başqasının xoşbəxtliyində görənlərə məhəbbət var:

«Bu dünya beş gündür» - deyib hər yerdə,
Sağ ikən qəbirdə uzanan da var.
Öz alın təriylə bircə ömürdə,
Yüz insan ömrünü qazanan da var.

Tənqidçilər onun lirikasında «bir həzinlik, laylay kimi səslənən füsunkarlıq, yaxşı mənada sentimentallıq» olduğunu bildirirlər. Onun lirikası kimi poemaları da mühüm yer tutur. 1944-cü ildə «Dostluq», sonralar «Aylı gecələr», «Sadə adamlar», «Əbədi heykəl», «İztirabın sonu», «Eti-

raf», «Şəbi-hicran», «Leninlə söhbət», «Muğam, «Atılmışlar» və s. poemaları, Cənubi Azərbaycan mövzusu, azadlıq uğrunda mübarizəyə qalxan gəncliyin döyüş əzmi, gələcəyə inamı («Aylı gecələr»), kitab mədəniyyəti, kitabxana işçilərinin mənalı əməyi (belə bir mövzunu qələmə almaqla ədəbiyyatda bu sahədə ilk və ciddi bir addım atmışdır), əməyə sığınan, onu həyatının mənası bilənləri, onunla ucalanları («Sadə adamlar») tərənnüm, müharibənin törətdiyi dəhşətlər nəticəsində rəssamlıq sənətindən ayrı dümüş Verterin əzabları, yaratmaq amalı ilə yaşayan gəncin müharibəyə, onu törədənlərə nifrəti («Əbədi heykəl») əks etdirilir.

«Ailə, məişət mövzusuna həsr olunan «İztirabın sonu» və digər poemaları içərisində «Şəbi-hicran» poeması, «Muğam» poeması öz bədii dəyəri ilə yüksək qiymətləndirilir.

«Muğam» poeması şairin yaradıcılığında, ümumiyyətlə 60-70-ci illərin poeziyasında «bir ədəbi hadisə kimi» qiymətləndirilir, burada şairin zəngin ədəbi təcrübələrindən ən yaxşı, ən təsirli komponentlərini daha da dərinləşdirdiyi», «zahiri effekt doğuran hər şeydən çəkinərək, həqiqi sənət yolu ilə» getdiyi, nəticədə oxucunun ağlına, hissinə təsir edə bilən «gözəl bir poema» yaradıldığı söylənir: «Şairin təsvir və təqdimində mahnı, muğam, söz və tar havaları insanın daxili, məxfi dünyasının tərcümanıdır, insanın bütün fəaliyyətinin müşayiətçisi, yol yoldaşıdır. Muğam, mahnı və rənglər, səs və ahənglər sözdən daha ilkindir, bu səs və ahəng insanın uşaqlıq çağından həyatının axırınadək onunladır, onun özü, varlığı deməkdir. «Yox, nəğmələr yaranmazdı, qəlbimizdən keçənləri tamam deyə bilsəydi söz».

Nasirlərimizin həyatında müasir həyat aparıcı mövzu olsa da, bu illərdə tarixi mövzulara aid də roman və povestlər yazılırdı. S. Rəhimov «Şamo» romanı üzərində işləyərək onu təkmilləşdirmiş, M. Cəlal «Yolumuz hayanadır» romanında M.Ə. Sabirin bədii surətini yaratmışdı. XX əsrin əvvəlində baş verən ictimai-siyasi-mədəni hadisələr də öz əksini tapır. Tarixi mövzuda yazılmış M. Hüseynin «Səhər» romanı, Sabit Rəhmanın «Nina» povesti 1901-1904 -cü il inqilabi hadisələrini əhatə edir.

80 illik Azərbaycan ədəbi prosesini izləyərkən Azərbaycanda yaranan tarixi romanların böyük bir hissəsinin görkəmli sənətkarların həyatından, taleyindən bəhs etdiyinin şahidi oluruq. Ədəbiyyatımızın tarixində, xalqımızın zəngin bədii təfəkkürə malik parlaq simaları olub. Onların yaradıcılığı, ədəbi mövqeyi haqqında elmi-tədqiqat əsərləri yazılıb. Yaranan bədii əsərlər elmi-tədqiqat əsərlərindən fərqlidir. Bədii əsərlərdə həyatı qələmə alınan sənətkarın tarixi obrazı yaradılır, həyatında ən mühüm məqamlər təsvir və təqdim edilir. Yaranan bədii əsərdə həmin şəxsiyyət haqqında daha geniş təsəvvürə malik oluruq. Tarixi romanların estetik-tərbiyəvi əhəmiyyəti böyükdür. Tarixi roman bədii biblioqrafiya deyil, burada həyatı qələmə alınan, obrazı yaradılan sənətkarın yaşadığı zaman, dövr, onun mühiti, yaşadığı dövrün sosial-siyasi mənzərəsi, onun daxili aləmi, mənəvi dünyası ilə bağlı şəkildə öz əksini tapır. Zəngin dolğun tarixi romanlar var və bunlardan İsa Hüseynovun «Məhşər» romanını xüsusi ilə qeyd etmək lazımdır. Bu romanı yazarkən yazıçı «tarixi həqiqəti gözləmək, zamanın koloritini canlandırmaq üçün ciddi axtarışlar aparmış, müxtəlif mənbələrdə verilən məlumatları nəzərdən keçirmiş, hürufiliyin ideya-nəzəri və bədii əsaslarını, xüsusilə Nəsiminin zəngin yaradıcılığını öyrənmiş», «əldə etdiyi tarixi faktlar əsasında dövrün mahiyyətini açmağa, mənalandırmağa» çalışmışdır. Əsərdə süjet xətində mühüm yer tutan Nəsimi və onun mürşidi Nəimi obrazlarının zəngin daxili aləmi

inandırıcı, təbii boyalarla ifadə olunmuş, bir amala, ideyaya xidmət edən, əqidəcə də bir-birini tamamlayan bu tarixi şəxsiyyətlərin fəlsəfi görüşləri, həyata münasibəti, öz əqidəsinə inamı ətraflı şəkildə səciyyələndirilmişdir. Nəimi öz amallarının davamçısı kimi Nəsimini görür, Nəsimi də onun yolgöstərəni, mənəvi atası kimi Nəimini bilir. İki böyük ustad-şagird-müəllim bağlılığı hürufiliyin «vəhdət» ideyasının rəmzi kimi qəbul edilir. Nəimi sağ ikən öz ruhunu şagirdinə köçmüş sanır, bütün ümidlərini ona bağlayır: «... Cavidan öldü, həqiqət Babək Xürrəmidə zühur etdi. Babək öldü, həqiqət Hüseyn Həllacda zühur etdi. Fərrux öldü, həqiqət Şeyx Nizamidə zühur etdi, Nizami öldü, həqiqət Şeyx Mahmudda zühur etdi. Silsiləmiz mənimlə başlanmayıb, mənimlə də qurtarmır. Mən təsbehin bir danəsiyəm. Ali ruh bu gün məndədir, sabah digərində zühur etməlidir» (İsa Hüseynov. Məhşər. Bakı. Gənclik. 1978). Bir-birindən zəngin, bitkin obrazlar, ayrı-ayrı görkəmli simalarla yanaşı tarixin əsl yaradıcısı olan geniş xalq kütlələrinin rolunun da romanın süjetində mühüm yer tutması, müxtəlif taleli insanların həyatının hərtərəfli təsviri, kütləvi səhnələr əsərin bədii sənətkarlıq baxımından da müvəffəqiyyəti kimi dəyərləndirilir. «Romanda dil və bədii təsvir vasitələri də» tarixin dolğun təcəssümünə xidmət etdiyi, müəllifin əsər boyu Nəsiminin şeirlərindən istifadə etməsinin «süjet xəttinin inkişafına kömək etdiyi kimi, böyük şairin bədii obrazının hərtərəfli canlandırılmasına da» imkan yaratdığı, bütün bunların "tarixi gerçəkliyi, həyat həqiqətlərini bədii həqiqət səviyyəsinə qaldırmaq məqsədi» daşıdığı həqiqətdir.

Sənətkar və zaman bədii-fəlsəfi fikir tarixində Çingiz Hüseynovun «Fətəli fəthi» romanı da əhəmiyyətli sayılır. Bu əsərdə Mirzə Fətəli Axundovun həyatı və yaşadığı mühit, dövr öz əksini tapmışdır. Azərbaycan ədəbiyyatına yeni ruh

gətirən, Azərbaycan realist dramaturgiyasının, realist nəsrinin banisi sayılan, sənətin ictimai mənasını yüksək dəyərləndirən, xalq həyatı ilə bağlılığına yüksək qiymət verən, maarifçi şəxsiyyət, materialist filosof, əlifba islahatçısı, «ziddiyyətli ömür yolu keçmiş, yüksək rütbələrədək ucalmış», «sinəsi nişanlı, çiyni paqonlu, libası altında həmişə xalqın dərdinə qalan, yanar alovlu» döyünən ürək sahibi M.F. Axundovdan bəhs edən bu roman fəlsəfi-psixoloji məzmunu ilə seçilir. Əsər bir çox tənqidçilərin, alimlərin diqqətini cəlb etmiş, yazıçı fantaziyası, detalların yerli-yerində təsviri, müasirliyə xidmət edən tarixin «qabarıqlaşdırılması», dünənimizlə bu günümüz arasında mənəvi varisliyin «bədii sənət dili ilə təcəssüm»ü və bu cür «müasirlik ruhu» diqqətdən qaçmır, alman filosofu və ədəbiyyatşünası Heyns Plaviusun yazır: «Məni bir oxucu kimi Hüseynovun maraqlı romanı hər şeydən çox onda heyrətləndirir ki, müəllif canlandırdığı zamanın çərçivəsindən kənara çıxmadan o dövrün hadisələrini təsvir etməyə və kəskin müasirliyə necə nail olmuşdur» («Literaturnaya qazeta». 23 yanvar 1985). Roman bəzi iradlarıyla belə yüksək dəyərləndirilir: «Mirzə Fətəli Axundov əsər boyu mühafizəkarlıq, köhnəlik və fanatizmə qarşı mübarizədə qüdrətli yazıçı, inqilabçı, fədakar vətəndaş kimi oxucunun gözü qarşısında ucalır və onları da yüksək mənəvi-estetik ideallar naminə mübarizəyə ruhlandırır».

XX əsrin 80-90-cı illərin tarixi nəsrində Mahmud İsmayılovun «Xaqani» və Hüseyn İbrahimovun memar Əcəmi Əbubəkr oğlu Naxçıvaniyə həsr olunan «Əsrin onda biri» romanları da dəyərli romanlardır.

«Xaqani» romanının ilk səhifələrində Şərq ölkələrinin tarixində mühüm rol oynamış qüdrətli Atabəylər dövlətinin meydana gəlməsindən söhbət açılır. Romanda Atabəylər

dövlətinin əsasını qoyan Eldəgiz tarixdə oduğu kimi mətin iradəsi, ağlı, biliyi, eləcə də cəsarəti və igidliyi ilə tanınmış, hərbi məharəti, qabiliyyəti ilə seçilən dövlət xadimi kimi təsvir olunmuşdur. Şəmsəddin Eldəgizlə bağlı əhvalatlar, Şirvanşahlar və Atabəylər dövlətinin daxili və xarici siyasəti, iqtisadi və mədəni sahədəki nailiyyətlər, sənətkarlıq və ticarətin inkişafı, təsvir olunan epizodlar «XII əsr Azərbaycanın ictimai mənzərəsini canlandırmağa yönəldilmişdir». Xaqani belə bir dövrdə doğulmuş, böyümüş və zaman onu qüdrətli şair kimi yetişdirmişdir. «Müəllif əsər boyu öz qəhrəmanının həyat yolunu zamanın mürəkkəb, təlatümlü, keşməkeşli hadisələri ilə bağlı şəkildə təsvir etməyə çalışmışdır. Xaqaninin anası Rəbiyənin rumlu xaçpərəst nəsturi olması, sonralar qul kimi satılması» kimi tarixi faktlar əsərdə öz əksini tapır.

Romanda Xaqaninin babası onu Şirvan bazarında satın alır, tərbiyəsi, evdarlığı ilə atası Nəccarın diqqətini cəlb edir, onlar evlənir və 1126-cı ildə Xaqani-ailənin ilk övladı dünyaya gəlir. Əsərdə faktik məlumatların «çoxluğu»ndan bunları müəllifin vahid süjet xəttində birləşdirə bilməməsi, müxtəlif məclislərin, səhnələrin həddən artıq yer tutması, romanın «bədiilik qanunlarının incəliklərinə riayət etməməsi», Xaqaninin dövründəki «hakim siniflərlə xalq kütlələri arasındakı barışmaz ziddiyyətlərə toxunulmaması» və s. əsərin qüsurları kimi götürülsə də, qüdrətli şair Xaqanin həyatından bəhs edən ilk irihəcmli epik əsər kimi dəyərlidir.

Hüseyn İbrahimovun «Əsrin onda biri» romanında XII əsrin ilk onilliyində Atabəy Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründəki mühüm ictimai hadisələr və bu hadisələr «fonunda» Azərbaycanın dahi memarı Əcəminin «sənət dünyası», zülm və haqsızlığa qarşı etiraz, xalq gücünün əzəməti, el-oba ruhunun yenilməzliyi verilmişdir.

A.Zöhrabbəyovun «Odlu diyar», M.S.Ordubadinin «Qılınc və Qələm» romanları, M.Hüseynin «Nizami», İ. Əfəndiyevin «Xurşudbanu Natəvan», N.Həsənzadənin «Atabəylər» dramları və başqa bəzi nümunələr tarixi əsərlər kimi dəyərlidir.

Mirzə Şəfi Vazehin həyatından bəhs edən əsərlər yaranır. Belə ki, Nəbi Xəzri «Heykəlsiz abidə» mənsur poema və «Mirzə Şəfi» dramını, F.Mustafayev «Mən işığa gedirəm» (rus dilində) povestini yazmışdır. Əlisa Nicatın «Mirzə Şəfi» romanı şairin dövrünü və həyatını daha dolğun əks etdirir. Yazıçının bu roman üzərində iyirmi ilə yaxın işlədiyi, onun obrazını yaratmaq üçün şeirləri ilə bərabər haqqında olan elmi, tarixi məxəzlərdən, «vərəqləri solmuş əlyazmalarından da» istifadə etdiyi bildirilir.

M.P.Vaqifin həyatından bəhs edən, onun yaşadığı əsrin ictimai-siyasi hadisələrini parlaq şəkildə əks etdirən Y.V.Çəmənzəminlinin «Qan içində», S.Vurğunun «Vaqif» əsərləri tarixi şəxsiyyətlərin həyatından, dövründən bəhs edən, qüdrətli sənətkarlıq nümunəsi olan əsərlərdir.

Bayram Bayramovun yazdığı «Karvan yolu» tarixi romanı Cəlil Məmədquluzadənin və onun ömür-gün yoldaşı, ziyalı Azərbaycan qadını Həmidə xanımın həyatı haqqındadır. Və burada müəllif təsvir olunan dövrün ədəbi-ictimai mühitini canlandırmağı, bu ziddiyyətli aləm haqqında dolğun, düzgün təsəvvür yaratmağı qarşısına məqsəd qoymuşdur.

Şah İsmayıl Xətayinin 500 illiyi münasibətilə Əzizə Cəfərzadə «Bakı-1501», Ə. Nicat «Qızılbaşlar», F. Kərimzadə «Xudafərin körpüsü» dilogiyasını yazmışdır. Tənqidçilər bu əsərləri dəyərləndirmiş «Tariximizin mürəkkəb dövrünü əks etdirən bu əsərlərdə xalq həyatına da müraciət olunması, zamanın ictimai-siyasi təzadlarının təsviri, zəngin insan

xarakterlərinin yaradılması»nı təqdirəlayiq bilir və «Dövrün mühüm hadisələri, zamanın inkişaf dinamikası bu romanların süjetini də müəyyənləşdirmiş» olduğunu, «həmin əsərlərdə «dramatik məqamlar»ın «ictimai kolliziyalar» üzərində qurulduğunu bildirir. Azərbaycan xalqının qəhrəmanlıq tarixinin parlaq səhifələrini yaradan sənətkarlarımız var. C. Cabbarlı «Od gəlini» əsərini yazdı. Bu ənənəni davam etdirən şairlər O.Sarıvəlli «Babək», B. Vahabzadə «Dar ağacı» dramalarını, Ə.Məmmədxanlı «Babək» romanı, Cəlal Bərgüşad «Sıyrılmış qılınc» romanını yazdı. Xalq heç zaman ictimai-siyasi müharibələrdə yadellilərə, qəsbkarlara qarşı mübarizə aparan qəhrəmanlarını unutmur. Bu həm şifahi, həm də yazılı ədəbiyyatda yaşayır. «IX əsrdə ərəb istilasına qarşı Azərbaycan xalqının qəzəbi Cavidan, Babək hərəkatında özünün parlaq ifadəsini» tapıb, «xalq və onun içindən çıxan qüdrətli sərkərdələr, qəhrəmanlar azadlıq və istiqlaliyyət uğrunda gedən ölüm-dirim mübarizəsində mərdliklə mübarizə aparmış, tarixin şanlı səhifələrinə adlarını həkk etmişlər.

Mahmud İsmayılovun «Ağ yapıncı» romanı xalq hərəkatının bədii ifadəsidir. Əsas mövzusu XVIII əsrin 30-40-cı illərində Şəki əyalətində İran hakim dairələrinə qarşı xalq azadlıq hərəkatından götürülmüşdür. İran şahının Azərbaycanda öz nüfuzunu artırmaq üçün vergiləri artırması xalqı qəzəbləndirir, üsyan qaldırır. Genişlənən hərəkatı boğmaq üçün Nadir şah 1735-ci ildə Şəkiyə cəza dəstələri göndərir. Üsyançılara amansız divan tutulsa da, onların əzmini qıra bilmirlər. Nadir şahın qardaşı İbrahim xanın başçılığı ilə göndərdiyi 32 min nəfərlik İran qoşunu mühasirəyə alınır, İbrahim xan öldürülür, qoşun məhv edilir. Əsərdə təsvir edilən əsas hadisələr bunlardır. Əsərdə dövrün acınacaqlı vəziyyəti, geniş xalq kütlələrinin dözülməz həyat şəraiti

canlı, təsirli səhnələrlə əks olunduğu, müəllifin əsərin «süjetinin mərkəzinə xalqın taleyi ilə bağlı hadisələri» çəkdiyi, dövrün real mənzərəsini canlandırması və s. tənqidçilər tərəfindən dəyərləndirilir.

Sovet dövrü xalqımızın yaşadığı bir dövrdür. Hər bir ictimai formasiyanın öz qanunları var. Ədəbiyyatımız heç bir zaman tarixi poblemlərə biganə qalmayıb. Qələmə aldığı mövzularda xalqın yaşadığı ictimai-siyasi şərait öz əksini tapmışdır. XX əsrin ilk onillikləri ölkədə inqilabi mübarizələrin kəskinləşdiyi illərdir. Bu illərdə xalqımız Xalq Cümhuriyyəti yaratdı. Az keçmədi bu hakimiyyət süquta uğradı. Və inqilabi mübarizələrin kəskinləşdiyi bir dövrdə ölkədə oktyabr inqilabı qələbə çaldı. Fəhlə-kəndli hakimiyyətinin qurulmasında inqilabçı şəxsiyyətlər yetişdi. Ölkədə Sovet hakimiyyətinin qurulması, həyatda baş verən dəyişikliklər, mədəniyyətdə, həyatda baş verən inqilabi dəyişikliklər bədii əsərlərin mövzusu oldu. Bu hakimiyyətin qurulmasında qoxmaz bolşevik obrazları yarandı. İnqilabi-azadlıq hərəkatının bədii inikasında məhz belə inqilabçı, qorxmaz qəhrəmanların silsilə obrazları yaradıldı. Firudin Ağayev Azərbaycanda sovet hakimiyyətinin qurulmasında müstəsna xidmətləri olan, inqilabın ilk aylarından mübarizə meydanında olan Çingiz İldırımın həyatının ən mühüm anlarını qələmə alır. «İldırım dənizdə çaxır», «İldırım ömrü» romanları bu cəhətdən maraqlı əsər kimi dəyərləndirilir.

İnqilabi hərəkat tariximizə həsr olunan romanlar içərisində cənubi azərbaycanlıların azadlıq mübarizəsindən bəhs edən romanlar da var. M.S.Ordubadinin «Dumanlı Təbriz» romanında Səttar xan hərəkatı, «Döyüşən şəhər», «Gizli Bakı» romanlarında təxminən eyni dövrdə Bakı proletariatının mübarizəsi təsvir ounurdu. İdeya-məzmunu, bədii ka-

milliyi ilə seçilən Mirzə İbrahimovun «Gələcək gün» romanında Cənubi Azərbaycan xalqının müəyyən ictimai tarixi dövrünün ictimai, mənəvi həyatı hərtərəfli, dolğun şəkildə təsvir edilir.

Mirzə İbrahimovun «Pərvanə» romanı nəsrimizdə monumental tarixi roman istiqamətində birinci təşəbbüsdür. Burada nəinki geniş miqyaslı, kəskin dramatizmlə şərtlənən konfliktlər, həm də son dərəcə qüvvətli, dolğun xarakterlər nəzərə çarpır. Əsərdə həmçinin əsrin, zamanın aparıcı tendensiyalarını ifadə edən problemlər də əks olunmuşdur. Romanın publisistik ahəngi də həmin problemlərin vacibliyini şərtləndiyi bildirilir.

Tarixi mövzuda yazdığı əsərləri ilə seçilən Pənahi Makulunun romanları xüsusilə dəyərləndirilir. «Səttarxan», «Gizli zindan», «Xiyabani», «Heydər Əmoğlu» romanlarında Oktyabr inqilabının Şərq xalqlarının azadlıq və istiqlaliyyət uğrunda mübarizəsində oynadığı rol faktlarla qələmə alınmışdır. Səttarxanla başlanan inqilabın ikinci dalğası Ş.M.Xiyabaninin adı ilə bağlıdır. «Xiyabani» romanında yazıçı bu hərəkatı, «dövrün və məkanın özünəməxsus ruhunu, koloritinin inandırıcı boyalarla» verir. Hər iki romanda («Xiyabani», «Heydər Əmoğlu») Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatının iki görkəmli xadiminin obrazları canlandırılmışdır.

«Son illərin tarixi romanları içərisində janrın ənənəvi qayğılarına, üsul, manera və normalarına sığmayan yeni nümunələr də vardır. Hər şeydən əvvəl tarixə müasir baxışla səciyələnən real faktlara, mənbə və mərkəzlərdəki məlumatlara çox da aludə olmayan, lakin dövrü, mühiti məhz tarixi mənbələrdə və kitablarda göstərildiyi şəkildə canlandıran müəlliflər bu əsərlərdə psixologizmə daha çox diqqət yetirirlər.

Bu cəhətdən xalq yazıçısı Mövlud Süleymanlının «Köç» əsəri yeni tipli əsər kimi meydana çıxdı. Ədəbi yaradıcılığa «Əllərim» adlı ilk şeiri ilə gələn M.Süleymanlının poetik əsərləri, şeirlərdən ibarət ilk kitabı («Bir ünvan») nəşr olunur. Sonralar çap olunan «Ayın aydınlığında», «Köç», «Şəhər toylarının səsi», «Səs» və s. kitabları oxucu kütləsinin marağına səbəb olur. «Dəyirman» pyesi Sumqayıt Dram Teatrında tamaşaya qoyulmuşdur. «Köç» əsəri (1984) Azərbaycan tarixi nəsrinin nümunəsidir. Tənqidçilərin diqqətini cəlb edən bu əsərdə «bir qəbilənin keçdiyi yol fonunda xalqın ictimai-siyasi inkişafı, mədəni-etnoqrafik siması» ümumiləşdirildiyi, «dünənimizlə bugünümüz arasında mənəvi varislik problemi öz dolğun ifadəsini» tapdığı söylənir. Bəxtiyar Vahabzadə bu romanı «dədə-babalarımızın işıqlı ruhuna nur çiləyən» gözəl bir əsər adlandırırdı. «Köç»də xalq ruhu, M.Süleymanlı yaradıcılığı üçün səciyyəvi sayılan faktlar, poetika ənənələrinə bağlılıq da tənqidçilərin diqqətindədir. Şifahi xalq ədəbiyyatından yaradıcılıqla yararlanan nasirin «Köç» əsəri haqqında K.Vəliyev yazır: «Köç» romanı folklor sistemi üzrə yazılıb, əsatiri görüşləri, nağıl və dastanları sənətkarlığa birləşdirən müxtəlif yarıreal, yarımifik bir dünya təsvir etmiş, insanın insanlaşması yolunu, qədim oğuzların təbiətə qarışmış həyatını yarpaq-yarpaq çevirərək bəşəri hissləri, duyğuları dilləndirməyə çalışmışdır».

Əsərdəki geniş ümumiləşdirmələri ilə xalqın keçmişinin təsviri, tarixi dövrdə yaşamış insanların xarakterinin bədii şəkildə təqdimi, əsərin oxucuda yaratdığı hiss, təəssürat, xalqın, yurdumuzun keçmişi haqqında dolğun təsəvvür, oturaq həyata keçən, şəxsi rəqabət hisslərinin acı nəticələri, nəsillər arasında gərginliklər yaradan ziddiyyətlər sənətkarlıqla təsvir olunur. Qasım Qasımzadə bu əsəri «milli mənşədə

gedən haçalanma… əleyhinə çağırış harayı ilə yazılmış bir əsər» kimi qiymətləndirir. Əsərin əsas süjet xəttində Qarakəllə və Qanıq ev kökünün tarixi, iki qəbilə arasında əsrlər boyu davam edən qan davası əsasdır. Poemada təsvir edilən adətlər, bu adətlərin pozulmasının «bağışlanmaz təhqir» kimi qəbul edilməsi oxucuların, yazıçıların diqqətindədir. Yazıçı, kinossenarist Anar yazır: «Mövludun yazılarında məni ən çox cəlb edən onun bu həyat tərzini yaxşı bilməsi, duyması və ifadə etməsidir. Bu üslubun, bu ruhun, bu dilin köklərini uzaq dağ kəndində daha aydın duydum. Elə «Köç» də dili, ruhu etibarilə Dədə Qorqud dünyasının bir daşı, bir bulağı, bir kötücəsi deyilmi?»

Əsər yarandığı dövrdə tənqidçilərin mübahisəli mülahizələrinə də yol açmışdır. Bu mübahisə doğuran köçəriliklə bağlı məsələ haqqında M.İsmayılov yazır: «Əvvələn, onu qeyd edək ki, bizim xalqımız heç vaxt köçəri olmamışdır. Arxeoloji qazıntı materiallarından məlumdur ki, hələ eramızdan əvvəl VI minillikdə bu torpağın sakinləri oturaq həyat keçirmiş, yüksək mədəniyyət yaratmışlar. Bizim yurdumuza tarix boyu köçəri qəbilələr gəlmiş, yerli camaatla qaynayıb-qarışmış, onun etnik tərkibinin bir hissəsinə çevrilmişdir. Mal-qaranı qışlaqda, yaylaqda saxlamaq isə köçərilik deyil, köçmə təsərrüfatıdır. Azərbaycanın iqlim şəraiti keçmişdə də, elə indi də bunu tələb etmiş və etməkdədir».

Romanın bədii strukturu, poetikası, süjet-kompozisiyası, dil-üslub xüsusiyyətləri «nəsrimizdə yaranan yeni keyfiyyətlər kimi» təqdir edilir, «müasir dünya ədəbiyyatında mühüm yer tutan folklor poetikası, nağıl-dastan deyim tərzi, şərti-simvolik üslub kimi əlamətlər»in də romanda qabarıq nəzərə çarpdığı bildirilir.

Elçinin «Mahmud və Məryəm» romanı iki dini ayrı, ürəkləri bir gəncin məhəbbət macərası ilə bağlı olan folklor, dastan motivlərindən yararlanmış, Azərbaycan tarixi nəsrinin yeni meyil və çalarlarını üzə çıxaran roman kimi dəyərlidir. Yazıçının real tarixi hadisələrlə «əfsanəvi-mifik motivləri»n xarakterik cizgiləri ilə zəngin xalq həyatını, insan və zaman problemini özündə əks etdirən romanı konkret tarixi dəqiqliklə («1514-cü il iyun ayının 28-i idi») başlayır. Lakin hadisələr XVI əsrin əvvəlləri Səfəvilər dövlətinin Çaldıran döyüşləri zamanını əks etdirməsi şərti xarakter daşıyır, yazıçının məqsədi «psixoloji roman yaratmaq»dır (V.Quliyev), «müəllifin əsas məqsədi qəhrəmanlarının həyat yolunu, duyğu və düşüncələrini zamanın ictimai təzadları ilə qarşılaşdırmaq, ayrı-ayrı fərdlərin deyil, ümumiyyətlə bəşəriyyətin taleyi ilə bağlı məsələlərə diqqəti cəlb etməkdir. Romanın mərkəzində insan və zaman kimi qlobal bir problem qoyulmuşdur».

Cənubi Azərbaycanda gedən milli-azadlıq hərəkatını, xalqın apardığı mübarizələri özündə yaşadan Söhrab Tahir, Balaş Azəroğlu, Əli Tudə və başqa sənətkarların əsərləri Azərbaycan ədəbiyyatına xidmət edir.

Xalq şairi Balaş Azəroğlunun yaradıcılığı bu cəhətdən diqqətəlayiqdir. İlk şeiri «Dnepr sahillərində»dir (1937). 1938-ci ildə ailəsi ilə birlikdə Cənubi Azərbaycanın Ərdəbil şəhərinə köçən şair burada şahlıq üsul-idarəsinin yarıtmazlığının, zəhmətkeş sadə xalqın çar zülmünün altında əzilməsinin, ölkədə baş verən ədalətsizliklərin, özbaşınalıqların baş alıb getdiyinin, zülm və istismara məruz qalan cənubi azərbaycanlıların həm şah üsul idarəsinin, həm də İranda hökmranlıq edən Qərbi Avropa kapitalist dövlətlərinin çirkin siyasətlərinin şahidi olmuş, qəzəb hissi ilə qarşılamış,

gənc yaşlarından ölkədə fəaliyyət göstərən mili-azadlıq hərəkatına qoşulmuşdur. «O, ilk gündən İranın demokratik qüvvələri arasında olmuş, azadlıq ideyalarının çoxalması və yayılması işində güclü vətəndaşlıq xidmətləri göstərmişdir, milli istiqlaliyyət, azadlıq və səadət tələbi ilə yaşayan güclü inqilabçı şair kimi yetişmişdir. «Dnepr sahillərində» adlı ilk şeirini 1937-ci ildə Bakıda çap etdirən Balaş Azəroğlu, 1941-ci ildə İranda «İnqilab şairiyəm» adlı kəskin ruhlu əsər yazaraq Cənubi Azərbaycan ədəbiyyatında heca vəznli yeni inqilabi poeziyanın əsasını qoyur» (A.Abasov).

1942-ci ildə İran Xalq Partiyasına daxil olan azadlıq mübarizi bədii yaradıcılığını da davam etdirir, «Doktor Ərani», «Şeyx Sədi məqbərəsi», «Nigar karvanı», «Arzu», «Gün millətimdədir», «Acı xatirələr», «Səttarxan», «Tehran» inqilabi ruhlu əsərlərini yazır. Təbrizdə nəşr olunan «Vətən yolunda» (redaktoru Mirzə İbrahimov idi) qəzetində fəal çalışır. İlk şeirlər kitabı İranda (1943-cü ildə) «Ziddi-faşist» cəmiyyəti tərəfindən buraxılır. Yazıçıların cəmiyyətinin Ərdəbil şöbəsinin sədri seçilən Balaş Azəroğlu 1945-ci ildə Azərbaycan Demokratik Firqəsinə daxil olur və bu zaman o, artıq tanınmış istedadlı sənətkarlardan biri idi. Təbrizdə milli hökumət tərəfindən Azərbaycan Dövlət Radio Verilişləri Komitəsinin sədr müavini, «Yazıçılar və şairlər» cəmiyyətinin idarə heyətinin üzvü (1946) Balaş Azəroğlu Şimali Azərbaycana gəlib 1947-ci ildə Azərbaycan Dövlət Universitetində təhsil almış, eyni zamanda Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinin sədri vəzifəsində çalışmış, Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun orta əsrlər ədəbiyyatı şöbəsinin baş elmi işçisi (1963-1982), Azərbaycan Yazıçılar İttifaqının katibi (1981-1991) vəzifəsində çalışmışdır. Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin Cənubi Azərbaycan ədəbiyyatı üzrə baş müşaviri

(1991) olan Balaş Azəroğlu 25-dən çox kitabın müəllifidir. «Şeirlər», «Savalan», «Mübarizə yollarında», «Mənim nəğmələrim», «Səhər şəfəqləri», «Sənətin qüdrəti», «Çiçəklənən tarlalar», «İtmiş qız haqqında dastan», «Məcnun söyüd», «Savalan əfsanəsi», «İllərdən illərə», «Yarpaqlar töküləndə», «Dünənim, bu günüm, sabahım», «Gəl, ay Bahar», 1955-59-cu illərdə «Seçilmiş əsərləri», 1970-82-ci illərdə 2 cildlik «Seçilmiş əsərləri» və s. kitabları çap olunmuşdur. «Məhəmməd Əmani» adlı namizədlik dissertasiyası kitab şəklində çap olunub. Saib Təbrizinin qəzəllərini «Saib Təbrizinin sənət dünyası» (1981) adı altında dilimizə çevirmiş, nəşr etdirmişdir. Dünya xalqlarının əsərlərindən dilimizə tərcümələri də ədəbi fəaliyyətində müəyyən yer tutur. Cənubi Azərbaycanda olarkən yazdığı şeirlərində vətənə, xalqa qəlbən bağlı, onun sabahı, müstəqilliyi üçün mübarizə aparan vətəndaş şairin səsini eşidirik.

Azər övladısan, məzlumam demə,
Bu el azadlığın sorağındadır.
Mübariz yaranıb, mübariz ölmək,
Bizim bu ölkənin torpağındadır.

60 ildən çox bədii yaradıcılıqla məşğul olan şairin əsərləri tənqidçi ədəbiyyatşünasların diqqət mərkəzində olmuşdur. Tənqidçilər onun ədəbi yaradıcılığının «güclü obrazlılığı», «tematik zənginliyi», fikir dərinliyi və yüksək partiyalı siqləti ilə nəzəri cəlb etdiyini söyləyir. Onun əsərlərinin əhəmiyyətini «müasir insanın psixologiyasını, hisslər, düşüncələr və duyğular aləmini yüksək bədii formalarda ifadə edərkən həmişə vətənə, ana torpağa, doğma xalqa» arxalanmaqda, «onun poetik düşüncələrinin coğrafi sərhədlərinin və imkanlarının çox geniş və zənginliyində» görürlər. Şairin bütün yaradıcılığının ruhunu təşkil edən yüksək

reallıq və müasirlik, güclü vətənpərvərlik və xəlqilik, dərin beynəlmiləlçilik ideyalarıdır və bunlar zəngin, incə, oynaq formada, yüksək obrazlarla öz bədii həllini tapır.

Sülh, azadlıq və demokratiya uğrunda mübarizə Balaş Azəroğlunun yaradıcılığında geniş yer tutur. Şair bu mövzunu həmişə vətən və xalq anlayışı ilə vəhdətdə götürür, onu Cənubi Azərbaycan xalqının azadlığı məsələləri ilə əlaqələndirir. Ona görə də şairin bu mövzulu əsərlərində yürüdülən hər bir fikrin arxasında azadlıq uğrunda mübarizə aparan xalqının təfəkkür tərzi dayanır».

Susub qızıl olmaqdansa
Danışıram.
Gümüş nədir
Qoy dəmir olsun qiymətim.
Nə qədər ki,
Xalqım,
Vətənim,
Həqiqətim,
Təpiklər altındadır,
Mən necə alışmayım!
Mən necə danışmayım!

XX əsrin ən xarakterik hadisələrinə, Afrika xalqlarının əldə etdiyi istiqlaliyyətə, Əlcəzair xalqının uzun illər davam edən mübarizəsi ilə yanaşı, şah üsul-idarəsinə, müstəmləkəçi imperializmin məhvi naminə ömrü boyu mübarizə aparan cənubi azərbaycanlılarımızın taleyinə, İran qoşunları altında təhqir və təzyiqlərə məruz qalan, fars dilində danışmağa, yazmağa, oxumağa məcbur edilən millətinin faciəsinə göz yuma bilmir. Yarı qəzəb, yarı nifrət, yarı əzab, yarı dərd, qəm, qüssə, göz yaşları içində olan xalqının bugünkü taleyinə-sərhədləri kimi, adı, milləti də farslaşdırma siyasətinə

qurban, İranın bir «məhəlləsi»nə çevrilməkdə olan Cənubi Azərbaycan taleyinə dözmür.

İndi dilimiz «məhəlli»:
Nəğməmiz «məhəlli»,
Özümüz «məhəlli» olmuşuq,
Nizamisi dünyaya sığmayan,
Bir xalq
Bir məhəlləyə dolmuşuq!
Bir həddinə bax zülmün,
Gör nə günə qaldı
Bütün İrana məşrutə verən
Sərdarın nəvəsi!
Bax, budur
İyirminci əsrin
Ən böyük faciəsi!

«Elə oğul istəyir» şeiri kimi, «Savalan», «Körpə müğənni», «Eşidin dünyanın səsini», «Fədakarlıq», «Dəniz olmaq istəyirəm» və s şeirlərində də şair vətənini düşünür, sabahına ümidini itirmir. «Araz çayının üstündə salınmış, bir ayağı Cənubda, bir ayağı Şimalda olan qərib bir körpü obrazında şair vətən məfhumunu ümumiləşdirir». Beynəlmiləlçilik, xalqlar dostluğu («Berlin», «Marselin taleyi, Reyxstaq», «Almaniya», «Eşidin dünyanın səsini», «Dağ seli və daşlar»), təbiət lirikası («Dağlar», «İki Araz», «Bahar gəlir», «Göy göl», «Bənövşə», «Buludlar», «Günəşin qürub çağı», «İldırım və dəniz», «Yarpaqlar töküləndə» və s.), təlim-tərbiyə, sənət və sənətkarlıq məsələləri («O şeiri kim yaxacaq», «Romantika», «Şeir var ki», «Əsl şair», «Süleyman Rüstəm») onun əsərlərinin əsas mövzusunu təşkil edir.

Klassik ənənələrə yaradıcı şəkildə yanaşan, inkişaf etdirən, heca və sərbəst vəznin ən oynaq şəkillərindən «usta-

lıqla» istifadə edən Balaş Azəroğlu yaradıcılığının böyük bir hissəsini poemaları təşkil edir. «Bakı səfəri» əsəri ilə Cənubi Azərbaycan şeirində realist və müasir poema janrının əsasını qoymuşdur. «İtmiş qız haqqında dastan», «Bir məhbusun gündəliyindən», «Mənim cəbhə dostlarım», «Hafizin qəbri üstündə», «Ərəb oğlu», «İlk məktub» poemalarında «sülh, demokratiya uğrunda mübarizə ideyaları, azadlığa, dostluğa çağırış sədaları», «Ərəb oğlu», «Əlcəzairli qardaşıma» poemalarında imperializmin müstəmləkəçilik siyasəti, azadlıq uğrunda mübarizə aparan xalqların dönməz iradəsi real səhnələrlə təsvir olunur. Tənqidçilər Balaş Azəroğlu yaradıcılığının «əsas ruhunu», «siyasi kəskinlik, inqilabi pafos, gələcəyə güclü inam, yüksək vətənpərvərlik və beynəlmiləlçilik, həyatın obrazlı və real təsviri» təşkil etdiyini bildirirlər.

Ömür-gün yoldaşı Mədinə Gülgün Cənubi Azərbaycanda gedən milli-azadlıq hərəkatının yetirməsidir. Uşaqlığından çəkdiyi əzab-əziyyətlər, həm cismani, həm də mənəvi əzablar onu mübarizə yolunda mətinləşdirib. İctimai-siyasi həyatda baş verən hadisələr, demokratik ruhlu qüvvələrin fəalliyətə başlaması onun sabaha inamını artırıb. «Azərbaycan», «Demokrat», «Günəş», «Vətən yolunda» və s. jurnallarda «Gülgün» təxəllüsü ilə şeirlərini çap etdirib. Mübariz çıxışlarına qarşı mürtəce qüvvələr fəallaşıb. Onların hücumundan qorxmayan gənc şairə inqilabi mübarizəyə çağırış ruhlu şeirlər yazmaqda davam edib.

M.Gülgün 1945-ci ildə ölkədə fəaliyyət göstərən Azərbaycan Demokrat firqəsinin sıralarına daxil olur. «Azərbaycan» qəzeti redaksiyasında-Təbrizdə nəşr olunan redaksiyada çalışır. Şimali Azərbyacan ədəbiyyatının yorulmaz təbliğatçısına çevrilir. 1946-cı ildə inqilabi fəaliyyətinə görə «21 Azər medalı» ilə təltif olunur. Lakin tezliklə şah

xarici və daxili irticaçıların köməyi ilə demokratik hərəkatı süquta uğradır, onun fəallarına divan tutulur, güllələnən, dara çəkilənlər çox olur. Şimali Azərbaycana da gələnlər olur. Mədinə Gülgün də onlardan biri idi. Keçən əsrin 50-ci illərindən Azərbyacan şeirinin ən gözəl nümunələrini yaradan M.Gülgün milli azadlıq hərəkatının genişləndiyi bir zamanda və İkinci Dünya müharibəsi dövründə ədəbiyyata gələn, Şimali Azərbaycana mühacirət etməsiylə yaradıcılığında yeni dövr açılan istedadlı qələm sahibidir. Onun yaradıcılığında Cənubi Azərbaycan, onun azadlıq uğrunda mübarizəsi əsasdır. «Təbrizin baharı, «Savalanın ətəklərində, «Sübhün səsi», Yadigar üzük», «Pərvanə», «Təbriz qızı», «Günlər və xatirələr», «Dənizin sahili var», «Çinar olaydı», «Xatirələrimin nəğməsi», «Dünyanın Sabahı», «Arzu da bir ömürdür», «Yora bilməz yollar məni», «Ömrə yelkən ümidlərim», «Ömrün payız dayanacağı» və s kitabların müəllifidir.

Dilimizin bütün imkanlarından, canlı xalq dilindən bacarıqla istifadə edən M.Gülgün gəncliyindən əlində qələm azadlığı, müstəqilliyi tərənnüm edib. M.Gülgün istər əvvəlki dövr, istər sonrakı dövrlərdə yazdığı əsərlərdə «Cənubi Azərbaycanda yaşayan ana və bacılarının, qardaşlarının dili ilə yanaşı, dünyanın başqa məhkum xalqlarının taleyi ilə də maraqlanır. Şairə Bakını, Azərbaycanı, onun insanlarını tərənnüm edir, dünyanın taleyini düşünür, əzilənlərin, təhqir olunub zindanlara salınanların dərdinə şərik olur, xoş dövran sürən xalqların sevincinə sevinir, lakin yenə də təbii olaraq fikri Təbrizə uçur:

Qulağımda layla səsin,
özün uzaq,
Daxmamızda nə şam yanır,

nə də ocaq.
Çətin olur vətənində
dustaq olmaq.
Əyilmişdir qəm yükündən
belin sənin.
Bağlanıbdır dilin sənin.

Mübarizə alovları içərisində boy atan şairənin öz amalı vardı və şeirlərinin əsas qayəsini də bu təşkil edirdi.

Ə.Əylisli, C.Əlibəyov, Ə.Qasımov, İsi Məlikzadə, S. Süleymanov, H.Mehdiyev, Ə.Hacızadə, X.Hasilova və başqaları Böyük Vətən müharibəsi mövzusuna daha çox meyil edirdilər.

O illərdə sülh, demokratiya uğrunda gedən mübarizələr də bədii nəsrimizdə öz ifadəsini tapırdı. Azərbaycan fəhləsinin həyatının geniş epik təsvirini verən romanlar yazılırdı. M.Hüseyn «Qara daşlar», «Abşeron», M.Cəlal «Təzə şəhər», M.Süleymanov «Yerin sirri», «Fırtına», Y.Əzimzadə «Onun həyatı» povestini yazdılar və bu əsərlərdə fəhlə həyatı neft daşlarında işləyən əmək adamlarının, mühəndislərin yeni quruculuq işləri əsas mövzulardan idi. Neft yataqları tapan geoloqların, neftçilərin fəaliyyəti, onların cəsarətli axtarışları, əldə etdikləri nailiyyətlər, geoloq və mütəxəssislərin öz işlərinə məsuliyyətlə yanaşması, öz bilik və bacarıqları sayəsində istədiklərinə nail olması, ölkədə, xüsusilə respublikada neft sənayesinin inkişafı, nəhəng tikinti işləri, yeni sənaye obyektlərinin qurulması da bədii nəsrin əsas mövzularından idi.

Mir Cəlalın «Təzə şəhər» romanı Sumqayıtın tikintisinə, bu böyük kimya şəhərinin qurulmasında əmək adamlarının, yaradıcı insanların əməyinə, qazandığı, əldə etdiyi uğura həsr olunub. Burada müharibədən sonra adamların həvəslə işə girişməsi, çətinliklərə, təbiətin kortəbii qüvvələrinə qalib gələrək boru-prokatı zavodunun tikilməsinin təsviri, romanın qəhrəmanının cəsarəti, yaratmaq, yaşamaq eşqi ilə çırpınan istedadlı mühəndis Yunus Əhmədov obrazı yaddaqalandır. Yazıçının bu surətin simasında yeni tipli Azərbaycan mütəxəssisini göstərmək istədiyi, Davud, Ülfət, Reyhan kimi gənclərin ixtisas qazanmasında, yetişib tərbiyə olunmasında onun böyük rolu olduğu bildirilir.

Əvəz Sadığın «Mingəçevir» romanında Mingəçevirdə gedən tikinti işləri, Boz dağın bağrını yaran, yerində xarüqələr yaradan, quran, tikən adamların şərəfli əməyinin təsviri əsasdır.

Şəhərlərdə olduğu kimi, kənddə də gedən geniş quruculuq işləri bədii nəsrimizdə yetərincə təsvirini tapmışdır. Əvəz Sadıq «Bəsti», İ.Əfəndiyev «Şamama». M.Cəlal «Yeni kəndin adamları» hekayə və oçerklərini yazdılar. Kənd həyatından bəhs edən Əli Vəliyevin «Çiçəkli», S. Rəhmanın «Böyük günlər», M.İbrahimovun «Böyük dayaq» kimi romanları yarandı. M.İbrahimovun «Böyük dayaq» romanı müasir kəndin və onun adamlarının həyatından bəhs edən ən yaxşı roman kimi dəyərləndirilir. «Yazıçı müharibədən sonrakı illərdə Azərbaycan kəndində yaranmış dəyişikliyi, yüksək məhsul üçün bütün imkanlardan istifadəni konkret hadisələr fonunda göstərir; xarakterləri gərgin mübarizələr, ehtiraslar toqquşması nəticəsində meydana çıxarır. «Böyük dayaq»ın əsas qəhrəmanları-Rüstəm kişi, Şirzad, Maya, Qızyetər, Telli və başqalarıdır.

Hüseyn Abbaszadənin «General», «Burulğanlar», «Uzaqdan gələn qonaq», «Oderin o tayında», «Haralısan, Misyo Abel?», «Şokoladpaylayan qız», «Əlibalanın ağır səfəri» əsərləri, Qılman İlkinin hekayələri ilə yanaşı, «Qalada üsyan», «Şimal küləyi», «Dəniz qapısı», «Dağlı məhəlləsin-

də» roman və povestləri, Cəmil Əlibəyov «Dözümlü məhəbbət», «Dünyanın karvan yolu», «Həyatın özü», «Qızıl at və torpaq» roman və povestləri yaxşı nəsr əsərləridir.

S.Dağlı «Kəcil qapısı», «Bahar oğlu» romanlarının və çoxlu satirik hekayələrin müəllifidir. M.İbrahimbəyov və R.İbrahimbəyov qardaşlarının «Park», «Ondan yaxşı qardaş yox idi», «Bayquş», «Kərgədan buynuzu», «Bir cənub şəhərində» nəsr əsərləri oxuculara yaxşı tanışdır.

Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən biri Rüstəm İbrahimbəyovdur. «Mürəbbəsiz çörək» (1962) adlı hekayəsi ilə ədəbi fəaliyyətə başlayan R. İbrahimbəyov SSRİ kinomatoqrafçılar İttifaqı yanındakı ikillik ali ssenari kursunu bitirdikdən sonra daha çox ssenarilər yazmışdır. «Bir cənub şəhərində», «Səhranın ağ günəşi», «Qum üzərində ev», «Ad günü», «İstintaq» filimlərinə görə dövlət mükafatına layiq görülüb. Dramaturq və rejissor kimi fəaliyyət göstərən R. İbrahimbəyov «Urqa-məhəbbət ərazisi» filminə görə Venesiya kinofestivalının baş mükafatına, «Günəşdən usanmışlar» filminə görə isə Kann kinofestivalının Qran-PRİ mükafatına və «Oskar» mükafatına (1995) layiq görülmüşdür. R. İbrahimbəyovun «Seçilmiş əsərləri» II cilddə (Azərnəşr, 1989) nəşr olunmuşdur. Onlarla kitabın müəllifidir. Həm rus, həm də Azərbaycan dillərində əsərlərini yazan yazıçının povest və hekayələri bir çox xarici ölkələrdə çap olunur.

Maqsud İbrahimbəyov dramatruq, kinossenarist və rejissor kimi, həm də nasir kimi tanınır. «Qəza», «Bir az da sevinc», «Eşitmədiyim mahnı», «Qoy bizimlə qalsın» və s. kitabları Moskvada kütləvi tirajla nəşr olunmuş, əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuş, «Bayquş gəlmədi», «Bütün yaxşılıqlar üçün ölüm» əsərləri Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. «Böyük şəhərin

nağılları», «Katastrofa» (1963), «Uşaqlığın son gecəsi» (1968), «Naməlum mahnı», «İki povest» əsərləri rus dilində nəşr olunmuşdur.

Bu dövrdə ailə-məişət mövzusunda, xalqın mənəvi saflığına həsr edilmiş əsərlər yaranırdı. S. Rəhimovun «Saçlı» romanının son cildləri, «Ağbulaq dağlarında» romanları, «Ata və oğul», «Arzu», «Yanan buludlar» povestləri, müharibə mövzusunda İ.Qasımov və H.Seyidbəylinin birlikdə yazdıqları «Uzaq sahillərdə», S.Vəliyevin «Mübahisəli şəhər», M.İbrahimovun, Ə.Vəliyevin, İ.Şıxlının bir sıra hekayələri, Ə.Əbülhəsənin «Müharibə», M.Cəlalın «Yaşıdlarım» romanları vardır. M.Hüseynin «Fəryad» povesti Böyük Vətən Müharibəsi mövzusunda yazılmış, müharibə həyatı geniş epik lövhələrlə təsvir edilmiş, azərbaycanlı döyüşçülərimizin Krım cəhbəsində, Adriatik dənizi sahillərindəki Triyest torpağında partizan hərəkatında fəal iştirakı və s. məsələlər geniş təsvirini tapmışdır.

İsmayıl Qarayev XX əsrin 50-ci illərindən hekayə, roman, povest və oçerkləri ilə tanınır. O, «O və mənim anam» (1964), «Aydınlıq» (1968), «Tərtərin mahnıları» (1969), «Əməyin bəhrəsi» (1972), «Gecə keçir» (1973), ölümündən sonra «Dağlar dağımdır mənim» (1994), «Sxodka» (mikroroman), «Yalandır» (mikroroman), «İnsan var hələ» (mikroroman) kimi 25-ə qədər kitabın müəllifidir. Repressiyaya məruz qalmış, uzun müddət həbsxanalarda mənəvi və cismani əzab çəksə də, sonralar bəraət almış, ömrünün sonlarına qədər doğma kəndlərində yaşamış İsmayıl Qarayevin əsərləri bədii cəhətdən dəyərli əsərlərdir.

Mikayıl Rzaquluzadə nasir, şair, tərcüməçi kimi zəngin yaradıcılığı ilə tanınır. 20-dən çox («El gücü», «Ağ dana», «Qu gölü», «İstək», «Dan söküləndə». «Ölkənin çiçəkləri»,

«Nəsillərdən-nəsillərə», «Yaz günəşi» və s) bədii kitabların müəllifidir. Ədəbi fəaliyyətə 1923-cü ildə «Abdulla Şaiq» kitabçasına daxil edilmiş «Müəllim» şeiri ilə başlayan M. Rzaquluzadənin dünya və keçmiş SSRİ xalqlarının ədəbiyyatından tərcümələri var. 60-dan çox tərcümə kitablarının müəllifi M.Rzaquluzadənin tərcüməçilik fəaliyyətinin genişliyi, zənginliyi insanı heyran qoyur. Nizami, Y.Lebedinski, T.Oldric, R.Kiplinq, M.Şoloxov, A.Düma, İ.S.Turgenev, A. Darbni, L.Tolstoy, S. Svift və adını çəkmədiyim onlarca sənətkarların əsərlərini dilimizə tərcümə etməklə dünya ədəbiyyatı haqqında Azərbaycan oxucularının biliklərini dərinləşdirmiş, ədəbiyyata marağı gücləndirmişdir.

XX ƏSRİN 60-80 -cı İLLƏR ƏDƏBİYYATI, SENZURA...

XX əsrin 50-ci illərinin sonu, 60-cı illərin əvvəllərində sovet cəmiyyətində şaxtası qılınc kimi kəsən kommunist ideologiyasının buzu yavaş-yavaş sınmağa başladı. Sosializm realizm metodu ədəbi yaradıcılığa polad kimi sərt təzyiqini artıq göstərə bilmirdi. Yazıçının müstəqil düşünmə, yaratma hissi, azadlıq duyğuları bu polad hasarları uçururdu, sənətkar istəyi bu buxovları qırırdı. Cəmiyyətdə gedən quruculuq işləri, hər sahədə özünü göstərən müvəffəqiyyətləri ilə yanaşı, qüsurları, problemləri ilə də ədəbiyyatın mövzusuna çevrilirdi. Repressiya, şəxsiyyətə pərəstişin faciəvi nəticələri, stalinizm siyasətinin dəhşətləri ədəbi mövzulara yol alırdı. Sovet kommunist ideologiyasının Azərbaycan vətəndaşlarına, bütövlükdə Azərbaycana, onun alim, ziyalı, kütləsinə vurduğu zərbələr ifşa edilirdi. Buxovlanmış ədəbiyyat kommunist ideologiyası, sosializm quruculuğu çərçivəsindən çıxırdı, ümumbəşəri mövqe tuturdu, insanın daxili aləminə, mənəvi dünyasına maraq artırdı. Yazıçı psixologiyasında çərçivələr görünməməkdə idi. Kommunist ideologiyasına zidd əsərlər çətinliklə də olsa yaranmaqda idi. 50-60-cı illərdə ədəbiyyata gələn yeni istedad sahibləri əvvəlki yazıçı nəslindən fərqli düşüncələrlə yaşayıb-yaradır. Ədəbi prosesdə yeni bir ab-hava duyulur. Bu da ədəbiyyatımızın, Azərbaycan ədəbiyyatının ümumi xarakterinə, məzmununa «həlledici təsir» göstərirdi, bu da təbii idi, hər dövrdə cəmiyyətin aparıcı qüvvələri olan alimlər, şairlər, yazıçılar, dramaturqlar mövcud cəmiyyətlərində gördükləri çatışmazlıqlarla barışmamış, bu və ya digər şəkildə, sətiraltı

mənalarla, üstüörtülü kinayələrlə, müəyyən simvolik vasitələrlə öz etirazlarını ifadə etmişlər. İctimai fikir tarixində belə hallar həmişə olub. Elə 50-ci illərdə kommunist sisteminə, onun siyasətinə belə sətiraltı mənalarla etiraz edənlərdən birinin Rəsul Rza olduğunu tənqidçilər xüsusilə qeyd edirlər. Onun «Rənglər» silsilə şeirlərini, «Tez yazan qızlar», «Sarı dana», «Balıq olmaq istəyirəm» və s. şeirlərini buna nümunə gətirirlər: «Bizim böyük bir əminliklə gəldiyimiz ən maraqlı qənaətlərdən biri belədir ki, həqiqətən də 60-cı illərin poeziyası və onun yaradıcıları məhz Rəsul Rzadan təsirlənən o zaman hələ yeni-yeni şeirə-sənətə gələn cavanlardan ibarət olmuşdur. Məzahir Daşqın, Fikrət Qoca, Fikrət Sadıq, Əli Kərim, İsa İsmayılzadə, Tofiq Bayram, Cabir Novruz, Sabir Rüstəmxanlı, Ramiz Rövşən, Vaqif Səmədoğlu, Vaqif Cəbrayılzadə və s. özlərinin poetik yolunun başlanğıcında onun qayğısını görmüş və bilavasitə öz həyatlarında onun təmasını duymuşlar. Sonralar onlardan bəziləri ənənəvi şeir formasına keçsələr də, məna və mahiyyət dəyişməz qaldı» (Müasir Azərbaycan ədəbiyyatı. I cild. Bakı. 2007).

Alimlər, tənqidçilər Rəsul Rzanın poeziyasının həm məzmun, həm forma etibarilə də novator mahiyyət daşıdığını təsdiq edən çoxlu sayda faktlara müraciət edirlər.

60-cıların bədii irsi Rəsul Rza kimi novator şairin diqqətindən yayınmadı. O, böyük səmimiyyətlə qeyd edir ki, mənim ikinci istedadımın doğuluşunda zaman, dövr, mühit həlledici rol oynamışdır. Böyük şair təbii bir təvazökarlıqla onu da əlavə edir ki, onların-60-cıların şeirlərini oxuyanda düşünürəm, «illərlə görüb yanından keçdiyim şeylər gözümdə yeni rənglərlə canlanır. Bu şeirləri oxuyanda özümü daxilən əvvəl olduğundan artıq zənginləşmiş hiss edirəm. Bəzi detallar gözümdə böyüyür, yeni məna kəsb edir. Onlar

məndə riqqət, ya təəssüf, həsrət, ya ümid dolu xatirələr oyadır. Əgər şair qardan yazmışdırsa, qarda, ağacdan yazmışdırsa, ağacda, gözlərdən yazmışdırsa, gözlərdə nə isə bu vaxta qədər duyub dərk etmədiyim yeni çalarlar, qoxular, rənglər duyur, görürəm. Məncə, həqiqi poeziyanın yolu budur».

Bəziləri öz köhnə yolları ilə gedən «quruluşa səcdə edir, cəmiyyətdə gedən yeniləşməni, cəbhələnməni» görmür, «bəziləri isə gah nala, gah da mıxa vuraraq dumanlı, mübhəm bir xaos yaradır» və bütün bunlarla yanaşı, «hazırda çağdaş şeirimizin klassikləri, komandanları adlandırıla biləcək, öz xalqına, vətəninə həmişəki kimi təmənnasız xidmət edən digər şairlərimiz yenə də günün ən aktual problemlərinə əks-səda verir, insanları düşündürən, cəmiyyətə lazım olan mövzuları, mətləbləri ön plana çəkirdi. Bunlar hazırda yaşlaşmış, lakin yenə də yazıb-yaratmaqdan doymayan, şeirimizin, ədəbiyyatımızın qeyrətini çəkən söz ustaları kimi» qiymətləndirilir.

60-cılar nəslinin nümayəndələri bu dövrün tənqidinin zəifliyindən, ədəbiyyata gələn bu nəslin şair və yazıçılarının öz tənqidçilərinin yetişməməsindən gileylidirlər. Anar yazır: «Mən və mənimlə bir dövrdə 60-cı illərin əvvəllərində ədəbiyyata gəlmiş şair və nasirlər bir məsələdən hələ də razı qala bilmirik ki, bizim 60-cı illər nəslinin içərisində «öz tənqidçilərimiz» yetişmədi. Bizim yaşıdlarımız içərisində istedadı ilə seçilən 60-70-ci illər Azərbaycan poeziyası və nəsrində yeni ictimai şüurun, ədəbi zövqün, əxlaqi prinsiplərin tənqiddə ifadəçiləri olmaq istəmədilər və ya ola bilmədilər».

60-cılar kimi tanınan şair və yazıçılarımız 60-cı illər ədəbiyyatının, ondan əvvəlki dövrün böyük qələm sahibləri-

nin təcrübələrindən yararlanmaqla, onları təkrar etmədən, ədəbiyyata yeni mövzular, ideyalar gətirməklə ədəbiyyatımızı zənginləşdirdilər. 60-cı illərdə də 20-30, 40-50-ci illərin nəslindən olan Osman Sarıvəlli, Məmməd Rahim, Nigar Rəfibəyli, Rəsul Rza, sonralar Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Nəriman Həsənzadə, Əli Kərim, Xəlil Rza və b. yazıb-yaradır, Azərbaycan ədəbiyyatına xidmət edirdi. Lakin hər gələn nəsil öz fərdi üslub keyfiyyətləri, öz poetik axtarışları ilə ədəbiyyata yeni ab-hava gətirməkdə idi. 60-cılar ədəbiyyat aləmində özlərindən əvvəlki sənətkarlardan öyrənməklə bərabər ədəbiyyatımızda yeni bir nəsil kimi formalaşmaqda idilər. Onlar şeirlərində zaman, təbiət, dünya, kainat, elmi-texniki nailiyyətlər, insan problemlərini qoyurdular. İnsan və zaman vəhdətində 60-cılar insan düşüncəsini, idrakını, təfəkküründü, onun mürəkkəb aləmini əsas götürürdülər. Onların söhbət açdığı, düşündükləri insan dünyası bu günü, sabahı, gələcəyi üçün narahat insanlardır. Üzərilərinə bir insan kimi düşən məsuliyyəti duyan müasir dünyagörüşə malik insanlardır. Onlar vətənpərvər olmaqla yanaşı bəşəri amal sahibidirlər.

Çox maraqlı haldır ki, məhz həmin altmışıncılarla yanaşı bir dövrdə ədəbiyyatşünaslar, alimlər, tənqidçilər nəsli fəaliyyət göstərirdi, ancaq nədənsə onların sosializm realizmi metoduna-kommunist ideologiyasına zidd getməyə cəsarətləri çatmırdı.

Məhz bu altmışıncılar nəslinin bəzi nümayəndələrinin yazdıqları əsərlərin Yazıçılar İttifaqının Natəvan klubunda müzakirəsində iştirak etmək bizə nəsib olub. Yadımdadır, Xəlil Rzanın kitabı «qayçılananda» acıqlı, qəzəbli səsi, hətta söyüşləri.. Məmməd Arazın əsəbi halda tez-tez yerindən qalxıb oturması... Məhz bu yeni ovqat narahatlıq doğurmuş... Nə isə, bu ayrıca bir tədqiqat işinin mövzusudur...

60-cılar nəslinin yaradıcılığı az da olsa son illərdə tədqiq və tədqiqata cəlb edilir. Amma bu dövrün ədəbi prosesinin Azərbaycan ədəbiyyatının ümumbəşəri keyfiyyətləri, dünya ədəbiyyatı arenasındakı yerini üzə çıxarmaq üçün obyektiv, vicdanlı tənqidçilərinin yolunu gözləyir.

Şairlərin yaradıcılığında ana Vətən, onun müasir ictimai yaraları, dünya, kainat, insan, müharibə, sülh, həyata, insana sevgi hissləri, özünə, soykökünə qayıdış, yeniləşməyə, tərəqqiyə, dünyəviliyə meyil güclü idi. 60-cılar nəslinin görkəmli şairlərindən olan Fikrət Qoca ədəbiyyata 1956-cı ildə «Kirpi» jurnalının səhifələrində nəşr edilən «Bacıqızı» şeiri ilə gəlmiş və tez bir zamanda ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Moskvada beş illlik Qorki adına «Ədəbiyyat» institutunu müvəffəqiyyətlə bitirib Azərbaycana qayıdan şair 1963-cü ildə «Qağayı» adlı ilk şeir kitabını nəşr etdirir.

Rəsul Rzanın sənətə, ədəbiyyata sonsuz məhəbbətinin nəticəsidir ki, gənc nəslin nümayəndələrinə mənəvi ata olmuş, onların ədəbiyyat aləmində tanınması, əsərlərinin dərc olunması, işıq üzü görməsi, xalqın onu tanıması, qiymətləndirməsi üçün əlindən gələni əsirgəməmişdi. Bu gənclərdən biri də məhz Fikrət Qoca olub. Onun «Haqq tərəzisi», «Körpə», «Nadanın qocalığı», «Mənim məsləkim», «Tənha ağac», «Vallah, adam qocalmaz» və digər lirik şeirlərində novator şairin nəfəsi duyulur.

Fikrət Qocanın lirik şeirləri ilə yanaşı irihəcmli poemaları da zəngin yaradıcılıq imkanlarından xəbər verir. «Yaralı çiçəklər», «Ulduzlu düşüncələr», «İnsan səviyyəsi», «İstanbulda bir ceviz ağacı var» və digər poemalarında şairin insan, dünya haqqında bədii-fəlsəfi düşüncələri əks olunur. Əsərləri bir çox xalqların dillərinə tərcümə olunmuşdur,

keçmiş sovet respublikalarında, onun hüdudlarından kənarda istedadlı qələm sahibi kimi tanınır. Əsərləri Avropa, Asiya xalqlarının dillərinə tərcümə edilmiş Fikrət Qoca Avropa, Asiya, Afrika və Amerika qitələrinin bir sıra ölkələrində, SSRİ dövründə bütün respublikalarda müxtəlif nümayəndə heyətlərinin tərkibində yaradıcılıq ezamiyyətlərində olmuş, yazdığı əsərlərdə şairin görüşləri, gördüyü yerlər, eşitdiyi hadisələr dəyərli bədii əsərlərinin mövzusuna çevrilmişdir. Onun «Vyetnam suitası», «Ünvansız məktub», «Xose Risal» «Viktor Xara», «Amilkar Kabral» poemalarının mövzusu dünya xalqlarının həyatından götürülmüşdür.

Onun «Hamıya borcluyam», «Dənizdə ay çimməndə», «Yatmadığım gecələrdə», «Adi həqiqətlər», «Seçilmiş əsərləri», «Günlərin bir günü», «Gül ömrü», «Özümə məktub», «Hələlik, qiyamətəcən» «Ömrümdən anlar» və başqa kitabları müxtəlif illərdə çap edilmişdir.

Fikrət Qoca hansı janrda yazmasından asılı olmayaraq bütün əsərlərində həyatı, insanları, baş verən ictimai-siyasi hadisələri əks etdirmiş, özünəməxsus, orijinal qələmi, düşüncə tərzi ilə seçilmişdir. Bəkir Nəbiyev yazır: «Zaman bu nəslin boynuna çox ağır bir tarixi yaradıcılıq vəzifəsi qoymuşdu. Onlar ədəbiyyatımıza təzə ab-hava, təzə obrazlar, yeni fikirlər, təravətli təsvir və ifadə vasitələri gətirməli, sadə, adi insanların, sıravi vətəndaşların taleyini, duyğu və düşüncələr aləmini öz əsərlərinin leytmotivinə çevirməli idilər. Onlar bir daha öz əsərləri ilə sübut etməli idilər ki, problem heç də təkcə hansı janr, forma və ölçülərdə yazmaqda yox, ilk növbədə nədən və necə yazmaqdadır. Üzərindən on illər keçdikdən sonra yaşadığımız çağlarda ədəbi prosesə ümumən nəzər salan, onun inkişaf qanunauyğunluqlarını diqqətlə izləyən hər bir qərəzsiz təfəkkür sahibi təsdiq edə bilər ki, altmışıncılar bu böyük missiyanı uğurla yerinə yetirmişlər. Avtoportret təsiri bağışlayan «Adi insan» şeirində Fikrət Qoca altmışıncıların yaradıcılığında əsas yer tutan adı, sıravi insanı ümumiləşdirməyə, ondakı böyüklüyün mahiyyətini açıqlamağa uğurlu bir təşəbbüs göstərmişdi: «Bir içimlik su deyiləm içiləm, bir aşırım yol deyiləm birnəfəsə keçiləm. Düzdü, adi insanam, sənin boyda deyiləm ki, kiçiləm. Adi insan olmaq özü böyüklükdür, qardaşım. Bu adı daşımaq özü bir insan ömrü üçün böyük yükdür, qardaşım!». Şairin bu misralarındadır insan.

Fikrət Qoca tərcümələri ilə də tanınır. O, Lermontovun, Şevçenkonun, Mecelaytisin, İ.Voklerin, X.Risalın və başqalarının əsərlərini yüksək səviyyədə tərcümə etmişdir. Lirik şeirlərlə yanaşı iri həcmli poemaların, nəsr əsərlərininhekayələrin, roman və povestlərin də müəllifidir. O yaratdığı nəsr əsərlərində də insan psixologiyasını, baş verən həyat hadisələrini qələmə alıb. O, «Dəniz altındakı xatirələr», «Qoca söyüd də yıxıldı», «Kələfin ucu», «Mavi dünyanın adamları», «Taleyin ağır taleyi», «Ölüm ayrılıq deyil», «Qar əriyəndə», «Hələlik, qiyamətəcən» və digər nəsr əsərlərini yazmışdır.

Fikrət Qoca gənc yaşlarından ədəbi orqanlarda məsul vəzifələrdə çalışmışdır. «Azərbaycan gəncləri» qəzeti redaksiyasında şöbə müdiri, uzun illər «Qobustan» jurnalının baş redaktoru olmuşdur. 1997-ci ildə Azərbaycan Yazıçılar Birliyinin katibi, 2004-cü ildə birinci katibi seçilmişdir. Öz təşkilatçılıq fəaliyyəti ilə də böyük nüfuza malikdir. Xalqımız, dövlətimiz onun əməyini yüksək qiymətləndirmiş, ədəbiyyatımızın inkişafında xidmətlərinə görə Azərbaycanın ən yüksək fəxri adlarından biri olan «Xalq şairi» adına layiq görülmüşdür. Əməkdar incəsənt xadimi, Xalq şairi Fikrət Qoca «Şöhrət ordeni» ilə də təltif edilmişdir.

Son illərdə şairin latın qrafikasıyla çap edilmiş altı cildlik əsərləri də Azərbaycan ədəbiyyatına zəngin töhfədir.

İnsana, həyat hadisələrinə münasibət cəhətdən poeziyamızın qarşısında duran vəzifələrin öhdəsindən məharətlə gələn Fikrət Qocanın şeirlərində müasirlik güclüdür. Onun insan, təbiət gözəlliklərini tərənnüm edən lirik şeirləri ilə yanaşı, həyat həqiqətlərini, olum, ölüm, ömür yükü, ehtiyac üzüntülərinin zərif insan qəlbində yaratdığı qüssə, kədər motivli şeirləri yaşadığı bir ömrün anlarıdır. Onun poeziyası məhz buna görə bizə xoş təsir bağışlayır ki, qələmə aldığı hadisələr bizim gündəlik rastlaşdığımız, gördüyümüz reallıqlardır. «Ömründən anlar» insanları bir-birinə bağlayan duyğuların şair qəlbində poetik ifadəsidir. Ömrün enişli-yoxuşlu yollarında şairin gözləri qarşısında şöhrət dənizində üzənlər də var, ehtiyac içərsində yaşayıb, gündə yüz yol üzü danlanan insanlar, sıxıntılar içərisində göynəyən qəlblər də var, hər cür çətinliklər qarşısında dağ vüqarını ayaqlar altına atmayan, şəxsiyyətini, ləyaqətini dünya varından uca tutan da var, yaltaqlıq edib öz şəxsi mənafeyi naminə ayaqlar altında öz mənliyini əzənlər də var, övlad yolunda, onun xoşbəxt, sağlam böyüməsi naminə şam kimi əriyən valideyn də var, torpağı yolunda canından keçən əsl vətəndaş, əksinə onu satan vətən xaini də var. Və bütün bu reallıqları biz insanlar yaşayırıq, görürük. Fikrət Qoca qələmində bu reallıqlar poetikləşərək bizə qaytarılır, insanı öz əməlləri qarşısında düşünməyə, təmizlənməyə, özünütərbiyəyə, əməllərini yenidən götür-qoy etməyə, gələcək nəsillərə örnək olmaq üçün özünüdərkə çağırır. O, insanları düşünməyə, bir-birinin qədrini bilməyə, vətənpərvərliyə, saflığa, səmimiyyətə, bütünlüklə bəşəri duyğularla, nəcib əməllərlə köklənməyə səsləyir.

Fikrət Qoca müasir Azərbaycan poeziyası 60-cılar nəslinin ən ləyaqətli sənətkarlarından biridir. Çox zəngin ədəbi irsin sahibi olan sənətkarımızın dərin məzmunlu əsərləri haqqında ədəbiyyatşünaslarımız, tənqidçilərimiz, şairin qələm dostları onun poeziyasının, böyük ictimai məzmunlu nəsr əsərlərinin, dərin fəlsəfi estetik görüşlərinin təsir gücü haqqında yazmış, yaradıcılığının müxtəlif sahələri haqqında qiymətli fikirlər söyləmişlər.

Bu gün Fikrət Qocanın müraciət etdiyi mövzuların bəşəriliyinə nəzər saldıqda inanırsan ki, o, zamanın şairidir. İkinci Dünya müharibəsinin qanlı-qadalı, faciəvi illəri-o müharibənin getdiyi torpaqların sinəsində açdığı yaraları Fikrət Qoca «Xatın kəndi» şeirində daha təsirli şəkildə, müharibəyə nifrət hissilə qələmə alır. Gördüyü «dəhşətlərdən daşa dönüb zaman» «yatmış bu torpaqda».

Viranələr bayquşunun
Ən möhtəşəm sarayıdır
Yandırılmış Xatın kəndi.

O, Xatın kəndində öldürülmüş, yandırılmış insanların xatirəsini əbədiləşdirmək üçün məzarlar üzərinə qoyulan mərmərləri günahsız qurbanların «daşa dönmüş harayı» bilir.

Fikrət Qoca «Telefonla söhbət» şeirində Yer kürəsini «xəstə» kimi oxucu qarşısına çıxarır:

Alo! Təcili yardım,
Kömək eləyin!

Bu misradakı tələşi, həyəcan təbilini çalan şair onun xəstəliyini «Nüvə silahı»nın başının üstdən asılmasında, «bir ayağı qəbirdə» olmasında görür. O, həyəcan təbilini çalan, onu qurtarmağa çalışan «günahlı-günahsız bütün canlıların yaşamaq həvəsi»dir.

Zamanın gərgin, psixoloji portreti qarşımızdadır. Yer kürəsinin simasında, çaldığı həyəcan təbilində insan var.

Yer kürəsi də yaşamaq istəyir. O da fırlanır. Başına gətiriləcək müsibətlərdən xəbərsiz «fırlanır». Özünü «günə verən» Yer kürəsinin taleyinə yanım var şairin bu misralarında.

«Dünyadan bir Araz axır» şeirində dünya mövzusunda öz millətinin, xalqının dərd-sərini çözələyir, çəkdiyi ağrıların, acıların verdiyi əzabları ifadə edir. «Araz xəstəliyi» dünyanın xəstəliyidir, insan canında, taleyində oturub gücü çatan bu zərif, incə məxluqatı iynələyir, göynədir. Şair ikiyə bölünmüş-Azərbaycan taleyini yaşayan ölkələrin, xalqların dərdini qələmə alır. «İki qaşım arasından, iki gözüm arasından Araz axır»-deyən şairə görə bir üzü od, bir üzü su olan Araz Vyetnam elindən, Koreyadan axır, «keçidlərlə damğalanmış hər tindən Araz axdığını, dünyanın yarısında «Araz xəstəliyi»nin olduğunu onun ağrısını, acısını yaşamış, yaşayan bir elin övladı kimi duyub qələmə alır. Araz xəstəliyi insan ömründən bac alır. Həsrət, hicran, qürbət dərdələm, ayrılıq xəstəliyidir. İnsana səadət, xoşbəxtlik vermir. Sinələrdəki ən şirin arzularda bir Araz xəstəliyi var. O Araz «əsrimizdən axır», axır, axır, ancaq «axmayacaq bir zaman». Burada şair insan qəlbini dünyasının ədaləti-ədalətsizlikləri içərisində iynə ucu qədər də olsa göstərdiyi ümidin arxasınca yollayır. Bax bu «axmayacaq bir zaman», şairin ümidləri, arzuları, gələcəyə nikbin baxışlarının səsidir. Şairin lirik qəhrəmanı inanır ki, ikiyə bölünən, sinəsində ayrılıq, həsrət körpüsü salınan Arazlar «axmayacaq bir zaman».

Şair dünyasını azad, insanlarını xoşbəxt, dünyanı sərhədsiz, millətləri, dövlətləri bir-birinə iddiasız, dost, qardaş görmək istəyir. O, «Araz xəstəliyi»ni ürəyində gəzdirən bir torpağın övladıdır və taleyi vətənin taleyinə bənzəyən öl-

kələrin vətəndaşlarının dərdini-sərini yaxşı başa düşdüyündən onları da özü kimi xəstə görmək istəmir. Dünya bəşər övladının məskənidir. Hər kəs qismətinə düşən torpağa, sərvətə qane olmalıdır. Özgə malına göz dikməməlidir. Nəfsinin əsiri olmamalıdır. Nəfsini özünə əsir etməlidir. Dünyanın gözəlliklərini duymalıdır insan, o gözəlliklərdən zövq almalıdır. Beş günlük dünyadan nə aparacağını da gözəl bilən insan düşünməlidir, hərəkətlərinə, əməllərinə cavabdeh olmalıdır.

Fikrət Qoca yaradıcılığında mövzu çoxdur. Biri o birini təkrar etməyən ideyalarla, məzmunla zəngindir. O, sənətkar, şair haqqında əsl sənət adamı kimi danışır, sənətkar qəlbinə, sənətkar düşüncəsinə, duyğu və hisslərinə dərindən bələddir. O, böyük sənətkarların yaşadığı hissləri gözəl başa düşür. Nəsimiyə, Nəimiyə, Məhəmməd Füzuliyə və digər sənətkarlarımıza münasibətində şair taleyi haqqında düşünəndə damla-damla əriyir:

Şairlik ən böyük dərddi.
Böyük dərdi olan kəslər
Ölür can qurtarır barı.
Böyük dərdli şairləri
Ölməz yaradıbdı Tanrı,

-deyir. Bu deyimdə «böyük dərdli şairləri» dedikdə dünyanın dərdini, kədərini öz şəxsi dərdi kimi qəbul edən, qeyri-bərabər hüquqlu cəmiyyətdə əzilən, məhv olan, arzu və istəklərinə qılınc çəkilən insanların mənəvi, cismani, ağrı-acılarını onlar kimi yanaşmağı bacaran, qəflət pərdəsini gözlər qabağından götürmək istəyən, bu istəklə mübarizə meydanına atılan cismən, mənən şam kimi dərd əlində əriyən Füzuli də, dərisi soyulan Nəsimi də, Həllac Mənsur da, Nəimi də, neçə-neçə dahi şəxslər də yada düşür. Bəşər dər-

dini, sevgisini yaşadan misralarında, əsərlərində şair gördüyü böyüklüyü, yüksəkliyi duyur. Bu duyumda sevgi, hörmət, sənətə, sənətkara ustad gözüylə baxmaq F.Qoca yaradıcılığında əsasdır.

Fikrət Qocanın «Cənnətdən qovulanlar» əsərində toxunduğu məsələlər çoxdur. Bu əsər bir həyat fəlsəfəsi, insan fəlsəfəsi, vətən, millət fəlsəfəsi, humanizm fəlsəfəsidir. Bu əsərdə bütöv Azərbaycan eşqi var, o tayda-Güneyimizdə gedən milli azadlıq hərəkatına rəğbət var, bu azadlıq hərəkatının verə biləcəyi səadətə, xoşbəxtliyə inam var:

Orda böyük Azərbaycan tarixi yazılır.
Qanla yazılır.
Tariximdən qara ləkələri yuyur qan.
Farsın hökmranlığından,
mənim əsarətimdən gedir zaman.
Lap yaxındadır o gözəl gələcək….

Özünü dağa, daşa, oda, suya vuran şair o taylı, bu taylı, Qarabağlı, Zəngəzurlu, İrəvanlı, Göyçəli bir Azərbaycanını «cənnət» adlandırır və özünü, millətini cənnətdən qovdu Allah «Azərbaycan kimi bir cənnətə doğru»-deyir və bu vətənin qədrini bilməyə çağırır millətini, torpağını sevənləri-Azərbaycan vətəndaşını!

Fikrət Qocanın ədəbiyyata gəldiyi illər Azərbaycan nəsrinin sürətlə inkişaf etdiyi bir dövr idi. Müharibə, onun dəhşətləri, xalqların faşizmə qarşı nifrəti, müharibəyə düçar olan torpaqlarda faşizmə qarşı aparılan partizan hərəkatı, ön cəbhə, arxa cəbhədə olan insanların faciəli həyatı, qələbəyə inam üstündə köklənmiş xalqların dəyanəti, əzmkarlığı və s. mövzular bu illərdə yaranan nəsr, şeir, dram əsərlərinin əsas mövzularını təşkil edirdi.

Azərbaycan nəsri, Azərbaycan hekayəsi öz rəngarəngliyi ilə diqqəti cəlb etmişdir. M.Hüseyn, M. İbrahimov,

İ.Hüseynov, Ə.Məmmədxanlı, Mir Cəlal, Ə. Ələkbərzadə, Ə.Vəliyev, İ.Şıxlı, İ.Əfəndiyev, İ.Hüseynov və b. adını çəkmədiyimiz onlarla nasirimiz cəmiyyətdə baş verən hadisələri, yenilikləri özündə əks etdirən gözəl nəsr nümunələri yaratmışdılar.

Fikrət Qocanın «Qoca söyüd də yıxıldı», «Bir gecə» və başqa hekayələri, «Dəniz altındakı xatirələr», «Qar əriyir», «Mavi dünyanın adamları» povestləri, həmçinin «Taleyin ağır taleyi» romanı… psixoloji səpkidə yazılmış əsərlərdir…

Ümumiyyətlə, F. Qocanın nəsr əsərlərində belə bir xətt daha qabarıq nəzərə çarpır: müasir dövr keçmişlə üz-üzə qoyulur, burada qarşılaşdırma yox, sadəcə olaraq ayrı-ayrı dövrlərin və hər dövrün yetirməsi olan insanların psixologiyası araşdırılır.

F.Qocanın nəsr əsərlərinin hər biri zərurətdən yaranıb.Və həyatda baş verən bu prosesləri ancaq nəsr dili ilə vermək olardı.

Nizami Cəfərov yazır: «Bizdə ədəbi inkişaf elədir ki, nəsr təfəkkürü ardıcıl olaraq şeir təfəkküründən qidalanır. Lakin Fikrət Qocanın poetik marağı elədir ki, bir sıra hallarda nəsr materialına da nüfuz edir, poeziyada nəsr kökündə də düşünür, eksperimentlər aparır, bütün eksperimentlər isə əsas bir məqsədə-klassik normativliyi zədələmədən şeir təfəkkürünün hüdudlarını genişləndirmək məqsədinə xidmət edir»

Fikrət Sadıq gənc yaşlarından şeirə, ədəbiyyata həvəs göstərmiş, şeirlər yazmış, univesitetdə oxuduğu illərdə mətbuatla yaxından əlaqə saxlamış, universitetin nəşriyyatının buraxdığı almanaxlarda şeirləri ilə çıxış etmiş, 60-cılar nəslindəndir.

İlk şeri 1946-cı ildə Bakıda «Azərbaycan gəncləri» qəzetində dərc olunan «Bahar» şeri idi. «Cığır» (1963), «Ömrün bir günü» (1965), «Dəniz küçəmizə gəlir» (1968), «Sevgi yağışı» (1970), «İşığın yaşı» (1974), «Ağ cığır» (1979), «Yerdən göyə ümid» (1981), «Məndən soruşsalar» (1985), «Dünya öz işindədir» (1989), «Seçilmiş əsərləri» (1991), «İşlə ev arasında» (1997), «Gözlədiyim ömür», «Taleyin acığına» (2003) və s. kitabların müəllifidir.

Sonrakı illərdə şair bütün ömrünü yaradıcılığına bağlamış, otuzdan çox kitab nəşr etdirmişdir. O, nəsr sahəsində də qələmini sınamış «Xırdaca gəlin», «Daş balkon», «İlk məhəbbət haqqında daha bir hekayə», «Sinif-sinif oyunu» və s. hekayələrini yazmışdır.

Fikrət Sadıq qələmini publisistika sahəsində də sınamış uğurlu nəticələr əldə etmişdir. Belə ki, onun yazıdığı bu ədəbi-bədii publisistik yazılar ədəbiyyatımızın düzgün inkişafı məsələlərilə, bir çox sənətkarların ədəbi-bədii yaradığıcılığı haqqında dəyərli fikirlərlə zəngindir. «Məmməd Arazdan yeddi söz», «Müşfiqin işığında yol getmək olar», «Adını de, səni tanıyım», «Ümmandan damla», «Rəsul Rza», «Vətənə qayıt», «Balaş Azəroğlu», «Xəlil Rza kimdir?», «Söz haqqında söz», «Təbiəti qoruyun» kimi çoxlu sayda publisistik yazıların müəllifidir.

Uşaqlar üçün bir-brindən mənalı əsərlər yazmışdır. O, «Cırtdan hara getmişdi» (1970), «Bala kirpi» (1972), «Göydə nə var» (1978), «Göydən alma düşmədi» (1982), «Gəlin dənizi yuyaq» (1988), «Şeirli əlifba» (1988), «Bir parça vətən» (1998) kitabları ilə uşaq ədəbiyatını daha da zənginləşdirmişdir. «Yumaq top» Bakıda Kukla teatrında, «Bir parça vətən»-Bakıda, Gənc Tamaşaçılar teatrında, «Oğul»-Şamaxıda, «Biri vardı, biri yoxdu»-(Alp Ağuz) Lənkəranda tamaşaya qoyulmuşdur. «İçəri şəhər», «Naxçıvan-50», «Süleyman Rüstəm» sənədli filmlərinin «Cırtdanın yeni sərgüzəştləri» cizgi filminin ssenarilərini yazmışdır.

Şairin əsərləri dünyanın bir çox dillərinə də tərcümə edilmişdir. «Raneniye doma» (1970), «Veçernaya pesnya» (1974), «Semisvetni klubok» (1981), «Nadejda ot zemli do neba» (1995), «Belaya tropa« (1995), Ukrayna, rus, belarus, eston, litva, qazax, özbək, macar və digər dillərdə tərcümə olunmuş şeirlərin müəllifidir.

Fikrət Sadıq Rəsul Rza məktəbinin layiqli davamçısı və özündən sonra gələn qələm sahiblərinə bu şəffaf yolun bənzərsizliyini aşılamış qələm sahibidir.

Cabir Novruz istedadlı lirik şairdir. 60-cılar nəslinin görkəmli nümayəndəsidir. Sözlərinə bəstələnən nəğmələr çoxdur. «Mənim muğamatım», «Həyat sən nə qəribəsən», «Vətən əbədi qoruqdur», «Özünü qoru, xalqım», «Ömür keçir karvan kimi», «Nə qədər ki, sağam», «Anam vardı, dünyam vardı», iki cildlik «Seçilmiş əsərləri» kimi iyirmidən çox kitabın müəllifidir. Dünya xalqlarının əsərlərindən etdiyi tərcümələr onun tərcümə sahəsində qazandığı uğurlardır. Əsərləri keçmiş SSRİ xalqlarının, eləcə də bir sara dünya xalqlarının dillərinə tərcümə olunmuşdur.

Əli Kərimin orijinal yaradıcılıq, deyim, üslub tərzi var. «Azərbaycan» jurnalında ədəbi işçi kimi əmək fəaliyyətinə başlayan şair, ömrünün sonunadək bu jurnalda işləmiş, poeziya şöbəsinə rəhbərlik etmiş, az ömrünü ədəbi-bədii yaradıcılığa həsr etmişdir, 50-60-cı illər poeziyasının inkişafında xüsusi xidmətləri var. 1948-ci ildə «Azərbaycan pioneri» qəzetində çap edilən «Təzə müəllim» şeiri ilə ədəbiyyata gələn Əli Kərimin ilk kitabı 1958-ci ildə Azərbaycan ədəbiyyatı dekadası münasibətilə Moskvada buraxılan «İki sevgili» kitabıdır. «İlk simfoniya» (1957) poeması 1957-ci ildə Mos-

kvada keçirilən tələbə və gənclərin VI Ümumdünya festivalında mükafata layiq görülüb. «İki sevgi» (1960), «Həmişə səfərdə» (1963), «Qızıl qanad» (1965), «Qaytar ana borcunu» (1970), «Uşaqlar və ulduzlar» (1971), «Səfərdən sonra» (1972), «Pillələr» (1978) kitabları nəşr olunub. Ölümündən sonra «Seçilmiş əsərləri» 2 cilddə (1974-1975), «Qayıt» (1983) kitabları çap olunub. «Həyat faktlarına xüsusi poetik yanaşma, onlar üçün xüsusi poetik mühit yaratmaq üsulu» onun həm lirik, həm də irihəcmli əsərlərində əsas olduğu bildirilir. Müharibə mövzusunda yazdığı əsərlərdə, ürəyəyatımlı uşaq şeirlərində də bu əsasdır. Əli Kərimin nəsrində də Əli Kərim özünəməxsusluğu əsasdır. Onun həm nəsrində, həm də poeziyasında mövzu rəngarəngliyi, sənətkarlıq keyfiyyətləri yüksəkdir.

Xalq şairi Qabil ədəbiyyatımıza müharibədən sonra gəlib. Onun şeirlərində «vətəndaş hissiyyatı, vətəndaş qüruru» əsasdır. Qabil sözünü birbaşa, müstəqil deyən, düşündüklərini söyləyən şairdir. O, poeziyamıza gəldiyi gündən şeirləri ilə hay-küysüz, sakit, təmkinli, həlim, zərif və xəfif bir poetik titrəyiş gətirmişdir.

Təbiət, onun nemətləri haqqında («Gül bayramı», «Şofer və sükut», «Qara şanı», «Bir bülbül oxuyur» və s.), gözəl poetik deyimləri, çörəyə, anaya, vətənə səcdə edən şairin bu üç məfhumda kainatı, həyatı, yaşamağı, namus və qeyrəti» gördüyünü ifadə etdiyi («Yer oğlu», «Mənim romantikam», «Pullar və düşüncələr», «Azad nəfəs» və s.) şeirləri bir daha aydın göstərir ki, Qabil sənətkardır. Onun «Səhər açılır». «Bol məhsullu tarlada», «Sahil işıqları», «Mənim mavi Xəzərim», «Nəsimi», «Nağaraçı», «Təmizlik», «Rübailər» kimi 30-a qədər kitablarında toplanan əsərləri hüdudsuz müşahidələrinin məhsuludur.

Qabil yazdığı «Nəsimi» poemasında orta əsrlər dövrünün qüdrətli şairi, hürufi şairi, böyük fəlsəfi düşüncələr sahibi, mütəffəkkir şair Nəsiminin obrazını böyük sənətkarlıqla yaratmışdır. Onun müraciət etdiyi mövzularda lirik-publisistik düşüncələri «fəlsəfi ümumiləşdirmə səviyyəsinə» qalxdığı, müasirlərindən mənəvi bütövlük, insanlıq, müdriklik tələb etdiyi bildirilir.

Əliağa Kürçaylının «Seçilmiş əsərləri», «Durnalar Cənuba uçur», «Yollarda axtar məni», «Dünya ovucumdadır», «Həyat dolayları», «Bütövlük», «Ülkər» kitablarında yüzlərcə lirik şeir və poemaları toplanmışdır. Onun lirikasında ictimai-siyasi səpkili şeirlərlə yanaşı, müharibə, saf duyğular, təbiət mövzuları öz poetik ifadəsini tapmışdır:

Sevgidən danışan şeirlərimi,
Dostlarım, yazmayın mənim adıma.
Düzü, sevməmişəm mən sizin kmi,
Gizli görüşlər də gəlmir yadıma.

Məhəbbət yaşına girdiyim ildə,
Bizim eşqimizi mərmilər dedi.
Məhəbbət təşnəsi ağız da, dil də,
El-oba dardadır kim sevər,-dedi.

-misralarında müharibənin o dövrdə yetişən gəncliyə vurduğu mənəvi yaralar, iztirablar əsasdır.

Ə.Kürçaylının «Boşanaq, evlənərik», «Nənəmin şahlıq quşu» komediyaları, uğurlu tərcümələri onun bədii axtarışlarının məhsuludur. 20-yə qədər çap olunmuş kitablarında toplanan şeirlərində müasir mövzular əsasdır. Ə.Kürçaylı Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Yazıçılar İttifaqında dram şöbəsinin rəhbəri, «Azərbaycan» jurnalının məsul katibi, «Yazıçı» nəşriyyatında baş redaktor olmuş, yara-

dıcılığının çiçəkləndiyi bir vaxtda dünyasını dəyişmişdir. Az ömründə bədii imkanları yaratdığı əsərlərdə özünü bariz şəkildə göstərir.

Əli Tudə ədəbiyyata onlarla eyni vaxtlarda gələn şairlərimizdən biridir. M.Gülgün, B.Azəroğlu, S.Tahir kimi onu da tanıyanlar ədəbi irsini, həyatını, mühitini gözəl bilənlər onu vətən və yurd zirvəsinə yüksələn bir «Azadlıq aşiqi» kimi qiymətləndirir və onu XX əsrin söz və əməl qəhrəmanları ilə müqayisə edir. Şairi çox haqlı olaraq Şandor Petefi, Pablo Neruda, Nazim Hikmət, Musa Cəlil ilə bir sırada görürlər. Onun varlığında, qanında-canında, həm də xalqımızın böyük şəxsiyyətlərinin-Səttarxan, S.C.Pişəvəri, Ş. M. Xiyabaninin Azadlıq və İstiqlal ruhu çırpınırdı.

40-dan çox kitabı çap olunan Əli Tudənin «Cənub nəğmələri», «Bakının işıqları», «Vətən sevgisi», «Şimal həsrəti», «Şeirlər», «Seçilmiş əsərləri», «Sevinc», «Gecikmiş vüsal» və s. bədii sənətkarlıq cəhətdən qüvvətli əsərlərdir.

Əli Tudənin «poeziyası düşündürücü, heyrətləndirici poeziya»dır. Bu poeziyada insan, həyat, varlıq, Vətən, Ana dili, Azadlıq, İstiqlal kimi məfhumların fəlsəfi tərəfi, sirli-soraqlı məzmunu açılır və ustad bir şairin təfəkküründə mənalandırılır. Bu baxımdan şairin bütöv bir silsilə təşkil edən dördlükləri ayrıca qeyd olunmalıdır. Bu dördlüklərdə xalqımızın bayatı yaddaşı, rübai hikməti, ustadnamə siqləti məharətlə sintezləşdirilmişdir:

Sənətkar ilhamla silahlananda,
Gözəl əsir olur kin də ürəkdə.
Əqidə inamla silahlananda
Milyona çevrilir min də ürəkdə.

Həyatda nə varsa Azadlıq dilər.
Sanma elə-belə axar göz yaşı.

Yox! Qara bəbəyi oduyla dələr,
Sanki Azadlığa çıxar göz yaşı.

Arzu bir dənizdir, fırtınası var,
Ancaq hardasa sahili yoxdur.
Hansı arzunun ki, təmənnası var,
Səmimiyyət adlı mənzili yoxdur.

Şeirlərində qoyulan problemlərin müasirliyi də tənqidçilərin diqqətindədir. «Əli Tudə sözün həqiqi mənasında müasir şairdir; dövrün ən ümdə problemləri, çağdaş məsələlər, aktuallığını heç zaman itirməyəcək mətləblər onun şeir rübabının şah pərdəsində vüqarla səslənirdi. Şair hətta tarixdən, keçmiş əfsanələrdən yazanda da onu bu günlə, müasirliklə üzvi şəkildə əlaqələndirməyi bacarır, onlara məhz bu günün nəzərləri ilə baxırdı... Onun onlarca şeir kitablarında toplanan silsilə şeirlərinin başlıqlarını sadalasaq belə onun maraq dairəsi, tematikası, zövqü, duyum və deyim tərzi, dünyagörüşü, psixologiyası, şəxsiyyəti haqqında müəyyən təsəvvür yaratmaq mümkündür» (C. Abdullayev).

Ə.Tudənin yaradıcılığı Vahid Azərbaycanın «dünəni, bu günü və sabahı» kimi dəyərləndirilir. Əsas məbədi Bütöv Azərbaycan torpağı olan Ə. Tudə şeirinin əsas «qibləgahı» bütün şairlərimiz kimi Azərbaycandır:

Azərbaycan bu dünyada
Şərqin məğrur qartalı!
Fəqət qoşa qanadları
Bir-birindən aralı.

O qanadlar birləşəndə,
Çaxacaq şimşək kimi.
Bir bayrağa çevriləcək

Ən böyük dilək kimi.

Azərbaycanın bütün ziyalıları ikiyə bölünmüş Azərbaycanın taleyi ilə barışmayıb. M.F.Axundovdan üzü bəri bütün ziyalılarımız cənub-şimal dərdli olub. M.Ə. Sabir, C.Məmmədquluzadə, N.Nərimanov və onlardan sonra gələn nəsillər bu gün də böyük nisgillərini ifadə etməklə ikiyə bölünmüş bir xalqın həsrət, hicran, ayrılıq dərdindən, vüsal həsrətindən ədəbiyyatımızda epopeya yaradıblar, yaratmaqdadırlar. Hər biri 200 ildir bu həsrəti yaşayır, yaradır şeirlərində... Hər yazıçı bu böyük nisgili bir cür ifadə etməyə başlamışdır, kimi özünə təsəlli taparaq o taydan bu taya Mustafa Payan oxuyur Vahidin qəzəllərini,-dedi. «Gülüstan» yazdı; başqa biri bu dərdi Xudafərin körpüsü, Araz çayı ilə əlaqələndirdi, onları təqsirləndirdi, xalqımızın taleyinə fələyin qıyqacı baxışı ilə bağladı; bir başqası sərhəd payalarından birinin göyərməsi və öz salxım budaqlarını gah o taydan bu taya, gah bu taydan o taya sərməsi ilə bağladı. Əyilib o tayı öpürdü söyüd, əyilib bu tayı öpürdü söyüd... Min arzu, min xəyal, min dadlı istək»lər hələ də yaşayır bu yaranan əsərlərdə... Nə qədər Azərbaycan şairi, sənətkarı var, onda vətən yarasının gözü bağlanmır, o yara işləyir ürəklər göynəyəcək, qələmlər işləyəcək.

Şimali Azərbaycanın taleyinə düşən işıq, nur o tayın ürəyində ümid çırağını sönməyə qoymayacaq. Çünki Şimali Azərbaycan dövlətinin rəhbərliyi o taylı bu taylı Azərbaycana, onun mədəniyyətinə, ədəbiyyatına müqəddəs hisslərlə yanaşıb. Ulu öndərimiz Heydər Əliyev Şəhriyar irsini Azərbaycan ədəbiyyatının zəngin xəzinəsi kimi dəyərləndirirdi. Onun böyük sənətkar olduğunu, «klassik-romantik poeziyanın mütərəqqi ənənələri ilə bədii ünsiyyətini qoruyaraq dövrünün novator şairi kimi çağdaş şeirin inkişafında müstəsna rol oynayan yeni ədəbi məktəbin yaranmağına»

nail olduğu fikrini alimlərimiz Şəhriyar kimi Səhəndə, Əli Tudəyə və başqalarına da aid edir. Heydər Əliyevin cəsarətli addımlarının nəticəsidir ki, Sovet imperiyasının hegemon siyasətinin hökm sürdüyü bir dövrdə o taylı bu taylı Azərbaycanını sevən sərkərdə, dövlət başçısı Cənubi Azərbaycanın mədəniyyətinə, ədəbiyyatına qayğısını əsirgəməmiş, Mərkəzi Komitənin I katibi olarkən Azərbaycan Yazıçılar İttifaqında ayrıca bir şöbə yaratdırmış, Balaş Azəroğlunu bu şöbəyə müdir təyin etmişdir.

«Ay işığında», «Bulaq», «Həyat şirindir», «Mənim yolum», «Əmanət», «Ata», «Ölümdən güclü», «Azad qardaşım var», «Döyüş lövhələri», «Sevgi əfsanəsi», «İki dəfə yox olmuş adam», «Lirika», «Vətən səni çağırır», «Sonuncu şah», «Ata» (poema-epos) I, II kitab və s. 30-dan çox kitabların müəllifi, Azərbyacan-o taylı bu taylı Azərbaycan-bütöv Azərbaycanın xalq şairi Söhrab Tahir yaradıcılığı vətən, onun tarixinə, kökünə, mənəvi dünyasına bağlıdır.

Söhrab Tahir Güneyli, Quzeyli Azərbaycanın taleyüklü məsələləri ilə yaşayan, yaradan ədibdir, şairdir. Azərbaycan xalqına, vətəninə, dilinə böyük məhəbbətlə yanaşan, bu dilin incəliklərinə dərindən bələd olan, yaratdığı əsərlərdə bu saflığı qorumağa çalışan vətənpərvər ziyalıdır, dilinin keşikçisidir. Bütünlüklə yaradıcılığına nəzər saldıqda, onun əsərləri ilə tanış olduqda Azər adının boyuna, əqidəsinə biçildiyinə şübhə etmirik.

Xalqına, soykökünə, onun yaratdığı milli-mənəvi dəyərlərə sadiq qalan Söhrab Tahir xalqımızın mənşəyini, ilk məskən saldıqları əraziləri, onların qədim həyat tərzini milli varlığını dərindən öyrənmişdir. Çünki onun dediyi kimi, «Azərbaycan xalqının varlığı, etnogenizi ilə əlaqədar elmi kitablarla yanaşı şamanizm, zərdüştizm haqqında kitablar,

əsatir, əfsanə, dastan, nağıl, deyim və söyləncələr oxu»duqca, onun qədim varlığını özündə əks etdirən sənədlərlə, qəhrəmanlıq eposları ilə tanış olduqca «yavaş-yavaş dünyanın ən qədim, ən nəcib, ən döyüşkən, ən ləyaqətli və şücaətli xalqları olan türkdilli qəbilə, tayfa və ellərini, o cümlədən qədim Azərbaycan xalqının ən qədim tarixinin monumental mənzərələrini aydın şəkildə görməyə başla»mış və bunlar ona imkan vermişdir ki, milli-istiqlal hərəkatını özündə əks etdirən «Ata» kimi poema-eposu yarada bilsin.

Söhrab Tahirin qələminə məxsus olan, son illərdə yazdığı bu poema-epos xalq şeiri üslubunda yazılmış poetik bir əsərdir. Bizə bir çox tarixi həqiqətləri özündə əks etdirən Dədə Qorqud, Koroğlu kimi epos-dastanlar-xalq ədəbiyyatında, xalqımızın soykökündə duran oğuz tayfalarının həyat və məişətini özündə əks etdirən mənbələr məlumdur. Yaranan hər bir epos-dastan o xalqın milli bədii təfəkkürünün məhsuludur. Onlar cilalanıb qiymətli sənət əsəri kimi tanınana qədər uzun, tarixi bir inkişaf yolu keçərək daha da püxtələşmiş, bu keçimlərdə daha da cilalanmış, qiymətli sənət əsərinə çevrilmişdir.

Söhrab Tahirin yaratdığı «Epos» biçimlənmiş zəngin türk-azəri təfəkkürünün məhsuludur. Mayasını özündən əvvəl yaranan xalq eposlarından götürüb.

Şair öz arzularını, düşüncələrini, bu əsəri yazmaqda məqsədini «4-cü giriş» də Allaha müraciətində açıq bir poetik dillə bildirir. Türk xalqlarının ilkin dövrlərini, əsrlərin, illərin yaddaşına həkk etdiyi tarixini arayan, araşdıran şairin məqsədi minilliklərin içərisində itib-batmış, müxtəlif xalqların, dövlətlərin ərazisində bu günə qədər də mövcud olmaqda, qalmaqda olan türk mədəniyyət dünyasının yaşantılarını inkar etməyin mümkünsüzlüyünü, xalqının çox qədim köklü-köməcli bir xalq kimi lap qədimdən təşəkkül

tapıb, inkişaf etdiyini, tarixi, elmi araşdırmaların gəldiyi dəqiq qənaət zəminində poetikaya çevirmək, xalqına, eləcə də bütün dünyada türk dünyasının qədimliyini, ilkinliyini inkar etmək istəyən düşmənlərinə çatdırmaq, yalançı uydurma ideyalarla xalqının haqqını əlindən almağa çalışanları geri oturtmaqdır.

Allah kömək elə, yollar dumandır.
İtən tarixləri arayım, tapım.
Allah kömək elə mənə, amandır,
Haqqımı haqsızın əlindən qapım.

Böyük türk dünyasına qələmi ilə səyahətə çıxan şair ilk dövlətini, soyunu, kökünü üzə çıxarmağa çalışır. İlk inamını, Zərdüştizmin onun xalqına, vətəninə aid olduğunu, Allahı yaradıcı qəbul edən ilk din-inam meyarlarına söykənərək yaşayan, inkişaf edən, yaradan bir soya, millətə mənsubluğunu sübut etməyə çalışır və bununla fəxr etməkdə haqlıdır. Çünkü onun dili, mədəniyyəti, tarixi doqquz min ildən də qabaq yaranmış olsa da, o yaşayır. Onu yaşadan varisləri, bu dilin sahibi olan müasir türk xalqlarıdır. Xalqın varlığı elə tarixin özüdür. Xalq özü bu tarixi kitabı, min illərin, minilliklərin maddi və mənəvi mədəniyyətini yaşadır, qoruyur, cilalayır, püxtələşdirir. Dünya sivil mədəniyyət tarixinə bu xalq Dədə Qorqud, Nizami, Füzuli kimi böyük dühalar bəxş edib. Onlar öz kökü üstündə şaxələnib, qabiliyyəti, istedadının işığında yetişib. Hələ kağızlara köçürülməyib, sinədanlarında minilliklərin həyat hadisələrini yaşadan, qoruyan, istəyi düzlük, haqq-ədalət, insanlığa sevgi üzərində pərvəriş tapan, bu yolda çalışan, çarpışan Allah yolu tutan xalqımın parlaq, şərəfli əcdadlarından görüb, götürüb. Şeirə, sənətə, sözə, hikmətə tanrı hikməti, tanrının göndərdiyi qüdrət kimi baxan, insana, insan ağlına, zəka-

sına, istedadına yüksək qiymət verən bu xalqın övladıdır AzərAzər də. Onu yaşadan, qoruyan var:

Tanrımdır, xalqımdır, birdə ki, bəşər,
Ölümdən, itimdən gözləyib məni.

Yaradana yaxın, onu özünə əziz bilən, doqquz min ildir (bəlkə də daha çox) ki, düzlük yolunda əyrilərlə pəncəpəncəyə olan xalqının ilkin yaradılışının ən qədimliyini misralarında şair poetik dillə tərənnüm edir, onun həyat vəsiqəsini, həyata gəlişi, doğum vəsiqəsini yazır, aşağıdakı bu dörd misra özü yazılmamış təbiətin qanunları kimi, həqiqət ölçüsü kimi oxucunun diqqətindədir:

Göydən bir daş düşüb dənizə bir gün,
Qoşaboğaz dəniz dibdən alışıb.
Mən onda anadan olmuşam, oğul,
Taleyim o gündən onda qarışıb.

Dünya yaranandan türk-azəri deyilən bir xalqın mövcudluğunu bu gün özünün varlığında da duyan şair daş kitabələrin, «Qobustan nağılı» deyilən qayaüstü naxışlar, cizgilər, «Ana hökmdar», «Sevgi əfsanəsi», «Qızıl qan» deyilən yadigarların o əsrlərdən, minilliklərdən xəbər verdiyini, o minillikləri bü gün də özündə yaşatdığını, indiyə kimi nəsildən-nəslə ötürülərək saxlanılıb, kitablara çevrildiyini və özünün də onları gələcək nəsillərə çatdırma borcunu başa düşür. Yaratdığı «Epos»u xalqının, soyunun tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, onunla bağlı müxtəlif əsrlərdə deyilən qiymətli tarixi məlumatları, mənbələri, xüsusi ilə də sinədəftər xalqının keçdiyi həyat yolunu, həqiqətləri özündə yaşadan folklorunu dərindən öyrənməklə, ömrünün müdrik çağında əlinə qələm götürüb xalqının, millətinin dastanını yazmağa cürət edən, istədiyinə nail olan və bu yolda böyük bir sənət əsəri yaratmaqla indiyə qədər fikirlərini, yazdıqlarını bir nöqtəyə toplayıb xalq, vətən,

millət mənafeyini əsas götürən vətən ziyalısının öz ulusuna, uruq-turuğuna hörmət və məhəbbətin ifadəsi kimi qəbul etsək, onun gələcək nəsillərə soyuna, kökünə bağlılığa çağırışı kimi qiymətləndirsək, səhv etmərik.

Gülhüseyn Hüseynoğlu böyük Vətən müharibəsinin sonlarında ədəbiyyata gəlmiş, mənsur şeir müəllifi, Azərbaycan nəsrinin görkəmli nümayəndəsidir. Onun «Bir ömrün çıraqları», «Etiraf», «Nigarançılığın sonu», «Ay nur çiləyəndə», «Yanacaq üçün», «İnsan», «Gözəl», «Mücrü», «Seçilmiş əsərləri», «Ömrümüz boyu», «İnsanlar və dalğalar», «Qatar gedir», «Xəzərin qoynunda», «Poylunun gənc çobanı» oçerklər kitabı çap olunmuşdur. Onun yaradıcılığı üçün aparıcı janr mənsur şeirdir: «mənsur şeir dünya ədəbiyyatında nadir poetik janrlardan biridir. «Mənsur şeiri çətin janr sayanlar haqlıdırlar. Şeiri nəsrlə yazmaq xüsusi istedad tələb edir. Vəzn və qafiyədən başqa əsl şeirə xas bütün poetik incəliklər mənsur şeirdə də vardır. Əslində mənsur şeirin vəznə və qafiyəyə heç ehtiyacı da yoxdur. Bu janr bədii nəsrin qısalıq, lakonizm və az sözlə dərin məna ifadə edən məziyyəti ilə şeirin hikmətli sözlərlə, aforizmlərlə dolu lirik poetik vüsətini özündə birləşdirir» Bu janrda yazılmış əsərlərin özünü də, onların müəllifini də barmaqla saymaq olar... Azərbaycan ədəbiyyatında bu janrı G.Hüseynoğlu təmsil edir.

Xalq şairi Nəriman Həsənzadə yaradıcılığa lirik şeirlərlə başlamış, ədəbiyyatımızda, poeziyamızda lirik-dramatik poemalar, mənzum dramlar ustası olub, Azərbaycan tarixinin müxtəlif dövrlərini özündə əks etdirən əsərlərini qələmə almış, tarixçi-filosof, şair-filosof müdrikliyi ilə ədəbi yaradıcılığında tanınmışdır. Onun müasir mövzulara həsr olunan şeirlərindəki səmimilik, incə lirizm, ailə-məişət xa-

rakterli əsərləri «ən yeni dövr Azərbaycan poeziyasının uğuru» sayılır.

Xalq şairi Nəriman Həsənzadə orijinal poetik keyfiyyətə malik şairdir. Qorki adına Ədəbiyyat instututunda aldığı təhsil «onun poetik istedadının cilalanmasında, düşüncənin, ideyalarının daha da demokratikləşməsində» böyük rolu olmuşdur, dövrünün ədəbi mühitinə dərindən bələd olan lirik şairin 50-ci illərdə ilk kitabı nəşr olundu. «Dostlar gözləyir məni», «Qız ürəyi», «Hardasan» kiçik şeirlər kitabı ilə yanaşı mükəmməl yaradıcılıq keyfiyyətlərini özündə əks etdirən «Sizdən ayrılmadım», «Könlüm şeir istəyir», «Yadına düşəcəyəm», «Niyə demədiniz?», «Nəriman», «Zümrüd quşu», «Nabat xalanın çörəyi» və s. əsərlərin müəllifidir. «Mənim gecəm-gündüzüm», «Sən bağışladın», «Bir az möhlət istəyirəm ömürdən», «Fikir eləmə», «Kimin sualı var», «Seçilmiş əsərləri», «Bütün millətlərə» (1991), «Gəlimli-gedimli dünya» və s. kitabları Azərbaycan ədəbiyyatına qiymətli nümunələrdir. «Nabat xalanın çörəyi» povesti onun poetik düşüncələriylə zəngin nəsr əsəridir. Rus, alman, italyan dillərinə tərcümə olunmuş bu povest zəngin yaradıcılıq məhsuludur. N.Həsənzadənin tərcüməçilik fəaliyyəti də yaradıcılığında mühüm yer tutur. Onun rus, ukrayna, türkmən, çin, kalmık dillərindən tərcümələri yaxşı nümunələrdir.

N.Həsənzadənin yaradıcılığındakı «kövrəklik də, həsrət də, hicran da məhz onun ürəyindən süzülüb gələn poetik bir dillə ifadə olunduğu üçün oxucunu» düşündürür. Xəlil Rza yazır: «şair cəsurluğunun atributlarından biri səmimiyyətdir. Nəriman Həsənzadə təpədən-dırnağacan səmimi şairdir, onun daxilən işıqlı, mən deyərdim ki, günəşli poeziyasında bircə yad xala, ürəkdən qopmayan ifadəyə rast gəlmək çətindir».

Tədqiqatçı alimlər onun yaradıcılığını yüksək qiymətləndirir. N.Cəfərov fikirlərində haqlıdır ki, «şairlik N.Həsənzadənin stixiyasıdır-o təkcə şeirində, nəsrində, dramaturgiyasında deyil, adi məişətində də şairdir, yazanda da, yazmayanda da şairdir». Yaradıcılığındakı mövzu rəngarəngliyi insana ehtiram və məhəbbət konsepsiyası», təbiətin əsrarəngiz gözəlliyinə məftunluq, vətənə ülvi bağlılıq, qadın ləyaqətinə hörmət və s. N.Həsənzadənin şeirlərinin «ana xəttini» təşkil edir. Şairin beynəlxalq mövzuda yazdığı əsərləri oxucu kütləsinin sevdiyi əsərlərdir, bu əsərlərdə o, fərdi poetik ümumiləşdirmə tipinə malik təkrarsız bir şairdir. Siyasi lirika da onun yaradıcılığında əsas mövzulardandır. Məsələn, «Tarixdən imtahan götürmədilər» şeirində Sovet dövlətinin faciəli taleyi poetik şəkildə verilir:

Cırıldı, atıldı köhnə biletlər,
Dedilər ən böyük bir səhvimizi.
Tarixdən imtahan götürmədilər,
Yalan yazmışdılar tariximizi.

«Azadlıq», «Səadət», «Müqəddəs həyat»
İsim tək hallandı «Xoşbəxt diyar»da.
Yalana öyrəndi qara camaat,
Aldanıb aldatdı ziyalılar da...

Əsərlərində Cənubi Azərbaycan mövzusu da xüsusi yer tutur. Onun siyasi lirikasında da insan əsasdır. Dünya prosesləri, müxtəlif beynəlxalq problemlərin, siyasi-ideoloji münaqişənin predmeti insandır. O insanın taleyi millətinin taleyidir. O bir şair kimi dünyada zamanın ictimai-siyasi simasını ifadə edir.

Öz birliyini artırmağa, müşahidələrini zənginləşdirməyə, sənətin texnikasına get-gedə daha inad və təmkinlə

yiyələnməyə çalışan, hadisələrin üzdə görünən zahiri parıltılarını yox, mahiyyətini, nəticənin özündən çox onu doğuran səbəbi axtaran, yazıçılığın mürəkkəb və ağır zəhmət tələb etdiyini yaxşı anlayan, müasir ədəbi iqlimi şərtləndirən, bədii nəsrin əsas istiqamətlərini müəyyənləşdirən» yazıçılarımız Anar, Elçin, Ə.Cəfərzadə, M.Süleymanlı, İ.Məlikzadə, F. Kərimzadə və başqaları gəlirdi.

Anarın, Elçinin dramaturgiya, nəsr, tərcümə, ədəbi tənqid, publisistika sahəsində böyük xidmətləri var.

Ədəbi fəaliyyətə «Keçən ilin son gecəsi», «Bayram həsrətində» hekayələri ilə başlayan Anar yaradıcılıq prosesində böyük uğurlar qazanmışdır. «Yağış kəsdi», «Bayram həsrətində», «Ağ liman», «Molla Nəsrəddin-66», «Adamın adamı», «Macal», «Beş mərtəbəli evin altıncı mərtəbəsi», «Dədə Qorqud», «Sizi deyib gəlmişəm», «Dünya bir pəncərədir», «Seçilmiş əsərləri» (2 cilddə), «Seçilmiş əsərləri» 2 cilddə, «Sizsiz», «Şəhərin yay günləri», «Ağ qoç Qara qoç», «Seçilmiş əsərləri» (I-VII cild) əsərləri dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. V.Şekspirin «Fırtına» pyesini, K. Taqorun «Bağban» əsərini tərcümə etmişdir. 12 bədii filmin, ondan artıq sənədli televiziya filminin ssenari müəllifidir «Üzeyir ömrü», «Qəm pəncərəsi», «Dantenin yubileyi» filimlərinin quruluşcu rejissorudur. Rusiya, Türkiyə, İran, Almaniya, İsveçrə, Polşa, Macarıstan, Bolqarıstan, Özbəkistan, Tacikistan, Gürcüstan, Qazaxıstan və b. ölkələrdə 50-dən çox kitabı nəşr olunub. B. Brextin «Qalileo Qaliley» pyesini, A. Blokun, V.Mayakoviskinin, S.Yeseninin, B.Pasternakın əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Azərbaycanda və xarici ölkələrdə əsərləri haqqında yüzlərlə resenziyalar yazılmışdır. Yaradıcılığı geniş araşdırılmış, monoqrafiyalar yazılmışdır. «Kitabi-Dədə Qorqud» boyları əsasında «Dədə Qorqud» filminin ssenarisini yazmış və film

çəkilmişdir. «Dədə Qorqud» povesti, Dədə Qoqud dizi filmlərinin ssenarisini yazmışdır. Dədə Qorqud dastanları ilə bağlı elmi-nəzəri publisistik mülahizələri də qorqudşünaslığa dəyərli töhfələrdir.

Moskvada Ali ssenari (1962-1964) və rejissor (1970-1972) kurslarını bitirmiş, «Qobustan» jurnalının baş redaktoru (1968-1987), Azərbaycan Yazıçılar İttifaqının birinci katibi (1987-1991) olmuşdur. 1991-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir.

Anar ictimai xadim kimi 1995-ci ildə Azərbaycan Milli məclisinin deputatı, milli məclisin mədəniyyət məsələləri üzrə daimi komissiyasının, Azərbaycan-Türkiyə Parlament qurumunun sədri olmuşdur. Asiya və Afrika ölkələri ilə respublika həmrəylik komitəsinin sədri (1983-cü ildən), Azərbaycan-Türkiyə dostluq cəmiyyətinin (1993-cü ildən) sədridir. Keçmiş Ümumittifaq Yazıçılar İttifaqının İdarə Heyətinin katibi olmuşdur. Türkiyədə İstanbul şəhəri Memar Sinan Universitetində Azərbaycan ədəbiyyatı tarixindən mühazirlər oxumuşdur (1993), Beynəlxalq Dialoq Avro-Asiya təşkilatının sədri, Kinematoqrafçılar İttifaqı idarə heyətinin üzvüdür. Azərbaycan ədəbiyyatı və incəsənəti ensiklopediyasının (1993-cü ildən) baş redaktorudur. Dövlət onun fəaliyyətini yüksək qiymətləndirmiş, «Şərəf nişanı», «İstiqlal» ordenləri ilə təltif etmişdir. Türk ədəbi-mədəni əlaqələrinin genişlənməsində, Azərbaycan-türk ədəbiyyatının, mədəniyyətinin inkişafındakı xidmətlərinə görə üç dəfə (2000, 2002, 2003) Türkiyənin mükafatlarına layiq görülmüşdür.

Anar istedadlı nasir olmaqla yanaşı ədəbi tənqid sahəsində də dəyərli əsərlərin müəllifidir. Ölkəmizin ədəbi-mədəni həyatı, mədəniyyətimizin, ədəbiyyatımızın inkişafı ilə bağlı yazdığı yüzlərlə məqalələrdə o ən aktual məsələlərə

toxunur. «Dədə Qorqud dünyası» əsəri ən yaxşı tədqiqat əsəridir.

«Şairin hünəri» (Nəsimi), «Şairin zəfəri» (Xətayi), «Şairin kədəri» (Füzuli), «Sübhün zəfəri» (M.F.Axundov), «Zəfərin mübarək, Nazim» (N. Hikmət) «Anlamaq dərdi» (C.Məmmədquluzadə), Aşıq Ələsgər, Mikayıl Rəfili, Cəfər Cəfərov, Məmməd Arif, S.Vurğun, Ə. Məmmədxanlı, Nazim Hikmət, Sabit Rəhman, Əli Kərim, B.Vahabzadə, Y.Səmədoğlu, Fikrət Qoca, Məmməd Araz, Ramiz Rövşən haqqında, «İki dilin bir adı ola bilməz», «Mədəniyyət də istehkamdır, qaladır» və s.məqalələrində qoyduğu problemlər, irəli sürdüyü fikirlər maraq doğurmuşdur.

60-cılar nəslinin nümayəndəsi Azərbaycan bədii nəsrinin inkişafında böyük rolu olan sənətkarımız Elçin Əfəndiyev ədəbi fəaliyyətə «O inanırdı» hekayəsi ilə başlayıb. Dövrü mətbuatda hekayə, povest, romanlarıyla yanaşı, ədəbi-bədii məqalələri ilə müntəzəm çıxış edir. Eyni zamanda gözəl ssenarilər müəllifidir. Onun yazdığı ssenarilər əsasında beş bədii film çəkilmişdir. «Min gecədən biri», «Açıq pəncərə», «SOS» (povest), «Gümüşü, narıncı, məxməri», «Povestlər», uşaqlar üçün «Günay, Yalçın, Nigar, bir də Səlim» hekayələr kitabı, «Bülbülün nağılı», «Mahmud və Məryəm», «Seçilmiş əsərləri» (2 cilddə) nəşr olunub. «Beş dəqiqə və əbədiyyət», «Ağ dəvə», «Ölüm hökmü», «Ömrün son səhəri», «Məmmədəmin Rəsulzadə», «Bəstəkarın vətəndaş sözü», «Dəlixanadan dəli qaçıb», «Klassik aşıq poeziyasında dünya obrazı», «Humayın yuxusu», «Tənqid və ədəbiyyatımızın problemləri» monoqrafiya və məqalələri çap olunub.

Elçinin «Poçt şöbəsində xəyal», «Ah, Paris, Paris!», «Dəlixanadan dəli qaçıb», «Mənim ərim dəlidir», «Mən sənin dayınam», «Mahmud və Məryəm», «Ağ dəvə», «Şeks-

pir», «Arılar arasında» və digər pyesləri tarixi, yaxud çağdaş mövzuda yazılmasına rəğmən günümüzün sosial-mənəvi mənzərəsini cızır, özgürlük dövrü insanın içsəl dartışmALarını ortaya qoyur. Yazıçının nəsri və ədəbi tənqidi üçün də səciyyəvi olan aydın məntiq, milli gənələklərə bağlılıq, qabaqcıl dünya ədəbi proseslərinə bələdlik, aktuallıq onun pyeslərində də qabarıq duyulur. Onun istər Milli Teatr, istərsə də İstanbul Şəhər Bələdiyyə Teatrında uğurla səhnələşdirilən «Qatil» pyesi isə bütün türk xalqları teatrının hadisəsi oldu» (Əsəd Cahangir. Körpü №1. 2007).

Xalq dastanlarının süjet və obrazlarına müraciət edən və irihəcmli əsərlər yaradan görkəmli şair və yazıçılarımızdan biri də Elçindir və onun «Əsli və Kərəm» dastanı üzərində köklənmiş «Mahmud və Məryəm» əsəri sanballı nəsr əsərlərindən biridir. Xalq ədəbiyyatından gələn süjet və obrazlar, hadisələr Elçin yaradıcılığında daha bitkin, daha mükəmməl, daha təfsilatıyla verilir. Burada zəngin xalq ədəbiyyatından bəhrələnmə, digər tərəfdən sənətkar təxəyyülündən bu əsərin cilalanmış şəkildə təzahürü bizə bunu deməyə əsas verir ki, hər hansı bir sənətkar öz ata-babalarından ona miras qalan mə'nəvi sərvətlərə daha dərindən bələd olduqda, ondan yaratdığı sənət əsərlərinin ruhuna və qayəsinə uyğun şəkildə istifadə etdikdə yaratdığı yeni sənət əsərinin ölməzliyinə, əbədiliyinə də inanmalıdır.

Elçinin əsərləri SSRİ xalqlarının, həmçinin ingilis, fransız, ispan, türk, ərəb, fars, macar, alman, çex, slovak, bolqar və s. dillərə tərcümə olunub. Xarici ölkə yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə edib. Klassik yapon poeziyasının xokki janrında yazılmış əsərləri, müasir xarici ölkə yazıçılarının pyes və hekayələrini, Molyerin komediyalarını buna nümunə göstərmək olar.

Elçin ədəbiyyatımızın tədqiqi, ədəbi tənqidlə bağlı dəyərli tədqiqatların müəllifidir. Bədii yaradıcılıqla yanaşı elmi fəaliyyətini davam etdirmiş, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmiş, Nəzəriyyə şöbəsində kiçik elmi işçi, böyük elmi işçi kimi fəaliyyət göstərmiş, «Azərbaycan bədii nəsri ədəbi tənqiddə» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Hələ sovet dövründə yazdığı tənqidi məqaləsinə görə «Drujba narodov» jurnalının «ən yaxşı məqaləyə görə» mükafatını (1973) almış, nəsr əsərləri SSRİ Yazıçılar İttifaqının «Mediya» həftəliyinin (1982), «Literaturnaya qazeta»nın (1983), «Smena» jurnalının (1972, 1984) mükafatlarına layiq görülmüşdür. Filologiya elmləri doktorudur.

Elçin Əfəndiyev Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin katibi (1975-1988), xaricdə yaşayan həmvətənlərimizlə ilk mədəni əlaqələr quran «Vətən» cəmiyyətinin sədri (1987-1993) olmuşdur. O vaxtdan Azərbaycan Respublikasının baş nazirinin müavini vəzifəsində çalışır. Bir gün də ədəbi prosesdən ayrılmamış, müstəqillik dövrümüzün ən yaxşı bədii nümunələri ilə Azərbaycan ədəbiyyatımıza xidmət edir.

Vidadi Babanlı ədəbiyyata şeirilə gəlib. İlk şeirlərini Vidadi Şıxlı imzasıyla çap etdirib. İlk povesti «Gəlin» də Vidadi Şıxlı imzasıyla nəşr edilib. Ədəbi yaradıcılığa 1947-ci ildə «Azərbaycan gəncləri» qəzetində çıxan «Anam sən oldun» şeiri ilə başlayıb. «Dönüş», «Təbrizdə bir gecə» poemaları «Vidadi Şıxlı» təxəllüsü ilə çap olunub. «Azərbaycan müəllimi» qəzetində ədəbi işçi, «Ədəbiyyat» qəzetində ədəbi işçi, «Azərbaycan» jurnalı redaksiyasında baş redaktor müavini (1978-81) işləyib. 50-ci illərdən nəsr sahəsində maraqlı əsərləri ilə tanınmışdır. ««Gəlin», «Tanışlarım və dostlarım», «Ayazlı gecələr», «Həyat bizi sınayır», «Vicdan susanda» I-II kitab, «Müqəddəs ocaq», «İnsaf nənə», «Ömürlük cəza», «Kişilik haqqında himn» şeirlər toplusu və nəsr əsərləri çap olunmuşdur. Tənqidçilər onun «Vicdan susanda» əsərinin bədii uğurlarını xüsusilə qeyd edirlər.

Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunub. Valentin Rasputinin «Mariyaya pul lazım idi», «Sonuncu möhlət» əsərlərini ruscadan dilimizə tərcümə etmişdir.

Əfqan Əsgərov ədəbiyyatımızda öz sözü, öz səsi olan istedadlı yazıçıdır. «Azərbaycan gəncləri» qəzetində şöbə müdiri kimi (1948-53) əmək fəaliyyətinə başlayan Əfqan həm nəsr, həm dramaturgiya, həm də publisistika sahəsində qələmini sınayan istedadlı yazıçı kimi «orijinal, son dərəcə aktual problemlərə meyil edən, həmişə həyatla ayaqlaşan, müasir ruhlu sənətkar» kimi dəyərləndirilir. «Gecikmisən», «Gözəllik sorağında» (hekayələr), «Sarı ələk» (hekayələr və pyes), «Qartal əfsanəsi», «Gülyanaq» (roman və povest), «Həsrət də bir vüsaldır», «Dünya gözəlliyindir», «Bəy İnal» və s. kitabların müəllifidir. Onun «Dağ seli», «Sarı əlcək», «Qız atası», «Gülməyən adam» pyesləri Bakı, Gəncə, Sumqayıt dram teatrlarında tamaşaya qoyulmuş, tamaşaçıların rəğbətini qazanmışdır. Kitablarında toplanan hekayələri, roman və povestləri, müxtəlif ideyalı maraqlı süjetlərə malik əsərlərdir. Həm müasir, həm tarixi, həm də tarixi-əfsanəvi mövzuda qələmə aldığı «Qartal əfsanəsi», «Bəy İnal» «Gülyanaq», «Katib», «Şahlar şahı» «Məhəbbət ətirli qərənfilim» roman və povestlərində Əfqan «xalqımızın tarixindən, tarixi-əfsanəvi keçmişimizdən, müasir həyati gerçəkliklərdən, gözəl, monumental lövhələr, epik bədii salnamələr yaratmış» sənətkardır.

İsa Hüseynov Azərbaycan ədəbiyyatının 50-ci illərdən üzübəri yazıb-yaradan qüdrətli yazıçısıdır, psixoloji üslubda yazan sənətkarıdır. Məmməd Arif hələ 50-ci illərdə onun «Yanar ürək» povestiylə bağlı yazdığı «Yazıçının siyasi mövqeyi» məqaləsində bu povestinə qədər yazdığı əsərlərlə bağlı bu fikirlərini bildirirdi ki, İsa Hüsenyov «həyat hadisələrini dərindən və təfərrüatı ilə, insan xarakterlərini isə daha çox psixoloji planda əks etdirməyə meyil edən yazıçılardandır» (Müasir Azərbaycan ədəbiyyatı. II cild. Bakı. 2007).

İsa Hüseynovun ədəbi tənqiddə mübahisə doğuran əsərləri bir sıra səbəblərlə bağlıydı. İ.Hüseynovun ömrünün böyük bir hissəsi kommunist ideologiyasının hökmran olduğu dövrə düşür. Bu elə bir dövrdür ki, sovet adamları kommunist ideyaları ilə silahlandırılırdı, onların məqsədi, amalı kommunizm cəmiyyəti qurmaq idi. Xalqın bu cəmiyyətin qurulması uğrundakı mübarizədə göstərdiyi dözüm, dəyanət, mübarizlik, əldə etdikləri nailiyyətlər o dövrdə yaranan əsərlərin məzmun və ideyasını tənzimləyirdi. O dövrdə yaranan əsərlərin 90%-dən çoxunda bu kommunizm uğrunda mübarizə, hər addımda köhnəliyə qələbə çalan yeniliyin təsviri, sovet adamlarının humanist duyğuları ön planda verilirdi. Belə bir dövrdə İsa Hüseynov «Yanar ürək», «Doğma və yad adamlar» kimi əsərlər yazdı ki, kommunist ideologiyasının irəli sürdüyü problemlərin əvəzində İ.Hüseynov əsərlərində «fərdi psixoloji təhlil, bütövlükdə yazı tərzində psixologizm», insanın mənəvi-psixoloji planda əks etdirmə, obrazı daha çox bu planda canlandırma üstünlüyü diqqəti çəkir.

Bu xüsusiyyəti ilə o, sosialist realizmi prinsiplərinin normativliyi ilə uyuşmurdu. Bu metodun prinsip və normalarından kənara çıxırdı. Tənqidçini həyəcanlandıran da bu idi» (T. Hüseynoğlu). Böyük ədibin «Tütək səsi», «Saz»,

«Teleqram» povestləri, «Məhşər» tarixi-fəlsəfi romanı bu gün də tənqidin baş vura bilmədiyi mövzulardır. Bir sıra tənqidçilər onun əsərlərində yazıçı düşüncəsinin mahiyyətinə varmaqda çətinlik çəkir. Sovet adamlarının kommunizm cəmiyyəti qurması uğrunda apardığı «mübarizə», qazandıqları nailiyyətlər, dünyamiqyaslı «quruculuq işlərinin təsviri», sovet adamlarının «mövqeyi», cəmiyyət quruculuğu uğrunda «polad kimi bərkiməkdə» olan sovet adamlarının əməyinin təsvir və tərənnümü İ. Hüseynovda yox idi və sosializm realizmi metodu ilə silahlanmış tənqidçilərimiz nə yazıq ki, İ.Hüsenyov kimi yetişməkdə olan sənətkarın yaradıcılığındakı insanı «mənəvi psixoloji planda əks etdirmə, obrazı daha çox bu planda canlandırma» keyfiyyətlərini sosializm realizm «normativliyi» ilə «uyuşmadığından», bu prnsip və metodların çərçivəsindən kənar çıxdığından yetərincə qiymətini verə bilmirdilər. Əksinə, danlağı çox idi. «Aydın olur ki, sənətdə psixoloji təhlilin, psixologizmin əleyhinə olanlar, yəni bütövlükdə İsa Hüseynovun müdafiə etdiyi, əsaslandığı yaradıcılıq prinsiplərinin əleyhinə olanlar, prinsipial sinfilik pərdəsi altında «bayağı sosiologizm» mövqeyindən çıxış etmişlər, əsl sənətin, böyük ədəbiyyatın yaranmasına böyük də əngəl törətmişlər... Zaman göstərdi ki, yazıçı İsa Hüseynov hər hansı tənqid və təzyiqə baxmayaraq, əsərlərində hadisəçilikdən, əhvalatçılıqdan, hadisələri və əhvalatları sıralamaq və düzməkdən daha çox hisslərin bioqrafiyasını yaratmaqla, yəni dərin psixoloji təhlil ustalığını artırmaqla, psixologizmi dərinləşdirməklə böyük ədəbiyyat yaradıcılığı yoluna çıxmışdır» (T.Hüseynoğlu). Onun «Bizim qızlar», «Dan ulduzu», «Tütək səsi», «Saz», «Teleqram» povestləri, «Məhşər» tarixi fəlsəfi romanı, «Yanar ürək», məhz tənqidin şərhinə girişmədiyi «İdeal», «Ədəbiy-

yat» romanları onun qüdrətli qələm ustalığından xəbər verir.

Ədəbi fəaliyyətə «Anadil oxuyan yerdə» oçerki ilə başlayan sənətkar sonralar da yazdığı hekayə, povest, romanlarla yanaşı ssenarilər də yazmışdır. «26 Bakı Komissarı», «Nəsimi», «Ulduzlar sönmür» onun ssenariləri əsasında çəkilmiş filmlərdir.

Müharibə dövründəki Azərbaycan kəndinin həyatından bəhs edən «Tütək səsi», «Saz» povestləri «Azərbaycan kəndinin dərdi, kədəri, bu dərd və kədərin doğurduğu ah, nalə» kimi qiymətləndirilir. Onlar müharibə ocaqlarından uzaqlarda olsalar da, müharibə hər bir evi öz ağır pəncəsi ilə əzir. Ərlər, atalar, oğullar düşmən tapdağı altında, dəhşətli bombaların partladığı, hər an hər evə göndərilən qara kağızların gətirdiyi dəhşətli ağrı, acı və fəlakətlərlə dolu odlu-alovlu səngərlərdədir. Bu dəhşət, fəlakət bir evdə deyil, bütün evlərdə, bütün ölkədə hökm sürür. Xalqın qəlbində dərdlə qarışıq bir nifrət də vardır ki, bu nifrət müharibə törədənlərədir: «Dərd qarışıq bu qəzəb və nifrət xalqın sinəsindən tütək səsi, saz səsləri ilə qarışıq çıxır». İlk əvvəllər İsa Hüseynov, sonrakı əsərlərində İsa Muğanna kimi tanıdığı-mız sənətkarın sənət dünyasının zənginliyi və genişliyi diqqətdən yayınmır. «Elə bir sənət dünyası ki, məhvərində insan fenomeni dayanıb, yazıçının ilhamının və istedadının bütün gücü insan sirrini açmağa həsr edilib; bədii nəsrinin ritmi, bütün ifadə vasitələri, bütövlükdə dil yaradıcılığı-hər şey məhz insanı özünə qayıtmağa, özünə baxmağa, özünü dərk etməyə gətirib çıxarır, özünü dərk etmiş İnsanın böyüklüyünü göstərir» (T.Hüseynoğlu).

Böyük sənətkar, gözəl pedaqoq, alim, İsmayıl Şıxlı Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan sənətkarlarımızdan biridir. Böyük Vətən müharibəsi

illərində Qafqazdan Almaniyaya qədər uzun bir döyüş yolu keçən yazıçı ədəbiyyata şeirlə gəlsə də, nəsr sahəsində böyük uğurlar qazanmışdır. Yazıçı «Ürəklərə yol tapmalı» məqaləsində yazır: «Məni əsl mənada nəsrə bağlayan həyatın özü olmuşdur. Böyük Vətən müharibəsi cəbhələrində gördüyüm hadisələri, döyüş çətinliklərini, insanların keçirdiyi iztirabları, onların mürəkkəb psixoloji sarsıntı və döyüş əhvali-ruhiyyəsini vermək üçün nəsrin imkanlarının daha çox olduğunu dərk etdikdən sonra nasir olmağa çalışdım».

İlk hekayəsi «Həkimin nağılı» «İnqilab və mədəniyyət» jurnalında çap olunmuşdur. Gəncliyinin qaynar dövrü müharibə illərinə təsadüf edən yazıçının həyatında, yaradıcılığında 1941-1945-ci illər müharibəsi silinməz izlər buraxıb. «Kerç sularında», «Səhəri gözləyirdik», «Haralısan, ay oğlan», «Konserv qutuları» hekayələri onun bir nasir kimi uğurlu yaradıcılığının bəhrələridir. Onun cəbhədə olduğu ilk gündən geri qayıdanadək apardığı gündəlik qeydlərini sonralar çap etdirdiyi kitablara daxil etmişdir. «Cəbhə yolları» gündəlik formasında yazılmış sənədli povest kimi dəyərləndirilir. Burada gördüyü hadisələri, müharibənin törətdiyi dəhşətləri, insan həyatına təsir edən müharibənin fəlakət və əzabları, qanlı döyüş səhnələri təsvir edilir. O, 70-ci illərdə də cəbhə xatirələrini yada salır və bu hekayələrdə «artıq cəbhə həyatının təsviri yox, müharibənin adamlarımızın həyatına təsiri və onların talelərində oynadığı rolu ilk planda göstərmək meyli güclüdür. Bunlarda döyüşçülərin həyat və fəaliyyətlərinin yeni mərhələsi əks və əhatə olunur». Tənqidçilər onun müharibə mövzusunda yazdığı əsərlərdə «güclü bir avtobioqrafizm» görür və «bunların hamısında yazıçının özü bu və ya digər dərəcədə bir obraz

kimi iştirak edir, bu əsərlərin süjetində müəllifin bioqrafiyası müəyyən yer tutur»,-deyir.

Onun «Yetər Aslanova», «Kerç sularında», «Dağlar səslənir», «Daşkəsən» (oçerk), «Ayrılan yollar», «Dəli Kür», «Seçilmiş əsərləri», iki cilddə. I-II cild. (1971), «Mənim rəqibim», «Xatirəyə dönmüş illər», «Məni itirməyin» və s. kitablarında həm cəbhə, həm müasir mövzuda yazmış olduğu ədəbi əsərləri çap olunmuşdur.

«Dağlar səslənir» əsəri müharibədən sonra ölkədə gedən quruculuq işlərindən, Daşkəsən fəhlələrinin həyatından bəhs edir. Yazıçı şahidi olduğu, müşahidə etdiyi hadisələri qələmə almışdır. «Ayrılan yollar» romanında da müasir kənd həyatı, müharibədən sonra Azərbaycan kəndinin vəziyyəti, onun inkişafı, bu yolda yeniliklə köhnəlik arasındakı ziddiyyət, kəndin sosial, ictimai, mədəni həyatını yenidən qurmaq uğrunda gedən mübarizə bədii əksini tapır. Romanda yaddaqalan orijinal insan xarakterləri yaradılmışdır və tənqidçilər kənd həyatından bəhs edən bu romanı «Azərbaycan kəndini, xalq həyatını və mənəviyyatını müvəffəqiyyətlə əks etdirən əsər kimi» yüksək qiymətləndirmişdir.

Yazıçının müasir həyatdan bəhs edən əsərləri ilə yanaşı tarixi-inqilabi romanı olan «Dəli Kür» əsəri də yaradıcılığında mühüm yer tutur. Xalqın həyatı, psixologiyası, sosial-siyasi, milli-mənəvi inkişafı, köhnəliklə yeniliyin mübarizəsi bu romanda bədii əksini tapmışdır. Tədqiqatçılar öz bədii tutumu, qoyulan problemlər, köhnəliklə yeniliyin mübarizəsinin tarixi planda əks etdirilməsi cəhətdən bu romanı M.Şoloxovun «Sakit Don» əsəri ilə müqayisə edirlər.

İ.Şıxlı həm gözəl nasir, həm də gözəl pedaqoq, alimdir. Ömrünün çox hissəsini gənc nəslin təlim-tərbiyəsinə, elmimizin inkişafına həsr edən yazıçı APİ-nin filologiya fakültəsində aspirant (1946-1949), müəllim, baş müəllim, xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri olmuşdur. «XVIII əsr xarici ədəbiyyat tarixi», «XX əsr xarici ədəbiyyat tarixi» dərsliklərini yazmışdır. Rus və digər xalqların ədəbiyyatına dərindən bələd olan yazıçı dəyərli elmi-nəzəri düşüncələrin müəllifidir. Mətbuatda publisistik yazılarla çıxış etmiş, «Daim axtarışda» (məqalələr, publisist çıxışlar» (1988) kitabında toplanıb çap olunmuşdur. Yazıçı bir müddət Azərbaycan Yazıçılar İttifaqının katibi (1965-1968), «Azərbaycan» jurnalının baş redaktoru (1976-1978), Azərbaycan Yazıçılar İttifaqının birinci katibi (1981-1987), SSRİ Yazıçılar İttifaqının katibi (1981-1987), Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının sədri (1991) seçilmişdir.

Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuş, özü də bir sıra xalqların əsərlərini dilimizə tərcümə etmişdir. İctimai xadim, gözəl sənətkar, istedadlı nasir İ.Şıxlı müstəqillik uğrunda mübarizə yollarında xalqımızla birgə addımlamış, fəaliyyət göstərmişdir.

Sabir Əhmədli yaradıcılığa 50-ci illərdən başlamış, özünəməxsus üslubu olan yazıçı kimi tanınmışdır. «Yamacda nişanə», «Toğana», «Yasamal gölündə qayıqlar üzür», «Dünyanın arşını», «Kütlə» əsərləri cəmiyyətimizin sosial – mənəvi problemlərindən, ekoloji məsələlərdən bəhs edən əsərlər kimi, həm də «sərt publisistik intonasiyasına» görə maraqla qarşılanan əsərləridir. «Yanvar hekayələri» yazıçı-vətəndaş Sabir Əhmədlinin 90-cı illərdə qələmə aldığı ən yaxşı əsərlərindəndir.

Onun əsərləri içərisində «Toğana» bütövlükdə «kənd, təbiət, mənəviyyat movzusunda yazılmış» roman kimi dəyərləndirilir. «Yazıçı obrazlarının mənəviyyatını saflığı, gözəlliyi ilə müqayisə və təmasda verir, bir obrazın dünyagörüşü, işinə, vəzifəsinə, ailəsinə, başqalarına münasibətini

onun mənəvi aləminin açarına çevirir. Romanın əvvəlində biz toğanalılarla və buraya yaylağa gəlmiş şəhərlilərlə tanış oluruq. Toğanalılar və yaylaqçılar haqqında yazıçı təqdimatı iki əsas xətt olub əsərin əvvəlindən sonuna qədər qarşılıqlı əlaqədə və münasibətdə davam etdirilir» (T.Hüseynoğlu).

Yaradıcılığa «Poçtalyon» hekayəsi ilə gələn yazıçı sonralar istedadlı nasir kimi ədəbi ictimaiyyətin diqqətini cəlb edir. Onun orijinal yazı tərzi, əsərlərində «bədii ümumiləşdirməyə», «psixoloji əziyyətlərin təsvirinə» daha çox maraq göstərildiyi bildirilir. Yazıçının «Bir payız axşamı» (1961), «Aran» (1962), «Pillələr» (1964), «Görünməz dalğa» (1966), «Mavi günbəz» (1984), «Gedənlərin qayıtmağı», «Dünyanın arşını» (1985), «Seçilmiş əsərləri», 2 cilddə (1989-1990), «Kütlə» (1999), «Axirət sevdası» (trilogiya) (2003), «Şəhid ruhu» və s kitabları Sabir Əhmədlinin çoxşaxəli yaradıcılığından, istedadlı nasir kimi fəaliyyətindən xəbər verir. 1992-ci ildə Azərbaycanın xalq yazıçısı adına layiq görülmuş Sabir Əhmədli roman janrında yazan, «bu janrın müasir varlığı dərk və əks etdirmək üçün verdiyi geniş imkanlardan bacarıqla istifadə edən istedadlı nasirlərimizdən» biri kimi ədəbiyyat tariximizə adı yazılıb.

Vaqif Səmədoğlu ilk şeirlərini tələbəlik illərində qələmə alıb və «Azərbaycan» jurnalında, 1963-cü ildə çap etdirib. «Yoldan teleqram» (1968), «Günün bəxti» (1972) şeirlər toplusu «sovet ideologiyasının mövcud kursu ilə uzlaşmadığına görə, məhdud tirajla nəşr olunub». Qonşu ölkələrdə (Gürcüstanda gürcü dilində «Azadlıq, övladınam mən», Moskvada «Gecənin sfinksləri»), Türkiyədə əsərləri nəşr olunub. Rus, ingilis, ukrayna, latış dillərinə əsərləri tərcümə olunub. «Mən burdayam, İlahi», «Uzaq yaşıl ada» kitabları son dövrlərdə yazdığı əsərlərdir.

Vaqif Səmədoğlunun «Bəxt üzüyü», «Generalın son ömrü», «İntihar» pyesləri səhnələşdirilmiş, əsərləri əsasında çəkilən «Yaşıl eynəkli adam», «Yumurta» televiziya tamaşaları maraqla qarşılanmışdır.

Əli Vəkil Azərbaycan poeziyasında öz dəsti-xətti olan şairdir. Qərbi Azərbaycan torpağının şair oğludur. Əmək fəaliyyətinə Ermənistan Dövlət Televiziya və Radio verilişləri Komitəsinin Azərbaycan dilində verilişlər redaksiyasında diktor-redaktor kimi başladığı illərdən bədii yaradıcılığını davam etdirir. Sovet dövründə Azərbaycan ədəbiyyatının erməni dilində, erməni ədəbiyyatının Azərbaycan dilində tərcümələrini verib. Erməni faşistlərinin həmişə torpaqlarımıza, millətimizə qarşı apardığı düşmənçilik siyasətini izləmiş, saxta tarixlərinin yayılmasının qarşısını almış, keçmiş sovetlər dövründə AYİ-nın erməni dilində çıxan «Qarakan Adrbecan» («Ədəbi Azərbaycan») jurnalı redaksiyasında şöbə müdiri (1977-1988), məsul katib (1988-1990) işləmiş, «Sona bulağı», «Zəfər çələngi», «Ana qayğısı», «Ədəbi dünya» kimi 20-yə qədər kitabın müəllifidir. Ədəbi İrəvan ədəbi məclisinin rəhbəri kimi Qərbi Azərbaycan ədə-bi prosesinin inkişafı yolunda əzmlə çalışır, tarixi ellərimiz, yurdumuz Qərbi Azərbaycan torpaqlarının tarixini, ədəbi irsini, mədəni fəaliyyətinin davam etdirilməsi üçün bütün qüvvə və bacarığını sərf edir. İstedadlı şair «Ekspress» qəzetində Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrinin əsərlərini nəşrinə yardım edir, ədəbi mühitimizin inkişafı naminə çalışır. Erməni vəhşiliklərini öz gözləri ilə görmüş azərbaycanlıların hiss və duyğuları, yurd həsrəti, torpaq sevgisi, düşmənə nifrət hissi ilə dolu əsərləri ədəbiyyatımızın mövzusunu, dövrün tarixi proseslərini yaddaşlara köçürmək sahəsində böyük rol oynayır.

Şair, dramaturq, tərcüməçi Rəfiq Zəka istedadlı şairdir. Şeirlərinə yüzlərlə mahnı bəstələnmiş, pyesləri tamaşaya qoyulmuşdur. «Çağlayan», «Meşədə», «Vətən kimlərindir?», «Məhəmməd Hadi», «Cavid sənəti», «Ocaqdaşlarım», «Dünyanın yarısı türkdür», «Azərbaycanım» kimi 40-dan çox kitabın müəllifi Rəfiq Zəka türk dünyasının, xalqının sevimli şairidir. İlk şeir kitabı olan «Çağlayan» 1962-ci ildə nəşr olunmuşdur. «Axırı yaxşı olar», «Mənim əziz vəhşiciyim» musiqili komediyalarının mətnini yazıb. Şair həmçinin «Füzuli» və «Söyüdlər ağlamaz» operalarının mətnlərinin müəllifi olmuşdur. Rəfiq Zəka Xəndan keçən əsrin 80-90-cı illərində Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin inkişafında mühüm rol oynamışdır. Şair demək olar ki, Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin özülünü qoyanlardan olmuşdur. Həmin illərdə şair Türkiyə mətbuatı səhifələrində Azərbaycan ədədbiyyatını geniş işıqlandırırdı. O, «SIZE», «Tanıtım» kimi məşhur türk jurnallarında Azərbaycan şair və yazıçıları haqqında yazılar dərc etmişdir. Şair heca və əruz vəznlərində əsərlər yaratmışdır. Əsərlərinin əsas mövzuları türkçülük, vətən sevgisi, məhəbbət, qəhrəmanlıq, öyüd-nəsihət kimi mövzulardır.

Şair, tənqidçi, publisist Famil Mehdi «Sadə sətirlər», «Ömürdən səhifələr», «Qarabağ şikəstəsi», «Təbriz xalısı», «Əyilmə dünyam», «Anam elə bilir», «Qarabağ faciəsi (publisistika)» kimi iyirmidən artıq kitabin müllifidir.

Afaq Məsud kiçik hekayələri («Sərçələr», «Tək», «Uydurma», «Tutuquşu» və s), romanları («Qarğış», «Üzü işığa», «Cəza», «Fatma», «İzdiham», «Azadlıq» və s.), tərcümələri (Qabriel Qarsia Markesin məşhur romanı «Patriarxın payızı», Tomas Vulfun «Dünyanın hörümçək toru» əsərlərini, Kortasar, Borxes, Mopassan və s. sənətkarların əsərlərini) ilə tanınır.

Ələkbər Salahzadə 60-cı illərdən fəal ədəbi fəaliyyətə başlamışdır. «Beş yarpaq», «Od heykəli», «Gözlər baxır dünyaya», «Xatirə çiçəyi», «Yerimiz bir, göyümüz bir», «Od odası», «Yanıltmaclı əlifba» şeirlər və poemalar toplusunun müəllifidir. Çoxlu sayda esse və məqalələrin müəllifi Ə.Salahzadə bədii tərcümə ilə də məşğul olur. A.Tvardovskinin, Pyatras Svirkanın, A.P.Platonovun, Lorens Sterinin, A.V. Sofranovun əsərlərini dilimizə tərcümə etmişdir.

Ələkbər Salahzadənin «M.Müşfiqin monoloqu» kitabında onun M.Müşfiq haqqında müxtəlif illərdə çap olunmuş şeirləri, esseləri və «Dan üzünə fışqıran qan» poeması toplanıb. «Şeirin yaşıdı» şeirində

Müşfiq yaddaşdır,
Şeirmizin yaddaşıdır,
Şairə-sənətə məhəbbət yaddaşıdır.
Və ümumiyyətlə yaddaşdır.
Müşfiq unudulmazdır.
Müşfiqi oxuyanda adamın ürəyindən bir səda qopur:
O hələ nələr yarada bilərdi.
Onun yaza bilmədiklərini təsəvvür tamamlayır.

Müşfiqin yaradıcılığı, fəaliyyəti, istedadı, görünən, görünməyən keyfiyyətləri Ə.Salahzadənin «görücülüyündə» yetərincə həqiqətiylə qovuşub: Müşfiqin əsərləri «Vətən sevgisindən yoğrulub», «Müşfiq odu bir xalqın sənət aləmini işıqlandırmağa, sənət ocağını həmişə isti, gur saxlamağa bəs edərdi». «Müşfiq rəmzdir, şeir rəmzidir, Müşfiq şeir üçün, şeir də Müşfiq üçün doğulmuşdu. Şeir və Müşfiq bir-birinə doğma sözlər». «Müşfiq aysberqdir. Yaza bildikləri göz qabağındadır, yaza bilmədikləri isə ucsuz-bucaqsız vaxt okeanının altında qalıb».

Uşaq ədəbiyyatının inkişafında müstəqillik dövrünün yazıçı və şairləri, dramaturqları mühüm rol oynayır. Xalq yazıçısı Elçinin məsləhətçisi olduğu «Mən və mənim dünyam» başlığı altında layihə uğurla həyata keçirilir. Bu layihə əsasında Ələkbər Salahzadənin «Karandaşların nağılı», «Alma gəmirən qurdun nağılı», «Oxatan kirpinin nağılı», «Pələng olmaq istəyən pişik», «Kim nəyə oxşayır?» kitabları nəfis şəkillərlə yüksək bədii keyfiyyətlə nəşr edilmişdir. Mövzularla bağlı təbiət lövhələri, heyvanların, quşların, çiçəklərin, güllərin şəkilləri, digər təbiətlə bağlı şəkillər həm kitabların mövzularının bədii keyfiyyətini artırmış, həm də uşaqların təsəvvüründə onların canlandırılması, uşaqlarla təbiət və onun varlıqları arasında ünsiyyət qurmaq cəhətdən dəyərlidir. Belə kitablar məktəbəqədər və məktəbyaşlı kiçik uşaqların bədii təfəkküründü inkişaf etdirməklə yanaşı, onların təbiətlə bağlı bilik və məlumatlarının artırılmasına, genişləndirilməsinə kömək etmiş olur. «Beşik» nəşriyyatının balacalar üçün buraxdığı bu kitablarda uşaqlar nağıllar dünyasına «qonaq» olur, kələkbaz tülkünün toruna düşən, «tikanlar, oxlar içində» qorxusuz yaşayan, sakit, kimsəyə toxunmayan, «dostlarına mehriban», «ilanlarla barışmaz», gödək ayaqları olsa da, yaman «zirək» olan, «ələkeçməz, diş batmaz», «başdan-başa zireh», öz içinə qapalı kirpi haqqında bilgilərə yiyələnir. Maraqlı əhvalatlar, bir-birindən fərqli gözəlliklər balacaların maraq dairəsinə uyğundur. Heyvanlar, quşlar, balaca həşəratlar, cücülər dil açıb danışır, maraqlı əhvalatların içində balacalar təbiətlə bağlı məlumatlarını artırmış olur. Uşaqlarda təbiətə qayğı, məhəbbət aşılayan kitabın ilk səhifəsində deyilir: «ətrafımızda olan hər şey canlıdır; ot da, çiçək də, yarpaq da, Günəş də, torpaq da... Hər biri sənlə dil açıb danışa bilər. Təki sən dinləməyi və duymağı bacar. Bu kitabda oxuyacağın nağılda, cansız

bildiyin karandaşlara həsr olunub sənin yaşıdının incitdiyi və itirdiyi rəngli karandaşların başına gələn macəra ilə buyur, tanış ol». Bu sətirlər «İtən karandaşların şikayəti» kitabındadır. Balacaları ətrafındakılara, hətta əşyalara qarşı belə diqqətli olmağı tərbiyə etmiş olur.

60-cı illər nəslinin elə sənətkarları vardır ki, onların yaradıcılığı yetərincə bu günə qədər tədqiq edilməmiş, poetik keyfiyyətləri, orijinal bədii dil-üslub xüsusiyyətləri araşdırılmamışdır. Ələkbər Salahzadə, Əlağa Kürçaylı, Əlfi Qasımov, İsi Məlikzadə, Musa Yaqub, Əlibala Hacızadə və başqalarının ədəbi fəaliyyəti buna nümunədir.

Əlfi Qasımovun ilk şeiri «Xalq arzusu» «Lenin yolu» qəzetində dərc olunub. Ədəbi mühitə dərindən bağlı olan Əlfi Qasımov «Azərbaycan müəllimi» qəzetinin xüsusi müxbiri, redaktor müavini, (1951-1958), sonra «Ədəbiyyat qəzeti»ndə məsul katib (1958-1966), Azərbaycan SSR Dövlət Poliqrafiya, Nəşriyyat və Kitab Ticarəti İşləri Komitəsində nəşriyyatlar idarəsinin rəisi, baş redaktor (1966-1983) kimi çalışmış, «Ərimәzin ətəklərində», «Şagird briqadaları», «Odlu ürəklər», «Dnepr qəhrəmanı», «Saçlar ağarsa da...» oçerklərini yazmışdır. Sənədli povest və hekayələr müəllifi kimi də tanınır. «Qızılburunda tək məzar» sənədli povesti, «Vətən çağıranda» sənədli hekayələri buna nümunə ola bilər. Yazıçının «Adilənin taleyi», «Məni qınamayın», «Könülsevən», «Qağayı fəryadı», «İnsan qaranquş deyil», «Toy gecəsi» hekayə, povest və romanlarının oxucusu kimi deyə bilərik ki, Ə.Qasımov özünəməxsus yaradıcılıq yolu, öz dəsti-xətti olan yazıçıdır. Yaratdığı surətlər aləmi, gənclərin həyatından götürülmüş maraqlı və yaddaqalan hadisələr, əsərlərinin axıcı, sadə dili müasirlik nöqteyi-nəzərindən də təqdirəlayiqdir.

İsi Məlikzadə ədəbiyyata bağlı insan idi. 60-cı ildə «Ulduz» jurnalında fəaliyyətə başlayan İsi Məlikzadə 1974-1976-cı illər arasında Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında, 1976-cı ildə «Azərbaycan» jurnalı redaksiyasında nəsr şöbəsində müdir, 1980-ci ildən «Ulduz» jurnalının redaksiyasında nəsr şöbəsinin müdiri işləmişdir. «Mozalan» satirik jurnalında baş redaktor (1981-83) işləmiş, müxtəlif fəaliyyətləri ilə tanınmışdır, yaradıcılığa kiçik hekayələrlə gələn İsi Məlikzadənin «Həsrətin sonu», «Özgə anası» və digər kitablarında toplanmış əsərləri «geniş oxucu kütləsinin məhəbbətini qazanan, tənqid və ədəbiyyatşünaslığın marağına səbəb olan hekayə, povest və romanlar» kimi dəyərləndirilir.

Musa Yaqub şeirimizin poetik istedada malik nümayəndələrindən biridir. Müasir Azərbaycan poeziyasının 60-cılar nəslinə mənsubdur. Musa Yaqubun poeziyasında onun fərdiyyəti şeirlərinin ruhunda, «gizli daxili qatlarındadır». Hay-küydən, ritorikadan uzaq yaradıcılığı var. «Bu günün şeirində çox az sənətkar tapmaq olar ki, poetik səmimiyyətdə Musa Yaqubla müqayisəyə gəlsin. Məhz səmimiyyət onun şeirlərinə etiraf duyğusu aşılayır, ən məhrəm mövzularda belə açıq danışmasına imkan verir» (Müasir Azərbaycan ədəbiyyatı. II cild. Bakı. 2007).

Onun lirik şeirləri təbiətə vurğunluğu ilə, bu vurğunluğu ifadə edə bilmək keyfiyyəti ilə seçilir. Təbiət dil açıb danışan, «insanlaşan», «canlı ünsiyyət aləminə çevrilən» bir varlığa çevrilir, bunlar poetik nümunələr olmayıb dərin fəlsəfi məzmunu ifadə etmiş olur. Musa Yaqub ədəbiyyata «Azərbaycan» qəzetində çap olunan «İki qəlb, iki dünya» şeiri ilə başlamışdır. İlk kitabı «Yarpaqlar oxuyur» 1966-cı ildə nəşr olunub. Həmin ildə onun «Bu məhəbbət yaşadır

məni» şeirlər kitabı da nəşr olunub. 20-dən çox kitabın müəllifi Musa Yaqubun «Mənim kainatım», «Üzü bəri baxan dağlar», «Yaxşı ki sən varsan», «Bir sim üstə», «İki qəlbin işığı», «Mənim sevgi taleyim», «Ürəyimdə yeri qaldı», «Nanə yarpağı», «Payızdan yaza yol varmı», «Ruhumla söhbət», «Başdan-başa məhəbbət dəftərçəsi» və s kitabları oxucu kütləsinə tanışdır.

Təbiətlə bağlı şeirlərində fəlsəfi ruh əsas olduğunu bildirən tənqidçilər onun bir misrasındakı poetik rədifi təhlil edir, «müəllifin fəlsəfi şeirləri içərisində «İlahi, mən bu daşı götürüm, götürməyim» rədifli bir poetik nümunə var. Şair yolayrıcında küləyin, yağışın yuyub gözəlləşdirdiyi süfahi bir daşla qarşılaşır. Daş onu həyat, ömür-gün, tale, gələcək haqqında düşüncələrə çəkir: o, bu daşı götürsün, ya götürməsin? Axı dünyanın bir ucu toydursa, o biri ucu da savaşdır. Bəlkə daş bir əl yetməzliyində ona kömək ola bilər. Bir səhra küləyində ağırlıq ola bilər. Bəlkə bu daş ömür yoxuşlarında Əzrayılı yoldan eləmək üçün gərək olacaq».

Musa Yaqub təkcə lirik, fəlsəfi ruhlu şeirlər müəllifi deyil, həm də zamanın, dövrün şairidir. Onun həyatında, yaradıcılığında elə bir dövr vardır ki, bu Azərbaycanın siyasi intriqalar, azadlıq, müstəqillik uğrunda mübariz ideyalarıyla doluydu. Cəmiyyəti narahat edən müxtəlif problemlərə biganə qalmayan şair millətin ağrı-acılarını da poeziyasında əks etdirir. Humanist duyğularla zəngin yaradıcı insan insanlığı, insanın daxili saflığını qələmə alır, insan əxlaqi məsələlərini təhlil edir.

Əlibala Hacızadə 20-yə yaxın hekayə, roman, povestlər toplanmış kitabların müəllifidir. Onun «İtkin gəlin» əsəri əsasında on iki seriyalı bədii televiziya filmi çəkilmişdir. Seçilmiş əsərləri on cilddə son illərdə çap edilmişdir. Bir-

birindən maraqlı mövzuları olan əsərləri onu istedadlı nasir kimi tanıtmışdır.

Tofiq Bayramın şeirləri həmişə sevilir. Onun «Ana təbəssümü», «Mənim şair xalqım», «Azərbaycan deyəndə», «Əsrin oyunu», «Məsləkim-silahım», «Ay gecikən məhəbbətim» və adını çəkmədiyimiz onlarla kitabında toplanan əsərlərin ideya-bədii keyfiyyətləri haqqında tənqidçilər dəyərli sözlərini söyləmişlər.

Yasif Nəsirli uzun illər ədəbi-bədii orqanlarda çalışmış, yaradıcılığı ilə tanınmışdır. Qorki adına Ədəbiyyat İnstitutunda, Ali Ədəbiyyat kurslarında təhsil almışdır, 60-cı illərdən dövri mətbuatda maraqlı, sanballı əsərləri ilə çıxış edir. Yaddaqalan sənədli hekayələri («Qabaqcıl mexanizator», «Araz daşan yerdə»), povest, hekayə, esseləri («Bolluq yaradanlar», «Qırmızı qərənfil», «Adsız təpə», «Qayıdacağam», «Görə bilmədim», «Ömür» və s) ilə zəngin çoxlu sayda kitabların müəllifi Yasif Nəsirli Azərbaycan Milli yaradıcılıq Akademiyasının akademiki, Azərbaycan Respublikası Ali Sovetinin deputatı, Beynəlxaq mükafat laureatı və s. yüksək adlara layiq görülmüş, bir sıra jurnal və nəşriyyatlarda, eləcə də digər məsul vəzifələrdə çalışmaqla bərabər ömrünü ədəbi mühitə bağlayan istedadlı qələm sahibi kimi ədəbiyyat tariximizə adı yazılmışdır.

Elbrus Şahmar ədəbi fəaliyyətə 60-cı illərdə başlamış, kiçik və iri həcmli nəsr əsərləri ilə tanınmış yazıçıdır. Əsərlərində xalq, dövlət mənafeyi əsasdır. Vətəninə, torpağına göz dikənlərin gözünü ovmağa hazır döyüşkən yazıçıdır. Başı bəlalar çəkmiş torpağın övladı kimi bu gün də yazdığı əsərlərdə təəssübkeş oğul, yurd itkisi çəkən vətəndaş, düşmən əlində qalan torpaqların ağrı-acısı ilə göynəyən vətən təəssübkeşidir. «Kövrək məhəbbətim Qubadlı», «Xanimanım Qubadlı», «Odla su arasında», «Dağlar, mənə qar gön-

dər», «Ocaq yanğısı», «İşıqlı ömür», «Şah İsmayıl Qartalları» kimi iyirmidən çox kitabın müəllifi Elbrus Şahmar sözüylə, yaradıcılığı ilə tanınmış nasir, publisistdir.

Ənvər Əhməd «Nəslimiz», «Anamın izləri», «Sevgi yurdu», «Sevgi cavan qalır», «Sağlıq olsun», «Kəfənim qandan biçilər» kimi onlarla şeir və poemalar kitabının müəllifidir.

Çingiz Əlioğlu şeir, hekayə, ədəbi-bədii tərcümələri, publisistik məqalələri ilə tanınmış istedadlı qələm sahibidir. «Nikbinlik», «Alnından Ay doğan adam», «Ömür ağacı», «Günəşli dayanacaqlar», «Tanrını tanı» kimi onlarla kitabın müəllifidir. Keçmiş sovetlər birliyi ölkələrində də tanınan şairin İ.Şklyarevski («Quş kölgəsi»), Ayven Soutoll («Bəs sabah necə?»), L.T.Tatyaniçeva, R.Babloyandan etdiyi tərcümələri dünya ədəbi mühiti ilə maraqlanan oxucularımıza dəyərli töhfələrdir.

Müxtəlif ölkələrdə keçirilən festivalların, poeziya günlərinin, sovet ədəbiyyatı günlərinin iştirakçısı olmuş, fəxri fərmanlara, ədəbi mükafatlara layiq görülmüş Çingiz Əlioğlunun lirikası onu oxucularına sevdirib.

Paşa Qəlbinurun şeirlərində işıq, nur, həyat eşqi əsasdır. «Ay bir əlçim buluddur», «Rəngli göz yaşları», «İtmiş həsrət kimi», «Ağlıma gələnlər başıma gəldi» bədii kitablarında toplanan lirik əsərlərində insan, onun xoşbəxtliyi, təbiətə, insanlara qayğı, məhəbbət poetik ifadələrlə verilir.

Aqil Abbasın ilk hekayəsi 70-ci illərdə «Ədəbiyyat və incəsənət» qəzetində dərc olunmuş «Şirinlik» hekayəsidir. «Evləri köndələn yar», «Ən xoşbəxt adam» (povestlər və hekayələr), «Batmanqılınc» (roman), «Çadırda Üzeyir Hacıbəyov doğula bilməz» və s. kitabların müəllifidir. «Ədalət» qəzetinin baş redaktorudur.

Firuz Mustafa nasir, dramaturq, ədəbiyyatşünas kimi fəaliyyət göstərir. «Göyəm kolları», «Dünyanın rəngi», «Kəhraba» hekayə və povestlərin, «Çəhrayı tunel», «Teatr meydanı» romanlarının, «Adsız» pyeslər kitabının, «Mənəvi tələbatın inkişaf dialektikası» monoqrafiyasının müəllifidir.

Tofiq Mahmud tərcümə və publisistika ilə 70-ci illərdən məşğul olur. «Əsrdən keçən çığır», «Polad belə bərkiyir» sənədli povestlərin, «Dünya, gözəl dünya» romanının və s. müəllifidir. Onun N.Dubovun «Qaçqın» romanının tərcüməsi maraqla qarşılanmışdır. Tərcümə sahəsində uğurları çoxdur. V.Perevoznikovun («Canlı uçuş»), M.Vamoşun («Mən və mən») romanlarını tərcümə etmiş və nəşr etdirmişdir. Tərcümə etdiyi V.Sropovun «Qarşılıqlı əlaqə (ailə: nigah və boşanma-problemlər, mülahizələr)» kitabı «Azərbaycan» jurnalında çap olunmuşdur.

Azərbaycan böyük bir dünyadır. Özü öz məmləkətinin içində böyük dünyadır. O dünyanın öz söz xiridarları var. Cinsi lətifə qadınların söz dünyası üzü Qorquddan bəri gəlir, hələ gəlir, həl yoldadır, nə qədər dünyası var, yolu var, o yol gediləcək, gediləcək, gediləcək…

O yolda gedən yolçuları udub minilliklər, yüzilliklər, qərinələr. Görünənlər az qalıb. Amma o söz dünyasının o yolçularının mövcudluğundan xəbər verir. Bu gün bəşəriyyətə Nizami, Füzuli, Vaqif kimi böyük sənətkarlarla yanaşı, Məhsəti, Heyran xanım, Ağabəyim, Natəvan, Aşıq Pəri, Şəfiqə xanım Əfəndizadə, Aşıq Zərnigar, Ümgülsüm Sadıqzadə, Həmidə Məmmədquluzadə, Nigar Rəfibəyli, Gültəkin Bakıxanova, Güllü Məmmədova, Mədinə Gülgün, Mirvarid Dilbazi, Zivər Ağayeva, Xalidə Hasilova, Ələviyyə Babayeva, Xanımana Əlibəyli, Gülrux Əlibəyli, Narınc Xatun, Əzizə Cəfərzadə, Hökumə Bülluri, Elmira Axundova, Rüzgar Əfəndiyeva, Firuzə Məmmədli, Bahar Bərdəli, Səfurə

Pirsultanlı, Həbibə Məmmədqızı, Fəridə Əliyarbəyli, Cahan Əfruz, Nurəngiz Gün, Azadə, Kəmalə Ağayeva, Aləmzər Əlizadə, Fatma Həsənqızı, Qiymət Məhərrəmli, Sima Şirvanlı, Mahirə Abdulla, Nüşabə Məmmədova, Nüşabə Məmmədli, Azadə Taleh, Həqiqət Rzayeva, Gülşən Lətifqızı, Arifə Arifqızı, Salatın Əhmədli, Sona Vəliyeva, Bəsti Əlibəyli, Sü-dabə Ağabalayeva, Dinarə Gərəkməzli, Şəfəq Sahibli, Sona Xəyal, Sakitə Ülvi, Şəfəq Əlixanlı, Fəridə Ləman, Zəminə Xınalı, Fəridə Hacıyeva, Şəfəq Nasir, Fərqanə Mehdiyeva, Tamilla Şəfəq, Aybəniz Kəmalə, Nailə Yusifqızı, Kübra Əliyeva, Südabə Sərvi, Mina Rəşid, Məlahət Yusif qızı, Almaz Ülvi, yurdundan didərgin düşmüş Azəri qızı Hülya Sönməz, Güney Azərbaycanımızdan Haciyə Zəhra, Günəş Mərəndi, Fatma Əzizcan və başqaları ədəbiyyat aləminə adı yazılmış istedadlı qadınlarımız, qələm sahibləridir.

Onların içərisində siyasi repressiyalara məruz qalmış qadınlarımız var; Ümgülsüm Sadıqzadə. Əri yazıçı Seyid Hüseyn xalq düşməni kimi güllələnmiş, özünü Sibirə sürgün etmişlər. 1946-cı ildə vəfat etmişdir. Gənc yaşlarından Ümgülsüm xanımın «İqbal», «Yeni söz», «İstiqlal», «Azərbaycan» qəzetlərində, «Məktəb», «Dirilik» jurnallarında şeirləri, hekayələri, məqalələri çap olunurdu. «Solğun çiçək» miniatürü «Qurtuluş» jurnalının 1915-ci ildə keçirdiyi müsabiqədə birinci yeri tutmuş, Sabirin «Hophopnamə»si və «Qurtuluş» jurnalının birillik abunəsi ilə mükafatlandırılmışdır». Yaradıcılığının çiçəkləndiyi bir vaxtda repressiyaya məruz qalmış Ümgülsüm xanım yüzlərlə ziyalı qadınlarımızdan biridir.

Gülarə Qədirbəyova... onun redaktəsi ilə çıxan milli ruhda yazılmış «Bir sarayın tarixi» kitabına görə, Əhməd

Cavad, Hüseyn Cavid, Seyid Hüseyn kimi ziyalılarla sıx əlaqə saxladığına görə əks-inqilabçı millətçi təşkilatın fəal üzvü kimi «1938-ci il iyulun 23-də həbs olunmuş, 1939-cu il iyunun 9-da Sibirə sürgün edilmiş, orada vəfat etmişdir».

Mədinə xanım Qiyasbəyli (1889-1938). Tərcüməçi kimi tanınırdı. Həbs olunaraq iki ildən sonra güllələnmişdir, ölümündən sonra bəraət qazanmışdır.

Ədəbiyyatşünas, əlyazmaçı-mətnşünas, f.e.d. prof, Azadə Musayeva, f.e.d. ədəbiyyatşünas Azadə Rüstəm, ədəbiyyatşünas, tərcüməçi, f.e.d. Dilarə Əliyeva, ədəbiyyatşünas, f.e.d. Elmira Rəhimova, nasir, tənqidçi alim Elmira Zamanova (ədəbiyyata fantastik əsərləri ilə gəlib. Elmi fantastik romanları: «Yeraltı dünya». «Ruhlar bizimlədir» elmi-fantastik hekayələr toplusu, «Böyük nurlu insan» elmi-kütləvi əsərin müəllifidir), tənqidçi, ədəbiyyatşünas, teatrşünas Ədilə Əliyeva, publisist Esmira Nəzərli, ədəbiyyatşünas Esmira Fuad kimi yüzlərlə yazar-alim qadınlarımız var. Mehdi Hüseyn yazır: «Dünyaya ilk qədəm basan körpə ana laylası ilə bəslənir, böyüyüb boya-başa çatır. İlk dəfə gözümüzü dünyaya açdığımız gündən vida gününə qədər könlümüz bu laylayla yaşayır. Şirin, zərif, müdrik el sözləri, el bayatılarıyla nəfəs alırıq. Ana laylası, həzin, kövrək, mehriban ana laylası. Xalqımız bu nadir söz incilərini ürəyinin başında saxlayır».

Bu laylalar, bayatılar anaların dilindən çıxıb, analar söyləyib. İlk şairə analar. Böyük Nizamiləri də analar böyüdüb, laylasıyla, südüylə verib şairlik istedadını ona... Allah ilham pərsini ananın cildində yetirib dünyaya... Hər böyük sənətkar ilk mahnını, şeiri anadan eşidib, onun südüylə, səsiylə ilhamını tapıb. O laylaları söyləyən tək-tək analar olub, bütün anaların istək və arzularını ifadə etdiyindən dillər əzbəri olub, yaradanı, misralara çevirəni o gözəlliklərin

sehrində əriyən xalq unudub, milliləşdirib. Necə ki, bir Nizami, bir Füzuli, bir Vaqif… var, onların bir anası, bir Azərbaycanı var. Eləcə də o laylaların sahibi də Azərbaycan analarıdır.

Çox hörmətli sənətkarımız, yazıçı, alim, tədqiqatçı Əzizə Cəfərzadə səkkiz əsrlik bir dövrdə yüzə yaxın yazıb-yaratmış şairə qadınlarımızın yaradıcılığını bir yerə toplamış, əsərlərindən nümunələr, az da olsa, həyat və yaradıcılığı haqqında məlumat vermiş, onların xəyali rəsmlərini gözəl rəssam sənətkarımız Maral xanım Rəhmanzadə öz fırçasıyla canlandırmışdır. O zaman həmin kitabın redaktoru şairə Nigar Rəfibəyli yazırdı: «Sənət, şeir həmişə zəhmətdir. Qadın sənətkarın zəhməti, bəlkə də ikiqatdır. Ədəbiyyat tarixinin böyük simaları-antik yunan şairəsi Sapfodan, XX əsrdə yazıb-yaratmış Nobel mükafatı laureatı Qabriela Mistrala qədər bir çox qadın sənətkarlar həyatlarının və peşələrinin bu ikiqat çətinliyindən dönə-dönə danışmışlar… Şərq şairəsinin, islam ölkələrində yaşayıb-yaradan qadın sənətkarın işi isə ikiqat zəhmətdən başqa həm də beş qat, on qat cəsarət, hünər idi».

Toplanan şeirlər sənətkarlıq baxımından eyni səviyyədə olmasa da, hər halda Azərbaycan ədəbiyyatının inkişafında öz xidmətləri ilə seçilən Azərbaycanın qadın sənətkarları haqqında, onların bədii fəaliyyəti haqqında məlumat vermə cəhətindən dəyərlidir. O dövrlərdə yaşamış qadın sənətkarlarımızın ancaq bədahətən söylədikləri şeirləri ilə xalq içində tanınıb, sevilməklə xalqın yaddaşında qaldığını nəzər alsaq, nəsildən-nəslə ancaq şeirləri ilə keçdiyini, əsərlərinin hamısının hafizələrdə qalmadığını, bəzilərinin yaddaşlarda bu günə gəlib çatdığını nəzərə alsaq, bunu deməyə əsasımız ola bilər ki, qadın sənətkarlarımız hər zaman,

hər əsrdə, hər dövrdə olmuş, dedikləri sözlər o əsrlərin sısqa bulaqlarının gözüylə də olsa axıb gəlmiş, bizim dövrümüzə az bir qismi də olsa gəlib çatmışdır. Bu gün o taylı, bu taylı Azərbaycanda yetərincə qələm sahibi şair, nasir, tənqidçi qadınlarımız var. Şükürlər olsun ki, onların da sayəsində əvvəlki dövrlərdə yaşamış, yaratmış bəzi qadın sənətkarlarımız haqqında müəyyən məlumatlara yiyələnmişik.

Bu gün Azərbaycan ədəbiyyatı tarixində Məhsətimiz var. XII əsr Azərbaycan ədəbiyyatı tarixində Məhsətinin öz yeri var. Məhsəti öz rübailərində «təmiz məhəbbəti, insanın sevmək, sevilmək, şadlanmaq arzusunu yüksək sənətkarlıqla əks etdirən, müxtəlif peşə adamlarını öz şeirləri üçün lirik qəhrəman seçən, bəzən dövrünün hökmdarını tərifləyən şair»dir. Azərbaycan İntibahının ilk nümayəndələrindən biri sayılır. Əsərlərində humanist məzmun, səmimi duyğular əsasdır, İntibah dövrünə layiq poetik əsərləri dəyərlidir. Məhsəti məhəbbət və gözəllik aşiqi kimi tanınmış, qüdrətli rübailəri ilə öz dövründə tanınmış, seçilmiş, haqqında rəvayətlər yaranmışdır.

Azərbaycan ədəbiyyatında humanist şeirin ilk nümayəndələrindən biri kimi qiymətləndirilən Məhsətinin M. S. Ordubadinin «Qılınc və qələm» romanında dolğun obrazı yaradılmışdır.

O taylı-bu taylı Azərbaycan qadınlarının söylədikləri misralar unudulmazdır. Cənubi Azərbaycanda yaşayıb yaratmış Azəri qadınlarından Fatma Əzizcan «bədahətən söylədiyi sadə şeirləri-bayatı, gəraylı və s (Ə.Cəfərzadə) məşhur olan bir şairədir.

Qızıl gülün püsgünə,
Xonça düzdüm üstünə,
Özün getdin, xoş oldun,
Məni qoydun pis günə.

Bu gün də qadın şairlərimizin yaradıcılığı araşdırılır, tədqiq olunur. Aşıq Pəri Ağabəyimdən sonra Azərbaycan ədəbiyyatında-Qarabağda tanınmış aşıq-şairə qadınlarımızdan biridir.

Vaxtilə Aşıq Pəri irsi toplansa da, itib batmış, bununla belə onun yaradıcılığı dövrünün, ondan sonra gələn ziyalıların diqqətini cəlb etmiş, Mirzə Yusif Nersesov, A. Berjenin 1867-ci ildə Leypsiqdə nəşr edilmiş «Məcmueyi-əşarişüərayi-Azərbaycan» məcmuəsində dərc edilmişdir. O zaman A. Berje Aşıq Pəri haqqında almanca yazırdı: «1929-cu ilin axırlarında Araz çayı sahillərində uzanan Maralyan kəndində 18 yaşında bir qız zühur etdi. Eşidilməmiş bir gözəlliyə malik olan bu qızın adı Aşıq Pəri idi… Onun deyişmələri, hazırcavabcasına dediyi şeirləri diqqəti cəlb edirdi. Öz dövrünün az-çox istedadlı şairləri ilə şeirləşmədə həmişə müvəffəqiyyət qazanırdı və heç kəsə ona qalib gəlməyə imkan verməzdi…»

F.Qasımzadə «XIX əsr Azərbaycan ədəbiyyatı tarixi» kitabında Aşıq Pərinin həyat və yaradıcılığı haqqında məlumat verir, onun Qarabağ müasirləri içərisində «aşıq şeirinin ilhamvericilərindən biri olduğu»nu, Məhəmməd bəy Aşiq, Mirzəcan Mədətov, Mirzə Həsən Mirzə və başqalarıyla əlaqə saxladığını, şeirləşdiyini, deyişmələrində onun «öz dövrünün hünərli və cəsarətli qadını» kimi diqqəti cəlb etdiyini, heç kəsdən qorxmadığını, dövrünün zülmkar bəylərinin eyiblərini açıb tökdüyünü bildirir:

Xanzadəsən, söz tapıram sözündən,
Əyri demə, doğru söylə düzündən.
Zülmündə yox bir xəbərin özündən,
Hər yerdə deyirlər rahbər ona.

Aşıq Pərinin dərin və səmimi lirikasında «təmiz məhəbbətin, mehriban və nəvazişkar hisslərin tərənnümü ilə bərabər, vəziyyətindən narazılıq, fələkdən şikayət və xəfif kədər motivləri» də olduğunu bildirən alim F. Qasımzadə onun misralarını nümunə gətirir:

Eşqinin əlindən gedərəm dadə,
Dərdin olur gündən-günə ziyadə,
Şivəvü rəftarın düşəndə yadə,
Bağrımın başında millər oynaşır.

Aşıq Pərinin xalq aşığı kimi şöhrət tapması, Azərbaycanın ziyalı, istedadlı qələm sahibi kimi tanınması, el arasında hörmət və izzət sahibi olması, o dövrün qələm ustadları arasında hörmətlə adı çəkilməsi Azərbaycanda qadın yazarlarımızın yaradıcılığının lap qədimdən üzübəri inkişaf etdiyinə əyani sübutdur.

O dövrün ustad sənətkarlarından biri olan Xurşidbanu Natəvan yüzlərcə qəzəl şairləri içərisində öz yaradıcılığı ilə sayılan, seçilən Azərbaycanın şairə qadınları içərisində mühüm yer tuturdu. Ağabəyim ağanın nəslindən olan Natəvan yaradıcılığında Füzuli şeirlərinin təsir qüvvəsi tədqiqatçıların diqqətindən yayınmamışdır. Onun fərdi duyğularında, şəxsi şikayətlərində ictimai şikayət, «Azərbaycan qadınlığının hüquqsuzluğu və talesizliyi» ifadə olunduğu, şeirin incəliklərinə yaxşı bələd olduğu, əsərlərinin dil, üslub, vəzn, qafiyə və digər xüsusiyyətlərinə də diqqət yetirdiyi göstərilir. F.Qasımzadə yazır: «Şeirlərində əruz vəzninin ahəngdar bəhrlərindən istifadə etdiyi kimi seçilmiş qafiyələr də işlətmişdir. Bir-iki şeiri müstəsna olmaqla, bütün şeirləri rədifli qafiyə ilə yazılmışdır. Şeirlərində ifadə etdiyi hiss və həyəcanlarını canlı və təsirli verə bilmək üçün bəzən təkrirlərə müraciət etdiyi kimi, qoşa qafiyələr və rədiflərdən də istifadə etmişdir».

Qəzəllərində fikir vəhdəti mühafizə edildiyi, qəzəllərinin beytləri arasındakı «möhkəm məntiqi rabitə», qəzəlin birinci beytində ifadə olunan fikrin axıra kimi davam etdirilməsi və digər sənətkarlıq keyfiyyətləri araşdırılmış, tədqiqatçı alimlər onun yaradıcılığını, bədii təfəkkürünün məhsulu olan əsərlərini yüksək dəyərləndirmişlər.

Natəvan dövrünün realist rəssamlarından biri kimi tanınmışdır, çəkdiyi rəsm və nəqşlərin təbii və bədii gözəlliyi indi də öz gözəlliyini saxlayır.

XX əsr Azərbaycan qadınlarının daha sürətlə həm iqtisadi, həm də mədəni sahədə inkişaf etdiyi əsrdir. Elə bu əsrdə elə qüdrətli qadın şairələrimiz, yazıçılarımız, nasirlərimiz yetişdi ki, bir daha sübut olundu ki, qədimdən üzü bəri gələn əsrlərin qoynunda yetərincə ana, nənə şairlərimiz olmuş və bunlar da onların davamçılarıdır. Nigar Rəfibəyli, Əzizə Cəfərzadə, Mədinə Gülgün, Mirvarid Dilbazi, Xalidə Hasilova, Ələviyyə Babayeva, Gülrux Əlibəyli, Hökümə Bülluri, Xanımana Əlibəyli…

Nigar Rəfibəyli otuzuncu illərdə ədəbiyyata gəlib. 1934-cü ildə ilk «Şeirlər» kitabı nəşr olunur. Mir Cəlal bu kitabın bədii keyfiyyətlərini yüksək qiymətləndirir və «Ədəbiyyat» qəzetində dərc olunan məqaləsində şairənin uğurlu yaradıcılıq gələcəyinə inamını ifadə edir. N.Rəfibəyli bu inamı doğrultdu. «Qoçaq Kərim» (1937), «Kəndli və qurd nağılı» (1938), «Balaca qəhrəman» (1942), «Zəfər nəğməsi» (1943), «Anaların səsi» (1951), «Karvan» (1952), «Şeirlər» (1959), «Dənizin səsi gəlir» (1964), «Xurma ağacı» (1965), «Günəşin cavabı» (1966), «Günəşdən gənclik istədim» (1974), «Bizə bahar yaraşır» (1978) və s. kitablarında yaratdığı yeni məfkurəli insanları vəsf edən şeirlərinin ideya-bədii keyfiyyətləri, sənətkarlıq imkanları tənqidçilər tərəfindən araşdırılmış, tədqiq edilmişdir, Azərbaycan şeirində özünə-

məxsus yer tutan, xalq şairi adına layiq görülən Azərbaycanımızın qadın şairəsidir. Daima öz yaradıcılığı üzərində işləyən, sənətə, ədəbiyyata böyük məsuliyyət hissi ilə yanaşan, bədii axtarışlar aparan, mövzu və sənətkarlıq üfüqlərini genişləndirən, «insana ehtiram və məhəbbət konsepsiyası, təbiətin əsrarəngiz gözəlliyinə məftunluq, vətənə ülvi bağlılıq, qadın ləyaqətinə hörmət və bu kimi düşüncələr» onun şeirinin ana xəttinə çevrilmişdir.

Müharibə illərində, müharibədən sonrakı dinc quruculuq illərində də onun poeziyasının əsas motivləri vətənpərvərlik, vətəndaşlıqdır. Torpağına məhəbbət, sülh-əmin-amanlıq naminə fədakarlığa «çağırış» əsasdır. Nigar Rəfibəylinin «müxtəlif mövzularda yazdığı təbiət şeirləri və musiqi bəstələnmiş onlarla nəğmələri müasirlərimizin mənəvi zənginliyinə, estetik kamilliyinə xidmət edir. Nigar Rəfibəylinin poeziyası müxtəlif yaşlı uşaqların və gənclərin bədii-estetik tərbiyəsinə yönəldilmişdir. Ana-şair-tərbiyəçi... bir-birini tamamlayan bu üç şərəfli ad Nigar poeziyasının ruhudur. O, hansı mövzuda yazırsa-yazsın, ana ləyaqəti, şair duyğuları və əxlaqi-etik məziyyətlər sözün canına hopur» (Q. Namazov).

Onların yaradıcılığı tənqidçilərin, ədəbiyyatşünasların daima diqqət mərkəzində olmuşdur. Tədqiqatçı alim Qulu Xəlilov Nigar Rəfibəylinin yaradıcılığı haqqında yazır: «Onun əsərlərində insanın ali, təmiz hissləri, düşüncələri tərənnüm olunur. O, istər təbiətdən yazsın, istər ailədən, siyasi hadisələrdən yazsın, yenə də əsas aparıcı, həlledici motiv insanın nəcib fikir və duyğularıdır. O, ən adi predmet və hadisədə belə, müəyyən gözəl bir hiss və fikir tapır, bunları səmimiyyət və məhəbbətlə qələmə alır. Nigar təmiz ana qəlbi, həssas şair ürəyi ilə sevir. O, vətəni, sülhü, azadlığı sevir, həqiqi dostu, sədaqətli yoldaşı sevir, sənətkarı, şairi,

şeiri, sənəti sevir, əməyi, quran, yaradan, yaşadan adamları sevir, baharı, gözəlliyi, təbiəti, günəşi sevir, bu nəcib hissləri, fikirləri özündə təcəssüm etdirən insanları sevir».

Şəhriyar yaradıcılığının tədqiqatçısı, istedadlı qələm sahibi Hökümə Büllurinin sənətkarlıq imkanları, yaratdığı əsərlər Azərbaycan ədəbiyyatının qiymətli incilərindəndir. Başıbəlalı millətin yazar qızı ilk qələm təcrübələrini qələmə alanda içindən gələn səsləri öz ana dilində izhar etməyə belə ixtiyarsız idi. Bununla belə, o, sənət aləmində öz izini qoydu, öz cığırını açdı.

Hökümə Bülluri «fədai dəstələrində olmamışdı. O, əlinə silah almamışdı, döyüşlərdə iştirak etməmişdi. Onun silahı qələm idi. Hökumə ilk şeirlərini fars dilində yazmışdı. O, yazdığı şeirləri dərc etməz, hətta oz yoldaşlarına da oxumazdı. Yalnız hərdən şiddətlə qapını döyən küləklər bir yetim nalə kimi pəncərələrdə zarıldayarkən kiçik Hökumə gözlərindən axan isti yaşları anasının qolları arasında gizlədərək ona öz könlünün tərcümanı olan şeirlərini oxuyardı. Lakin anası onun farsca yazdığı şeirləri diqqətlə dinləyər, bir şey başa düşməzdi. Yalnız «qızım, dilimizdə yazsana»,- deyərdi. Bu sadə və nəcib arzunu Hökümə yalnız İran Azərbaycanında demokratik hərəkat başlandığı zaman həyata keçirə bildi. Yeni Azərbaycan demokratik hökumətinin verdiyi qərar əsasında Azərbaycan dili dövlət dili oldu. Hökümə ağır qapılı bir zindandan qurtarmış məhbus kimi yeni həyatın qoynuna atıldı. O, şeirlərini öz doğma Azərbaycan dilində yazmağa başladı» (N. Rəfibəyli).

Vətən həsrəti zərif qəlbli, kövrək qadın şairlərimizin şeirlərinin ruhuna hopub. İki yüz ildən artıq bir-birinə həsrət qalan o taylı bu taylı Azərbaycan xalqının vətən yarası nə qədər ki, sağalmayıb bu həsrət yarası işləyəcək, zaman-

zaman bizi göynədəcək, xatirələr bu yaranın gözünü qoparacaq, qanadacaq, dırnağıyla eşəcək, eşəcək, ağrısı ürəyinə dağ çəkəcək. Güney Azərbaycanın Zəncan şəhərində dəmirçi ailəsində doğulmuş, ömrünü Quzey Azərbaycanında başa vurmuş, ən gözəl günlərini, həyatının ən coşqun çağlarını el həsrətiylə, vətən acısıyla keçirmiş Hökümə Bülluri yazır:

Yenə hicran əlində, qəlbim sorağa düşdü,
Yadıma Təbriz, Zəncan, Gözəl Marağa düşdü...

Gəzdiyi meşələri, düzləri, qoynu bağlı-bağatlı çölləri yadına salan şairənin ellərinin həsrəti içindən bir gizilti kimi keçir.

Mərəndin müşk qoxuyan, ətirli yaylaqları,
Şəklim ayağım altda, axan bulağa düşdü.
Körpə bir ceyran baxır ürkək baxışlarıyla,
Uzaqlardan baş alıb yaxın otlağa düşdü.
Mən necə də sevməyim, şəhərimi, kəndimi?
Onların eşqi ilə qəlbim sorağa düşdü.

Bu misralarda, Güneyli-Quzeyli Azərbaycanını dərin məhəbbətlə sevən vətənpərvər şairin kəndinə, şəhərinə həsrət qəlbinin göynərtiləri var-«uzaqlardan baş alıb yaxın otlağa» düşən körpə ceyranı, daş dibindən qaynayan bulaq «çağırır», vüqarla duran, «kölgəli» dağlar onu məftun edir.

Bu gün Hökümə Büllurinin, onun kimi neçə-neçə yazar qadınlarımızın arzu və istəklərini, ümummilli kədərini qələmə alan şairələrimiz, nasirlərimiz yetişir...

Sara Rəhimova (1928-1975) «Azərbaycan qadını» jurnalında ədəbi işçi kimi fəaliyyətə başlamış, 1952-ci ildən məişət və mənəvi əxlaq problemlərinə həsr olunmuş hekayələrlə («Ədəbi həsrət», «Peşimançılıq», «Dönük qız», «Sevinc» və s) dövri mətbuatda tanınmışdır. «Hekayələr», «O qayıtdı», «El anası», «Pəncərə» və s. kitablarına müxtəlif illərdə yazdığı povestləri və hekayələri daxil edilmişdir. Yaradıcılığının çiçəkləndiyi bir dövrdə-47 yaşında vəfat etmişdir.

Elmira Axundova tanınmış yazıçı-jurnalist kimi vətəninə, xalqına, mədəniyyətimizin inkişafına xidmət edir. 90-cı illərdə Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında əsl vətəndaş qeyrətiylə çalışdığı, böyük fədakarlıqlar göstərdiyi məlumdur. Bu illər ərzində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün mübarizə yolundan çəkilməmişdir. Onun İsa Nəcəfovla birgə yazdığı «Naşirin ölümü», «Şüşə saray» əsərlərində H.Əliyevin həyat və fəaliyyəti əhatəli şəkildə əks etdirilmişdir. Dörd cildi çap olunmuş, iki cildi də çapa hazırlanan «Heydər Əliyev: Şəxsiyyət və zaman» (Az. və rus dilində) kitabları «gərgin əməyin, cilalanmış istedadın heç bir maneədən, təzyiqdən qorxub çəkinməyən vicdanlı qələm adamının könül meyvələridir». Elmira xanım vaxtilə «Literaturnaya qazeta» qəzetindəki obyektiv, kəsərli çıxışları ilə tanınmış, oxucuların rəğbətini qazanmışdır. Bu gün həm istedadlı qələm sahibi kimi, həm də millət vəkili kimi ədəbiyyatımızın, mədəniyyətimizin inkişafı uğrunda fəaliyyətini davam etdirir.

Firuzə Məmmədli 60-cı illərdə Xaçmazda «Dostluq» qəzetində çıxan «Ay həkim» şeirilə ədəbiyyata gəlib, mətbuatda dərc olunan digər lirik şeirləri ilə yanaşı tənqidi və publisistik məqalələrin də müəllifidir. «Gümüş damla», «Yoluma bahar düşüb», «Yetkinlik», «Bir qarış ucalıq», «Məni mənlə bölən dünya» «Seçilmiş əsərləri», 3 cilddə, «Ömrün axarı», «Dilək yaxasına dönnəm yenidən», «Bədii dilin estetik mənbələri» və s. kitabları çap olunmuşdur. 120-yə yaxın elmi və publisistik məqalənin müəllifidir. «Ədəbi ictimaiyyətdə öz poetik deyim tərzi, özünün poetik zövqü» olan Firuzə Məmmədli yaradıcılığı haqqında onlarla məqa-

lələr yazılmışdır. Ələkbər Salahzadə fikirlərində haqlıdır ki, «Firuzə xanım poetik hiss və fikirlərlə cilalanmış ən uğurlu şeirlərində sözə həssas, sözün məna çalarlarından məharətlə faydalanan bənzərsiz şairdir. Kövrək misraları, şeirilə yanaşı, məna yükü ilə dopdolu, sərt həqiqətlərdən yoğrulmuş, sanki qranitdən yonulmuş elə poetik nümunələri var ki, bunların müəllifinin qadın olduğuna inanmaq olmur. Görünür, çətinliklərinə sinə gərib dəf elədiyi həyatın bütün sərtlikləri ona bir kişiyanalıq aşılayıb».

İstedadlı qadın yazarlarımızdan Rüzgar Əfəndiyevanın imzası oxuculara çox gözəl tanışdır. Əsərləri dövri mətbuatda, almanaxlarda çap edilmişdir. 80-dən artıq şeirinə mahnı bəstələnmişdir. Bəstəkar Vasif Adıgözəlovun «Natəvan» operasının ariya və duetlərinin mətninin, «Unuda bilməzsən», «Ulduzlar niyə yatmır», «Gözlə», «Sehrli gülün nağılı», «Ömürdən keçən illər», «Lalənin ləçəyi», «Gələn də var, qalan da var», «Ağdam döyüşür» (sənədli hekayələr) kitablarının müəllifidir. Lirik, ahəngdar, həzin lirikasında insan, tale, qayğı dolu ömür, sabaha inam, ümid, kədər, başı bəlalar çəkən torpağın dərdi, həsrəti, doğma itkilərinin törətdiyi sarsıntılar-əsl bəşəri, insani duyğularla köklənmiş əsərlərində orijinal, bənzərsiz qəlbin səsi duyulur:

Günlərimin avandı nə, tərsi nə,
Fələk yazıb bu sevgini tərsinə.
Gedən yollar heç dönərmi tərsinə,
Ümid qalıb bu yolların düzünə....

Rüzgar Əfəndiyevanın əsərləri dövri mətbuatda, almanaxlarda çap edilir, şeirləri orta məktəb dərsliklərinə, dərs vəsaiti və metodik vəsaitlərə salınmışdır. «Yol gözləyənlər» «Sabah da qar yağsa..., «Ağdam döyüşür», «Vətəndir Arifin səsi», «Əbədi günəş» (poema) və s. kimi 15-ə qədər kitabın müəllifidir.

Yazıçı, publisist, "Turan" Qadınlar Mərkəzinin, "Bura Vətəndir" və DAMM-ın Qadın Şurasında idarə heyətinin üzvü, «Kitab evi» İctimai Birliyinin sədri Salatın Əhmədli onlarla bədii, publisist kitabların müəllifidir. «Heydər Əliyevin dil siyasəti», «Hər kim yüz il yaşamasa», «Səfərnamə» (iki cildlik) və s. kitabların müəllifi, onlarla kitabın tərtibatçısıdır. Yaradıcılıq xidmətlərinə görə «Qızıl qələm» media mükafatına, «Vicdanlı qələm», «Milli heysiyyət» fəxri diplomlarına layiq görülüb.

Mahirə Abdulla ədəbiyyata şeirlə gəlib. İlk şeiri 1966-cı ildə Qubadlıda nəşr olunan «Avanqard» qəzetində çap olunub. «Qoruyaq dünyamızı», «Qırmızı təpələr», «Tərk edilmiş yuvalar», «İlğım cənnətlər», «Bəyaz ömür» və s. adda onlarla şeir kitablarının müəllifidir. Nəsr aləmində də uğurlu əsərləri ilə («Ürəkkeçmə», «Əvvəl, axır») tanınır. Nəsr əsərlərində insan ömrü, qadın taleyi, gerçək həyatın acılı-şirinli anları, vətən, xalq təəssübkeşliyi, yurd həsrəti, gərgin həyəcanlar, sarsıntılar, situasiyalara düşən insanın üzülməyən ümidlərinin işığında sabaha can atması-işıqlı, xoşbəxt gələcək üçün çarpışması əsərlərinin ana xəttindədir. Fəlsəfə elmləri namizədidir. Mahirə Abdulla «Qatmaqarışıq nizam» albom-kitabında öz rəsmlərini bədii yaradıcılığının, fəlsəfi düşüncələrinin yeni, orijinal forması kimi təqdim edir.

Çox təəssüf ki, qadın sənətkarlarımızın yaradıcılığı yetərincə tədqiq edilmir.

Şairə Fəridə Ləman «Tale adlı yazı varmış», «Suya danışılan yuxu»,«Qazax mahalının şəhidləri»,«Oğlundan, qızından yarısa Vətən», «Hələ yol gedirik» və s. kitabların müəllifidir.

Südabə Sərvi ədəbi fəaliyyətə «Yeni həyat» qəzetində dərc olunan yazıları ilə başlayıb. 1995-2001-ci illərdə Bakıda

«525-ci qəzet», «Mədəniyyət» və sair qəzetlərdə yazıçı-publisist kimi fəaliyyət göstərib. Sonrakı illərdə Azərbaycan Dövlət radiosunda və müxtəlif telekanallarda ssenarist-redaktor kimi bir çox maraqlı verilişlərin müəllifi olub. Azərbaycanın tanınmış sənətkarları haqqında çəkdiyi verilişlər tamaşaçıların rəğbətini qazanıb, ədəbiyyat və incəsənət adamları, klassiklərimiz haqqında onlarla publisistik-analitik yazıların və ədəbi söhbətlərin müəllifidir. «Respublika», «Ədəbiyyat», «Kredo» qəzetlərində, «Azərbaycan», «Ulduz» dərgilərində dərc olunan şeir və hekayələri maraqla qarşılanıb. «Bu dənizin gözü yaşlı sənsiz», türk dünyasının böyük yazarı Çingiz Aytmatov haqqında tərtib etdiyi «Mən Manasın oğluyam» və s. kitabların müəllifidir. Yazdığı əsərlərdə həssas bir qəlbin səsi duyulur, vətənpərvərlik, torpağa, yurda sevgi, onun sabahı üçün narahatlıq, torpağından didərgin düşmüşlərimizin narahat ömrü, həsrəti, intizarı, ictimai dərdi yaşayır. Həm bədii publisist, həm də poeziya sahəsində uğurlu fəaliyyətini davam etdirir.

Azadə Taleh lirik şeirləri ilə yanaşı ictimai fəaliyyəti, publisistik yazıları ilə tanınıb. Azada Taleh-Abbasqızı geniş dünyagörüşə, yaradıcılıq imkanlarına malikdir. Əsl vətəndaş şairdir. Gənc yaşlarından ədəbi yaradıcılığa başlayan Azadə Talehin «Tənha ağac», «Sənsiz», «Nə yaxşı ki, dəniz varmış», «Dədə Qorqudda Borçalı izləri», «Borçalı lətifələri», «Taleyim mənim, Talehim mənim», «Bulaq», «Həqiqətin təşnəsiyəm», «Yurdumun Azadəsiyəm», «Haqqın quluyam», «Dünya, məni tanıdınmı» və s. kitablarında müxtəlif janrlarda qələmə aldığı şeirləri oxucularına töhfəsidir. «Qafqaz Media» İctimai Birliyinin sədri, «Qafqaz-Press», «Borçalı» qəzetlərinin baş redaktoru, «Kardiologiya» jurnalının, «Hakimiyyət və zaman» jurnalının rəhbəri olan Azadə

xanımın yazdığı şeirləri onun nəcib, həssas qəlbinin çırpıntılarıdır.

Natəvan Dəmirçioğlu «Səbət», «Yetim», «Üç nöqtə» povestləri, «Kələğayı», «Avey əfsanəsi» və s. əsərlərini psixoloji səpkidə yazmış, yazıçı öz müşahidələrinə əsasən zəngin xarakterlər yaratmağa çalışmışdır.

Natəvan Dəmirçioğlunun «Yetim» povestini ən uğurlu nəsr əsərlərindən biri saymaq olar. «Səbət» povesti də eyni ruhlu nəsr əsərlərindən biridir. Qoyulan problemlər yazıçının yaradıcılıq imkanlarının zənginliyi nəticəsində bədii həllini tapıb.

Onun qələmə aldığı əsərin mövzusu real həyatdan götürülüb. İnsan taleyinə, arzusuna, ziddiyyətli həyat hadisələrinə biganə qala bilməyən yazıçı təxəyyülü burada əsasdır, qələmə aldığı mövzu inandırıcı, həyatidir, canlı müşahidələrə əsaslanan yazıçı hadisələri reallıqlar üzərində kökləyib.

Hər bir mənəvi təhqirlərə dözən, içini göynədən ağrı-acısını gizlətməyə çalışan, aldadıldığını ailə, övlad naminə öz ürəyində saxlayıb açıb-ağartmayan Qadın-Ana böyüklüyü ön plandadır, nə qədər acı olsa da, burada qoyulan məsələlər bizim yaşadığımız reallıqlardır. Natəvan Dəmirçioğlu hadisələri bədii təxəyyülünün süzgəcindən keçirib oxucu fikrini, düşüncəsini özünə böyük ustalıqla cəlb edəcək bir formada qələmə alıb. Burda diqqətimizi cəlb edəcək əsas məsələ məhz fərdi yaradıcılıq keyfiyyətidir. Bu keyfiyyət bir yazıçı qadına-istedadlı qələm sahibinə məxsusdur.

Aybəniz Kəmalənin poetikasındakı humanizm diqqəti çəkir. Bir çox kitabların («Həyat burulğanında», «Tanrıya açılmış əllər» və s.) müəllifi, yazdıqları ilə diqqəti çəkən Aybəniz Kəmalənin şeirlərindəki fəlsəfi, dini, irfani mövzular, onların poetik bir dillə ifadəsi bir daha göstərir ki,

Məhsəti Gəncəvi, Heyran xanım, Xurşud Banu Natəvan ənənələrini davam etdirən istedadlı şairələrimiz bu gün də yaşayır, yaradır, oxucu kütləsinin qəlbinə yol tapa bilir.

Elmira Axundova, Rəhilə İsmayıllı, Rəhilə Qeybullayeva, Fəridə Əliyarbəyli, Sara Oğuz, Gülxani Pənah, Salatın Əhmədli, Fəridə Ləman, Mahirə Abdulla, Xanımana Əlibəyli, Nuridə Atəş, Əminə Tuncay, Gülnarə Camaləddin, Bahar Bərdəli, Sima Şirvanlı, Mahcamal, Məleykə Turel, Gülarə Munis, Nüşabə Məmmədli, Roza Qarabağlı, Fərqanə Mehdiyeva, Aləmzər Sadıqqızı, Nəsibə Tahiri Anadil, Roza Qarabağlı, Zəminə Xınalı, Nərgiz Çalxanqaya, Aləmzər Əlizadə, Güllü Yoloğlu, Mərziyə Səlahəddin, Dilarə Əliyeva, Mina Rəşid, Minayə Əliyeva, Xatirə Fərəcli, Könül Abbasova, Rəfiqə Şəms, Minaxanım Nuriyeva, Rəfiqə Nuray, Könül Nazimqızı, Sona Vəliyeva, Mehriban Xalıq, Minayə Əliyeva, Mətanət Hüseynxanqızı, Məryəm Şahverdiyeva, Fəridə Hacıyeva, Mehriban Vəzir, Xatirə Fərəcli, Xatirə Əzizqızı, Gövhər Əntiqə, Flora Xəlilzadə, Firəngiz Bayramova, Fəridə Hacıyeva, Lətifə Əhmədzadə, Lalə Cavanşir, Lalə Həsənova, Qiymət Məhərrəmova, Kamilə Nemət, Xuraman İsmayılova, Xuraman Vəfa, Xanım İsmayılqızı, Xalidə Xalid, Ümmülbanu, Nəcimə Babayeva, Narıngül Nadir qızı, Natəvan Dəmirçioğlu, Nisəbəyim, Nüşabə Araslı, Şirinxanım Şadiman, Tahirə Məmməd, Tamella Pərvin, İlhamə Məhəmmədqızı, Münəvvər Tapdıqova, Mənzər Niyarlı, Məleykə Səma, Zərəngiz-Dəmirçi-Qayalı, Məleykə Elcanlı, Bəsti Əlibəyli, Günel Anarqızı, Mənzər Niyarlı, Azadə Taleh, Azadə Musayeva, Türkan Əfəndiyeva, Mədinə Həsənova, Rəhimə Zeynalova, Rəhilə Elçin, Rəhilə İsmayıllı, Rəfiqə Şəms, Qiymət, Zeynəb Bəhmənli, Zemfira Məhərrəmli, Aybəniz Kəmalə, Şükufə

Mirzəyeva, Şövkət Horovlu, Şərəf Cəlilli, Şəlalə Ana, Südabə Cəlil, Südabə Sərvi, Şəhanə Şükür, Sona Xəyal, Simuzər Baxışlı, Solmaz Amanqızı, Sevinc Nuruqızı və s. həm nəsr, poeziya, həm də ədəbi tənqid, ədəbiyyatşünaslıq sahəsində tanınmış qadın ziyalılarımızdır.

90-cı illərdə Azərbaycan həyatında baş verən ictimai-siyasi hadisələr, erməni faşistlərinin torpaqlarımızı işğal etməsi, ölkəmizin düçar olduğu fəlakətlər, erməni-rus birləşmələrindən azad edilməsi uğrunda gedən mübarizələr dramaturgiyaya təsir edir. İ.Əfəndiyev «Xurşudbanu Natəvan», «Hökmdar və qızı», B.Vahabzadə «Göytürklər, yaxud özümüzü kəsən qılınc», «Dar ağacı», «Hara gedir bu dünya», N.Xəzri «Torpağa sancılan qılınc», «Gecə döyülən qapılar», N.Həsənzadə «Pompeyin Qafqaza yürüşü», Ə.Məmmədxanlının «Xürrəmilərin ağ şahini», «Kəllə və qızılgül», Ə.Əmirlinin «Ağqoyunlular və qaraqoyunlular», Eldar Baxışın «Uzun Həsən», M.Çəmənlinin «Cavad xan», M.İbrahimbəyovun «İstintaq», «Kaliforniyada dəfn», Elçinin «Ah, Paris, Paris», «Arxadan vurulan zərbə», «Mənim sevimli dəlim», V.Səmədoğlunun «Bəxt üzüyü», erməni faşistlərinin Qarabağ və onun ətraf bölgələrində törətdiyi faciələri özündə əks etdirən, onların yırtıcı simasını ifşa edən N.Rüstəmovun «Xocalı harayı», V.Əsədovun «Didərginlər», Ə.Səməndərin «Gül yağışı», R.Səməndərin «Girovlar», N.Hacızadənin «Qisas qiyamətə qalmaz», G. Pənahın «Xocalı, ay Xocalı», R.İçərişəhərlinin «Nankor qonşu» və s. əsərləri yaranmışdır.

Çox maraqlı haldır ki, 50-60-cı illərdə ədəbiyyata gələn, Azərbaycan ədəbiyyatında öz sözünü deyən şair, nasir, dramaturqlarımız həm də ədəbi-tənqid, ədəbiyyatşünaslıq, tərcüməçilik sahəsində də yetərincə uğurlar sahibidir.

Yaşar Qarayev tənqidçi, ədəbiyyatşünas, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi kimi Azərbaycan ədəbiyyatşünaslığının tarixinə düşən böyük alim, şəxsiyyətdir. Müasir ədəbi prosesə, teatr tənqidinə, bədii ədəbiyyatın müxtəlif problemlərinə aid çoxlu sayda əsərlərin müəllifidir. «Ədəbi proses» adlı illik elmi-tənqidi məcmuənin yaradıcısı, redaktoru, M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun hazırladığı doqquz cildlik dünya ədəbiyyatı tarixi, «Çoxmillətli Sovet ədəbiyyatı tarixi (inqilabaqədərki dövr) və Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı yeddi cildlik «Azərbaycan ədəbiyyatı tarixi» monumental əsərlərin müəlliflərindəndir. Dünya şöhrətli ədəbiyyatşünasın «Faciə və qəhrəman», «Səhnəmiz və müasirlərimiz», «Tənqid: problemlər, portretlər», «Poeziya və nəsr», «Poeziyanın kamilliyi» və s. əsərləri ədəbiyyatşünaslıq elmi üçün zəngin, qiymətli mənbələrdir.

Qasım Qasımzadə ədəbiyyatşünas, ədəbi tənqid sahəsində səmərəli fəaliyyət göstərdiyi kimi, bədii yaradıcılıqda da böyük uğurlar qazanmışdır. Onun «Böyük kənd», «Bizim şəhər, «Bizim dağlar», «Ürək döyüntüləri», «Kiçik dayə», «Nəğməli ürəklər», «Bənövşə yarpağı», «Dağlar buraxmır məni», «Daşdan keçən söz», «Səndən ayrılalı», «Seçilmiş əsərləri» və rus dilində çıxan beş şeir kitabının müəllifi olmaqla bərabər, «Azərbaycan ədəbiyyatında xalqlar dostluğu» (1956), rus dilində «Nikolay Ostrovski» (1955), «Aşıq gördüyünü çağırar» (1969), «Ədəbiyyatda millilik və beynəlmiləlçilik» (1982), «Ədəbiyyatımız və mənəviyyatımız» (1988) elmi monoqrafiyaların müəllifidir. Çoxlu sayda poetik tərcümələri var. M.Tursunzadənin «Hindistan balladası», «Asiyanın səsi», İ.Noneşvilinin «Qonaq gəlin Gürcüstana», M.Mirşəkərin «Qızıl qışlaq» əsərlərini nümunə göstərmək olar. Onun şeirlərinin və poemalarının əsas mövzusu «müasir narahat dünyamızın dərdləri, xalqların azadlıq və istiqlaliyyət uğrundakı mübarizəsi, yer kürəsinin dərdləri, «bir sıra həlli vacib siyasi, sosial, habelə fəlsəfi problemlərdir: «Şair «Aşıq gördüyünü çağırar» tezisinə bütün bədii əsərlərində sadiq qalaraq mümkün qədər gördüyünü «çağırmaq» yolu ilə getmiş, meşələrimizdən, aran mənzərələrimizdən, şır-şır axan bulaqlarımızdan, dənizlərimizdən, göllərimizdən, çaylarımızdan, ovçuluqdan, bir sözlə ana yurdun füsunkar təbiətinin bütün guşələrindən, nəhayət, təbiətin əşrəfi-insandan poetik himnlər oxuyur. Şairin şeirlər kitabında bu silsilədən «Dağlar buraxmır məni» başlığı altında xeyli əsər verilmişdir. «Asan yollar, çətin yollar», «Bulaqların mahnısı», «Təbiətin qız vaxtıdır», «Bir şəlalə var idi», «Göy göl mənzərələri», «Lalə» və s. şeirləri bu mövzudadır...

Həm şeirləri, həm poemaları, həm də elmi-publisistik əsərləri xalq, vətən sevgisi ilə döyünən vətəndaş şairin, alimin qəlbinin səsidir.

Əli Mirzəyev ədəbiyyatşünas alim, publisist, şair kimi ədəbiyyatımızın inkişafı, tədqiqatı sahəsində uğurla çalışmışdır. 60-cı illərdən dövri mətbuatda elmi-pedaqoji, publisistik yazıları ilə yanaşı təmsilləri, şeirləri çap olunub. «Kəlbəcər faciələri», «Qanlı yanvardan əsən küləklər», «Vətən harayları», «Al babanın nağılları», «Çal qılıncın, babam Qazan» şeir və poemaları oxuculara yaxşı tanışdır. Qarabağ faciələri, erməni faşistlərinin işğal etdiyi ərazilərimizdə törətdiyi qanlı, dəhşətli faciələr, Xocalı dəhşətləri, ərən oğullarımızın qəhrəmanlıq, vətənpərvərlik dolu ömrü, gənc nəslin uşaqların qəlbində vətənə, onun keçmişinə, bu gününə hörmət və ehtiram hissləri tərbiyə etmək amalı bu kitablarda toplanmış əsərlərin ruhunda, qanındadır. «Klasssik

poeziya və müasirlik», «Folklor və Azərbaycan uşaq ədəbiyyatı», «Azərbaycan uşaq ədəbiyyatı» monoqrafiyalarının, dərs vəsaitlərinin müəllifi Əli Mirzəyevin adı gənc nəslin təlim və tərbiyəsi ilə yanaşı uğurlu yaradıcılığı ilə ədəbiyyat tariximizə yazılıb.

Füzuli Bayat ədəbiyyatşünas, tərcüməçi kimi müstəqillik dövründə yetişmiş alimlərimizdəndir. «Azərbaycan sehrli nağıllarının strukturu» mövzusunda namizədlik, «Oğuz dastanı: tarixi mifoloji kökləri, təşəkkül, spesifikası» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. «Oğuz epik ənənəsi və Oğuz Kağan dastanı» monoqrafiyası, «Zaman-zaman içində» türk xalq nağılları, «Şaman əfsanələri və söyləmələri», «Əlişir Nəvai haqqında rəvayətlər», «Şah Abbasın arvadı» kitablarını toplayıb tərcümə və tərtib etmişdir.

Alim, ədəbiyyatşünas Əli Saləddinin şeirləri, Akif Bayramovun («Dost məhəbbəti», «Sevinc», «Mirzə Şəfi Vazeh» televiziya tamaşalarının ssenarisini yazıb), Arif Abdullazadə («Duyum» romanı, «Bəxtimizin kitabı», «Arzular», «Könüllərin dünyası» və s. şeir və nəsr kitabları), Atif Zeynallının 15-dən çox şeirləri, poemaları toplanmış kitabları, Famil Mehdinin 20-yə yaxın poetik əsərləri toplanmış, nəşr olunmuş kitabları bizə tanışdır.

Cəfər Xəndan şair, tənqidçi, ədəbiyyatşünas kimi Azərbaycan ədəbiyyatı tarixində özünə layiqli yer tutmuşdur. Onun ədəbiyyatşünaslıq sahəsində onlarca elmi-nəzəri əsərləri ilə yanaşı «Bəyaz gecələr», «Cəbhə şeirləri», «Qafqaz», «İlk ayrılıq» kimi əsərləri də vardır.

Məsud Əlioğlunun adı tənqidçi, ədəbiyyatşünas kimi Azərbaycan ədəbiyyatı tariximizin səhifəsindədir. «Cəlil Məmmədquluzadə»nin dramaturgiyası» (1951), «Mirzə İbrahimovun dramaturgiyası» (1955), «S.S.Axundovun yaradıcılığı» (1956), «Rəsul Rza» (həyat və yaradıcılığı» (1960), «Məf-kurə dostları» (1961), «Tənqidçinin düşüncələri», «Ədəbiyyatda yeni insan» (1964), «Hüseyn Cavidin romantizmi» və s. 15-ə qədər monoqrafiya və elmi əsərlərin müəlifi Məsud Əlioğlunun irsi Azərbaycan ədəbiyyatşünaslığına daxil olan qiymətli elmi əsərlərdir.

Ədəbiyyatşünas, tənqidçi Pənah Xəlilov «SSRİ xalqları ədəbiyyatı» (iki cilddə), «Ədəbiyyatşünaslığın əsasları» (Mir Cəlalla birlikdə), «Sovet ədəbiyyatı», «Kitabi-Dədə Qorqud», «Əhməd Yəsəvi», «Nizami Gəncəvi və SSRİ xalqları ədəbiyyatı» (məqalələr toplusu) və s elmi-nəzəri kitabların müəllifidir. O, bədii tərcümə ilə də məşğul olmuş, tərcümələri 20-dən çox kitabda toplanmışdır. Dünya uşaq ədəbiyyatı kitabxanası, 50 cilddə seriyasından buraxılan Migel de Servantesin «Lamançlı Don Kixot» (I-II kitablar) irihəcmli əsərini, Herodotun «Tarix» kitabını və başqalarını buna nümunə göstərə bilərik.

Rəfael Hüseynov ədəbiyyatşünas, tərcüməçi, publisist, mətnşünasdır. Nizami adına Ədəbiyyat institutunun direktoru olmaqla yanaşı, dövri mətbuatda müntəzəm dəyərli məqalələri ilə çıxış edir. Orta əsrlər fars və türkdilli poeziyanın müxtəlif problemlərinə həsr edilmiş otuzdan artıq ədəbiyyatşünaslıq əsərinin müəllifidir. Farscadan Baba Tahir Üryanın «Dübeytlər»ini dilimizə tərcümə etmiş, «Vaxtdan uca», «1002-ci gecə», «Məhsəti necə varsa» və s kitabların müəllifidir. «İki ömrün işığı» (Nigar Rəfibəyli və Rəsul Rza haqqında) xatirələr kitabını, Məhsətinin rübailərindən ibarət kitablarını tərtib etmiş Rəfael Hüseynov istedadlı şəxsiyyət, dəyərli alim kimi tanınır.

Aqşin Babayev ədəbiyyatşünas alim, həm də nasir, dramaturq, tərcüməçi kimi tanınır. «Azadlıq uğrunda» he-

kayəsi ilə yaradıcılığa başlamışdır. «Cazibəli üfüqlər» (hekayələr), «Həmişəbahar», «Ağ ulduzlar» hekayələr toplularının, «Bir ürəyin hərarəti», «Bir parça həyat», «Dünya vəfalıdır», «Sünbül ətri» «Kişilər az yaşadı» və s.hekayə və povestlər kitabının müəllifidir. Əziz Nesinin hekayələrini, Haldun Tanerin «Keşanlı Əli dastanı» pyesini, Terensin «Qardaşlar» pyesini, Stefan Sveyqin «Naməlum qadının məktubu» əsərini dilimizə tərcümə etmiş, özü də «Yaralar», «Cəza», «Tufan», «Bir parça həyat» və s. səhnə əsərlərini yazmışdır. «Azərbaycan və türk dünyası», «Türk ədəbiyyatı müntəxəbatı», «100 yaşlı Nazim Hikmət» kimi ədəbiyyatşünaslıqla bağlı kitabların müəllifidir.

Aida İmanquliyeva, ədəbiyyatşünas, tərcüməçi, tənqidçi kimi tanınır. «Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı» adlı ilk mətbu məqaləsi 1964 -cü ildə «Azərbaycan» jurnalında dərc olunmuşdur. Şərq ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərini rus dilinə ərəb dilindən tərcümə etmişdir. Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən ruscaya çevirmiş, «Vostoçnı almanax»da (Moskva, 1979, VII buraxılış) çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında dövri mətbuatda, toplularda, elmi-kütləvi məcmuələrdə çap olunan məqalələri ilə yanaşı, «Assosiasiya pera» i Mixail Nüayme» (1975), «Cübran Xəlil Cübran» (həyat və yaradıcılığı) (1975), «Korifei novo-arabskoy litreaturı» (1991), «Qələmlər Birliyi və Mixail Nüaymə» (2002), «Yeni ərəb ədəbiyyatının korifeyləri» (2003) adlı kitabların, ərəbcədən «İnsan və quş» (hekayələr) (1974), «Ağ günlərin sorağında (İraq ədəbiyyatından nümunələr) (1983) tərcümə kitabların müəllifidir.

«Ərəb filologiyası məsələləri» məcmuəsinin tərtibçisi və redaktoru (1971-1973; 1979-1981), «Şərq şairləri Lenin və

Sovetlər ölkəsi haqqında» (1970), «Böyük Oktyabr və Şərq xalqlarının milli azadlıq mübarizəsi» (1977), «Sovet Azərbaycanı və xarici Şərq» (1980), «Şərq filologiyası məsələləri» (1986-1987), «Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə» (1987), «Şərq ədəbiyyatında ənənə və novatorluq» məqalələr məcmuələrinin müəlliflərindən, redaktorlarından bir olan Aida İmanquluyeva Ərəb xalqlarının ədəbiyyatını Azərbaycan oxucularına tanıtmışdır.

Azərbaycan ədəbiyyatı tarixində tərcüməçi kimi Beydulla Musayevin xidmətləri böyükdür. O, dünya ədəbiyyatından etdiyi tərcümələrlə Azərbaycan oxucularının dünya ədəbiyyatı haqqında bilgilərinin artırılmasında böyük rol oynamışdır. 30-a qədər tərcümə kitablarının müəllifi Beydulla Musayev A. Dümanın «Üç muşketyor», Dostoyevskinin «Cinayət və cəza», V.Hüqonun «Səfillər», Covanyolinin «Spartak» romanlarını, Saltıkov Şedrinin hekayələrini, L. N. Tolstoyun on dörd cildliyinin III, IV cildlərini və s. dilimizə tərcümə etmişdir.

Şair, alim və tərcüməçi kimi Ənvər Rzanın fəaliyyəti diqqəti cəlb edir. «Göz işığı» adlı ilk şeiri 60-cı illərdə «Ədəbiyyat və incəsənət» qəzetində dərc olunub. «Sənsiz», «Könlümə bahar düşüb», «Nə yaxşı görüşdük», «Bəxtəvər dustaq» və s. kimi kitabları poetik və lirik zənginliyi ilə oxucu kütləsinin rəğbətini qazanmış, şeirlərinə mahnılar bəstələnmişdir. Şair orijinal tərcümələri ilə də ədəbiyyatımızda yaşayır. «İngilis poeziyasının Azərbaycan dilinə tərcümə məsələləri» adlı elmi monoqrafiyanın müəllifidir. Bayronun «Şilyon məhbusu», «Mazera», «Parizina» poemalarını dilimizə tərcümə etmişdir. 48 illik ömrünü ədəbiyyatımıza, ədəbi dilimizin inkişafına həsr edən nakam şair, alim zəngin bədii imkanlara malik sənətkar kimi bu gün də oxucuların

sevimli şairidir. Azərbaycan şairlərinin əsərlərini ingilis dilinə tərcümə etmişdir. S.Vurğunun «Azərbaycan» şeirini ingilis dilinə tərcümə edən şair S. Vurğun dilinə, ahənginə, ritminə sadiq qalmaqla o dildə də şairlərimizin əsərlərinin gözəl səsləndiyini, hər dildə Azərbaycan poeziyasının sevilə biləcəyini sübut edir.

1960-cı illərdən bu günümüzə qədərki dram əsərləri əvvəlki dövr ənənələrinin məntiqi davamıdır, müasirliyə, yeniliyə yeni, orijinal baxışı ilə seçilir. «Müasirlik-yenilik ilk növbədə rəngarəng, ziddiyyətli, çoxplanlı, müxtəlif xarakterli mövzularda, onların psixoloji, mənəvi-əxlaqi cəhətdən təqdimatında özünü göstərirdi. Əxlaq normaları, tərbiyə məsələləri, təsərrüfat həyatı, əyintilərdən, ziddiyyət və nöqsanlardan xilas olmaq, ekologiya problemi, su, hava, torpaq və digər yaşamaq amillərinə olan laqeyd münasibət dramaturgiyada əsas mövzular sırasına daxil oldu. Torpaqla, insanla bağlı yeni konsepsiyanın davamlılığı, tarixi-əfsanəvi mövzuların dramaturgiyaya, səhnəyə tədrici gəlişi ənənəyə çevrildi. Bu da 1960-90-cı illər dramaturgiyasında, o cümlədən Azərbaycan teatr səhnəsində ideya və bədii mündəricə cəhətdən imkanların xeyli dərəcədə artmasına, müasir ədəbi mərhələnin tələb və ehtiyaclarının ödənilməsinə, əsasən də dram-səhnə sənətkarlığının güclənməsinə təbii imkan və şərait yaratdı» (Müasir Azərbaycan ədəbiyyatı. II cild. Bakı. 2007).

60-90-cı illər dramaturgiyasında həyatda baş verən hadisələr, zidiyyətlər, insanın mənəvi aləmi öz əksini tapırdı. Bu illərin dram əsərlərində xüsusilə komediyalarının başlıca mövzuları insanın hər cür vəziyyətdə belə öz ləyaqətini, saflığını, mənəvi gözəlliyini qoruya bilmək məsələləri idi. İ.Əfəndiyevin «Qəribə oğlan», A. Məmmədovun «Ulduzlar görüşəndə», «Kişilər», «Həmyerlilər», S.Dağlının «Kölgələr

pıçıldaşır» və s. pyeslərdə müasir insanın mənəvi aləmini bir sıra yeni üsullarla, psixoloji planda açmaq, kamillik probleminin müasir səviyyəsini göstərmək 60-90-cı illər dramaturgiyasının əsas yaradıcılıq prinsiplərindən idi» (A. Abbasov).

Bu dövr dramaturgiyanın uğurlarının ekran dramaturgiyasının inkişafı ilə bağlı olduğu bildirilir. «Böyük dayaq», «Qanun naminə», «Axırıncı aşırım», «Babək», «Dədə Qorqud», «Nəsimi» kimi əsərlərin ekranlaşdırılması, televiziya tamaşalarının yayılması və bunların səhnələşdirilməsi diqqəti cəlb edir.

Azərbaycan ədəbiyyatında detektiv əsərlər yaranmağa başlayır. Onun ilk nümunələrini Cəmşid Əmirov kimi istedalı yazarlar yaradır, sonralar bu sahədə daha yaxşı detektiv əsərlər yaranır ki, onların əksəriyətinin müəllifi Çingiz Abdullayevdir. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, tələbəlik illərindən mətbuatla yaxın olmuş, «Komsomol projektoru» qəzetinin baş redaktoru və hüquq fakültəsi idman klubunun Prezidenti seçilmişdir. 1979-cu ildə Qazaxıstanın paytaxtında və 1980-ci ildə Lvovda hüquqşünasların Ümusittifaq müsabiqələrində birinci yerləri tutmuşdur. 1981-ci ildə universiteti bitirəndən sonra SSRİ Avrasiya sənayesi Nazirliyinin müəssisələrində, 1984-1986-cı illər ərzində xaricdə işləmiş, iki dəfə yaralanmış, «Qırmızı bayraq», «Qırmızı ulduz» ordenləri, medallarla təltif olunmuş yazıçı Bakıya qayıtdıqdan sonra Dövlət Təhlükəsizlik Komitəsi, prokurorluq, polis idarəsi kimi hüquqmühafizə orqanlarına məsul vəzifələrə irəli çəkilir. Yerli və keçmiş sovetlər birliyinin mətbu orqanlarında müntəzəm bədii yazıları ilə çıxış edən yazıçının «Mavi mələklər» adlı ilk kitabı 1988-ci ildə çapdan çıxmışdır.

Fantastik və detektiv əsərlər müəllifi Ç. Abdullayevin əsərlərinə gənclərin marağı böyükdür.

Ədəbi fəaliyyətinə tələbəlik illərindən başlayan Ç.Abdullayev dövri mətbuatda oçerk, məqalə, detektiv janrda yazdığı hekayələrlə müntəzəm çıxış edir, rus dilində yazıb-yaradır. İngilis, italyan dillərində sərbəst danışan yazıçının əsərləri müxtəlif dillərə tərcümə olunmuşdur. Almaniyada, İrlandiyada, Fransada, Rusiyada kütləvi tirajla buraxılmış, 20 milyon nüsxədə olan 600-dən çox kitabının dünyada yayıldığı bildirilir. Bu kitablar onu siyasi detektiv janrda yazmış yazıçı kimi tanıtmaqla yanaşı, «Bankirin ölümü», «Günəş altında zülmət» kimi fantastik romanlar müəllifi kimi də şöhrətləndirmişdir. «Mavi mələklər», «Əclafların qanunu», «Qanın üç rəngi», «Məhşər ayağında» əsərləri Azərbaycan dilindədir. Rusca yazılan əsərləri də geniş oxucu kütləsinin ən çox maraq göstərdikləri əsərlərdir. Hazırda tirajı 23 milyon nüsxədən artıq və 27 dilə tərcümə olunmuş 138 roman və povestin müəllifi Ç.Abdullayevin kitabları əsasında yeddi çoxseriyalı və bir bədii film çəkilmişdir.

«Dronqo» (13 seriya)
«Yol verilən günah» (2 seriya)
«Son diaqnoz» (2 seriya)
«Milleniumda bir dəfə» (2 seriya)
«Əclafın dəsti-xətti» (2 seriya)
«Manyakın idrakı» (2 seriya)
«Ümidin külü» (20 seriya)

2006-cı ildə «Azərbaycanfilm» kinostudiyasında Çingiz Abdullayevin romanı əsasında «Məhkumların cənnəti» filmi çəkilmişdir. «Qrand-master», «Humay», «Qızıl qələm», «Şərəf və ləyaqət» mükafatları ilə yanaşı, «Dronqo» filmi «Qanun və cəmiyyət» adlı Moskva Beynəlxalq detektiv filmlərin kinofestivalının prizinə layiq görülmüş, «2004-cü ildə

alman kitab nəşriyyatının «Avropa romanının inkişafında töhfələrinə görə» mükafatına layiq görülmüşdür.

Avropa yazıçılarının «Avrovavilon 2000» səfərinin iştirakçısıdır.

1989-cu ilin fevralından təşkilati məsələlər üzrə Azərbaycan Yazıçılar Birliyinin katibi vəzifəsində çalışır. 1992-ci ildə PEN-klubun vitse-prezidenti, 1994-cü ildən SAKS-klubun prezidenti, 2003-cü ildə Beynəlxalq Ədəbi fondun, yanvar konfransında Ədəbi fonda müştərək sədr, 2005-ci ildə Yazıçılar İttifaqı Beynəlxalq Cəmiyyətinin sədr müavini seçilən yazıçı 2005-ci ildə Azərbaycan Prezidentinin fərmanı ilə «Xalq yazıçısı» adına layiq görülmüşdür. Hüquq elmləri sahəsində fəaliyyəti böyükdür. Hüquq elmləri doktoru, professordur.

Əlisəfa Azayevin detektiv əsərləri «Gecəyarı sui-qəsd», «Sirli qətl», «Amansız qatil», «Günahsız məhbus», «Gizli əməliyyat», «Gözlənilməz hadisə» və s. kitablarında toplanan əsərləri detektiv əsərlər kimi oxuculara tanışdır.

İ.Əfəndiyevin «Bağlardan gələn səs» pyesi, İ. Qasımovun «Dairəni genişləndirin», B. Vahabzadənin «İkinci səs», B.Vahabzadənin «Yağışdan sonra» (1978). «Yollara iz düşür» (1979), N.Xəzrinin «Sən yanmasan», «Əks-səda», İ.Əfəndiyevin «Sən həmişə mənimləsən» pyesləri yaranır: «60-90-cı illərdə dram yaradıcılığı sahəsində xüsusi məktəb yaratmağa qadir olan, yeni yaradıcılıq nümunələri ilə seçilən güclü bir nəsil fəaliyyət göstərirdi. Buraya İ.Əfəndiyev, M. İbrahimov, Ə. Məmmədxanlı və s. kimi yaşlı nəsillə yanaşı, B. Vahabzadə, N. Xəzri kimi orta nəslin, Anar, Elçin, Ə.Əylisli, N.Həsənzadə, A.Babayev, Maqsud və Rüstəm İbrahimbəyov qardaşları, A.Məmmədov, V.Səmədoğlu və digər gənc nəslin nümayəndələri daxil idi. Bu qüdrətli sənət-

karların dram əsərləri səhnə sənətkarlığının, rejissor və aktyor kadrlarının inkişafında müstəsna rol oynamışdı. İstər müasir, istərsə də tarixi mövzularda yazılmış əsərlər keçən əsrin dram sahəsindəki uğurlu inkişafı haqda müsbət fikir formalaşdırır» (C. Abdullayev).

1960-cı illərdən başlayan milli-mənəvi dəyərlər müstəvisinə qayıdış, bədii ədəbiyyatda insan amilin güclənməsi, sonrakı dövr ədəbi prosesində aparıcı qüvvəyə çevrilir. İmperiya ideologiyasından, kommunist ideologiyasından xilas olmağa çalışan ədəbi prosesdə yaranan əsərlər tənqidçilər tərəfindən də dəyərləndirilirdi. Bu dövrdə Mehdi Hüseyn (1909-1965), Məmməd Arif (1904-1975), Məmməd Cəfər (1909-1992), Cəfər Cəfərov (1914-1973), Mehdi Məmmədov ((1919-1985), Əkbər Ağayev (1915-1989), Abbas Zamanov (1911-1993), Kamal Talıbzadə (1923-2006), Əziz Mirəhmədov (1920-2002), Qulu Xəlilov (1930-1995), Yaşar Qarayev (1936-2002), Xeyrulla Məmmədov (1934-2006), Xalid Əlimirzəyev, Bəkir Nəbiyev, Əflatun Saraclı və başqa tənqidçilər, ədəbiyyatşünaslar həm klassik, həm də müasir ədəbiyyatın görkəmli şəxsiyyətləri, nəzəri-estetik problemləri, elmi-metodoloji prinsipləri haqqında bir sıra fundamental əsərlər müəllifləridir. Bu qüdrətli tənqidçilər, ədəbiyyatşünaslar bədii əsərlərlə ədəbiyyata gəlmiş, ədəbiyyatın həm elmi-nəzəri, həm də bədii silahı ilə «silahlanmışdılar». Onlar ədəbiyyatın nələrə qadir olduğunu, sözün bir qoşuna bərabər gücünü duyan şəxsiyyətlər idi. Onlar ədəbi prosesimizin düzgün istiqamətdə inkişafı yolunda bir mayak idilər. Bəşəri ədəbiyyatın yaranması, onun düzgün istiqamət tutması yolunda ədəbi-tənqid böyük qüvvə idi. Qüdrətli şairləri, nasirləri xalqa tanıtdırmaqda ədəbi tənqidçilər də böyük rol oynayırlar.

1920-Cİ İLLƏRDƏN SONRA UŞAQ ƏDƏBİYYATI

Uşaq ədəbiyyatı ədəbiyyatın tərkib hissəsi olub, müəyyən yaş dövrünə qədər uşaqlarımızın təlim, tərbiyə və əxlaqi-estetik tərbiyəsinə yönəldilən bədii əsərlərdir. Uşaqların marağını kəsb edən, onların diqqətini və məhəbbətini qazana biləcək bədii əsəri yazan yazıçı, şair fitri istedada, uşaq aləmini dərindən dərk etmək qabiliyyətinə malik olmalıdır. Hər yazılan uşaq ədəbiyyatı nümunəsi yaddaqalan olmur. Uşaq hafizəsinə, yaddaşına bir zaman özümüz də uşaq olduğumuz üçün yaxşı bələdik. Uşaq təfəkküründün, düşüncəsinin «sarı siminə toxunub onu tərpədən əsər» uzunömürlü olur. Uşaq yaddaşı tərtəmiz ağ kağıza bənzəyir deyirlər. O yaddaşa yaxşı əsərlər də qiymətli xəzinə kimi daxil ola bilər.

Uşaqların lap körpəlik, bağça, məktəb, yeniyetmə yaş bölgüləri olduğundan hər yaş öz aurasına bağlıdır, anladığı, qavradığı yazıya maraq göstərə bilər. Uşaq hər şeyə maraq göstərir. Uşaqlar üçün əsər yazanlar uşağın böyüdüyü ictimai mühiti, inkişafı, idrakı, zövqü, qavramaq dairəsini nəzərə almalıdır. Uşaq şeirləri ana laylası kimi hissləri oxşamalıdır. Uşaq müstəqil oxu vərdişinə, yazmaq qabiliyyətinə malik olana qədər onun üçün yazılan şeirlər bir neçə misralıq, bir bəndlik, məzmunu aydın, sözləri sadə, ritmik, oynaq olmalıdır ki, uşağın nəğmə kimi «sümüyünə düşsün». Yada salaq Mirzə Ələkbər Sabirin «Uşaq və buz», «Yaz günləri», Abbas Səhhətin «Cücələr», Abdulla Şaiqin «Xoruz», «Keçi» şeirlərini. Yaddaşımıza əbədi həkk olunmuş bu misraları bu gün də, bu yaşımızda da dilə gətirəndə sevinirik. Səməd

Vurğun çox gözəl deyirdi ki, «Uşaq insandır! Onun sadə görünən oynaq, daima xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur: düşünmək, duymaq, sevmək, küsüb-incimək, ağlamaq, gülmək, qəzəblənmək, xatırlamaq, xəyala dalmaq, ümid və arzulara bağlanmaq, yaxşılıq, hörmət-bütün insani xassələr uşaq aləmində mövcuddur. Biz uşaqla danışdığımız zaman-insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman-insan üçün yazdığımızı unutmamalıyıq». Uşaqdakı bu keyfiyyətləri nəzərə almaqla yaranan əsər təqdirəlayiqdir. Uşaq ədəbiyyatı uşaqlarda nəcib hisslər tərbiyə etməli, onu humanist duyğulara silahlandırmalıdır. Bu humanizm uşaqda ailəsini, topağını, vətənini, xalqını, onun üçün əziz olan maddiyyəti sevmək hissləri tərbiyə edir. Bu ədəbiyyat uşağı mükəmməl tərbiyəyə çatdırmalı, onda estetik keyfiyyətlər aşılamalı, onu yetkin insan kimi tərbiyə etməlidir, onda milli duyğular tərbiyə etməlidir. Onda Vətənə, torpağa məhəbbət, qayğı hissi tərbiyə etməlidir. Uşaq ədəbiyyatı təməlini ana laylalarından götürüb. Müxtəlif tarixi keçidlərdə yaranan uşaq ədəbiyyatı klassik ədəbiyyatın ənənələrini davam etdirməklə, xalq həyatını hərtərəfli, dolğun ifadə edə bilmişdir.

Azərbaycan uşaq ədəbiyyatı çox mürəkkəb, tarixi dövr keçirib. XIX əsrin sonlarında, XX əsrin əvvəllərində ana dilimizin tədrisi milli dərsliklərin yaranması zərurətini ortaya qoyduğu zaman milli uşaq ədəbiyyatı nümunələrimiz az idi. Dərslikləri tərtib edən müəllimlər, pedaqoqlar mütərəqqi dünya ədəbiyyatına, eləcə də uşaq ruhuna yaxın olan rus yazıçılarının bəzi əsərlərini ana dilinə tərcümə edir, dərsliklərə daxil edirdilər. İ.A.Krılovun təmsilləri, A.S.Puşkinin nağılları, M.Y.Lermontovun şeirləri, L.Tolstoyun hekayələri, eləcə də dünya ədəbiyyatının humanist ideyalar tərbiyə

edən ən nadir nümunələri Azərbaycan dilinə tərcümə edilməklə Azərbaycan uşaq ədəbiyyatının yazılmasına, təsir dairəsinin genişlənməsinə, artmasına təkan verir. Ölkəmizin xarici ölkələrlə iqtisadi, siyasi və mədəni əlaqələri uşaq ədəbiyyatımızın zənginləşməsinə zəmin yaratmışdır.

İnsan maddi ehtiyacla yanaşı mənəvi ehtiyacı da duymuşdur. Maddi sərvəti yaradan əmək, elə mənəvi sərvəti-bədii sözü və incəsənəti də yaratmışdır. Xalqın yaratdığı nəğmələr, laylalar, tapmacalar, yanıltmaclar, nağıllar, oxşamalar, uşaq oxucuları, uşaq nəğmələri, dastanlar uşaq təfəkkürünə də doğmadır. Qədim və orta əsrlərdə yaranan ədəbiyyatın tərkibində uşaq ədəbiyyatı inkişaf edirdi. Ən qədim dövr Azərbaycan ədəbiyyatı şifahi xalq ədəbiyyatı və əlimizə gəlib çatan yazılı ədəbi abidələrdir. Orxon-Yenisey abidələri, Kitabi-Dədə Qorqud, «Qutadqu-bilik», «Avesta», «Koroğlu» və s. dastanlar Azərbaycan tarixini, dilini, elmini, ədəbiyyatını öyrənmək üçün yaxşı mənbələrdir. Orta əsrlərdə Nizami, Məhsəti, Xaqani, Əbül-Üla kimi sənətkarlar şeirlərində yaşadıqları dövrün ziddiyyətlərini, feodal mühitini tənqid etməklə yanaşı dövrün uşaqlarına, yeniyetmələrinə, gənclərinə tərbiyəvi nəsihətlər də vermiş, yazdıqları nəsihətamiz şeir-lərdə onları doğru, düz əməl sahibi olmağa, nəcibliyə səs-ləmiş, pis, yalan danışmaqdan, artıq tamahlıqdan, var-dövlətə hərislikdən, acgözlükdən, kobudluqdan uzaq olmağa, özlərində yaxşı əməllər tərbiyə etməyə çağırırdı.

XII əsrlərdə Azərbaycan dilində həm şifahi, həm də yazılı ədəbiyyat inkişaf etməyə başlayır. «Dastani-Əhməd Hərami» Azərbaycan dilində yazılmış ilk nümunə kimi dəyərlidir, oğuznamələrdən, dastanlarımızdan qaynaqlanaraq yaranmış olduğu şübhəsizdir, «Mehr və Müştəri» əsəri,

Həsənoğlunun şeirləri, Aşıq Paşanın «Qəribnamə» əsəri, Əlinin «Qisseyi-Yusif» poeması və s. bu ədəbiyyatlar üzərində kök atıb, inkişaf edib. Nəsimi, Füzuli, Xətayi, Kişvəri kimi dühalar bəxş edən bədii ədəbiyyatımızda gənclərin təlim–tərbiyəsinə, mənəvi saflığına örnək olan hadisələr qələmə alınır, insanın kamilləşməsi, nəcibləşməsi üçün yetərincə məsələlər öz bədii əksini tapırdı.

XIX əsr Azərbaycan xalqının tarixində yeni bir mərhələ oldu. Əsrlərlə qonşu ölkələrin işğalçılıq, talançı müharibələrinə məruz qalan Azərbaycan 1828-ci il Türkmənçay sülh müqaviləsinə əsasən İran və Rusiya arasında bölüşdürüldü. Ağır, əzablı bir tarixi yaşamış Azərbaycan xalqı bu tarixi məhrumiyyətlərə də dözdü. Azərbaycanda maarifpərvər ziyalıların inkişafı ilə bağlı bəzi məqamlar yarandı. Azərbaycanın maarifpərvər ziyalıları Avropa və Qərbin demokratik fikirli ziyalıları ilə əlaqə saxlayırdı. Azərbaycan ictimai fikir tarixində müəyyən dəyişikliklər, inkişafa doğru müsbət meyillər güclənirdi: «Rus və Azərbaycan xalqları arasında qarşılıqlı ədəbi-mədəni əlaqələrin yaranması ölkədə demokratik meyillərin güclənməsinə səbəb oldu. Digər tərəfdən, yeni milli məktəblərin yaranmasına zəmin yaratdı. Belə bir dövrdə yeni üsullu məktəblər üçün proqram, dərslik və dərs vəsaitlərinin hazırlanması təxirəsalınmaz bir problem kimi ortaya çıxdı. Əlbəttə, qədim və orta əsr mədrəsələrində tədris olunan əsərlər daha çox ərəb və fars dillərində olduğundan yeni mündəricəli dərsliklərin yaradılmasında ortaya böyük çətinliklər çıxırdı» (Q. Namazov).

XIX əsrdə Mirzə Şəfi Vazehlə İ.Qriqoryev birlikdə iki hissəli «Müntəxabat» hazırladılar ki, bu da milli dərsliklərdəndir. Bu illərdə Seyid Əzim Şirvani iki dərslik hazırlayır; «Rəbiül-ətfal» (1878), «Tacül-kütub» (1893). Birinci kitab yuxarı sinif şagirdləri üçün nəzərdə tutulmuş və müəllif bu

dərsliyinə nəsr və nəzmlə yazdığı hekayə, təmsil, öyüd və satirik əsərlərini daxil etmişdi. Nizami, Füzuli, Krılov və başqalarından da tərcümələr daxil etmişdi, lakin Seyid Əzim Şirvani bu dərslikləri nəşr etdirə bilmir. A.O.Çernıyayevski və S.Vəlibəyov həmin dərsliklərə daxil olan materialların bir qismini «Vətən dili» kitabına daxil etdilər. Bu kitaba uşaqlar üçün Azərbaycan dilində klassik şeirimizdə material olmadığından H.Qaradağlının uşaq şeirlərini daxil etdilər. Milli uşaq şeirlərinin yoxluğundan şikayətlənən müəlliflərin bu dərsliyi öz dövründə geniş şöhrət tapmış, dönə-dönə nəşr olunmuşdur.

Milli məktəblərin açılmasında, yeni proqram və dərsliklərin yaranmasında Rəşid bəy Əfəndiyevin xidmətləri böyükdür. O, 1898-ci ildə Türkiyədə «Uşaq bağçası» adlı əlifba dərsliyi nəşr etdirir və dərslik dəfələrlə nəşr olunur. 1901-ci ildə isə Bakıda ədibin «Bəsirətül-ətfal» adlı mükəmməl irihəcmli dərsliyi nəşr olunur.

«Əkinçi» qəzetinin nəşri maarifçi ziyalılara öz əsərlərini çap etdirməyə böyük köməklik göstərdi. Azərbaycan milli mətbuatının təməlini qoyan maarifpərvər şəxsiyyət Həsən bəy Zərdabi «Əkinçi» qəzetinin nəşrinə nail olmaqla, zəhmətkeş kütlələrin, xalqın sabahını düşünən insanların fəaliyyətinin daha da genişlənməsi üçün böyük işlər gördü. O bağlanandan sonra «Ziya», «Kəşkül» «Əkinçi»nin ənənələrini davam etdirdi. Azərbaycan yazıçılarının, şairlərinin, əsərlərinin çap olunmasına böyük xidmət göstərirdi. «Kəşkül» qəzetinin səhifələrində maarifpərvər ziyalılar orijinal əsərlər əsasında dərsliklər tərtib etmək haqqında maarifpərvər ziyalılarla müzakirələr açırdı ki, bu da təsirsiz qalmırdı: «Həsən bəy Zərdabi yaradılması nəzərdə tutulan dərsliklərə yüksək ideya-məzmuna malik hekayələr və mah-

nılar daxil etməyi, bu yolla uşaqlarda vətənpərvərlik hisslərini qüvvətləndirməyi lazım görürdüsə, M.Şahtaxtlı rus ədəbiyyatından tərcümə ilə yanaşı, el arasında geniş yayılmış saysız-hesabsız nağılları, hekayələri, rəvayətləri, atalar sözlərini, tapmacaları, aforizmləri toplayıb kitab halında nəşr etməyi təklif edirdi. S.Vəlibəyov isə uşaq mütaliəsinə verilən quru didaktizmdən ibarət hekayələrin əksinə olaraq, mövzusu canlı həyatdan götürülmüş, balaca həmvətənləri mənsub olduqları xalqın məişəti, dünyagörüşü ilə tanış edən əsərlərə üstünlük verirdi» (Q. Namazov).

Ədəbiyyatın, xüsusilə realist ədəbiyyatın fəaliyyətinin daha da güclənməsi, Azərbaycan-rus dilində açılan məktəblər uşaq ədəbiyyatının inkişafına təsir göstərirdi. Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir nəsihətamiz ruhlu əsərləri, təmsil və hekayələri ilə uşaq ədəbiyyatının meydana çıxmasına imkan yaratdı.

Seyid Əzim Şirvaninin yaradıcılığı ilə Azərbaycan uşaq ədəbiyyatı yeni mərhələyə daxil oldu. Böyük realist-maarifçi tərbiyəvi lirik şeirləri, mənzum və mənsur hekayələri, nəsihətamiz təmsilləri, ən başlıcası, satirik məzmunlu əsərləri ilə əsrin ruhundan doğan yeni məfkurəli uşaq ədəbiyyatının əsasını qoydu. (Q. Namazov).

1901-ci ildən 1920-ci ilə qədər olan dövr öz mürəkkəbliyi ilə seçilən dövrdür. İnqilabi hərəkat Rusiyanın özündə, eləcə də onun ucqarlarında milli şüurun oyanışına, elmin, maarif və mədəniyyətin çiçəklənməsinə daha möhkəm zəmin yaratdı. Milli dildə tədris olunan məktəblərin sayı artdı. Milli ədəbiyyat həmin məktəblərdə tədris olunurdu. Mətbuat ətrafında toplaşan Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Rəşid bəy Əfəndiyev, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyov, Abdulla Şaiq,

Abbas Səhhət, Soltan Məcid Qənizadə, Mahmud Mahmudbəyov kimi tərəqqipərvər yazıçılar bədii yaradıcılıqlarını davam etdirməklə bərabər müəllimlik edir, dərsliklər tərtib edir, dərs vəsaitləri və proqramlar hazırlayır, teatrı inkişaf etdirir. Teatr əsərləri yazır, tamaşaya qoyur, aktyor, rejissor kimi də fəaliyyətini davam etdirir, ədəbiyyatımızla yanaşı mədəniyyətimizin, incəsənətimizin gələcəyi naminə böyük fədakarlıqla çalışırdılar.

Müəllimlər yeni üsullu məktəblərin açılması, artması, yüksək səviyyəli dərsliklərin hazırlanmasına səy göstərdilər. Nəriman Nərimanov bu sahəyə daha çox diqqət yetirir, yeni üsullu məktəblərin artması üçün çalışırdı. Yeni dərsliklər yaranırdı. «Birinci il» (1907), «İkinci il» (1908), «Üçüncü il» (1909) «Yeni məktəb» dərslikləri yarandı və bunlarda həm milli uşaq ədəbiyyatının, həm də tərcümə ədəbiyyatının ən yaxşı nümunələri seçilib toplanmışdı. Eyni zamanda Abdulla Şaiqin «Uşaq gözlüyü», «Gülzar», İrəvan müəllimlərinin Tiflisdə çap etdirdiyi iki hissəli «Ana dili» və başqa dərsliklərdə, vəsaitlərdə də yeni məzmunlu uşaq ədəbiyyatından nümunələr verilmişdi.

Nəriman Nərimanov gəncliyimizin maariflənməsi, yaxşı vətəndaş kimi yetişməsi üçün məktəblərin rolunu yüksək qiymətləndirir, onların təlim-tərbiyəsi uğrunda çalışır, məqalə, məruzə və çıxışlarında ana dilimizin saflığı, qorunub saxlanılmasını «balaların vətənpərvərlik tərbiyəsinin əsas qayəsi hesab edirdi. O, öz silahdaşlarına, qələm dostlarına: «siz ana dilini bilməsəniz millətimizə yavuq olub onun dilini anlamayacaqsınız. Anlamayan surətdə onun dərdinə əlac edə bilməyəcəksiniz, əlac etməyən surətdə nəyə lazımsınız?» -deyirdi. Ə. Haqverdiyev «Bəxtsiz cavan» əsərini yazdı və yeni nəsli təmsil edən gənc Fərhad surətini yaratdı, burada

mülkədar-burjua cəmiyyətinin çürük mənəviyyatını göstərdi.

Maarifpərvər ədiblər ailə-məişət mövzulu əsərlər yazır, məktəbi, elmi təbliğ edir, maarif xadimləri dərslikləri daha da təkmilləşdirir, təlim-tərbiyə məsələsinə daha qayğıyla, məsuliyyətlə yanaşır, özləri də yazdıqları ədəbi əsərlərində uşaqların həyatından, onların arzu-istəklərindən, həyatdakı çətinliklərindən bəhs edirlər. Rəşid bəy Əfəndiyevin, Süleyman Sani Axundovun, Abdulla Şaiqin, Üzeyir Hacıbəyov, Firudin bəy Köçərli və başqalarının ədəbi fəaliyyəti ilə, pedaqoji fəaliyyəti vəhdət təşkil edirdi. Onlar tədris etdikləri əsərlərdə zəruri mövzuları seçir, insanpərvərlik, humanist ideyalı əsərlərin məzmununa xüsusi diqqət yetirir, onlarda vətəndaşlıq qeyrəti, maarif və mədəniyyətə meyil oyadırlar. R.Əfəndiyev «Elm tükənməz xəzinədir» hekayəsində elmə, maarifə, təhsilə gənc nəsli yönəltmək üçün yazırdı: «Bu elə bir xəzinədir ki, onu sandıqda qoruyub qaravul və gözətçi olmağı və hesab saxlamağı istəməyir. Elm bir dövlətdir ki, onu itirmək olmaz və oğurlamaq mümkün deyildir... elm puldan və paradan zəngin, topdan və tüfəngdən ötkün, xəncərdən və qılıncdan kəskindir».

Süleyman Sani Axundovun uşaqların acı taleyindən bəhs edən «Qorxulu nağıllar» silsilə hekayələri, Yusif Vəzir Çəmənzəminlinin «Məlikməmməd», «Əziz», Soltan Məcid Qənizadənin «Tülkü və Çax-çax bəy», İ.Musabəyovun «Cəhalət fədailəri», «Rzanın qutusu», «İki dost» və s. hekayələri, Mirzə Ələkbər Sabirin, Abbas Səhhətin vətənpərvərlik ruhunda, eləcə də kiçik yaşlı uşaqlar üçün yazdıqları əsərlər, əsl xalq müəllimi, maarifpərvər insan Abdulla Şaiqin şeirləri, dərslikləri, Firudin bəy Köçərlinin xidmətləri bu dövr uşaq ədəbiyyatının inkişafında misilsizdir.

Firudin bəy Köçərli şifahi xalq ədəbiyyatının ən gözəl nümunələrini toplayaraq «Balalara hədiyyə» (1912) adlı dərs vəsaitini yeni pedaqoji prinsiplər əsasında tərtib etmişdir. Yazıçı, tənqidçi Seyid Hüseyn bu kitabı yüksək dəyərləndirərək yazırdı: «Hərçənd bu kitab zahirdə uşaqlar üçün yazılmışdırsa da, lakin bütün ənənəyi milliyəsi... nağıl və hekayələri, milli misal və nəğmələri uşaqlara məxsus oyuncaqları tərtib etdiyindən bizi keçmişimizlə aşina edir. Keçmişimizə qarşı bizdə milli duyğu oyandırır... Möhtərəm Firudin bəy Köçərli cənabları bizdən ötrü kəndi hədiyyəsi ilə böyük bir cığır açdı».

Firudin bəy Köçərli uşaq ədəbiyyatıyla bağlı bir sıra məqalə və məktublarında dilin saflığı məsələsini ön plana çəkirdi. «Ana dili» məqaləsində bu məsələni xüsusilə qarşıya əsas vəzifə kimi qoyurdu. O yazırdı: «Hər millətin özünə məxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi məziləsindədir... Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir».

O həm xalq ədəbiyyatını toplamış, həm ədəbi-tənqidi təfəkkürünü inkişaf etdirən əsərlər yazmış, həm də uşaqlar üçün hazırlanan dərsliklər haqqında maarifçilik mövqeyindən çıxış etmişdir. Məqsədyönlü fəaliyyətləri nəticəsində onlardan sonra Ş.Əfəndizadə, Ə.A.Münzib, A.Ağabəyli, B.Mürşid, C.Əsgərzadə, Ə.Cəfərzadə, F.Ağazadə yetişmiş, Azərbaycanın bir çox əyalətlərində müəllimlik fəaliyyəti ilə məşğul olmuş, maarifin inkişafı üçün çalışaraq, əllərindən gələni əsirgəməmiş, uşaqlar üçün əsərlər, dərsliklər yazmış, hazırlamışlar. Bu dövrdə yetişməkdə olan romantik ədib və şairlər də realist və maarifçi ədiblər kimi elmi, maarifi, xalq kütlələrinin savadlanmasını əsas bilir, yeni nəslin təlim və

tərbiyəsində ortaq mövqe tuturdular. M.Hadi, H.Cavid, A.Səhhət, C.Cabbarlı, A.Divanbəyoğlu, Ə.Cavad kimi ziyalılar maarifi təbliğ edir, yeni üsullu məktəblərdə təhsil alan gənclərin həyatından sevinclə danışır. M.Hadinin «Məktəb şərqisi», «Qızlar bağçası» əsərləri buna nümunədir: «Məktəb şərqisi»nin yazıldığı dövrdə xalq hələ məktəbin, elmin əhəmiyyətini kifayət qədər bilmir, öz uşaqlarının gələcək taleyini ruhaniliyə və ticarətə bağlamağa səy göstərirdilər: Şair məktəbi cəhalət yuvasını işıqlandıran Günəşə, təbiətə sığal verən güzgüyə, açıq ürəklərə həyat verən beşiyə bənzədir. H.Cavid «Qız məktəbi» şeirində zəngin bir ailədə böyümüş qızın sadə davranışını, təhsilə, elmə, müəllimə hörmət və məhəbbətini, özünə ziynəti «bilik» olduğunu, yeni ruhlu ziyalıların gəlişini sevinclə qarşılayır. Ümumiyyətlə, uşaq ədəbiyyatı yeni yetişən gənc nəslə gözəl insani keyfiyyətlər aşılayır, onların dünyagörüşünü formalaşdırır. Ona görə də maarifçi xadimlər birinci növbədə yaradılmış dərsliklərin yaxşı cəhətlərini qiymətləndirməklə bərabər nöqsanlarını da görüb, vaxtında qarşısını almaq üçün çalışmışlar.

Dərsliklərə daxil edilən əsərlərdə vətənpərvərlik, millilik, humanist duyğulara hörmət, qocalara, uşaqlara, qadınlara rəğbət bəsləmək hissinin ön plana çəkilməsi vacibliyi, tərtib edilən dərsliklərdə «ədəbiyyatımızın ideya zənginliyi, bədii qüdrəti, milli xüsusiyyətləri»nin parlaq əksini tapması məsələsi ön plana çəkilirdi. Romantik Azərbaycan yazıçısı A.Divanbəyoğlunun «İlan», «Fəhlə» hekayələri uşaq ədəbiyyatının yaxşı nümunələri kimi dəyərləndirilir. Ə.Cavadın sadə, oynaq, əlvan şeirləri olan «Müəllim», «Quşlara», «Mən Tuqayam, bir quşam», «Beşik» kimi əsərləri uşaq ədəbiyyatının yaxşı nümunələridir. Cəfər Cabbarlının «Bahar», «Qürub çağı bir yetim», «Boranlı qış gecəsi»

uşaqlar üçün, yeniyetmə uşaqların oxuması üçün dəyərli bilinir. XX əsrin birinci ilk illərində uşaq mətbuatına ehtiyac artdı. «Molla Nəsrəddin»dən sonra «Zənbur», «Kəlniyyət», «Babayi-əmir», «Məzəli», «Tuti», «Bəhlul», «Lək-lək» kimi satirik jurnallar fəaliyyətə başladı ki, bunlar uşaq mətbuatına da cığır açdı. «Dəbistan» (1906-1908), «Rəhbər» (1906-1907), «Məktəb» (1911-1920) məcmuələri milli uşaq ədəbiyyatının inkişafına geniş yol açmış oldu. Nəriman Nərimanov yazırdı: «Bu vaxtadək kitabsızlıqdan uşaqlarımız zərərli, əqidəni pozan kitablar oxuyub naəlac qalmışlar. «Dəbistan» isə bu tövr kitabların aradan götürülməyinə səbəb olub, zəmanəmizə lazım olan məlumatlar verməyini gözləyirik. Bəli, oxuyanlarımızda qeyrət görünür, hər kəs öz qüvvəsinə görə işləyir. İşləyin, qeyrətli qardaşlar, işləyin. Qoy millətin afərin səsi sizə ürək verib qeyrətinizi dəxi artırsın».

Yeniyetmələrin təlim-tərbiyəsinə, zehni inkişafına təsir edən, onlarda xalqa məhəbbət hissi tərbiyə etmək ruhunda fəaliyyətini davam etdirən «Dəbistan»ı C.Məmmədquluzadə, Sabir alqışlayır, bu jurnalın səhifələrində maarifpərvər ədiblərimiz əsərlərini, tərcümələrini nəşr etdirirdilər. «Rəhbər» jurnalı pedaqoji təmayüllü jurnal olub «təlim-tərbiyə məsələlərinə rəhbərlik məqsədi daşımışdır. Hər iki jurnalın ətrafına istedadlı yazıçılar, şairlər, pedaqoqlar, geniş dünyagörüşə malik ziyalılar cəlb edilmişdir. Yazıçılar uşaqlar üçün yazdıqları əsərlərində böyüklərin mühakiməsini, həyat təcrübəsini, ictimai həyat haqqında düşüncələrinin nəzərə aldığı kimi, onların da yaş xüsusiyyətlərini, anlama, qavrama qabiliyyətinə qarşı diqqətli idilər. Uşaqları az-çox sinifdənxaric oxu materialları ilə təmin edən bu jurnallar bağlansa da, maarifçi ziyalılar öz fəaliyyətini dayandırmadılar, 1911-ci ildə çar hökuməti «Məktəb» adlı uşaq jurnalının

nəşrinə icazə verməyə məcbur oldu. Qafar Rəşad Mirzəzadə və Əbdürrəhman Əfəndizadənin redaktorluğu ilə bu jurnal nəşrə başladı. Ən uzun ömürlü bu jurnal-uşaq jurnalı olan «Məktəb», Azərbaycanda konkret-sinif-dərs şəraitindən kənar oxu vərdişlərini təmin edən, balacaların təlim-tərbiyəsini istiqamətləndirən yeganə mətbuat orqanı idi» (A.Hacıyev). Bu jurnalın nəşrində Nəriman Nərimanovun fəaliyyəti böyük idi. Bu jurnalda nəşr olunan əsərlərdə (Əlisəttar İbrahimovun «Məktəbli», «Aqil uşaq», «Ağca», «Mərhəmətli ata», «Müəllim», «Zavallı qız», Ə.Hüseynzadənin «Uşaq və ana», «Məktəbə dəvət», Camo bəy Aciz Şirvaninin «Qəlblər və Heydər», «Uşaqlıq», «Xonça nəğməsi» və s.) valideyn-övlad münasibətləri, məktəbə, təhsilə çağırış problemləri bədii şəkildə verilirdisə, S.Ə.Şirvaninin A.Səhhətin, M.Ə.Sabirin satirik-didaktik təmsilləri, rus ədibləri L.Tolstoydan, Krılovdan tərcümələrini də vermişdir. Yeni məktəbin, elmin, təlim və tərbiyənin roluna, gənc nəslin böyük gələcəyinə inam ifadə edən S.Ə.Şirvaninin «Oğluma nəsihət», M.Ə.Sabirin «Məktəb şagirdlərinə», Ə.Nəzminin «Məktəb uşağı», A.Səhhətin «İki uşaq», H.Cavidin «Bir qız», R.Əfəndiyevin «Qızlarıma nəsihət», Q.Ə.Cənnətin «Öyüd» əsərləri də «Məktəb» jurnalının səhifələrində çap olunurdu. 1920-ci ildən nəşrini davam etdirən, «uşaq aləminin salnaməsi» adlanan «Məktəb» jurnalı on illik fəaliyyəti dövründə Azərbaycan uşaq ədəbiyyatının yaranması, təşəkkülü üçün çox iş görmüşdür.

Azərbaycan milli ədəbiyyatımızın, o cümlədən uşaq ədəbiyyatının inkişafında Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) özünəməxsus dövrü var. Bu dövrdə xalqımız bir əsrdən artıq davam edən köləlik zəncirini qırdı, müstəqil həyata qədəm qoydu, azadlığını əldə etdi, türk dili dövlət dili elan olundu, milli mətbuatımızda nəşr imkanları

genişləndi, türk dünyası ilə əlaqələr genişləndi, milli kökə qayıdış, «ictimai ideallarla zəngin bir ədəbiyyatın yaranmasına təkan verdi». 1919-cu ildə Bakı Dövlət Universiteti yarandı və bu Azərbaycanın «elm, mədəniyyət və maarif tarixinin ən mühüm səhifələrindən birini» təşkil etdi. Azərbaycan Dövlət Teatrı «Teatr xadimləri cəmiyyəti», «Müsəlman mühərrir və Ədiblər Cəmiyyəti», «Yaşıl qələm» ədəbi birliyi yarandı. Milli mətbuatın inkişafına geniş yollar açdı. «Azərbaycan», «Azərbaycan hökumətinin əxbarı», «İstiqlal», «Al bayraq», «Bəsirət», «İttihad», «Gələcək», «Şeypur», «Doğru yol», «El», «Hürriyyət», «Xalq sözü», «Məşəl» və s. qəzet və jurnallar dərc olundu. Mövzu problemləri baxımından spesifik çalarlara, keyfiyyətlərə malik Xalq Cümhuriyyətinin ədəbiyyatı ictimai-siyasi mühitin yaratdığı ab-havadan qaynaqlanırdı. Bu dövrdə Y. Qarayev yazır ki, «bədii məhsul məzmunda bir neçə əsas aparıcı sosial mövzu ətrafında mərkəzləşirdi; bayraqdakı rənglərin-türklük, islam və müasirlik idealının mədhi, türk və islam tarixinin tərənnümü, çağdaş modeldə ilk müstəqil, suveren milli dövlətin dəstəklənməsi, onun yaranması salnaməsinin, milli dövlətçilik ideologiyasının ifadəsi, təsbiti, Ordunun hərbi uğurlarının bədii təminatı; ermənilərin Qarabağ davası, Azərbaycanda dinc əhalinin vəhşicəsinə qətli və ərazilərin talan olunması, daşnakların Bakıda tarixi abidələri, elm və mədəniyyət ocaqlarını yandırması, 28-31 mart hadisələri, millətin türk keçmişinin və islam tarixində şəhidlik və qəhrəmanlıq səhifələrinin mədhi və yada salınması; şimaldan yaxınlaşan qara dumandan və vətənin başı üstünü almaqda olan təhlükədən doğan həyəcan və təşvişin ifadəsi».

Bu ab-havanı əsərlərində yaşadan Əhməd Cavad:

Soranlara bən bu yurdun

Anlatıyım nəsiyəm:
Bən çeynənən bir ölkənin
«Haqq» bağıran səsiyəm!

-misralarında milli-azadlıq, istiqlal hərəkatının tərənnümünü görürük. Milli vətənpərvərlik, milli müstəqillik, azad, suveren bir respublikanın vətəndaşı olmaq, azad yaşamaq hissləri ilə dolu Xalq Cümhuriyyətinin sənətkarlarının əsərlərinə verdiyi qiymət, «Hop-hopnamə»nin nəşri məsələsi, «İsmailiyyə» mövzusunda yazı müsabiqəsi, «Yaşıl qələm» cəmiyyətinin fəaliyyəti «Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi və tədqiqi problemlərinə, ədəbi tənqidin və ədəbiyyatşünaslığın təkamülünə xüsusi diqqət yetirilməsi» uşaq ədəbiyyatının inkişafına xüsusi təsirini göstərməyə bilməzdi. Lakin ömrü uzun olmayan Xalq Cümhuriyyəti aprelin 28-də bolşeviklər tərəfindən devrildi. Bolşevizm yeni nəsli kommunist ruhunda tərbiyə etmək, sosializm quruculuğu ideyaları ilə «silahlandırmaq», ədəbiyyatın inkişafını da bu istiqamətə yönəlmək üçün Xalq Cümhuriyyəti dövründə yaranan ədəbiyyatı, onun müəlliflərini təqib etdi. Onların bir çoxu müxtəlif yerlərə sürgün edildi, güllələndi, mühacir həyatı yaşamağa məcbur edildi. Yeni yaranmaqda olan ədəbiyyat inqilabi ideyaların təbliğ və tərənnümü üçün bir sıra tədbirlər həyata keçirdi. Bu cəmiyyət milli ruhu inkişaf etdirmədi, fəhlə-kəndli hökuməti kimi fəaliyyətində birinci növbədə insanların həyat fəaliyyətini yaxşılaşdırmaq, quruculuq işlərinə başlamaq vəzifəsini qoydu və ədəbiyyata gələn gənc nəsli də bu ruhda əsərlər yazmağa çağırırdı. Gənc nəslin tərbiyəsində ədəbiyyatın roluna xüsusi fikir verildi. RK. (b) Partiyasının XI və XII qurultaylarında gənc nəslin yeni ruhda tərbiyəsi məsələsində ədəbiyyatın vəzifələri qarşıya qoyuldu: «Qurultay fəhlə-kəndli gənclər üçün ədəbiyyat yaradılmasını olduqca zəruri hesab edir...azlıqda qalan millətlər üçün xüsusilə də türk dillərində qəzetlər və ümumiyyətlə, ədəbiyyat nəşr olunmasına diqqəti cəlb edir» (Q. Namazov).

1924-cü ildə Partiyanın XIII qurultayında «Mətbuat haqqında» qərar qəbul olundu və burada uşaq ədəbiyyatının inkişafı üçün tədbirlər müəyyən edildi. Qərarda «uşaq ədəbiyyatı sinfi beynəlmiləl, tərbiyə, əmək tərbiyəsi cəhətlərini qüvvətləndirmək məqsədilə partiyanın ciddi nəzarəti və rəhbərliyi altında uşaqlar üçün ədəbiyyat yaratmaq» lazım gəldiyini, xüsusilə pioner ədəbiyyatı nəşr edilməsi işini genişləndirmək, komsomola kömək olmaq üçün bu işə partiya, həmkarlar və sovet təşkilatlarını cəlb etmək» lazım gəldiyi bildirilir. Bu dövrdə xüsusi uşaq ədəbiyyatı nəşriyyatı yox idi və buna görə də Bakı zəhmətkeş Deputatları Soveti nəzdində uşaq ədəbiyyatı komissiyası yaradıldı. 1928-ci ildə Partiyanın «Uşaqlar və gənclər mətbuatını yaxşılaşdırmaq haqqında tədbirlər» adlı qərarı verildi. Burada uşaq ədəbiyyatının həyatdan geri qalması, günün tələblərinə cavab verən əsərlərin yaradılmaması, müasir mövzuların zəif işıqlandırılması, buna görə də «uşaq üçün bədii ədəbiyyat, həmçinin təbiət, elm və texnika yeniliklərinə dair biliklərə yiyələnmək üçün müxtəlif mövzulu ədəbiyyatın, eyni zamanda uşaqlarda kollektivizm və beynəlmiləlçilik əhvali-ruhiyyəsi tərbiyə edən kitabların çap olunması» tövsiyə edilir.

1921-ci ilin noyabrın 18-də Azərbaycan Maarif komissarlığı azyaşlı uşaqlar üçün «Maarif» adlı jurnalın nəşrinə qərar verdi. Redaksiya heyəti S.M.Qənizadə, Ə.Cəfərov, M.Mahmudbəyov seçildi. Jurnalın birinci nömrəsində kiçik yaşlı uşaqlar üçün maraqlı yazılar, yeni məzmunlu şeirlər verildi. Bu jurnalla eyni vaxtda kiçik və orta yaşlı məktəblilər üçün ayda iki dəfə çap olunan «Qırmızı günəş»

(1921) fəaliyyət göstərdi. Redaktoru A.İsrafilbəyov idi. O, jurnalın ilk nömrəsində yazır: «Əziz uşaqlar! Elm və mərifət, tərəqqi və mədəniyyət dövründə yaşadığımızı görürsünüz. Belə mədəniyyət dövründə məktəbə gedib dərsə davam edirsiniz. Fəqət burasını bilməlisiniz ki, sizin tərəqqi etməniz üçün yalnız məktəbdə oxumaq kifayət etməz. Məktəbdə oxuduq-larınızı faydalı kitablar və məcmuələrin mütaliəsi ilə təkmil etməlisiniz... «Qırmızı günəş»in hər nömrəsini oxuyunuz, düşününüz, sizdən ötəri anlaşılmaz məsələlər olarsa, yazıb idarəmizdən soruşunuz, öyrəniniz» (Q. Namazov).

Jurnalda bədii əsərlərdən nümunələrlə yanaşı publisist yazılar da dərc olunurdu. 20-ci illərdə «Qızıl şəfəq» toplusunda uşaqların tərbiyəsinə diqqət yetirilir. M.S.Ordubadinin şeirləri, Y.V.Çəmənzəminlinin hekayələri çap edilir. Bu illərdə ədəbi məcmuələr nəşr edilir. Bu məcmuələrdə kiçik yaşlı uşaqların həyatından bəhs edən əsərlər cap edilir: «Mədəni quruculuq illərində yaranan uşaq ədəbiyyatı istər şeirdə, istərsə də nəsrdə uğurlu addımlar atmış, yeni nəslin tərbiyəsində, onun bədii zövqünün formalaşmasında və zənginləşməsində başlıca vasitə olmuşdur. Bu ədəbiyyat yeni nəsli inqilabi ənənələr ruhunda, ataların vətənpərvərlik təşəbbüslərinə və coşğun əməyinə məhəbbət ruhunda tərbiyələnməsinə xidmət etmişdir. Bütün bunlar isə uşaqları və yeniyetmələri ictimai-faydalı əməyə, cəmiyyətin rifahi naminə geniş fəaliyyətə hazırlamaqda son dərəcə müsbət rol oynamışdır» (Q. Namazov).

1941-1945-ci illərdə-Böyük Vətən müharibəsi illərində təkcə adi vətəndaşlar deyil, alimlər, ziyalılar, şair və yazıçılar silaha sarılır. Qələbə naminə yazıb-yaradan Azərbaycan ədəbiyyatının nümayəndələri qəhrəmanlıq dolu bədii əsərlər yaradır, müxtəlif yaşlı uşaqların taleyindən, əməl və arzula-

rından bəhs edir, onlarda düşmənə nifrət, faşizmə nifrət, vətənpərvərlik duyğularını daha da gücləndirirdilər. «Vətən nəğmələri» (1941), «Vətən keşiyində» (1941), «Vətən uğrunda» (1941) başlığı altında toplanıb nəşr edilən şeirlər marşlar, nəğmələr, döyüşçülərin qəhrəmanlığından bəhs edən poemalar, hekayələr kiçik yaşlarından üzübəri nəğmələrimizdə vətənə məhəbbət, düşmənə nifrət ruhundadır.

«Vətən nəğmələri» adlanan kitaba S.Vurğunun «Komsomol marşı», S.Rüstəmin «Partizan Əli», «Solmaz yarpaqlar», M.Rahimin «Komsomol marşı», «Balaca qəhrəman», R.Rzanın «Gənclik nəğməsi», «Si-Ay», «İnqalesno», Ə.Cəmilin «Can nənə, bir nağıl de», M.Dilbazinin «Pioner nəğməsi», «Ölməz xatirə», N.Rəfibəylinin «Beşik nəğməsi» və s. şeirlər daxil edilib.

Müharibə illərində «Pioner» jurnalı, «Azərbaycan pioneri», «Azərbaycan gəncləri» qəzetinin nəşri dayandırılmış, uşaq dövrü mətbuatı məhdudlaşdırılmış olsa da, 1942-ci ildə buraxılan ədəbi toplularda uşaqlar və gənclər üçün xeyli bədii əsər nəşr olunmuşdur. Bu toplularda öz ifadəsini tapan əsərlərdə uşaqlara müharibənin dəhşətləri ilə yanaşı, atalarının qəhrəmanlıqlarından söhbət açılır, gənclərdə dözüm, iradə, məhəbbət, vətənpərvərlik hissləri tərbiyə edilir. M.Seyidzadənin «Pioner andı», «Balaca döyüşçülər» (1941), «And», «Bizim ellər» (1944), «Maral» (1945), M.Dilbazinin «Uşaqlar üçün döyüş mahnıları», «Kamal», «Qoçaq ataların övladlarıyla» kitabları, Mikayıl Rzaquluzadənin «Leyla», «Qaranquş yuvası» poemaları müharibə illərində yazılıb: «Üslubi baxımdan bir-birindən fərqlənən bu bədii parçalarda mövzular bir-birinə yaxın olduğu kimi, hədəf də eyni idi; düşmənin alçaq niyyətini bugünkü nəslə başa salmaq, onlarda vətənpərvərlik hisslərini daha da gücləndirmək» (Q. Namazov).

Müharibə illərində yaranan etik əsərlərin əksəriyyəti uşaqlar üçün yazılıb. Arxa və ön cəbhələrdə vuruşan oğulların mübarizliyindən, qəhrəmanlığından, valideynlərini itirən körpələrin taleyindən bəhs edən M.S.Ordubadinin «Serjant İvanov adına körpələr evi», Ə.Məmmədxanlının «Buz heykəl», A.Şaiqin «Balaca qəhrəman», Y.Əzimzadənin «Partizan oğlu», S.Novruzovun «İgid uşaq» əsərləri yarandı. Bu illərdə M.Cəlal «Qiyas», «İsrafil», M.Dilbazi «Kamal», «Ağarzayev» oçerklərini yazdılar və azərbaycanlı döyüşlərin folklora istinadən keçdiyi mübarizə yolu təsvir olunurdu. Publisist əsərlərin və oçerklərin yazılmasını doğuran səbəblər vardı. Bu oçerklərdə, məqalələrdə arxa cəbhənin fəaliyyəti pioner və məktəblilərin nümunəvi davranışı, qələbəyə inamı, əmək adamlarına köməyi, ön cəbhə üçün gördükləri işlər maraqlı epizodlarda öz əksini tapır.

S.Vurğunun uşaq ədəbiyyatını zənginləşdirən əsərlərində vətənpərvərlik, humanizm, gənc nəslə qayğı və məhəbbət, doğma vətənə sədaqət motivləri» güclüdür. İnsanda qüvvəti, cəsarəti artıran Vətənə, xalqa bəslənən məhəbbətdir və s. S.Vurğun kiçik yaşlı uşaqlar üçün yazdığı şeirlərində vətən torpağını, onun insanlarını, doğma xalqını, yurdunun gözəlliklərini, düşmənə, yadellilərə qan udduran tarixi qəhrəmanlarını tərənnüm edir. Onları vətəni sevməyə, onun gələcəyi üçün qurub-yaratmağa, gözəl gələcək qurmaq naminə elmə yiyələnməyə çağırır. «Azərbaycan», «Pioner marşı», «Uşaq bağçası», «Tarla nəğməsi», «Deyin, gülün övladlarım» uşaq ədəbiyyatının ən yaxşı nümunələri kimi qəbul edilir. «Deyin, gülün övladlarım» şeiri orijinallığı ilə seçilir. Nənə «səs salma yat, əsər yazır atan, əsər»-deyə dəcəl, şıltaq, gülüş dolu uşaq qəlbini susdurur, onları sakitləşməyə çağırır. Fikrə dalıb, başı yazdığı əsərə qarışan şair evdə hökm sürən sükutun qəlbində yaratdığı duyğulardan sarsılır. Ömründən səssiz keçən günləri öz ömründən saymayan şair yaranan vəziyyətə etiraz edir. «Deyin, gülün balalar»-deyib onların qəlbini ələ alır.

Şairin «Ana və körpə», «Qızcığaz» şeirlərində «təmiz, pak, ülvi hisslərin, yaşayıb-yaratmaq, uşaq böyüdüb tərbiyə etmək imkanı kimi gözəl sifətlərin, saf məhəbbətin, ata-ana sevincinin bədii ifadəsi öz əksini tapdığı bildirilir. Azərbaycan təbiətinə, dağlara həsr olunan şeirləri də uşaqlar üçün ən yaxşı nümunələr kimi dəyərləndirilir. S.Vurğun uşaq ədəbiyyatının inkişaf etməsi ilə bağlı yazdığı «Balalarımız üçün gözəl əsərlər yaradaq» məqaləsi uşaq ədəbiyyatının inkişafı məsələlərinə xidmət edir. Uşaqların inkişafında, cəmiyyət üçün layiqli vətəndaş kimi yetişməsində ədəbiyyatın faydasını yaxşı bilən şair belə əsərlərin yaradılması problemlərinə toxunur, «heç bir mənası olmayan, qayə və məqsədinin nədən ibarət olduğu anlaşılmayan, quru, cansıxıcı nəsihətlər»in şair uşaq yaddaşında çox qala bilməyəcəyinə, tez yanıb, tez sönəcəyinə inanır. Şairin fikrincə, «məna gözəlliyi, ilk növbədə, həqiqətdən ilham almalıdır: Uşağın tənbəlliyini onu əhatə edən mühitlə bağlı görür. Şair yazır ki, bəlkə də dərs hazırlamadığına görə tənbəl hesab etdiyimiz uşaq öz təbiəti etibarilə daha çevik, daha oynaq, daha çılğındır. Lakin əhatə olunduğu mühit bunu düzgün başa düşmədiyindən uşaq tənbəllik azarına tutulmuşdur. Bəzi hallarda məktəbə böyük həvəslə gəlmiş bir uşağı maraqsız dərslər, quru və cansız söhbətlər yorur, onun qəlbi sıxılır. Elə buna görə də uşaq təbiətin qoynuna qaçmağa çalışır. Görünür, onun qəlbini oxşayan maraqlı həyat hadisələri burada daha çoxdur.

Şair bu fikirdədir ki, uşağın bədii ədəbiyyata o vaxt meyli, həvəsi artar ki, təsvir incəliklə, hərtərəfli verilmiş

olsun. Ədəbiyyat uşağın qəlbini ələ almalıdır, uşağın romantik hisslərini də inkişaf etdirməlidir. «Çünki uşaq xəyalı səyyardır. O, şıltaq bir ulduz kimi daima süzüb oynar. O, güldən-gülə, çiçəkdən-çiçəyə qonan bir kəpənəyə bənzər...». Bu cəhətdən nağıl və əfsanələrimiz şairin fikrincə, ən gözəl mənbələrdir, bunlar uşaqların romantik hisslərini ən yaxşı şəkildə inkişaf etdirə bilər. Vətəndaş şair, uşaqları vətənin bütün incəlikləri ilə sevindirmək, torpağa, xalqına bağlamaq, onun tarixini bilmək, şanı-şöhrəti ilə fəxr etmək» hisslərini tərbiyə etməyi məsləhət görür.

Uşaq ədəbiyyatının inkişafında mühüm rolu olan yazıçı Mir Cəlalın yeniyetmə və gənclərin həyatı mükəmməl dərk etməsi, bir vətəndaş kimi yetişməsi, vətənpərvər kimi böyüməsi üçün yaratdığı bədii əsərlər hər dövr üçün müasir əsərlərdir. Ömrünü gənclərin təlim-tərbiyəsinə, elmlərə yiyələnməsinə həsr edən M.Cəlal uşaq psixologiyasına çox yaxşı bələd idi. Nizaminin «Xəmsə»sindən uşaqlar üçün hekayələrinə mövzu seçib. «Fitnə», «Kərpickəsən», «Xeyir və Şər», eyni zamanda «Yuxu və külək», «Gülbəsləyən qız», «İlyas», «İsrafil» hekayələrini uşaqlar üçün yazmışdır: Mir Cəlalın Nizami «Xəmsə»sindən götürüb nəsrlə işlədiyi hekayələrin hər birində ibrətamiz, nəsihətamiz mətləblər durur.

Yeniyetmələrin, gənclərin bədii-estetik tərbiyəsinə həsr olunan («Gülgəz», «Aqil») hekayələrində tərbiyəvi əhəmiyyətə malik məsələlər öz əksini tapıb.

«Qocaların uşaq söhbəti», M.Cəlalın uşaqlara həsr etdiyi hekayələrin «böyüklərlə kiçiklər arasında, baba ilə nəvə, müəllimlə şagird arasında dialoq» şəklində qurulduğu tənqidçilərin təhlilində göstərilir.

Uşaq ədəbiyyatının ən yaxşı nümunələrini yaradan şairlərimizdən olan M.Dilbazi 1928-ci ildə ədəbi fəaliyyətə başlamış, sosializm quruculuğu, Böyük Vətən müharibəsi və

dinc quruculuq illərində zəhmət adamlarının əməyini ilhamla tərənnüm etmiş, «Mənim hədiyyəm» (1948), «Balaca nümayəndə» (1950), «Qardaşlar» (1955), «Seçilmiş əsərləri» (1957), «Seçilmiş əsərləri» iki cilddə (1967-68) və s. kitabların müəllifidir. İlk yaradıcılığında gənc nəslin tərbiyəsinə qayğıyla yanaşaraq, uşaq ədəbiyyatının da ən gözəl nümunələrini yaratmışdır. «Günəş», «Yağış», «Yaz buludu», «Göy guruldayır» və s. şeirlərində uşaqlarda günəşə məhəbbət, təbiət hadisələrinə, təbiətin gözəlliklərinə məhəbbət oyadır. Şeirlərində baharın mənzərəsini («Yaz gəlir») yaradır, balacaların diliylə danışır, bənövşənin açılmasını («Açıl bənövşə») istəyir. «Qaranquş», «Torağay», «Sığırçın», «Hop-hop», «Cik-cik», «Boz oğlağım» və s. şeirlərində uşaqlarda heyvanlara, quşlara məhəbbəti daha da artırır.

M.Dilbazi şeirlərində zəhməti tərənnüm edir, böyüklərin işini, əməklə qazandıqları uğurları balalara sevdirməyə, onlarda da əməyə sevgi, maraq yaratmağa çalışır. «Ulduzları fəth edən qız», «Həcər xalça toxuyur», «Babaların nəğməsi», «Ata və oğul» belə şeirlərdir. Şeirlərindəki vətən məhəbbəti («Xəzər üstə şəhərim var», «Bakının işıqları», «Könül sevinməsinmi…», «Abşerona gələn sular…», «Ölkəm» və s.) sülh, əmin-amanlıq duyğuları («Sülhdür andımız», «Sülh dostları bir sırada dayanmış», «Məhbəslərdə doğulanlar», «Uşaqlar qəmlənməsin», «Rahat yatardınız, körpələrimiz» və s.), məhvedici silahlara qadağa qoymaq istəyi, müharibəyə nifrət («Çağırır dünyanı mübarizəyə»), azadlıq uğrunda mübarizə, («Zənci oğlu Rao»), ana məhəbbəti («Mənim anam ürəyimdir»), «Analıq duyğusu», «Şirin dilim», «Körpələr» və s.) dostluq və yoldaşlıq mövzusu («Dilarə və Gülarə», «Vicdan» və s.), məhəbbət, təlim–tərbiyə məsələləri («Ana dili», «Məktəb nəğməsi», «Birinci beş», «Gələcək müəlliməyə məktub» və s.) lirik şeirlərinin

əsas mövzusudur. Kiçik yaşlı uşaqlar üçün yazdığı poemalar və mənzum nağıllarda («Reyhan», «Balaca nümayəndə», «Qardaşlar», «Balaca dostlarım», «Sevincin dünyası», «Xeyir və Şər» və s.) Azərbaycanın keçmişi, bugünkü inkişafımız, müharibənin odlu-alovlu illəri, elm, təhsil almaq arzusu ilə ürəkləri döyünən gənclərimizin uşaqqanadlı arzuları, insan övladının xarüqələr yarada bilməsi gücü və s. məsələlərdən bəhs edir.

Alleqorik mənzum nağıllarında xeyirlə şərin, pisliklə yaxşılığın mübarizəsi əsasdır. Bu nağıllarda səadət, qoçaqlıq, zəhmətsevərlik tərənnüm olunur. «Qaranquş və qara ilan», «Günəşin eşqi» nağıllarından birincidə qaranquşların insana məhəbbətindən bəhs olunur, ikinci nağılda uşaqlara nəcib, sadə, qayğıkeş, açıqqəlbli, saf olmaq hissləri aşılanır. «Qurd və uşaqlar» nağılında uşaqları diqqətli, ayıq, tədbirli olmağa səsləyir, «Bal arısı və eşşək arısının nağılı» maraqlı və tərbiyəvi məzmun kəsb edir. «Bal arısının timsalında əməyin qiymətini, eşşək arısının timsalında isə tüfeylilik, paxıllıq və gözüdarlığın zərərli nəticəsi» təsvir edildiyi bildirilir. Uşaqlar üçün yazdığı ibrətamiz hekayələrdə («Gözəl ana», «Nənənin dərsi», «Cavan qız və qoca qarının hekayəsi» və s) ana məhəbbəti, dünyagörüşü, qoca nənənin nəvələrinə verdiyi ibrətamiz nəsihət, qoca qarıya gülən «cavan bir qızın qəbahəti» və s. əsasdır.

Xeyirxahlığı, yaxşılığı tərənnüm etdiyi «Muğanda bahar» pyesində Mil və Muğan baba- «vətən torpağını laləzara çevirmək istəyən, şoran çölləri yaşıllaşdırmaq arzusu ilə yaşayan və bu arzuların çiçəklənməsi üçün gözəl baharın intizarını çəkən müdrik qocalar» insanlara yaxşılıq arzulayan qocalardır. Bu qocalar Mil və Muğanın simvoludur. «Göyçək Fatma» pyesi də folklor motivlərilə zəngindir. Kiçik, orta yaşlı uşaqlarla yanaşı, məktəbəqədər yaş dövrü

keçirən uşaqlara da şeirlər yazmışdır. «Gələcək şagirdin məktubu» bu qəbildən olan şeirlərdəndir. Bu şeirdə kiçik uşaqların məktəbə getmək, bilik almaq, məktəb arzuları, xəyalları, məktəbdə ünsiyyət tapmağı, dost olacağı uşaqlara qarşı bəslədiyi səmimi, insani duyğular əsasdır:

Altı yaşa çatmışam,
Saçlarımı uzatmışam.
Hörük üçün lentim var,
Nənəm mənə tikib paltar,
Çox xoşuma gəlir çantam,
Onu mənə alıb atam.
Var dəftərim, var kitabım,
Perom qızıl rəngindədir.
Görən onu tərif edir.
Yonulmuşdur karandaşım,
Yaxınlaşır məktəb yaşım.

Mirvarid Dilbazi «Reyhan» poemasını da bu mövzuda yazmışdır. Ümumilikdə M.Dilbazi uşaqların bütün dövrlərdə yaş xüsusiyyətlərinə yaxşı bələd olan şairə idi. Bu ona imkan vermişdir ki, həm məktəbəqədər, həm kiçik, orta, həm də böyük uşaqlar üçün gözəl əsərlər yazsın. Onun yaradıcılığında bütün yaş mərhələlərinə aid bədii nümunələr var. Onun bu şeirlərində o, mehriban ana, qayğıkeş insandır. Və əsərlərinin mövzusunu həyatdan götürən şairə bütün «mövzuları uşaqların psixoloji xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə uyğun bir tərzdə qələmə almışdır. Bunun nəticəsidir ki, uşaqların sevimli şairəsi kimi ədəbiyyat tariximizə daxil olub.

Uşaq ədəbiyyatının yaxşı nümunələrini yaradan Qılman İlkin «Bahar tüstüləri» hekayəsində insan əqlinin dəyişdirdiyi, gülüstana çevirdiyi kəndin tərəqqisini təsvir edir.

Uşaqlar və gənclər bağçanı sərt qışdan qorumaq üçün böyük əmək sərf edirlər və bundan zövq alırlar. «Yaşayış məntəqələrində yaşıllıqların salınması, ağac və gül kollarının əkilməsi, onların becərilməsi həyat nişanəsidir, səadətdir, bolluqdur-yazıçı fikrini belə mənalandırır. Bu, ötəri və təsadüfi fikir deyil. Uşaqların bu nəcib işləri məktəbdə bir ənənəyə çevrilir» (Q. Namazov).

«Həyat yollarında» hekayəsində maarifçi sənətkar N.Vəzirovun uşaqlıq və gənclik illərindən bəhs edilsə də, burada məqsəd N. Vəzirovun uşaqlıq və gənclik dövrünü nümayiş etdirmək yox, inqilabdan əvvəl azərbaycanlı balalarının təhsil almalarının çətinliklərini ümumiləşdirməkdir. «Hekayədə adi bir əyalət uşağının çətinliklər, təhqirlər, istehzalar və töhmətlər bahasına elmlərə dərindən yiyələnməsi sənətkarı maraqlandırdığı kimi, oxucuların da fikrini özünə cəlb edir. Lakin bu uşaq gələcəkdə xalq üçün faydalı adam olmaqdan ötrü hər bir əziyyətə qatlaşa bilir. Dünyanı dərindən qavramaq, obyektiv aləmi düzgün dərk etmək üçün qadağan olunmuş kitabları belə oxumaq, bu səbəbə görə gimnaziyadan qovulmaq, həbsə alınmaq, vətəndən sürgün olunmaq təhlükəsi onu qorxutmur. O, gimnaziyada şəhərli şagirdlərinin istehzalı baxışları ilə qarşılaşır. Lakin, o, bunlara əhəmiyyət verməyərək yaxşı çalışır, dərslərindən yüksək qiymətlər alır. Sonralar isə tələbələrdə özünə qarşı qibtə və həsəd doğurur» (Q. Namazov).

«Üçtəpə uşaqları» povestində Cəmil, Saday, Murad gənclərimizi təmsil edir. Onlar kəndin elektrikləşdirilməsi işində çalışır. Texniki tərəqqinin cəmiyyətin, gənclərin də formalaşmasında rolu, orta yaşlı və yeniyetmələri əməyə alışdırmaq, kəndlərimizin, şəhərlərimizin abadlaşdırılmasında onların məqsədyönlü fəaliyyətini təmin etmək kimi əhəmiyyətli məsələlər bu povestdə qoyulur. «Tarix müəllimi», «Yazılı daş» əsərlərində uşaq xarakteri yaratmaq bacarığı diqqəti cəlb edir. Buradakı məktəbli surətləri özlərinin mübarizliyi, siyasi sayıqlığı, əməksevərliyi, qayğıkeşliyi, məktəbdə də, evdə və işdə də nümunə olmaları ilə başqalarından fərqlənir. Bunu Q. İlkinin uşaq həyatını, uşaq aləmini, uşaq psixologiyasını yaxşı bilməsiylə əlaqələndirən tənqidçi alimlər, yazıçının bir sıra hekayələrində mütilikdən, tənbəllikdən, qorxaqlıqdan uzaq uşaq obrazlarının, çətinlikdən asanlıqla baş çıxaran, mübariz və əməksevər olduqlarını qeyd edirlər. Qılman İlkin həm böyüklər üçün, həm də gənc nəsil, yeniyetmə və uşaqlar üçün yazılmış gözəl əsərlər müəllifi kimi tanınır.

Azərbaycan uşaq ədəbiyyatının inkişafında xidmətləri olan Yusif Əzimzadə də uşaq psixologiyasını yaxşı bilən, «qaynar həyatımızın müxtəlif sahələrindən uşaqları maraqlandıran rəngarəng mövzuları seçməyi» bacaran və böyük yaşlı uşaqların təlim və tərbiyəsində mühüm rol oynayan, onların «zövqünü» oxşayan əsərlər müəllifidir. «Vətən oğlu» adlı ilk hekayəsi 1949-cu ildə «Ədəbiyyat qəzeti»ndə dərc olunub. «Çiçəklər səltənəti» adlı ilk nağıl-pyesi tamaşaya da qoyulub. O, «Partizan oğlu», «İlk görüş», «Onun həyatı», «Görüşdən sonra», «Usta Pirməmməd», «Qardaşlar», «Murad dayının xatirəsi», «Qaranquşa hay verin», «Yenə görüşəcəyik», «Mənim mahnılarım» və s. əsərlərin müəllifidir. Uşaqların xalq nağılları şəklində yazılmış əsərlərə daha çox maraq göstərdiyini nəzərə alıb, «Nəsrəddin» əsərində xalq nağıl və lətifələrindən yararlanıb. Əsərdə uşaqları maraqlandıran, onların diqqətini cəlb edən epizodlar, rəngarəng səhnələr, folklora xas dil səlisliyi, obrazlılığın əsərdə mühafizə olunması, xalq yaradıcılığına məxsus «vətənə məhəbbət, düşmənə nifrət, xalqımızın mübarizə tarixi, təbiət gözəlliyinə

vurğunluq, insan əməyinə ehtiram, böyüklərə hörmət, azad sevgi, xeyirxahlıq, ehtiyacı olanlara kömək etmək, dostluqda sədaqət kimi qiymətli motivlərin saxlanması tənqidçilərin təhlilində əsas məsələlər kimi diqqətəlayiqdir.

Mir Mehdi Seyidzadə uşaqlar üçün yazdığı əsərlə-rin mövzularının əlvanlığı, dərin və aktual ideyası ilə seçilən sənətkardır. Təbiəti sevmək, onun ecazkar gözəlliyindən zövq almaq, təbiət hadisələrini düzgün qavramaq, ondan nəticə çıxarmaq, müxtəlif bitkilərin təsərrüfat əhəmiyyətini öyrənmək istəyən uşaq və gənclər Mir Mehdi Seyidzadənin əsərlərini sevirdilər. Onun «Pinti Həsən», «Pilotlar», «Neftə doğru», «Təzə şəhər» və s. əsərlərində gənc nəslin tərbiyə məsələlərinə toxunduğu, «Nərgiz», «Kiçik təyyarəçi», «İsgəndər və çoban», «Meyvələrin bəhsi» əsərlərinin rus, tatar, türkmən və digər dillərə tərcümə edildiyi bildirilir. Az yaşlı, eləcə də orta yaşlı yeniyetmələr üçün yazdığı əsərlər diqqəti cəlb edir. Onun «Kim güclüdür?» əsəri azyaşlı uşaqlar üçün yazılmışdır. Təbiət, cəmiyyət haqqında yetərincə məlumatı olmayan uşaqlara bulud, buz, günəş, yağış, yer, sel, çay və s. haqqında edilən maraqlı söhbətlər əsasında müəllif təbiətin sirlərini uşaqlara açır. Təbiətin səciyyəvi xüsusiyyətlərini özündə əks etdirən «Bahar», «Yay», «Payız», «Qış», «Oğlum Bahadır» kimi mövsümi şeirlərin müəllifi Mir Mehdi Seyidzadə bütün ədəbi fəaliyyətini uşaqların təlim və tərbiyə işlərinə həsr edən həyatdan götürdüyü mövzuları «real və rəngarəng boyalarla uşaq və gənclərin başa düşəcəyi bir tərzdə» təsvir etməyə nail olan yazıçı kimi yüksək qiymətləndirilir. M. Seyidzadə A. S. Puşkinin «Qızıl xoruz nağılı», «Ölmüş şahzadə qız və yeddi pəhləvan», «Çar Soltan», «Qızıl balıq nağılı», «Keşiş və Balda», V.A.Jukovskinin «Yatmış şahzadə qızın nağılı», «Cırtdan», «Çəkməli pişik

nağılı», «Meşə soltanı», «Quşcığaz» əsərlərini ana dilimizə tərcümə etmişdir.

Mikayıl Rzaquluzadənin «Qaranquş yuvası» (1945), «El gücü» (1948), «Dan sökülən də» (1952), «Qu gölü» (1955), «Ovçu Elişlə qoçaq Aytəkinin nağılları» (1956), «Ölkənin çiçəkləri» (1962), «Nəsillərdən nəsillərə» (1965), «Dəniz nağılı» (1967) və s. əsərləri uşaq ədəbiyyatının ən yaxşı nümunələridir. Folklor motivləri əsasında («El gücü», «Ana ürəyi, dağ çiçəyi», «Sehrli söz», «Dəniz nağılı», «Dəli Ozan»), təbiətə, heyvanlara aid («Dan sökülən də», «Ovçu Elişlə qoçaq Aytəkinin nağılları» və s.), vətənpərvərlik, əməyə məhəbbət, humanist ideyalar təbliğ edən («Ağaclar» «Qu gölü», «Qaranquş yuvası», «Şahin») əsərlər yazmışdır. «Qu gölü» hekayəsi xüsusilə diqqəti cəlb edir, uşaqların əməyə, zəhmətə marağını daha da artıran əsərdir, bütövlükdə burada uşaq və gənclərin təlim-tərbiyəsi əsasdır, onlarda əməyə məhəbbət aşılanır, təbiətdən zövq almağı bacarığı tərbiyə edilir.

Uşaq ədəbiyyatının inkişafında R. Rzanın xidmətləri böyükdür. Onun əsərləri emosionallığı, lirik bədii tutumu, ədəbi-ictimai keyfiyyətləri ilə diqqəti cəlb edir. «Oğullar», «Qızım», «Göyər, çinarım, göyər», «Pillələr və illər» şeirlərində övlada məhəbbət, onlara xoş gün arzusu, gəncliyin imkanlarından yetərincə yararlanma nəsihəti, vətənə, yurda, torpağa sevgi aşılama, dostluq, səmimiyyət duyğuları və s. təbliğ olunur.

Ay qızım, əziz qızım,
Dəftəri təmiz qızım.
Səni xoşbəxt yaradır,
Azad ölkəmiz, qızım.

Həyata yenicə qədəm qoymuş övladında həm onu azad, xoşbəxt yaşadan vətənin, dövlətin diqqət və qayğısını, həm də belə bir dövləti, xalqı sevmək hisslərini aşılama da əsasdır. Zəhmətkeş, vətənpərvər görmək istədiyi vətən övladlarından olan bu sevə-sevə tərənnüm etdiyi balaca fidan, dünyanın gözəlliklərini yenicə duymaqda olan vətən övladıdır, zamanın dayanmadığını, bu gün qayğısız, şaqraq uşaqlığını, sabah odlu, alovlu gəncliyini yaşayacaq insandır. İllər elə gedir, zaman elə şütüyür ki, nə vaxt qocalıq qapını döyür, xəbəri olmur və belə bir insan ömrü haqqında şair «Pillələr və illər» şeirində danışır, təbiətin qanunları haqqında oxucuya, «poetik dillə» məlumat verir, «ona bilmədiklərini öyrədir «Nəvəmə məktub», «Qızıma və yoldaşlarına» şeirlərində gənclərin təlim və tərbiyə məsələlərindən, «İlkin məktəbə getdi», «Təranənin oyuncaqları»nda məktəbə can atan körpələrin ilk uğurlu qədəmlərindən bəhs edir, eyni zamanda onların keçirdikləri hiss-həyəcanlar, emosional aləmi verilir.

«Balacaların təbiət ensiklopediyası» şairin uşaq ədəbiyyatı sahəsində səmərəli fəaliyyətindən xəbər verir. Bu silsilə şeirlərin əsasında kiçik yaşlı uşaqların marağı əsas götürülərək çap etdirilən şəkilli kitabçalar («Güllər, çiçəklər», «Ev quşları», «Cücələr» (1976), «Bostan və tərəvəz bitkiləri», «Çöl quşları», «Ağaclar» (1977) və s.) bitkilər, canlılar haqqında uşaqlarda təsəvvür yaradır və Rəsul Rzanın bu təsvir üsulu poetik fəaliyyəti ilə seçilir. Burada forma və məzmun uzlaşır. «Bostan və tərəvəz bitkiləri» bölməsi şairin «yarpız, bibər, kök, çuğundur, pomidor, kələm, şamama, kartof, kəvər, ispanaq, keşniş, nanə, cincilim, lobya, noxud və s. haqqında çox müxtəsər mənzum oçerklər»i adlanır. Tənqidçilər ona görə bunlara oçerk deyir ki, «bu bitkilərin təsvirindən, bədii obrazlı ifadəsindən daha çox hər

bir bitkinin həm zahiri əlaməti, həm də tamı haqqında müxtəsər danışılır» (Q. Namazov). Bitkilərin müalicəvi xüsusiyyətləri burada öz əksini tapır:

Dadlı, yeməli olur,
Azərbaycan qarpızı.
Qabığı zol-zol, yaşıl,
İçi tamam qırmızı,
Nazik olur saplağı,
Yerə döşənir tağı.

Şair tərəvəz, bostan bitkiləri ilə yanaşı ana təbiətin flora və faunasını, onun gözəl çiçəklərini də uşaqlara sevdirməyə çalışır:

Bənövşəyəm, Bənövşə,
Qışda yatıb torpaqda
Yaz başında həmişə
Açıram çöldə, bağda.
Ətirliyəm, göyəm,
Bahar qızı çiçəyəm.
Tez açıb, tez soluram...

«Ağaclar» bölməsində Rəsul Rza çinar, palıd, şam, qovaq, qələmə, narbənd, akasiya, cökə, söyüd, qarağac və s. ağacların növlərini, harada bitdiyini yığcam, uşaqların dərk edəcəyi dillə təsvir edir. «Ev quşları» bölməsində cücə, xoruz, beçə, qaz, ördək, arı və s. «Çöl quşları» bölməsində bülbül, kəklik, qartal, durna, qaranquş, turac və s. haqqında danışır. Nağıllarımızda onların qəhrəmanların arzu və istəyini yerinə yetməsində kömək edən «rəmzi obrazlar» olduğunu söyləyir.

«Balacaların təbiət ensiklopediyası» silsilə şeirləri uşaqlarda təbiətə, onun incəliklərinə həm maraq oyadır, həm uşaqların biliklərini zənginləşdirir, həm də estetik ma-

raqlarını ödəyir. Şairin uşaqlar üçün yazdığı şeir və poemaları ilə yanaşı, mənəvi estetik tərbiyəsi ilə bağlı elmi-nəzəri fikirləri də var. «Uşaqlar üçün ədəbiyyatın ideya-bədii səviyyəsini yüksəltmək uğrunda» məqaləsində uşaqların estetik tərbiyəsində ədəbiyyatın rolunu görür: «Uşaq ədəbiyyatı nəcib ənənələrlə-uşaqlarda gözəl hisslər tərbiyə etmək, onlarda kiçik yaşından zəhmətə, biliyə həvəs oyatmaq, uşaqların sağlam ruhi inkişafının qayğısına qalmaqla zəngindir».

Uşaq ədəbiyyatının inkişaf dövrünün əvvəlki dövrlərə (Sabir, Səhhət, Şaiq) nisbətən zəif inkişaf etdiyinə, geri qaldığına təəssüfünü bildirir. Eyni zamanda bu vaxta qədər Azərbaycan uşaq ədəbiyyatına dair ciddi təhlilli, onun yaranmış ənənələrini, yolunu, istiqamətini nəzərdən keçirən və bu ədəbiyyat haqqında az-çox bütöv, elmi fikir söyləyən tənqidi məqalə» yazılmadığından gileylənir. 1960-cı illərdə yaranan uşaq ədəbiyyatı nümunələrini təhlil edir, nəzərdən keçirir, mövzu məhdudluğundan danışır. Öz fikirlərini söyləyən, klassik Azərbaycan yazıçılarının həyatından bəhs edən əsərlər «kiçiklər üçün böyük ədəbiyyat ola bilər. «Kiçiklər üçün böyük ədəbiyyat» məqaləsində M. Füzuli, M. F.Axundov, M.P.Vaqif, M.Ə.Sabir, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, N. Nərimanov, C.Cabbarlı, S.Vurğun, eləcə də xalqın azadlığı uğrunda mübarizə aparan bir çox inqilab qəhrəmanlarının həyatından bəhs edən əsərlərin yazılması, çapı da uşaq ədəbiyyatının inkişafına xeyir gətirə biləcəyini qeyd edir. R. Rza təkcə özünün deyil, digər sənətkarların da uşaq ədəbiyyatının inkişafına kömək etmək vəzifəsini məsul bir vəzifə kimi görür.

Uşaqların həyatından bəhs edən maraqlı əsərlər müəllifi Əyyub Abbasov 50 illik ömrü müddətində bir-birindən gözəl, məktəbli uşaqların yaddaqalan surətlərini yaratmışdır. Onun «Çal, Ülkərim, bir də çal» şeirində müəllimləri və valideynləri qarşısında musiqidən imtahan verən Ülkərin ifaçılıq qabiliyyətini, istedadını alqışlayır:

O çaldı Koroğludan,
Alqış sardı salonu.
Durub gedərkən yenə,
Alqışladılar onu.
Arası kəsilmədən.
Qız geri döndü dərhal,
Gülə-gülə baş əydi.
«Çal, Ülkərim. Bir də çal»-
Dedi könlündə ana.
Qız səhnədən çəkildi,
Yenə də əl çaldılar.
Ülkər qayıdıb gəldi
Məharətlə çaldı o,
«Qoşa yarpaq» havası,
Könüllərə elə bil
Axdı sevinc dəryası.

«Nailə», «Çiçəklər arasında», «Qəşəng və Çiçək», «Qırmızı bayraqlı gəmi» poemaları da uşaq ədəbiyyatının ən yaxşı nümunələri kimi dəyərləndirilir.

«Nailə» poemasında valideynin uşaq üzərində nəzarəti problemi qoyulur. Dərsindən «iki» almış Nailənin zəif oxumasında, bütün günü uşaqlara qoşulub oynamaqla məşğul olmasında valideynlərin səhlənkarlığı da gizlədilmir. «Bu əməksevər və səmimi ailənin» nöqsanının gizlətməməsini, «uşağa ciddi nəzarət etmək lazımdır»-fikrini əsas tutmasını şairə tənqidçilər təhlilində haqq qazandırır.

«Çiçəklər arasında», «Qəşəng və Çiçək» poemaları kiçik yaşlı məktəblilər üçün yazılıb. «Birinci poemada yay tətilinə çıxan şagirdlərin vətənin səfalı və mənzərəli yerlərinə

səyahəti təsvir edilir. Uşaqlar bitkilər və onların xassələri ilə tanış olur, yaylaqlarda çobanlar öz həyatlarından danışırlar. Burada uşaqlar Koroğlu qalası, qiymətli və parlaq daşlar, Yeddi bulaq haqqında maraqlı söhbətlərə qulaq asırlar. Bütün bu görüş və söhbətlər uşaqların biliyini daha da zənginləşdirir».

Ə.Abbasov uzun müddət təhsil sahəsində çalışdığından, uşaq, məktəbli psixologiyasına dərindən bələd olduğundan əsərlərində bitkin, orijinal uşaq obrazları yaratmağa müvəffəq olmuşdur.

Uşaq ədəbiyyatına Zeynal Cabbarzadə də gözəl əsərlər bəxş etmişdir. Onun bədii yaradıcılığı uşaqların həyatından bəhs edən şeir, nəğmə, nağıl və novellalarla zəngindir. Müharibənin ilk günlərindən cəbhəyə gedən Z. Cabbarzadə orta məktəbdə oxuduğu illərdə şeirləri ilə mətbuatda çıxış etmiş, müharibə illərində cəbhədə olarkən Ə.Əlibəyli, M.Aranlı, B. Qasımzadə ilə birlikdə cəbhə mövzusunda şeir və məqalələr yazmışdır. Piyada məktəbinin kursantı (1941-42), kiçik leytenant, 416-cı atıcı diviziyasının döyüşçüsü Z. Cabbarzadə Naursk rayonunda hərbi əməliyyatda ağır zədələnir, eşitmə və görmə qabiliyyətini itirir. Hərbi xəstəxanada yaradıcılığını davam etdirən şair şeirlərini Yazıçılar İttifaqına göndərir. Səməd Vurğun onun səhhətindən xəbər tutub qayğısına qalır. «Ədəbiyyat qəzeti»ndə şeirlərini çap etdirir. Yazıçılar İttifaqına üzv qəbul etdirir. Sağalandan sonra «Ədəbiyyat qəzeti»ndə işləyən, bədii yaradıcılığını davam etdirən şairin «Xaniman» adlı ilk şeirlər kitabı, 1947-ci ildə isə «Əfzələddin şah» mənzum nağılı çapdan çıxır. Bu illərdən başlayaraq ömrünün sonuna qədər «Pioner» jurnalının redaktoru olan Z.Cabbarzadə «fikrə, mənaya üstünlük verən, yığcamlığa diqqət yetirən təsvirçilikdən və sözçülükdən uzaq, çox ciddi, mühüm, həyati məsələlərə diq-

qət yetirən» şair kimi dəyərləndirilir. Onun yuxarıda adlarını çəkdiyimiz kitablarından sonra «Şeirlər» (1952), «Çinar» (1952), «Bahar gəlir» (1954), «Dnepr sahillərində» (1956), «Arzular» (1958), «Yaylaqda» (1960), «Sizin səsiniz» (1963), «Məni bağışlayın» (1965), «Güllər» (şeirlər, nəğmələr, poemalar) (1974), «Uca dağ başında» (1980) və bu kimi kitabları çap olunub. Bu kitablardakı mövzu cəhətdən rəngarəng şeirlərdə təbiətin gözəlliyi, vətən məhəbbəti, tarixi bayramların vəsfi əsasdır. O, lirik nəğmələrlə yanaşı, kiçik yaşlı uşaqlar üçün yazdığı «Sizin səsiniz», «Yatın balalar», «Sərçə», «Dərs səhəri» şeirləri yaddaqalandır. «Qayalı sahillərdə», «Ayqız», «Uşaqlara», «Ayaq səsləri», «Nə oldu» və s. şeirlərində ataya, anaya məhəbbət, böyüklərə hörmət və ehtiram, uşaqlıq və gənclik hissləri öz ifadəsini tapır. Uşaq aləminə, uşaq psixologiyasına dərindən bələd olan şairin şeirlərində yay tətili xatırlanan «Hanı tonqal» şeirinə diqqət yetirək:

Axşam düşəndə,
Tonqal qalanır.
Dirəkdə bayraq
Heç dalğalanmır.
Qağayı vurur,
Özünü suya.
Bomboz qayalar
Getmiş yuxuya.

Onun yaratdığı «Tapmacalar» silsilə şeirləri («Kəpənək», «Qarışqa», «Şamaxı, Naxçıvan» və s.) uşaqları «yaradıcı fikrə cəlb edən, axtarışlara yönəldən əsərlər» kimi dəyərlidir. Zeynal Cabbarzadənin məktəblilərin, onların istək və arzularının ifadəsi olan 200-dən çox şeirinə, mahnısına musiqi bəstələnmişdir. «Ögey ana» filmində İsmayılın

mahnısı, «Azərbaycanım», «Alagöz», «Arzular», «Sürəyya», «Neftçilər» və s. mahnıları bu gün də dillər əzbəridir. Bu gün də sevilən mahnıların müəllifi Zeynal Cabbarzadə ana laylaları qədər şirin, təsirli, uşaq qəlbində fərəh, sevinc, həyəcan oyadan şeirləri ilə unudulmur:

Göydə bulud sovuşsun,
Kipriklərin qovuşsun.
Laylay quzum, a laylay,
İki gözüm, a laylay.
Sən nə şirin balasan,
Görüm yüz il qalasan,
Laylay baharım laylay.
Laylay nübarım laylay.

Uşaqlar üçün yazdığı poemalar və nağıllar («Məni bağışlayın», «Qəhrəman oğlu», «Qonaq», «Linda», «İçərişəhər», «Karvan gedir», «Bizim metro», «Dnepr sahillərində») şairin uşaq aləminə, onun duyğu və düşüncələrinə hörmət, sabahına qayğı ilə doludur. «Qəhrəman oğlu» poemasında atası cəbhəyə gedən, döyüşlərdə qəhrəmanlıqla həlak olan, elin qayğısı ilə boya-başa çatan Çinarın daxili aləmi, ağlabatan, inandırıcı bir məntiqlə, bədii ifadələrlə verilir. Onun öz uşaqlıq illərini yada salan, «dəcəllik etdiyini» acı-acı xatırlayan, «günahlarının bağışlanması üçün» bu gün hər bir fədakarlığa hazır lirik qəhrəman («Məni bağışlayın») obrazı yaddaqalandır; sərhəd kəndlərdə yaşayan uşaqların ayıq-sayıqlığı, «qonaq» adı ilə kəndə gələnin casus olduğunu başa düşüb, «ağıllı tədbir hazırlayan» («Qonaq») uşağın cəsarəti, Eston xalq əfsanəsi əsasında qələmə alınan Kalevin üç oğlunun qəhrəmanlığından bəhs edən, vətən yolunda canlarından keçən bu oğullar üçün göz yaşı tökən ana Lindanın iztirabları («Linda»), dostluq mövzusunda yazılmış («Dnepr sahillərində») əsərlərdə saflıq, mərdlik, uzaq

keçmişi, zəngin tarixi verilən («İçərişəhər») İçərişəhərin tikilişi, «xalqın əmrilə şəhərdən sahilə yeraltı yol çəkən memarla bağlı əhvalatlar» yaddaqalan obrazlarla zəngin əsərlərdir. «Bizim metro» əsəri nağıl ünsürlərindən istifadə yolu ilə yazılıb. Burada müharibədən sonra ölkədə gedən quruculuq işlərinin təsviri verilir.

Z.Cabbarzadə 30 illik ədəbi yaradıcılığının çox böyük hissəsini həm də uşaqlara, gənclərə həsr edən, əsərlərilə uşaq ədəbiyyatında dərin iz buraxan istedadlı şairdir.

Uşaq ədəbiyyatı yeniyetmələrin, gənclərin tərbiyəsində mühüm rol oynayan ədəbiyyatdır. Ona qayğı həmişə diqqət mərkəzində olub. 1962-ci ilin oktyabrın 24-də Azərbaycan Yazıçılar İttifaqının müşavirəsi çağırılır. Burada uşaq ədəbiyyatının vəziyyəti müzakirə edilir. İ.Qasımov, S.Rəhimov, R.Rza, Q.Qasımzadə məruzə edir. Bu məruzələrdə M. Rzaquluzadənin, M.Seyidzadənin, T.Elçinin yaradıcılığı ətraflı təhlil olunur, uşaq ədəbiyyatının inkişafında nailiyyətlərimiz qeyd olunur. «1969-cu il 26 mart tarixli Sov. İKP MK-nın və SSRİ Nazirlər sovetinin «Sovet uşaq ədəbiyyatının inkişafı haqqında tədbirlər» ilə bağlı qərarı ədəbiyyatımızdakı nailiyyətlərlə yanaşı, uşaq ədəbiyyatındakı nöqsanları da göstərir. Yazıçılar qarşısında ciddi yaradıcılıq vəzifələri qoyulur, onlara dolğun məzmunlu, ideyalı əsərlər yazmaq tövsiyə edilir. Eyni zamanda uşaq ədəbiyyatının nəzəri problemlərinin dərindən işlənməsinə çox böyük diqqət yetirilir. Bu qərarın nəticəsində tənqidçilər, ədəbiyyatşünaslar uşaq ədəbiyyatı ilə bağlı yazılan əsərləri təhlil edir, onların yazdıqları yaxşı əsərlərin bədii ideya və məzmun keyfiyyətlərini araşdırır, ən yaxşı əsərləri təqdir edir. Yazıçıların X qurultayında Bəkir Nəbiyevin «Uşaq ədəbiyyatını böyük tələblər səviyyəsinə qaldıraq» adlı məruzəsində bu

məsələlər öz əksini tapmışdır. Azərbaycan Yazıçılar İttifaqının 1972-ci il 18 fevral plenumu uşaq ədəbiyyatının daha da inkişaf etdirmək vəzifələri ilə bağlı Sov. İKP-nin XXVI qurultayının qərarları ilə bağlı idi. M.İbrahimov, Z.Cabbarzadə, M.Seyidzadə, P.Xəlilov və başqaları uşaq ədəbiyyatının müxtəlif məsələlərinə öz münasibətlərini bildirdilər. Bütün tədbirlər yüksək səviyyəli uşaq əsərlərinin yazılmasına yönəldilmişdi.

Azərbaycan Yazıçılar İttifaqının 1976-cı ildə çağırılan qurultayında M.Cəfərov «İki qurultay arasında Azərbaycan uşaq ədəbiyyatı» mövzusunda məruzə edir. «Müəllif uşaq ədəbiyyatının nailiyyətlərini həm klassik Azərbaycan uşaq ədəbiyyatı, həm də dünya uşaq ədəbiyyatının inkişafı ilə təmasda işıqlandırır.

Bu dövrdə Azərbaycan uşaq yazıçıları yeni əsərlərlə ədəbiyyatımızı zənginləşdirirlər. Gənc nəslin tərbiyəsində bədii ədəbiyyatın rolu daha da artır, «buna görə də ədəbiyyatda bədiilik, forma və məzmunun bədii vəhdəti, ideya aydınlığı, fikrin bütövlüyü və lakonik ifadəsi, bədii obrazların kamilliyi, bütün bunlarla yanaşı, ümumiləşdirmə və müasirlik kimi başlıca amillər uşaq ədəbiyyatının bədii dəyərini artırmışdır. Məhz bu məziyyətlərinə görə Azərbaycan uşaq ədəbiyyatının keçdiyi inkişaf yolunda 60-70-ci illəri yeni mərhələ adlandırmaq olar» (Q. Namazov). Bu dövrdə yaranan əsərlərdə milli ənənəvi mövzularla yanaşı böyük kəşflər, ölkədə gedən böyük quruculuq işləri, beynəlxalq aləmdə baş verən hadisələr, xarici ölkə gənclərinin həyatı ədəbiyyatımıza gətirdiyi «yeni məzmun, yeni ruh»la yaddaqalandır. Bu dövr poeziyamız, xüsusilə uşaq poeziyası tənqidçilər, ədəbiyyatşünaslar tərəfindən geniş təhlil və tədqiqini tapmışdır. Azərbaycan uşaq poeziyasının «1960-1990-cı illərdə yeni inkişaf mərhələsinə, daha ciddi axtarışlar

dövrünə qədəm qoyduğu, «bu dövrdə uşaq şeirinin müxtəlif nəsillər»in nümayəndələri təmsil etdiyi, «yarım əsrdən artıq bu ədəbiyyatın önündə gedən M.Rzaquluzadə, M.Seyidzadə, M.Dilbazi, R.Rza, Ə.Cəmil, N. Rəfibəyli» kimi qocaman söz ustalarının yazdığı əsərlər dəyərli bilinir. Onların S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, R.Əfəndiyev, A.Şaiq ənənələrini davam etdirdiyi, gənc nəslin təlim-tərbiyəsinə kömək edən lirik şeirlər, nəğmələr, poemalar, nağıllar yazdığı dəyərləndirilir.

Uşaq ədəbiyyatının araşdırıcıları, tədqiqatçı alimlər Böyük Vətən müharibəsi illərində bərpa və quruculuq işlərində püxtələşən Ə.Əlibəyli, B.Vahabzadə, N.Xəzri, H.Arif, H.Abbaszadə, Q.Qasımzadə, M.Gülgün, N.Gəncəli, Qabil, C.Cavadlının uşaqlar üçün müxtəlif mövzuda şeir, poema, nəğmə, nağıl yazdığını, onların yaradıcılığında böyüklər üçün mövzular əsas olsa da, uşaqlar üçün də yazdıqlarını, «uşaqlar üçün yazanda həyat hadisələrinə, canlı müşahidələrə əsaslandıqlarını», uşaqları da, böyükləri də düşündürən mövzuları qələmə aldıqlarını qeyd edir, 60-cı illər uşaq poeziyasına «yeni bir təravət» gətirmiş əsərlər kimi dəyərləndirilən «Arzu» (N.Xəzri), «Yun corab» (H.Abbaszadə), «Balaca dayə» (Q.Qasımzadə), «Fəxrəddinin səyahəti» (Qabil), «Uşaq dünyası» (B.Vahabzadə), «Şah və tutuquşu» (N.Gəncəli) əsərləri ilə yanaşı, bu illərdə ədəbiyyata gələn S. Məmmədzadənin «Qara cücə, ağ cücə» (1962), «Məzəli oxucular» (1965), C.Məmmədovun «Kukla», «Poçtalyon» (1964), «Ay mişar, tələs mişar» (1967), V. Nəsibin «Çəpiş» (1962), «Görüş» (1964), Y. Həsənbəyin «Ördəyin balaları» (1960), «Yağışda çimən cücə» (1962), S. Şeydanın «Təyyarə» (1964), «Mən balaca kosmonavtam» kitabla-

rında toplanan «maraqlı və kiçik həcmli poemalar uşaqların əməl və arzularını ifadə edən əsərlər» kimi dəyərləndirilir.

70-ci illər uşaq ədəbiyyatının həm keyfiyyətcə, həm də kəmiyyətcə zəngin mündəricəyə malik olduğunu görürük. 60-70-ci illərdə öz dəsti-xətti ilə tanınan Ə.Kərim, F.Qoca, N.Həsənzadə, F.Sadıq, Ə.Kürçaylı, M.Araz, C.Novruz, X.Rza, T.Mütəllimov yaradıcılığında uşaq şeiri də xüsusi yer tutur. Ə.Kərimin «Laylay» şeiri ən yaxşı uşaq ədəbiyyatı nümunəsidir:

Gecə oldu tən yarı,
Balaca tumbul balam,
Yorğun oyuncaqları,
Oyatma, ay gül oğlum.

Bax, Ay da küsdü səndən,
Bax, Ay da getdi batdı.
Aşıb dağlar başından,
Qaranlıq yerdə yatdı.
Oyanar səs salsan Ay,
Ay kimisən, a laylay.

Tofiq Mütəllibovun müxtəlif illərdə «Bəxtəvər uşaqlar», «Bağçada yolka», «İşıq», «Ləpələrin nəğməsi», «Kəkliklər oxuyanda» kitablarında toplanan şeirləri uşaq ədəbiyyatının yaxşı nümunələrindən sayılır. Onun «Ananın sözləri» şeiri həm dilə yatımlığına görə, uşaq təfəkkürünə uyğun, həm də məzmunca maraqlıdır. Şeirdə deyilir:

Anasının yanına,
Qaçdı balaca Qəşəm.
Dedi: ana, ay ana,
Təzə güllər dərmişəm,
Bundan bağban əminin
Heç olmadı xəbəri,

Gizli dərib gətirdim,
Mən sənə bu gülləri.
Anası dedi: oğlum,
Çox məyus etdin məni.
Analar sevməyirlər,
Oğurluq hədiyyəni.

Tofiq Mütəllibovun bir çox uşaq şeirlərinə bəstəkarlar mahnı bəstələmişlər.

F.Sadığın tapmaca, yanıltmac və digər formalarda uşaq şeirləri, onlarda bədii ifadə vasitələrindən «bacarıqla istifadə etməsi»ni tənqidçilər xüsusilə qeyd edirlər. Onun «Gilə» şeiri:

Qəşəng qızam,
Adım Gilə.
Qonaq getdim
Dayımgilə.
Yağış yağdı gilə-gilə.
Ayaqqablarım
Batdı gilə.

Onun «Cırtdan hara getmişdi» nağılı və «Ana əli» əfsanəsi folklor üstə köklənmiş yaxşı uşaq ədəbiyyatı nümunələrindəndir.

C.Məmmədovun, Y.Həsənbəyin, F.Sahibin, R.Zəkanın, S. Məmmədzadənin, S.Şeydanın uşaq poeziyası məzmun və mündəricə baxımından diqqəti cəlb edir. Sonrakı illərdə ədəbiyyata yeni gənc ədəbi qüvvələr gəlir. M.Namaz, Aslan Kəmərli, Ə.Kərimov, A.Əliyev, Q.İsazadə, Ə.Cəfərli, R.Yusifoğlu, A.Mahmudlu, E.Sadıq, S.Mustafayev, Ə.Həkim, İ.Kərimov və s. yaradıcılığında «mövzu axtarışı, fikrə rəngarəng boyalar, yeni insani duyğular və münasibətlər gətirmişdi. Bununla yanaşı, ulduzlar dünyasına səyahət, uzaq

Tayqada yeni həyat, elm aləmində, məişətdə diqqəti cəlb edən yeniliklər də gənc şairlərin yaradıcılığında başlıca yer tutur. Bu yeniliklər onların dövri mətbuatda çıxışlarında, yeni çapdan çıxmış kitablarında və gənclik nəşriyyatının vaxtaşırı çap etdirdiyi «Ulduz» (1977, 1981) toplularında aydın nəzərə çarpır.

Uşaq ədəbiyyatının inkişafında Xanımana Əlibəylinin öz dəsti-xətti var. Həkimlik sənətinə yiyələnsə də, ədəbiyyatı sevən, şeirə, sənətə bağlanan X. Əlibəylinin ilk şeiri 1938-ci ildə («Ana») «Azərbaycan qadını» jurnalında çap olunub. O, müharibədən sonra ADU-nun filologiya fakültəsini bitirir, bədii yaradıcılıqla daha ciddi məşğul olmağa başlayır. Şeirlərinin çoxunun mövzusu, sehri nağıllı uşaq aləmin»dən götürülürdü. «Balaca həkim» (1955), «Dovşanın ad günü» (1957), «Meşə həkimi» (1958), «Novruz və Murtuz» (1959), «İşləməyən dişləməz» (1961), «Uşaq mahnıları» (1961), «Ağ çəmən» (1963), «Məni Günəşə at», «Noğul» və s. 30-a qədər kitabın müəllifidir. Onun «Qızılgül», «Süsən güldü», «Nilufər», «İnciçiçəyi», «Lalə», «İnnab ağacı», «Qara şanı», «Alma ağacı» və s. şeirləri uşaq zövqünü oxşayan əsərlər kimi dəyərlidir. «Lalə» şeiri bu cəhətdən zəngindir:

Yurduma sərin külək
Əsəndə axşam çağı,
Mən başımı əyərək
Öpürəm bu torpağı.

Xalq ədəbiyyatının zəngin məxəzlərindən faydalanan Xanımana Əlibəylinin xalq ruhunda yaratdığı tapmacaları da diqqətəlayiqdir: «Tap görüm» şeirində topun əlamətləri verilir:

Atdım, göyə çatmadı,
Düşdü çaya batmadı.

Tullanır hər tərəfə,
Yellənir gəldi hara,
Bir gündə neçə dəfə,
Dəyir daşa, divara.
İki rəng olur donu,
Mən çox sevirəm onu.

Onun şeirlərində olduğu kimi poemalarında da uşaqlara aşılanan nəcib əxlaqi keyfiyyətlər əsasdır. «Məni Günəşə at» kitabındakı poemalar («Çoxbilmiş çəpişlər», «İsa və Musa», «Mərcanqulu qalası», «Dınqılda, sazım, dınqılda», «Anamın nəğməsi», «Aman ovçu») xalq nağıl və əfsanə motivləri ilə zəngindir. «Ulduzların qucağında», «Bir yay səhəri» poemalarının mövzusu müasir həyatdan götürülüb. Müasir həyatı keçmişlə müqayisəli şəkildə əks etdirən «Bir yaz səhəri» poemasında şairə «doğma vətənimizi yeniyetmələrə sevdirməyi, onları mübarizəyə hazırlamağı, qarşısına məqsəd qoyduğu bildirilir. 1980-ci ildə çap olunan «Əziz komissar» kitabında toplanan şeirlərində şairə vətənin gözəlliyindən, zəngin təbiətindən, heyvanlar aləmindən, körpələrin təhsil və tərbiyəsindən poetik bir dillə söz açır. Sadə, aydın, təbii və canlı dildə yazan, lirik-epik şeirlərində həmişə səmimi olan şairənin kiçik yaşlı uşaqların qəlbinə asanlıqla yol tapan əsərlər müəllifi olduğu tənqidçilər tərəfindən dönə-dönə vurğulanır.

Uşaq ədəbiyyatının ən yaxşı nümunələrini yaradan Teymur Elçin «Qar qız» (1955) şeiri ilə ədəbiyyata gəlib. 1959-cu ildə «Qulaq asın, danışım», «Bip-bip» kitabları çapdan çıxıb. Sonralar yazdığı müasir mövzulu şeirləri, folklordan qaynaqlanan əsərləri «Qızılduz, Yaşar, nur Nənə» (1962), «Din-dan» (1964), «Bahar, adlar, uşaqlar» (1966), «Sözlər, nəğmələr, nağıllar, laylalar» (1969), «Şəkərim, duzum» (1977), «Torağayın nəğməsi» (1979) və s. kitablarında

toplanıb. «Analar və laylalar» şeirlər silsiləsində balaca oxucularına belə bir fikir aşılayır ki, hər anaya öz balası əzizdir. Ona görə də ana öz laylasında balasına ən nəcib insani keyfiyyətlər aşılayır. O, bəzən uzun gecələr yuxusuz qalıb körpə balasına həzin-həzin layla çalır. Onun yaradıcılığında təbiət mövzusu əsasdır. Təbiətin gözəllikləri bütün əlvanlığı ilə verilir. Uşaqlara təbiəti sevdirmək istəyən şair onları onun gözəlliklərindən zövq almağa, eləcə də ətraf yaşıllığı qorumağı vətəndaşlıq borcu olduğunu bilməyi öyrətmiş olur.

T.Elçinin şeirlərində elm və texnikanın inkişafı öz əksini tapır, bu, müasir elm və texnika barədə uşaq təsəvvürünü genişləndirməsinə imkan yaradır. «Bip-bip» poeması bu cəhətdən diqqətəlayiqdir. Şair burada uşaqların nəzərini siqnallara cəlb edir. Ayrı-ayrı nəqliyyat vasitələri haqqında anlayış əldə edən uşaqlar səs siqnallarının vəzifəsi ilə də tanış olurlar. Burada şairin məqsədi təkcə nəqliyyat vasitələrini sadalamaq deyil, əsas ideyanı ifadə etmək üçün qabaqcadan zəmin hazırlamaqdır:

Saat yatır, bip-bip yatmır,
Nə paravoz, nə də maşın,
Yüyürməkdə ona çatmır.
Bip-bip uçur axşam-səhər,
Çatmaz ona təyyarələr.
Bəs o kimdir?
Bip-bip nədir?

Şifahi xalq ədəbiyyatından, onun motivlərindən məharətlə istifadə edən Teymur Elçin «Qarğanın məktəbində», «Qar qız», «Billurənin nağılı», «Getdin gördün», «Dovşanın evi», «Üç qardaş, üç bacı», «Dovşan, tülkü, canavar» poemalarını yazıb. Onun «Qarğanın məktəbində» nağılında uşaqlarda «ana dilinə mahnı və nəğmələr vasitəsilə məhəbbət oyatmaq, xalqa, Vətənə sədaqətlə xidmət etmək kimi xeyirxah ideyalar təbliğ olunduğu kimi, qoluzorluluq, müstəbidlik, ikiüzlülük, mütilik tənqid olunur.

Uşaq ədəbiyyatına şair İlyas Tapdığın əsərləri də gözəl nümunələr sayılır. «Kəndimizin çobanı», «Bulaq başında» kitabları 55-60-cı illərdə yazılmışdır və bu kitablar kiçik yaşlı uşaqların və məktəblilərin həyatını, məşğuliyyətini, marağını, təlim-tərbiyəsini əks etdirmiş əsərlər sayılır. 60-70-ci illərdə yazdığı əsərlərin çoxunu uşaq aləminə həsr etmişdir: «Arxalı dağlar» (1962), «Çimnaz oynayır» (1967), «Təpələr» (1969), «Bir evim var» (1970), «Bir gülün qönçəsi» (1971), «Meşənin mahnısı» (1973), «Çiçəklərim» (1979) və s. kitabların müəllifidir. «Meşənin mahnısı» şeirlər kitabına görə yüksək mükafata-Lenin komsomolu mükafatına layiq görülən İlyas Tapdığın uşaq şeirləri gürcü, rus, ukrayna, latış, türkmən dillərinə tərcümə olunub. O, həm də istedadlı tərcüməçidir. Y.Raynis, Y.Berns, L.Ukrainka, P.Brovka, E. Mejelaytis və s. görkəmli şairlərin əsərlərini dilimizə tərcümə edən lirik şairdir. Şeirlərində təbiət aləmi əsas mövzulardan biridir. O, təbiətdə baş verən hadisələri, onlarla təbiət arasında doğma olan hissləri uşaq təfəkküründə uyğun bir dillə qələmə alır. Məsələn «Bildirçin» şeirində uşağın diliylə danışır, onunla quş arasında ünsiyyət qurur:

Bildir uçub bağçanı
Meşə bildi Bildirçin.
Arzu baxıb çağırdı:
«Çildir, Çildir, Bildirçin».
Dedi: -Hanı quyruğun?
Mənə bildir, Bildirçin.
Bəlkə pişik qoparıb,
Neçə ildir, Bildirçin?

Uşaq ədəbiyyatını öz yaradıcılığı ilə zənginləşdirən Məstan Əliyevin «Qartal», «İlk görüş», «Çəmən qızı», «Nərgizim», «Addımlar, addımlar», «Nəğməli qovaq», «Obalardan əsən yellər» kitablarında toplanmış əsərləri uşaqlara həsr olunub. Xalq ədəbiyyatından yararlanmaqla uşaq ədəbiyyatının ən yaxşı nümunələrini yaratmaq ənənəsi M.Əliyevin yaradıcılığında da davam etdirilir. Tədqiqatçılar onun poeziyasında təsvir və tərənnüm deyil, «mükalimələrdən, qarşılıqlı sual-cavablardan» istifadə etdiyini, obrazların «hərəkət və davranışları ilə «səhnəciklər» yaratdığını təhlil və tədqiqində əsas götürürlər. «Bir söz səndən, bir söz məndən» şeirində bu xarakter diqqətə çatdırılır:

-Kollarda qarağat qalıb.
-Dəymə, dəymə.
-Yaydan qışa sovqat qalıb.
-Dəymə, dəymə.
-Tənəkdə bir, iki salxım.
-Dəymə, dəymə.
-Gəlsənə dadına baxım.
-Dəymə, dəymə.
- Hə, bildim, bunları qış..
-Dəymə, dəymə.
-Bəlkə quşlara saxlamış?
-Dəymə, dəymə.

və şair «nə şəraiti, nə ilin hansı fəsli olduğunu, nə də uşaqların meyvələrin sovuşduğu yerə səyahətini təsvir edir. Bu mənzərələr dialoqların arxasında gizlənmişdir. Surətlərin söhbətlərindən və bircə «qış...» kəlməsi ilə «dəymə, dəymə» təkririnin müqabil tərəfindən ardıcıl təkrarlanması «tapşırığı» möhkəmlətməklə, həm də uşaqlara məxsus şeirə oynaqlıq, axıcılıq gətirir» (Q. Namazov).

Nəsihətçilik, didaktik mövzuda yazılmış şeirlərində də onun yaradıcılığına xas xüsusiyyətlər («Ağ çay», «Ay can», «Aşıq, nə aşıq», «Tərs», «Tağlar», «Armud payı», «Arx», «Suallar, suallara cavablar»), mövzuya uyğun tapdığı bənzətmələr, əlvan boyalar, qələmə aldığı mövzuya uşaqlarda maraq yaratmaq keyfiyyətləri M.Əliyevin poetik imkanları uşaqlar üçün yazdığı əsərlərdə onu uşaq ədəbiyyatında öz dəsti-xətti, üslubu ilə seçilən şair kimi tanıdıb. «Nəğməli qovaq» şeirlər kitabı Lenin komsomolu mükafatına, «Çalğıçı qızlar» kitabına və «Ovçu İbişin macəraları» silsiləsinə görə Azərbaycan SSR Dövlət Mükafatı laureatı adına layiq görülüb.

Məstan Əliyevin qələm dostlarından biri, uşaq şeirləri müəllifi kimi tanınan Tofiq Mahmuddur. 1961-ci ildən «Göyərçin» jurnalının redaksiyasında işləyirdi, uşaq ədəbiyyatı ilə ardıcıl məşğul olmaq imkanlarına malik idi. Pionerlərin, məktəblilərin həyatından bəhs edən «Alpinistlər» poemasından əvvəl şair «Utancaq oğlan», «Dibçək» adlı ilk uşaq kitabçalarını nəşr etdirmişdir. Uşaqların alpinist olmaq arzuları, Azərbaycan torpağına bəslədikləri məhəbbət poemada əsasdır. "Süsən gəzir Abşeronu» poeması Abşeron torpağına, onun gözəlliklərinə həsr olunub. Süsən adlı balaca qız elektrik qatarında Abşerona gəlir, gördükləri mənzərələr onu heyran qoyur. Dəniz sahilindəki qayalar, tut ağacı, üzüm bağları, əncir ağacı, gül-çiçək bədii dillə təsvir edilir. Poemada ana təbiətin gözəllikləri insanı vəcdə gətirir. Bu poema ilə kifayətlənməyən şair Abşeron haqqında ikinci bir poema «Süsən, Toplan və sehrli maşın» poemasını yazır. Xalqının qəhrəmanlıq dolu həyatını uşaqlara sevdirməyə çalışan, «Bu torpağı tanı sən» silsilə şeirləri də şairin yaradıcılığında mühüm yer tutur. T.Mahmud uşaqlar üçün

şeirlərlə, poemalarla yanaşı hekayələr, nağıllar, əfsanələr («Dalğalar» kitabı) də yazmış, çap etdirmişdir. Təbiətin gözəlliyi, insanın nəcib əməlləri, insani keyfiyyətləri əks olunan «İgid təyyarəçinin qardaşı», «İgid çapar», «Maşinist», «Adada hadisə» kimi hekayə və əfsanələri bu cəhətdən yüksək qiymətləndirilir. Onun uşaqlara həsr etdiyi şeirləri bir sıra xalqların dillərinə tərcümə olunmuş, Tofiq Mahmud da A.Barto, V.Berestov, Y.Akim və başqa sənətkarların əsərlərini dilimizə tərcümə etmiş, uşaq ədəbiyyatımızın zənginləşdirilməsi üçün bütün yaradıcılıq imkanlarından istifadə etməyə çalışmışdır.

Məmməd Aslanın 70-ci illərdə uşaq poeziyasına gəlib, uşaqlar üçün yazdığı «Dağ ürəyi», «Böyürtkən-böyrü-tikan», «Səhəri kim açır», «Dəvələr niyə köyşüyür», «Durnalar lələk salır» şeir topluları nəşr olunub. «Göyərçin», «Azərbaycan pioneri», «Pioner», «Ulduz», «Azərbaycan gəncləri» kimi uşaq və gənclər üçün fəaliyyət göstərən mətbu orqanlarında müntəzəm çıxış edən şair şifahi uşaq poeziyasına diqqət yetirir, xalq arasında bu gün unudulmaqda olan, tək-tək misraları qalan poetik irsi sözün əsl mənasında bərpa etməyə, eldən itəni elə qaytarmağa» (Q. Namazov) çalışır. Məsələn,

Dildə, ağızda gəzən
Durna kimi üzməyi var,
Nazlı balam şuxlucadır-

beytlərini götürür, poetik misralarda davam etdirir:

Yanaqları şəfəq saçır,
Aynadan işıqlıcadır.
Nəğmə deyən şirin dili
Bala bulaşıqcadır.
Mənim balam tək yaranıb,
Gildən yaraşıqlıcadır.

«Quzunu hardan alırsan?», «Biz ovçuyuq», «Bir qom bənövşə», «Ditdili mindim çay keçdim», «Tənha qurbağa» şeirlərində şair köhnə nəğməyə təzə ruh verir. Belə şeirlərin dilinin «yığcam»lığı, kövrək və şirəli»liyi diqqəti cəlb edir. Mükalimələrin uşaq marağına uyğun uşaq danışıq dilində qurulması onu yaddaqalımlı edir.

Tənqidçilər onun folklordan bəhrələnmə imkanlarını yüksək qiymətləndirirlər. Uşaqlar üçün yazdığı şeirlərin ölçü-biçimi, onların miniatür misralarının sayının çox olmaması, bu xüsusiyyətin, mətləbi uzatmadan çatdırmağa, boyaları əlvanlandırmağa» imkan verdiyi, «bütövlük», «tamlıq» yaratdığı da diqqətdən qaçmır. Təbiət şairi kimi tanınmış M.Aslanın uşaqlar üçün qələmə aldığı «Dəvələr niyə gövşəyir», «Səhəri kim açır», «Qoca müəllim», «Qorxulu səfər» adlı poemalarında da ən çox təsvir olunan və öyülən təbiətdir. Bu əsərlərdə təbiət öz şəfalı ab-havası, ecazkar gözəlliyi ilə qarşımızda dayanır. Şair kiçik oxucuların mənəvi-estetik tərbiyəsi üçün təbiət hadisələrini təbiətdən seçib alır. Məmməd Aslanın həm uşaq ədəbiyyatına məxsus əsərləri və həm də digər əsərləri onun Azərbaycan xalqının vətəninə, torpağına, türk dünyasının birliyinə sığınan şair kimi tanıdıb. «Ulduz», «Azərbaycan təbiəti» jurnalında, «Ədəbiyyat və incəsənət» qəzetində, «Azərbaycan gəncləri» qəzetində çalışan «Yazıçı» nəşriyyatında böyük redaktor, Azərbaycan Dövlət Teleşirkətinin «Ekran-efir» qəzetinin baş redaktoru, televiziyada «Dərədən-təpədən» verilişinin rəhbəri Məmməd Aslan 60-cı illərdə ədəbiyyata gəlmiş, «Ömrün yarı yaşında», «Sazla izimi dünya», «Nur içində nur», «Allahın Rəsulu», «Bir sultan yaşardı Sultantəpədə», «Ərzurumun gədiyinə varanda» və s. kitabların da müəllifidir və bunlar onun zəngin yaradıcılığının, bədii təxəyyülünün

zənginliyindən xəbər verir. «Türk xalqları şeirlərindən seçmələr» (1980), «Yunis İmrə, aşıq Veysəl, iki zirvə» kitabları türk dünyasına, soykökünə, tarixinə qırılmaz tellərlə bağlı Azərbaycan sənətkarlarının amalında, əməli məfkurəsində türkçülük ideyalarına sadiqliyin təzahürüdür.

Bu gün uşaqların sevə-sevə oxuduğu Zahid Xəlilin ilk kitabı «Uçan çıraqlar»dır (1969). Bu kitabdakı kiçik şeirlər və nağılları tənqidçilərin diqqətini cəlb etmişdi, «bu kitab ədəbiyyatımıza maraqlı bir uşaq şairin gəldiyindən xəbər verirdi. Gənc müəllif ənənəvi nəsihət poeziyasından ustalıqla imtina edərək, uşağa əhvalatın özünü göstərir, nəticə çıxarmağı isə onların ixtiyarına verir» (Q. Namazov).

Tezliklə uşaqlar arasında geniş yayılan bu kitabın müvəffəqiyyət qazanması şairi daha da ruhlandırdı. «Mən rəngləri tanıyıram» kitabını çap etdirdi və bu kitabı da onun «maraqlı axtarışlarının nəticəsi» kimi dəyərləndirildi. Əsərlərində quşların, böcəklərin xasiyyətini, xarici görünüşünü, yaşayış tərzlərini poetik bir dillə uşaqlara çatdıran şair burada da öz ilk şeirlərindəki ənənəni davam etdirir. «Göydən üç alma düşdü» (1974) kitabında yeni keyfiyyətlər üzə çıxdı. Əvvəlki kitablarında təbiəti təsvir edirdisə, bu kitabında «təbiəti danışdırmağa başladı»:

Qanqal bir gün söylədi,
-Tikanım var, kirpiyəm.
Çiçəklərim gözümdür,
-tikanlarım-kirpiyim.

Dəvəyə bax, dəvəyə,
Ayaqları tərəzi.
Elə bil ki, lampadı,
Gözlərinin hərəsi.

Bu vaxt dəvə qanqalın
Lap yanına çatırdı.
Qanqal isə gizlincə
Tikanını dəvənin
Ayağına batırdı.

Eh, dəvəyə nə var ki?!
Dəyişmədi heç halı.
Otların arasından
Tapıb yedi qanqalı.

«Quşlar, quşlar», «Torağaylar oxuyur» kitablarının bədii dəyəri yüksəkdir. İkinci kitabda klassik ənənələri, xalq ədəbiyyatı ənənələri, həm də müasir rus və Avropa ədəbi ənənələri yaşadılır.

1980-ci ildə nəsr əsərini- «Ballıca» kitabını yazır. Nağıl və povestlərdən ibarət bu kitabın ümumi ruhu xalq ədəbiyyatı, klassik ədəbiyyat və Avropa ədəbiyyatına yaxındır. N.X.Andersen, C. Rodari, Ş.Perro, Qrim qardaşları, N.Nosov, L.Kassil kimi sənətkarların ədəbi ənənələrini davam etdirən müəllifin maraqlı, ibrətamiz nağılları, hekayələri də diqqəti» cəlb etdiyi və bununla müəllifin adi uşaq hekayələrində də ciddi ictimai fikirlər söyləmək fikrində olduğunu sübut etdiyi bildirilir.

Uşaq ədəbiyyatının nəzəri məsələləri ilə də məşğul olan Zahid Xəlil uşaq ədəbiyyatı problemlərilə bağlı alimlik dərəcəsi almış, Azərbaycan yazıçılarının VII qurultayında uşaq ədəbiyyatına dair məruzəylə çıxış etmişdir.

Müasir uşaq nəsrinin 1960-80-ci illərdə ən gözəl nümunələrini M.İbrahimov. M.Rzaquluzadə, S.Vəliyev və başqaları da yaradıb. M.İbrahimovun «Pərvizin həyatı», «Həyatdan hekayələr», S.Rəhimovun «Gülən balıq», «Gülsabah».

Mir Cəlalın, Ə. Məmmədxanlının, S.Vəliyevin hekayələri bu qəbildəndir. 60-80-ci illərdə orta nəslin nümayəndələri Q.İlkin, E.Ağayev, Y.Əzimzadə, G.Hüseynoğlu, E.Mahmudov, X.Hasilova, H.Zeynalova, Ə.Babayeva, Ə.Əmrahov və başqaları təmsil edir: «Onların gənc ədəbi qəhrəmanları inqilabi mübarizə dövründə, vətəndaş müharibəsi, kollektivləşmə və sosializm quruculuğu illərində, Böyük Vətən müharibəsinin ağır günlərində həyatın çətin sınaqları ilə üzüzə gəlmişlər. Onlar erkən yaşlarından atalarını əvəz edib, zəhmətə qatlaşmış, sinfi çarpışmalarda bəzən öz mövqeyini düzgün müəyyən edə bilməmiş, hiyləgər düşmən tələsində sarsılmış, bununla belə, həyatda, quruculuq işlərində xalqla bərabər inamla addımlamış, faşizmə qarşı mübarizədə böyüklərlə çiyin-çiyinə vuruşmuş, arxada təsərrüfatın ən ağır sahələrində çalışmışlar» (Q. Namazov).

Mənsur şeir ustası Gülhüseyn Hüseynoğlu «Beşincilər», «İtmiş keçi», «Sübhçağı» hekayələr toplularında təlim-tərbiyə məsələlərini, məktəblilərin arzu və istəklərini, əməllərini əks etdirir.

Həbibə Zeynalovanın «Sünbül kukla», «Yol verin, yol verin», «Dilarə bağa gedir», Günəş məndən göyçəkdir». «Qızıl alma» və s. kitablarındakı hekayələri tənqidçilər maraqlı hekayələr kimi dəyərləndirir.

Kiçik yaşlı uşaqlar və məktəblilər üçün yazan yazıçı İsa Hümmətovun on beşdən çox kitabında toplanan, uşaq mühitindən bəhs edən povest və hekayələrində «kənd mühiti, təsərrüfat, təbiət, müxtəlif bitkilər, quşlar və heyvanlar aləmi daha təbii və canlı təsvir olunur. Bu əsərləri ilə yanaşı, «Ətirli çiçəklər», «Nənə, əlini mənə ver», «Nazilə», «Atanın həsrəti», «Baba yadigarı», «Dünyanın bəzəyi» əsərlər təsvir olunan hekayələri də yaradıcılığında müəyyən yer tutur.

İsa Hümmətov müasir ruhlu nağıllar da yazıb. «Yaxşılıq itmir», «İki molla və kəndli», «Lovğalığın nəticəsi», «Alabaş və Xoruz», «Zalım ağa və balaca» nağılları xalq nağılları motivləri aşılamaq istədiyi ideya, ruh ilə müasirdir, bu günümüzlə səsləşir.

Xalidə Hasilova balacalar üçün yazdığı «Kiçik hekayələr» toplusu ilə yaradıcılığa başlayıb. 1966-1972-ci illərdə «Göyərçin» jurnalının baş redaktoru, sonra isə «Azərbaycan qadını» jurnalının baş redaktoru işləmişdir. «Lalənin kitabı», «İlk məktub», «Atlaz yarpaqlar», «Unutmaram», «Rəna evlərini axtarır», «Yaşıl ayna», «Kaman» və s. kitablarında toplanan əsərlərdə gənclərdə, uşaqlarda dostluq, yoldaşlıq, böyüklərə hörmət, məktəbə, elmə maraq, təbiətə qayğı, müharibəyə nifrət hissi aşılayır. İlk dəfə məktəbə getməyə hazırlaşan Solmazın («Təqvim») həyəcanları, milli-mənəvi dəyərlərimizə hörmət («Buyurun əyləşin», «Yaxşı yoldaş») kimi, yaşıllıqları qorumaq kimi xeyirxah, əməllərə sahib Baba ilə nəvənin («Baba və Nəvə») zəhmətinə elin qiyməti, dostluq, qorxmazlıq, humanist gənclərin («Mükafat», «Ağ külək»,, «Ata») əməlləri təsvir olunan hekayələri ilə yanaşı X.Hasilovanın müharibə illərini əks etdirən «Ulduzlu papaq», «Rəna evlərini axtarır» kitablarında toplanan əsərləri vardır. Gənclərin ölkədə gedən quruculuq işlərini özündə əks etdirən, Qazaxıstanın ucsuz-bucaqsız çöllərində, xam torpaqlarda çalışan zəhmət adamlarının hünərindən bəhs edən «Xam torpaqlarda» silsilə hekayələrlə yanaşı, müxtəlif mövzulu maraqlı povestlər də yazmışdır. «Lalənin kitabı», «Dəniz çıraqları», «Kaman», «Onun taleyi». «Cəhrayı rəng» hekayələrində maraqlı, yaddaqalan şagird, yeniyetmə obrazı yaradan X.Hasilova povestlərində də bitkin

gənc obrazları, müəllim surətləri yaradıb və bunlarda təhsil, təlim və tərbiyə məsələləri əsas yer tutur.

Ələviyyə Babayevanın ilk hekayəsi olan «İki həyat» «Ədəbiyyat» qəzetində nəşr olunub. «Mənim müəlliməm», «Hekayələr», «Tək ağac», «Kənd yolları», «Mənim əzizlərim», «Payızda», «Ayran», «Mən tək deyiləm», «Kənd yollarına səyahət», «Babamın arıxanası», «Yenə bahardır», «Kölgə», «Yarpaqlar nə haqda pıçıldaşır», «Povestlər» və s. kitabları nəşr edilib. Bu əsərlərdə yazıçı Azərbaycanımızın təbiətini, uşaqların müasir həyatını, xarakterini, təhsili, tərbiyəni, heyvanlar aləmini təsvir etmişdir. Hekayələrində həm də xalqlar dostluğu, dostluqda səmimiyyət yüksək təhsil uğrunda mübarizə əsas yer tutur. L.Tolstoy, M. Qorki, A.Qaydar, N.Boqdanov, V.Stivensak, V.Astafyev və başqalarının uşaqlar haqqında yazdığı əsərləri dilimizə çevirmişdir.

Bayram Həsənov orta və yuxarı yaşlı uşaqların («Ayaz», «Qonşu», «Yaylaq», «Çörək», «İlk görüş», «Bir qonşu var») obrazlarını canlandıran povestlər yazmışdır. Bu əsərlərdə yazıçı müharibə illərində, bərpa işlərində kənddə, eləcə də şəhərdə uşaqların tərbiyəsini, təhsilini, müəllimlərin işgüzarlığını bədii boyalarla təsvir etmişdir. Nəriman Süleymanov uşaq hekayələri ilə ədəbiyyata gəlib. «Pioner» jurnalında ədəbi işçi, sonra baş redaktor işləyib. «Qaraçı qız», «Qocalar və uşaqlar», «Sovqat», «Novruzgülü» kitablarında təlim-tərbiyə, əmək, vətənpərvərlik və təbiət aləmindən bəhs olunur: «O, «Novruzgülü» alleqorik nağıllarında çiçəklərin təbiətə yaraşıq və gözəllik verməsindən bəhs edir, göstərir ki, bu güllər baharın övladlarıdır, hərəsinin bir gözəlliyi, bir təravəti var. Buna görə də gözəllikdən söhbət düşəndə ətirli qızılgül, yaraşıqlı qərənfil, utancaq bənövşə,

meşələrin bəzəyi nərgiz, düzlər gözəli lalə və digər güllər özlərini öyür, tərifləyirlər. Novruzgülünün isə boynu bükükdür. Çünki onun ömrünə cəmi iki gün qalır. Palıd isə onun daha qiymətli, daha gözəl olduğunu başa salır. Axı, Novruzgülü baharın ilk müjdəsidir. Müəllif bu güllərin hansının harada bitdiyini, hansından necə istifadə etmək lazım olduğunu uşaqlara öyrədir». 70-ci illərdə «Yetər nənə», «Babamın bağı», «Göy qurşağı», «Tək çiçək» kitablarında kəndin qayğıları, heyvanların, quşların həyat tərzi canlı, bədii boyalarla təsvir edilmişdir. «Alma», «Sehrli ağac» adlı iki dizi filminin ssenari müəllifi Nəriman Süleymanovun əsərləri keçmiş SSRİ, macar, yuqoslav dillə-rində çap olunub.

Müasir mövzulara daha çox meyl göstərən, hekayələrində dövrünün gənc nəslinin tərbiyəsi, təhsili, müxtəlif sənətlərə həvəs, arzu, özündən böyüklərə hörmət, təşəbbüskarlıq və s. məsələləri qələmə alan Əzizə Əhmədova «Novruzgülü-yazgülü», «Sehrli güllər», «Yaz qarı», «Toplan və kölgəsi», «Ayı meşədən küsdü», «Yağış», «Heyvanların qış hekayəti», «Xınalı qayalar» və s. əsərlərində yazıçı dəqiqliyi, həssas müşahidə qabiliyyəti, sənətinə tələbkarlıq aydın hiss olunur. «Ağlağan çəpiş», «Lovğa ördək balası», «Səyyar dovşan», «Tülkünün kələyi baş tutmadı», «Göl əfsanəsi» və s. təmsillərində hər bir heyvan, quş, çiçək və bitki öz xüsusiyyətinə, həyat tərzinə uyğun qələmə alınmışdır. Kiçik həcmli hekayələrində yazıçı orijinal fikir söyləməyi, balacaların hiss və duyğularını qələmə almağı bacarır.

60-cı illərdən Azərbaycan uşaq ədəbiyyatının dramaturgiya bölməsi yeni inkişaf mərhələsinə qədəm qoyur: «Müasir insanı, onun həyatını bütün genişliyi ilə əks etdirmək, ictimai həyatdakı əksikləri, keçmişin qalıqlarını, in-

san xarakterində nəzərə çarpan keyfiyyətləri bir-birilə təmasda açmaq dram janrı üçün əsas meyara çevrildi. Bu illərdə dramaturgiyanın mövzu dairəsi daha da genişlənmiş, yeni nəslin əsrin tələb etdiyi səviyyədə tərbiyəsinə yönəldilmişdir. Gəncliyin əsl vətəndaş kimi kamala çatması üçün müasir elmi və texniki biliklərə yiyələnmək, yüksək zövqə, mənəvi yetkinliyə, zəhmət və əməklə ucalmağa cəhd göstərməsi günün ən başlıca məsələsi kimi dramaturgiyanın qarşısında dururdu» (Q.Namazov). Gənc Tamaşaçılar Teatrında, eləcə də A. Şaiq adına Kukla teatrında uşaqlara, gənclərə məxsus dram əsərləri tamaşaya qoyulur. Kukla teatrında Ə. Abbasovun «Keçinin qisası», M.Dilbazinin «Göyçək Fatma», R.Heydərin «Göylər qonağı», Ə.Səmədovun «Artıq tamah baş yarar», «Əzablı günlərin sonu», Ə.Məmmədovun «Cəsur uşaqlar», M.Atəşin «Cırtdan», T.Kazımovun «Qoçaq Polad», S.Məmmədzadənin «Tülkünün aqibəti», R.Əlizadənin «Hamam hamam içində», F.Məmmədovun «Ac qulağım, dinc qulağım» və digər yazıçıların pyesləri, eyni zamanda keçmiş SSRİ və dünya xalqlarından edilmiş tərcümə əsərləri oynanılır.

Dram əsərlərinin çox hissəsi folklor motivləri əsasında, bir hissəsi məişət nağıllarımızın motivləri (İ.Coşqunun «Ana laylası») əsasında, mühüm bir qisminin mövzusu müasir həyatdan (M.Təhmasibin «Gülən gözlər», Y.Əzimzadənin «Qonşular», Anarın «Keçən ilin son gecəsi», S.Qədirzadənin «Şirinbala bal yığır», Q. İlkinin «Təzə şagird», A.Məmmədovun «Yadındamı», C.Məmmədovun «Dan ulduzu», «Həyatın astanasında», İ.Xurşud və Ə.Hacıyevin «Məhəbbət novellası», İ.Məlikzadənin «Sağlıq olsun») bəhs edir.

Əli Səmədli «Azərbaycan pioneri» qəzetində işlədiyi müddətdə uşaq ədəbiyyatına marağı daha da artmışdır. Xalq nağıllarından qaynaqlanan nağılları «Aqil babanın nağılları» (1961) kitabında toplanıb. Sonralar «Məktəb səhnəsi», «Qarlı gündə», «Çinar ömrü uzun olur», «Tərgül və Zərgül». «Hər kəsin öz nəğməsi var», «Tapmacalar», «Xəbərçi rəng», «Sehrli xalça» və s. kitablarında nağılları, hekayələri, mənsur şeirləri, povest və pyesləri toplanıb nəşr edilmişdir.

Onun uşaq dramaturgiyası sahəsində də fəaliyyəti uğurludur. Onun «Məktəb səhnəsi» kitabında «Pioner projektoru», «Artıq tamah baş yarar», «Əzablı günlərin sonu». «Gülən dağ» pyesləri toplanmışdır. «Kibrit çöplərinin macərası», «Sehrli xalça», «Sarı sünbül» və s. pyesləri məktəb səhnələrində, xalq teatrlarında tamaşaya qoyulmuşdur.

Təmsil bədii ədəbiyyatımızın ilkin janrlarından olub, mənbəyini mif, əsatir, əfsanələrdən alıb. «Kəlilə və Dimnə», «Min bir gecə» abidələrində təmsilin ən kamil nümunələri var. Azərbaycan şifahi söz sənətində təmsil janrı zəngin məzmun və ideyalara malikdir. Xaqani, Nizami, Füzuli, Q. Zakir, A.Bakıxanov, S.Ə.Şirvani, M.N.Qarabağı, M.Ə. Sabir. A. Səhhət. R.Əfəndiyev, A.Şaiq təmsilin gözəl nümunə lərini yaratmışlar. Azərbaycan ədəbiyyatının ayrı-ayrı mər hələlərində təmsil gözəl bir janr kimi yeni keyfiyyət kəsb etmiş, zəngin ədəbi mündəricəyə malik olmuşdur. Yazıçılar ayrı-ayrı ədəbi janrlarda təmsilin müxtəlif növlərini və şəkillərini yaratmışlar. M.Seyidzadə, M.Rzaquluzadə, M. Dilbazi, M.Müşfiq, H.Əlizadə və b. bir sıra maraqlı mənzum təmsillər yaratmışlar. M.Seyidzadə («Büllur qəsr», «Qorxmaz», «Cırtdan», «Sehrli saz»), M.Təhmasib («Çiçəkli dağ»), Ə.Abbasov («Keçinin intiqamı»), X.Əlibəyli «Dovşanın ad günü»), Ə.Səmədli («Gülən dağ»), Hikmət Ziya («2-cilər təslim olur») müxtəlif mövzularda təmsil-pyes yazmışlar. Təmsil janrı uşaq ədəbiyyatının bir sahəsi kimi

yarandığı fikrində olan tənqidçilər «bugünkü təmsilin bədii - estetik tərbiyə meydanı daha vüsətlidir. Təmsil vasitəsilə uşaqlar müasir texniki inkişaf, müxtəlif bilik sahələri, heyvanların, quşların və bitkilərin həyat tərzi ilə tanış olurlar. Bununla yanaşı, insana məxsus bir çox keyfiyyət və məziyyətləri təqdir, naqis və mənfi surətləri ilə islah etmək üçün təmsil daha münasib bədii tərbiyə vasitəsi»dir deyirlər. X.Hasilova, Ə.Babayeva, T.Elçin, İ.Tapdıq, M. Əliyev, Z.Xəlil, F.Sadıq, T.Mahmud, S.Məmmədzadə, Ə.Səmədli, Y.Həsənbəy, C.Məmmədov, H.Ziya, Mərkəz Qacar təmsilin maraqlı, yaddaqalan nümunələrini yaratmışlar. Bu müəlliflər arasında H.Ziya və M.Qacar daha ardıcıl olaraq bu sahədə daha səmərəli fəaliyyət göstərmişlər. H. Ziya uşaqlar və böyüklər üçün şeirlər yazsa da, müasir ədəbiyyatımızda təmsil ustası kimi tanınır. Təmsilləri geniş oxucu kütləsinin rəğbətini qazanan Hikmət Ziyanın təmsilləri müxtəlif almanaxlarda, dərsliklərdə, məcmuələrdə çap olunub. H.Ziyanın uşaq şeirlərinə («Vətən», «Ay nəğməsi», «Şənlik nəğməsi», «Bizim nəsil», «Bakı», «Sünbülüm», «Bayrağımız» və s.) mahnı bəstələnmişdir. O, eyni zamanda SSRİ Uşaq və Gənclər Ədəbiyyatı Şurasının üzvü olmuşdur. Şeirləri Moskvada, keçmiş SSRİ xalqlarının dillərinə və xarici dillərə tərcümə olunub. H.Ziya 20-dən çox şeirlər toplusunun müəllifidir. «Ulduzların söhbəti», «Buludlar», «Dovşanım», «Leylək yuvası» və s. kitabları uşaqlar üçündür. Həyat materialı və mövzu müxtəlifliyi cəhətdən zəngin bu təmsillərdə təbiətin bütün canlı və cansız əşyaları obrazlaşdırılır, danışdırılır. Qələmə aldığı personajları səciyyələndirərkən müxtəlif üsullardan istifadə edir. Yaratdığı tiplər söhbətləri, davranışları ilə özlərini ifşa edirlər Müasir dövrdə təmsil janrında yaxşı əsərlər yazan Mərkəz Qacar yüzlərlə təmsilin müəllifidir və bunlar da didaktik keyfiyyətlərlə («Qırıldayan sağsağan»,

«Qurd və pələng», «Ərizəsi alınan», «Qaz ərizəsi» və s.) zəngindir. Onun həm təmsilləri, həm qəzəlləri, həm də digər əsərləri ədəbi posesin inkişafına xidmət edir. Təmsilləri daha orijinal və az yazılan, şairin yaradıcılığının böyük bir sahəsini əhatə edən janrdır.

Fatma Həsənqızının uşaqlar üçün yazdığı «Tibb bacısı», «Nurlu meşənin nağılı», «Şir qəzəbi», «Anası öpməyən qız», «Elçisi gülüm olanın başına külüm olar» pyesləri, «Xocalı soyqırımı», «Həqiqətin həqiqətləri», «Mərhəmət» hekayələri uşaq ədəbiyyatına, onların milli ruhda böyüməsinə təsir edən maraqlı bədii əsərlərdir.

Sovet imperiyası 70 ildən sonra öz hegemon Kommunist ideologiyasına sahib dura bilmədi. 1991-ci ilin 18 oktyabrında SSRİ tərkibində olan xalqların eləcə də Azərbaycan Respublikasının öz müstəqilliyini əldə etməsi, ölkədə hər sahədə olduğu kimi ədəbiyyatın, mədəniyyətin inkişafına da öz təsirini göstərdi. Ölkədə sosial-iqtisadi sahələrdəki yeniliklər, elmin, təhsilin, mədəniyyətin yeni quruluşda inkişafına şərait yaratdı.

Ədəbiyyatımızın böyük bir bölməsi olan uşaq ədəbiyyatı sahəsində də dəyişikliklər oldu, kiril əlifbasından latın əlifbasına keçildi. Yenicə öz müqəddaratını özü həll etmək səadəti nəsib olan ölkəmizə xarici müdaxilələr gücləndi. Qarabağ və onun ətrafındakı rayonlarımız erməni faşistləri tərəfindən işğal edildi. Qərbi Azərbaycan torpaqlarından qovulan milyondan çox soydaşımız qaçqın və köçkün taleyi yaşamağa məcbur edildi. Erməni-rus birləşmələri tərəfindən zəbt edilən torpaqlarımızda talançılıq baş alıb gedirdi. Respublikamızı təlatümə salan siyasi mübarizələr, kobud təhqir, dedi-qodular, mətbuat ziddiyyətləri təhlükəli həddə çatdı. Belə bir ağır dövrdə Yazıçılar Birliyi baş verən ha-

disələrə biganə qala bilmirdi. Qurultaylarda, keçirilən konfranslarda ədəbiyyatın taleyi, uşaq ədəbiyyatının problemləri üçün narahatlıq güclənirdi. 1992-ci ilin sentiyabrın 25-də Mətbuat komitəsi, Azərbaycan Yazıçılar Birliyi və Xalq Təhsil Nazirliyi və Elmlər Akademiyası birlikdə «Uşaq ədəbiyyatının problemləri»nə dair konfrans keçirdi. Yaranmış gərginliklər, uşaq ədəbiyyatı ilə məşğul olan sənətkarların xaricə üz tutması, bir qisminin sənətini dəyişməsi və s. məsələlər konfransda qoyuldu. Müstəqillik illərinin bu dövründə uşaq ədəbiyyatı üç xətt üzrə inkişaf edirdi. Yeni yaranan, çap olunan uşaq əsərləri vardı, klassiklərimizin uşaq əsərləri təkrar nəşr edilirdi, dünya uşaq ədəbiyyatından tərcümələr edilirdi. İqtisadi çətinlik özünü bariz surətdə göstərsə də, hər üç sahədə ədəbiyyatımız inkişaf etdirilirdi. Ə.Salahsadə «Yanıltmaclı əlifba», Davud Aslan «Ağ göyərçinim», Ə.Kərim «Çəkməli ayı», Qaçay Köçərli «Qanlı hekayələr», Tofiq Qaraqaya «Uçan nəğmə», Nizami Paşa Saraclı «Balam niyə bal dadır», Teymur Elçin «Babalar, nənələr, nəvələr», G.Hüseynoğlu «Kişi kimi», Z.Xəlil «Odlar yurdunun paytaxtı», Pərviz Hadi «Qaranquş yuvası», Mahirə Abdulla «Türk oğlu, türk qızıyam», Aləmzər Əlizadə «Göyün işığı», Sultan İsmayıl «Ağ gül, Ağa gül, Ay gül», R.Yusifoğlu «Aylı cığır», G.Pənah «Nifrətin zərif qurbanı», «Nunuş», «Mosu», «Qaranquş yuvası», R.Əfəndiyeva «Lalənin ləçəyi», Ə.Səmədlinin «Çinarlı şəhərin nəğmələri» şeir toplusu, Ə.Yasinzadənin hərbi vətənpərvərlik mövzusunda hekayələri, povestləri və s. hekayələr, şeirlər, nağıllar bu dövr uşaq ədəbiyyatına töhfələr idi.

Teymur Elçin, Xanımana Əlibəyli dünyasını dəyişdi, İ.Tapdıq, M.Aslan, Z.Xəlil öz mövqelərini başqa səmtə yönəltdilər. İ.Tapdıq Türkiyəyə üz tutdu. Z.Xəlil nəsrə keçdi. Məmməd Aslan teleşirkətə işə keçdi və belə gözəl

uşaq ədəbiyyatı məclislərinin yeri də görünməyə başladı. Bu ədəbiyyat yenə də inkişaf edirdi. R. Yusifoğlu uşaqlar üçün yaxşı əsərlər yazan şairdir. «Aylı cığır» (1992) toplusunda da öz dəsti-xəttinə sadiq qalaraq kiçik yaşlı balalara məzmunlu, yaddaqalan, dili səlis, axıcı şeirlər bəxş etmişdir. Bu şeirlər mövzu cəhətdən «maraqlı» bilinir. Toplunun birinci bölməsindəki şeirlər qədim qalalardan bəhs edir. Şair hər qalanın tarixinə və bu gün sökülüb dağılmış görkəminə diqqəti cəlb edir, heç olmasa böyüklər bilmir, kiçiklər bilsinlər. Balacaların diqqətini tarixi abidələrimizin keçmişinə yönəltməklə həm tarixi öyrənmək, həm də bu gün ona qayğı göstərməyə («Yanardağ», «Bu qobu daşlı qobu», «Laylay, Qəbələm laylay, «Örənqala», «Gəmiqaya», «Xocam-çaxlı qalası», «Qorqud baba» və s.) bir çağırışdır.

Rüzgar Əfəndiyeva «Lalənin ləçəyi» şeirlər toplusunda latın əlifbasını bədii deyimlərlə təsvir edib.

Tofiq Qaraqayanın balacalar üçün yazdığı əsərlər el ədəbiyyatı, aşıq şeiri ruhunda verilir. «Bax» şeirində təsvir etdiyi lövhələr xalq deyimindədir:

Yol qırağı meşəlik,
Ağaclarda bara bax.
Arılar qonub gülə,
Pətəklərdə bala bax.

Dərələrdə çən-çisək,
Çəmənlərdə çiyələk,
Dağ ətəyi biçənək
Yamaclarda qara bax...

Davud Aslanın «Ağ göyərçinim» şeirlər toplusunda maraqlı şeirlər var. Kənd uşaqlarının həyatından, onların bu mühitə bağlılığından, təhsil və tərbiyələrindən, valideynlərinə köməyindən bəhs edən «Çəkməli ayı» kitabında top-

lanmış hekayələri təcrübəli qələmin məhsulu kimi dəyərləndirilir. Xalqımızın 20 Yanvar, Qarabağ faciələri uşaq ədəbiyyatında mühüm yer tutur. Sevinc Nuruqızının «Çərpələng» (2002), «Sarı dız və vız» (2003), «Qisas» kitablarında toplanmış şeirləri müasirliyi ilə diqqəti cəlb edir.

Ölkəmiz müstəqillik uğrunda döyüşlərdə böyük qurbanlar verdi. Azərbaycan dəhşətli Qara 20 Yanvar faciəsini yaşadı, Qarabağ uğrunda gedən döyüşlərdə on minlərlə gəncimiz şəhid oldu. Azərbaycan ədəbi mühiti bu hadisələrə biganə qalmadı. Onlarla şəhidlərimizin vətən uğrunda apardıqları döyüşlərdəki göstərdikləri qəhrəmanlıqları özündə əks etdirən kitablar yarandı ki, bunlar gəncliyimizin, yeni yetişməkdə olan gənc nəslin, xüsusən də uşaqların vətənpərvərlik ruhunda böyüməsində mühüm əhəmiyyətə malik idi. Azərbaycanın hər guşəsindən Qarabağ uğrunda mübarizələrə atılan, o torpaqlarda şəhid olan, qanlı döyüşlərdə itkin düşən, son nəfəsinə qədər vuruşan vətən oğullarının qəhrəmanlıq dolu ömrünü əks etdirən Rafiq Səməndərin «Şəhidlər», «Ağdərə şəhidləri», Qaçay Köçərlinin «Qanlı hekayələr», Vaqif Cəfərlinin «Tovuz şəhidləri», Vilayət Quliyevin «Azərbaycanda erməni zülmü», Avtandil Ağbabanın «Ağbaba şəhidləri», Aydın Əbdüləhədin «Dəvəçi şəhidləri», Eldar İsmayılın «Şəhid yurdun şəhid övladları», Ələmdar Quluzadənin «Şəhid şəhər», Əlisəfa Azayevin «Qanlı gündəlik», Gülxani Pənahın «Oğuz şəhidləri, itkinləri», «Tanrının unutduğu Xocalılar», «Fələk belə qismət yazmaz, Xocalı», kitabları, Rəvan Tohidoğlunun «Vətən naminə» pyesi, Ramiz Duyğunun «Mənim beşiyim mənim», Elnur Caniyevin «Unudulmayan çağlar» kitabı, 20 Yanvar faciəsinin qurbanı «ədəbi üfüqdə yenicə poetik lihamla çağlayan, Səməndər quşu kimi nur saçan» (T. Əhmədov) istedadlı şair, publisist, Müşfiq

ömrü yaşamış, Vətən yolunda şəhid olmuş Ülvi Bünyadzadənin «Ülvi duyğuları», «Bir ölümün acığına» kitabları və s. bu mövzuda dəyərli əsərlərdir.

Bu əsərlər kiçik yaşlı uşaqların, gənc nəslin duyğu və düşüncələrinə doğma olub, vətənə, torpağa məhəbbət hissi aşılayır. Uşaq ədəbiyyatının bu gün də yaxşı nümunələri yaranır. Ələkbər Salahzadənin, Sevinc Nuruqızının, Reyhan Yusifqızının, Elçin Əlioğlunun, Pərviz Hadinin, Aysel Sabirin, Gülzar nənənin və başqalarının əsərləri müxtəlif mövzuda yazılmış uşaq ədəbiyyatı nümunələridir.

Reyhan Yusif qızının «Şəkər Villası», «Ədəbiyyat», «Göyərçin», «Tumurcuq» və başqa jurnallarda otuzdan artıq hekayəsi dərc olunub. Uşaqlar üçün yazılmış «Bir gün dərsdən sonra», «Yaşıl gözlü qız» kitablarının müəllifidir. «Yaşıl gözlü qız» povesti 7-12 yaşlı uşaqlar üçün nəzərdə tutulub. Povest uşaqlara kainat haqqında məlumat verir. Əsər kosmik qəza nəticəsində Yer kürəsinə düşmüş yadplanetli qızın-Leminin Yerdə macəralarından bəhs edir. Süjet xətti boyunca kainat, qalaktikalar, planetlər, ulduzlar haqqında oxuculara elmi qaynaqlara əsaslanan maraqlı bilgilər çatdırılır.

Uşaq ədəbiyyatının ayrılıqda olmasa da, böyüklər üçün əsərlər yazan şairlərin, yazıçıların yaradıcılığında da ən yaxşı nümunələri var.

«Azərbaycan ensiklopediyası» nəşriyyatı üç cildlik uşaq ensiklopediyasını nəşr etdirmiş, həm də 23 adda rəsmli, iri ölçülü kitablar da çap etdirmişdir. Bu kitablara sehrli-əfsanəvi, məişət nağılları, əfsanə və rəvayətlər, lətifələr, mövsüm və mərasim nəğmələri, tapmaca və yanıltmaclar və s. daxil edilmişdir. Bu seriyadan olan kitabları uşaqlar böyük maraqla qarşılamış, uşaqlar üçün «Gənclik» nəşriyyatı sərkərdələrlə bağlı tarixi hekayələri özündə əks etdirən şəkilli kitablar (Teymur Bünyadovun «Cavanşir», «Atropat»,

V.Həbiboğlunun «Mete Xaqan», Ə.Nicatın «Şah İsmayıl») çap etdirmişdir ki, bu da yaxşı ənənədir.

Uşaq ədəbiyyatı ədəbiyyatşünasların daima diqqət mərkəzində olub, onun problemləri araşdırılır, öyrənilir. Tədqiqat işləri aparılır, monoqrafiyalar yazılır, uşaq ədəbiyyatı müxtəlif ali məktəblərdə proqram əsasında tədris olunur.

Azərbaycan Yazıçılar Birliyi uşaq ədəbiyyatı nümunələrinin yaradıcılığının genişləndirməsi, bu ədəbi prosesin inkişafı üçün qayğılarını əsirgəmir. «Ulduz», «Azərbaycan» jurnallarında onların çapına köməklik edir, uşaq ədəbiyyatının sabahına məsuliyyətlə yanaşılır.

MÜSTƏQİLLİK DÖVRÜNDƏ ƏDƏBİYYAT

Azərbaycan ədəbiyyatı həmişə tarixin keşməkeşli dövrlərində belə min bir çətinliklərə sinə gərərək öz fəaliyyətinin davam etdirib. 1990-cı illərdən üzü bəri ədəbiyyatımızı diqqətlə nəzərdən keçirdikdə Azərbaycan ədəbi mühiti haqqında nikbin olmaya bilmərik. Yaranan şeirlər, poemalar, nəsr əsərləri, tənqid və ədəbiyyatşünaslıq öz axarında olub. Dövrün hadisələri, baş verən ictimai-siyasi hadisələr, yaşadığımız ağrı-acılarla yanaşı qazandığımız çox böyük tarixi nailiyyətlər ədəbiyyatımızın mövzusu olub. Bir-birindən əlvan, rəngarəng əsərlər elə bir dövrdə yaranmağa başlayıb ki, ədəbiyyatımız kommunist ideologiyası, sovet senzurası deyilən sədləri aşıb, zəncirləri qırıb, azadlıq, müstəqillik azad yazıçı, azad şair psixologiyasını formalaşdırıb. Müxtəlif əsərlərin yaranması üçün yaranan ictimai-siyasi, ədəbi-mədəni mühit öz işini görürdü. 20 Yanvar faciəsi, milli müstəqillik aktının qəbul edilməsi, Müstəqil Azərbaycan respublikasının yaradılması, yaranan yeni müstəqil dövlətimizin qorunub saxlanmasıyla bağlı gərginlik, müstəqilliyimizi əlimizdən çıxarmaq üçün gedən daxili və xarici siyasətlər, milli-müstəqilliyini əldə etmiş ölkəmizin başı üzərini alan fəlakətlər və Heydər Əliyevin hakimiyyətə qayıtması ilə xaosun, hərc-mərcliyin yatırılması, ölkədə sabitliyin, inkişafın təməlinin möhkəmlənməyə başlaması, xüsusilə 1995-ci ildə müstəqilliyimizin qanuni əsası kimi yeni Konstitusiyanın qəbul edilməsi, ölkədə keçirilən ümumxalq referendumları, demokratik seçkiyə doğru irəliləyiş, ölkəmizin beynəlxalq

aləmdə daha çox tanınması, onun müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınması ədəbiyyatımızın mövzusunda əsas idi.

Azərbaycan ədəbi prosesində böyük işlər görülürdü. Dağılmaqda olan Azərbaycan Yazıçılar İttifaqının dövlət qayğısı ilə təmin olunması, bağlanmaq təhlükəsi yaranan «Azərbaycan», «Ədəbiyyat qəzeti», «Ulduz», «Qobustan», «Literaturnıy Azerbaydjan» kimi mətbu orqanların dövlət tərəfindən maddi durumunun tənzimlənməsi ədəbiyyatın ən çətin anlarda belə yaddan çıxmadığını, qayğılardan kənarda qalmadığını göstərirdi. Heydər Əliyev yazır: «Müstəqilliyin qarşımıza qoyduğu vəzifələr çoxdur. Biz hüquqi, demokratik dövlət quruculuğu yolu ilə inamla addımlayaraq siyasi və iqtisadi islahatları həyata keçiririk, iqtisadiyyatı inkişaf etdiririk, dövlətimizi möhkəmləndiririk. Bununla yanaşı, son illərdə müstəqilliyin imkanlarından istifadə edərək tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahəsində çox işlər görülmüşdür. Sözsüz ki, bu istiqamətdə bundan belə də qarşımızda duran mühüm problemlər çoxdur və ümidvaram ki, biz onları həll edə biləcəyik. Bu genişmiqyaslı planların mərhələ-mərhələ gerçəkləşdirilməsi Azərbaycanın müstəqil dövlət kimi dünyada daha yaxşı tanınmasına kömək edəcəkdir».

Heydər Əliyevin fərmanı ilə ölkəmizdə «Dədə Qorqud» dastanının 1300 illik yubileyinin dünya miqyasında keçirilməsi «milli dirçəlişə, özünə qayıdışa, müstəqilliyə təşnəliyin monumental aktı kimi, xalqımızın qədimliyinin yeni sübutu kimi» təzahür etdiyi məlumdur.

Müstəqilliyin böyük məsuliyyətini duyan ümumilli lider fikirlərində haqlıdır ki, «Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir. Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz «Kitabi-Dədə Qorqud» eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir».

«Kitabi-Dədə Qorqud» ensiklopediyasının yaradılmasında, bu kitabın ərsəyə gəlməsində AYB və onun sədri Anarın, Azərbaycan Yazıçılar Birliyinin üzvü olan bir çox tədqiqatçı, folklorşünas, ədib və şairlərimizin xidmətləri danılmazdır. Onların həm bədii yaradıcılığında, həm də elmi, publisistik yazılarında «Kitabi-Dədə Qorqud» mövzusu xüsusi yer tutur.

Anarın 1985-ci ildə «Azərbaycan» jurnalının 1-ci nömrəsində «Dədə Qorqud» kinodastanı nəşr olundu. Bu kinodastan özündə bütövlükdə Dədə Qorqud obrazlarını, süjetlərini ehtiva edirdi. Və bu əsəri «çağdaş dünyamızın problemlərinin bədii həllinə həsr olunmuş» əsər kimi dəyərləndiririk.

Əsərin şöhrəti dünyaya yayılmış, 1988-ci ildə Moskvada «Detskaya literatura» nəşriyyatında, nəfis şəkildə, illüstrasiyalarla (rəssam T.Nərimanbəyov), E.Vəzirova və V.Portnov tərəfindən tərcümə edilərək nəşr olunmuş, Xalıq Koroğlu kitaba ön söz yazmışdır. Qeyd edək ki, Xalıq Koroğlu «Kitabi-Dədə Qorqud»un ədəbi-tarixi, poetik, müqayisəli aspektlərdə öyrənilməsi sahəsində yeni istiqamət müəyyənləşdirmiş» bir alim kimi qiymətləndirilir və onun qorqudşünaslıqla bağlı elmi fəaliyyəti çox geniş və əhatəlidir və onun qorqudşünaslıqla bağlı fəaliyyətini «bütöv bir məktəb» adlandırırlar.

Hər hansı xalq-ədəbi irsi nə qədər zəngin olsa da, bir ya iki əsas kitaba, təməl kitaba, Ana kitaba malikdir. Belə baş kitab xalqın varlığını ən dolğun və bitkin şəkildə əks etdirir, onun mənliyini, mənşəyini, məskənini təsdiq edir, keçmişini və gələcəyini müəyyənləşdirir. Xalqın həyat tərzini, güzəranını, ədəb-ərkan qaydalarını, milli xarakterin özəlliyini, ruhunu, mahiyyətini tam şəkildə əks etdirir, «İliada» və «Odisseya» qədim yunanların, «İncil» qədim yəhudilərin, «Mahabharata» və «Ramayana» hindlilərin, «Şahnamə» farsların, «Kalevala» finlərin, «İqor polku haqqında dastan» rusların, «Manas» qırğızların, «Sid», «Roland», «Nibelunqlar» dastanları ispanların, fransızların, almanların, «Koblandı-Batır» qazaxların belə əsərlərindəndir. Azərbaycan türk xalqının şah əsəri, Ana kitabı «Dədə Qorqud» dastanıdır.

Anar dastana müasir dünya mədəniyyəti kontekstindən yanaşmış və «Kitabi-Dədə Qorqud» ensiklopediyasının yaradılması ideyasını irəli sürmüşdür. Onun uşaqlar üçün yazdığı dizi filmlər Dədə Qorqud boyları əsasında yazılmışdır və onun bədii yaradıcılığı, «Dədə Qorqud»la bağlı

keçirilən qurultaylardakı, simpoziumlardakı elmi məruzə və çıxışları «qorqudşünaslığın» tarixinə daxil olmuşdur.

«Kitabi-Dədə Qorqud» ensiklopediyası kitabına Azərbaycan Yazıçılar İttifaqının sədri Anar Rza yazdığı müqəddiməsində («Türk dünyasının nadir söz abidəsi») bildirir: «Azərbaycanda «Kitabi-Dədə Qorqud» ensiklopediyasının yaradılması çoxdankı arzumdur, hələ 1984-cü ildə yazdığım «Dədə Qorqud dünyası» essemdə bu barədə təklif irəli sürmüşdüm... «Kitabi-Dədə Qorqud» ensiklopediyası xalqımıza, mədəniyyətimizə, bütün türk xalqlarına, dünya qorqudşünaslığına və türkologiya elminə hava və su kimi lazımdır.

Yazıçı bu ensiklopediyanın yaranmasında əsas məqsədi açıqlayır: «Dədə Qorqud dünyasına dalmaq coğrafi adlar, tarixi hadisələrin əfsanələşmiş əksi, qəbilə, tayfa adları, adət-ənənələr, dilimizin kökləri ilə bağlı bu gün də yaşayan və yaxud unudulmuş sözlər və başqa bu kimi son dərəcədə önəmli məsələləri arayıb araşdırmaq deməkdir və bütün bunların elmi soraq, məlumat şəklində biçimlənməsi ensiklopediyanın əsas məqsədidir».

Anar kitaba yazdığı müqəddimədə «alp», «boy» sözləri ilə bağlı tutarlı fikirlərini bildirir. Dastanın oğuz-türk abidəsi kimi «Azərbaycan, Doğu Anadolu, Qafqaz mühitiylə bağlı olduğunu», dünya qorqudşünaslarından gətirdiyi faktlarla izahını verir. Dastanın ilk və geniş şəkildə tədqiqatını aparan Bartoldun onun Qafqaz mühitində yarandığı fikrini A.Y.Yakubovski, V.M.Jirmunski, A.N.Kononov, K.A. İnostrantsevin də onun fikriylə razılaşdığını, dastanın «mükəmməl nəşrini çap etdirən böyük türk alimi» O.Ş.Gökyayın Drezden nüsxəsində Azərbaycan şivəsi özəlliklərinin gözə çarpdığı fikrini, Məhərrəm Erginin (M.Ergin yazır: «Kitabi-Dədə Qorqud» bütünlükdə Azərbaycanın törəməsi-

dir. Bu barədə şəxs adları və kitabın toponimiyası çox şey deyir. Yalnız bu deyil, əsərin dilində də Azərbaycan damğası var») fikirlərini, X.Koroğlunun fikirlərini dəstəkləməklə yanaşı, türkçülüyünə sadiq alim kimi bu fikrində də haqlıdır ki, «KDQ-ni israrlı şəkildə Azərbaycanla bağlamaq cəhdləri bu möhtəşəm abidəni Türkiyə türklərindən, yaxud Orta Asiya türkmənlərindən ayırmaq, almaq niyyəti güdmür və belə bir mənasız təşəbbüs mümkün də deyil. Bu xalqların tarixi kökləri, dilləri, mədəni və ədəbi abidələri qədim dövrlərdə də, orta əsrlərdə də, ən son zamanlara qədər də ortaq olmuşdur və KDQ Azərbaycanın olduğu qədər də Türkiyənindir. Dastanın öz mətni əsasında onun Azərbaycanla sıx bağlılığını bir daha göstərməyimizin yalnız bircə səbəbi var-Azərbaycan torpaqlarında türk dilində danışan xalqımızın qədimliyini bir daha təsdiq etmək, KDQ-un bu gün bizim üçün böyük əhəmiyyəti ondan ibarətdir ki, bir danılmaz həqiqəti təsdiq edir: KDQ oğuzlarının, yəni bugünkü Azərbaycan və ona qonşu olan bölgələrdə yaşayan oğuzların qədimliyi, başqa sözlə desək, dastanın qədimliyi bu doğma torpaqlarda yaşayan Azərbaycan türklərinin bu torpaqlarda yaşamalarının çox uzaq tarixinin göstəricisidir».

Anar bir alim-tədqiqatçı kimi də maraqlı fikirlərini söyləyir. Kitabda onların yarı oturaq, yarı köçəri həyat sürsələr də yerlərinin məlum olduğu, yalnız bircə boyda (ən arxaik boy olan «Basatın Təpəgözü öldürdigi boy»da deyilir: «Məgər, xanım, bir gün Oğuz otururkən üstünə yağı gəldi. Dün içində ürkdi, köçdi. Qaçıb gedərkən Aruz qocanın oğlancığı düşmiş, bir aslan bulup götürmiş, bəsləmiş. Oğuz genə əyyamla gəlüb, yurduna qondu. Oğuz xanın ilqıçısı gəlüb xəbər gətürdi» və s.) öz yerlərindən köçüb yenidən ora qayıtmalarına işarə olduğunu, oğuzların xanı Oğuzun adının «yalnız bir dəfə» çəkildiyini qeyd edir və bu

fikirlərini irəli sürməkdə də haqlıdır: «Demək, bu boyun hadisələri Oğuz xanın yaşadığı çox əski bir zamana aid edilə bilər. İkincisi, oğlanın (Basatın) aslan tərəfindən bəslənib böyüdülməsi də çox arxaik bir motivdir. Həmin boyun başqa əfsanəvi personajı Təpəgöz kimi bu obrazın kökləri çox uzaqlara, hətta qədim yunan əsatiri dövrünə çatır. Deməli, bu çox qədim dövrdə oğuzlar müəyyən bir yurdda daimi «otururlarmış» və yağının basqınından hürkərək gecəynən öz yerlərini tərk etmiş, amma bir əyyamdan sonra yenidən qayıdıb öz yurdlarına «qonmuşlar». Təpəgöz mifinin məhz Qafqazla əlaqədar olması Oğuzlar yurdunun ta əskidən bəri Azərbaycan torpaqlarında yerləşməsinin çox arxaik bir əfsanədə əks-sədasıdır».

Dastanın yaşıyla bağlı mübahisəli məsələlərə də diqqət yetirən Anar onun yaşının 1500 ildən çox olduğunu söyləməkdə haqlı olan alimlər qarşısına müxtəlif mənbələrdən gələn tarixi məqamları qoyur. Dastanın yaradıcısı Dədə Qorqudla, onun şəxsiyyətiylə bağlı mübahisəli məsələlərə də aydınlıq gətirməyə çalışan yazıçı onun qədimliyini sübut edən şeir texnikasıyla bağlı maraqlı fikirlər, «dastanın yaranmasından əlimizdəki nüsxələrdəki şəklinə qədər keçdiyi dövrləri şərti olaraq» beş mərhələyə ayırması, dastanın dili, dastanın mətnindəki «diri, şirin, yapışıqlı yumor», boyların hər birinin «müstəqil, başqa boylardan asılı olmayaraq anlaşıla bilən bitkin «Oğuznamələr» olduğu haqqında maraqlı fikirləri yazıçıların müstəqillik dövründə də öz kökünə, soyuna bağlılığını əsas tutduqlarını göstərir. Anarın xalq ədəbiyyatına, onun qiymətli abidələrinə diqqətli olduğu müstəqillik dövründən əvvəl də mövcud idi. Anar 60-cılar ədəbiyyatının ən inqilabçı yazıçılarından biri idi. İlk dəfə ekrana məhz Anarın ssenarisi əsasında hazırlanmış «Dədə

Qorqud» filmi çıxdı. Anar «Dədə Qorqud» povestini yazdı. Anar 12 boydan ibarət «Dədə Qorqud» dizi filmlərini yaratdı. Nəinki təkcə böyüklərdə, eləcə də lap kiçik yaşlı körpələrdə, gənc nəsildə milli köklərə bağlılığı aşılamaq üçün böyük fədakarlıqlar göstərən yazıçı kimi tanındı. «Kitabi-Dədə Qorqud» ensiklopediyasının redaksiya şurasının üzvləri AYİ-nın üzvləri idi. Başda redaksiya şurasının sədri Anar, redaksiya şurasında 35 nəfərdən 21-i (Ağamusa Axundov, Bəhlul Abdulla, Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, Əziz Mirəhmədov, Elçin Əfəndiyev, Füzuli Bayat, İsmayıl Vəliyev, İsrafil Abbaslı, Kamal Abdulla, Kamal Talıbzadə, Kamil Vəli, Məmməd Adilov, Nizami Cəfərov, Samət Əlizadə, Tofiq Hacıyev, Şamil Cəmşidov, Yaşar Qarayev və b.) AYİ-nın üzvləri idi. Onların hər birinin bu kitabın ərsəyə gəlməsində böyük xidmətləri var, Dədə Qorqudla bağlı elmi fikirlərin müəllifidirlər. Məsələn, Elçin Əfəndiyev «Mahmud və Məryəm» romanında dastanın motivlərindən yararlanıb. Elmi araşdırmalarında qorqudşünaslıqla bağlı maraqlı elmi mülahizələri var. 1999-cu ildə «Dədə Qorqud aliliyi» kitabı Azərbaycan, ingilis, ərəb, alman, rus, fars dillərində çap olunmuşdur. Kitabda «eposun Azərbaycan və bütövlükdə türk etnik mədəni sistemində yeri, milli və ümumbəşəri dəyərlər baxımından çağdaşlığı və s. problemlər elmi şərhini tapmışdır». Yazıçı, alim Elçinin «Kitabi-Dədə Qorqud»un 1300 illiyi ilə bağlı çoxsaylı yubiley tədbirlərinin təşkili və keçirilməsində müstəsna xidmətləri var.

Azərbaycan Yazıçılar birliyinin də qatıldığı 1998-ci ilin noyabr ayının 5-6-da Antalyada keçirilən Türk Dünyası Yazarlarının IV qurultayının əsas mövzusu Kitabi-Dədə Qorqud» olmuşdur. Qurultayda AYB-ni sədri Anar, Ə. Amanoğlu, G. Yoloğlu təmsil etmişlər.

1998-ci il 22-24 dekabrda Bakıda keçirilən «İkinci Beynəlxalq «Dədə Qorqud» kollokviumu»nda aşağıda qəbul olunan qərarları Azərbaycan tərəfindən AYB-nin sədri Anar, Türkiyə tərəfindən isə Türkiyə Araşdırmaları İnstitutunun rəhbəri prof. Dr. O.F.Sərtqaya imzalamışdır.

1. III Beynəlxalq Dədə Qorqud kollokviumun gələcəkdə keçirilməsi;

2. Beynəlxalq Dədə Qorqud kollokviumunun çıxışlarının «Türk Dili Araştırmaları Yıllığı-Belleten (1998)»də yayımlanması.

3. Azərbaycanda hazırlanan KDQ ensiklopediyasının TÜRKSOY-da nəşri.

4. KDQ haqqında tanıtma, təhlil, tənqid, araşdırmaların və KDQ-nın yeni tərcümələrinin hazırlanması.

5. Televiziyada cizgi və televiziya filmlərinin hazırlanması.

6. Beynəlxalq «Dədə Qorqud» mükafatının təsis edilməsi.

7.Dədə Qorqud adının parklara, küçələrə verilməsi və Dədə Qorqud heykəlinin qoyulması və s.

Azərbaycan Dövlətinin başçısı, ictimai-siyasi xadim, Heydər Əliyev «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının sədri olmuşdur. 1997-ci il aprelin 20-də «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi haqqında» fərman və 1999-cu il fevralın 21-də «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında» sərəncam imzalanmışdır. Onun sədrliyi ilə Dövlət Komissiyasının 1999-cu il 16 fevral, 1999-cu il 8 aprel və 2000-ci il 11 mart tarixli üç iclası keçirilmişdir. Bu iclaslarda o, giriş sözü söyləmiş və yekun nitqi ilə çıxış etmişdir.

Dövlət başçısının imzaladığı sənədlərdə, çıxışlarında, müsahibələrində Dədə Qorqud dastanlarını Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, elminin möhtəşəm abidəsi kimi onun «Azərbaycan xalqının dünyagörüşünün təşəkkül tapmasında»kı misilsiz rolunu yüksək qiymətləndirməsi, 50-ci illərdə onun tədqiqi ilə məşğul olan alimlərimizin (M.Arif, H.Araslı, M.Təhmasib, Ə.Dəmirçizadə və b.) əməyini, zəhmətini yüksək qiymətləndirməsi, yazıçılar, alimlər, yaradıcı ziyalılar arasında dastanla bağlı fundamental elmi tədqiqatların aparılmasını, ədəbi əsərlərin yazılmasını, kino, səhnə, televiziya verilişlərinin təşkil edilməsini bir vəzifə kimi qarşıya qoyması dövlət başçısının ədəbiyyatımıza, mədəni irsimizə, tariximizə qayğısının təzahürü kimi qiymətləndirilir.

XX əsrin son onillikləri Azərbaycanda hər bir sahədə olduğu kimi ədəbiyyat sahəsində də gərgin, ziddiyyətli onilliklərdir. 60-cılar kimi 70-80-ci illərdə Azərbaycan ədəbiyyatına gələn yaradıcı qüvvələr də bu illərin qatı burulğanında yazıb-yaratmış, ədəbi prosesdə öz dəsti-xətlərini qoymuşlar. Onların yaradıcılığında bu dövrün ən ağır, ən çətin, eyni zamanda ən şərəfli illəri əksini tapıb.

Azərbaycan ədəbiyyatında 60-cılar kimi, 70-80-cilər də öz istedadına, yaradıcılıq imkanlarına məxsus nasirləri, şairləri, tənqidçiləri, ədəbiyyatşünasları özündə birləşdirir. Çox maraqlıdır ki, bu dövrün ədəbi tənqidi 60-cılarla 90-cılar arasında yetişən, artıq ədəbiyyatda öz sözünü demiş olan 70-80-ci illər nəslini sanki görmür və görürsə də nədənsə susur.

Belə qənaətə gəlmişik ki, 70-80-cilər bir zamanlar yaradıcılıqlarının çiçəkləndiyi bir dövrdə Qərbi Azərbaycanda gedən prosesləri, Sumqayıt hadisələrini, milli azadlıq uğrunda gedən mübarizələri, İyirmi yanvar faciəsini, Qarabağ dərdlərini, Kəlbəcər, Şuşa, Zəngilan, Qubadlı, Ağdam, Cəbrayıl ağrılarını yaşamış, Azərbaycanın tam, müstəqil bir dövlət kimi bu gün mövcud olması üçün keçdiyi keşməkeşli, lakin şərəfli yolu öz gözləri ilə görmüş, aylarla Azadlıq meydanlarında xalqla birgə olmuşlar. Çətin və sıxıntılı günlər onların qələmə aldığı həyat həqiqətlərinin çoxunun bu və ya digər məlum səbəblər üzündən tez işıq üzü görməsinə imkan verməmişdir. Buna görə də bu gün onların yaradıcılığında Avropa və dünya ədəbiyyatına sağlam münasibət olsa da, onlarda modernist, postmodernist ideyalara dərindən yiyələnməmiş, onları «kürüyüb» Azərbaycan ədəbiyyatına gətirmək və bununla ədəbiyyat aləmində «yer tutmaq» istəyi olmamışdır. Onların modernist, postmodernist baxışları sənətinin içindədir, dillərində deyil, danışmaqdansa gözəl sənət əsərləri yaratmağı daha üstün tutublar. Yaratdıqları əsərlərdə dünya ədəbiyyatına ölməz sənətkarlar bəxş etmiş Azərbaycan ədəbiyyatını «dovğa qazanına» çevirmək, oxucu kütləsini çaşdırmaq istəyi yoxdur, kürsü, vəzifə tutmaq istəklərindən çox gördükləri həyat həqiqətlərini bədiiləşdirib xalqa çatdırmaq istəkləri, maraqları daha güclüdür.

Çox maraqlıdır ki, 70-ci illərin sonu-80-cı illərin əvvəllərində ədəbiyyata gələn istedad sahibləri, xalq dərdi, millət təəssübü çəkən, Azərbaycanın dərdinə şərik olmağa çalışan istedadlı qələm sahibləri ədəbi tənqidin diqqətindən kənarda qalıb. Ya ədəbi tənqid onların yaradıcılığına toxunmaqdan çəkinib, ya da elə o da bir növ durğunluq illərini yaşayıb. Gözləmə məqamını tutub, yoxsa demək istədiyindən qorxubmu? Qaranlıq qalmış məsələdir.

Azərbaycan öz müstəqilliyini əldə etmək uğrunda mübarizəyə qalxanda məhz yetmişinci, səksəninci illərin sonunda ədəbiyyata gələn qüvvələr bu milli azadlıq ideyaları

ilə silahlanaraq mübarizə meydanına atıldılar. Ölkədə baş verən ictimai-siyasi hadisələr, gərginliklər, hər gün Qarabağ və ona bitişik ərazilərdən gələn həyəcanlı xəbərlər milli duyğuları daha da gücləndirirdi. Azərbaycanın öz müstəqilliyini əldə etməsiylə «dostluq, qardaşlıq ideyalarının paxırı üzə çıxdı», həm xarici həm də daxili qüvvələrin ziddiyyətli düşüncələri ölkədə vəziyyəti daha da gərginləşdirdi.

Sumqayıt hadisələri, Qərbi Azərbaycanda, Qarabağda, Xocalıda baş verən dəhşətli qırğınlar həmin dövrlərdə ədəbiyyata gələn istedadlı gənclərin yaradıcılığında əsas mövzu oldu. Hər gün dolub-boşalan Azadlıq meydanında olan, 20 Yanvar faciəsini öz gözləri ilə görən bir qələm sahibi kimi düşündüklərimizi yaza bilərik. Elə bir dövrdə idik ki, qəlbimiz, varlığımız ancaq vətən üçün narahat idi. Baş verən olayları yaşadıq. Nə qədər azadlığımızı, müstəqilliyimizi, dövlətçiliyimizi qorumaq üçün şəhid verdik. Diqqət edilsə, o illərin tarixi analizdən keçirilsə, 80-ci illərin sonu-90-cı illərin əvvəllərində on minə qədər verdiyimiz şəhidlərin demək olar ki 95 % könüllü olaraq mübarizəyə atılanlar idi... Vətənpərvər, torpaq, el, təəssübü, qeyrəti çəkən oğul və qızlarımız şəhid oldu. O dövrdə şəhid olan on minlərlə gənclərin demək olar ki, hamısı sadə xalq kütlələrinin övladları idi. Bircə fakta diqqəti cəlb etmək istərdim ki, «Oğuz şəhidləri, itkinləri» kitabını yazarkən həm əraziсə, həm də əhalisinin sayına görə (o zaman 45 minə qədər əhalisi vardı-G.P) balaca rayonun 26 kəndini qarış-qarış gəzdim, şəhid ailələri ilə, onların qonum-qonşuları ilə görüşdüm. Bu gün də dərdimin üstünə dərd gəlir hər dəfə yadıma düşəndə ki, o şəhid verən ailələrin birinin imkanlı ailə olduğunu görmədim. Saxsısı tökülmüş, yarı uçuq, kasıb evlərin övladları idi o şəhidlər, o itkin düşmüş insanlar. Könüllü olaraq gedənlər, səfərbərliyə alınanlar, küçədən tutulub Qarabağa göndərilənlər, o sadə zəhmət adamlarının övladları idi. 200-ə qədər şəhid, itkin ailəsinin vətən, torpaq, el yolunda şəhid olmuş ata-anasının, qardaş-bacısının, qohum-əqrəbasının ancaq vətən, xalq düşünən gördüm. O zaman çoxumuz qəlbimizi bürüyən qeyrət hissi ilə onların qəhrəmanlığını vəsf edən şeirlərimizi, ana kimi dərdinə ağladığımız ağımızı, həsrət, vətən məhəbbəti ilə dolu bayatılarımızı yazırdıq. Hər bir şəhidimizə bayatı ilə sözümüzü dedik, ağımızla ağladıq, qəhrəmanlığını eşidəndə qəlbimiz riqqətə gəldi, vəsf elədik...

O zaman hər kəs heç özü də bilmədən bu dövrün hadisələrini ədəbiyyata gətirirdi. Sərhəd rayonlara gedirdik, əsgərlərlə görüşürdük, vətənpərvərlik dolu şeirlərimizi onlara oxuyurduq, onların qəlbini vətən məhəbbəti ilə döyüşə ruhlandırırdıq, işğal olunmamış torpaqlarımızın qorunması naminə çalışırdıq. Min bir çətinliklə də olsa kitablarımızı çap etdirirdik, əsgərlərə, sərhəd rayonlarına aparıb paylayırdıq. Onda nə ad-san, nə şöhrət, nə ev-eşik düşünürdük. İçimizdə ancaq bir hiss vardı, torpağı düşmən tapdağında qoymamaq, yenicə müstəqilliyini əldə etmiş vətənin azad, müstəqil yaşamasını təmin etmək, döyüşçülərimizə mənəvi arxa olmaq...

Biz babalarımız, atalarımız yaşayan Böyük Vətən müharibəsi dövrünün ənənələrinə söykənmişdik. Şair sözünün bir orduya bərabər qüdrət və qüvvətindən xəbərdardıq. İşimizi biz də bu yöndə qurmuşduq: 60-cılar da, 70-cilər də, 80-cilər də Balaş Azəroğlu, Fikrət Qoca, Fikrət Sadıq, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Söhrab Tahir, İlyas Tapdıq, Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Məmməd İsmayıl, Ələkbər Salahzadə, Rüstəm Behrudi, Dəmir Gədəbəyli, Səməd Qaraçöp, Hüseyn Əfəndi, Bahar Bərdəli, Salam, Mahirə Abdulla, Adil Cəmil, Ayaz

Vəfalı, Afaq Məsud, Ağa Laçınlı, Aqil Abbas, Akif Səməd, Azad Qaradərəli, Bəhmən Vətənoğlu, Sücaət, Əlirza Xələfli, Fariz Çoban, Bayram Bayramov, Bəhlul Orucoğlu, Çingiz Əlioğlu, Vaqif Bəhmən, Elçin İsgəndərzadə, Eldar Baxış, Hüseyn Kürdoğlu, Gülxani Pənah, Elçin Şıxlı, Ədalət Əsgəroğlu, Əli Vəkil, Əlisa Nicat, Xaqani İsmayıl, Qaçay Köçərli, Məleykə Səma... Bu siyahını artırmaq olar.

Dəhşətli 20 Yanvar faciəsinin, Qarabağ müharibəsinin, Xocalı faciəsinin dəhşətlərini özündə əks etdirən hekayə, roman, povest, poema, dram əsərləri, publisistik əsərlər yazıçıların yaradıcılığında geniş təsvirini tapmışdır. Ə.Əmirlinin «Meydan», İ.Məlikzadənin «Qırmızı şeytan», S.Rüstəmxanlının «Dünya təmizlənir», F.Mustafanın «Ölümə açılan qapı», G.Pənahın «Xocalı, ay Xocalı», «Səbr elə, səbrimə dağ çəkən yurdum...» poemaları, Əli Həsənlinin «Nəslin qiyamı», Mahirə Abdullanın şeirləri, Salatın Əhmədlinin «Təndir yarası», «Başdaşı əhvalatı» və b. hekayələri, Sona Xəyalın «Aç qapını gəlim, dünya» şeirlər və «Körpə dünyasından qopan fəryad» hekayələr kitabı, N.Məmmədlinin «Zəngulə», Fərqanə Mehdiyevanın «Kəlbəcərli yuxularım çin olsa», Günel Anarqızının «Oğlun Qarabağ» kitablarında toplanan əsərləri həm qocaman nasir və şairlərimizin, həm də tənqidçilərimizin dəyərləndirdiyi əsərlərdir.

Çağdaş dövrümüzün istedadlı tənqidçiləri, ədəbiyyatşünasları yetişir. Kamal Abdulla dilçi, tənqidçi, ədəbiyyatşünas, həm də dramaturq kimi tanınır. «Azərbaycan dilində sadə cümlə sintaksisinin nəzəri problemləri» (rus dilində, (1983), (1999), «Müəllif-əsər-oxucu» (1985), «Əvvəl-axır yazılanlar» (1990), «Yolun əvvəl və axırı» (1993), «Unutmağa kimsə yox» (1994) əsərləri ilə yanaşı «Ruh» (pyeslər) (1997), «Bir, iki, bizimki» (pyes), «Kədərli seçmələr» (2002), «Qəribədi, deyilmi» (şeirlər, 1998) bədii əsərlərin müəllifidir. Kamal Abdullanın yaradıcılıq fəaliyyəti genişdir. «Azərbaycan dili», «Qoşma», «Dəfinə» televiziya verilişlərinin yaradıcısı, aparıcısı kimi də tamaşaçıların rəğbətini qazanmış istedadlı qələm sahibidir.

Ədəbiyyatşünas, tərcüməçi, folklorşünas Qəzənfər Paşayev bədii yaradıcılığa 60-cı illərdən başlamışdır. Ədəbi-elmi fəaliyyətində İraq ədəbi mühitinin tədqiqi, təbliği mühüm yer tutur. Tərtib etdiyi «Kərkük bayatıları» (Rəsul Rza ilə birlikdə, 1968), «Arzu-Qənbər dastanı» (1971), «İraq-Kərkük atalar sözləri» (1978), «İraq-Kərkük bayatıları» (1984), «Kərkük tapmacaları» (1984), «Kərkük folklor antologiyası» (1987), «Nəsiminin divanı» (1987) əsərləri dünyaya səpələnmiş ortaq türk ədəbi-mədəni, mənəvi dünyası ilə doğmalarını məlumatlandırmaq, türk-Azərbaycan-Kərkük bədii söz sənətinin ortaq xüsusiyyətlərini araşdırmaq işində ədəbiyyatşünaslığımıza zəngin töhfələrdir. «Altı il Dəclə, Fərat sahillərində» əsərinin dili, üslubu, bədii və elmi keyfiyyətləri yazıçı qabiliyyətindən xəbər verir. «İraq-Türkman folkloru», «İraq-Türkman folklorunun janrları», «Alın yazısı» (2004), «Bu İngiltərədir» kitabları kütləvi tirajlarla nəşr olunmuş əsərləridir. Tədqiqatçının Nostradamusun yaradıcılığı ilə bağlı uzunmüddətli tədqiqat əsəri («Nostradamusun möcüzəli aləmi») zəngin tədqiqatçı zəhmətinin bəhrəsidir.

Qəzənfər Paşayev A. Dümanın «Qafqaz səfəri» (şərikli), Sula Benetin «Necə yaşayasan, yüzü haqlayasan» (1989), Aqata Kristinin «Mavi qatarın sirri» əsərlərini dilimizə tərcümə etmişdir.

Qəzənfər Kazımov tənqidçi, ədəbiyyatşünas, dilçi alim kimi oxuculara, elm adamlarına, sənət adamlarına yaxşı

tanışdır. Ədəbi fəaliyyətə 60-cı illərdən başlamışdır. Dövri mətbuatda ən çox məqalələri ilə çıxış edən alim, tədqiqatçı kimi tanınır. Çox maraqlıdır ki, 60-ıncılar nəslinin alimləri, ədəbiyyatşünasları dilimizin, ədəbiyyatımızın, soyumuzun, kökümüzün tarixiylə, milli-mənəvi dəyərləri ilə daha çox maraqlanmağa başlamış, sovet dönəmində yetişmiş ədəbiyyatşünaslarımızın bəzilərin qoyduğu ədəbi ənənələri davam etdirmişlər. Onların türk-Azərbaycan ədəbi-mədəni-bədii sərvətlərinin müasir nəslə tanıdılması, tarixinin yazılması sahəsində uğurlu fəaliyyətləri müasir ədəbiyyatşünaslığımıza, Azərbaycan ədəbiyyatı tariximizə misilsiz töhfələrdir. Sovet imperiyasının siyasi ideologiyasına qarşı çıxan, senzuranın pərdəsini dağıdan 60-cılar nəslinin ədəbi tənqidçiləri, ədəbiyyatşünas alimləri gərgin elmi axtarışlar aparmış, bu gün dünya mədəniyyəti xəzinəsinə əvəzsiz incilər bəxş etmiş, Azərbaycan, türk xalq ədəbi abidələrinin də geniş təhlilini vermiş, tədqiqatını aparmışlar. Qəzənfər Kazımovun da bu sahədə uğurları əvəzsizdir. Onun «Azərbaycan dilinin tarixi» (ən qədim dövrlərdən XIII əsrə qədər) (2003), «Dilimiz, tariximiz» (1998), «Müasir Azərbaycan dili» kitabları dediklərimizə əyani sübutdur. Qəzənfər Kazımovun «Yazıçı və dil» (1975), «Komik bədii vasitələr» (1983), «Bədii ədəbiyyatda komizm üsulları» (1987), «Qurbani və poeti-kası» (1996), «Sənət düşüncələri» (1997) və s. kitabları, eləcə də son illərdə nəşr olunmuş 6 cildlik «Seçilmiş əsərləri» elmi-tədqiqat sahəsində yaratdığı sanballı əsərlərdir. Və burada Azərbaycan dili, tarixi, bədii əsərlərdə dil, bədii təsvir, üslub və üslubiyyat məsələləri başlıca araşdırmalardır. O, «Müasir Azərbaycan dili», «Azərbaycan dili», «Türk dili» və s. ali və orta məktəb dərsliklərinin də müəllifidir.

Mirəli Seyidovun xalqımızın mənşəyini öyrənmək sahəsində apardığı tədqiqatlar, araşdırmalar, əldə etdiyi uğurlu nəticələr ədəbiyyatşünaslığımız üçün qiymətli mənbələrdir. «Azərbaycan mifologiyası Azərbaycan xalqının mənşəyini öyrənməkdə bir mənbə kimi» mövzusunda tədqiqat üzərində çalışmış Mirəli Seyidovu «Azərbaycan mifik təfəkkürünün qaynaqları», «Qızıl doyüşçü»nün taleyi», «Azərbaycan xalqının soykökünü düşünərkən», «Qam-şaman və onun qaynaqlarına ümumi baxış», «Qövsi Təbrizi», «Sayat Nova» və s. əsərləri zəhmətkeş tədqiqatçı alim kimi tanıtmışdır.

Elməddin Əlibəyzadənin ədəbiyyatşünaslıq sahəsində böyük rol oynadığı danılmazdır. «Qisseyi-Yusif» klassik abidəni tərtib və nəşr etdirmişdir. Qədim dövr və ən qədim dövrlə bağlı araşdırmalarının nəticələri olan məqalələrin sayı 200-dən çoxdur. «Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi» (beş cilddə), «Azərbaycan ədəbi dil tarixi, I cild, II cild, «Qədim dünyamızın ulu kitabı», «Ana kitabələr», «Nizami və tariximiz» və s. elmi monoqrafiyaların müəllifi E. Əlibəyzadənin zəngin axtarışlarının nəticəsi olaraq üzə çıxarılmış materiallar Azərbaycan folklorşünaslığını, ədəbiyyatşünaslığını, dil tariximizi, ümumilikdə Azərbaycan tariximizi zənginləşdirmişdir.

Məmməd Arifin davamçısı, tənqidçi, ədəbiyyatşünas, Azərbaycanın Əməkdar elm xadimi, f.e.d. Araz Dadaşzadə dövrü mətbuatda elmi-tənqidi məqalələrini nəşr etdirmiş, «Molla Pənah Vaqif» kitabı rus, ingilis, fransız dillərinə tərcümə olunmuş, «XVIII əsr Azərbaycan lirikası ideya-tematik və sənətkarlıq xüsusiyyətləri» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. A.Dadaşzadə «Molla Pənah Vaqif (həyat və yaradıcılığı, 1966), «Molla Pənah Vaqif» (həyat və yaradıcılığı haqqında oçerk, 1966), «Həyat müğənnisi» (1968) «XVII əsr Azərbaycan lirikası» (1980) «Xe-

yirxahlıq və gözəllik poeziyası» (1986) kitablarının müəllifidir. Eyni zamanda R.Taqorun «Bağban», A.Tolstoyun «Mənim həyatım» əsərlərini dilimizə tərcümə etmişdir.

Arif Əmrahoğlunun ilk mətbu hekayəsi «Axali Maarneuli» qəzetinin 1974-ci il 8 mart tarixli sayında dərc olunub. Bədii tərcümələrlə ardıcıl məşğul olan A.Əmrahoğlu M.F.Axundovun «Seçilmiş əsərləri»ni tərtib edib Moskvada rus dilində, A.P.Çexovun üç cildlik «Seçilmiş əsərləri»ni, dünya xalqlarının mif və əfsanələrini Azərbaycan dilində çap etdirmişdir. Çoxlu sayda ədəbi-tənqidi, elmi məqalələrin müəllifidir. Klassik və müasir Azərbaycan nəsrinin bədii axtarışları, sənətkarlıq məsələləri ilə ardıcıl məşğul olan alim «Nəsrin poetikası», (1990), «Sözə inam sabahımızdır» (1999), «Epik sözün bədii gücü» (2000) və s. kitabların da müəllifdir.

Məhərrəm Qasımlı ədəbiyyatşünas, araşdırıcı və həm də lirik şeirlər müəllifidir. Aşıq sənəti, qaynaqları, təşəkkülü, Xətayinin poeziyası, folklor örnəklərinin toplanması sahəsində uğurlu tədqiqat işləri aparmışdır. «Naxçıvan folkloru», «Qürbət folkloru», «El düzgüləri, elat söyləmələri» folklor kitablarını tərtib etmiş, «Bizim ellər yerindəmi», «Vətən deyib gecə-gündüz ağlaram», «Yəhya bəy Dilqəm», «Aşıq sənəti», «Şah İsmayıl Xətayinin poeziyası» elmi monoqrafiya və tədqiqat işlərinin müəllifidir.

Ədəbiyyatşünas, tənqidçi İsa Həbibbəylinin «XX əsr Azərbaycan yazıçıları» (1992), «Azərbaycan yazıçılarının bioqrafiləri» (1992), «Əsrin dörddə biri» (1992), «Məmməd Araz» (1994), «Minillik və bəşərilik» (məqalələr toplusu) (1993), «Ustad Məhəmmədhüseyn Şəhriyar», «C.Məmmədquluzadə, «Cümhuriyyət» (tərtib və müqəddimə) və s. elmi-publisist əsərləri var. Bunlar Azərbaycan ədəbiyyatı, onun

yaradıcıları, bu ədəbiyyatın görkəmli nümayəndələri haqqında maraqlı, sanballı tədqiqat əsərləridir.

Azərbaycan ədəbi tənqidinin inkişafında dilçi, ədəbiyyatşünas, tənqidçi AMEA-nın müxbir üzvü Nizami Cəfərovun rolu böyükdür. Əsərlərində qədim türk dili abidələrinin dilini, bir sıra yazıçı və şairlərin özünəməxsus yaradıcılıq üslubunu, fərdi keyfiyyətlərini, araşdıran tədqiqatçı tənqid və ədəbiyyatşünaslıqla bağlı «Füzulidən Vaqifə qədər», «Cənubi Azərbaycanda ədəbi dil, normalar, üslublar», «Azərbaycan türkcəsinin milliləşməsi tarixi», «Bəxtiyar Vahabzadə», «Türk dünyası, xaos və kosmos», «Azərbaycan: dil, ədəbiyyat və mədəniyyət» «Azərbaycanşünaslığa giriş», «Heydər Əliyev», «Qədim Türk ədəbiyyatı», «Anar», «Klassiklərdən müasirlərə», beş cildlik «Seçilmiş əsərləri» və s. kitabların, 500-dən çox məqalənin müəllifidir. Müasir Azərbaycan dilçiliyinin və nəzəri linqvistikanın müxtəlif problemlərinə aid məqalələri dərc olunmuşdur.

Dövri mətbuatda üç yüzə qədər ədəbi-tənqidi, elmi-nəzəri və publisistik məqalələri dərc olunmuş tənqidçi, ədəbiyyatşünas Nizaməddin Şəmsizadə «Azərbaycan sovet ədəbiyyatşünaslığının təşəkkülü» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ədəbi tənqidin tarixi və nəzəriyyəsi, genezisi və estetik təbiəti, ədəbi prosesdə rolu, tənqidçi, yazıçı və oxucu, tənqiddə estetik meyar, bədii mahiyyət və üslub, Azərbaycan sovet ədəbiyyatşünaslığının təşəkkülü, inkişaf mərhələləri, yaradıcılıq metodu kimi problemlər və müasir ədəbi prosesin aktual məsələləri ilə məşğul olur». Ədəbi yaradıcılıqla da məşğul olan Nizaməddin Şəmsizadənin hekayələri («Bürkü» hekayələr toplusu), mətbuatda şeirləri dərc olunur. «Azərbaycan ideologiyası», «Azərbaycan ədəbiyyatşünaslığı», «Türk təfəkkürü məcrasında»,

«Hıçqıran gülüşlər» monoqrafik tədqiqatları geniş yayılmışdır.

Rəfael Hüseynov, Şəmistan Nəzərli, Teymur Kərimli, Teymur Əhmədov, Tehran Əlişanoğlu, Telman Vəlixanlı, Teymur Bünyadov, Teymurçin Əfəndiyev, Təhsin Mütəllimov, Tərlan Novruzov, Tofiq Hacıyev, Cəlal Abdullayev, İfrat Əliyeva, Vaqif Sultanlı, Vaqif Vəliyev, Vasim Məmmədəliyev, Vəli Məmmədli, Vəli Xuluflu, Vilayət Quliyev, Vilayət Rüstəmzadə, Vüqar Vüqarlı, Ramazan Qafarlı, Rüstəm Rüstəmzadə, Kamran Əliyev, Muxtar Kazımoğlu, Seyfəddin Rzasoy, Yavuz Axundov, Yəhya Seyidov və başqaları həm ədəbiyyatşünas, folklorşünas, nasir, dramaturq, şair, həm də tərcüməçilik fəaliyyəti ilə də tanınmışdır.

Vaqif Yusifli ədəbi-tənqidi fəaliyyəti ilə tanınmış alim, tənqidçi, ədəbiyyatşünasdır. Ədəbi fəaliyyətə 70-ci illərin axırlarında başlamış, «Məmməd Araz dünyası» monoqrafiyasına görə Məmməd Araz ədəbi mükafatına layiq görülmüşdür (1993). «Nəsr: konfliktlər, xarakterlər» (1986), «Yolun düşsə Şirvana» (1993), «Ürəyimi səpdim günəşə» (1997), «Tənqid yarpaqları» (1998), «Karvanbaşı, yolum hayanadır» (1998), «Yollar hayana aparır» (1999), «Tənqid və bədii söz» (2002), «Tənqid də yaradıcılıqdır» kitabları onun zəngin tənqidçilik fəaliyyətinin məhsuludur.

Vaqif Arzumanlı 20-dən çox kitabında Azərbaycan-Litva, Azərbaycan-Pribaltika ədəbi əlaqələrini tədqiq etmişdir. 1918-ci il qırğınları, deportasiya, soyqırım, qaçqınlıq mövzusunda «Tarixin qara səhifələri», «Azərbaycan Xalq Cümhuriyyətinin milli siyasəti», «Tarix siyasətin-siyasət tarixin dililə», «Azərbaycan diasporu» və s. kitabların, Litva və latış dilindən dilimizə, dilimizdən Litva dilinə tərcümə olunmuş onlarla kitabın müəllifidir.

Ədəbiyyatşünas, publisist, mətnşünas, Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivinin direktoru, «Müşfiqin naməlum şeirləri» məqaləsi ilə ədəbiyyata gəlmiş Maarif Teymur ədəbiyyatımız və tariximiz haqqında yüzlərlə məqalələrin müəllifidir. 600-dən çox sənətkarın şəxsi arxiv fondunun yaradılmasında xüsusi əməyi vardır. Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, C.Hacıbəyli, Ə. Hüseynzadə, M.Məhərrəmzadə, A.İldırım, Ə.Yusif, E.Qurtulan və digər istiqlal mücahidləri haqqında tapıntı və məlu matlarını dövrü mətbuatda müntəzəm çap etdirdiyi, A.İldırımın şeirlərini toplayıb nəşr etdirdiyi, haqqında dəyərli tədqiqat əsəri yazdığı, onun tərtibi və müqəddiməsi ilə «Unudulmaz səhnə ustaları» (bioqrafik oçerklər), Ə.Şərifin «Tapıntılar», C.Zeynaloğlunun «Müxtəsər Azərbaycan tarixi», Mirzə Mahmud Şirvaninin «Nəsihəti-Loğman», Y.V. Çəmənzəminlinin «Tarixi, coğrafi və iqtisadi Azərbaycan», A.İldırımın «Qara dastan», «Şərq rəvayətləri», və s. kimi onlarla kitabları çap olunduğu məlumdur. Ömrünü sənətkarların şəxsi arxiv fondunun qorunub saxlanmasına həsr edən, onların yaradıcılığını tədqiq edən, dəyərli tədqiqat əsərlərinin müəllifi («A. İldırımın həyatı və yaradıcılıq yolu») Maarif Teymurun bənzərsiz fəaliyyəti ədəbiyyatımızın qorunmasına, inkişafına yönəlmişdir.

1990-cı illərdə Azərbaycan ədəbiyyatında 80-ci illərə nisbətən «yeni çap olunan kitab bolluğu» yaranmağa başladı. İdeya-məzmun, sənətkarlıq cəhətdən zəif, bədii təsir gücü az olan bu əsərlər daha çox çap olunmağa imkan tapdı. Bəzi dəyərli ədəbi əsərlər isə maddi çətinlik üzündən çap oluna bilmirdi. Ədəbiyyatda bir xaos vardı. Bu xaosdan istifadə edən qüvvələrin əlinə düşən girəvə istedadlı gəncləri bir müddət kölgədə qoydu. Özlərini istedad sahibi kimi irəli

verməyə başlayanlar qılınc götürüb dünəninin, keçmişinin əsl ustad sənətkarlarını «qılıncladı». Onlar «siyasət» adamları idilər. Bilirdilər ki, iki yolla şöhrət tapmaq olar; yaxşı, doğru yolla, bir də pisliklə, başqalarına qara yaxmaqla. İkinci yol daha asan idi. Pis ad ilə şöhrət qazanmağa, tanınmağa nə var ki, onsuz da quruluş dağılmışdı, xalqın yarısı sosialist, kommunist, kommunizm ideyaları ilə köklənmişdi, yarısı yeni, müstəqil, azad bir dövlət arzusu ilə mübarizə aparan qüvvələrlə birləşmişdi. Keçid dövrünün çətinlikləri, xaosu içində idi. Ədəbiyyatda da bu xaos belələrinin karına çatdı. Tənqidçilərə qarşı təzyiqlər artdığından ədəbi tənqid sanki «abrına» qısılıb gözləmə məqamı tutdu. Bu dövrdə, ədəbi mühitdə ziddiyyətlər yaradan «bu bir ovuc» qüvvə keçid dövrünün «keçilməz sədlərini» mahir bir formada keçdilər və ədəbiyyatın başını qarışdırmaqla, klassik ədəbi mühitə, 60-ıncılara qara yaxmaqla, onlardan sonra gələnləri küsdürməklə ədəbi prosesin axarını başqa səmtə çevirməklə özlərinə müvəqqəti ədəbi-tənqidin gözündən yayındırmaq imkanı qazandılar. Qloballaşan dünyada qlobal ədəbiyyat adıyla ədəbiyyata keyfiyyətsiz, zay məhsulları sırımağa başladılar, bəzən ona «postmodernist, modernist» «yubka», yenilik donu geyindirdilər, abırsız, sərsəm yazılarla oxucunu çaş-baş saldılar. Yetərincə ədəbiyyat məsələlərindən başı çıxan xalq ədəbiyyatdan üz döndərməyə başladı, kompüterlərə üz tutdular.

Zəif, istedadsız ədəbiyyatçılar əllərinə düşən bu girəvədən istifadə etməklə guya texnika əsiri gəlib çatdığından ədəbiyyata maraq azaldığını, ədəbi əsərlərin az oxunduğunu bəhanə gətirdilər. Xalqa sırıdıqları keyfiyyətsiz cızmaqaralarını belə müdafiə etdilər. Amma görüşlərdə eşitdiklərimiz, dinlədiklərimiz bunun əksini göstərirdi, xalqın narazılığını yaxşı ki, diktofonlara köçürüb saxladıq. Xalq əsl ədəbiyyat

istəyirdi. M.Cəlalın dediyi kimi-adı üstündə olan ədəbiyyatı. Ədəb, əxlaq, insani duyğular ifadə edən, insanın ruhunu oxşayan, milli dəyərlərə söykənən əsərləri oxucu dodaqları susuzluqdan çatlamış insanlar kimi ürək yanğısıyla istəyirdi. Bunlar isə ədəbiyyata yenilik gətirdiklərini sərsəm başlarıyla sübuta çalışırdılar. Nə yazıq ki, bizim xalq bunu da yaşadı. Amma sabaha inamla, ümidlə baxmaqdan da usanmadı. Çünki belə bir dövrdə xalqın söykənə bildiyi əsl Azərbaycan ədəbiyyatı vardı və min bir çətinliklə də olsa inkişaf edirdi...

Yeni gələn gənc nəslin içində istedadlılar da vardı, istedadsızlar daha çox idi. Onlar öz çirkin böhtanlarını 60-ıncılar nəslinin üstünə yağdıranda səngərlərdə, sərhədlərdə qələmi ilə döyüşən istedad sahiblərinin adları belə çəkilmirdi. Dövlət Azərbaycan Yazıçılar Birliyininin fəaliyyətini dəstəkləyəndə, ədəbiyyatımızın sabahı üçün imkanı olduğu qədər ona dəstək olanda, AYB-nin böyük bir təşkilat olduğunu bildiyindən, onu bir ovuc istedadsızın arzusuyla dağıdıb məhv etməyin qeyri-mümkün olduğunu təsdiq etdiyini görəndə «döyüş taktikalarını» dəyişdilər. «Postmodernizm», «modernizm» xəstəliyinə tutulanlar-özləri belə bu məfhumların nə olduğunu bilməyən bu gənclər «postmodernizmi dünya miqyasında, dünya ədəbi prosesində ən yeni, ən kamil ədəbi cərəyan hesab edirlər. Onların Şərq-Qərb kontekstinə dair öz münasibətləri, öz baxışları, «öz nəzəriyyələri» vardır. Postmodernistlər belə hesab edirlər ki, guya Şərqdə bədii yaradıcılığın əsasında yalnız etik-estetik, əxlaqi-mənəvi münasibətlər durur. Guya Şərqin bədii təfəkküründə analitik, fəlsəfilik, dərinlik bir növ çatışmır. Qərbdə isə bunun əksinə olaraq, bədii təfəkkürün və ya yaradıcılığın əsasında daha çox elmi-nəzəri, analitik təfəkkür dayanır və həyata, varlığa daha çox fəlsəfi münasibət

aparıcı səciyyə daşıyır. Onlar üçün konkret məkan və zaman anlayışları, konkret insan həyatının təsviri bir o qədər də vacib deyilmiş; guya bədii ədəbiyyat insansız, xaraktersiz də keçinə bilər. Hələ çoxdan çağırılmış bayatılar kimi, şüur axını, emosiyalar seli, kortəbii və təhtəlşüur təsvirlər, adsız-ünvansız monoloqlar əsasdır». Ədəbiyyatşünaslar gənc nəslin postmodernist baxışlarla köklənmiş nümayəndələrinin fikirlərinə qarşı çıxır. Onlar müasir ədəbi gəncliyin bəzi nümayəndələrinin klassikanı inkar etmələrini, yuxarıda dediyimiz kimi, Sabirləri, Mirzə Cəlilləri təhqir etmələrini, Füzulini, aşıq poeziyasını şərlətən adlandırmalarını, «özlərini ədəbiyyat fədaisi hesab edən bu cızma-qaraçılar»ın «çağdaş ədəbi tənqidə, estetik fikrə qarşı hücuma keçərək 60-cı illərdə yaranan ədəbiyyatı və onu yaradanları yalançılıq və riyakarlıq təzahürü» hesab etmə-lərini tənqid edirlər: «İndi Anar və onun tərəfdarları, onun rəhbərlik etdiyi Azərbaycan Yazıçılar Birliyi nadancasına tənqid, hətta təhqir olunur. Bu «başabəla» gənclər, «tənqidçilər», «şairciklər» bu «yaratdım» deyərək, heç də «utanmayanlar» (S.Vurğun) ədəbi mühitin ətrafında hərlənərək heç 3-cü sort ədəbiyyat belə yarada bilməyənlər, adını «yazar» qoyanlar Anarı, F.Qocanı, Ç.Abdullayevi, habelə B.Vahabzadəni, Qabili, Elçini, C.Novruzu və başqalarını «ədəbi çarizmin nümayəndələri» adlandıraraq, bununla da ifrat nihilizmə, böhtançılığa, mənəvi eroziyaya uğrayırlar. Adını çəkdiyimiz yazıçıların hər biri söyülür, lağa qoyulur və insafsızcasına, ədalətsiz olaraq məsxərə və ya istehza obyektinə çevrilir... Əlbəttə, həqiqi söz ustadlarımız həmin bu cızmaqaraçılara istənilən zaman tutarlı və kəskin cavablar da verirlər. Lakin söz döyüşündə heç də hər vaxt istənilən nəticə alınmır; ədəbiyyatın taleyi bir yana atılaraq, neçənci dərəcəli və bayağı məsələlərə vaxt itirilir».

Məşhur fransız yazıçısı və nəzəriyyəçisi Bualo deyirdi: «İstəyirsinizmi ki, yüksək cəmiyyətdə sizi bütünlüklə təqdir etsinlər? Əgər istəyirsinizsə, mən sizə dostcasına bir məsləhət verə bilərəm; çalışın elə edin ki, canlı və oynaq şeirlə müdrikliyi öyrədin, çalışın ki, faydalı olanla xoşagələni bir-birinə qovuşdura biləsiniz. Yadda saxlayın ki, oxucular boş və mənasız quraşdırmalardan həmişə qaçıb yaxa qurtarmağa, əyləndirici şeydən də həmişə ağıl və zəka üçün qida almağa çalışırlar».

Ədəbiyyatın adı M.Cəlalın dediyi kimi üstündədir. Ədəb, əxlaq ədəbiyyatın nizamnaməsidir. Bualo nahaq yerə demirdi ki, «Qoy sizin yazdığınız əsərdə gözəl bir qəlbin döyüntüsü duyulsun, əsərinizdə pis fikirlərə və nalayiq sözlərə yer verilməsin: hər kəs öz əsərində əxlaq və namusa utanmadan xəyanət edirsə, hər kəs bizə pozğunluğu cəlbedici və xoşagələn əziz bir şey kimi təsvir edirsə, belə adamlar kəskin və sərt mühakiməyə layiqdir».

Bütün bunların səbəbi kimi saysız-hesabsız qəzet və jurnalların nəşri, imkanı olanların istədikləri kimi yazıb çap etdirə bilmələri, ədəbiyyatda yaranan xaos, bunlara tənqidçilərin yetərincə laqeydliyi də təsir göstərən amillər idi. Bununla belə ədəbiyyatımız inkişaf etdirilirdi.

Müstəqillik dövrünün ədəbiyyatında üç nəsil fəaliyyət göstərirdi. Birinci nəsil yaşlı nəslin nümayəndələri B.Vahabzadə, Xəlil Rza Ulutürk, F.Qoca, F.Sadıq, S.Tahir, Qabil, Q.İlkin, İ.Şıxlı, İ.Muğanna, S.Əhmədli, İ.Əfəndiyev, C. Novruz, Tofiq Bayram, F. Mehdi, N.Xəzri, A.Laçınlı, B. Vətənoğlu, İ.Coşqun, Ə.Cəfərzadə, D.Nəsib, V.Səmədoğlu, N.Həsənzadə, İ.Tapdıq, M.Araz, S.Azəri, İ.Məlikzadə, F.Eyvazlı, Ə.Nicat, B.Bayramov, Ə.Hacızadə, İ.Vəliyev, Ə. Vəkil, O.Salamzadə, O.Rza, R.Zəka, R.Heydər, N.Veysəlli,

N. Rəsulzadə, N.Hacızadə, N. Babayev, «əsas əsərlərini 60-70-ci illərdə yaratmış və daha da kamilləşmiş, hətta dövrün yetkinləşmiş, professionallıq cəhətdən inkişaf etmiş, artıq ədəbi ab-havanı müəyyənləşdirən Anar, Elçin, Y.Səmədoğlu, Ç.Hüseynov, M.İbrahimbəyov, R.İbrahimbəyov, M. Süleymanlı, R.Rövşən, Ə.Mustafayev, K.Abdulla, A.Abbas, A.Vəfalı, F.Məmmədli, İ. İsmayılzadə, Şahin Fazil, N.Gün, D.Gədəbəyli, Ş.Arif, Ə.Səmədli, M.Aslan, Ə. Salahzadə, Ə.Başlıbelli..., «üçüncü nəslin nümayəndələri, müasir ədəbi prosesə təzə gələnlərin yaradıcılığının əsas aparıcı xüsusiyyətləri, novatorluğu, orijinallığı ilə seçilən Seyran Səxavət, Yusif Kərimov, Əli Əmirli, Rüstəm Behrudi, Məmməd İsmayıl, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Əli Rza Xələfli, Afaq Məsud, Hüseyn Razi, Şəkər Aslan, Paşa Qəlbinur, Hüseynbala Mirələmov, Ramiz Duyğun, Ramiz Əkbər, Sabir Azəri, Səyavuş Sərxanlı, Sərvaz Hüseynoğlu, Vüqar Əhməd, Zeynal Vəfa, Vaqif İbrahim, Vaqif Nəsib, Vaqif Məmmədov, Nazim Əhmədoğlu, Çingiz Əlioğlu, Məmməd Oruc, Rüzigar Əfəndiyeva, Çingiz Abdullayev, Vaqif Bəhmənli, Zəlimxan Yaqub, Fazil Rəhmanzadə, Maarif Soltan, Səlim Babullaoğlu, Bahar Bərdəli, Ədalət Əsgəroğlu, Mahirə Abdulla, Gülxani Pənah, Azad Qaradərəli, Əjdər Ol, Firuz Mustafa, Əsəd Cahangir, Orxan Fikrətoğlu, Məmməd Oruc, Kamil Əfsəroğlu, Fərqanə Mehdiyeva, Adil Cəmil, Dayandur, Günel Anarqızı, Sərvaz Hüseynoğlu, Sona Xəyal, Asif Asiman, Asif Əliyev, Qulu Məhərrəmli, Könül Nazimqızı, Nazim Əhmədli, Rəşad Məcid, Tural Anaroğlu, Zəminə Xınalı, Elçin Hüseynbəyli, Qulu Ağsəs, Balayar Sadıq, Barat Vüsal, Bayram Həsənov, Asif Əsədullazadə, Nisəbəyim, Mübariz Cəfərli, Əkbər Qoşalı, Xanəmir, Şərif Ağayar, Mehman Musabəyov, Aslan Aslanov, Aslan Kəmərli, Aslan Quliyev, Atif Zeynallı, Avtandil Ağbaba, Aydın Abdullayev, Vilayət Rüstəmzadə, Hidayət Elvüsal, Səlim Babullaoğlu, Aydın Dadaşov, Yusif Nəğməkar, Aydın Əbdüləhəd, Aydın Xan, Baba Vəziroğlu, Bəhlul Orucoğlu, Möhbəddin Səməd, Mir Sabir, Məcnun Göyçəli, Əlisa Nicat, Əlirza Miyanalı, Bəşir Kəsərli, Fəxrəddin Meydanlı, Zakir Fəxri, Fəxri Müslüm,...

Müstəqillik dövründə istər poeziya, nəsr, istərsə də dramaturgiya, tənqid və ədəbiyyatşünaslıq sahəsində dəyərli əsərlər yaranmaqda idi.

Bu baxımdan müstəqillik dövründə yaranan şeirlər və poemalar da nəsr əsərlərimiz kimi diqqətəlayiqdir. B.Vahabzadənin, Xəlil Rza Ulutürkün, F.Qocanın, F.Sadığın, N.Həsənzadənin, Ç.Əlioğlunun, M.Aslanın, S.Tahirin S. Rüstəmxanlının, Zəlimxan Yaqubun, Y.Nəğməkarın, R. Rövşənin, V.Bəhmənlinin, E.Hüseynbəyli, S.Babulla, B. Bərdəli, S. Əhmədli, M.Soltan, A.Aşırlı, Ə.Salahzadə, Ə.Əsgəroğlu, Q. Ağsəs, M.Abdulla, G.Pənah, Ə.Xələfli kimi həm yaşlı, həm orta, həm də gənc nəslin şeirlərində, poemalarında vətənpərvərlik, ruhu, milli azadlıq, ideyaları, dövlətçilik prinsipləri əsas tutulurdu: Ona görə də tənqidçilər belə hesab edir ki, «həmin bədii nümunələrin oxuculara, ədəbi ictimaiyyətə xoş gələn, adamların həm ağlına, düşüncəsinə, şüuruna, həm də hiss və duyğularına təsir edən əsas və başlıca amillər onlardakı realizm, müəyyən həyat həqiqəti, müasirlik, xalqın istək və arzularının bədii əksi, dil-ifadə sadəliyi, xalq təfəkküründə daha çox yaxınlaşmaq meyli, xüsusilə, xəlqilik, yəni xalq ruhunun verilməsi»dir. Milli vətənpərvərlik hissləri ilə zəngin belə əsərlər dövlət tərəfindən də dəyərləndirilirdi.

Bu dövrün poeziyasında öz orijinal dəsti-xətti ilə seçilən Xəlil Rza «həqiqi milli və vətənpərvər sənətkar,

sözün əsl mənasında böyük istiqlal şairi kimi ad qazanmış, siyasi-ictimai şeirləri ilə oxucuların diqqətini cəlb edən alovlu tribun şairlərimizdən biri» kimi tanınır: «X.R.Ulutürkün ömrü azadlıq uğrunda gedən mübarizələrdə keçmişdir. O həm qələmi, həm də alovlu tribun nitqləri ilə böyük xalq kütlələrini öz arxasınca aparmağı bacaran bir şəxs idi. Bu, ondan irəli gəlirdi ki, X.R.Ulutürk ədəbiyyata, sənətə xalqının bağrından qopub gəlmişdi və onun istək və arzularının ifadəçisi idi. O ən yüksək tribunalardan xalqının mandatlı nümayəndəsi kimi çıxış edirdi, xalq da öz oğluna səmimiyyətlə inanırdı. Bu inam özünü xüsusilə vətənimiz müstəqillik alandan sonra bir daha doğrultdu...» (C.Abdullayev).

Azərbaycanda gedən milli azadlıq uğrunda mübarizələrin öncüllərindən olan şair 1990-cı ilin yanvarında kəskin siyasi ruhlu şeirlərinə görə Moskvanın Lefortovo zindanına salınmış, 2 ilə qədər məhbus həyatı yaşamış, sağlamlığını itirsə də, əzmini, iradəsini qoruyub saxlamış, onu müdafiə edən komitənin təkidi ilə azadlığa buraxılandan sonra da mübarizə meydanından çəkilməmiş, milli müstəqillik, azadlıq və istiqlal mövzulu əsərlərini yazmışdır.

İlk mətbu əsəri, «Kitab» şeiri 1948-ci ildə «Azərbaycan pioneri» qəzetində dərc olunan şairin 50-ci illər yaradıcılığını «poeziyanın geniş və şaqraq yoluna çıxış üçün hazırlıq mərhələsi kimi» qiymətləndirən ədəbi tənqid «50-ci illərin sonu və bütövlükdə 60-cı illəri onun poetik təfəkkürün zirvələrinə qanadlandığı, xüsusilə Vətən, azadlıq, istiqlal, humanizm motivli əsərlərinin artıq müəllifinin də adını əbədiləşdirən, özlərinin siyasi kəskinliyi, mübarizliyi ilə əvvəlkilərdən köklü surətdə fərqlənən parlaq poetik nümunələrini yaratmış dövrü kimi» səciyyələndirir. «Afrikanın səsi», «Vətən, ya ölüm», «Laylam mənim, nərəm mənim», «Nifrətim

var», «Bahar kimi», «And içirəm», «Mənim şeirim», «Mən Şərqəm», «Qonaq çağırıram bəşəriyyəti» və s. əsərlərində «iki əsas və aparıcı istiqamət, məram və məqsəd vardır ki, bunlardan biri vətənimizin dərd-sərini sətiraltı mənalarla göstərməkdirsə, digəri ümumiyyətlə, qeydsiz-şərtsiz, açıq-açığına planetin, dünyanın istisnasız olaraq, bütün bəşəriyyətin taleyini daha qlobal şəkildə düşünməkdən ibarətdir. Müəyyən hallarda isə bu iki xəttin hər ikisinin bir-birini tamamlaması, birgə, müştərək şəkildə alınması, qavranması, yaşanması sonra isə misralarda bədii inikası problemidir. Yəni şairin ürəyi bir teleekran kimi həm özünü, həm də özgəni göstərə bilir; çünki həqiqi sənətkar üçün «özü» və «özgəsi» yoxdur. Bütün qitələrin, bütün ölkələrin, bütün insan məskənlərinin Azadlıq günəşi ayrı-seçkilərsiz olmalıdır. Burada məhəlliçilik, lokallıq, xüsusilik olmamalıdır. X. R. Ulutürk də məhz azadlıq, istiqlal, müstəqillik problemlərini birgə şəkildə, bütöv, bitkin halda mənalandırır. Onun əsərlərində Qərb də, Şərq də, Asiya da, Avropa da, hətta uzaq Afrika da bütün insanların birgə yaşadığı vahid, nəhəng bəşəri ev, bəşəri oda kimi səciyyələndirilməlidir» (C. Abdullayev).

Xəlil Rzanın getdiyi bu yolun ilk cığırını açanlar vardı; R.Rza («Qızılgül olmayaydı»), S.Vəliyev («Qanadı sınmış quş da uçarmış»), M. Hüseyn («Yeraltı çaylar dənizə axır»), N.Xəzri («O uzaq gecə») əsərləri ilə açmışdı. Onlardan bir az sonra Y.Səmədoğlu «Qətl günü», Elçin «Ölüm hökmü», X.Rza «Davam edir 37» əsərini yaratdı. Şeirdə novatorluğu S. Vurğundan sonra yaradan üçüncü nəslin nümayəndələri (Ə.Kərim, M.Araz, X.Rza Ulutürk, F.Qoca, F.Sadıq, C. Novruz, M.Əliyev, M.Yaqub, R.Zəka, V.Səmədoğlu, Ə.Salahzadə, İ.İsmayılzadə, M.İsmayıl, Ağa Laçınlı, Ağacəfər

Həsənli, Ağasəfa, Ağəddin Mansurzadə, Allahverdi Tağızadə və b.) «öz mənəvi atalarının yolunu namusla, vicdanla, həm də yaradıcılıqla davam etdirirlər. İstiqlal ordeninə layiq görülmüş B.Vahabzadə, M.Araz, X.Rza ədəbiyyatımızın nəhəng simalarıdır.

X. Rza gözəl tənqidçi, görkəmli ədəbiyyatşünas kimi də ədəbiyyatımızda yaşayır. Onun S.Vurğun, R.Rza, M. Müşfiq, M.Dilbazi və b. sənətkarlarımız haqqında, poeziya haqqında, bu poeziyanı yaradan şairlərimiz haqqında də yərli tədqiqat işlərinin («Poemalar haqqında qeydlər», «Tarixi-romantik poema», «Ədəbiyyatımızda poema janrının yaranması və inkişafı», «Bakının dastanı» və poema janrının bəzi məsələləri» və s.) müəllifidir: «Bütün bunlar isə şairin yaradıcılıq diapazonunun genişliyindən, erudisiyasının, dünyagörüşünün, maraq dairəsinin vüsətindən, əhatəliliyindən xəbər verirdi. Biz hələ onun yüzlərcə bütöv cildlərə sığmayan xatirələrini demirik» (C. Abdullayev).

Yusif Səmədoğlunun yaradıcılığı ədəbi tənqidin daima diqqət mərkəzində olmuşdur. Onun yaradıcılığına diqqət yetirdikdə, biz də bu fikrə şərikik ki, Yusif Səmədoğlu «yazdığı əsərlərin heç birində keçilmiş, tapdalanmış yollarla getməmiş, hər birində elə bir orijinal mövzu və onu ifadə üçün elə bədii forma və yazı tərzi tapmışdır ki, oxucu onların problematikası, xarakterlər, təbiət təsvirləri, dil ifadə gözəlliyinə, məna və mətləb dərinliyinə heyran olmaya bilmir. Başqa sözlə desək, onlar bizi özlərinin məzmunu, ideyası, surətlər aləmi ilə cəlb edir, hətta bir çox məqamlarda heyrətləndirir» (Müasir Azərbaycan ədəbiyyatı II cild. 2007). Hekayələrindən «Foto-fantaziya», «220№-li otaq», «46-cı ilin oyunları». «Astana», «İncə dərəsində yaz çağı» hekayələri öz məzmun və forması, dil üslub imkanlarının zənginliyi ilə seçilir. Tənqidçi K.Nərimanoğlunun «Astana» əsəri haqqında dedik-

lərini tənqidçi alimlər düzgün sayır və bildirirlər ki, tənqidçi «əsərin ideyasını düzgün dərk edərək, ondakı rəmzi-metaforik nüansları dərindən duyaraq yazmışdı ki, Astana rəmzdir. El-obada deyərlər ki, qapının astanasında dayanmaq olmaz, adamı vurğun vurar. Hekayənin qəhrəmanı da nə içəri girə bilir, nə də çölə çıxa bilir. Nə yaşaya bilir, nə də ölmək istəyir. Həyat astanası, insan ömrünün mənası haqqında bu ibrətli əsər insanı mənəvi saflığa çağırır, tamah, var-dövlət hərisliyi, acgözlüyün psixoloji əsaslarını sarsıdır. Astanada dayanan insanın gərgin anları, əzabları, olum, ya ölüm dilemması qarşısında duran insanın fəci yaşantıları oxucunu mənəvi-əxlaqi cəhətdən təmizləyir. Bir növ katarsisdən çıxararaq təmiz dağ havasına aparır» (C. Abdullayev).

Yazıçının «Qətl günü», «Deyilənlər gəldi başa» bitməmiş romanı, «Yeddi oğul istərəm», «Səmt küləyi» kinossenariləri, yuxarıda adlarını çəkdiyimiz hekayələri dəyərli əsərlərdir. Onun «Qətl günü» romanı kamil, dolğun bir roman olub, ideya-məzmun, mövzu və problematikasına görə, xarakterlərin bütövlüyünə və müxtəlifliyinə görə, bədii forma, şərti-metaforik poetikasına görə XX əsr Azərbaycan romançılığının ən mütərəqqi ənənələrinin davamı və inkişafı baxımından ən gözəl nümunə, ən uğurlu ədəbi hadisə kimi qiymətləndirilir. Bu əsər haqqında ilk elmi-nəzəri fikirlərini bildirən yazıçı bunu ədəbi hadisə kimi qiymətləndirməkdə haqlıdır.

Romanda baş verən hadisələrin «üç dövrü» əhatə etdiyi, «kompozisiya bir əsər daxilində müxtəlif dövrlərin hadisələrini, insan talelərini» birləşdirdiyi, «bədii ümumiləşdirmənin gücü ilə bu üç dövrün hadisələri»nin «əsas ideyalar, problemlər ətrafında bir axarda, vahid süjetdə inkişaf» etdirildiyi, «hadisələrin gedişindən, obrazların mənsub olduğu

zümrəyə uyğun canlı danışıq tərzindən, yerli və milli koloritin təbii təsvirindən hadisələrin hansı dövrdə baş verdiyini, tarixi və ya tarixi-əfsanəvi şəxsiyyətlərin təxmini də olsa» hansı dövrlə əhatələndiyini «müəyyənləşdirmək» mümkün olduğunu qeyd etməklə yanaşı, tənqidçi alimlər bu fikirdədirlər ki, «bəlkə də əsərdəki çoxsüjetlilik, çoxşaxəlilik, çox əhvalatçılıq bəlkə də ədibin hekayətlərdən, rəvayətlərdən, əfsanələrdən istifadə ilə deyil, xarakterlərin bolluğu ilə izah olunmalıdır. Lakin bu epizod və əhvalatların hamısı birbirinə qaynaq edilərək, çox məharətlə bütöv bir vəhdət halına gətirilmişdir. Ona görə də bu surətlərin birinin romanı, dramı və sərgüzəşti elə ustalıqla verilir ki, onların hamısını oxumadan, onları mənimsəmədən əsəri dərk etmək mümkün deyildir. Bu mənada həmin surətlərin hər birinin bioqrafiyası, ömürlüyü ibrətamiz bir pritça-nəsihət təsiri bağışlayır» (C.Abdullayev).

Yazıçı qələmə aldığı həyatı, insanları bədii boyalarla verir. Sadə bir dillə təsvir edir. Müxtəlif dövrlərdə yaşamış böyük ideyalarla yaşayan əqidə, məslək sahiblərinin zəmanənin əzablarıyla üz-üzə durduğunu, bütün mərhumiyyətlərə dözdüyünü, həm şəxsi, həm də ictimai əzablara «qatlaşdığını», yaşadığı cəmiyyətin xoşbəxtliyi uğrunda mübarizəsini təbii boyalarla verməyə nail olmuşdur. Beləliklə, «yazıçı müxtəlif dövrlərdə obrazların düşdüyü vəziyyəti meydana çıxaran sosial-mənəvi amilləri düzgün aydınlaşdırmağa çalışmış, insan psixologiyasını açmış, onların pis əməllərinin konkret şəraitdən, düşdüyü vəziyyətdən asılı olmasını sübut etmişdir. İnsan psixologiyasına, xalq həyatına, məişət, həyat qayğılarına yaxşı bələd olan yazıçı hadisələri real və canlı boyalarla, xırda detallarla təsvir etməyə nail olmuşdur. Bu isə sənətkarlıq məsələsidir; ona görə də müəllif ailə-məişət səhnələrindən, təbiət təsvirlərindən, rəmzi və

simvolik obrazlardan da məharətlə faydalanmışdır» (C.Abdullayev).

Yazıçının ikinci romanı Anarın «Bitmiş ömrün bitməmiş yadigarı» adlandırdığı «Deyilənlər gəldi başa» romanı da öz orijinallığı ilə seçilən bədii əsər kimi dəyərlidir. Ümumilikdə götürsək görkəmli alimlərimizin bir fikri özünü tamamilə təsdiq edir ki, Yusif Səmədoğlu «Necə deyərlər, az yazmış, amma saz yazmışdır» (Mir Cəlal).

Bu dövr sənətkarlarımız içində Məmməd Arazın özünəməxsus yeri var. Onun əsərlərində tariximiz, bu günümüz, təbiətimiz var. Onun ədəbi əsərlərə gətirdiyi orijinal, əlvan boyalar var. Onun yeni poetik baxışları, həyata poetik baxmaq bacarığı, şairanə düşünmə tərzi, gördüklərini şairanə bir dillə sənət dilinə çevirə bilmə istedadı var. Hər kəs vətəni Azərbaycanı istədiyi kimi vəsf edir, istədiyi kimi vətənpərvər hisslərini verir, oxşar hisslər çox olur. M. Araz Azərbaycana öz prizmasından baxıb vəsf edir və bu vəsfi öz orijinallığı, poetikliyi ilə ürəklərə yağ kimi yayılır, yatmış telləri oyadır, insan qəlbinin sarı simlərinə toxunur. O simlərdə möhtəşəm Azərbaycan və onun yaşantıları var, kövrək, saf, sadə, sadə olduğu qədər mərd, ləyaqətli xalq, millətlə qoşa qəlb var:

Azərbaycan-mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər.
«Azərbaycan deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər».

O, vətənin bir vətəndaşı olmasıyla fəxr edir, bunun məsuliyyətini duyur və yaxşı bilir ki,

Vətən daşı olmayandan
Olmaz ölkə Vətəndaşı.

Şair ədəbi yaradıcılığa 1952-ci ildə «İnqilab və mədəniyyət» jurnalında dərc olunan «Yanın, işıqlarım» şeiri ilə

başlamış, «Sevgi nəğməsi» şeirlər kitabı, sonralar «Üç oğul anası», «Araz axır», «Anamdan yadigar nəğmələr», «Ömür karvanı», «Mən səni taparam», «İllərdən bəri», «Atamın kitabı», «Həyatın və sözün rəngləri», «Oxucuya məktub», «Aylarım, illərim», «Seçilmiş əsərləri», «Dünya düzəlmir», «Daş harayı», «Qayalara yayılan səs», «Yol ayrıcında söhbət», «Sənətdə son mənzil olmur», «Ağlayan qayalar», «Vətən deyin», «Əsgər andı», «Seçilmiş əsərləri», 4 cilddə və b. kitabları çap olunmuşdur. APİ-nin coğrafiya fakültəsində, Moskvada Yazıçılar İttifaqı nəzdində olan Ali Ədəbiyyat kursunu bitirmiş M.Araz həm Azərbaycanın füsunkar təbiətinin vurğunu olmuş, onun coğrafi hüdudlarına, gözəlliklərinə bələd olmuş, həm də söz sərrafı kimi bu gözəllikləri vəsf etmək xoşbəxtliyi nəsib olmuş sənətkardır.

Onun yaradıcılığında xalq aşıq şeiri ruhu var. Aşıq Alı, Abbas Tufarqanlı, Aşıq Ələsgər sazının, sözünün sehrinə bələnmiş ruhu onun aşıq ruhlu şeirlərində özünü göstərir. Məmməd Araz xalq ədəbiyyatının bütövlükdə vurğunudur və xalq deyimləri, zərb-məsəlləri onun poeziyasının qanına, canına hopub. Şeirlərindəki bədiilik, sadəlik, təbiilik, axıcılıq, sözün məna və şəkli xüsusiyyətlərinə sənətkarlıqla yanaşma, bədii təsvir və ifadə vasitələrindən sənətkarlıqla yararlanma M.Araz şeirlərinin milli, xəlqi ruhunu artırıb: «Xəlqiliklə yoğrulmuş Məmməd Araz poeziyası bir tərəfdən folklor, xalq yaradıcılığı, klassik Azərbaycan poeziyası, başqa tərəfdən aşıq şeiri və çağdaş poeziyamızın sütunları üzərində qurulmuş, onun ən gözəl məziyyətlərini poeziya-sının canına hopduraraq, yeni, təravətli sənət nümunələri yaratmışdır» (Q. Namazov).

Vətən torpağının qarış-qarış düşmən əsarətinə düşməsi, yadellilərin torpağına, Vətəninə vurduğu yaralar, xalqının qeyrətli oğullarının qəhrəman mübarizəsi, azadlıq, müstəqillik ruhu qanına, canına hopmuş vətən oğullarını, hər zaman mübarizə meydanlarında tökülən qanları, qonşu bilib tikəsini yarı böldüyü tamahkarlar onun şeir yaddaşındadır:

Mən Təbrizli, Naxçıvanlı, mən Gəncəliyəm,
Çox görmüşəm hasar üstə ölənləri də.
Mən torpağı bölünməyə öyrəncəliyəm,
Heç qazanan görməmişəm bölənləri də.

Araz təxəllüslü şair görürdü ki, «Araz bütöv Azərbaycanın tən ortasından keçir və onu ikiyə bölür. Onun poeziyasında bu parçalanma ən adi qonşu çəpərinə qədər şairi düşündürür. Bizi də heyrətləndirir» (Q. Namazov).

Vətənin təbiəti, başı qarlı dağları, sinəsi bənövşəli qayaları, yaşıl ormanları, güllü-çiçəkli, aranlı-yaylaqlı oylaqları şairlərin qələmiylə vəsf edilib. M.Araz da belə şairlərdəndir. Amma onun tərənnümündə çox orijinal keyfiyyətlər var. O tərənnüm etdiyi təbiətə baxışlarında fərqlidir. Bu şeirlər insanı düşündürür, bu gözəlliklərin, vüqarın, əzəmətin içində dünya boyda bildiyi Vətən var. Təbiət və vətən məhəbbəti ilə birləşmiş bu şeirlərdə ona vurğun könlün səmimi ifadəsi əsasdır:

Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman salamat qal, dağ salamat qal.
Arxamca su səpir bəlkə leysanlar,
Leysan salamat qal, yağ, salamat qal.

Qıy vuran qartallar yox oldu çəndə,
Nərgizlər saraldı şehli çəməndə,
Ay ala göz pərim, arxamca sən də,
Boylan salamat qal, sağ-salamat qal.

Məmməd Araz keçmiş SSRİ xalqlarının, digər dünya xalqlarının dilinə tərcümə olunan şairdir.

Onun yaradıcılığında da tərcüməçilik fəaliyyəti mühüm yer tutur. S.V.Mixalkovun «Foma», M.Svetlovun «Şeirlər», N.A.Nekrasovun «Rus qadınları», dünya şairlərinin şeirlərindən ibarət olan «Ocaq başında», G. Ağacanyanın «Narahat ürək» kitablarını dilimizə tərcümə etmişdir.

Azərbaycanda gedən milli azadlıq, müstəqillik uğrunda mübarizədə qələmi ilə döyüşən, xalqına ruh verən, onu mübarizəyə ruhlandıran şair xidmətlərinə görə İstiqlal ordeni (1995) ilə təltif olunmuş, adına «Məmməd Araz» mükafatı təsis olunmuş, Hacı Zeynalabdin Tağıyev adına milli mükafata layiq görülmüşdür. Əməkdar mədəniyyət işçisi, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət mükafatı laureatı Məmməd Araz 1991-ci ildə «xalq şairi» adına layiq görülmüş, «vətən oylağının hər zərrəsində məna» axtaran, özünü vətənin bir parçası sanan, şeiri ilə, əməliylə Vətəninə layiq olan vətəndaş şairdir.

Şahmar Əkbərzadə şair, publisist, tərcüməçi kimi tanınmışdır. «Yüksəlişdə», «Mil üzümçüləri», «Anama layla», «Sevgi borc verilməz», «Ona yanıram ki» kitablarında lirik şair kimi arzu və istəklərini, duyğu və düşüncələrini dolğun poetik parçalarda ifadə edir.

Şair, şərqşünas, tərcüməçi Şahin Fazil ərəb, fars, türk dillərindən tərcümələri, qəzəlləri, tarixi mövzuda yazılmış əsərləri ilə ədəbiyyatımıza, tariximizə daxil olmuşdur.

Qaçay Köçərli istedadlı şairdir. 60-cı illərdə ilk şeiri nəşr olunub. «Tək çinar», «Ömrün şüaları», «Günəş ömrü», «Torpaq qərib olmur», «Qanlı hekayələr» kimi onlarla kitabın müəllifi Qaçay Köçərli vətənpərvər, torpağını, xalqını sevən bir şair kimi tanınır. Qaçay Köçərli şəhid atasıdır, oğlu Elcan Qarabağ uğrunda döyüşlərdə həlak olmuş,

Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir. Onu tərbiyə etdiyi, böyütdüyü övladları kimi, yaratdığı əsərlərdə də mübariz, xalq sevgisi ilə dolu bir ürəyin sahibi kimi tanıyırıq.

Ramiz Rövşən 60-70-cilər nəslinin istedadlı şairlərindəndir. Ramiz Rövşən şair, kinodramaturq kimi tanınır. Sözdən, onun bədii imkanlarından bacarıqla istifadə edən istedadlı şairin şeirləri, hekayələri və povestləri 70-ci ildən «Azərbaycan», «Ulduz», «Qobustan» jurnallarında nəşr olunmuş, «Babamızın babasının babası», «Şəhərli biçinçilər» filmləri onun ssenarisi əsasında çəkilmişdir. «Yağışlı nəğmə», «Göy üzü daş saxlamaz» və s. kitabların müəllifidir.

Dərd məfhumu Füzuli sənətinin ruhudur. Dərd, qəm, hicran, həsrət Füzuli yaradıcılığında fəlsəfi dondadır. Zaman-zaman Füzuli kimi sənətkarlar bir-birinə zidd əksliklərin vəhdəti dünyamızda gördüyü bu əksliklərin yaratdığı sevinclə kədərin, hicranla vüsalın əzabını çəkib, xeyrindən, bəhrəsindən çox əzabının, gözünün yaşının işığına sığınıb. Zaman, yaşadığı dünyanın dərdi, faciəsi həmişə onun ziyalısının çiynində daşınır. Bu yükün ağırlığını sözə çevirmək, zamanın gərdişində insan övladının səadəti naminə yaşamaq, yaratmaq istəyi, bu səadəti tapmayanda, ona əl çatmayanda əzablarını sözlə ifadə etmək, özü də elə bir sözlə ki, Füzuli sözü kimi əbədiyaşar olsun, Ramiz Rövşəndə də bu var. «Dərd» məfhumu Füzulidə var, dərd əlindən dağa çıxan Füzuli kimi Ramiz Rövşən də üzü ağlı-qaralı dünyada gördüyü kədəri, dərdi şair dili ilə ifadə edir. O kədəri ki, şair çəkir, dünya onu yaşadammır, o dünyanın dərdiylə köklənib, belə dünyanın

Göz yaşları süzüldükcə,
Adamın quru üzünə,

İçimizdə batan dərdlər
Bir-bir çıxır su üzünə.

Burada dərd əlindən göz yaşı tökən insanın çəkdiyi əzabların doğurduğu göynərtilər, o göynərtilərin törətdiyi göz yaşları, bu göz yaşlarıyla dərdi yüngülləşən insan faciəsi-şair kədəri əsasdır.

Cavanşir Yusifli «Filoloji fantaziya» monoqrafiyasında Ramiz Rövşənin poeziyasındakı yenilikləri, onun klassik poeziyaya bağlılığını, həmçinin şeirdə novatorluq axtarışlarını elmi şəkildə izah etmişdir.

Sabir Rüstəmxanlı çağdaş poeziyamızın istedadlı nümayəndələrindən biridir. Ədəbiyyata «Kənd yolu» şeirilə gələn şairin yaradıcılıq uğurları artır. 1967-ci iildə dövri mətbuatda şeir, hekayə, ədəbi-tənqid, publisistik məqalələrlə çıxış edir. «Ədəbiyyat və incəsənət» qəzeti redaksiyasında əmək fəaliyyətinə başlayan Sabir Rüstəmxanlının ilk şeirlər kitabı 1970-ci ildə Gənclik nəşriyyatı tərəfindən buraxılmış «Tanımaq istəsən»dir. Sonrakı illərdə onun «Sevgim, sevincim», «Xəbər gözləyirəm», «Gəncə qapısı», «Sağ ol, ana dilim», «Qan yaddaşı», «Ömür kitabı» (publisistika), «Zaman məndən keçir», «Bütövlük həsrəti», «Atamın ruhu», «Xətai yurdu» (roman) və s. kitabları nəşr olunub.

Milli ruhlu şeirləri ilə sevilən şairin «Ömür kitabı» «milli vətənpərvərlik publisistikası qarşısında geniş üfüqlər açdı. Çox keçmədi ki, onun üsyankar səsi xalqın azadlıq hərəkatının ön sıralarında eşidilməyə başladı». Publisistik poeziyanın gözəl nümunələrini yaradan S. Rüstəmxanlı ədəbiyyatımızın inkişafında öz dəsti-xətti olan şair kimi tanınır.

«Milli köklər üzərində göyərib formalaşan» Zəlimxan Yaqub xalq poeziyasını dərindən bilən şairdir. Yaradıcılığında səmimi lirika şair pafosu ilə birləşir. Torpağına, yurduna, onun milli-mənəvi dəyərlərinə bağlı şairdir. Aşıq

poeziyasının müasir dövrümüzdə xalqa daha geniş şəkildə çatdırılması sahəsində rolu böyükdür. Azərbaycanın tarixinə adı əbədi yazılmış ümummilli liderimiz H.Əliyevə həsr etdiyi «Böyük ömrün dastanı» poeması Z.Yaqubun «milli dövlətçilik ideallarını ifadə etmək, xalqın taleyində tarixi şəxsiyyətin rolunu qiymətləndirmək» baxımından dəyərləndirilir. Ədəbi yaradıcılığa Şota Rustaveliyə həsr olunan şeirilə başlayan şair «Könlümün səsi» (1980), «Yolum eldən başlanıb (1981), «Od aldığım ocaqlar» (1986), «Biz bir eşqin butasıyıq» (1989), «Ziyarətin qəbul olsun» (1991), «Şair harayı» (1995), «Bir əli torpaqda, bir əli haqda», «Səni sevmək üçün gəldim dünyaya», «Mən sənin qəlbinə necə yol tapım» (2003), «Böyük ömrün dastanı» (2003) və s. kitabların müəllifidir.

Dilinin səlisliyi, misralarının axıcıllığı, xalq şeir üslubu ilə köklənmiş yaradıcılığında Zəlimxan Yaqub öz orijinal bədii keyfiyyətləri ilə seçilən, oxucu kütləsinin qəlbində yer tutan, sözüylə, sənətiylə sevilən şairlərimizdəndir.

Bəhmən Vətənoğlu ilk şeirini («Dəyişməmişəm». «Yeni həyat uğrunda» qəzeti) məktəb illərində yazıb. «Haqqa qardaş yaranmışam», «Allahsız dünya», «Vətən bizi bağışlamaz», «Qaldı ürəyimdə dağı dağların» kimi onlarla kitabın müəllifidir. Sağlığında el şairi kimi şöhrət qazanan B.Vətənoğlunun şeirləri dillər əzbəridir. Kəlbəcər həsrətindən, yurd dağından, Qarabağ faciəsindən sinəsinə çalın-çarpaz dağ çəkilən şairdir. Misraları, sözü bir Koroğlu nərəsinə bərabərdir...

Nakam şair Sücaətin şeirlərində olan lirika, mövzu və ideya kamilliyinin araşdırılması, təhlil və tədqiqatı tədqiqatçısını gözləyir. Torpağa əmanət qoyulmasını vəsiyyət edən şairin təpədən-dırnağa vətənə sevgi ilə hörülmüş şeirləri ilə yanaşı, humanist sevgi lirikası dillər əzbəridir. «Gəlimli-ge-

dimli dünyamızda ilahi hər insana bir tale, bir qismət verir və insan ömrü o qismətin, taleyin burulğanında əriyir, çağlayır, sakitləşir və sönüb gedir. Hardasa bu qismət ömürlərin müəyyən nöqtəsində oxşarlaşsa da elə insan var ki, onun ömrü də, qismәti də qeyri-adi, bənzərsizdir. Sücaətin ömür yolu məhz bu bənzərsizliklərlə cilalanıb, sevinci az, kədəri bol ömrü» (Z.Həsənov).

Zəlimxan Yaqubun bu fikrinə şərikik ki, «Sücaətin əsərlərində forma və məzmunundan asılı olmayaraq bir bayatı axarı, qoşma şirinliyi, təcnis təravəti var....şeirlərinin əksəriyyəti ağlayan və ağladan, kövrəldən və düşündürən, oxucunu dədə-baba dünyasına çəkən, torpağa, Haqqa, ulu dərgaha çağıran şeirlərdi». Sücaət, Bəhmən Vətənoğlu, İdris Verdiyev, Əli Qurban Dastançı... əsl el şairləri kimi ədəbiyytımızda qalacaqlar.

Şair, dramaturq Adil Babayev (1925-1977) az ömür yaşadı, amma böyük bir ədəbi irs qoyub getdi. Teatrşünas kimi dramaturgiya və kino sənəti problemlərinə dair çoxlu məqalələri ilə milli teatrın inkişafına xidmət etmiş, «Dağlar qızı», «Yarımçıq portret», «Mənim məhəbbətim», «Qız görüşə tələsir» pyesləri tamaşaya qoyulmuş, əsərləri dünya və keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunmuş, tərcümələri ilə tanınmışdı. «İkinci simfoniya» (poema), «Ürək nəğməsi» (poema), «Şeirlər», «Döyüş yollarında» (poema), «Unudulmuş yasəmən», «Anamın üzüyü», «Pyeslər», «Ata sorağında» (hekayələr) kimi iyirmidən çox kitabın müəllifi olan Adil Babayev zəngin bir irs qoyub getmiş sənətkardır.

Şair, tərcüməçi Abbas Abdulla «Ata yurdu», «Ağlı-qaralı dünya», «Üzü dan yerinə», «Sonsuzluğa gedən karvan» və s. kimi onlarla şeirləri və poemaları toplanmış kitabların müəllifidir. Dünya ədəbiyyatından etdiyi tərcümələr dəyərlidir, xüsusilə Ukrayna ədəbi mühitini Azərbaycan oxucularına tanıtmaqda rolu böyükdür. Milli azadlıq hərəkatında yaxından iştirak edən, Azərbaycan Xalq Cəbhəsinin qurucularından biri, Ağsaqqallar şurasının üzvü olmuş şairin Ana Yurdunu, Vahid-Bütöv Azərbaycanı, türkçülüyümüzü tərənnüm edən əsərləri onun vətəninə, millətinə, xalqına bağlı bir sənətkar olduğunu sübut edir.

Nasir Aqil Abbas bədii yaradıcılığa 70-80-ci illərdə gəlib. Çap olunmuş ilk əsəri «Şirinlik hekayə»sidir. «Ən xoşbəxt adam», «Dolu», «Batmanqılınc», «Çadırda Ü.Hacıbəyov doğula bilməz» və s. roman, povest və hekayələr kitabının müəllifidir. Aqil Abbas ədəbiyyatımızın, mədəniyyətimizin inkişafında böyük xidmətləri olan istedadlı yazıçı olmaqla yanaşı «Ədalət», «Boz qurd» qəzetlərinin baş redaktorudur. «Ədalət» qəzeti fəaliyyət göstərədiyi iyirmi ildən artıq bir vaxtda Azərbaycan ədəbi prosesinin inkişafında böyük rol oynayıb. Onun «Dolu» əsəri əsasında çəkilmiş film günün aktual problemlərini özündə əks etdirir. Günümüzün ən aktual problemi isə Qarabağ problemidir və bu fikri heç kim inkar etməz. Aqil Abbas təkcə ədəbi-bədii yaradıcılığı ilə deyil, siyasi, ictimai fəaliyyəti ilə də tanınmış, xalqına, dövlətinə xidmət edən ictimai xadimdir.

Nasir, kinossenarist Aydın Dadaşov bədi yaradıcılığa tələbəlik illərindən başlayıb. «Dəvətnamə», «Qərib», «Madaqaskar», «Ssenari yaradıcılığı», «Televiziya və radio tamaşaları» kimi onlarla bədii, publisist, elmi-nəzəri kitabların müəllifidir.

Şair Bəhlul Orucoğlu könüllü hərbi xidmətə gemiş, Goranboy, Füzuli, Ağdam, Ağdərə rayonlarında erməni faşistlərinə qarşı döyüşlərdə batalyon komandiri (1991-1993) olmuş, vətənpərvərlik ruhunda yazdığı şeirləri, marşları ilə sevilmiş şairdir. O, «Səngərlərdə keçən ömür», «Həsrətlə ya-

nan ürəyimiz», «Sevənləri qoru dünya», «Ömürdü bu», «Öndə Qarabağdı» kimi onlarla kitabın müəllifidir.

Nasir, tərcüməçi Elçin Hüseynbəyli bir-birindən maraqlı hekayələri, kinossenariləri, pyesləri, tərcümələri ilə ədəbiyyata gəlib. «Rəqs edən oğlan», «Balıq adam», «İki nəfər üçün oyun», «Cənab 21-ci əsr», «Yovşan qağayılar», «Tut ağacı boyunca», «On üçüncü həvari, 141-ci Don Juan», «Şah Abbas», «Metro vadisi», «Yolayrıcında qaçış»,«Azıx», «Şimallı gəlin», «Kopelhausda bir axşam» kitablarının, səkkiz romanın, yüzə qədər hekayə, esse və bədii məqalənin müəllifidir.

Onun roman və dram əsərləri əsasən sintetik janrlardadır: dünən, bu gün və gələcək. Təhkiyəsi axıcı, üslubu fərdidir. Əsasən milli problemləri qabardır, amma dünyanı bütöv qavrayır. Roman və dramları konkret ideyaya əsaslanır, süjet xətti kəskin intriqa üstündə qurulur. Əsərləri ingilis, rus, alman, fransız, polyak, ukrayna, litva, koreya, fars və s. dillərə tərcümə olunub, türkdilli xalqların dillərinə uyğunlaşdırılıb.

Tənqidçi, nasir, tərcüməçi, Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri Aydın xan Əbilov 1996-cı ildən dövri mətbuatda ədəbi-bədii, elmi-kütləvi, analitik-kulturoloji, tərcümə və publisistik yazılarıyla çıxış edir. Yazıçı-kulturoloq, tənqidçi-publisist, tərcüməçi və ədəbiyyatşünas kimi onun Azərbaycan Respublikasının və xarici ölkələrin aparıcı dövri mətbuat orqanlarının, elmi jurnallarının səhifələrində, İnternetdəki müxtəlif elektron informasiya resurslarında 2000-dən artıq elmi-kütləvi, ədəbi-bədii, tənqidi-publisistik, analitik-kulturoloji və tərcümə yazıları işıq üzü görüb. «Yeni ədəbi nəsil: axtarışlar, problemlər» və «Ədəbi həyat: qurultaydan qurultaya», «Kulturoloji-alternativ düşüncələr» (2006), «Dunyanın kulturoloji dərki" (2008) adlı monoqrafik-analitik kitabları nəşr olunub.

Müstəqillik dövründə milli birliyə səsləyən, türkçülük ideyaları ilə zəngin əsərlər yaranır. Əlirza Xələflinin əsərləri bu sahədə daha mükəmməldir.

Şair, publisist Əlirza Xələfli bədii yaradıcılığa tələbəlik illərindən başlayıb. «Karvan körpüdən keçir», «Baş daşımın yazıları», «Yurdun övladları», «Ocağımın işığı», «Həsrət körpüsü», «Sözə doğru» kimi iyirmiyə qədər bədii və publisist kitabların müəllifidir. Vətəndaş şairdir. 80-ci illərdə ədəbiyyata gələn, böyük bir ədəbiyyatın nümayəndəsidir.

Dövri mətbuatda nəşr olunan külli miqdarda ədəbi və publisist əsərlərində oxucusunu düşündürür, özü də tarıma çəkib, çarmıxa çəkib düşündürür. Elini, elatını, nəslini, kökünü, soyunu görmək istəyir öz həndəvərində, xeyirində, şərində onları axtarır. Ucu-bucağı bilinməyən, tarixi qədər uzun, qədim, köklü-köməcli olan bir türk nəslinin övladıdır o. O, bir oğul, vətəndaş kimi türkün, türk dünyasının ayıq-sayıq əsgəridir. Bu ayıqlıq, sayıqlıqdır onun qəlbini riqqətə gətirən, şərəfli keçmişinə üzüağ dönüb baxmağa imkan verən. Şumerdən bu yana tarixi yazası bir oğul gözləyir, elə bir oğul ki, bəzəksiz, boyaqsız tarixini yazsın. O tarixi ki, düşmən bildiyindən «gözünə ox kimi batır». Orxon-Yenisey, Qobustan, Azıx-adını çəkmədiyim Böyük Daşqın dövründən də əvvəlki türk dünyasının möhtəşəm tarixini bilir. O möhtəşəmlik qorxudur onun düşmənini. Şair bilir ki, türk türklə birləşəndə nələr olur. Şumer, İskit-sak, Atilla, Hun, Osmanlı birliyinin həsrətini çəkir. Bir dəniz gəzir, arayır: «Birlik dənizi". Ümidi o dənizdən su içən atın yəhərində olduğunu xəyalən arzulayan şair bir gün səadət günəşinin üzünə doğacağını, ikiyə bölünmüş Azərbaycanın dərd cığırı, qəm mayalı Arazına qoyulan qadağanın götürüləcəyinə ümidlə baxır və o gün Qıratı onun körpüsünü keçəcək.

Təbrizə, Ərdəbilə, neçə-neçə doğmasına qovuşacaq anları düşünür. O səadətə kölgə salan anlar da var. Oğuz övladlarının qəlb itiliyi, söz götürməzliyi, doğması olsa belə bir kiçik sözünü bir batman balla «həzm» edə bilməməsi salır bu kölgəni. Çünki bunun axırı ayrılığa gətirib çıxarır, qan-qada salır. Bu qan-qada Qazan-Aruz çəkişməsi, ədavəti yaratdı. Bir-birinə qarşı qoydu Oğuz oğlunu. Oğuz oğlu özözünə qarşı çıxanda düşmən sevinir, çünki türkün birliyi dünyanın özünü belə qorxudur. O, birləşəndə nələr olmur. Ona görə də şair hər bir oğuz övladını dostunu, düşmənini tanımağa, bir-birinə dönük çıxmamağa səsləyir, özünə dönük çıxanı «qamçılayır».

Əli Rza Xələfli xalqının şairidir. Onun yaradıcılığında Müşfiq dərdini, Rəsulzadə böyüklüyünü, Nərimanov ömrünün təzadlı dünyasını, haqqı deyən, insan oğlunu yüksəklərə qaldıran, ən ali uca varlığı duyan, bu yolda diridiri dərisi soyulan, əqidəsindən dönməyən Nəsimini, Üzeyirin bütün türk dünyasını birliyə, bu yolda mübarizəyə çağıran «Uvertura»sındakı möhtəşəm motivlərini, Nizami böyüklüyünü, müdrikliyini görürük.

Sənətimizin milli-mənəvi kökləri üzərində inkişafına mayak olmaq lazımdır. Bəzən qələm sahibi azad sənət siyasətinin də nəyə xidmət etdiyini düzgün anlamalı, qarşısına qoyduğu məqsədlərə çatmaq üçün xalq, milli mənafe çərçivəsində yeriməlidir. Məqsədimiz dünyaya Nizami, Məhsəti, Füzuli, Nəsimi, Natəvan, Vaqif, Səməd Vurğun, Rəsul Rza, M. Dilbazi və adını çəkmədiyim neçə-neçə sənətkarlar vermiş Azərbaycan ədədbiyyatının XX-XXI əsrdə də öz yoluyla getməkdə olduğunu, hələ bundan sonra da bəşəri ədəbiyyatı öz zəngin əsərləri il zəngindləşdirəcəyini göstərməkdir.

Bu gün Əli Rzaların, Məmməd Aslanların, Sücaətlərin, Bəhmən Vətənoğulların…, neçə-neçə sənətkarların öz layiqli qiymətini almamasında günahkarıq. Ə.Xələfli təkcə öz əsərləri ilə deyil, bütün yaradıcılığı ilə ədəbiyyatımızın, mədəniyyətimizin inkişafına çalışıb, baş redaktoru olduğu «Kredo» qəzetinin fəaliyyəti buna sübutdur.

Vaqif Bəhmənlinin «Bahar-payız arası» (1979), «Dünya ayaq üstədir» (1981), «Bar ver, ümid ağacım» (1983), «Yolum üstə bitən gül» (1986), «Ömürdən uzun gecə» (1988), «Seçilmiş poetik əsərləri, üç cilddə» silsilə əsərlərindən «Poeziya-1» (2006), «Poeziya-2» (2006) kitablarında toplanmış əsərləri onun XX əsrin milli poeziyasının tanınmış şairi və publisisti olduğunu sübut edir: «Vaqif Bəhmənlinin poeziyası əşya və varlıqların qeyri-adi təəssüratlarından doğan poetik biçimli, sərrast deyimli bədii təfəkkürlə yoğrulub. Onun poeziyasını sağlam və bənzərsiz səmimiyyəti ilə dünyanın başa düşdüyü qlobal dərdlərin, ağrıların və düşüncələrin bədii məhsulu kimi qəbul etmək olar». Yüksək obrazlılıq, poetik bənzərsizlik, səmimiyyət, lakonizm, ifadəlilik, ümumi poeziyanın tarixi təcrübəsi ilə çağdaş axtarışları birləşdirən estetik tamlıq Vaqif Bəh-mənlinin əsərlərinin başlıca üstünlüyü olduğu bildirilir. 70-ci illərdən ədəbiyyata gələn, ondan çox şeir, poema və bədii tərcümədən ibarət kitabları çap edilmiş, Azərbaycan publisistikasının dəyərli nümunələri olan yüzlərlə məqalələrin də müəllifidir.

Nüsrət Kəsəmənlinin lirik şair kimi poeziyasevərlərin yaddaşında qalıb. Bəstəkarların şeirlərinə müraciət etdiyi şairlərdən biridir. Yaddaşlarda məhəbbət şairi kimi qalan Nüsrət Kəsəmənlinin «Sevirsənsə», «Gözlərimin qarası», «Özümə bənzədiyim günlər», «Gümüş yuxular», «Təklikdə

danışaq» və s. kitablarında toplanan əsərləri lirik duyğularla zəngindir.

Maarif Soltan 70-80-cilər nəslindəndir. Onun qələmə aldığı mövzular irihəcmli deyil. Bəzən adama elə gəlir ki, bir nəfəsə yazıb bir şeiri. Amma oxucu yüz dəfə oxuyur, hər dəfə nəsə görür, bu misralardakı mənaları tutmaq üşün səbirlə bir də qayıdır...

Ətirli güllərə dair,
Bitməyən sevincə,
ümidsiz kədərə,
solmayan güllərə dair,
sönməyən oda dair,
əbədiyyətə dair,
aclığa dair,
bir şeir böyüyür ürəyimdə.
Böyüyür, böyüyür…
Böyüyür, ancaq…
Heç vaxt yazılmayıb, yazılmayacaq.

Hər hansı bir şair, nasir, dramaturq haqqında söz demək, onun fikirlərinə, ideyalarına bədii dillə müdaxilə etmək bir qədər çətin olsa da, deyilməlidir. Hər bir qələm sahibi yalnız görüb duyduqlarını qələmə alır.

Qarabağ, Xocalı soyqırımı, bir əsrdə beş dəfə deportasiyaya məruz qalmış Qərbi Azərbaycanlı soydaşlarımızın taleyi yazıçıların, şairlərin, dramaturqların yaradıcılığında bədii ifadəsini tapmışdır.

Azərbaycan ədəbiyyatında az yaşıyla müəyyən qədər ədəbiyatda iz qoymuş yazarlarımız var. Faiq Şamil oğlu İsmayılovun «Qarı» povesti, Qarabağ şəhidlərinə həsr etdiyi yazıları, gündəlikləri onun çoxşaxəli yaradıcılığının bəhrələri idi. Onun lirik şeirlərini və poemalarını Azər Turan («İynə boyu şeirlər» (2003) nəşr etdirmişdi. Vaxtsız əcəl onun

yaradıcılığını yarımçıq qoysa da, əldə edilən əsərləri onun istedadlı qələm sahibi olduğunu göstərir.

Xaqani İsmayılın (o eyni zamanda 2003-cü ildən soyqırım «Tanıtım» təşkilatının sədridir) «Qarabağ taleyimiz» mənzum dram və satirik şeirlər (1990) toplusunun, «Haqsız dünya» (2001), «Azəri soyqırımı» (tarixi mənzum pyes) kitabları, İdris Verdiyevin «Dağ havası», «Kəlbəcər həsrəti», «Taxılmamış mayor paqonu» şeirlər kitabı, Bəhmən Vətənoğlunun, Sücaətin, Mirsəyyafın, Əli Vəkilin yaradıcılığı təpədən-dırnağa qədər yurd həsrəti, torpaq sevgisi, başı bəlalar çəkmiş vətən torpaqlarına qayıtmaq arzusu, düşmənə nifrət hissi ilə doludur.

Akif Aşırlının «Türkün Xocalı soyqırımı» (2004) kitabı 1992-ci ilin 25 fevral gecəsi erməni və rus birləşmələrinin Xocalı şəhərində dinc azərbaycanlılara qarşı törətmiş olduqları qətllərə aid tarixi oçerklər silsiləsidir... Kitabda əks olunan publisistika nümunələri türklərə qarşı erməni terrorunun tarixi kökləri, Dağlıq Qarabağ münaqişəsi, ötən yüzildə azərbaycanlılara qarşı törədilən soyqırımlar, erməni terror təşkilatlarının çağdaş dünyamız üçün doğurduğu təhlükələr barədə maraqlı məlumatlar, fotolar, müəllif şərhləri ilə zəngin olduğu bildirilir. A. Aşırlının 2 cildlk «Azərbaycan mətbuat tarixi» kitabları da bu cəhətdən diqqətəlayiqdir.

Yusif Kərimovun «Sarı sim» kitabında toplanan Qarabağ ağrılarını özündə əks etdirən «Dünyanın tamah dişi», «İçimizdən içimizə atəş» povestləri, «Arzu istehkamları», «Qu rəqsi» kinossenarilərində Qarabağ dərdi, nisgili, işğal olunmuş torpaqlarımızın ağrı-acısı və bunu doğuran səbəblər öz əksini tapmışdır. Yusif Kərimovun «Yollar», «Bir buta gül», «Tavridada şimşək çaxır», «Üçbucaq», «Qırmızı

sahil», «Qarabağ şikəstəsi» və s. kitablarında toplanan əsərləri də oxuculara tanışdır.

Məleykə Səma ədəbi fəaliyyətə 90-cı illərdən başlamış, ömrü müharibələrdə, səngərlərdə keçmiş, fəal ictimaiyyətçi, döyüşçü, həm də həkim, şəfqət bacısı idi. Dövri mətbuatda şeir, oçerk, məqalələrlə çıxış etmiş, «Azərbaycan qadını», «Xatun» jurnallarının, «Tale» qəzetinin cəbhə bölgəsi üzrə xüsusi müxbiri olmuşdur. «Qəlb hönkürtüsü», «Anamın susan nəğmələri» şeirlər kitabında vətən məhəbbəti, döyüş ruhu, qəhrəman qardaşlarına qəhrəman döyüşçü bacının məhəbbəti, vətən sevgisi, dara düşmüş torpağa, yurda qovuşmaq həsrəti, mübarizəyə çağırış, düşmənə nifrət ruhu əsasdır. Az ömrüylə başı minbir müsibətlər çəkmiş, dəfələrlə döyüşlərdə yaralansa da, öz silahdaşlarının yanında olmuş, həm cismən, həm də ruhən döyüşən şair qəlbli, şir ürəkli, vətənpərvər Məleykə Səma əsrimizin ikinci böyük dəhşətli müharibəsinin iştirakçısı, cəbhəçi, döyüşçüsü kimi Azərbaycan ədəbiyyatı tarixində qalacaq. Yazdığı şeirlərindəki müasirlik ruhu onu həmişə hər dövrdə muüasir bir vətənpərvər şair kimi yaddaşlara həkk edəcək.

Şair-dramaturq Abdulla Qurbani erməni işğalçılarına qarşı mübarizədə könüllü olaraq vuruşan qələm sahiblərindəndir. O, milli ordu sıralarında vuruşmuş, Murovdağ (1993-1995) döyüşlərində iştirak etmişdir. «Şəhidlər dastanı», «Gültəkin qayası», «Murov dağ karvanı», «Millətin oyaq gecəsi», «Ana, Murovdan gəlirəm», «Koroğlunun Ağdərə səfəri», «Vətən bizə arxalanır», «Meşəli od içində» kimi iyirmidən çox kitabında əsgər-döyüşçü-şair kimi tanınır.

Fərqanə Mehdiyeva lirik yaradıcılığı ilə ədəbiyyata gəlib. «Çəkdiklərim mənə bəsdi», «Deyirlər şirindi dünya», «Kəlbəcərli yuxum çin olsa» kimi onlarla kitabın müəllifidir.

Şair-publisist Zərəngiz Dəmirçi Qayalı «Vəfam mənim» kitabında Xocalı hadisələrinə həsr etdiyi «Cavab ver», «Mənim şair qardaşlarım», «Vəfam mənim» poemalarında Xocalı hadisələrini, müharibənin xalqımıza vurduğu yaraları, mənəvi sarsıntıları qələmə almışdır.

Nazim Hüseynli ədəbi fəaliyyətə tələbəlik illərindən başlamış, şeir və hekayələri dövri mətbuatda, almanaxlarda dərc olunmuşdur. «Uzun hörüklü qız», «Şabalıdlı dərə», «Oğuz lətifələri» kimi bir sara kitabların müəllifidir. Qarabağ dərdləri, vətənə, onun təbiətinə vurğun qəlbin səsi, keçmişinə hörmət bu əsərlərdə əsasdır.

Istedadlı şair, publisist Qulu Ağsəs ilk əsərlərini Qulu Zeynalov, Qulu Baxış imzaları ilə yazmışdır. İlk şeirini 1978-ci ildə yazmışdır. Böyük ədəbiyyata 1990-cı ildə «Ulduz» jurnalında çap olunan şeirləri ilə gəlib. Şeirləri Türk, Rus, özbək, gürcü, ukrayna, polyak dillərinə tərcümə edilib. «Sənsən hər yer», «Külək poçtdu», «Nabran novellası» və «Nöqtələr» kitablarının müəllifidir

Xeybər Göyyallı 80-ci illər ədəbi mühitində tanınmış şairlərimizdəndir. Prinsipial jurnalist, şair Xeybər Göyyallının ilk şeirləri «Ulduz», «Gənclik» jurnallarında dərc olunmuşdur, maraqlı, yaddaqalan publisistik yazıların müəllifi kimi də tanınır. «Baba Məmmədov», «İnsan səsi», «İki qardaş əfsanəsi» və s. kitabların müəllifidir.

İslam Sadıq tanınmış qələm sahibidir. «Torpaq səxavəti» (1983), «Leyla bulağı» (1989), «Ağrı, ürəyim ağrı» (1995), Qanlı saz» (2002), «Qanlı çay daşı» (2003), «Yelimə uçan buludlar» (2003) şeirlər və poemalar müəllifi İslam Sadığın maraqlı araşdırmaları, tədqiqat işlərini diqqətəlayiqdir. «Susmaq qızıl» (tarixi publisistika), «Koroğlu kim olub» (monoqrafiya), «Ermənilərin Birinci Pyotrla görüşü»

və s kitabları, müxtəlif qəzet və jurnallarda dərc olunan publisist məqalələri, elmi mülahizələri bu cəhətdən diqqətəlayiqdir.

XX əsr 80-ci illər ədəbi nəslinə mənsub olan Bahar Bərdəli öz qələmini bir çox sahədə sınayıb. Yazıçı, şair, publisist, tədqiqatçı alim Bahar Bərdəlinin indiyə kimi ondan çox bədii, elmi kitabları işıq üzü görüb. İlk nəsr toplusu «Qarabağın maralı» adlanır və Qarabağ hadisələrinə həsr edilib. Daha sonra «Gözü yolda qalan var», «Duyğuların səması» povest və hekayələr kitabları da həm Qarabağ münaqişəsinə, Qarabağ müharibəsinə, həm də günümüzün reallıqlarına, cəmiyyətdə gedən ictimai-siyasi proseslərə, problemlərə həsr olunub. Bahar Bərdəlinin poeziyası həyatı əks etdirmək baxımından çox fərqlənir, seçilir. Onun «Bənövşələr açanda», «Qayıtmısan...» adlı şeir kitabları dediklərimizə əyani sübutdur.

B.Bərdəlinin həm nəsr, həm də nəzmlə yazdığı «Ağ kəpənək» və «Çərşənbə tonqalı» kitabları uşaq ədəbiyyatına məxsus maraqlı, dəyərli əsərlərdəndir. Tədqiqatçı alim kimi də çox iş görüb. Filologiya üzrə Fəlsəfə doktoru B.Bərdəlinin bu tədqiqatlarının nəticəsi kimi «Balaş Azəroğlunun yaradıcılıq yolu», «Cənubi Azərbaycan Mühacirət poeziyası», «Müstəqillik illəri Azərbaycan poeziyasında həyat həqiqətləri» kimi monoqrafiyaları da işıq üzü görüb.

Sərvaz Hüseynoğlu Aran bölməsinin sədri, «Ədəbiyyat qəzeti»nin məsul işçisidir. 70-ci illərdən dövrü mətbuatda əsərləri dərc olunur. «Mənə yaxın gəlin» (1991), «Analar bir günəşdir», (1991), «Bayıl türməsi» (1994), «Qarabağda talan var» (1995), «Əzizim keçmə məndən» (1997), «Ana, mən

qəribəm, qərib» (1998) və s. kitablarında toplanan lirik şeirlərində vətən məhəbbəti, torpaq yanğısı, vətəndaş dərdi, qaçqın, köçkün əzabları, sarsıntıları müasir dövrün problemləri bədii əksini tapmışdır. Publisistik yazıları ilə də tanınan Sərvaz istedadlı şairlərimizdəndir.

Kəmalə Nəsrin vətən sevgisi, türkçülük ideyaları, yurd həsrəti kimi zamanın mühüm problemlərini özündə əks etdirən yaradıcılığa malikdir. «Gözləyirəm gündoğanı» şeirlər toplusu maraqlı, yaddaqalan, poetik misralarla zəngindir.

Gənc yaşlarından qəzaya uğramış istedadlı şair Kazım Kədərli 90-cı illərdən yaradıcılığa başlamış, müxtəlif mətbu orqanlarında şeirləri dərc olunmuşdur. Həyat eşqi, vətən sevgisi şeirlərində əsas aparıcı mövzulardır.

«Onlar öz qələmlərini müstəqillik və istiqlal yolunda, ölkəmizin böyük dərdi olan Qarabağ məsələsində, 20 Yanvar-Qara yanvar günlərində alman faşistlərindən daha qəddar və daha amansız olan erməni işğalçıları və s. kimi faciələrlə bağlı şeirlər, poetik nümunələr yaratmaq uğrunda öz qələmlərini silaha çevirmişlər. Xalqımızın başı çəkən faciələr, bu faciənin səbəbkarlarının azğın niyyətləri, hiddətlə, nifrətlə əsərlərdə əsas mövzu olur. Vətənpərvərlik, ana torpağa məhəbbət və sədaqət, cəmiyyətdə baş verən hadisələr artiq yetişməkdə olan istedadlı sənətkarların əsərlərində əksini tapır.

Ədalət Əsgəroğlunun «Sabahını itirməyən adamlar» kitabı uğurlu yaradıcılıq imkanlarının məhsuludur.Kitabda şairin son illərdə yazdığı şeirlər toplanmışdır. Buradakı şerlərin mövzusu xalq yaradıcılığı ruhunda yazılmış vətən, torpaq sevgisinə dünyanın əşrəfi olan insan, onun qarşılaşdığı problemlərə, səadətinə, xoşbəxtliyinə, dünyanın qayğılarına həsr olunmuşdur.

Ədalət Əsgəroğlunun şeirlərindəki Qarabağ, Şuşa, Laçın həsrəti özünün dediyi kimi «sinəsində qızılgüllər açılan döyüşçü ola bilmə»yən, «taleyin dərddən ağır qapılarına çırpıl»an, «ağ günlər şairi ola bilmə»yən bir vətəndaş şairin acılarındadır:

Ay haray, qaçın gəlir,
Yolları açın gəlir.
Şuşa dağımın üstə
Dağ boyda Laçın gəlir.

«Qarabağlı partizan qız» şeirində əsir düşmüş vətənpərvər azərbaycanlı qızının mərdliyini, qətiyyətini, qeyrətini, ölümdən qorxmadığını:

Həbsxanada da
hamıdan xoşbəxt yaşamaq olar
bir gün azad olacaqsa Vətən.

-dediyi misralarda ümumiləşdirir

Ədalət Əsgəroğlunun «Dərdimizin qan rəngi» poeması Xocalıya həsr edilsə də, Vaqif Yusifli demişkən «hədəf daha genişdir. Buradan son 20 ilin Azərbaycan məmləkəti Dərdimizin qan rəngi obrazında metaforikləşib. Qan burada Xocalıdan bütün dünyaya yayılan fəryadın, ahın, kədərin simvoludur. Qan burada tarixdir-bir məmləkətin təklənməsi, səsinin, fəryadının boğulması, öz içində qərq olmasıdır, Ədalət Əsgəroğlunun qan kəlməsinin doğurduğu bütün mənalara, metaforik çalarlara üz tutur».

.... nə əcəb,
Dərd deyirlər buna?
Yox, oğlum, dərd deyil bu!
Bu, müqəddəs bir can!
Ortalıqda dumduru qan,
Axır.... axır... axıracan
Qan boyalı villalardan

Cana doymuş çadıracan...

Özünəməxsus üslubu, təkrarsız poetik dili olan Hüseyn Kürdoğlunun şeirlərində aparıcı mövzu vətənpərvərlikdir.

Ay aman, gözümdən könlümdən yenə,
Qarabağ, Qarabağ, Qarabağ keçir!
Ziyarət, İşıqlı, Qırxqız, Mıxtökən,
Gözəl Gəmiqaya, Dəlidağ keçir.

Hər misrasında Həkəri, Dəlidağ, Qarabağ, Ağbulaq yaşayan şair köksündə Qaçaq Nəbi, Soltan bəy nərə çəkən dağlarının, qayalı-daşlı Laçının düşmən əlində əsir olmasına dözmürdü və dözmədiyindən əridi, getdi. Ruhu o yerlərdə dolaşan, gözü dünyadan vətən həsrəti ilə bağlanan şairin «Gözümdən, könlümdən Qarabağ keçir», «Yenilməyən bir bayrağa döndünüz», «Vətən dərdi sönməz olur», «Çıxaydım Laçında İşıqlı dağa», «Uca dağlar kimi ağardı başım»... kimi şeirlərində uca dağlar kimi «başı ağaran» şair:

Dərd boyamış dağlar kimi başım ağ,
Ömür keçdi, həm yazım, həm qışım ağ,
Yaraşarmı miskin ömrü daşımaq,
O diyarın, o torpağın oğluna?

-sorur. Bu sorumda sınaq, bu sorumda döyüşə çağırış, düşmənə nifrət, kin, qəzəb yaşayır. Dağların sinəsində yatan şəhidlərimizin «gur-məşələ» «şam-çırağa» dönməsi, onların ümidlərinin bir gün çin olacağına inam, Azadlığa dastan olmuş adlarının hər kitabda «min varağa» çevriləcəyinə və onların arzularını gerçəkləşdirəcəklərinə inam əsasdır:

Tanıdarıq qaniçənə həddini,
Uçurdarıq mənəmliyin səddini,
Qoy xalqımız düzəltsin öz qəddini,
Yenilməyən bir bayrağa döndünüz!

Akif Səmədin «Qiblə yelləri» (1992), «Uzaqlardan gəlirik» (1994), «Adəmdən» (1995), «Özümə yol» (1996) kitabları müstəqqilk dövründə az ömür yaşamış şairin bədii yaradıcılığının dəyərli inciləridir.

Vaqif Cəbrayılzadə istedadlı şairdir. «Tənha ulduz altında», «Unudulacaq bütün sevdalar», «Ölənəcən sevmək azdır» və s. kitablarında toplanan şeirlərində orijinal üslubu, poetik deyim tərzi ilə seçilir. Gənc yaşlarından poeziya aləmində tanınmış şair Ümumittifaq konfranslarda, sovet ədəbiyyatı günlərində, XI poeziya festivalında iştirak etmiş, müxtəlif mükafatlarla təltif olunmuşdur. Moskvanın «Molodaya qvardiya» nəşriyyatının kütləvi tirajla buraxdığı «Sıçrayış» kitabına görə Gürcüstan Nazirlər Sovetinin V.Mayakovski mükafatına layiq görülən şairin yaradıcılığı tənqidçilərimiz tərəfindən təhlil və tədqiq edilmişdir. Onlar fikirlərində haqlıdırlar ki, V.Cəbrayılzadənin «sözünü bir kimsə deyəmmir. Əvvəl-əvvəl onu çoxları dərk edəmmədi, bəziləri onun misralarından seçib-sonalayıb ənənəvi şeirə, şablon şeirə qəvi düşmən kimi təqdim etsələr də, faydası olmadı. İllər keçdi, sənələr ötdü və Vaqif Cəbrayılzadə Azərbaycan şeirində kimsənin təkrar edə bilməyəcəyi fərdi üslubunu yaratdı. Bu üslubda doğma türk şeirimizin səsləri, sözləri, ifadələri, metaforaları ayrı bir ahəngdə çiçəkləməyə başladı».

Azərbaycan şeirində hərbi vətənpərvərlik mövzusu ayrıca bir mövzudur. Zəminə Xınalı ömrünü hərbçi vətən oğulları ilə keçirən, onlar üçün gözəl marşlar yazan, hərbi vətənpərvərlik üzərində yaradıcılığını quran şairdir. Bakı Ali Hərbi Dənizçilik məktəbində hərbi jurnalistika şöbəsini bitirib. Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbində qulluqçu, onun nəzdindəki Heydər Əliyev muzeyinin direktoru, «Azərbaycan ordusu» qəzetinin müxbiri-

dir. Ədəbi fəaliyyətə 80-ci illərdən başlamış, hərbi marşlarına musiqi bəstələnmiş şairənin «Mənim əsgər qardaşım, «Yarı yolda qalan ömür», «Üç qardaş, üç pəhləvan», «Müqəddəs zirvə», «20 Yanvar ümumxalq matəm günüdür», «Tanrı sevgisiylə döyünən ürək», «Hər şeydən əvvəl Vətəndir» və s. kitabların müəllifidir.

Nəsrdə yaranan əsərlər dövrün ədəbiyyatşünaslarının, oxucu kütləsinin diqqətini özünə cəlb etdi: «müstəqillik dövrünün nəsr əsərlərinə diqqət yetirsək, bir sıra yeni, orijinal, istər forma və istərsə də məzmun baxımından yeni, novatorcasına yazılmış nümunələrə rast gəlmək olar. Müstəqillik hazırda yaradıcı şəxsiyyətin-şair, nasir, rəssam, dramaturq, bəstəkar və s. yaradıcılığına azadlıq, sərbəstlik, necə deyərlər, sonsuz yaradıcılıq səmasında möhkəm qanadlar bəxş etmişdir. İndi bizim bədii nəsrimizdə fərdin, şəxsiyyətin mənəvi dünyasına, sirli-soraqlı qəlb aləminə uğurlu bir açar tapılmışdır...»

«Ölüləri qəbirstanlıqda basdırın», Ə.Məmmədxanlının «Babək», Ə.Cəfərzadənin «Bəla», «Bir əsrin faciəsi», «Gülüstandan öncə», «Zərintac Tahirə», Yusif Səmədoğlunun «Qətl günü», Ç.Hüseynovun M.F. Axundovun həyatından bəhs edən «Fətəli Fəthi», Fikrət Qocanın «Hələlik, qiyamətəcən», Elçinin «Mahmud və Məryəm», V.Babanlının «Ömürlük əzab», M. İbrahimbəyovun «Dənizdə qasırğa», Ə.Əmirlinin «Meydan» romanları, S.Avşarlının «Gavur», Anarın «Ağ qoç, qara qoç», Kamil Əfsəroğlunun «Hamam hamam içində», G.Pənahın «Ümidinə qəm çilənənlər», «Tanrının unutduğu xocalılar», Elçin Hüseynbəylinin «Əsirlər», Məmməd Orucun povestləri, Natəvan Dəmirçioğlunun povestləri, Mahirə Abdullanın povestləri, Əlibala Hacıza-

dənin povestləri, Bahar Bərdəlinin povestləri, Yüsif Kərimovun povestləri yaranmışdır.

Nəsrimizin bu janrı da müstəqillik dövründə öz inkişafında idi. Ən yaxşı roman və povestlərlə yanaşı, zəif ideya-məzmun, süjet zəifliyi olan əsərlər də az deyildi. Bununla belə, bir halda ki, zamanın belə çətin dövrlərində özünü ədəbiyyata sərf edən ziyalılarımızın əsas məqsədi ədəbiyyatın inkişafına kömək etmək idi, dilimiz, yaşadığımız dövrün tarixi hadisələrini, qələm almaq nöqteyi-nəzərindən əhəmiyyətini dana bilmərik. Hər dövr öz ədəbiyyatını yaradır və bu dövrün ictimai-siyasi, iqtisadi, mədəni prosesləri, tarixi hadisələrini özündə yaşadır. 90-cı illərin yanvar hadisələrindən başlayaraq, bədii nəsrin ən aktual, janrı olan hekayələr, novellalar, mənsur şeirlər, bədii replikalar, miniatürlərin xeyli gücləndiyi, bunlarda çox haqlı olaraq 20 Yanvar hadisələri, Qarabağ müharibəsi, ölkəmizin müasir və aktual problemləri qələmə alındığı, bu cəhətdən «Azərbaycan» jurnalının, «Ədəbiyyat qəzeti»nin səhifələrin-də dərc olunan Elçinin «Sarı gəlin», «Araba», «Qarabağ şikəstəsi», G.Pənahın «Nunuş», «Arsız» hekayələri, «Tanrının unutduğu Xocalılar» povesti, Mübariz Cəfərlinin, Bahar Bərdəlinin, Meyxoş Abdullayevin və başqalarını əsərləri tənqidçilərin dəyər verdiyi əsərlərdir.

60-cı illərdən ədəbi fəaliyyətə başlayan İnqilab Xan Rəvanın «Məhəbbət yanğısı» (roman), «Qandal Kənan» (roman), «Qan içində həyat» (epopeya), «Xan Araz» (epopeya), «Bir gecənin romantikası» (povest), «Yanan qəlbin işığı», «Puç olmuş arzular», «Taleyin göz yaşı» kimi 20-dən çox roman, povest və digər janrlarda yazılmış əsərlərində torpaq sevgisi, millət, xalq taleyi, başı müsibətlər çəkən, yurdundan didərgin düşən soydaşlarımızın taleyi, çəkdiyi mənəvi əzabları bədii əsərlərinin mövzusuna çevrilmişdir.

60-cı illərdən yaradıcılığa başlayan Əmir Mustafayev «Zolaqlı çamadan», «Qızıl ulduzlar», «Qırovçayın payız nəğməsi», «İsti külək» (roman), «Qara zolaq» (roman), «Sevirsə, qayıdacaq» (roman), «Səndən ötrü» (roman), «Gecə zəngi» (roman və povestləri), «Qurd ürəyi» və s. 20-yə qədər kitablarında toplanmış əsərləri geniş oxucu kütləsinin çox sevdiyi, maraqla oxuduğu əsərlərdir.

Onunla bir dövrdə ədəbiyyata gəlmiş Fərman Kərimzadənin «Ömrümüz-günümüz», «Qarlı aşırım», «Xudafərin körpüsü», «Çaldıran döyüşü», Fərman Eyvazlının «Mən niyə qayıtmadım» kitabında toplanan hekayələri, «Qaçaq Nəbi» əsəri, Hidayət Orucovun şeir və poemaları («Məni səsləyəndə», «Məhəbbət qocalmır», «Dənizi harayladım», «Zirvə cığırı», «Qaynaq», «Doxsanıncı illər» və s. kitablarında toplanmış şeir və poemaları, nəsr və dram əsərləri («İrəvanda xalq qalmadı», «Sabaha çox var», «Sözün vaxtı və s.), Hüseyn Kürdoğlunun «Səhər nəğmələri», «Yurdumu gəzə-gəzə», «Qaya çiçəkləri», «Doğma diyarım», «Çiçək təbəssümü», «Ata yurdum», «Dördtelli durnam», «Bu dünya bir karvan yolu», «Min bir bayatı» və s. kitablarında toplanan əsərləri, Xeyrəddin Qocanın «Filankəslər», «Hərə öz payını götürsün», «Marallar», «Gərək yazam», «Bu dünyadan məktublar» satira və yumor toplusu, İbrahim Göyçaylının «Dağlar qoynunda», «Gözlərinin işığında», «Qoymayın qızları kədərlənməyə», «Uzaq haraylara isinmir ürək», «Ümiddən uzun gecə», «Yaşadığım bu dünya» və s. kitabları, Qaçay Köçərlinin «Tək çinar», «Günəş ömrü», «Dünya sənə oxşayır, ana», «Torpaq qərib olmur», «Qanlı hekayələr» və s kitabları, Qərib Mehdinin «İşıq», «Rast»,

«Müsabiqə», «Çinar gün», «Səndən sonra», «Xatırlanmaq xoşbəxtliyi», «Qəhqəhə» və s. kitablarında toplanmış romanları, povestləri, xatirələri, Mahmud İsmayılovun «Ağ yapıncı» (tarixi roman), «Şəki» (tarixi oçerk), «Xaqani» (tarixi roman), «El üçün yan» (tarixi roman), «İki od arasında» (tarixi roman), «Qara Yusif» (tarixi roman) və s. kitabları, Manaf Süleymanovun «Yerin sirri», «Fırtına», «Zirvələrdə», «Neft milyonçusu» və s. kitabları, Məmməd Alimin «Ürəyimin şəkli», «Oxuyan qarğılar», «Bağışlamaz vətən bizi», «Yuva gördüm söz içində», «Ölüm sevgidən sonradır», H.Mirələmovun «Xəcalət» əsəri və s. kitabları müasir Azərbaycan ədəbiyyatının zəngin məxəzlərindəndir.

Yumoristik hekayələri ilə Tural Anaroğlunun yaradıcılığı diqqəti cəlb edir. Müasir həyatımızın elə məqamları vardır ki, gülüş doğurmaya bilmir. «Türkiyədən məktub», «Xəstəxana», «İsveç masası» hekayələri və digər yumoristik hekayələri istedadlı bir gəncin ədəbiyyata gəlişindən xəbər verirdi. Artıq oxucularımız çoxdandır onun imzasını «Azərbaycan», «Ulduz» jurnallarından, «Ədəbiyyat qəzeti»ndən, «525-ci qəzet» və s. mətbu orqanlardan tanıyır. Bu hekayələrdə Mir Cəlal, Seyfəddin Dağlı, Haqverdiyev yumoru duyulur. Bəziləri onda Bulqakova, Mirzə Cəlilə də oxşarlıq görür. «Tənha mələk» hekayələr toplusu istedadlı bir gənc nasirin yetişdiyindən xəbər verir.

Rəşad Məcid Azərbaycan ədəbiyyatına öz dəst-xəttilə gəlib. Özünəməxsus orijinal yaradıcılıq qabiliyyətinə məxsus insandır. İstər nəzm, istər nəsr əsərləri, istərsə də bədii publisist yazıları olsun, onlarda bir mövzu əsasdır; milli duyğulara, milli kökə bağlılıq. Elə bu bağlılıqda onun yaratdığı əsərlərin bədii dəyərini, bəşəriliyini görürük. Milli-mənəvi dəyərlərə hörmət prinsipləri üzərində köklənən əsərlərdə

bəşərilik də, zəngin məzmun da, ideya da var. Rəşad Məcid bu cəhətdən gənc qələm dostlarına örnək ola bilər.

R.Məcidin «10 sentyabr» kitabında toplanan bədii əsərlərindən nümunələr bu cəhətdən diqqətdən yayınmır. Burada hadisələrə nə yazıçı münasibətini, nə əsərin ideyasına bir açıqlama, nə də zərrə qədər yazıçı müdaxiləsini görürük. Burada dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq insan taleyi, güzəranı, sosial məişət qayğıları, bir ölkə daxilində sosializmin dağılması, iqtisadiyyata dəyən zərbənin ağırlığının yaşayışa təsiri, gərgin psixoloji vəziyyət, qayğı və ehtiyacın insan mənəviyyatına dolayısı təsiri və bununla belə insanlığın qorunub saxlanması zamanın məhək daşına çırpılan başların ağrısı, düşüncələrin acısı əsasdır.

Səlim Babullaoğlunun şeir və esseləri oxucularımıza yaxşı tanışdır. Dünya ədəbiyyatını Azərbaycan oxucularına tanıtmaq sahəsində uğurlu fəaliyyəti ilə də tanınıb. «Dünya ədəbiyyatı» jurnalının baş redaktoru S.Babullaoğlunun orijinal yaradıcılıq üslubu var. Esseləri, şeirləri mövzuca rəngarəngdir. Onun böyük şair dünyası var. «Ad günündə dostlarıma» şeiri bir növ oxucularına özü haqqında ünvanlanmış misralarıdır. Oxucuları da onun dostudur. Hansısa şair öz hisslərini dostlarına misralarla ünvanlayırsa bu onun qəlbinin genişliyi, oxucu, dost yad qarşısında bir insan kimi hesabatıdır:

Ömür vəfa qılsa yazacam, bilin.
Bu günün, sabahın nəğməsini mən.
Məni öz içimdə axtarın bir az,
Bir gün öz içimdə azacam bilin.

Etiraflar, könül açıqlığı içində bu günün, sabahın nəğməsini yazacaq şairin-insanlarla həmdəm olacaq şairin istəyi, arzusu aydın sabahlar, insanların bir-birinə etiramını, məhəbbətini görməkdir. Onu incidən, küsdürən məsələlər var. Oğlunun ünvanladığı suallara tapılmayan cavabı var!

-Onlar neynirlər, Ata?

-Daş yığırlar, balası.

-Niyə?

-Bir-birinə atacaqlar.

-Niyə?

-Düşməndirlər.

-Niyə?

-Bir-birini sevmirlər.

-Niyə?

-……

Səlim üçün şeir ananın oxuduğu «laylaya bənzəyir».

Onun qəlbində Allah böyüklüyü var, böyükləri duymaq var. Dünya o zaman cənnətə dönər ki, Böyük yeri bilinər, Allah yeri bilinər.

Şair üçün dünya, həyat hər şeydən yüksəkdir. «Böyük romanlar yazmaq iddiasındaykən pəncərə»sinə qonan bir quşcuğaz onda bu həyata sevginin odunu şölələndirdi. Bir qanadlı quşun pəncərəsinə qonub onda yaratdığı həyat eşqi «nə şeirə sığdı, nə romana».

Səlim Babullaoğlu yaradıcılığa tələbəlik illərindən başlayıb. Ilk yazısı «İşıq» qəzetində çap olunub. İlk kitabı «Tənha»dır. Şeir kitabları-«Tənha» (Bakı, 1996), «İyunda oxunan nəğmələr» (İstanbul, Türkiyə, 2006), «Ürək döyüntüsünə ithaf»

(Vroslav, Polşa, 2007), «On», E.Zalla birlikdə (Bakı, 2008), «Küləyə qarşı gedən qadın» (Təbriz, İran, 2009), «Kapellhausda bir axşam». E.Zal və E.Hüseynbəyli ilə birlikdə (Bakı, 2009), «İlyas Göçmənin şəkil dəftəri» (Bakı, 2009), «Maskalı adamların himni» (Kiyev, Ukrayna, 2009), «Qarın şərhi» (Tiflis, Gürcüstan, 2010). Şerləri rus, ingilis, 2007-ci ildə Polşada polyak, özbək, gürcü dillərinə çevrilmiş və çap olunmuşdur.

Onun tərcüməsində B.Pasternak, Z.Herbert, Ç.Miloş, O.Vəli, F.H.Dağlarca və İ.Brodskinin şeir kitabları işıq üzü görüb. «Nar budağı», «Kitab-2003», «Kitab-2004» milli ədəbiyyat mükafatlarına, Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyinin 2002-ci il üçün müəyyənləşdirdiyi «İlin ən yaxşı tərcüməçisi», İLESAM-ın (Ankara) təsis etdiyi M.Füzuli adına Beynəlxalq Poeziya Mükafatına, Türkiyənin məşhur «Sali» art-foto qrupunun mükafatına, Qırğızıstan Qızıl qələm mükafatına və digər ödüllərə layiq görülmüşdür.

Xanəmir 90-cı illərdən yaradıcılığa başlamış istedadlı gənclərimizdən biridir. Türkiyə, Azərbaycan mətbu orqanlarında şeirləri dərc olunmuşdur. «Gül soyuğu» kitabının müəllifidir. «Gənc aydınlar» jurnalının baş redaktoru (1998) olmuşdur.

Azad Qaradərəlinin yaradıcılığında onun hekayələri («Dostlar», «Alma ağacı, «Barmaq», «Çillə nağıl»ı) uğurlu nağıllar kimi qəbul edilir. Onun «Alma ağacı» hekayəsindəki «ilıq yumor» ədəbiyyatşünasların diqqətindən yayınmayıb.

Ədəbiyyatşünaslar Orxan Fikrətoğlunun silsilə hekayələrini qiymətləndirirlər. Onun «Cangüdən», «Milçək», «Dünya haqqında bir nağıl», «Qapı», «Durnalardan», «Ki-

şi», «Toy», «Alməmməd kişi», «İthaf» və s. əsərlərindən oxucunun diqqətini cəlb edən məqamlara toxunurlar, bu da «yazıçının dilin emosional-ekspressiv imkanlarından məharətlə faydalanması, lirik-psixoloji məqamların bolluğu, şeiriyyəti»dir.

Allahverdi Eminov, ədəbiyyatşünas, tənqidçi, alim kimi 60-cı illərdən dövri mətbuatda çıxış edir. Elmi fantastik janrın nəzəri problemləri, yaradıcılıq psixologiyası ilə məşğul olur. «Payıza qədər» (esselər), «Sarı çiçək» (fantastik povestlər), «Yuxuda dirilən adam» (roman), «Boz itin ölümü» (hekayələr) və s. bədii kitabları ilə yanaşı «Pedaqogika», «Gördüklərim, yazdıqlarım, unutduqlarım», «Sözdən saray tikən şair» kimi onlarla elmi, publisist kitabların da müəllifidir.

Müstəqillik dövrünün tənqidi və ədəbiyyatşünaslığı özündən əvvəlki dövrlərdə yaranmış «ən yaxşı, ən mütərəqqi, novator ənənələrinə» əsaslanarq müəyyən bir mərhələyə çatmışdır. «Tənqid və ədəbiyyatşünaslıq həmin illərdə də milli müstəqilliyimizin inkişafı, onun humanitar sahələrdə də bərqərar olması üçün çox işlər görmüşdür. Tənqid və ədəbiyyatşünaslıq ədəbiyyat tarixi, müasir ədəbi proses, müasirlik, yenilik, bir sözlə, elmi-nəzəri fikrin əhatə dairəsini genişləndirmək üçün bu dövrdə yaranan və düşünmək, nəzəri mülahizələr yürütmək üçün xeyli material verən poeziya, nəsr, dramaturji nümunələr əsasında mühüm problemlər qaldıraraq onları günün tələbləri baxımından həll etməyə xüsusi diqqət yetirmişdir» (C.Abdullayev).

Bu dövrdə bir sıra alimlərimiz, gənc tənqidçilərimiz klassik və çağdaş ədəbiyyatımızın inkişafında mühüm rol oynayan sənətkarlarımız yaradıcılığını geniş şəkildə təhlil və tədqiqatını verən monoqrafiyalar yazır, ədəbi-tənqidi məqalələr nəşr etdirir, onlarca bədii əsərləri, gənc yazarların yaradıcılığını izləyir, ədəbiyyatımızın zənginləşməsinə xidmət edən ədəbi dəyərləri üzə çıxarır. «Azərbaycan mühacirət ədəbiyyatı» (1991), «Ədəbi-nəzəri fikir iki əsrin qovşağında» (2001), «Milli-mənəvi dəyərlər və ədəbi-bədii irs» (2001), klassik tənqidçilər haqqında N.Qurbanovun «H.Zeynallının ədəbi-tənqidi görüşləri» (1989), T.Əlişanoğlunun «Yaşar Qarayevin şəxsiyyəti və ömür yolu» (1996), X.Quliyevanın «Azərbaycan estetik fikri və C.Cəfərov», G. Pənahın «Alim, vətəndaş E.Əlibəyzadə-80» (2005), «Tədqiqatçı alim, folklorşünas Rüstəm Rüstəmzadə» (2007) monoqrafiyaları, B.Bərdəlinin «Balaş Azəroğlunun yaradıcılıq yolu», «Cənubi Azərbaycan Mühacirət poeziyası», «Müstəqillik illəri Azərbaycan poeziyasında həyat həqiqətləri» monoqrafiyaları, Sona Xəyalın «Cabir Novruz», «Nigar Rəfibəyli» kitabları, romantik tənqidimizin baniləri haqqında Ş.Vəliyevin «Füyuzat ədəbi məktəbi» (1999) monoqrafiyası, Ə.Hüseynzadənin «Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar» (1996), «Türklər kimdir və kimlərdən ibarətdir?» (1997) əsərləri çap olunur.

M.Ə.Rəsulzadənin vətəndən kənarda mühacirət dövründə yazdığı əsərləri çap olunur və onun özü haqqında monoqrafiyalar (Vaqif Sultanlının «M.Ə.Rəsulzadənin həyatı və ədəbi fəaliyyəti», «Ağır yolun yolçusu» (1996), «Azərbaycan mühacirət ədəbiyyatı», Mühacirət həyatı yaşamış sənətkarlarımızın həyatından, yaradıcılığından bəhs edən B.Nəbiyevin «Azərbaycan ədəbiyyatında qürbət lirikası», «Didərgin şair Almas Yıldırımın yaradıcılıq yolu» (1992) nəşr edilir. Ə.Saləddinin «Əhməd Cavadın yaradıcılıq yolu» (1992), T.Salamoğlunun «Faciəli talelər» (1998), Ş. Həsənovanın «Mühacirət irsimizdən səhifələr» (1995), İ. Ağayevin «Əlabbas Müznib: həyatı, yaradıcılığı, əsərlərin-

dən seçmələr» (2003), XX əsr Azərbaycan ədəbiyyatının klassikləri ilə bağlı müasir ədəbi prosesi özündə əks etdirən monoqrafiyalar (G.Pənahın «Sənətkar və poeziya» (1998), «Fikrət Qocanın yaradıcılıq yolu» (2006), «Fikrət Sadığın poetikası» (2007) «Yazıçı və folklor» (2007), «Mir Cəlalın elmi-nəzəri görüşləri» (2009), «Söhrab Tahir-AzərAzərin lirikası» (2011), S. Əhmədlinin «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» (2013) «Heydər Əliyevin dil siyasəti» (rəsmi sənədlər) kitabı və «Heydər Əliyev və ədəbi-tarixi proses» monoqrafiyaları və s. nəşr olunmuşdur.

Yaranan bu ədəbi-tənqidi, elmi-nəzəri monoqrafiyalar diqqəti çəkir. «Çağdaş tənqid və ədəbi proses: 2004-2007-ci illər» məqaləsində Bəsti Əlibəyli yazır: «Tənqidin bədii mətnə əvvəlki illərdəki fraqmentar, birtərəfli və lokal yanaşması son dövrlərdə nisbətən sistemli, prosessual yanaşma ilə əvəzlənməyə başlayıb. Bu cür fundamental, əhatəli baxış istər ayrı-ayrı yazarlara, istərsə də ədəbiyyatın müxtəlif problemlərinin tədqiqinə münasibətdə özünü göstərir. Nəticədə xeyli monoqrafiyalar, araşdırma kitabları ərsəyə gəlib ki, onlardan bir qisminin adlarını xatırlatmaq istəyirəm: tənqidçi Vaqif Yusiflinin Fikrət Qoca, Musa Yaqub, İltifat Saleh, Cavanşir Yusiflinin Əli Kərim, Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Gülxani Pənahın Anar, Fikrət Qoca, Sona Xəyalın Qabil, Fikrət Qoca, Vaqif Səmədoğlu, Bəsti Əlibəylinin Əli İldırımoğlunun yaradıcılığından bəhs edən monoqrafiyaları, Sabir Bəşirovun «60-cı illər nəsrinin etik problemləri», Əsəd Cahangirin xalq yazıçısı Anar və gənc nasir Günel Anarqızının konkret əsərləri ilə bağlı «Ağ saç-qara saç» kitabları, Təyyar Salamoğlunun «Azərbaycan romanının janr təkamülü-iyirminci əsrin 80-ci illəri» araşdırması elmi-nəzəri səviyyəsi, problemə bələdlik, peşəkarlıq baxımından diqqəti çəkir».

Anarın «Gecə düşüncələri», Elçinin «Ədəbi düşüncələr», K.Abdullanın «Yolun əvvəli və axırı», K.V.Nərimanoğlunun «Mənim Füzulim» və b. əsərləri öz konseptuallıqları ilə seçilir.

Nizami Cəfərovun «Azərbaycan intibahı: problemlər, mülahizələr», «Füzulidən Vaqifə qədər», «Eposdan kitaba», «Azərbaycanşünaslığa giriş», yazıçıların X qurultayında poeziya ilə bağlı məruzəsi, çağdaş poeziyamızın nümayəndələri ilə bağlı tənqidi məqalələri onun milli müstəqillik dövrünün fəal tənqidçilərindən olduğunu göstərir. Ədəbiyyatşünas, tədqiqatçı, dilçi Nizami Cəfərovun Azərbaycan ədəbi prosesinin inkişafında böyük rolu var.

Bununla belə, B.Nəbiyev, Y.Qarayev, K.Abdulla, T. Hüseynoğlu, V.Yusifli, C.Yusifli, N.Şəmsizadə, N.Cəfərov, Ş.Salmanov, Elçin, R.Əliyev, G.Pənah, R.Kamal, A.Əmrahoğlu, Ə.Cahangir, A. Aşırlı, İ. Sadıqın publisistika, ədəbiyyatşünaslıq və ədəbi tənqid sahəsində çoxlu sayda məqalələri müxtəlif qəzet və jurnallarda dərc edilirdi.

Bəkir Nəbiyev tənqidçi, ədəbiyyatşünas kimi müasir dövrümüzün tanınmış akademikidir. Ədəbiyyatşünaslıq elminin və ədəbi-bədii fikrin inkişafındakı xidmətlərinə görə yüksək dəyərləndirilən alimdir. İyirmidən çox kitabın müəllifidir.

Bəkir Nəbiyev Azərbaycan ədəbi prosesinin tədqiqi sahəsində əvəzolunmaz şəxsiyyətdir. Onun nitqi, səsi, dili, orijinal söz ehtiyatı qabiliyyəti, fitri istedadı bütün ədəbiyyatşünaslarımıza, söz xiridarlarımıza tanışdır. Ədəbiyyata gəldiyi 50-ci illərdən başlayaraq ədəbi tənqid sahəsində ədəbi yaradıcılığın vacib problemlərinə aid ən qiymətli fikirlərin, əsərlərin müəllifidir.

O, «F.Köçərli», «Azərbaycan Sovet ədəbiyyatı böyük vətən müharibəsi illərində», «Müasirlik və sənətkarlıq uğrunda», «Süngüyə keçirilmiş qələm», «Ədəbi düşüncələr», «Tənqid və ədəbi proses», «Böyük vətən müharibəsi və sovet ədəbiyyatı», «Təzə izlər sorağında», «Kamalın təntənəsi», «Müasirimiz bədii ədəbiyyatda», «Roman və müasir qəhrəman», «Əhməd Cavad», «Almaz İldırım», «Ölümsüzlüyün sirri» və s. kitabların, bir çox dərsliklərin, yüzlərlə elmi, ədəbi, tənqidi məqalələrin müəllifidir.

Müasir tənqidimizin ən mühim vəzifələrini əsas tutaraq istedadlı alim, tədqiqatçı ədəbiyyatımızın müxtəlif janrları sahəsində geniş elmi-ədəbi axtarışlar aparmış, böyük sənətkarların yaradıcılığını dərindən tədqiq etmiş, onların yaradıcılığında sənət və sənətkarlıq problemlərini araşdırmış, ədəbiyyatşünaslıq baxımından dərin təhlilini vermişdir. O, daima ədəbiyyatın tənqidi ilə məşğul olmuş, dərin elmi zəkaya, söz ehtiyatına malik bir ədəbiyyatşünas kimi şöhrət qazanmışdır.

Adətən, yazıçı, şair, dramaturq yazdığı əsərləriylə şöhrət qazanır, xalq içində tanınır, sevilir. B.Nəbiyev şair, nasir, dramaturq olmasa da, ilahi ona elə bir natiqlik qabiliyyəti, səs tembri bəxş etmişdir ki, böyükdən kiçiyə hər kəs onun nitqinin, zəngin söz ustadı kimi səsinin vurğunudur. O, kürsüyə qalxanda zal sükuta qərq olur. Ədəbiyyatşünaslıq elminə zəngin töhfələr verən Bəkir Nəbiyevin ədəbiyyat, sənətkar, yazıçı və həyat, yazıçı və tarix konteksindən yaradıcılıq fəaliyyəti geniş araşdırılmalıdır.

Hər bir sənətkar, nasir, şair, dramaturqun yaradıcılığı B.Nəbiyev kimi böyük ədəbiyyatşünasların sayəsində geniş ədəbi-elmi-bədii təhlilini almış, Azərbaycan ədəbiyyatının inkişafında rolu, mövqeyi araşdırılmış, əsl bir yazıçı, sənətkar kimi ədəbiyyatımızda tutduğu mövqe müəyyənləşdirilmişdir. Məhz Mir Cəlal, M.Arif, M.Cəfərov, M.Təhmasib, C.Xəndan, K.Talıbzadə, N.Cəfərov, Ş.Salmanov, B.Nəbiyev, C.Abdullayev və s. kimi böyük elm xadimləri Azərbaycan ədəbiyyatının keçmişini, bu gününü müasir inkişaf prosesini tədqiq etmiş, təhlilini vermişlər.

Bəkir Nəbiyev milli ədəbi tənqidin, maarifçiliyin, ədəbiyyatşünaslığın inkişafında ilk addımlarını atan, Azərbaycan ədəbiyyatşünaslığının görkəmli şəxsiyyətlərindən, gözəl simalarından biri olan F.B.Köçərlinin yaradıcılığının elmi-nəzəri təhlilini aparmış, ilk dəfə XX əsrin ilk dövrlərinin bu böyük ədəbiyyatşünasın həyatı, yaradıcılığı haqqında monoqrafiya yazmışdır. F.B.Köçərlinin həyat və yaradıcılığını, maarifçilik fəaliyyətini, ədəbi tənqid sahəsindəki elmi görüşlərini, xalq ədəbiyyatımızın toplanmasında, nəşr edilməsində, milli ədəbiyyat tariximizin yaradılması sahəsindəki elmi fəaliyyətini araşdırmış, tədqiq etmiş, bu böyük sənətkarın elmi-bədii-ədəbi irsinin ədəbiyyatşünaslıq baxımından zəngin, tutarlı faktlarla hərtərəfli təhlil və tədqiqatını vermişdir.

B.Nəbiyev Sovet ədəbiyyatı, onun problemləri ilə yaxından məşğul olan tədqiqatçıdır. «Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı» adlı əsərində o, Böyük Vətən müharibəsi illərində ədəbiyyatın xalqa xidmətini, cəmiyyətlə, xalq həyatı ilə bağlılığını, Azərbaycan şairlə-rinin, yazıçılarının, nasirlərinin qələmi ilə xalqın faşist işğalçıları üzərindəki qələbəsinə xidmət etdiyini, Böyük Vətən müharibəsindən sonrakı illərdə də ədəbiyyatın bu ideyalarla köklə-ndiyini, sovet adamlarının, Azərbaycan oğullarının müharibədə göstərdikləri mərdlikləri tərənnüm etdiklərini, bu əsərlərin insanlarda yaratdığı vətənpərvərlik hisslərinin yüksəldilməsinə xidmət etdiyini izləyir.

O, milli ədəbiyyatşünaslığımızın inkişafına misilsiz xidmətlərini vermişdir. Uzun illər alim bu sahədə çalışmış, qiymətli bir tədqiqat işini üzə çıxartmışdır. Keçmiş SSRİ dövründə SSRİ EA M.Qorki adına Dünya ədəbiyyatı İnstitutunun tərtib etdiyi 6 cildlik «Çoxmillətli sovet ədəbiyyatı tarixi» əsərinin müharibə dövrünə və müasir ədəbiyyata həsr olunmuş cildlərinin də müəlliflərindən biri olmuşdur. Şamil Salmanov yazır: «Buraya onun «Azərbaycan Sovet ədəbiyyatı tarixi» əsərinin yaradılmasında müəllif və redaktorlardan biri kimi iştirakını da əlavə etmiş olsaq, görərik ki, Azərbaycan sovet ədəbiyyatı tarixinin və nəzəriyyəsi problemlərinin tədqiqi Bəkir Nəbiyevin ədəbiyyatşünaslıq fəaliyyətində əsas elmi istiqamətdir. Ədəbiyyatın tarixi inkişaf xüsusiyyətini sosial-ictimai gerçəkliyinin hərəkəti ilə qarşılıqlı əlaqədə təhlil, ədəbi prosesin yüksəliş meyllərinin ümumiləşdirilməsi, bu meyllərin ədəbiyyatın müsbət qəhrəman, şəxsiyyət konsepsiyasında konkret ifadəsinin dürüstlüklə təyini, onun janr, üslub zənginliyini izah etmək Bəkir Nəbiyevin Azərbaycan Sovet ədəbiyyatı tarixi və nəzəriyyəsi məsələlərinə aid tədqiqatlarının təqdirəlayiq məziyyətlərindəndir".

O, ədəbiyyatda hər cür yeniliyi tez görən, onun ədəbiyyatın inkişafına, zənginləşməsinə xidmət edən tərəflərinin təhlilini verərkən orijinallığı, özünəməxsusluğu ilə seçilən alimdir.

Abid Tahirli publisistikanın ən yaxşı nümunələrini yaradan publisist, alimdir.

C.Hacıbəylinin «Hacı Kərim» povesti, «Dədə Qorqud aliliyi», məqalələr toplusu, «Sən həmişə bizimləsən», İ.Əfəndiyev haqqında xatirələr toplusu onun tərtibi ilə nəşr olunmuşdur. «Mühacirətə qədərki dövr», «Azərbaycan mühacirəti» və s. kimi onlarla kitabları nəşr olunmuş, qələ-mini

həm publisistika sahəsində, həm də ədəbiyyatşünaslıq sahəsində sınamış, uğurlu fəaliyyəti ilə tanınan alimdir.

Tənqidçi, ədəbiyyatşünas Aqil Hacıyev «70-ci illərdən rus ədəbiyyatı tarixi və qarşılıqlı ədəbi əlaqələr, türk folkloru problemləri mövzusunda», elmi məqalələri ilə müasir ədəbi prosesin inkişafında ədəbiyyatşünas və tənqidçi kimi tanınır. Əsərləri xarici ölkələrdə çap olunub. Onlarla kitabların müəllifidir.

Tənqidçi, publisist, ədəbiyyatşünas Alxan Bayramoğlu «Mirzə Ələkbər Sabir» (həyatı və əsərləri), «Şamaxıda maarif və maarifçilk (X1X əsrin ortalarından mart, 1918-ci ilə qədərki ədəbi mühit), «Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat», «Qafqaz, imdadına çatar türkün könül nəğmələri» və s. kitabların müəllifidir.

Əsəd Cahangirin ədəbi tənqid sahəsində fəaliyyəti genişdir. Onun Mahmud Kaşğarlının «Divani lüğət-it Türk» əsəri haqqında tədqiqatı orijinal monoqrafik araşdırma kimi dəyərlidir. Ə.Cahangir çağdaş Azərbaycan ədəbiyyatının ədəbi-tənqidi məsələləri barədə çoxlu sayda elmi, ədəbi, bədii, publisistik əsərlərin müəllifidir.

Tənqid göründüyü kimi ürəkaçıcı söz deyil. Tənqidi hər istedadsız, zəif istedad sahibi «həzm» edə bilmir. Amma həqiqət nə qədər acı olsa da, ona zaval yoxdur. Doğru söz demək, doğru sözə çağırış, sənətkara ədəbiyyat aləmində uğurlu, dəyərli əsərlərin müəllifi kimi qalmaq üçün tənqidin sözü mütləq lazımdır. Ədəbi tənqid ədəbiyyatın tərəzi daşıdır. Düzgün çəki, qiymət ədəbiyyata xidmət edəndə dəyərli olur. Əfsuslar olsun ki, bugünkü ədəbiyyat aləmində tənqidçi çox azdır və onların işinə mane olan qüvvələr isə çoxdur. Amma az da olsa tənqid varsa, bu da ədəbiyyatımızın xeyrinədir. Baxmayaraq ki, bu gün hər hansı bir tənqidçi

ədəbiyyatdakı zəif əsərlər, onların nöqsanlarını deyən tənqidçini ya sevmir, ya ona qarşı qərəzli yol tutur, onun nüfuzdan salmaq üçün öz əlindəki imkanlarından istifadə edir. Onu «susdurmaq» üçün «planlar» qurur və yenə də deyirəm ki, təəssüflər olsun ki, bir çox hörmətli tənqidçi alimlərimizin şair, nasir, dramaturqlarımız müəyyən kiçik detallara irad tutmasına dözmür, hansı ki ona tənqidçi münasibətini bildirib-özünə qarşı qərəzçi münasibət kimi qəbul edir, qəzet və jurnal səhifələrində «hücuma» keçir. Bunları oxucu açıq-aydın görür.

Əsəd Cahangir yaxşı əsərə, qüdrətli sənətkara da ədəbi tənqidin gözüylə yanaşan cəsarətli tənqidçidir. Onun «Ağ saç, qara saç» əsərinə ön söz yazan prinsipial, yetərincə ədəbiyyat aləmində tanınmış ədəbiyyatşünas alim, tənqidçi A.Əmrahoğlunun bu fikrinə hamımız şərik olmalıyıq ki, «Əsəd ədəbi prosesin faktına çevrilmiş nümunələrlə, başqa sözlə, yazılıb çap olunmuş əsərlərlə işləyir. Onun yazılarında qiymətləndirmə təhlili əvəz etmir, daha doğrusu, o, müraciət etdiyi əsərin, sənətkarın ədəbiyyat tarixindəki və ya müasir ədəbi prosesdəki yerini, rolunu, əhəmiyyətini, klassik, dahi və s. olub-olmamasını müəyyənləşdirmək kimi perspektivsiz zəhmətə qatlaşmır. Qiymətləndirmə ixtiyari və ya qeyri-ixtiyari seçim prosesində, yazı fakta çevrilənə qədərki mərhələdə təzahür edir. Əsədə xas qiymətləndirməsiz təhlilin nümunəsini onun bu kitabına toplanmış əsərlərində də görmək mümkündür».

Əsəd Cahangir Kaşğarlı «Divanı»nın ən ləyaqətli araşdırıcılarından biridir, yaxşı tədqiqatçı və tənqidçidir.

Anarın «Ağ qoç, qara qoç» əsəri Azərbaycan nəsri tarixində sanballı, xüsusi çəkiyə malik bir əsər kimi dəyərləndirilmişdir. Bu əsər mənim də bir oxucu kimi diqqətimi cəlb etmiş, bir neçə il əvvəl «525-ci qəzet»də bu əsər haqqında düşüncələrimi oxucularla bölüşmüşəm (G.P). Vaqif Sulltanlı da əsərin təhlilini aparmış, «Ağ qoç, qara qoç» əsərində «son illərdə siyasi-iqtisadi böhranların insanların ruhunda, mənəviyyatında, zehnində yaratdığı yadlaşma, özgələşmə duyğusu»nun «yüksək sənətkarlıqla ifadəsini» tapmış olduğunu söyləmiş və bu əsərdə C.Məmmədquluzadənin «Anamın kitabı» faciəsinin «ideya-estetik ruhunun açıq şəkildə duyulduğu», Anarın əsərdə «zəmanəmizin doğurduğu problemləri bütün çılpaqlığı ilə əks etdirə» bildiyini, romanda böyük problemlər qoyulduğunu, bu problemlərin həlli yolunun bədii ifadəsini tapdığını qeyd edir.

Əsəd Cahangirin bu əsər haqqında orijinal düşüncələri diqqətdənqaçılmazdır. Onun dünya ədəbi-bədii, ictimai, fəlsəfi fikir tarixində utopiya və antiutopiya haqqında mülahizələri maraqlıdır. Müraciət etdiyi utopik əsərlərin müəllifləri T.Morun, utopik cəmiyyətin təsvirini verən Platonun, İ.Florskinin dini-teokratik, V.Andredin burjua, A.Komenski və C.C.Russonun pedaqoji, F.Bekonun elmi-texniki, anarxist utopiyalarına münasibət bildirilir və müəllif bu utopiyalar sırasında Anarın utopiyasını «milli utopiya» kimi səciyyələndirir və haqlı olaraq bildirir ki, «bu da bir millət kimi özünüdərk mərhələsini yaşayan, müstəqilliyə çıxan Yeni Azərbaycan vətəndaşının arzu və ideallarına tamamilə uyğundur».

Tənqidçi utopik arzuların reallığı kimi qəbul etdiyi XX əsr sosialist inqilabı haqqında, «yalançı bərabərlik və qardaşlığı» özünün «kredosuna» çevirən proletar inqilabının bir sıra elmi-texniki nailiyyətləri həll etsə də, «utopiyanın ən vacib şərtlərindən birinin-mənəvi-əxlaqi təkmilləşmə problemi» həll edə bilməməsini əksinə, bu problemin kəskinləşməsini, iki dünya müharibəsi yaşamış bəşəriyyətin faciəsini

«inqilablar əsri» kimi tanıdığını qeyd edir. Marks, Lenin ideyalarının iflasa uğradığını, bunun sənətkarların gözündən qaçmadığını, «antiutopik janrın» Y.Zamyatin «Biz», O.Hakslin «Yeni gözəl dünya», C.Oruellin «1984» kimi əsərlərinin ortaya çıxdığını, hər üç romanın «Stalin totalitarizminə, saxta bolşevik ideallarına qarşı kəskin sarkazmla dolu» əsərlər kimi qiymətləndirir və Anarın «Ağ qoç, qara qoç» əsərinin özəlliyini onda görür ki, «dünya utopik və antiutopik ənənəsini sintez edən yazıçı ancaq utopik, yaxud ancaq antiutopik əsər yazmayıb, utopiya və antiutopiyanı paralel zamanlarda mövcud olan məkanlar kimi qələmə alıb. Bunlardan birincisi, şübhəsiz ki, insanın daxili dünyası, arzu və idealları, ikincisi isə onunla daban-dabana zidd olan gerçəklikdir. Əsərdə qarşılaşan utopiya və antiutopiyanın timsalında əslində insanın daxilindəki zaman məkanla «xarici» zaman-məkan qarşılaşdırılır və onlar arasındakı antoqonizm «Ağ qoç, qara qoç»a açıq-aşkar bir faciəvi ton verir...».

Əsəd Mahirə Abdullanın «Qatmaqarışıq nizam» adlı kitabı haqqında yazdığı «Ana bilgiyə varanlar» («Körpü», 2007), «Ağ vərəq göy qələm qismətin oldu» («Ədəbiyyat qəzeti» 2008), «Yaxın gəncliyin nağılı», «Banu Çiçək sən deyilmisən», «Tale başın üstə səma kimidir», («Gənclik» jurnalı), «Hardasa bir qu quşu var», «Drama-truyk» və adını çəkmədiyim yüzlərcə məqalələrin müəllifidir.

Bəsti Əlibəyli tərcümələri, ədəbi-tənqidi məqalələri, şeirləri ilə dövri mətbuatda müntəzəm çıxış edir. «Salam sənin min bir adından biri» şeirlər kitabının müəllifidir. «Onuncu portret» əsərində xalq yazıçısı Anarın 70 illiyi münasibətilə onun ümumi yaradıcılığının, «Durna çırağı» monoqrafiyasında Azərbaycan publisistikası və realist

nəsrinin tanınmış nümayəndəsi yazıçı-jurnalist Əli İldırımoğlunun yaradıcılığının geniş təhlil və tədqiqini verir. «Çağdaş tənqid və ədəbi proses, 2004-2007» məqaləsində ədəbi proseslə bağlı maraqlı tənqidi mülahizələrini oxucularla bölüşür. Onun «İncə günahkarı», «Bizim kimi olmayan adam», «Sönməyən ulduzlar» publisist əsərləri vardır.

Bu gün Azərbaycan ədəbiyyatına istedadlı gənclər gəlir. Artıq öz əsərləri ilə tanınan gənclərimiz var. Gənc Ədiblər Məktəbinin sıralarında birləşən gənclərimizin keçirdikləri dəyirmi masalar, təqdim etdikləri əsərlərin müzakirələri, internet vasitəsilə yayımlanan əsərləri, onların məzmun və ideyaları bu gənclərin gələcəkdə qazan biləcək böyük uğurlarından xəbər verir. Onlardan Xəyal Rza, Fərid Hüseyn, Qismət, Tural İsayev, Aygın Sultanlı, Şəhanə Şükür, Samir, Aqşin, Kəramət, Bünyamin, Cavid, Elvin, Raul, Rasim, Günel, Rəbiqə, Elvin Bakiroğlu, Aysel Əlizadə, Günel Eminli, Nərmin Hüseynzadə kimi onlarla ədəbi mühitdə tanınan gənclərimizin ədəbiyyatımızı zənginləşdirəcəyinə inanırıq. Onların bəlkə də böyük bir qisminin adını çəkmədik. Amma inanırıq ki, gənc ədiblərin ictimaiyyətə təqdim olunacaq əsərləri tənqidçilərin, ədəbiyyatşünasların daim diqqət mərkəzində olub və yenə də olacaq.

Elxan Qaraqanın «A» romanı, Şahanə Şükürün «Gələcəyə açılan yollar», «Böyük ömrün akkordları», Tural İsayevin «Azərbaycan ədəbiyyatında detektiv janr», «999», «Bala pərvanə» adlı kitabında toplanan əsərləri, Cavid Zeynallının «Günəşi gözləyənlər» romanı, Zərdüşt Şəfinin «Başqa adamlar» adla hekayələr toplusu, Pərvinin «Qar yağacaq», «Samir üçün», «Şərq şirniyyatı» hekayələri, Günay Novruzun "Xoxan" kitabında toplanan əsərləri və s. xüsusi maraq doğurur. Xəyal Rzanın şeirləri 16 yaşından mətbuatda

çıxmağa başlamışdır. 1996-cı ildən başlayaraq Xəyal Rza müxtəlif qəzetlərdə müxbir, köşə yazarı, direktor və baş redaktor vəzifələrində çalışmışdır. On beş ildən artıq qələm təcrübəsi olan Xəyal Rza 5 kitab müəllifidir.

«Ulduz» jurnalının hər bir nömrəsində istedadlı gənc yazarlarımızın əsərlərini oxuyanda ədəbiyyatımızın nikbin sabahını görürük. Azərbaycan ədəbiyyatı bəşər ədəbiyyatının tərkib hissəsidir və həmişə böyük sənətkarları ilə birlikdə sevilib, tanınıb.

Çox yaxşı haldır ki, müstəqillik dövründə dram əsərləri də yaranırdı. Milli azadlıq, müstəqillik əldə etmiş Azərbaycan xalqının apardığı tarixi mübarizə, azadlığını əldə etmiş xalqımızın başına gətirilən müsibətlər, 20 Yanvar faciələri, Xocalı soyqırımı, Qarabağ dərdi, xalqın əzm və iradə qətiyyəti, bu əsərlərin məzmun və ideyasını təşkil edir.

Ə.Əmirlinin «Ağqoyunlular və qaraqoyunlular», Eldar Baxışın «Uzun Həsən», M.Çəmənlinin «Cavad xan», V.Əsədovun «Didərginlər», G.Pənahın «El bir olsa...», «Xocalı, ay Xocalı», R.Səməndərin «Girovlar», N.Hacızadənin «Qisas qiyamətə qalmaz» dram əsərləri yarandı.

Müstəqillik dövründə yaranan dram əsərlərinin çoxu çap oluna bilməsə də, tamaşaya qoyula bilməsə də, az da olsa teatr səhnələrimizə yol tapanlar da olmuşdur. Bu dövrdə tariximizin müxtəlif mərhələlərində milli azadlıq, müstəqillik, torpaq, el-oba, vətən təəssübü ədəbiyyatda əsas mövzu olur. İ.Əfəndiyevin «Hökmdar və qızı», B.Vahabzadənin «Özümüzü kəsən qılınc», N.Həsənzadənin «Pompeyin Qafqaza yürüşü», sosial planda yazılmış dram və komediyalar (M.İbrahimbəyovun «Neft bumu, hamıya gülümsəyir», Elçinin «Ah, Paris, Paris», «Mən sənin dayınam», «Dəlixanadan dəli qaçıb və yaxud mənim sevimli dəlim», H.Orucovun «Bu dünyanın adamları», A.Babayevin «Əlin

cibində olsun», ailə-məişət mövzusunda yazılmış İ.Əfəndiyevin «Ağıllılar və dəlilər», Ə.Əmirlinin «Onun iki qabırğası», «Varlı qadın», B.Vahabzadənin «Rəqabət», M.Haqverdiyevin «Ah, qadınlar, qadınlar» və s.), psixoloji aspektdə yaranan Elçinin «Qatil», F.Mustafanın «Tıxac», «Əqrəb bürcü», K.Abdullanın «Ruh», R.İbrahimbəyovun «İlgək», E.Hüseynbəylinin «Labirint» və s. əsərləri var.

Əldə etdiyimiz müstəqillik bizə imkan verdi ki, böyük sənətkarlarımız kimi Şəhriyarı yazıb-yaradan millətimizin ziyalılarını tanıyaq. Şair, filosof, ədəbiyyatşünas Qulamrza Səbri Təbrizi Təbrizdə doğulub, Təbriz universitetinin fars, ingilis dili və pedaqogika fakültəsində təhsil alıb (1953-1958), İstanbul şəhərində Bəyazid Universitetinin ingilis dili və ədəbiyyatı fakültəsinə magistr (1958) qəbul edilmiş, London Univesitetinin Kinqs kollecində magistrliyi bitirmişdir (1959-1963). London BBS (Bi-Bi-Si) radiostansiyasında Şərq və Orta Asiya üzrə ədəbi və siyasi icmalçı, həm də «Nəzər saatı»nın aparıcısı olmuş, elmi fəaliyyətini davam etdirmiş, «Vilyam Bleykin fikirləri» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. İran İslam inqilabı dövründə Təbrizdə pedaqoji, elmi fəaliyyətini davam etdirən Qulamrza Səbri təqiblərə məruz qalmış, İngiltərəyə qayıtmağa məcbur olmuş, elmi, bədii, pedaqoji fəaliyyətini davam etdirmişdir. Tələbəlik illərindən bədii yaradıcılıqla məşğul olan alimin «elmi-kütləvi məqalələri, şeirləri və müsahibələri ingilis, türk, rumın dillərində də çap olunmuşdur. «Vətən həsrəti», «Mənim iki dünyam», «Fikir dalğaları», «Həyat fəlsəfəsi», «Baxışlar, düşüncələr, arzular», «Sönməz ocaq», «Seçmə şeirlər» kimi onlarla bədii kitabların da müəllifi Qulamrza müəllim Dünya Azərbaycanlıları Konqresinin İsveçin Malmo şəhərində keçirilən Beşinci qurul-

tayının (2001) iştirakçısı olub, həmin ildə (2001) Dünya Azərbaycanlılarının Bakıda keçirilən qurultayında da məruzə etmiş, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədr müavini seçilmişdir. Krım, Balkar, Avrasiya Türk ədəbiyyatları Qurumunun Türk dilinə xidmət ödülünə layiq görülüb.

Türkoloq, publisist Cavad Heyət böyük bir həyat yolu keçib. Təbrizdə doğulub, Tehran universitetinin tibb fakültəsini bitirib. Tələbəlik illərindən tarix və ədəbiyyata maraq göstərib. Tibb sahəsində böyük uğurları ilə yanaşı, tarix, ədəbiyyat, mədəniyyət sahəsində də böyük elmi araşdırmalar müəllifi kimi, tədqiqatçı alim kimi tanınır. «Azərbaycan ədəbiyyat tarixinə bir baxış» (1980), «Azərbaycan şifahi xalq ədəbiyyatı» (1988), «Türklərin tarix və mədəniyyətinə bir baxış» (1993), «Türk dili və ləhcələrinin tarixinə bir baxış» (1987), «İki dilin müqayisəsi» və s. kitabları ilə ədəbiyyatşünaslıq, dilşünaslıq, folklorşünaslıq elminə də dəyərli töhfələrini verən Cavad Heyət ədəbiyyatımızın dostudur.

Nasir, şair, publisist Aqşin Ağkəmərlini tanıyırıq. İlk şeirləri, hekayələri məcmuəsi olan «Dənizdən bir damla», «Söyüd ağacı», «Kibritçi qız» və s. şeir kitabların müəllifidir. M.Müşfiqin «Şəngül-məngül», N.Həsənzadənin «Söyüd ağacı» kitabını Tehranda ərəb əlifbası ilə çap etdirmişdir. «Kimmerlərin tarixi» elmi monoqrafiyası, «Cənubi Azərbaycandakı yer adları» kitabları kütləvi tirajla buraxılıb. 1993-cü ildən «Murov dağı» aylıq ədəbi-tarixi jurnalının təsisçisi və baş redaktorudur» .

Məhəmməd Biriya, Məhəmmədəli Məhmid, Məhi, Məmmədəli Müsəddiq, Məmməd Dadaşzadə, Behruz Həqqi, Bəxtiyar Ərşadi, Əbdülhüseyn Lalə, Əbülfəz Hüseyni, Əli Cavadpur, İrəc Mirzə, Məleykə Turel, Hüseyn Şərqi və b.

Cənubi Azərbaycanın istedadlı qələm sahibləridir. Bu siyahını xeyli artırmaq olar. Onların çoxu AYB-nin üzvüdürlər. Bu gün də AYB-nin Cənub Azərbaycan bölməsi fəaliyyət göstərir. O tayda yaşayan Azərbaycan ədibləri, şairiləri, alimləri ilə əlaqələr genişləndirilir. İstedadlı, gənc şair Sayman Aruz Cənubi Azərbaycan bölməsinin rəhbəridir, bu işdə fəaliyyəti böyükdür.

Azərbaycan dili çox qədim dildir. XI əsrin məşhur azərbaycanlı alimi, şairi Xətib Təbrizi (1030-1108) ərəb filosofu Əbül-üla Məərri ilə görüşündə deyir: «Bir gün məsciddə Əbül-üla Məərri ilə oturmuşdum. İki il qədər vardı ki, vətəndən və dostlardan xəbərim yox idi. Bu zaman təbrizli qonşularımızdan biri məscidə daxil oldu.. Söhbətdən sonra Əbül-üla soruşdu ki, siz hansı dildə danışırdınız? Dedim: «Azərbaycan dilində». Dedi ki, sizin dili anlamıram, amma nə ki, danışmışsınız xatirimdədir». O, danışdıqlarımızın hamısını hərfi-hərfinə təkrar etdi. Mən onun bu hafizəsinə təəccüb etdim». Burada Əbül-ülanın hafizəsindən çox diqqəti çəkən doqquz yüz il əvvəl dilimizin varlığı, bu dilin qədimliyi, bu dildən danışan xalqımızın varlığı, bu dilin mükəmməl bir dil oduğu faktıdır.

Müəyyən tarixi səbəblərə görə Azərbaycan uzun zaman dövlət dili olmamış, elmdə, ədəbiyyatda fars dili üstünlük təşkil etmiş, məcbur olmuş sənətkarlarımız XII-XIII əsrlərədək öz əsərlərini fars dilində yazdığından çoxu dünyada İran ədəbiyyatı nümayəndələri kimi qələmə verilmişdir. Lakin ərəb və fars dilləri Nizami və Xaqani kimi klassikləri onları yetirən Azərbaycan xalqından ayıra bilmədiyi kimi, Azərbaycan dilini də xalq yaddaşından qopara bilməmişdir. Bizə gəlib çatan XIII əsr Azərbaycan şairi Həsənoğlunun azərbaycanca yazılmış oynaq və şux qəzəli bir daha sübut

edir ki, bu dil on illərdə deyil, min illərdə formalaşmış, dərin kökü olan dildir və fars və ərəb dilləri ilə bərabər yaşamış, xalq yaratdığı bayatılarını, lirik nəğmələrini, mahnılarını, zəngin zərb-məsəllərini, atalar sözünü, tapmacalarını, zəngin nağıl və dastanlarını bu dildə yaratmış, yazılı dilimizi də yaşatmışdır. Nizami «Xəmsə»ni farsca yaratsa da, onun poemalarında işlətdiyi doğma Azərbaycan dilinə məxsus sözlər Azərbaycan dilindən yazılı ədəbiyyata keçən sözlərdir. Azərbaycan xalqının fikir və arzuları mənəvi zənginliyi məhz dilimizin o zəngin ifadələri ilə ifadə olunub. Məşhur İran şairi, filosofu, səyyah Nasir Xosrov (1004-1088) Azərbaycan şairi Qətran Təbrizi (1010-1080) haqqında deyir: «Qətran çox gözəl şeirlər yazırdı, ancaq fars dilini yaxşı bilmirdi» fikrini H.Araslı «haqlı» sayır: «Çünki Qətran və onun yolunu davam etdirən, Yaxın Şərqdə xüsusi məktəb halını alan Gəncə və Şirvan şairləri öz milli xüsusiyyətlərini şeirlərində canlandırdıqları zaman onların bədii ifadə tərzləri klassik İran şeirindən fərqlənirdi».

Yeni eranın başlanğıcından VII əsrə qədər Azərbaycan mədəniyyəti müxtəlif inkişaf prosesi keçirmişdir.

Azərbaycan yazıçılarının ən böyük xidmətlərindən biri onların Azərbaycan ədəbi-bədii dilinin inkişafı, cilalanması, yeni dövrün dilinə çevrilməsi sahəsində görülən işlərdəki böyük roludur. Hər xalqın öz ədəbi dili onun inkişafının hərəkətverici qüvvələrindən biridir. Maddi və mənəvi tərəqqisinin mübarizə silahıdır, «geniş kütlələrin tərbiyə vasitəsidir, kütləni qabaqcıl elmi və mədəni nailiyyətlərə qoşan birgə yaradıcılıq, kollektiv fəaliyyət işinin alətidir». Dilimizin inkişafında söz ustadlarının da rolu böyükdür.

Milli dilin saflığı uğrunda mübarizələrimiz keçən XIX əsr-XX əsr dövründə xüsusilə ziyalılarımızın qarşısına qoyduğu vəzifələr olub. Keçən əsrlərdə ərəb-fars mənbəyinə,

türk-osmanlı və rus-Avropa dillərinə meyilli ziyalılarımızın ədəbi dilimizin saflığını korlayanların Mirzə Cəlil («Bizim obrazovannılar», «Papaslar», «Pəkeyi» felyetonlarını, «Anamın kitabı» pyesini yada salaq), Ü.Hacıbəyov, F.Köçərli tərəfindən yetərincə təhlil və tənqidi bizə məlumdur. «Molla Nəsrəddin» jurnalının 1906-cı il 38-ci nömrəsində belə bir şəkil təsvir olunur: Üç nəfər birini yıxıb, hərəsi ağzına bir dil uzadır-birinin üstündə fars dili, ikincisində rus dili, üçüncüsündə ərəb dili, yıxılanın ayağının altına isə «Azərbaycan türkü» sözü yazılıb. Bütöv şəklin altında bu sözlər var: «Ay qardaşlar, mən ki dilsiz xəlq olunmamışam, bu dil-ləri ağzıma soxursuz». Lüzumsuz, alınma sözlərlə ana dilini korlayan, zibilləyən əcnəbi dil faktlarını yerli-yersiz dilimizdə işlətmək dilimizə qarşı bir ögey münasibət olduğunu XX əsr Azərbaycan ədəbiyyatının korifeyləri dərindən anlamış, daima dilimizin incəliklərini qoruyub saxlamağa, zəngin xalq dilinin imkanlarından yararlanmaqla gözəl əsərlər yaratmağa çalışmışlar. Dilçilərimiz, tənqidçilərimiz həmişə dilin gözəlliyi, saflığı uğrunda mübarizə aparmışdır. Bunun məsuliyyətini yaxşı duyan, ana dili varlığını çuğlayan, ana dilli əsərlərin uzunömürlüyü faktdır. N.Nərimanov deyirdi: «Ana dili! Nə qədər rəfiq, nə qədər ali hissiyati-qəlbiyyə oyandıran kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqəti-madəranəsini sənə o dildə bəyan edibdir. Bir dil ki, sən dəxi beşikdə ikən bir lay-lay şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlayıbdır. Bir dil ki, həyat və kainat haqqında ilk əvvəl bu dil sahəsində bir fikir hasil edibsən...! («Həyat», 1906, № 181).

Bu da göstərir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərindən üzübəri yazıçı dili, bədii dil məsələləri həmişə diqqət mərkəzində olmuşdur. Dilin inkişafı, saflığı bədii əsər üzərində araşdırılır. «Bədii əsərin dili üzərində işləyərkən yazıçını fikir və hisslərin təbiiliyi, hadisə və obrazların müəyyən metod əsasında təsviri maraqlandırır».

Azərbaycan yazıçılarının, şairlərinin dil mədəniyyəti müəyyən ənənələrə söykənir. Milli ədəbi dilimiz xalq dilinə son dərəcə yaxındır. M.F.Axundov milli dilimizin inkişafında canlı danışıq dilinin əsas mənbə olduğunu yaradıcılığı ilə sübut etdi. Dilçilər onun «ədəbi dil ilə canlı xalq dili arasındakı uçurumun məhv edilməsinin labüdlüyünü öz yaradıcılığı ilə parlaq şəkildə» isbat etdiyini, yaratdığı komediyaların dili ilə milli ədəbi dilimizin inkişafını təmin etdiyini bildirirlər. Məhz XX əsrin əvvəllərində ədəbi dilin müxtəlif təmayüllər tərəfindən öz milli zəminindən uzaqlaşdırılması təhlükəsi yarananda, Axundovun canlı xalq dili ilə milli dil arasında əlaqələri möhkəmləndirmək ideyalarının üzərini təhlükə alanda C.Məmmədquluzadə bu missiyanı öz üzərinə götürərək «ədəbi bədii dilin, mətbuat dilinin təmizliyi və inkişafı, bədii dil ilə xalq dili arasındakı səddin məhv edilməsi, xalq dili söz və ifadələrinin bədii dildə üstün və aparıcı mövqeyi, dilin sadəliyi, təbiiliyi və təmizliyi uğrunda görkəmli bir jurnalist və yazıçı kimi yorulmadan mübarizə» aparır. Onun bütün əsərlərində, məqalələrində və felyetonlarında, dram əsərlərində dilimizin aktual məsələləri əsas yer tutur.

Əsl sənətkarın, xalq sənətkarının dilə münasibəti yaratdığı əsərin özündə özünü göstərir. Mirzə Cəlil, mollanəsrəddinçilərin ənənələrini sovet dövründə daha geniş şəkildə davam etdirən şairlərimiz, ədiblərimiz S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, M.Müşfiq, M.İbrahimov, M.Hüseyn,

S.Rəhimov, Mir Cəlal, S.Rəhman həm də dilçilərimizin də işini görmüş, yaranmış nəsr və poeziya nümunələrinin dil və sənətkarlıq məsələləri barədə fikirlər söyləmiş, həm yazıçı, şair, həm də filoloq-tənqidçi kimi fəaliyyət göstərmişlər. Hər dövrün öz tənqidçiləri olduğu bir zamanda 30-cular nəslinin «dilçi-tənqidçiləri olmadı. Onlar öz milli ruhu, mübarizlik və döyüşkənliyi ilə gələcəyə yol açdılar. Onlar elə bir qüvvə idilər ki, əslində dilçi-tənqidçi onların önündə kölgədə qalırdı. Ə. Dəmirçizadə kimilər yönünü tarixə tutmaqda düz etmişdilər. O, hələ keçmişi öyrənməli idi ki, gələcəyə nüfuz edə, düz baxa bilsin. Odur ki, yeni əsərlərin ideya-estetik keyfiyyətlərinə hər cəhətdən sənət ustaları özləri baxırdılar» (Q.Kazımov). M.S.Ordubadinin və C.Cabbarlının dilindəki poeziya, C.Cabbarlının dramaturgiya və S.Vurğunun şeir dilindəki yüksəklik, M.İbrahimovun dilindəki əhatəlilik və bədii ümumiləşdirmə qüdrəti, S.Rəhimovun dilinin təbiiliyi və söz tutumu, M.Cəlalın gözəl, incə, mənalı dili, S.Rüstəmin dilindəki sərrastlıq və tribunluq, R.Rzanın dilindəki lirika, satira və müəmmaların sintezi və başqa yazıçı və şairlərimizin dil-üslub xüsusiyyətləri müasir dövrümüzdə araşdırılır, tədqiq edilir.

Onların ənənələrini 60-cılar nəsli də davam etdirdi. Anar, Elçin, İ.Hüseynov, S.Əhmədov, İ. Şıxlı, Q.İlkin, İ.Məlikzadə adını çəkmədiyim 60-cılar nəslinin sözə yanaşmaq, sözdən istifadə etmək yolu vardır və bu onların üslubunu müəyyənləşdirib. Onlar bədii yaradıcılığında dili xalqa sevdirirlər. Dilinə, millətinə sevgisi olmayanın bəşəri duyğuları yaxşı mənada ola bilməz.

X.Rza «Laylam mənim, nərəm mənim» şeirini elə bir şəkildə oxuculara təqdim edir ki, onun təhlilinə ehtiyac qalmır. Bir şeirin içindədir ona məhəbbət də, o şeirin bədii dili-

mizə xidmət imkanları da, o dilin bədiiyət dili də, bu dildə ana laylasıyla göz açan, bu dilin keçib gəldiyi yolu, başı məşəqqətlər çəkən bu dilin ölümsüzlüyu, bu dildə azadlıq ideyaları ilə köhlənib əsrlərlə yadellilərə qarşı vuruşan, dilini, torpağını, xalqını düşünən, mübarizə aparan oğullarını, füsunkar təbiətini, vüqarlı dağlarını, şeir dilini tapan şair:

Mənim dilim məğrur baxmış
Üzərindən gəlib keçmiş
Ürəyini dəlib keçmiş
Oxların qanlı ucuna.
Baş əyməmiş ərəblərin
Qol zoruna,
Dil zoruna
Qılıncına, qırmancına!..
Bax, bu dildə «hücum» deyib
İtaliya dağlarında
Dağ çəkmişdir faşistlərə
Mehdim mənim!
Bax, bu dildə şeir dedi
Səməd Vurğun Moskvada...
Mənim dilim Göy Göl, Xəzər
Mənim dilim Şahdağıdır!
Qoy dilçilər öcəşsinlər,
Yoxdur bəhsə meylim mənim.
Heç bir dildən əskik deyil
Bəşərin dil ağacının
Şah budağı dilim mənim!
Təkcə cümlə deyil, təkcə səs deyil,
Xalqımın gözünün odu, ziyası,
Canı, şah damarı, arteriyası,
Ən böyük mirası sabahkı nəslə!
Zamandan zamana, əsrdən əsrə

Vuruşa yol gələn davalı dilim!
Babək qılıncının davamı dilim!
Kim qoruya bilməyirsə
Öz yurdunu, yuvasını.
Udmasın yurd havasını.
Kim qorumur öz dilini
İtsin mənim gözlərimdən ilim-ilim.
O sahili bu sahillə birləşdirən
Ulu körpüm, qılıncımdır,
Günəşimdir mənim dilim!

Bu sətirlərdəki dilimizin poetik vüsəti könül oxşayır. Məmməd Araz «bu dil hamının başa düşəcəyi, hamının danışmağa qadir ola bilmədiyi yüksək bədii-obrazlı dildir. Bu dili kamil bilirsənsə, demək, qanında Nizami, Füzuli, Sabir qanının zərrələri var. Bu dil küləklərin, suların, səsi çox çətin eşidilən ulduzların belə dilini öyrənməyə qabildir»-deyir.

Nəriman Həsənzadə:

Dil-xalqın verdiyi ən böyük əsər,
Onun qoynu isti, qanı təmizdir.
Adicə «vurğular», ya «işarələr»,
Minillik mənəvi sərvətimizdir.

-misralarında dilimizin böyük imkanlarını, dil-üslüb incəliklərini, fonetik, qrammatik gözəlliklərini, qədimliyini, ululuğunu ümumiləşdirir.

Fikrət Qoca :

Bir xalqam Xəzər sahilində,
Danışıram Odlar dilində-

- misralarında Azərbaycan dili mənasında onun ikinci adını poetikaya gətirir. Azərbaycan dili-Odlar dilinə, onun oynaq, şeiriyyət dilinə məftunluğunu ifadə edir.

Bu misraları artırmaq olar. Hər şair, hər yazıçı, hər sənətkar dilin müsəlləh əsgəri olub, onu qoruyub, onu üfürə-üfürə içib. Sabir Rüstəmxanlı şeir dilinin kamilliyini müəyyən edən bir cəhəti qeyd edir ki, «Əsl şairin poetik əsərləri dil baxımından elə bir səviyyədə olmalıdır ki, onların dəfələrlə yazılıb-pozulduğu, söz üzərində əməliyyat hiss olunmasın, şeir canlı bir varlıq kimi bütöv və göründüyü kimi monolit təsəvvür edilməlidir». Sözə məsuliyyətlə yanaşan sənətkarlarımız sözün bədii qüdrətini, dilimizin bədii söz imkanlarını həmişə yaratdıqları əsərlərdə yaşatmağa çalışıblar.

Nasirlərimizin, dramaturqlarımızın əsərlərinin dili, təsvir dilinin canlılığı, ifadəliliyi, oxucu zövqünə uyğun, təminedicidir.

Anar, Elçin və digər nasirlərimiz bu gün də dil məsələsində məsuliyyətlidirlər.

Anarın «Ağ qoç, qara qoç» əsəri vaxtında, zamanında yazılmış əsərdir. Bu əsəri ilə o, bir zamanlar Azərbaycanın müstəqilliyi, dilinin saflığı uğrunda mübarizə aparan fədakar Cəlil Məmmədquluzadəni xatırladır. Anarın əsərində Mirzə Cəlil ruhu duyulur. Onun «Anamın kitabı» əsərini, «Azərbaycan» məqaləsini göz önünə gətirək. Azərbaycanın müstəqilliyi və dilinin saflığı məsələsini XX əsrin əvvəllərində Mirzə Cəlil necə qoymuşdursa, XXI əsrin əvvəllərində də Anar bu məsələni beləcə qarşıya qoyur. Son onilliklərdə Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdi, dilimiz dövlət dili elan edildi, latın əlifbasına qayıtdıq. Dövlət dil sahəsində xeyli yeniliklər etdi. Lakin Azərbaycan vətəndaşı öz dilindən sosial şəraitini yaxşılaşdırmaq üçün istədiyi kimi yararlana bilmir. Azərbaycanın iqtisadiyyatına xarici dövlətlərin kapital gətirməsi, yeni iş yerlərinin açması, açılan iş yerlərində ingilis dilini bilməyən qabiliyyətli mütəxəssislərin işlə təmin oluna bilməməsi və nəhayət, yenidən bir əcnəbi

dilinin oduna atılmağımız hər bir ziyalını düşündürməlidir. Azərbaycan sahibkarlarına son illərdə yaradılmış imkanlar genişləndirilməlidir. Əgər Azərbaycan öz iqtisadiyyatını müstəqil şəkildə inkişaf etdirib, öz sahibkarlıq qabiliyyətini yüksəklərə qaldıra bilməsə, onun dilini Bakı Sitisindəki dil faciəsi, mənəvi-əxlaqi böhran gözləyir. Anarın «Ağ qoç, qara qoç» əsərində qoyduğu problemlərdən biri də budur:

Bura -mer, Bura -mer
Vuraya səs ver, səs ver.
Görmüsünüzmü triller.
Varmı burda killer?
Lazım deyildir bizə
Marazmatik plebeylər,
Xarizmatik pleyboylar
Biz gəlmişik buraya
Səs verməyə Buraya.

Məlik ayağa durdu. Bəsiydi, bundan artığına dözməyə taqəti qalmamışdı. Yaşılbaş məxluq:

-Hara father, hələ Bura özü çıxacaq.

Məlik masaların arasıyla çıxışa tərəf getdi. Yerlərdən ona söz atırdılar:

-Father hara? Hələ strip-tiz olacaq, lap sənin malındır.

Məlik bir təhər salondan çıxdı…az qala qaça-qaça bu küçədən uzaqlaşdı. Bir neçə küçə ötdü, deyəsən azmışdı. Heç kəs də yoxdu ki, xəbər ala».

Burada Cəlil Məmmədquluzadənin «Ay yazıq Vətən!» «Ax, gözəl Azərbaycan vətənim! Harada qalmısan!» «Bəs sən hardasan, ay biçarə Vətən! Gəlin, gəlin mənə bir yol göstərin!» deyə dərd içində iniltilərini eşidirik.

Hər bir xalqın ədəbi dilinin yaranmasında, inkişafında formalaşmasında bədii ədəbiyyatı yaradan yazıçılar böyük

rol oynayır. Azərbaycan ədəbi dil tarixində bədii ədəbiyyat və onun dili bu ədəbiyyatı yaradanların dəsti-xətti həmişə aparıcı yer tutmuşdur. Dilimiz çox mürəkkəb və çətin yollardan keçib gəlib, bu ümumxalq sərvətini qorumaq, saxlamaq, inkişaf etdirmək ağırlığı ədəbi nəslin üzərinə düşür. «Ədəbiyyatın ilk ünsürü dildir; dil ədəbiyyatın silahı və faktlarla, həyat hadisələri ilə birlikdə onun materialıdır» (M.Qorki).

Dil ədəbi prosesdə yazıçının mövqeyini, xalqımızın mədəni inkişafında rolunu, yerini müəyyənləşdirən amillərdəndir. Məsələn, Vaqif yaradıcılığı başdan-başa hamı üçün başa düşülən xalq üslubunda yazıldığından bizim üçün çox qiymətlidir. Xalq dilinin zənginliyi, rəngarəngliyi «cilalanmış şəkildə» bədii dildə öz əksini tapır. «Bədii dil ədəbi dilin mənzərəsini əks etdirir. Yazıçı dilin potensial imkanlarını üzə çıxarır, onu inkişaf etdirir.

1930-cu illərdən sonra mətbu orqanların sayının artması, ədib və şairlərin böyük tirajlarla əsərlərinin nəşri ədəbi dilin inkişafında yazıçının rolunu artırır. Azərbaycan Yazıçılarının VII qurultayında məruzə və çıxışların demək olar ki, hamısında dil problemləri ön plana çəkilir. Azərbaycan Yazıçılar İttifaqı bu məsələylə bağlı ayrıca plenum çağırmışdır. Bu plenumda (1984, may) poeziya, nəsr, ədəbi tənqid və ədəbiyyatşünaslıq əsərlərinin dili haqqında dörd məruzə dinlənilmiş, bu məruzələrin «mətnləri «Şeirimizin dili» (S.Rüstəmxanlı), «Dramaturgiya dili» (İ.Rəhimli), «Dilin həqiqəti və həqiqətin dili» (N.Cabbarov), «Tənqidçi təfəkkürü və tənqidin dili» (Y.Qarayev) adları ilə «Ədəbiyyat və incəsənət» qəzetinin 1984-cü il 15, 29 iyun və 13 iyul tarixli nömrələrində çap olunmuşdur. Bu məruzələrdə ədəbi-bədii dilimizin ümumi fonunda son dövr ədəbi əsərlərinin, eləcə də tənqidi əsərlərin, ədəbiyyatşünaslıq əsərlərinin dil və

üslub xüsusiyyətləri haqqında ətraflı söhbət açıldı, uğurlu cəhətlər qeyd edildiyi kimi, səhvlər, dilin inkişafına mənfi təsir göstərən cəhətlər də ciddi tənqid edildi. Məruzələr ətrafındakı çıxışlarda da əhəmiyyətli fikirlər söylənildi.

Hələ 20-30-cu illərdə yeni dövrün ədəbi dilini yaratmaq kimi çox böyük bir vəzifə qarşıya qoyulmuşdu. Azərbaycan dili ərəb və fars dillərinin əsrlərdən bəri hakim kəsilmiş məngəsindən xilas edildi, zəngin, saf dilimiz-xalq dilimiz əsasında ədəbi dilimizin möhkəm əsasları yarandı, 40-50-ci illərdə daha da inkişaf etdirildi, dövrün tələbləri səviyyəsinə qaldırıldı. 1960-80-ci illərdə möhkəm milli əsaslar üzərində inkişafı davam etdirildiyindən daha zəngin, gözəl, mənalı oldu. Yazıçılarımız, tənqidçilərimiz, güclü xəlqiliyi, bədiiliyi, xalq ədəbiyyatı dilindən qaynaqlanma hallarını dəstəkləyir. İ.Şıxlı ədəbi dilin taleyində yazıçının rolunu çox həssaslıqla müəyyən edən müasir ədəbi prosesi dil baxımından düzgün qiymətləndirən yazıçıdır. O yazır: «Sözün həqiqi mənasında yazıçı olanlar ədəbi dilin təzələnməsi, zənginləşməsi prosesində ehtiyatla iştirak edirlər... Son onilliklərdə, xüsusilə bəzi gənc qələm sahibləri arasında Azərbaycan ədəbi dilini təzədən təftiş etmək, təzə ədəbi dil yaratmaq təşəbbüslərinə də rast gəlirik. Belələrinin bir qismi, çox təəssüf ki, bu indi də davam edir, ədəbi dili məhəlli sözlərlə zibilləyir, dilin sadəliyi, xəlqiliyi adı altında bəsitliyə gedib çıxır, anadan olduğu kəndin danışıq tərzini, «leksik zənginliyini» bədii dilə gətirmək istəyirlər. Bir sıra yazıçı və xüsusilə ədəbiyyatşünaslarımız, tənqidçilərimiz isə öz intellektual səviyyələrinin yüksəkliyini nümayiş etdirmək məqsədilə lazımsız, anlaşılmaz istilahlarla yazılarını ağırlaşdırırlar. Nəticə etibarilə bu, ədəbi dilimizin korlanmasına səbəb olur».

Çağdaş ədəbi prosesdə dilimizin saflığı uğrunda mübarizə davam edir. Postmodernizmə meyillərdə «ədəbi düşüncə dilini və praktikasını yabançılaşdırmaq» cəhdi pislənir. Həyatımızın hər sahəsində olduğu kimi ədəbi prosesdə də «özünü yeniləşdirmə» prosesinin olması təbii bir hal olsa da, bunun belə «köküdənazma» şəklində qəbulunun yolverilməzliyi diqqətdən yayınmır.

AŞIQ ƏDƏBİYYATI AZƏRBAYCAN ƏDƏBİYYATININ TƏRKİB HİSSƏSİDİR

Dünya ədəbiyyatının ən gözəl inciləri folklor nümunələridir. Folklor geniş bədii təsir gücü, zəngin məzmunu, sənətkarlıq səviyyəsinə görə bir xalqın milli mədəniyyətinin çərçivəsində qalmayıb, ümumdünya mədəniyyətinin tərkib hissəsinə çevrilib. Bu folklor nümunələrimiz bəşər sivilizasiyasının keçib gəldiyi tarixi-ictimai mərhələlərin bədii ifadəsini özündə yaşadır. Folklor yazılı ədəbiyyatın ilk «mayakı»dır. Dünyanı heyrətdə qoyan böyük əsərlər bu folklor nümunələrindən qaynaqlanıb. Şifahi xalq yaradıcılığı poeziyaya xeyli yazılmalı mövzular, bədii material və sənətkarlıq imkanları verib. Dünyanın dahi bədii söz ustadları xalqdan, onun şifahi yaradıcılığından, lirikasından, nağıllarından, əfsanələrindən, zərb-məsəllərindən, bir sözlə, incə xəzinəsindən aldıqları zəngin materialı necə sərrast, necə həssas və yüksək bədii səviyyədə işləyib, yeni əsərlər yaratmış, yeni ədəbi abidələr ucaltmış və onları yenidən təzə-tər şəkildə xalqın özünə qaytarmışdır» (171).

Xalq ədəbiyyatı xalqın yaratdığı ədəbiyyatdır. Cütçüdən, ipəkçidən, balıqçıdan, beşik başında oturub uşağına laylay deyən analardan tutmuş, bütün geniş, sadə xalq kütlələrinin bu ədəbiyyatın yaranmasında, inkişaf etdirilməsində rolu misilsizdir. Onu yaradan xalq nümayəndələri müdrik ağıl, zəka, düşüncə sahibləridir. El müdriklərinin sayəsində əsrlərdən-əsrlərə keçdiyi zamanlarda, müxtəlif dövrlərdə daha da təkmilləşdirilmiş, cilalanmışdır. Xalqın yaratdığı bu folklor nümunələri janrından,

həcmindən asılı olmayaraq insan duyğu və düşüncələri, arzu və istəkləri ilə zəngindir. İnsan qəlbinin tellərini titrədən, insan hissinə, duyğusuna hakim ola biləcək zəngin mövzu, məzmun, ideyalara malik qiymətli məxəzlərdir. Onu xalq özü yaratdığı üçün «el ədəbiyyatı», «xalq ədəbiyyatı», «şifahi xalq ədəbiyyatı», «el sözləri», «folklor» (Paşa Əfəndiyev) adları ilə tanınmışdır və bu adlar altında yaşayır. Bu ədəbiyyatın mövzu və ideyasının əsasında humanizm durur. Xalq yaşadığı dünyanın tarixini, keçdiyi həyatı, acılı-şirinli ömrünü yaratdığı ədəbiyyatın mövzusunda əks etdirib. Bu folklor nümunələrində insan oğlunun mehr və məhəbbəti, ülfəti, əməyi və zəhməti ilə əldə etdiyi nemətlərə marağı, sevgisi, məşğuliyyəti, inam və etibarı, sədaqəti, yaşadığı qeyri-bərabər ictimai həyatda gördüyü ziddiyyətli hadisələrə münasibəti, zor, güc tətbiq edən, onu istismar edən istismarçı qüvvələrə qarşı nifrəti, qəzəbi var. Zülmə, ədalətsizliyə qarşı mübarizəyə qalxan insanlara, tək-tək el təəssübü çəkib, onların haqlarını müdafiə edən cəsur, qorxmaz, igid insanlara məhəbbəti var. Onların qəhrəmanlığını vəsf edərək ideal bir səviyyəyə qaldırma var... Yeni, xoşbəxt, asudə, azadə yaşamaq arzusu işğalçılara, qəsbkarlara qarşı mübarizədə ölümdən qorxmamış, hər vaxt, hər zaman irticaçı qüvvələrə qarşı mübarizə aparmış Babəklər, Cavanşirlər, Koroğlular, Nəbilər, Bəxtiyarlar, Şakirlər, Çingizlər yetirmişdir və əsrlərdir ki, onlar xalqın and yerinə çevriliblər. Zaman-zaman bu davam edib, bu gün də davam edir. Onların azadlıq, müstəqillik uğrunda mübarizə əzminin bizə verdiyi inamdır ki, bu gün Azərbaycan xalqı öz müstəqil dövlətini qurub, azad, müstəqil, demokratik bir ölkənin

vətəndaşı olmaq arzusunu gerçəkləşdirib. Xalq onların adlarını məhz düzüb-qoşduqları böyük dastanlarda, qəhrəmanlıq nəğmələrində əbədiləşdirib. Xalq öz həyatını, yaşadığı tarixi dastanlara, eposlara köçürüb.

Həyatda elə əhəmiyyətli hadisələr var ki, onlar xalqın həyatında olduğu kimi bədii dəyərlərində də yaşayır. «Kitabi-Dədə Qorqud» boyları, «Oğuznamələr», «Bilqamıs», «Manas»... xalqın milli-etnik düşüncəsini, keçdiyi ictimai formasiyaları, ictimai bərabərsizliklərin xalqın həyatında doğurduğu ziddiyyətləri, o dövrün ziddiyyətli hadisələrini, xalqın etik-estetik, milli-mənəvi özəlliklərini belə qoruyub saxlayır. Xalqın həqiqi tarixi onun yaratdığı folklorundadır.

Dünya xalqlarının möhtəşəm, çoxəsrlik şifahi ədəbiyyatı vardır. Xalqlar, tayfalar, icmalar şəklində, kollektiv bir formada yaşamağa başlayandan öz poetik söz sənətini yaratmağa başlamış, nəsildən-nəslə ötürmüş, onları tarixin müxtəlif mərhələlərində ictimai-siyasi, fəlsəfi-estetik görüşlərlə zənginləşdirmişlər. Minilliklər, yüzilliklərdir ki, ümumilikdə bəşəriyyətin öyünməyə layiq olduğu zəngin bir mənəvi xəzinə, miras sahibidirlər.

Dini əsatiri mifoloji təsəvvürlər, ən ilkin dövrlərdən qaynaqlanmış mifoloji görüşlər, tarixi-ictimai-siyasi proseslər, dünya, insan, olum-ölüm, yaradılış, törəyişlə bağlı yaranan əfsanələr çoxdur. Eyni zamanda ululariмız rəvayətlər, hekayətlər şəklində bir sıra tarixi həqiqətləri şifahi yaddaşlara ötürmüşdür, sonrakı əsrlərdə bu mövzuları yaradanlarla yanaşı onları söyləyənlər (məsələn, türkdilli xalqlarda ozan-dədə-yanşaq-aşıq, şamanlar və s) mühafizə edib, bu günümüzə qədər gəlib çatmasına nail

olmuşlar. Söz yox ki, tarixin qatlarında unudulanlar, yaddan çıxanlar, itib-batanlar da çox olmuşdur. İtirdiklərimizlə yanaşı qoruyub saxlaya bildiklərimiz də sevinc doğurur. Əsrlərlə yazının, əlifbanın olmadığı bir zamanda insan yaddaşı bütün çətinliklərin öhdəsindən gəlməyə nail olmuş, xalq yaddaşı möhürdar rolu oynamışdır. Zaman keçdikcə olanları qoruyub saxlamaq üçün insan oğlu yollar aramış, şəkli, hərfi işarələr sistemi yaratmış, daşları, qaya, dağ sinələrini kitabələrə çevirmişlər. Sonralar bu örnəklər salnamələrdə, cünglərdə, divan və təzkirələrdə də yer almışdır.

Dünya xalqlarının yaratdığı folklor nümunələri, onların yaranması, ilk insanların bədii təfəkkürü, inam və etiqadları haqqında müxtəlif əsrlərdə alimlər, dilçilər, tədqiqatçılar maraqlı mülahizələr irəli sürmüşlər. Müxtəlif dövrlərdə söylənən fikirlər, mübahisələr şifahi xalq ədəbiyyatının öyrənilməsinə, folklorşünaslıq elminin meydana gəlməsinə gətirib çıxarmışdır.

Kompüter əsrində də xalq yaradıcılığı yazılı ədəbiyyatla paralel şəkildə inkişaf edir. Şair və yazıçılarımız folklor üstündə köklənmiş dəyərli əsərlər yaradırlar. Bu gün Azərbaycan ədəbiyyatında əksər qələm sahiblərinin yaradıcılığında folklorun bayatı janrının nümunələrini görürük. Bu sahədə artıq mükəmməl bayatı nümunələri yaratmış, yaradıcılıq uğurları qazanmış istedadlı sənətkarlar vardır. Məmməd Aslanın, Gülxani Pənahın yaradıcılığı bayatılarla çox zəngindir. Müəllifli bayatılar yazılı ədəbiy-yatda çoxdur. Bu da Azərbaycan ədəbiyyatında poeziya janrının daha qədim ənənələr əsasında inkişaf etməsindən irəli gəlir. Rəsul Rza, Səməd Vurğun, Fikrət Sadıq, Əhməd Cəmil, Zəlimxan Yaqub və s. sənətkarlarımızın yaradıcılığında bayatının gözəl nümunələrinə rast gələ bilərik. Müasir dövrümüzdə bayatı janrı yaradıcılığının mühüm hissəsini təşkil edən sənətkarlarımızın bayatılarını ədəbiyyatşünaslar araşdırmalı, tədqiq etməlidirlər.

Bayatılar, əsatirlər, əfsanələr, nağıllar, dastanlar, tapmacalar kimi aşıq yaradıcılığı Azərbaycan şifahi xalq ədəbiyyatının ən zəngin, geniş, möhtəşəm bir qoludur. Ulu ozanımızdan, dədələrimizdən, varsaqlarımızdan, yanşaqlarımızdan üzü bəri həmişə inkişafda olan, ən qüdrətli, kamil söz ustadlarının adını əbədiləşdirən aşıq yaradıcılığı bineyi-əzəldən xalqımızın çox sevdiyi, dəyərini bildiyi folklor janrı olub.

Azərbaycan aşıq ədəbiyyatı şəkilcə çox zəngin və rəngarəng olduğu kimi, bu şəkilləri yaradan, yaşadan sənətkarları ilə də zəngindir. «Öz vəzninə, təqtinə, qafiyələnən misraların növbələşməsi ənənəsinə, bəndlərdəki misraların miqdarına, nəqarat misralarının, vəzn, qafiyə və təqti xüsusiyyətlərinə» (M.H.Təhmasib) və eləcə də musiqiyə görə əllidən çox aşıq şeiri formasını yaradan məhz ulu Dədə Qorqudlardan üzü bəri gələn, yaradan, yaşadan, onları el içində yayan sonda aşıq adlanan müdrik el sənətkarlarımız, aşıqlarımız olmuş və xalq onları sevmiş, şeirlərini əzbərləmiş, yaddaşına həkk etmiş, özündən sonra gələn nəsillərə ötürmüş, həm o şeirləri söyləyən aşıqların adlarını, həm də onların yaratdığı nadir aşıq şeiri nümunələrini qoruyub saxlamağa çalışmışlar. Onları folklorsevərlər tədqiq etmiş, sənətkarlıq xüsusiyyətlərini araşdırmışlar.

Aşıqlar musiqi, söz, sənət yaşadıcıları olduğu kimi, xalqın mənəvi dayağı da olmuşlar. Diqqətlə nəzərdən keçirdikdə bunun kökünün qədimliyini görürük. Dədə Qorqud dastanlarında bütün məclisləri açan, bağlayan, elin dərdinə, qayğısına şərik olan el aşığı Dədə Qorquddur. Ağzı dualı, sözü qudsal, sazı müqəddəs Dədə Qorqudlar zaman-zaman dəyişmiş, inkişaf etmiş, aşıq sözünün, sazının qüdrət və qüvvəsi yüksək tutulmuş, Yunis Əmrələr, Aşıq Veysəllər, Dədə Əmrahlar, Xəstə Qasımlar, Qurbanilər, Miskin Abdallar, Aşıq Abbas Tufarqanlılar yaşayıb-yaratmış, daş üstünə daş qoymuş, bünövrəsi möhkəm qalalar üstündə öz sənət minarələrini ucaltmış, özlərindən sonraya layiqli, ölməz bir sənət qoyub getmişlər.

Saz və sözlə bağlı olan ozan-aşıq sənətinin tarixinə nəzər saldıqda onun neçə-neçə yüz illiklərdən əvvəl yarandığının şahidi oluruq. Ozan-aşıq sənətini xalqımız minilliklərdən bəridir qoruyub saxlayır. Aşıq şeirinin ən qədim nümunələri Dədə Qorqud dövründən çox-çox əvvəl yaranmış, təşəkkül tapmışdır. 1600 illik tarixə malik «Kitabi-Dədə Qorqud» dastanının söyləyicisi Dədə Qorqud saz çalıb, söz söyləyib, xalq içində seçilmiş, «oğuzların kamil bilicisi», el nəğmələri qoşan ozanların nümayəndəsidirsə, deməli, bu dastanları düzüb-qoşan Dədə Qorqudlar olmuşdur və onlar xalq ədəbiyyatının ilk yaradıcılıarının ənənənlərinin davamçılarıdır. Aşıq sənətinin yaradıcıları həm də mükəmməl dastanlar yaradanlardır. Epos dastana çevrilənə qədər üzün bir inkişaf yolu keçir. O uzun inkişaf yolu bir xalqın qədim köklərə bağlılığından xəbər verir. Mükəmməl zəka, qüdrətli təxəyyül, ilahi istedad bu xalqın bəxtinə yazılıb. Xalq təfəkkürünün zəngin xəzinəsi

olan aşıq yaradıcılığı türkün atributu səviyyəsində dayanan bir yaradıcılıqdır, bir sənətdir.

Aşıq sənətinin əsasında aşığın fitri istedadı ilə yanaşı onun sazı durur. Simli çalğı alətlərinin yaranmasının tarixinin qədimliyi ilə bağlı tədqiqatlarda sazla da bağlı dəyərli fikirlər vardır.

Aşıq yaradıcılığı böyük bir inkişaf yolu keçmişdir. «Kitabi-Dədə Qorqud» dastanlarındakı söyləmələr, onların vəznləri, qafiyələnmə formaları ilkin aşıq yaradıcılığının sərbəst olması, sonrakı dövrlərdə yaşayan-yaradan dədələrin aşıq şeirini daha da inkişaf etdirməsi, cilalaması tədqiqatçı alimlərin elmi araşdırmalarında geniş elmi, nəzəri təhlilini almışdır.

Çox şükürlər olsun ki, keçən əsrin əvvəllərindən aşıq poeziyası nümunələri geniş şəkildə toplanmağa başlamış, aşıq sənəti təqiqata cəlb edilmiş, bir çox elm, sənət adamları, alim və tədqiqatçılar xalq yaradıcılığının hər sahəsində olduğu kimi, aşıq yaradıcılığının toplanıb yığılmasında, nəşr edilməsində gərgin əmək sərf etmiş, itib-batmaqda olan milli-mənəvi sərvətlərimizə məhəbbət və qayğıyla yanaşmışlar. Bütün bunların nəticəsidir ki, bu gün aşıq şeirinin ən görkəmli nümayəndələri, onların yaradıcılığını davam etdirən sonrakı dövr ustad sənətkarlar haqqında zəngin mənbələrə yiyələnmişik. Aşıq yaradıcılığının toplanmasında, nəşrində, təhlil və tədqiqatlarında folklorşünaslarımızın, tədqiqatçılarımızın böyük əməyi vardır.

Tədqiqatçılar həmişə xalq ədəbiyyatına, xüsusilə aşıq sənətinə diqqətlə yanaşıblar. Xalq ədəbiyyatının bütövlükdə araşdırılması, tədqiqi sahəsində aparılan uğurlu tədqiqat işləri çoxdur. Onlar şifahi xalq ədəbiyyatının

poetik ifadələrinin Orxon-Yenisey abidələrində izlərini tapmış, yazılan mətnə rövnəq verən poetik strukturlarını araşdırmışlar (Stebleva İ.V.Poeziya Tyurkov VI-VII vv. M.: 1968).

XIX əsrdən başlayaraq Azərbaycan ziyalıları, maarifçiləri zəngin folklor qaynaqlarına diqqət yetirmiş, bu zəngin nümunələrə öz yaradıcılıqlarında geniş yer vermişlər. O dövrün rus ziyalıları, alimləri Qafqazı, o cümlədən Azərbaycanı gəzmiş, xalqın folkloruna maraq göstərmiş, yazıya almış və nəşr etdirmişlər. 1842-ci ildə Xodzko «Koroğlu» eposunu toplayıb Londonda ingilis dilində, 1856-cı ildə rus dilində nəşr etdirmişdir («Qafqaz» qəzeti, 1856. №21, 24, 26, 27, 30, 34, 36, 42).

1881-ci ildə Tbilisi şəhərində «Сборник материалов для описания местностей и племен Кафказа» (SMOMPK) məcmuəsi nəşrə başlayandan ümumqafqaz mədəniyyətinə, adət-ənənələrinə, tarixinə aid müxtəlif əsərlərlə bərabər xalq ədəbiyyatının müxtəlif janrlı nümunələri (nağıl, dastan, qoşma, atalar sözü, tapmaca və s) də bu jurnalda dərc edilirdi.

Ü.Hacıbəyov aşığı xalqın sevimli sənətkarı kimi yüksək dəyərləndirir: «Aşıq sənəti... xalqa, kütlələrə daha yaxındır., xalqın həyəcan və arzularını xalq musiqisinin başqa növlərinə nisbətən daha parlaq əks etdirir: aşıq ictimai mövqeyinə görə kəndliyə, zəhmətkeş xalqa yaxındır... Aşıq sənəti xalqın öz yaradıcılığıdı».

Aşıq yaradıcılığının araşdırılması ilə H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, P.Əfəndiyev, B.Çobanzadə, Ə.Abid, A.Şaiq, S.Mümtaz, V.Xuluflu, H.Əlizadə, Y.V. Çəmənzəminli, Ü.Hacıbəyov, S.Vurğun, Bülbül, H. Araslı, F.Qasımzadə, M.H.Təhmasib, Ə.Qarabağlı, Ə. Axundov, F.Fərhadov, M.Seyidov, X.Koroğlu, V.Vəliyev, Ə. Eldarova, M.Seyidov, A.Nəbiyev, Ə.Yerevanlı, İ.Abbasov, B.Abdullayev, Q.Namazov, R.Rüstəmzadə, H. İsmayılov, S.Paşayev. M.Qasımlı, E.Məmmədov, M.Allahmanlı, M.Həkimov və başqa tədqiqatçılar məşğul olmuşlar.

Türk alimlərindən H.Dizdaroğlu, N.S.Banarlı, F. Köprülü, H.İlaydın, V.M. Qocatürk, Ə.Canib, B. Atalay, M.F.Qırızoğlu, A.Tərzibaşı, E.Başgöz, türkmən alimlərindən B.M.Karrayev, özbək alimlərindən H.Zərifov, T.Mirzə, B.Sarımsaqov və başqalarının aşıq sənəti ilə bağlı dəyərli fikirləri, tədqiq və tədqiqatları vardır.

Aşıq yaradıcılığının toplanması, nəşri işində Süleyman Rüstəm, Məmməd Rahim də təşəbbüs göstərmişlər.Aşıq sənətinin, aşıq yaradıcılığının öyrənilməsi sahəsində çox mühüm addımlar XX əsrdə, sovet dönəmində atılmış və bu sahədə uğurlu nəticələr əldə edilmişdir. Akademik H.Araslı, M.İbrahimov, professor M.H.Təhmasib və başqaları hələ keçən əsrdə Azərbaycan aşıq poeziyasının aktual problemlərinə toxunmuş, onun inkişafı, müxtəlif dövrlərdə yaşamış sənətkarlarımızın həyatı, fəaliyyəti ilə bağlı xeyli araşdırmalar aparmışlar. Azərbaycan folklorşünaslığı sahəsində aşıq poeziyasının ən fəal toplayıcısı, tədqiqatçısı Mürsəl Həkimov orta əsr aşıq yaradıcılığının mühüm xüsusiyyətləri və spesifikasının Azərbaycan xalqının tarixi inkişafı prosesi, onun həyatı və mübarizəsi, orta əsrlərdə yaranmış zəngin milli mədəniyyəti ilə sıx əlaqədə tədqiqatını aparmışdır: «Orta əsrlərdə yaranmış aşıq poeziyası şeir şəkillərinin meydana çıxması prinsipləri və

yolları məhz prof. M.Həkimov tərəfindən geniş təhlilə cəlb edilmişdir. Çox saylı folklor ekspedisiyaları materiallarına əsaslanan prof. M.Həkimov aşıq poeziyasının bir sıra yeni şəkillərini aşkar etmiş, onların yaranma sistemini və yayılmasını öyrənməyin ilkin prinsiplərini müəyyən etmişdir» (A.Nəbiyev)

Bildiyimiz kimi, XX əsrin 20-ci illərində Azərbaycanı elmi şəkildə öyrənmək məqsədi ilə bir sıra elmi cəmiyyətlər, təşkilatlar yaranır. Bu təşkilatlardan biri də Azərbaycanı Tədqiq və Tətəbbö (öyrənmə) cəmiyyətidir (ATTC) (1923-1930) ki, fəaliyyəti diqqətəlayiqdir.

Ədəbiyyatşünas H.Zeynallı, S.Mümtaz, Ə.Abid, H.Əlizadə və digər görkəmli folklorçular bu cəmiyyətin xəttilə Azərbaycan folklorunun öyrənilməsi sahəsində xeyli işlər görür. Bu cəmiyyət öz fəaliyyəti dövründə aşıq şeir toplularını nəşr etdirir. H.Əlizadə digər folklor janrlarını toplamaqla və tədqiq etməklə yanaşı, «Azərbaycan el ədəbiyyatı» (I hissə, 1927. II hissə, 1929) kitablarını, V. Xuluflu «El aşıqları» (1927), eləcə də «Koroğlu» (1927) kitablarını nəşr etdirir. «Azərbaycanı öyrənmə yolu» məcmuəsi nəşr olunur. Bu jurnalın (№1 (1928), №2 (1928), №3 (1930), №45 (1930) nömrələrində aşıq şeirləri verilir.

ATTC-nin folklor komissiyasına rəhbərlik edən H.Zeynallı aşıq ədəbiyyatına diqqətlə yanaşmışdır. S.Mümtazın 1927, 1928, 1930-cu illərdə çap etdirdiyi «El şairləri», H. Əlizadənin «Azərbaycan aşıqları» (1929-1936) ikicildlik kitablarına yazdığı müqəddimələr, «Aşıq Pəri və müasirləri» (1928) məqaləsi XX əsrin 20-ci illərində aşıq ədəbiyyatı haqqında ilk tədqiqatlardan biri kimi dəyərlidir. «Azərbaycan aşıqları haqqında bir neçə söz»

(1929), «Azərbaycan aşıqları» məqalələri də tədqiqat obyekti kimi dəyərləndirilir. H.Zeynallı Abbas Tufarqanlı, Xəstə Qasım, Şəmkirli Aşıq Hüseyn, Sarı Aşıq, Aşıq Musa, Aşıq Ələsgər kimi sənətkarların yaradıcılığını yüksək qiymətləndirmişdir.

Xalq ədəbiyyatımızı ilk dəfə təsnif edən, şifahi ədəbiyyatımızı «mənzum və mənsur» olmaqla iki yerə ayıran, «əslində ədəbiyyatın lirik və epik ənənə əsasında yaranması barədə rus folklorşünaslığında həmin dövrdə mövcud olan nəzəri fikri milli folklorumuza tətbiq edən» (A.Nəbiyev), «folklorşünaslıq tariximizdə ilk dəfə olaraq Azərbaycan xalq ədəbiyyatının çap olunma və öyrənilmə məsələlərini sistemləşdirməyə çalışan» (P. Əfəndiyev), nəşr etdirdiyi «Azərbaycan atalar sözü və məsəlləri» (1926), «Azərbaycan tapmacaları» (1928), «Azərbaycan el ədəbiyyatı», «Xalq ağız ədəbiyyatı», «Azərbaycan folkloru» və s. əsərlərin müəllifi Hənəfi Zeynallı «Xalq ağız ədəbiyyatı» məqaləsində el aşıqları, aşıq sənətinin genezisi ilə bağlı maraqlı fikirlər söyləyir.

Salman Mümtaz xalq irsinin toplanmasına, nəşr etdirilməsinə bir ömür sərf etmişdir. O, XVI əsrin böyük el sənətkarı Qurbaninin ilk dəfə şeirlərini toplamış, nəşr etdirmiş, həyat və yaradıcılığı haqqında məlumat vermişdir.

Salman Mümtaz aşıq yaradıcılığını araşdırmış, aşıq şeirlərinə həsr etdiyi ikicildlik «El şairləri» (1927; 1928) kitablarını nəşr etdirmişdir. Onun «El şairi Qurbani» (1923), «Şahbeyt və bərcəstə» (1923), «Hələk» (1930), «Unudulmuş yarpaqlar» (1936), «Aşıq Abdulla», iki cildlik «El şairləri» (1927-1928) kitabları, topladığı mənbələrə yazdığı müqqədimələr, məqalələr, qeyd və şərhləri «xalq

ədəbiyyatımız haqqında mötəbər mənbələr» kimi qiymətləndirilir. Salman Mümtazın tədqiqatçılıq fəaliyyətinə diqqətlə yanaşan alimlərimiz xalq içindən topladığı Qurbaninin, Sarı Aşığın irsini, bayatı, atalar sözü və məsəlləri, ümumilikdə xalq ədəbiyyatının bir çox dəyərli nümunələrini, eyni zamanda ən böyük abidəmiz olan «Kitabi-Dədə Qorqud», aşıq sənəti, ozan yaradıcılığı, xalq şeiri haqqında qiymətli nəzəri fikirlərini yüksək dəyərləndirirlər. Şəxsi arxivində «Koroğlu» dastanı, digər folklor nümunələri ilə bağlı zəngin mənbələr olduğu bildirilir.

Hər şeydən əvvəl gözəl folklor toplayıcısı Salman Mümtaz İkicildlik «El şairləri» kitabının birinci cildində 138 müəllifin 248 şeirini, 26 isə müəllifi məlum olmayan şeirləri vermişdir. İkinci cilddə isə eyni qayda ilə 300-dən artıq şeir nümunəsi təqdim edilir. «Aşıq Abdulla» (Sarı Aşıq) kitabına kiçik müqəddimə yazmış, onun Sarı Aşıq olduğunu bildirmişdir. Əlyazmalarında, təzkirələrdə araşdırmış, eləcə də xalq içərisindəki Sarı Aşıqla bağlı əfsanələri toplamışdır. O müqəddimədə yazır: «Azərbaycanda Aşığın bayatıları dahi şairimiz olan Füzulinin qəzəlləri qədər mərufdur. Söz yox ki, onlar öz vaxtında kitab şəklində toplanıb çap edilsə idi daha da məşhur olardı. Bu kitabça aşıq külliyyatının bir hissəsi olmalıdır. Bu parçaların çoxu yalnız eşitmiş adamların ağızlarından toplanmışdır. Ancaq yüzdə beş faizi dağınıq yarpaqlar və əski bəyazlardan götürülmüşdür».

Azərbaycanı Öyrənmə Cəmiyyətinin xəttilə xalq irsinin toplanmasında Vəli Xuluflunun da rolu böyükdür.

Vəli Xuluflunun xalq ədəbiyyatımızın geniş qolu olan aşıq poeziyası haqqında, Ələsgərin və digər aşıqların

poeziyası, aşıqların el məclislərindəki rolu, nüfuzu, sənətkarlığı haqqında, bu sənətin kökləri haqqında maraqlı mülahizələri vardır. Vəli Xuluflu «El şairləri» (1927) kitabında xalq ədəbiyyatına, Göyçə aşıq ədəbiyyatına məxsus Ələsgərin yaradıcılığına diqqət yetirir. Bu kitabda Xəstə Qasım, Qurbani, Dədə Yadigar, Şair Hidayətlə yanaşı Aşıq Ələsgər də vardır.

XX əsr Azərbaycan folklorunun müxtəlif problemlərinə aid dəyərli əsərləri ilə tanınan folklorşünas, qorqudşünas, nəzəriyyəçi alim Əmin Abid qırx illik ömrünün 20 ilindən çoxunu «ədəbi, bədii, elmi fikrə həsr etmiş, ədəbiyyatımızın müxtəlif problemləri barədə araşdırmalar (89-4) aparmışdır. Əmin Abid 1923-cü ildə ATTC-nin yaranması nəticəsində elmin ayrı-ayrı sahələri üzrə fundamental tədqiqatlara cəlb edilən A.Baqri, A.Samayloviç, N.Arimarin, B.Çobanzadə kimi alimlərlə çiyin-çiyinə çalışmışdır.

Ə.Abid kimi Y.V.Çəmənzəminli, H.Əlizadə Azəbaycan folklorunun toplanması, nəşri, tədqiqi sahəsində fəaliyyətlərini genişləndirirlər. P. Əfəndiyev 30-cu illəri aşıq şeirinin toplanması və nəşri dövrü kimi xarakterizə edir. Bu dövrdə nəşr olunan «Ədəbiyyat» qəzetinin, «İnqilab və mədəniyyət» jurnalının hər nömrəsində aşıq yaradıcılığından nümunələr verildiyi bildirilir. Bu dövrdə aşıq yaradıcılığının toplanması, nəşri və tədqiqinin aşığın yaşadığı zamandan asılı olaraq iki istiqamətdə (1. İnqilabaqədərki aşıq poeziyası. 2. Sovet dövrü aşıq poeziyası) aparıldığını göstərir.

H.Əlizadənin hər sahədə olduğu kimi, aşıq yaradıcılığına da marağı böyük idi. Onun xalq ədəbiyyatının top-

lanmasında rolu, nəşri, onlara yazdığı müqəddimələri, resenziyalar tədqiqatçıların diqqətindən yayınmır. Xalqın içərisində olan, tədqiqat və toplama işi ilə bağlı elləri gəzən H.Əlizadənin fədakarlığını tədqiqatçılar onda görürlər ki, o, «yalnız sazlı-sözlü adamlarla görüşür, onlarla üz-üzə oturur və topladığı materialları canlı danışıq dilində yazıya alırdı. Bunun nəticəsidir ki, H.Əlizadə Azərbaycan folklorunun, demək olar ki, bütün nümunələrini toplamağa çalışmışdır». Ondan artıq məhəbbət dastanını, 20 xalq nağılını özündə birləşdirən, toplayıb nəşr etdirdiyi «Dastanlar və nağıllar» (Bakı.1937) kitabında bir sıra dastanlar ilk dəfə çap olunmuşdu.

«El ədəbiyyatı» məcmuəsində çap olunan «Qazax və Gəncə nağılları» məqaləsində Gəncə-Qazax bölgəsinin el aşıqlarının yaradıcılıq və sənətkarlıq xüsusiyyətlərini açır. Aşıq Hüseyn, Aşıq Əsəd, Aşıq Mirzə, Şair Vəli Zülfüqar, Qədir, Mirzə Səməd, Aşıq Məmməd, Xəyyat Mirzə, Gəncə aşıqları Aşıq Hüseyn, Aşıq Çoban, Dilqəmlə yanaşı, əslən Göyçəli olan Aşıq İslamı da təqdim edir.

H.Əlizadənin aşıq poeziyasının toplanması, nəşri, tədqiqi, tərtibi sahəsində fəaliyyəti böyükdür. Onun 2 cilddən ibarət, 1935-1936, 1937-1938-ci illərdə iki dəfə nəşr olunmuş «Aşıqlar» kitabı bu ciddi fəaliyyətin nəticəsi kimi dəyərləndirilir. Bu kitablarda yüzə yaxın Azərbaycan aşığının şeirləri toplanmış, bir çox aşıqlar haqqında biblioqrafik məlumatlar verilmişdir.

Araşdırıcılar H.Əlizadənin tərtib etdiyi bu nəşrlərdə «pozitiv meyllər» görürlər. H.Əlizadənin aşıqları dövrünə görə xronoloji ardıcıllıqla düzməyə səy göstərdiyi, birinci cilddə buna nail olduğu, ikinci cilddə isə ardıcıllıq prin-

sipi məlumatın məhdudluğundan pozulduğu, eyni zamanda birinci cilddə ayrı-ayrı aşıqların qoşmalarından başqa, bəzi dastanlarımızdan poetik parçalar, müəllifi məlum olmayan şeirlər, mahnılar və s. daxil edildiyi göstərilir (H. İsmayılov).

Bununla belə, folklorşünaslıq elminin inkişafında böyük xidmətləri olan, AMEA Folklor İnstitutuna rəhbərlik etmiş tədqiqatçı H.İsmayılov H.Əlizadənin nəşrinin II çapı üzərində apardığı araşdırmalara əsasən bu nəşrin materialının əhəmiyyətini təsdiqləyir: «Hər iki cildin redaktorunun Məmməd Arif olduğu bu iki kitabda sağlam folklor mətnləri toplanmışdır. Yalnız zəruri məqamlarda səhifənin altında lüğət və bəzi qeydlər verilmişdir. Bu kitabda Aşıq Abbas, Aşıq Abdulla, Aşıq Kərəm, Xəstə Qasım, Dilqəm, Aşıq Hüseyn, Aşıq Musa, Aşıq Məhəmməd, Molla Cümə, Xəyyat Mirzə, Şair Vəli, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əli, Miskin Əli, Şeyda Əziz kimi aşıqlar haqqında yığcam məlumat verilir.

H.Əlizadə kitabın ikinci cildində «Aşıq Şərəbanı, Aşıq Səfər, Kərkibaşlı Aşıq Əziz, Aşıq Həsən, Sədərəkli Qorxmaz, Aşıq Mənsur, Qaraca Oğlan, Aşıq Sona, Aşıq Mustafa, Çardaxlı Keşişoğlu, Aşıq Qərib, Aşıq Muxtar, Aşıq Vahab, Nazlı, Əsmər, Aşıq Varis, Xudaverdi, Aşıq Əliş, Aşıq Bayram, Aşıq Heydər, Qulu, Pirim, Aşıq Salman, Əfruz xanım, Şikəstə, Qulam Kəntər, Kürdoğlu, Qul Mahmud, Layiskili Molla Cumə, Aşıq Dibro, Şair Vəli, Bozalqanlı Aşıq Hüseyn, Aşıq İman, Aşıq Həsən, Aşıq Hüseyn, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq Məsum, Məhəmməd, Aşıq Səfdər, Aşıq Zülfüqar, Aşıq Rza, Aşıq Qoca, Aşıq Səməd, Allahqulu adlı el şairləri, aşıqları, «Koroğ-

lu», «Əsli və Kərəm» dastanlarından şeirlər, Ağ Aşığın (Allahverdinin) Çardaxlı Keşişoğlu ilə deyişməsi də verilmişdir.

«Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti»nin (1923) nəzdində folklor sahəsində çalışan şəxslərdən H.Zeynallı, V.Xuluflu, A.Sübhanverdixanov, C. Məmmədzadə, Ə. Haqverdiyev və başqaları ilə yanaşı professor A.V.Baqri də vardı. Azərbaycan folklorunu toplamaq, nəşr etdirmək üçün Azərbaycanı öyrənmə yolu məcmuəsi təşkil edilir. Azərbaycan folkloru rus dilinə tərcümə edilirdi, haqqında elmi məqalələr yazılırdı ki, bu sahədə Baqrinin rolu böyük idi. Onun redaktorluğu ilə 3 cildlik «Фолкьлор Азербайджана и прелегающих стран» (1930) kitabı nəşr olunur.

Azərbaycan folklorunun toplanmasında Azərbaycan Dövlət Universitetinin kafedra müdiri olmuş, EA-nın kitabxana direktoru A.V.Baqri ATTS-də komissiya üzvü kimi ciddi və əhəmiyyətli vəzifələrdə çalışmışdır. Folklorşünaslıq sahəsində əhəmiyyətli fəaliyyəti ilə tanınmışdır. Azərbaycan folklorunun toplanmasında, təsnifində, tərtib və nəşrində, tərcüməsində böyük rolu olan Baqri Azərbaycan folklorşünaslığı ilə bağlı elmi məqalələrin də müəllifidir. Məqalələri «Xalq müəllimi», «Maarif işçisi» və b. jurnallarda, «Azərbaycanı öyrənmə yolu» məcmuəsində (A.V.Baqri: «El hekayələri haqqında». «Xalq müəllimi» jurnalı, 1924. №1.s.49-51; «Xalq məsəlləri haqqında», «Maarif işçisi», 1925 №1. Народная словестность Кафказа (Материалы для библиографического указателя проф. А.В.Багри), Известия Восточного факультета АГУ им. В.И.Ленина. Востоковедение, Т.1. Бакы.

1926; А.В. Багрий. Материалы по библиографии Кафказа (к вопросу о быте женшины Кафказа), Известия АГУ им. В.И.Ленина, Востоковедения 1928. Т. II. с. 44; А.В. Багрий. К вопросу об изучения азербайджанских сказок. Известия Восточного отделения АГУ им. С.М.Кирова, Т. IV. 1924; А.В.Багрий «Фолклор Азербайджана и прелагаюших стран. Т.I с.13. Баку. 1930; A.V.Baqri. Süleyman Danişmənd haqqında rəvayət, «Azərbaycanı öyrənmə yolu». 1930, №3. s. 2932, A.V. Baqri. Ədəbiyyat biliyinə başlanğıc. Bakı 1930; A.V.Baqri. Ədəbiyyatşü-naslıq üçün vəsait. Bakı. 1930) nəşr olunurdu.

BDU-nun professoru, aşıq sənəti ilə bağlı dəyərli tədqiqatları ilə tanınmış Qara Namazov aşıq yaradıcılığını araşdıran fədakar alimdir. XX əsrin 30-cu illərində aşıq yaradıcılığı ilə bağlı aparılan toplamalar, araşdırmalar bir daha təsdiq etdi ki, Azərbaycan aşıq poeziyası folklorun çox böyük bir qoludur və onun tədqiqi, öyrənilməsi sahəsində işlər davam etdirilməlidir.

1938-ci ildə martın 11-dən 14-nə kimi Bakıda II Aşıqlar qurultayında Azərbaycan SSR XKS yanında İncəsənət İşləri İdarəsinin rəisi M. İbrahimov «Aşıq poeziyasının inkişafı tarixi haqqında» məruzə etdi. Ü. Hacıbəyov musiqi mədəniyyətimizin inkişafında aşıq musiqisinin əhəmiyyəti haqqında, Bülbül muğam və aşıq sənəti haqqında, O. Sarıvəlli «Azərbaycan inqilabi poeziyası» mövzusunda məruzələr etdilər. Azərbaycan Yazıçılar İdtifaqında «Aşıqlar bölməsi» yaratmaq məsələsi qarşıya qoyuldu, Azərbaycan Dövlət Nəşriyyatına, SSRİ EA Azərbaycan filialının Nizami adına Ədəbiyyat İnstitutuna «a-

şıqlar arasında aparılan nəzəri praktik işi gücləndirmək tövsiyə edildi» (Hüseyn İsmayılov).

Tədqiqatçı ailm İslam Ələsgərov Aşıq Ələsgər irsini öyrənərkən, «Sazlı-sözlü Göyçə» kitabında təkcə Göyçə aşıqlarının nümayəndələrinin siyahını belə tərtib edir:

«Alçalıdan: Aşıq Məhərrəm.

Yarpızlıdan: Aşıq Oruc, Aşıq Vəli, Aşıq Əhməd, Aşıq İslam, Aşıq Əlyar, Aşıq Qasım, Aşıq Eyyub, Aşıq Şahsuvar, Aşıq İsrayıl, Aşıq Muğam, Aşıq Ağa, Aşıq Bəhlul, Aşıq İman.

Qızılvəngdən: Aşıq Alı, Aşıq Qulu, Aşıq Usuf, Aşıq Mustafa, Aşıq Məsim.

Subatandan: Aşıq İsə.

Kərkibaşdan: Ağ Aşıq (Aşıq Allahverdi)

Qanlıdan: Aşıq Mehdi, Aşıq Balış, Aşıq Gülmalı.

Çaxırlıdan: Aşıq Alıtan, Aşıq Hüseynalı, Aşıq İbrahim.

Daşkənddən: Aşıq Nəcəf, Aşıq Bayram, Aşıq Hacı, Aşıq Abbasəli, Aşıq Novruz, Aşıq Əli, Aşıq Səfyar, Aşıq Nuridin, Aşıq Ziyad.

Aşağı Şorğadan: Aşıq Bəylər, Aşıq Murad, Aşıq İslam, Aşıq İdris, Aşıq Mirzə.

Sarıyaqubdan: Aşıq Məhəmmədəli, Aşıq Paşa, Aşıq Əhməd, Aşıq Valeh, Aşıq Qasım, Aşıq Nuru, Aşıq Musa.

Qayabaşından: Aşıq Cəmil.

Qalabulaqdan: Aşıq Məhəmmədəli, Aşıq Bəhlul, Aşıq Rəcəb, Aşıq Hümmət.

Qaraqoyunludan: Aşıq Sadıq, Aşıq Əsəd, Aşıq Məhəmməd, Aşıq Cahad, Aşıq Saleh, Aşıq Səlim.

Nərimanlıdan: Aşıq İsə, Aşıq Mikayıl, Aşıq Bəhman, Aşıq İslam, Aşıq Fətullah, Aşıq Nəriman, Aşıq Ələddin, Aşıq Nurəddin.

Ağkilsədən: Aşıq Ələsgər, Aşıq Musa, Aşıq Qurban, Aşıq Talıb, Aşıq Nəcəf, Aşıq İman, Aşıq Musa, Aşıq Cəmşid, Aşıq Haqverdi.

Zərzibildən: Aşıq Şirin, Aşıq Məmməd, Aşıq Rüstəm, Aşıq Oruc, Aşıq İdris, Aşıq Mehralı, Aşıq Aslan, Aşıq Daşdəmir, Aşıq Nəcəf, Aşıq Cəmil, Aşıq Sayad, Aşıq Qabil, Aşıq Əli.

Zoddan: Aşıq Qasım, Aşıq Bəylər, Aşıq Ağayar, Aşıq Pənah, Aşıq Tapdıq, Aşıq Ələvsət.

İnəkdağlıdan: Aşıq Qəhrəman, Aşıq Kərim, Aşıq Alırza, Aşıq Qənbər, Aşıq İsmayıl, Aşıq Cavad, Aşıq Cəmşid, Aşıq Nurəddin, Aşıq İsrayıl, Aşıq Vəli.

Canəhməddən: Aşıq Meydan, Aşıq Sayad...

Kəsəməndən: Aşıq Nağı, Aşıq Bayram, Aşıq Bəşir.

Göysudan: Aşıq Qulu, Aşıq Qasım.

Böyük Məzrədən: Aşıq Əziz, Aşıq Qiyas.

Kiçik Məzrədən: Aşıq Qara, Aşıq Məhəmmədəli, Aşıq Hüseyn, Aşıq Rza.

Şişqayadan: Aşıq Rəhim, Aşıq Qara, Aşıq Hüseyn, Aşıq Teymur, Aşıq Şəmil.

Sadanaxçadan: Aşıq Hümmət, Aşıq Binnət.

Dərədən: Aşıq İslam, Aşıq Qoşunəli, Aşıq Qərib, Aşıq İsmayıl, Aşıq Bayram, Aşıq Əli, Aşıq Qədim, Aşıq Murtuzəli.

Babacandan: Aşıq Şükür, Aşıq Valeh, Aşıq Məhəmmədəli, Aşıq Qədir, Aşıq Xanbuta, Aşıq Kərəm, Aşıq Mikayıl, Aşıq Əmiraslan, Aşıq Yunus, Aşıq Əli.

Cildən: Aşıq Mehdi, Aşıq Qasım, Aşıq Yunus, Aşıq Oruc, Müseyib, Aşıq Əli.

Ardanışdan: Niftalı, Aşıq Məhəmmədəli, Aşıq İsə, Aşıq Bəhmən, Aşıq Kərim.

Ağbulaqdan: Aşıq Alyar, Aşıq Məhəmməd, Aşıq İmran, Aşıq Mahmud, Aşıq Abbasəli, Aşıq Dünyamalı, Aşıq Sultanəli, Aşıq Allahyar, Aşıq Məhəmmədəli, Aşıq Hüseyn.

Göyçədə yaşamış aşıqların adlarından ibarət tərtib etdiyimiz bu siyahı natamamdır. Vaxtilə Göyçənin Qaranlıq, Kəvər və Yelenovka rayonlarının kəndlərində yaşamış aşıqlar şəxsən bizə məlum deyildir. Bu siyahıda adı çəkilən kəndlərdə boya-başa yetən saz sənətkarlarından bəzilərinin yaddan çıxmağına da şübhə etmirik».

Aşıq ədəbiyyatı bütün dövrlərdə yazılı ədədbiyyatla yanaşı yaşamış, inkişaf etmişdir. Aşıq ədədbiyyatı nümayəndələri bu gün də xalqın məclislərinin yaraşığıdır. Azərbaycan Yazıçılar Birliyinin yüzdən çox aşıq sənətinin davamçıları olan üsvləri vardır. Aşıq Ağalar, Aşıq Əhməd, Aşıq Əhməd Sadaxlı, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Hüseyn Cavan, Aşıq İslam, Aşıq Mirzə, Aşıq Mirzə Bilal, Aşıq Nəcəf, Aşıq Pənah, Aşıq Şəmşir, Aşıq Hüseyn Saraclı, Aşıq Əkbər, Aşıq Teymur, Aşıq Ədalət kimi böyük saz-söz ustadlarımız Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynamış şəxsiyyətlərdir. Bu torpaq saz, söz diyarıdır. Bu bir daha sübut edir ki, Azərbaycan aşıq ədədbiyyatı ümumilikdə Azərbaycan ədəbiyyatının möhtəşəm bir qoludur. O bir çeşmədir, çağlayan, əbədi var olan bir çeşmə.

Azad Nəbiyev ədəbiyyatşünas, folklorşünas kimi şöhrət tapmışdır. Ədəbiyyata «Qızıl Quba» rayon qəzetində,

1962-ci ildə çap olunmuş şeirlə gəlib. Bundan sonra şeir, hekayə, povest, oçerk və məqalələrlə çıxış edib. Tədqiqatçı alim kimi daha böyük müvəffəqiyyətlər qazanıb. «Azərbaycan-özbək folklorunun tipologiyası və qarşılıqlı əlaqəsi» mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş Azad Nəbiyev «Kitabi-Dədə Qorqud»u sadələşdirib nəşr etdirmiş, «Nəğmələr, inanclar, alqışlar, adətlər» (1986), «Koroğlu dastanı» qollarını toplayıb, nəşrə hazırlamış və ön söz yazmışdır. «Azərbaycan folklorunun janrları», «Azərbaycan-özbək folklor əlaqələri», «El nəğmələri, xalq oyunları», «İlaxır çərşənbələri», «İlin əziz günləri», «Azərbaycan xalq ədəbiyyatı» (dərslik), «Azərbaycan şifahi xalq ədəbiyyatı» və adını çəkmədiyimiz çoxlu sayda kitabların, yüzlərlə tədqiqat işlərinin müəllifidir. Folklorumuzun tədqiqi sahəsində xidmətləri böyükdür. 500-dən çox elmi məqalələrin müəllifi, alim, pedaqoq Azad Nəbiyev folklor sahəsində bir sıra dərsliklərin də müəllifidir.

Azərbaycan xalqı həmişə öz milli-mənəvi dəyərlərini qoruyub saxlamış, xalqın bədii təfəkküründən incilərindən yetərincə yararlanmaqla yanaşı, onları toplamış, nəşr etdirmiş, gələcək nəsillərə çatdırmaq üçün həmişə çalışmışlar. Azərbaycan xalq ədəbiyyatının, mifoloji görüşlərin öyrənilməsi sahəsində E.Əlibəyzadə, Q.Kazımov, T.Hacıyev, S.Əlizadə, Q.Paşayev, B.Abdulla, R.Qafarlı, M. Kazımoğlu, R. Əliyev, E. Məmmədli, N.Seyidov, S.Rzasoy, A.Aşırlı və b. alimlərimiz fəaliyyətinin davam etdirirlər.

MƏTBU ORQANLAR VƏ ƏDƏBİ PROSES

Azərbaycan ədəbiyyatının inkişafında Azərbaycan Yazıçılar İttifaqının orqanı olan «Azərbaycan» jurnalı mühüm rol oynamışdır. Bu jurnalın ilk sələfi «Maarif və mədəniyyət»in birinci nömrəsi 1923-cü ilin yanvarın 28-də nəşr olunmuşdur. Müxtəlif xalqların dillərinə tərcümə olunmuş, SSRİ deyilən bir dövlətin ərazisində olan çoxmillətli sovet ədəbiyyatının ən gözəl nümunələri kimi şöhrət tapmış Azərbaycan ədəbiyyatının ən gözəl əsərləri demək olar ki, ilk dəfə «Azərbaycan» jurnalında çap olunurdu. Oxucu kütlələrinin rəğbətini, məhəbbətini qazanmaqda «Azərbaycan» jurnalının rolu böyükdür. Keçmiş sovetlər birliyinin dövründə yetişən böyük sənətkarlar üçün «Azərbaycan» jurnalı bir yaradıcılıq laboratoriyası idi.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda «Füqara füyuzatı» (1920-1921) «Xalq maarifi» (1920), «Yeni yıldız» (1921-1922), «Azərbaycan Ali İqtisad Şurasının Əxbarı (1921-24), «Kooperativ işi» (1921-25), «Gələcək» (1922) kimi jurnallar çap olunurdusa da, bu jurnallarda elmi, əxlaqi, tərbiyəvi mövzular kimi ədəbi-bədii mövzular da müntəzəm çap olunmurdu. İri həcmli, xüsusi ədəbi, elmi jurnala olan ehtiyacı nəzərə alıb N.Nərimanov, Mustafa Quliyev, Tağı Şahbazi bir çox maarif xadimləri, yazıçı və şairlər müstəqil bir ədəbi jurnal yaratmaq təşəbbüsü irəli sürdülər. «Azərbaycan Xalq Maarif Komissarlığı 1922-ci il oktyabrın 14-də olan iclasında respublikada maarif işçilərinə, müəllimlərə kömək etmək, ədəbiyyatın, elmin, incəsənətin inkişafına yardım göstərmək məqsədilə «Maarif» adlı aylıq jurnalın nəşr olunmasını qərara aldı.

Bu jurnalın redaksiyası indiki Sabir adına bağın yaxınlığında Maarif evində yerləşdi və ilk redaktoru görkəmli maarif xadimi, istedadlı ədib Tağı Şahbazi (Simurq) oldu. İlk nömrəsi 1923-cü ilin yanvarın 28-də nəşr olundu. Mustafa Quliyev bu jurnalın məqsəd və vəzifələrini belə şərh edirdi: «Ümid ediriz ki, bu məcmuə ümumazərbaycan ədib və mühərrirlərinin fikri ittihadına, ədəbiyyatımızın tədqiq və intişarına yardım edəcəkdir. Bu barədə Azərbaycan maarifi yolunda hər bir qələm əhlinin bizə yardım etməsi onların vicdani borcudur» («Azərbaycan» jurnalı və Azərbaycan Sovet ədəbiyyatının aktual problemləri». Elm» nəşriyyatı, (1977).

Jurnal ilk nömrəsindən oxucuların böyük rəğbətini qazandı. Jurnalın sorağı qonşu respublikalara, Moskvaya, Tbilisiyə, Krıma və Orta Asiyaya da yayılır. Ədəbiyyatşünas alim Salman Mümtaz «Nəsimi» adlı məqalədə bu jurnalın nəşrini sevinclə qarşılayırdı: «Ədəbi bir məcmuənin nəşrini çoxdan gözləyirdik. Böylə bir məcmuəni görməyə müvəffəq olduq. Daha bundan sonra mühərrir arkadaşlarımız istədikləri kimi Azərbaycanın əski və yeni ədəbiyyatından ətraflı olaraq bəhs etməyə imkan bulacaqlar. Biz də onların qələmindən çıxan bir çox yeni naşənidə nəşidələr, bakir və parlaq mövzular və sənətkaranə şeirlər oxumaqla zövqiyab olacaq və sırası gəldikcə arabir fürsətdən istifadə edərək bir qaç sətir qaralamaq cəsarətində bulunacağız».

Jurnal tezliklə türkdilli xalqlar arasında da geniş yayıldı, xarici ölkələrdə jurnala abunə yazılmağa başlandı. Gürcüstanda, Krımda, Tatarıstanda, Türkmənistanda, Özbəkistanda çıxan jurnallar öz səhifələrində bu jurnalın nöm-

rələrinə xülasələr və biblioqrafik məlumat verirdi. Simferopolda «Oxu işləri», Özbəkistanda «Maarif və oxutucu», Tatarıstanda «Maarif», Tiflisdə «Dan yıldızı», «Qızıl şəfəq», Mahaçqalada «Maarif yolu», İstanbulda «Aydınlıq» və başqa məcmuələr Azərbaycanda çıxan «Maarif və mədəniyyət» jurnalı ilə əlaqələr saxlayırdı. Jurnal 1924-cü ildə avqust nömrəsindən sonra (8-ci nömrə) fəaliyyətini müvəqqəti dayandırsa da, on aydan sonra 1925-ci ilin iyulunda yenidən nəşrə başladı. Gənc jurnalist Mikayıl Rəfili jurnala məsul katib seçildi, redaksiya heyətində Abdulla Şaiq, H.Çobanzadə, Əhməd Pepinov kimi ziyalılar, ədiblər vardır. Bu jurnalda Almaz İldırım, Müniri, Səməd Mənsur, Əhməd Cavad, İsmayıl Hikmət, Cabbar Əfəndizadə kimi istedadlı, Azərbaycanın müstəqil və azad bir dövlət kimi yaşamasını arzulayan mübariz qələm sahiblərinin də yazıları dərc olunurdu.

1928-ci ilin yanvar ayından jurnal «İnqilab və mədəniyyət» adı ilə, Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin orqanı kimi fəaliyyətə başladı. Jurnalda Cəlil Məmmədquluzadə, Ə.Haqverdiyev, Süleyman Sani Axundov, Abdulla Şaiq, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı, Tağı Şahbazi kimi tanınmış qələm sahibləri ilə yanaşı, «Gənc qələmlər» rubrikası altında yeni gənc ədəbi nəslin nümayəndələrinin də əsərləri dərc edilirdi. 1924-cü ildə təşkil edilmiş ədəbi–bədii dərnəklərdə fəaliyyət göstərən Süleyman Rüstəm, S.Vurğun, Mikayıl Müşfiq, Ə.Nazim, M.Rəfili, Ə.Fövzi, Məmməd Arif, Məmməd Rahim, Abdulla Faruq, Rəsul Rza, M.Rzaquluzadə, Nigar Rəfibəyli, Ə.Əbülhəsən, Mirvarid Dilbazi, Mirzə İbrahimov, Mehdi Hüseyn və başqalarının əsərləri çap edilirdi.

Jurnalda dünya xalqlarının ədəbiyyatından Herodot, Homer, Sofokl, Esxil, Firdovsi, Ömər Xəyyam, H.Heyne,

Viktor Hüqo, A.S.Puşkin, M.Y.Lermontov, N.B.Qoqol, L. H.Tolstoy, R.Rollan, A.Barbüs və başqalarının əsərlərindən tərcümələr, onların həyat və yaradıcılığı haqqında məlumatlar da verilirdi ki, bu da jurnalın keyfiyyətini xüsusilə artırırdı.

Ədəbi tənqidlər, ədəbiyyatşünaslıqla bağlı verilən yazılar, onların ədəbi əsərlər haqqında maraqlı fikirləri jurnalda öz əksini tapırdı. P.Axundov, M.Cəlal, H.Zeynalov, Əli Nazim, Məmmədkazım Ələkbərli, Əmin Abid, Mikayıl Rəfili, M.Hüseyn, Məmməd Arif, Əziz Şərif, Mikayıl Rzaquluzadə, Hidayət Əfəndiyev və b. yazdığı dəyərli tədqiqat əsərləri, N.Nərimanovun, Ə.Qarayevin, D.Bünyadzadənin, S.M.Əfəndiyevin, N.Sultanovun və digər görkəmli ziyalıların ilk publisist yazıları da jurnalın səhifələrində dərc olunurdu.

1936-cı ilin iyun ayından jurnalın adı dəyişdirilərək «Revalyusiya və kultura» adı ilə çıxmağa başladı ki, bu da ruslaşdırma siyasətindən, Rusiyanın hegemonluq niyyətindən irəli gəlirdi. Jurnalın nəşrində geriləmələr, səhifələrində yaradıcı ziyalılar ilə yanaşı həkimlərin, müəllimlərin də məqalələrinin dərci ola bilsin ki, Azərbaycan ədəbiyyatındakı yüksək irəliləmələrə qısqanc münasibətdən doğurdu.

Böyük Vətən müharibəsi dövründə bütün qüvvələrimiz faşizmə qarşı mübarizəyə cəlb edilir. Ədəbi mühitdə də bu vəziyyət özünü bariz şəkildə göstərir. Müsəlləh əsgər ideyası ilə «silahlanmış» şair və yazıçılarımız həm qələmi ilə, həm də süngü ilə faşizmə qarşı mübarizəyə qalxdı. Həmin illərdə «Vətən uğrunda» adıyla çıxmağa başlayan jurnalın səhifələrində S.Vurğun, Rəsul Rza, Süleyman Rüstəm. M.Rahim və demək olar ki, bütün istedadlı qələm sahiblərinin yazdıqları şeirləri jurnalın səhifələrində dərc olunurdu.

Həmin illərdə jurnalı Məmməd Arif redaktə edirdi. Müharibədən sonra 1946-cı ilin iyun ayından 1952-ci ilin dekabrına qədər jurnalın adı «İnqilab və mədəniyyət» adı ilə nəşr olunsa da, 1953-cü ilin yanvarından dəyişilərək «Azərbaycan» adı ilə nəşrə başlayır.

Şair və yazıçılarımız, eləcə də ədəbiyyata yeni gəlməkdə olan gənc nəsil üçün «Azərbaycan» jurnalı bir ədəbi məktəb olmuşdur. 1923-cü ildən «Maarif və mədəniyyət» adı ilə nəşrə başlayan, «Azərbaycan ədəbiyyatı ilə birlikdə boy atıb böyümüş sosializm quruculuğunun bütün mərhələlərindən müvəffəqiyyətlə keçərək indi böyük oxucu kütləsinə malik həcmcə böyük, sanballı «Azərbaycan» jurnalına çevrilmişdir.

«Azərbaycan» jurnalının baş redaktoru İntiqam Qasımzadə «Azərbaycan-80 biblioqrafik göstərici» (1923-2003) kitabında yazır: «Ötən illər ərzində əvvəlcə «Maarif və mədəniyyət», sonra «İnqilab və mədəniyyət», «Revolyusiya və kultura», «Vətən uğrunda» və nəhayət «Azərbaycan» adı altında çıxan bu jurnalın 960-dan artıq sayı nəşr olunmuşdur. Və ölkəmizdə yaradılmış minlərlə ədəbi-bədii nümunələr; roman, povest və hekayələr, poema və şeirlər ədəbiyyatşünaslıq əsərləri, tənqidi məqalələr, dünya ədəbiyyatından tərcümələr, folklor nümunələri, publisist yazılar məhz burada dərc edilmişdir. Odur ki, «Azərbaycan» jurnalı ədəbiyyatımızın güzgüsüdür desək yanılmarıq. Söz sənəti ilə məşğul olan qələm sahiblərinin neçə-neçə nəslinin axtarışları da, uğurları da, büdrəmələri də bu güzgüdə əksini tapmışdır. Bu mənada «Azərbaycan» jurnalının nüsxələri ədəbiyyatımızın tarixini öyrənən hər bir kəs üçün-istər tədqiqatçı-alim, istərsə də adi bir oxucu üçün əvəzsiz bir mənbə, zəngin bir xəzinədir».

Jurnal istər sovet dövründə, istərsə də bu gün ən «qocaman» mətbu orqanı kimi fəaliyyət göstərməkdədir. Müxtəlif adlar altında uzun bir zaman fəaliyyət göstərən jurnal həm şair və yazıçılarımızın, həm böyük ziyalı nəslinin, böyük bir gənc nəslin sevimli mətbu orqanı olduğu kimi kommunist-sosialist ideoloqlarının ideologiyasını ifadə edən bir orqan kimi də fəaliyyət göstərmiş olsa da, zamanın sınaqlarından çıxmış, Azərbaycan ədəbiyyatının inkişafında da, böyük sənətkarların yetişməsində də misilsiz rol oynamışdır. Uzun müddət repressiyalara məruz qalmış Azərbaycan ədəbiyyatı «Azərbaycan» jurnalı ilə qoşa addımlamışdır. Çox ziyalılarımız təzyiqlərə məruz qalıb. «Azərbaycan» jurnalının səhifələrində dərc olunan yazılarda kommunist ideologiyasının zərərli təzyiqləri nəticəsində böyük sənətkarlarımıza, yüksək elmi potensial qüvvəyə malik alim, ədəbiyyatşünas, tənqidçilərimizə qarşı amansız yazılar da dərc edilirdi: «Həmid Araslı, Feyzulla Qasımzadə, Mikayıl Rəfili, Məmməd Cəfər, Mir Cəlal kimi məşhur Azərbaycan alimlərinin ən böyük günahı kimi bu göstərilirdi ki, onlar «Marksizm-leninzim» metodologiyası ilə kifayət qədər silahlanmamış, bu metodu öz işlərinə tətbiq etməmişdilər». Bu da alimlərimizin, eləcə də ədəbi mühitimizin geniş dolaylarından xəbər verirdi. Bir çərçivəyə sığmayan, buxovları qəbul edə bilməyən, o zəncirləri öz düşüncələrindən qırıb-atan bir kommunist ideologiyasına deyil, bəşəri düşüncələrə, amallara xidmət edən Azərbaycan ədəbiyyatının da inkişaf etdiyini, bu ədəbi metodu dəstəkləyən alimlər ordusunun varlığından xəbər verir. Onlar çox gözəl başa düşürdülər ki, «bəzi klassiklərin yaradıcılığına da «əl gəzdirilir», orta əsrlər poeziyasında parlaq iz buraxmış böyük mütəffəkkir şair İmadəddin Nəsiminin nöqsanı kimi göstərilirdi ki, «o, həqiqi azadlıq yolunu görə bilməmişdi». Adı çəkilən məqa-

ədə Abbasqulu ağa Bakıxanov idealizmdə günahlandırılır. Məhəmməd Hadiyə isə o zamanın dəhşətli yarlıqlarından biri yapışdırılır, bu böyük sənətkar «Burjua millətçisi» kimi damğalanırdı. Beləliklə də, «Azərbaycan» jurnalı ölkəmizdə ədəbi yaradıcılıq proseslərini özündə hərtərəfli əks etdirən, qərəzsiz bir güzgü olmuşdu. Bu güzgüdə ruha qol-qanad, xəyala pərvəriş verən fərəhli məqamlar çoxdur. Lakin on illərin arasından yenidən baxanda, onda qanqaraldan, ürəkgöynədən məqamların da» (Bəkir Nəbiyev) olduğu bir daha sübut edir ki, 70 illik bir sovet dönəmində yaşamış, yaratmış, bu gün Azərbaycan ədəbiyyatı tarixində yetişmiş şair, alim, nasir və tənqidçilərimizin ömür yolu kimi yaradıcılıq yolları da keşməkeşli bir dövr keçmiş, öz amalı, idealı uğrunda yazan-yaradanların ruhu, qol-qanadı burjua millətçisi, xalq düşməni, vətən xaini damğaları altında, kommunist ideologiyasına sığmamışdır.

«Azərbaycan» maddi imkansızlıq nəticəsində 90-cı illərdə bağlanmaq təhlükəsi yarananda dövlətimiz, xüsusilə ədəbiyyatın ən yaxın dostu, ümummilli liderimiz Heydər Əliyevin bir dövlət başçısı kimi şəxsi qayğısı nəticəsində yenidən fəaliyyətini bərpa edə bildi. Bu ədəbiyyatımıza 90-cı illər burulğanında ən böyük dəstək idi. İctimai-siyasi ziddiyyətlərin kəskinləşdiyi bir dövrdə dövlət ədəbiyyata qayğısını diqqətdən qaçırmırdı. Azərbaycan Yazıçılar Birliyinin yaşaması, fəaliyyəti üçün gördüyü işlə tarixin səhifələrinə yazılıb. Əmin Əfəndiyev fikirlərində haqlıdır ki, «Mübarizələrlə dolu 80 illik uğurlu bir inkişaf yolu keçərək ədəbiyyatımızın və mədəniyyətimizin parlaq güzgüsünə, xalq həyatının ədəbi salnaməsinə çevrilmiş «Azərbaycan» jurnalı hansı adla çıxmasından asılı olmayaraq, fəaliyyətinin bütün mərhələlərində özünün məqsəd və əqidəsinə sadiq qalmış, xalqın istək və arzusunu əks etdirmiş, ədəbi-mədəni

həyatımızı ardıcıl olaraq dolğun bir şəkildə işıqlandırmağa çalışmışdır. Çap olunduğu bütün illər ərzində Azərbaycan xalqının həyatında, ədəbiyyat, maarif və mədəniyyət sahəsində elə bir mühüm hadisə olmamışdır ki, o jurnalın səhifələrində öz əksini tapmamış olsun. Klassik irsin öyrənilməsi, müasir ədəbi proses, ədəbiyyatşünaslıq və ədəbi tənqidin inkişafı, teatr, musiqi, kino, eyni zamanda incəsənətin digər sahələrinin işıqlandırılması, dilimizin saflığı uğrunda mübarizə, dünya xalqlarının ədəbi-mədəni həyatına aid maraqlı materialların müntəzəm olaraq verilməsi jurnalın daim diqqət mərkəzində olmuş, o, respublikada ictimai-siyasi və elmi fikrin təbliğinə həmişə qayğı göstərmişdir».

İlk əsərləri ilk dəfə «Azərbaycan» jurnalının səhifələrində dərc olunan bu gün elə şair və ədiblərimiz vardır ki, Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri danılmazdır. X.Rza, M.Araz, İ.Hüseynov, B.Nəbiyev, Y.Qarayev, K.Talıbzadə, N.Cəfərov, N.Şəmsizadə, K.Abdulla kimi son illərin yetirmələri də bu siyahıdadır. Onların jurnalın səhifələrində dərc olunan yazıları ədəbiyyatımızın inkişafına, sağlam ədəbiyyatın daha da inkişaf etdirilməsinə, bəşəriyyətə böyük dühalar verən ədəbi irsimizin ənənələrinə, onları qoruyub saxlamağa xidmət edir, dünya ədəbiyyatında müasir Azərbaycan ədəbiyyatının da özünəməxsus layiqli yeri olduğunu sübut edən əsərlərdir.

Jurnalın biblioqrafiyası tərtib edilmişdir. Birinci təşəbbüs 1968-ci ildə jurnalın 1940-1965-ci illərdəki 25 illik fəaliyyətini özündə əks etdirən biblioqrafik göstərici M. F. Axundov kitabxanasında hazırlansa da, istənilən nəticə əldə edilmir. Jurnalın 50 illiyi ilə bağlı 1973-cü ildə Rasim Tağıyev «Azərbaycan jurnalının biblioqrafiyası» (1923-1972) adlı vəsait hazırlayır, çap edilir. 1923-cü ildən üzübəri 80

ildə jurnalın 1000-ə yaxın nömrəsi dərc olunub. «Azərbaycan-80 Biblioqrafik göstərici (1923-2003) 544 səhifəlik kitab, 2004-cü ildə çap edilmiş bu göstərici «Azərbaycan» jurnalının 1923-cü ildən bu günə qədər 80 ildə çapdan çıxmış 960-ə yaxın sayında, eyni zamanda 1926- cı ildən jurnala əlavə olaraq ayrıca buraxılmış «Ədəbi parçalar» adlı məcmuədə dərc olunmuş bütün materialları əks etdirir. Göstərici hazırlanarkən, jurnalın hər bir sayı diqqətlə nəzərdən keçirilmiş, ilk növbədə ədəbiyyatla əlaqədar müxtəlif səpkili materiallara üstünlük verilmiş, onlar Azərbaycan, rus, MDB və digər xarici ölkə xalqları üzrə ayrı-ayrılıqda qruplaşdırılmış, burada əvvəlcə bədii əsərlər janrlara görə sistemləşdirilmiş, daha sonra ədəbi-tənqidi məqalələr eyni qayda ilə tövsiyə edilmişdir. Bölmələr daxilində bir qayda olaraq müəlliflər əlifba sırası ilə, onların əsərləri isə xronoloji ardıcıllıqla verilmişdir». 80 il ərzində əsərləri bu jurnalda çap olunan ədib və şairlərimizin, alimlərimizin adı, əsərlərinin adı bu kitabda göstərilmişdir. Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən hazırlanmış «Azərbaycan» jurnalının 80 illiyinə həsr edilmiş bu biblioqrafik göstərici zaman-zaman böyük sənətkarlarımızın məhəbbətlə, hörmətlə yanaşdığı «Azərbaycan» jurnalının Azərbaycan ədəbiyyatında oynadığı mühüm tarixi rolunu qiymətləndirib: «Biz hamımız «Azərbaycan» jurnalının şinelindən çıxmışıq» (Nəbi Xəzri), «Azərbaycan» bütün ədiblərimiz, şairlərimiz üçün məktəb, «yazıçılıq akademiyası» olmuşdur» (S. Rəhimov), «Bizim H.Cavid, M.Müşfiq, S.Vurğun, S.Rüstəm, R.Rza, S.Rəhimov, M.İbrahimov və b. kimi qüdrətli söz ustadlarımız bu dərginin səhifələrində yetişmiş və ədəbiyyatımızı formalaşdırmışdır» (B.Vahabzadə). «Şüurlu həyatımın böyük bir hissəsi bu jurnalla əlaqədə keçmişdir. O, mənim üçün mənəvi, bədii qida mənbələrindən biri olmuşdur» (Məmməd

Arif), «Biz respublikamızı bir gün də bu məcmuəsiz təsəvvür edə bilmirik. Bu məcmuə qapı-pəncərəmizdən evimizə dolan günəşli, təmiz havadır» (M.Dilbazi) deyən böük sənətkarlar «Azərbaycan» jurnalının həm elmi, həm də mədəni həyatında oynadığı rolu yetərincə dəyərləndirmişlər.

«Azərbaycan» jurnalı AYB-nin ədəbi-bədii qüvvələrinin ən çox dərc olunan dərgisidir. Bu gün də bu jurnal dövlətin qayğısı, dəstəyi ilə fəaliyyət göstərir. Onun baş redaktoru tənqidçi, tərcüməçi İntiqam Qasımzadə bədii tərcümə ilə məşğul olur. Böyük Vətən müharibəsinin iştirakçısı, istedadlı şair Böyükağa Qasımzadənin ocağında dünyaya göz açan İntiqam Qasımzadə erkən yaşlarından ədəbi fəaliyyətə başlayıb. 60-cı illərdən dövri mətbuatda ədəbi-tənqidi məqalələri müntəzəm çap olunur. İntiqam Qasımzadə Kamil Yaşenin pyeslərini, Vasil Bıkovun povestlərini, Şandor Radonun «Təxəllüsü Dora» romanını dilimizə tərcümə etmişdir. 1980-ci ildən «Bayatı» televiziya almanaxının müəllifidir. Onun ssenarisi əsasında bir neçə cizgi filmləri və sənədli film çəkilmişdir. Tərcümə kitabları ilə oxucu kütləsinin məhəbbətini qazanıb.

Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanlarından biri «Ulduz» jurnalıdır. 1967-ci ildən fəaliyyət göstərən bu jurnalın səhifələrində yaradıcılığı ilə tanınan çox istedadlı ədiblərimiz, şairlərimiz, dramaturqlarımız yetişib. Fəaliyyət göstərdiyi yarım əsrə yaxın bir dövrdə əldən-ələ gəzən jurnal olub. Onun Yusif Səmədoğlu, Yasif Nəsirli, Ələkbər Salahzadə kimi istedadlı baş redaktorları olmuş, xalq yazıçısı, Mövlud Süleymanlı, İsi Məlikzadə, Vaqif Cəbrayılzadə və başqaları bu jurnalın nömrələrinin müntəzəm çıxmasında böyük əmək sərf etmiş istedadlı qələm sahibləridir.

Müstəqillik dövründən «Ulduz» jurnalı gənclərin aylıq orqanı kimi fəaliyyətini daha da genişləndirdi. Gənclərə daima diqqət və qayğı ilə yanaşan Azərbaycan Yazıçılar Birliyinin nəzdində fəaliyyət göstərən gənclər şurası onun ətrafında daha sıx birləşdi. Gənclərin jurnalı kimi tanınan «Ulduz»un baş redaktoru istedadlı yazıçı Elçin Hüseynbəylidir (2004-cü ildən). Sovet-kommunist rejimindən uzaq fəaliyyət göstərən jurnal baş redaktorun başçılığı ilə işini müasir tələblərə uyğun qurur, «qloballaşan dünyadan geri qalmamağa» çalışır. Maraqlı proyektlərlə oxucularla yanaşı, gənc qələm sahiblərinin də diqqətini cəlb etmişdir. İstedadlı gənclərin üzə çıxmasına çalışır, «İnternet-mozaika» dünya ədəbiyyatı haqqında məlumat əldə etməyə imkan yaradır. Jurnal öz səhifələrində «Ulduz»un qonaqlarına yer verir, müzakirələr, dəyirmi stollar təşkil edir, yeni nəşrlərin təbliğatçısı kimi çıxış edir. Bir-birindən maraqlı poeziya, nəsr, publisistika nümunələri ilə zəngin «Ulduz» jurnalı, onun kollektivi Azərbaycan ədəbi ənənələrinin davam etdirilməsi üçün bütün səy və bacarıqlarını əsirgəmirlər. 2009-cu ilin aprel nömrəsi bütövlükdə Gənc Ədiblər məktəbinin istedadlı gənc yazarlarının yaradıcılığını özündə əks etdirmişdir.

«Qobustan» jurnalı əsl incəsənət toplusudur. Bu jurnalın ilk nömrələrindən qazandığı uğurların nəticəsidir ki, bu gün də fəaliyyətini davam etdirir. Türk-Azərbaycan milli mədəniyyətini, incəsənətini, ədəbiyyatını təbliğ edən jurnalın uzun müddət baş redaktoru (1968-1987) xalq yazıçısı Anar, 1987-ci ildən 2004-cü ilə qədər xalq şairi Fikrət Qoca, 2004-cü ildə Ələkbər Salahzadə olmuşdur. Ədəbi mühitdə ən çox sevilən jurnaldır.

«Qobustan» jurnalı Anarın baş redaktoru olduğu illərdə «yüksək səviyyəli, milli əqidəli, yaxşı poliqrafik icralı bir mətbuat orqanına» çevrildiyi, onun baş redaktor kimi bu

işlərin öhdəsindən uğurla gəldiyi ədəbi mühitə yaxşı məlumdur. Bu jurnal fəaliyyət göstərdiyi sovet dönəmində çox çətinliklərlə üzləşmiş, haqqında donoslar verilmiş, fəaliyyətinə əngəllər törədilsə də, Heydər Əliyev jurnalın nömrələrini diqqətlə izlədiyindən əsl dövlət başçısı kimi bu jurnalın fəaliyyətini yazıçıların qurultayında yüksək dəyərləndirmişdi.

Anar «Ömrümün «Qobustan» illəri» məqaləsində bu jurnalın nə kimi çətinliklərlə nəşr olunduğunu yada salır və bildirir ki, «Qobustan mənim gəncliyimdir, bizim nəslin gəncliyidir... «Qobustan» ədəbiyyatımızda, sənətimizdə «60-cılar» adlanan və mədəniyyətimizin tarixində silinməz izlər salan bir nəslin səsi idi, onun ruhunun, dünyagörüşünün və dünyaduyumunun, düşüncələrinin, estetik zövq və meyarlarının ifadəsi idi... «Qobustan həm keçmişimizə sadiq idi, həm də gələcəyimizə...».

«Qobustan» öz səhifələrində daima ədəbiyyatın dostu, sirdaşı, mədəniyyətə, incəsənətə, onun inkişafına xidməti olan «istedadlı insanlara, onların yaradıcılığına xüsusi diqqət yetirir. Jurnalda xalq rəssamı, dünya şöhrətli insan Tahir Salahovun 75 illiyi ilə bağlı Anarın «Sədaqət» məqaləsində böyük rəssama olan «insan və sənətkar kimi böyük və səmimi» məhəbbətini, istedadına, əxlaqi və əbədi prinsiplərinə» hörmətini ifadə edir ki, bu da bütövlükdə ümumazərbaycan mədəniyyətimizə hörmətin, məhəbbətin ifadəsi kimi dəyərləndirilməlidir.

Yazıçıların mədəniyyətimiz, incəsənətimiz haqqında dəyərli əsərləri «Qobustan»ın səhifələrində dərc olunur. «Qobustan»ın səhifələrində möhtəşəm milli musiqimiz, milli-mənəvi irsimiz, kino sənətimiz, teatr, səhnə, tamaşaçı, əsər, aktyor və s. məsələlərə dair sanballı yazılar, dünya in-

cəsənəti, kinosu və s. ilə bağlı maraqlı tədqiqat xarakterli əsərlər ədəbiyyatımızın incəsənətə qarşı da qayğısının təzahürü kimi dəyərləndirilməlidir. Bu fikirlərlə razılaşaq ki, «Qobustan» neçə-neçə sənət nişanəmizi qayalarının, daşlarının köksündə qoruyub saxlayan, bu günümüzə çatdıran, on min yaşlı sənət qaynağımız Qobustanın bir növ əks sədası, neçə-neçə insanın səyi, canıyananlığı, köməyinə yaranıb. «Qobustan» nə qədər sənət adamının həyatına, yaradıcılığına çıraq tutub, neçə-neçə gənc sənətçinin üzə çıxarılmasında, tanınmasında müstəsna rol oynayıb... Toplunun həm araya-ortaya gəlməsində, formalaşmasında, həm də oxucular arasında böyük nüfuz qazanıb sevilməsində onun ilk baş redaktoru xalq yazıçısı Anarın çox ciddi haqqı-sayı, əməyi olub.

Azərbaycan Yazıçılar Birliyinin həftəlik mətbu orqanı olan «Ədəbiyyat qəzeti» həmişə öz maraqlı yazıları ilə tanınıb. İlk nömrəsi 1934-cü ilin yanvarın 1-də işıq üzü görüb. Onun baş redaktoru həmişə istedadlı sənətkarlarımız (M.K.Ələkbərli, N.Həsənzadə, A.Vəfalı və b.) olub. Nəsr, poeziya, publisistika, tənqid və ədəbiyyatşünaslıq, teatr və kino, təsviri sənət sahəsində oxucuları maraqlandıran yazılarla həmişə zəngin olub. Azərbaycan, SSRİ xalqları və xarici ölkə yazıçılarının əsərləri, ədəbiyyat və incəsənət problemlərinə dair məqalələr, publisistik yazılar da dərc olunur. Ulu öndərimiz bu qəzetlə bağlı olaraq dediyi «Mən Moskvada işlərkən Azərbaycanda çıxan bütün qəzetləri alırdım. Onların hamısını oxumağa, şübhəsiz, vaxtım olmurdu. Ancaq «Ədəbiyyat qəzeti»ni mütləq oxuyurdum, əvvəldən axıra qədər oxuyurdum». Bu qəzetin bu günə qədər dörd minə yaxın sayının çapdan çıxdığını və nüsxələrin hamısının kitabxana, arxiv və muzeylərdə, elmi idarələrdə saxlanılmamasını nəzərə alaraq, onun ədəbi-mədəni həyatımızdakı

misilsiz rolunu dəyərləndirərək «respublika kitabxanalarında saxlanılan salamat nüsxələrini mikrofilmləşdirib bir yerə toplamaq və xüsusi kitabxana yaratmaq», qəzetin dörd minə yaxın sayındakı on minlərlə materialları tam əhatə edən sanballı biblioqrafik göstərici hazırlamaq» vacibliyini Azərbaycan Nazirlər Kabineti qayğıyla qarşıladı. Və bu layihənin həyata keçirilməsi Azərbaycan Respublikasının Baş nazirinin müavini, xalq yazıçısı Elçinin təklifi ilə Mədəniyyət və Turizm Nazirliyinə və Azərbaycan Yazıçılar Birliyinə həvalə olundu. «Ədəbiyyat qəzeti»nin baş redaktoru Ayaz Vəfalının sədrliyi ilə komissiya yaradılması (31 avqust 2007) haqqında qərar qəbul edildi. Mədəniyyət və Turizm Nazirliyi həmin məsələ ilə əlaqədar «Ədəbi yaddaşımız-Ədəbiyyat qəzeti» layihəsinin həyata keçirilməsinə qərar verdi.

«Dünya ədəbiyyatı» dərgisinin əsası 2004-cü ilin mayında qoyulub. Dünya ədəbiyyatı nümunələrinin, eləcə də tərcümə praktikası və nəzəriyyəsi haqqındakı araşdırmaların Azərbaycan dilinə tərcüməsi və təqdim olunması işini yerinə yetirir .

Yaradıcısı Səlim Babullaoğlu ədəbi fəaliyyətə tələbəlik illərindən başlamış, şeir, hekayə, esse, məqalələri ilə yanaşı bədii tərcümə ilə də məşğul olur. İlk kitabı «Tənha»dır. Baş redaktoru olduğu «Dünya ədəbiyyatı» jurnalı daha çox orijinaldan tərcümələrə üstünlük verir. Dərgilərin işıq üzü görməsində Gənclər, İdman və Turizm Nazirliyinin rolu böyükdür. 2005-ci ildən qısa adı «DƏB» olan «Dünya ədəbiyyatından books» seriyası nəşr olunmağa başlamışdır ki, indiyə kimi bu seriyadan ondan çox kitab işıq üzü görmüşdür. «Dünya ədəbiyyatı» dərgisi «Qloballaşma ədəbiyyatı» mövzusunda beynəlxalq konfrans təşkil etmiş, həmin konfransda digər ölkə ədəbiyyatçıları da iştirak etmişdir. Bu dərgi

yalnız bədii nümunələrin öz dilimizə tərcüməsini deyil, həm də bizim çağdaş ədəbiyyatın dünya dillərinə tərcümə olunması sayəsində fəaliyyəti də dəyərlidir. 35 azərbaycanlı müəllifin müxtəlif janrlı əsərləri gürcü, özbək, rus dillərinə tərcümə olunmuş və yaxud da ki, elektron versiyaları hazırlanmışdır. «Dünya ədəbiyyatı» dərgisi öz praktikasında icazəli bədii ədəbiyyat nəşretmə mexanizmini son illərdə işə salan ilk qurumdur.

«Literaturnıy Azerbaydjan» jurnalı uzun illərdir ki, fəaliyyət göstərir. Qeyri-Azərbaycan ədəbi əlaqələrinin inkişafında böyük rol oynamış «Literaturnıy Azerbaydjan» jurnalı keçmiş sovetlər birliyinə daxil olan xalqların ədəbi əlaqələrinin möhkəmlənməsində xidmətləri böyükdür. Səyavuş Məmmədzadə, A.Xaldeyev, İvan Tretyakov, S.İbrahimova, Mənsur Vəkilov və başqaları bu jurnalın uğurlu fəaliyyətində böyük xidmətləri olan sənətkarlardır.

«Körpü» dərgisi nəşr olunmağa başladığı vaxtdan diqqəti cəlb etmişdir. Səhifələrində çağdaş ədəbiyyatımız haqqında çox dəyərli ədəbi-tənqidi məqalələrlə yanaşı, istedadlı gənclərin yaradıcılığından nümunələr də dərc olunmaqdadır. Dünya ədəbiyyatından tərcümələrlə, ədəbi janrlarla bağlı dünya ədəbi prosesləri haqqında maraqlı məqalələrlə zəngin «Körpü» jurnalı öz prinsipiallığı, ədəbi-bədii keyfiyyətləri ilə zəngin yazıları dərc edir. Jurnalın baş redaktoru Əsəd Cahangir Azərbaycan ədəbi tənqidi sahəsində uğurlu yaradıcılığı ilə tanınmış istedadlı qələm sahibidir.

Çağdaş ədəbi prosesin inkişafında Azərbaycan Yazıçılar Birliyinin orqanları olan «Azərbaycan», «Ulduz», «Ədəbiyyat», «Qobustan», «Literaturnıy Azerbaydcan», «525-ci qəzet», «Kredo», «Ekspress», «Yeni Azərbaycan», «Ədalət», «Azadlıq», «Bizim əsr», «Sənət», «Rezonans», «Üç nöqtə» qəzetləri ilə yanaşı «Körpü»nün səhifələrində bədii əsərlərlə

bərabər, tənqidi yazılara da yer verilir. Vaqif Yusifli, Əsəd Cahangir, Rahid Ulusel, Cavanşir Yusifli, Bəsti Əlibəyli, Tehran Əlişanoğlu, Rüstəm Kamal, Nadir Hüseynzadə, İradə Musayeva, Gülxani Pənah, Nərgiz Cabbarlı dövrün ədəbi prosesini geniş və hərtərəfli təhlilini verməyə çalışırlar.

Əsəd Cahangirin baş redaktorluğu ilə çıxan «Körpü» ədəbi-tənqidi dərgisi 2004-cü ildən başlayaraq çap olunur. AYB bu jurnalın çapına yardım göstərir. Burada çap olunan yazılar öz sanballığı ilə diqqəti cəlb edir. «Platondan Anara qədər», Rüstəm Kamalın «Nüsrət Kəsəmənlinin «tale» mətni: simvolik və gerçəklik», onların «dünya poetikasına, fəlsəfi fikir təcrübəsinə söykənərək» (R.Ulusel) yürütdükləri bənzərsiz mülahizələr dəyərləndirilir.

Çağdaş Azərbaycan ədəbi tənqidi fikrində modernizm və postmodernizm dünyagörüşünə, fəlsəfəsinə, bədii praktikasına münasibət müxtəlifliyi özünü göstərir. Aydın Dadaşovun «Modernizm nədi? Nədi imodernizm» («Ulduz», 2004, №6), Qorxmaz Quliyevin «Postmodernizm» («Azərbaycan», 2005, №9), Əhməd Qəşəmoğlunun «Postmodernizm: yarımçıq dünyagörüşün məhsulu» («Ədəbiyyat qəzeti», 4 mart 2005), Elmar Vüqarlının tərcüməsiylə verilən Fayaz Çaqaninin «Postmodernizm» və s. məqalələr içərisində tədqiqatçı alimlərimiz Q.Quliyevin postmodernizm haqqında «dolğun», «aydın» təsəvvür yaratdığını söyləyir: «Məlum olur ki, bu cərəyan Azərbaycanın bədii estetik şüuruna nə dərəcədə yararlıdı və bu «məkanda» necə qərarlaşa bilər. Əhməd Qəşəmoğlu isə Azərbaycan mədəniyyət düşüncəsindən çıxış edərək postmodernizmə münasibətini bildirir. O, Şərq və Qərb mədəniyyətinin qarşılıqlı münasibətlərinə, bir-birini təsirləndirmələrinə obyektiv yanaşmada belə bir həqiqət ortaya qoyur ki, bir çox yazarlar postmodernizmin

nə demək olduğunu, onun genezisini, hansı fəlsəfi, siyasi məziyyətlərdən, ənənələrdən qidalandığını, hansı tarixi situasiyada, hansı mental kompleksdən, dünyagörüşündən törəndiyini bilmədən onun ətəyindən» yapışanları tənqid edir, postmodernizmin Qərbin özü üçün də çoxdan «köhnəldiyini», «bizim qoca cavanlarımızın» isə hələ də ondan «əl çəkmək» istəmədiklərini bildirən R.Ulusel fikirlərində haqlıdır ki, «müasir Qərb çağdaş dünya üçün daha çox klassikası ilə, məsələn, intibah, romantizm, XX yüzilliyin monumental roman, poeziya janrları ilə, filosofların məktəb yaradıcılığı ilə örnək ola bilər. Qoy Qərb özünün sönmüş hesab etdiyi mədəniyyətini özü göyərtsin. Bizim öz problemlərimiz var, bu problemləri kimlərisə yamsılamaqla ört-basdır edə bilmərik. Qlobal məkanda milli mədəniyyətimizin taleyini, varlığını, perspektivliyini düşünə bilən adamlar bunun nə demək olduğunu yaxşı başa düşürlər» («Körpü» jurnalı, 5/ 2007).

Rəşad Məcidin baş redaktor olduğu «525-ci qəzet» müasir oxucu kütləsini özünə cəlb edə bilən bir mətbu orqandır. Azərbaycan mətbuatında müxtəlif yönümlü, fərqli istiqamətləri işıqlandıran onlarla ictimai-siyasi, ədəbi-bədii qəzet və dərgilər nəşr olunur. Onların içərisində «525-ci qəzet» xüsusilə fərqlənir. Mətbuat tarixində ilk dəfə olaraq gündəlik nəşr olunan «525-ci qəzet» digər nəşrlərin Azərbaycan ədəbiyyatı ilə bağlı materialları səhifələrində işıqlandırmadığı bir vaxtda-hələ bir neçə il bundan əvvəl ədəbiyyat sahəsinə xüsusi diqqət yetirməyə başlayıb. «525-ci qəzet»in ədəbiyyatın inkişafı və təbliği ilə bağlı apardığı işlər layihələr şəklində artıq bir neçə ildir ki, həyata keçirilir. Bir neçə il öncə əksər qəzetlərin səhifələrində ədəbiyyatla bağlı cəmi bir neçə şeir, yaxud hekayə verdiyi vaxtda sözügedən qəzet ədəbiyyatla bağlı silsilə yazılar, milli ədəbiyyatımızın

çağdaş durumunu əks etdirən nümunələrə öz səhifələrində geniş yer verib. Qəzetin xüsusilə 32 səhifə həcmində çap olunan şənbə nömrəsində ədəbiyyat mövzusu daha artıq yer alır.

«525-ci qəzet» siyasi baxışından, hansı ədəbi cəbhədə təmsil olunmağından asılı olmayaraq gənclərin yaradıcılığına geniş yer ayırır. Qəzetin başlıca prinsipi fərqli fikir nümayiş etdirməyindən asılı olmayaraq ədəbi istedadı olan şəxslərin yaradıcılığını işıqlandırmaqdır. Artıq bir neçə ildir ki, «525-ci qəzet» «İlin ən yaxşı bədii əsəri» layihəsini davam etdirir. İndiyədək sözügedən layihə çərçivəsində tanınmış yazıçılardan Anar, Elçin Əfəndiyev, Kamal Abdulla və başqalarının əsərləri ilin ən yaxşı bədii əsəri seçilib.

Bu yaxınlarda «525-ci qəzet» mətbuat tarixində ilk dəfə olaraq «Dünya ədəbiyyatı» dərgisinin dəstəyi ilə dünya və Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrinin əsərlərini «525 kitab» layihəsi çərçivəsində nəşr etdirir. Layihə ilə bağlı artıq Nobel mükafatçılarından İ. Brodski, O. Pamuk, eləcə də ədəbiyyatımızın tanınan simalarından Anar, Ədalət Əsgəroğlu və digərlərinin əsərləri nəşr olunub. 2009-cu ildə layihə çərçivəsində dünya ədəbiyyatından Boris Pasternak, Söhrab Sipehri, Mişel Uelbek və modern gürcü şeirlərindən seçmələri də nəşr etməyi nəzərdə tutur. Bu siyahıya həmçinin Azərbaycanın tanınmış qələm adamlarından Elçin, Ramiz Rövşən, Səlim Babullaoğlunun çap olunacaq əsərləri də daxildir.

«525-ci qəzet»də həmçinin çağdaş ədəbi proseslər, keçirilən dəyərli kitabların təqdimatı, Gənc Ədiblər Məktəbi üzvlərinin bədii və publisistik yaradıcılığı öz əksini tapır. Eləcə də müasir ədəbiyyatımızda tanınmış yazıçıların yeni yaranan bəzi irihəcmli əsərləri, hekayələri qəzetdə nəşr olunur və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanır.

Azərbaycan ədəbiyyatının təbliğində «Kaspi» qəzetinin rolunu da xüsusilə qeyd etməliyik. Onun səhifələrində bədii cəhətdən dəyərli, oxucu üçün maraqlı olan poeziya və nəsr əsərlər çap olunur. Şairə, alim Sona Vəliyevanın təsisçisi olduğu, onun zəhməti sayəsində bu gün də çap olunan «Kaspi» qəzeti uzun ömürlü mətbu orqanlardan biridir.

Azərbaycan Yazıçılarının ən çox üz tutduğu «Kredo» qəzeti zamanın mətbu orqanıdır.

Öz səhifələrində ictimai-siyasi, ədəbi-bədii-tarixi mövzulara yer ayıran «Kredo» qəzeti fəaliyyət göstərdiyi müddətdə bir çox mətbu orqanların görə bilmədiyi işləri elə şərəflə yerinə yetirdi ki, bu gün biz iftixarla deyə bilərik ki, «Kredo» zamanın qəzetidir, şair, yazıçı, alim, tarixçi, ədəbiyyatşünasların qəzetidir.

İndiki dövrdə qəzetlər dərc etmək, onun uzunömürlülüyünü təmin edə bilmək çox çətindir. Sirr deyil ki, Azərbaycanın mətbuat aləmində xeyli sayda qəzetlər nəşr olunur. Lakin bu qəzetlərin heç də hamısı oxucu marağını, oxucu rəğbətini qazana bilmir. Elə qəzet və jurnallarımız var ki, aylarla işıq üzü görmür, ictimaiyyət arasında özünü doğrulda bilmir. Müxtəlif səbəblərdən nəşrini dayandırır, ya da nəşr azalır.

«525-ci qəzet», «Kaspi», «Kredo», «Ekspress», «Ədalət», «Zerkalo», «Ədəbiyyat» və bəzi adlarını çəkmədiyim qəzetlər isə oxucu marağını üstələyib. Bu qəzetlər içərisində «Kredo» öz dəsti-xətti ilə seçilir. Bu gün «Kredo» mətbuat aləmindəki problemlərlə çiyin-çiyinə dayanaraq dözüm, iradə və cəsarət nümayiş etdirir. Onun səhifələrində Azərbaycanın mədəni quruculuğunun, sosial həyatının hər sahəsinin izi var. «Kredo» «Əkinçi», «Molla Nəsrəddin», «Açıq söz», «Azərbaycan» kimi böyük ideyaları özündə yaşadan

mətbu orqanıdır. Bu qəzetdə dərc olunan yazılarda obyektivlik güclüdür.

Bu qəzetdə xalqımızın öz soykökünə bağlılığını, şərəfli tarixini, bəşəri dəyərlərini özündə yaşadan mövzular çap olunur. «Kredo» öz səhifələrində Azərbaycanın problemlərini, qayğılarını yaşadır.

«Kredo» təkcə sənət, ədəbiyyat aləmi deyil, müxtəlif digər sənət, peşə ilə əlaqədar olan mövzuları da öz səhifələrinə çıxarır. Bir-birindən maraqlı, oxunaqlı bu mövzular «Kredo»ya marağı artırır. «Kredo»nun səhifələrində nələr yoxdur, hansı problemlər açılmır, narahatlıq doğuran hansı problemlər yoxdur? Biz onun səhifələrində Azərbaycan xalqı üçün çox böyük maraq doğuran böyük ziyalılarının, tarixi şəxsiyyətlərinin keçdiyi həyat yolundan bəhs edən mövzuları, cəmiyyətin müxtəlif təbəqələrinin arzu və istəklərini əks etdirən problemləri və onun həlli yollarını özündə əks etdirən yazıları görürük.

Dünyanın bir çox tarixi şəxsiyyətləri, onların həyatı, fəaliyyəti ilə bağlı bir-birindən maraqlı yazılar da Azərbaycan oxucusunun dünyagörüşünü, biliyini artırır.

«Kredo» sözə hörmətlə yanaşan, onun ədalət və kəsərliliyinə inanan, mənəvi dəyərlərimizə işıq tutan bir orqandır. «Kredo»nun ən böyük xidmətlərindən biri də odur ki, o öz səhifələrində ədəbi proseslərə geniş yer ayırır. Onun səhifələrində gedən yazıların çəkisi, tutumu bunu da deməyə əsas verir ki, «Kredo» «Ədəbiyyat» qəzetinin, «Azərbaycan», «Ulduz» kimi ədəbi-bədii orqanların layiqli davamçısıdır.

«Əkinçi», «Molla Nəsrəddin» kimi böyük mətbu orqanlarının davamçısı olan «Kredo» milli dövlətçiliyimizin, milli mənəviyyatımızın müdafiəçisidir. «Kredo»nun 100-cü sayının təqdimat mərasimində deyilən «Qəzetin fundamentini-əsasını qoyanların həyat kredosu müqəddəs bir yolda

əqidə və inam uğrunda mübarizədə dönməzlik prinsipi olduğundan «Kredo» ilk saylarından başlayaraq milli dövlətçiliyin, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının yorulmaz mətbuatçısına çevrildi. Çox keçmədi ki, qəzetdə tutduğu mövqeyə, ədəbi xəttə görə hər yerdə ehtiramla qarşılandı və tanınmış Azərbaycan ziyalıları, alimləri, filosofları, tədqiqatçıları, şair və yazıçıları tərəfindən sevildi. Beləliklə, «Kredo» öz ətrafında nəhəng bir ədəbi və ictimai fikir dünyasının meyarları sayılan şəxsiyyətləri birləşdirə bildi» sözlərini bu gün də onun ünvanına daha ürəklə, daha da səmimiyyətlə deyə bilərik.

Bütün deyilənlərdən bu qənaətə gəlmək olar ki, Azərbaycan ədəbiyyatının inkişafında, geniş oxucu kütləsi arasında yayılmasında mətbuat orqanlarının fəalliyyəti böyükdür.

AZƏRBAYCAN ƏDƏBİYYATI XARİCİ ÖLKƏLƏRDƏ

Azərbaycan xalqı sovet dönəmində Sovetlər Birliyinin on beş respublikasından biri kimi fəaliyyət göstərib, yaşayıb, yaradıb. Ədəbiyyatını, mədəniyyətini, elmini inkişaf etdirib. Azərbaycan sovet ədəbiyyatı nəsr, şeir, dramaturgiya, ədəbiyyatşünaslıq sahəsində yüzlərcə dəyərli əsərlərə sahibdir. Bu əsərlər ədəbiyyat tariximizin qızıl fonduna daxil olmuş əsərlərdir. Bu əsərlər sərhədlər aşmış, dünya xalqlarının sərvətinə çevrilmişdir. Ümumbəşəri ideyalarla zəngin Azərbaycan ədəbiyyatı bəşəriyyətin mənəvi tərəqqisinin də ifadəçisidir. Ədəbi əlaqələrin qüvvətlənməsi, xalqlar arasında sülh, əmin-amanlıq, dostluq kimi humanist hisslər tərbiyə edən Azərbaycan ədəbiyyatının həm SSRİ ərazisindəki xalqlarla, həm də xarici ölkə xalqları ədəbiyyatı ilə əlaqəsinin zəngin və qədim tarixi var. Azərbaycan ədəbiyyatının kökü çox qədimlərə gedib çıxır, sərhədləri bilinməyən Azərbaycan ədəbiyyatının qiymətli mənbələri ən qiymətli sərvətləri kimi Amerika, İngiltərə, Almaniya, Fransa, Rusiya, Türkiyə, Çin, bir sözlə Şərqin ən böyük mədəni abidələri qorunub saxlanan muzeyləri, kitabxanaları, əlyazmalar mərkəzini zənginləşdirir. Avropa, Asiya, Afrika, Amerikada Azərbaycanın mədəniyyətinə, ədəbiyyatına maraq artır. Azərbaycan Yazıçılar İttifaqı da ardıcıl və prinsipial iş aparmış, ölkəmizin şair və yazıçıları müxtəlif ölkələrə səfər etmiş, vətənimizə 88 ölkədən 2200-dən çox yazıçı gəlmişdir. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətinin IV respublika konfransı iştirakçılarına Azərbaycan KP MK-nın təbrikində deyilir: «Azərbaycanın

Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyəti ictimai tərəqqinin ön mövqelərinə çıxan Azərbaycan xalqının diqqətəlayiq nailiyyətlərinin geniş xarici ictimaiyyətin nəzərinə çatdırılmasında öz fəaliyyəti ilə layiqli kömək göstərir».

Bu cəmiyyət dünyanın bir çox ölkəsində Azərbaycan günləri keçirmiş, Azərbaycanın yazıçı, şair və alimləri müxtəlif ölkələrdə keçirilən ədəbi yığıncaqlarda yaxından iştirak etmişdir. Müharibədən sonrakı dövrdə xarici ədəbi əlaqələrimiz genişlənir. Bu işin ilk təşəbbüsçüsü S. Vurğun 1948-ci ildə Bratislavada mədəniyyət xadimlərinin ümumdünya konqresində iştirak etmiş, öz təəssüratlarını və «Zəncinin arzuları» poemasını qələmə almışdı. Həm rəsmi, həm də qeyri-rəsmi xarici ədəbi əlaqələr Azərbaycan sovet ədəbiyyatının müharibədən sonrakı inkişafında yeni istiqamətin yaranmasına səbəb olmuşdur. İmperializmin törətdiyi qanlı cinayətlər, müstəmləkəçiliyə qarşı bilavasitə canlı müşahidələr nəticəsində bədii əsərlər yazılır və bu əsərlər ədəbiyyat tariximizdə mühüm yer tutur. Sovet hakimiyyətinin mövsud olduğu ilk dövrlərdə yazıçılar, şairlər beynəlxalq mövzunu xarıcı mətbuatdan, siyasi ədəbiyyatdan və başqa mənbələrdən götürsələr də, 50-ci illərdən bilavasitə canlı müşahidələri əsasında yazırdılar.

1980-ci ildə Azərbaycanda Yazıçıların Ümumittifaq Yaradıcılıq Konfransı keçirilir. «Xalqların dostluğu-ədəbiyyatların dostluğudur» devizi altında keçirilən bu konfransda Çexoslovakiya Yazıçılar İttifaqının sədri Yan Kozak, ƏXDP MK siyasi bürosunun üzvü, şair Pəncşiri Qulam Dəstəgiri, Misir şairi Əbdürrəhman əl-Xəmisi kimi bir çox xarici qonaq iştirak edirdi. Cəfər Cabbarlı, S.Vurğun, M.Hüseyn, M.İbrahimov, Mir Cəlal, S.Rüstəm, R.Rza, İ.Əfəndiyev, S.Rəhimov, M.Rahim, N.Xəzri, B.Vahabzadə, Anar, Elçin, Ç.Hüseynov və başqa yazıçı və şairlərimizin

əsərlərini təkcə Sovet İttifaqında deyil, xarici ölkələrdə də tanıyırdılar. M.Arif, F.Qasımzadə, H.Araslı. M.Cəfər, M. Rəfili, Ə.Mirəhmədov, A.Zamanov, K.Talıbzadə kimi ədəbiyyatşünasların elmi monoqrafiyaları, məqalələri xarici elmi dairələrdə də istifadə olunurdu. Kuba şairi Fəyyad Xamis «Odlar diyarı», Luis Süardans «Payızda Xəzər sahilində», Miqel Barnod «Mən Bakıya gəlmişəm» şeirlərində Azərbaycanı, Bakını tərənnüm edirdilər. Kuba mətbuatında zəngin Azərbaycan ədəbiyyatı tarixi və mədəniyyəti geniş işıqlandırılırdı. 1959-cu ildə Hollandiyalı professor Nizami muzeyinə baxdıqdan sonra xatirə kitabında yazırdı: «Gözəl Bakı şəhərində olmaq və Azərbaycan ədəbiyyat tarixini əks edən muzeyə getmək mənə böyük ləzzət verdi. Məndə daş kimi möhkəm əqidə yarandı ki, Azərbaycan xalqının mənim vətənimdə az məlum olan mədəniyyəti və ədəbiyyatına aid daha bir şey öyrənəm».

Azərbaycan klassik ədəbiyyatı dünya ədəbiyyatına, dünya ədəbi fikrinə qüvvətli təsir göstərdiyi müxtəlif tədqiqat əsərlərində faktlarla sübut edilmişdir.

Nizami yaradıcılığının Yaxın və Orta Şərqin ədəbi inkişafına böyük təsir göstərdiyi, onun «Xəmsə»si əsasında onlarla yeni «Xəmsə» yarandığı, «Leyli və Məcnun» əsəri əsasında müxtəlif ölkələrdə «Leyli və Məcnun» süjetli əsərlər yazıldığı məlumdur. Bu qədim ərəb əfsanəsi, Nizamiyə əbədi şöhrət qazandırdı. Nizami, Xaqani, Füzuli, Nəsimi, Saib Təbrizinin və onlarla qüdrətli qələm sahiblərinin əsərləri dünyanın məşhur əlyazmalar fondunda saxlanır.

Nizami irsi Gürcüstan, Ermənistan, Orta Asiya, Bizans, Rusiya, Çin, Hindistan, Misir, İran, İraq, Avropa, Suriya, Səudiyyə Ərəbistanı, Makedoniya, Misir, Həbəşistanda, M.F.Axundov kimi Azərbaycan ədəbiyyatının banisinin zəngin yaradıcılığı Yaxın Şərqdə, Rusiyada, Qərbdə

məşhur idi. 1905-1906-cı illər inqilabının güclü dalğası milli oyanışa səbəb oldu. Belə bir dövrdə dünya mədəniyyəti xəzinəsinə Azərbaycan M.Ə.Sabir, C.Məmmədquluzadə kimi ədəbi simalar verdi. Onların fəaliyyətinin Yaxın Şərqdə ədəbi oyanışa səbəb olduğu məlumdur. «Molla Nəsrəddin» jurnalı öz sferasını genişləndirərək onu milli zəmində deyil, ümumbəşər səviyyəsinə qaldırmışdı. Müstəmləkə zülmü altında inləyən Asiya və Afrika xalqlarının o zamankı həyatından bəhs edən mövzulara jurnalın səhifələrində geniş yer verilirdi. Jurnalın əməkdaşlarından biri yazırdı: «...bizim o cümlədən Nyu-Yorkda, Hindistanda, Kəlküttədə, London, Berlin, Paris, Roma, İstanbulda, Misir və İranın bir çox şəhərlərində, Rusiyanın hər tərəfində abunəçilərimiz vardı».

1959-cu ildə Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü möhtəşəm bir vüsət aldı. Azərbaycan ədəbiyyatının və mədəniyyətinin böyük tərəqqisi göz önündə idi. Müharibədən sonra Azərbaycanda kitab çapında digər xalqların ədəbiyyatına da geniş yer verilirdi. 1946-1953 cü illərdə 858 adda bədii ədəbiyyat kütləvi tirajla nəşr edilmişdir ki, bunların 65-i SSRİ xalqlarının, 59-u xarici ölkələrin ədəbiyyatına aid kitablar idi. 250-si rus ədəbiyyatına məxsus idi. Həmin dövrdə Azərbaycan ədəbiyyatının 132 əsəri rusca çapdan çıxmışdı. SOV İKP MK II qurultaydan keçən 20 il ərzində sovet ədəbiyyatının, onun tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının beynəlxalq aləmdə nüfuzunun artdığını yazıçılara göndərdiyi məktubunda qeyd edir: «Həmin illər ərzində sovet ədəbiyyatının beynəlxalq nüfuzu artmış, onun oxucu dairəsi Sovetlər İttifaqının hüdudlarından kənarda, xüsusilə xalq demokratiyası ölkələrində müqayisəyə gəlməz dərəcədə artmışdır. Sovet ədəbiyyatı milyonlarca xarici oxucunun rəğbətini ona görə qazanmışdır ki, o, daima zəhmətkeşlərin mənafeyini müdafiəyə qal-

xır; imperializmin insana nifrət ideologiyasına zidd olaraq insanpərvərlik, sülh uğrunda mübarizə, xalqlar arasında dostluq ideyasını müdafiə edir. Bəşəriyyətin işıqlı gələcəyinə inam ruhu ilə dolğundur».

Azərbaycan və dünya mədəni əlaqələrində beynəlxalq əhəmiyyət kəsb edən iki böyük tədbir-Asiya və Afrika xalqları ilə II Sovet həmrəylik konfransı (1964, Asiya və Afrika ölkələri yazıçıları ilə Sovet əlaqə Komitəsinin iclası (1966) Bakıda keçirilmiş, Azərbaycanda olan xarici qonaqlar respublikamız haqqında təəssüratlarını əsərlərində əks etdirmişlər. Azərbaycan yazıçıları müxtəlif ölkələrin həyatından, beynəlxalq məsələlərə aid çoxlu bədii, publisistik yazılar yazırlar. Tədqiqatçılar fikirlərində haqlıdır ki, o dövrdə təktək Azərbaycan yazıçısı tapılardı ki, xarici ölkədə olmamış olsun. İstər keçmiş sosialist, istərsə də kapitalist ölkələrində müxtəlif simpozium, konfrans və iclaslarda iştirak etmiş şairlərimiz çox idi. Səməd Vurğun Polşa, Almaniya, Bolqarıstan, İngiltərə, Çində, M.İbrahimov Asiya, Afrika və Avropanın bir çox ölkələrində, Rəsul Rza Avropa ətrafında, ərəb ölkələrində, Hindistanda, Mehdi Hüseyn, Osman Sarıvəlli, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, İmran Qasımov Fransa və İtaliyada, eləcə də bir çox başqa yazıçılarımız dünyanın bir çox ölkələrində olmuş, müxtəlif ictimai şəraitdə yaşayan xalqların həyatının canlı müşahidəçisi olmuşlar. Əkbər Ağayev yazır: «... Dünyanın bir çox yerlərində təkcə 20-30-cu illərdə sovetlər diyarına səfər etmiş xarici ölkə yazıçılarının adlarını çəkmək lazım gəlsə, çox uzun bir siyahı yaranar. Budur, məsələn, həmin dövrdə Azərbaycanda olmuş yazıçılar Con Rid, Bernhard Kellerman, Anri Barbüs, Nazim Hikmət, Bella İlleş, Andor Qabor, Mate Zalka, Bruno Yasenski, İohannes Bexer, Pol Vayyan Kütü-

yere, Karl Qrünberq, Emil Madaras, Villi Bredel, Oskar Maria Qraf, Erist Toller, Jan Rişard Blok».

Azərbaycan ədəbiyyatı xaricdə böyük maraqla qarşılanırdı. 50-dən çox ölkəyə 70-ci illərdə 16 mindən çox kitab göndərilmişdi. Azərbaycanın kinofilmləri dünyanın müxtəlif ölkələrinə ayaq açmışdı. Bu kinofilmlərin ssenarilərini yazan Azərbaycan ədib və şairləridir. İraqın «Yurd» qəzeti Azərbaycan ədəbiyyatını ardıcıl olaraq təbliğ edirdi. 1975-ci ildə Azərbaycanda sovet ədəbiyyatı günləri keçirildi. Bu zaman respublikamızda qonşu ölkələrdən, eləcə də xaricdən gələn ədəbiyyatçılar respublikamızın müxtəlib bölgələrini gəzmiş, xalqımızla yaxından tanış olmuş, xaricdən gələn otuzdan çox qonaq ölkəmiz haqqında xoş təəssüratlarla getmişlər. Fransız yazıçısı Jak Qoşeron Azərbaycanda sovet ədəbiyyatı günlərində keçirdiyi təəssüratı, rəğbəti belə ifadə edir: «...Mən səyahətimi Fransada da davam etdirəcəyəm. Sizin ədəbiyyatınızın köməyi ilə təxminən on il bundan əvvəl Rəsul Rza şeirlərindən bir neçəsini fransız dilinə tərcümə eləmişəm. Çalışacağam ki, Azərbaycanda yeni görüşümə kimi bu gözəl diyarın, səmimi xalqın poeziyasının yeni nümunələri ilə də fransız oxucularını tanış edim...».

Qərbi Avropa ölkələrində Azərbaycan şeirinə böyük maraq vardı. «Yurd»un 1976-cı il 294-cü nömrəsində Əbdüllətif Bəndəroğlu şair Ağacavad Əlizadə ilə geniş müsahibəsində Azərbaycan xalqı ilə İraq xalqının dostluğunun zəngin ənənələrindən söhbət açılır. Cəfər Cabbarlının «Ana» şeiri (İraq. «Qardaşlıq» jurnalı, 1969), Xəlil Rzanın «Məni tez aldatmaq olur» (İraq. Birlik səsi», 1972), Ə. Vahidin, Şahmar Əkbərzadənin və s. yaradıcılığından nümunələr verilmişdir. «Xarici dillərdə ədəbiyyat» seriyasından Almaniyada buraxılmış «Sovet xalqları ədəbiyyatı kitabında» Nizami, Ə.Xaqani, M.Füzuli. M.P.Vaqif, M.F.Axundov, C.Cabbarlı, M. İbra-himov, N.Nərimanov, M.S.Ordubadi, M.Rahim, M. Hüseyn, S.Vurğun haqqında da oçerk verilmişdir.

S.Vurğunun xarici səfəri nəticəsində «Avropa xatirələri» (1947-50) silsilə şeirləri beynəlxalq məsələlərə həsr olunmuşdur. Azərbaycan şairlərinin yaradıcılığı xarici ölkə şairlərinin, elm adamlarının diqqət mərkəzində olub. Bilfrid Brande 1977-ci ildə Azərbaycan klassik və müasir ədəbiyyatından nümunələr salınmış 84 səhifəlik Xrestomatiyasını Visbadendə nəşr etdirmişdir. 1965-ci ildə Leypsiq biblioqrafiya institutunun nəşriyyatının çap etdirdiyi «Dünya ədəbiyyatı leksikonu»nda Nizami, Füzuli, M.F.Axundov, S.Vurğun, H.Mehdiyə yer verilmişdir. S.Vurğunun irsi Yaxın Şərq ölkələrində, Afrika, Asiya ölkələrində də xalq kütlələrinin rəğbətini qazanmışdır. S. Rüstəmin bir sıra şeirləri fars, türk, alman, çex, bolqar, rumın dillərinə tərcümə olunmuşdur. Yaxın və Orta Şərq ölkələrində 40-cı illərdən tanınan S.Rüstəm ərəb şərqində daha məşhur olduğu bildirilir. Məsələn, bolqar məktəblərində dördüncü sinifdən başlayaraq Nizami, Xaqani, Füzuli, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, R.Rza, M.İbrahimov, Ə.Cəmil, Z.Xəlil, Q.Qasımzadə və başqalarının əsərlərindən nümunələr öyrədilir». Amerika musiqiçisi Karol Fanestok S.Rüstəmin «Sadə insan-kommunist» şeirinə mahnı bəstələmişdir. «Sovetskaya literatura» jurnalının əməkdaşları Amerika bəstəkarının məktubunu Bakıya göndərmişdi. Azərbaycan ədəbiyyatını dünya arenasında məşhurlaşdıran amillərdən biri kimi onun dərin «beynəlmiləl» ədəbiyyatı olmasında olduğunu bildirirlər: «Bütün dünya irticaya, imperialist müharibələrinə, faşizmə, müstəmləkəçiliyə qarşı çevrilmişdi. sülh və demokratiyanı tərənnüm edən əsərlər yazılırdı, bu əsərləri öz ana dilində

oxuyan xarici vətəndaşlar Azərbaycan xalqını humanist bir xalq kimi yüksək dəyərləndirir, istedadına heyran olurdu.

Ərəb ölkələrində Azərbaycan ədəbiyyatına maraq qədimdən olub və yenə də var. Füzulinin 400 illik yubileyində məşhur İraq alimi, Tehran, London akademiyalarının üzvü, prof. Hüseyn Əli Məfhuz ədəbiyyatımızın yüksək inkişafını dəyərləndirmiş Azərbaycanla İraq arasında ədəbiyyat və incəsənət xadimlərinin əlaqələrini qüvvətləndirilməsini arzu etdiyini dəfələrlə bildirmişdir. Azərbaycan xalqının müasir həyatının geniş təsvirini verən roman və povest və başqa janrlı əsərlərə maraq nəticəsində «Abşeron», «Komissar» (M.Hüseyn), «Bir gəncin manifesti» (Mir Cəlal), «Yerin sirri» (M.Süleymanov), «Söyüdlü arx» (İ.Əfəndiyev), «Gələcək gün» (M.İbrahimov) bir sıra xarici dillərə tərcümə edilmişdir.

Sovet dövründə Türkiyə ilə ədəbi-mədəni əlaqələrimizdə müəyyən canlanma hiss olunurdu. Onlarla Azərbaycan yazıçısı Türkiyədə, Türk ədibləri Azərbaycanda olmuşdu. Mehdi Hüseyn Türkiyə səfəri ilə bağlı yazdığı xatirələrində türk-Azərbaycan ədəbi əlaqələrinə olan marağı əks etdirmişdir.

Azərbaycan şair və yazıçılarının tərcüməçilik fəaliyyətini də qiymətləndirməliyik. Hökümə Bülluri, S.Vurğunun «Zəncinin arzuları» əsərinin üslubu, intonasiyasını qorumaqla, orijinallığı saxlamaqla fars dilinə tərcümə etmişdir. Bakıda nəşr olunan «Dost əlləri» kitabı fars, ingilis, ərəb, fransız dilində buraxılmışdır. Tanınmış Azərbaycan yazıçılarının qısa tərcümeyi-halı və əsərlərindən nümunələr verilmişdir. Beynəlxalq mətbu orqanlarla əlaqə saxlayan Azərbaycan şairləri hələ 1947-ci il aprelin 5-də Sofiyada çıxan qəzetdə fəal iştirak edirdilər. 40-cı illərdə Təbrizdə nəşr olunan «Vətən yolu» qəzetində Azərbaycan ədəbiyyatına dair

onlarca məqalə və bədii əsər dərc olundu. Cənubi Azərbaycanda yaşayıb-yaradan böyük Azərbaycan şairi Şəhriyarla əlaqələr saxlanır. Məmməd Rahim Azərbaycan jurnalının 1967-ci il 4-cü nömrəsində «Şəhriyara açıq məktub» rübailərini dərc etdirir. Şəhriyar bu rübailərə «Məmməd Rahim həzrətlərinə cavab» şeirini yazıb cavab verir. Şimali Azərbaycan ədəbi mühitinə yaxınlığını, dostlarını yad edir:

«... Bu təqsimat bundan artıq olammaz,
Atom əsri ixtilaflar qalanmaz,
Bir qanun olmasa dünya dolanmaz,
İndi dünya yüz də desən sağ-soldu,
Müşək üçün iki saatlıq yoldu.

...Heydər baba üz Bakıya çöndərir,
Hey gül dərir, bağlar sizə göndərir,
Sözlərini hey əndirir, döndərir,
Sənlə, Süleyman Rüstəmin yad edir,
Bir şiyvəylə Şəhriyarı yad edir».

B.Vahabzadə, S.Rüstəm, N.Xəzri və başqalarıyla yaxın əlaqə saxlayan şairin Azərbaycan ədəbiyyatına dərin marağı var.

Hələ müharibə illərində R.Rzanın «Leytenant Bayramın gündəliyi» əsəri ingilis dilinə tərcümə olunub, «İnternasional literatura» jurnalında dərc olunmuşdu. 60-cı illərdə başqa əsərləri də ingilis dilinə tərcümə edir. R.Rzanın beynəlmiləl şeirləri xarici ölkə xalqlarına yaxşı tanışdır: «Rəsul Rzanın səyahət və rəsmi səfərlər münasibəti ilə gəzib dolaşdığı ölkələrin xəritəsi genişdir. Rəsul Rza bir sıra sosialist və kapitalist ölkələrində olmuşdur. O, Hindistanda, İndonaziyada, Çexoslovakiyada, Albaniyada, Polşada, Hollandiyada, Yuqoslaviyada, Avstriyada, Fransada, İsveçrədə, İtaliyada, Bolqarıstanda, Türkiyədə, Misirdə, Livanda, İraqda

və s. ölkələrdə səfərdə olarkən aldığı təəssüratın nəticəsində qiymətli əsərlər yazmışdır. 1965-ci ildə Ulan-Bator nəşriyyatı onun «Seçilmiş əsərləri»ni (1 cildlik) çap etdirir. Bolqar oxucuları arasında böyük şöhrət qazanan R.Rzanın altmışdan çox əsəri bolqar dilinə tərcümə olunub. Onun yaradıcılığını xaricdə sevdirən beynəlxalq imperializmi qəzəblə ifşa və tənqid etməsi, dövrün mühüm hadisələrinə şair kimi diqqətli olması, imperializmin yeni-yeni fitnələrini ifşa etməsi də təsirini göstərmişdir. Hindistanda, Pakistanda R.Rzanın yaradıcılığı tanınırdı. İraqda, Kanada da, tanınır. Kanadada nəşr olunan «Bizim Şimal qonşumuz» ədəbi jurnalının baş redaktoru Lizon Karter R.Rzanın şeirlərinin qərb qitəsində yayıldığını bildirir: «Kanadada poeziya ilə az maraqlanırlar və şeir kitabları çox nadir hallarda təkrar nəşr olunur. Lakin Rəsul Rzanın şeirlərində o qədər yüksək humanizm var ki, Kanada və ABŞ-da onları minlərlə oxucu alıb oxuyur və aydan-aya oxucuların sayı artır».

Alim və tədqiqatçılar bir maraqlı cəhəti qeyd edirlər ki, «Qərb yarımkürəsi mətbuatı Rəsul Rza şeirini poeziyada yeni bir kəşf, müasir insanların beynəlxalq miqyasda hiss və duyğularını sənətkarlıqla ifadə edən qüvvətli bədii-estetik bir vasitə kimi qiymətləndirir» (N. Axundov). Çex şairi İrji Toufer yazır: «Rəsul Rza Azərbaycan poeziyasının görkəmli simalarından biridir. O, qədim zamanlardan bəri ənənə halını almış şeir formasından fərqli olaraq Azərbaycan poeziyasına yeni şeir forması gətirmişdir. O, novator şairdir. R.Rza yaradıcılığının xüsusi cəhəti dilinin təbiiliyi, rəngarəngliyi, müasir lirikaya xas olan incəlik və lakonikliyidir. O, fikir və zəka şairidir. Dolğun ideya və dərin məzmun onun şeirlərinin əsasını təşkil edir».

Qərbi Berlinin məşhur ədəbiyyatşünası Hans Peter Əhməd Şmideo Azərbaycan ədəbiyyatının xaricdə yayılması,

nəşri sahəsində xeyli iş görmüşdü. O, 1969, 1972, 75-ci illərdə Azərbaycanda olmuş, yaradıcı şəxsiyyətlərlə əlaqə saxlamış, B.Vahabzadənin əsərlərini alman oxucularına tanış etmişdi. Əhməd Şmide onun «Açılan sabahlara salam» adı ilə seçilmiş şeirlərini Ankarada (1977) nəşr etdirmişdir, Azərbaycan klassik şeir nümunələrini (Vaqif, Nəsimi) tərcümə edib.

B.Vahabzadənin yaradıcılığı İraq, İran, Türkiyə ədəbi ictimaiyyətinə çox tanışdır. Yuqoslaviyanın Sarayevo (1976) şəhərində keçirilən beynəlxalq poeziya günlərində Azərbaycan şairi Hüseyn Arif təmsil edirdi. Yuqoslaviya mətbuatı onun «Düşüncələr» şeirini və ədəbiyyatımız haqqında müsahibəsini dərc etdirmişdir. Azərbaycanın Xarici Ölkələrlə Əlaqələr Cəmiyyətinin sədri Nəbi Xəzri dünyada ədəbi əsərləri ilə tanınan şairlərimizdəndir. Onun əsərləri İtaliya, İspaniya, monqol, İraq xalqlarının dillərinə tərcümə olunmuşdur. Keçmiş «İspaniya-SSRİ» cəmiyyətinin təşəbbüsü ilə Madriddə «Enoo» nəşriyyatı N.Xəzrinin lirik şeirlər kitabını «Günəşli yağış» adı ilə ispan dilində nəşr etdirmişdir. Bu kitabda şairin həm Azərbaycan, həm də Çexoslovakiya, Yuqoslaviya, Fransa, Yaponiyaya həsr olunmuş şeirləri var.

Azərbaycan poeziyasının İraqda təbliğində Əbdüllətif Bəndəroğlunun, Türkiyədə Ərzurum universitetinin müəllimi Əli Yavuz Akpınarın xidmətlərini xüsusilə qeyd etməliyik. Sabirin «Hophopnamə»sini, N.Xəzrinin şeirlərini də Azərbaycan dilində sovet dövründə nəşr etdirmişdir. Ə.Kürçaylı («İtaliya dəftəri»), Ramiz Heydər keçirilən beynəlxalq festivallarda iştirak etmişdir. M.Rahimin əsərləri bolqar, macar, polşa və başqa ölkələrinin mətbuatında dərc olunmuş, oxucular arasında geniş maraq doğurduğu bildirilir. N.Həsənzadənin alman ədəbiyyatının nümayəndəsi Karl

Otto ilə yaxından tanış olduğu, əlaqələr saxlamış olduğu, əsərləri çap olunduğu məlumdur. N.Həsənzadə 1975-ci ilin yayında Yuqoslaviyanın Sarayevo şəhərində keçirilən beynəlxalq poeziya günlərində iştirak etmiş, «Zadarska Reviya» (1976, № 1, 2) jurnalında «Həyat» adlı şeiri dərc olunmuşdur.

Doktor Cavad Heyətin redaktorluğu ilə çıxan «Varlıq» jurnalı Azərbaycan ədəbiyyatından nümunələr verir. Şimali Azərbaycan ədəbiyyatının ədib və şairlərinin əsərlərini dərc etdirir. Jurnalda R.Rza, Ə.Əlibəyli, Ə.Kürçaylı, N.Xəzri, M. Araz, N.Həsənzadə, B.Azəroğlu, C.Novruz, Qabil, A.Zeynallı, F.Qoca, T.Bayram, İ.Kəbirli, V.İbrahimin və başqa şair və yazıçıların əsərlərindən nümunələr və haqqında biblioqrafik məlumat verilmişdir.

Fransız yazıçısı Lui Araqon «Sovet ədəbiyyatı» (1955) kitabında qədim dövrdən başlayaraq onun görkəmli simaları haqqında təəssüratını yazır.

Azərbaycan poeziyası kimi onun nəsr, dram əsərləri də xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Məşhur hind yazıçısı Çand Krişan «Molla Nəsrəddin» jurnalının öz tarixində beynəlxalq əhəmiyyətə malik olduğunu göstərir.

«Portuqaliya-SSRİ» cəmiyyəti Azərbaycan haqqında kitablar seriyası nəşr etdirir. Həmin kitabda «Azərbaycana səyahət» oçerkini respublikamızda dostluq səfərində olmuş Seabra Denis yazmış, burada M.F.Axundov, Ü.Hacıbəyov yaradıcılığı haqqında məlumat verilir. S.S.Axundovun, N.Nərimanovun, Ə.Vəliyevin, Ə.Əbülhəsənin, G.Hüseynoğlunun əsərlərindən ayrı-ayrı parçaların tərcüməsini verir. 80-ci illərdə Avropada Azərbaycan ədəbiyyatına dair (1981, Berlin) «Nar dənələri. Müasir Azərbaycan hekayələri» qiymətli kitabda Azərbaycan nəsrinin 14 nümayəndəsinin yaradıcılığından nümunələr verilmişdir. Ç.Hüseynovun

(«Açarsız qapılar»), Mirzə İbrahimovun («Məntiq Həsənoviç»), İ.Əfəndiyevin («Yaylaq qonşumuz»), İsa Hüseynovun («Şəppəli»), Həsən Seyidbəylinin («Xidmət lifti»), G.Hüseynoğlunun («Ata», «İki qapı», «İlk qədəm»), Elçinin («On ildən sonra»), Maqsud İbrahimbəyovun («Bayquş uçdu»), Anarın («Mən, sən, o və telefon»), Ramiz Rövşənin («Sirr»), Sabir Əhmədovun («Axşam gəzintisi»), Ə.Əylislinin («Nar dənələri haqqında nağıl»), İ.Məlikzadənin («Fantaziya») hekayələridir.

Xaricdə geniş yayılan povest və romanlar «Abşeron», «Səhər», «Komissar» (M.Hüseyn), «Böyük dayaq», «Gələcək gün» (M.İbrahimov), «Bir gəncin manifesti» (Mir Cəlal), «Məhəmməd, Məmməd, Məmiş» (Ç.Hüseynov) və başqa əsərlərdir. M.Hüseynin «Abşeron» romanı Almaniyada, «Dənizdə buruq» adı ilə çap olunmuş, roman haqqında maraqlı məqalələr dərc edilmişdir. Albaniyada da bu roman geniş yayılmışdır. Fransız dilinə də tərcümə olunmuşdur. Azərbaycanın görkəmli yazıçısı M.Hüseyn sülh elçisi kimi Hindistanı, Varşavanı, Afrikanın bir sıra ölkələrini səyahət etmişdi. Yaradıcılığı ilə dünya xalqlarının da rəğbətini qazanmışdır.

İ.Əfəndiyevin «Söyüdlü arx» romanı 1962-ci ildə slovak dilində Praqada çapdan çıxmışdır. M.İbrahimovun «Gələcək gün» romanı İran imperializmini ifşa edən bir roman kimi bolqar, alman, macar, polyak, rumın, fars, ərəb, çin və başqa xalqların dillərinə tərcümə olunub. «Böyük dayaq» romanı 1961-ci ildə Buxarestdə rumın dilində nəşr olunub. Mir Cəlalın «Hekayələr» kitabı rumın dilinə, «Bir gəncin manifesti» povesti çex və rumın xalqlarının dillərinə tərcümə edilərək nəşr edilmişdir.

İmran Qasımovla Həsən Seyidbəyli «Uzaq ölkələrdə» povestini yazarkən Avropanın bir sıra ölkələrində olmuş, mükəmməl olaraq yazdıqları bu əsəri nəfis şəkildə bolqar dilində nəşr edilmişdir. Əsər Fransada, İtaliyada və digər ölkələrdə geniş maraq doğurmuşdur. Onlar M.Hüseynzadə ilə bağlı materialları toplamaq üçün bu ölkələri gəzərkən bir sıra maraqlı hadisələri də qələmə almışlar. «İtaliya mozaikası» əsəri İtaliyada faşizmə qarşı mübarizə aparmış rəssam Karlo Levi, Mario Fantani Pikkardi, kommunist xadim Kuffare və digərləri ilə bağlı qeydlərin, canlı müşahidələrin, söhbətlərin yığcam xülasəsindən ibarətdir.

Elçin Əfəndiyevin yaradıcılığında xarici ölkələrlə bağlı yazdığı oçerkləri mühüm yer tutur. O, ədəbi tənqidimizdə, nəsrimizdə, artıq dramaturgiyamızda da tanınmış Azərbaycan sənətkarıdır. Əsərləri gəncliyində Rusiya mətbuatında çap edilir. «Pravda», «Drujba narodov» və b. mətbu orqanlarda çıxan yazıları mükafata layiq görülmüşdür. Onun əsərləri xarici dillərə tərcümə olunur. Beynəlxalq ədəbi əlaqələr haqqında dəyərli yazılarla çıxış edir. «Yaxın, uzaq Türkiyə» oçerklər silsiləsi buna misal ola bilər. Bu oçerklərdə Azərbaycan və Türkiyə sənətkarlarının ədəbi dostluğunun tarixi, ictimai səbəbləri düzgün şərh olunur. Həmid Araslı bu oçerklə bağlı yazır: «Elçin bu yeni əsərində özünü işgüzar bir tədqiqatçı kimi göstərir. Türkiyədəki kitabxanalardan, arxivlərdən əldə etdiyi məlumat, dövri mətbuatı hərtərəfli nəzərdən keçirməsi nəticə etibarilə onun oçerklərinin elmi və faktik sanbalını daha da artırır».

1981-ci ildə Budapeştdə Elçinin «Bir görüşün tarixçəsi» adlandırılmış nəsr toplusu çap edilmişdir. Kitabı macar dilinə Marqit Kerinq, Anna Vandar, Erjevet Katona tərcümə edib.

Ənvər Məmmədxanlının yaradıcılığı da xarici ölkə xalqlarına yaxşı tanışdır. Onun «Qızıl qönçələr» adlı kitabı 1952-53-cü illərdə «Sovet ədəbiyyatı» jürnalından alınıb rumın, macar, alman dillərinə tərcümə edilib. «Karvan dayandı», «Buz heykəl» əsərləri xaricdə çap edilmişdir.

M.İbrahimbəyovun «Ondan yaxşı qardaş olmazdı» əsərini alman dilinə Çarlotta Kossut tərcümə etmişdir. «Folk und Veld» («xalq və dünya») nəşriyyatı tərəfindən nəşr edilmişdir.

İ.Şıxlının, Ç.Hüseynovun, Ə.Cəfərzadənin, A.Məmmədovun, Anarın və adını çəkmədiyimiz onlarla Azərbaycan şair və nasirlərinin əsərləri xarici dillərə hələ sovetlər dövründə geniş şəkildə tərcümə olunmuşdur. O Anarın macar dilində «Ağ liman» (Budapeşt. «Avropa» nəşriyyatı, 1973), bolqar dilində «Dairə» (Sofiya. «Narodna kultura» nəşriyyatı, 1977), fars dilində «Dədə Qorqud» (Tehran), polyak dilində «Ağ liman» (Varşava, «Paks» nəşriyyatı), slovak və macar dillərində «Beşmərtəbəli evin altıncı mərtəbəsi» (Praqa, 1980; Budapeşt, «Avropa» nəşriyyatı 1982); alman dilində «Beşmərtəbəli evin altıncı mərtəbəsi» (Berlin, «Uolk und velt» nəşriyyatı, 1982), macar dilində «Əlaqə» (Budapeşt, maqvedo kyado» nəşriyyatı, 1982) və s.

Hələ 1973-cü ildə «As-sakafa» jurnalında Cövdət Bilal İsmayıl Anarı Azərbaycanın görkəmli yazıçısı kimi təqdim edir. Onun «çoxcəhətli», «hər tərəfli inkişaf etmiş, «qabiliyyətli və zəngin» yaradıcılığa malik gənc Azərbaycan yazıçısı kimi təqdim edir. «Ədəbi səmada Anarın ulduzu çox tez parlamışdır. Qısa müddət ərzində öz həqiqi istedadıyla özünə yol açan Anarın hekayələri və tənqidi məqalələri ən mötəbər sovet qəzet və jurnallarında rus dilində dərc edilməyə başladı. Hekayəçilik və tənqid sahəsində müvəffəqiyyət-

ləri ilə bərabər o həm də talantlı ssenariçidir. «Mosfilm» və «Azərbaycanfilm» onun hekayələri əsasında, o cümlədən «Mən, sən, o və telefon» hekayəsi əsasında müvəffəqiyyətli filmlər çəkiblər. Anarın öz səsi və ifadəliliyi ilə seçilən fərdi üslubu var».

1973-cü ildə onun «Ağ liman» povesti Budapeştdə macar dilində çap edilmişdir. H.Abbaszadənin povestləri «Sevgi trilogiyası» adı altında 1967-ci ildə Bolqarıstanda çap olunmuşdur. Sabit Rəhmanın «Nina» əsəri fars, Əkrəm Əylislinin «Gilas ağacı», «Ürək yaman şeydir» hekayələri ingilis, fransız, ispan, alman, polyak dillərinə tərcümə olunub. Əkrəm Əylislinin dəfələrlə kitabları xarici ölkələrdə nəşr olunub. Onun «Adamlar və ağaclar» (Varşava, 1976, Plovdiv, 1979), «Bağdada putyovka var» (Budapeşt, 1980), «Adamlar və ağaclar» (Bratislava, 1981), «Nənəmin tütün kisəsi» hekayəsi macar, çex dillərinə tərcümə olunmuşdur.

70-ci illərdə Bolqarıstanda Maqsud və Rüstəm İbrahimbəyovların əsərləri geniş təbliğ olunur. Onların çoxcəhətli və məhsuldar yaradıcılıqları var, xaricdə sovet ədəbiyyatını təmsil edən yazıçılar kimi tanınır. Sovet adamlarının mənəvi həyatı, duyğu və düşüncələri ilə bağlı yazdıqları əsərlər xarıcı olkə xalqları üçün varaqlı idi.

Onların 70-80-ci illərdə yazdığı əsərlərinin mövzusu, qoyulan problemlər dünya xalqlarının diqqətini cəlb etmişdir. Onun əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. M.İbrahimbəyovun «Xeyirxahlıqla nəticələnən əhvalat» kitabı Budapeştdə, «Ondan yaxşı qardaş olmazdı» kitabı Berlində, «Truskovetsə kim gedəcək» əsəri Varşavada çap olunmuşdur. Rüstəm İbrahimbəyovun «İstintaq» əsəri Bratislavada çap olunmuşdur. 1986-cı ildə Nyu-Yorkun «Serkl repertuari kompani» teatrı

onun «Şirə bənzər» pyesini müvəffəqiyyətlə tamaşaya qoymuşdur. Əvvəllər bu əsər Bolqarıstanda, Polşada, Çexoslovakiyada da tamaşaya qoyulmuşdur. O, sovet dövründə Yucin O Nil adına teatr cəmiyyətinin dəvətilə Amerika Birləşmiş Ştatlarında olmuş, «Şirə bənzər» əsərinin tamaşasından sonra salonda olanların çoxlu suallarını cavablandırmış, Florida universitetində, Nyu-Yorkun, başqa şəhərlərin təşkilatlarında sovet dramaturgiyası, sovet adamlarının həyatıyla bağlı maraqlı mühazirələr oxu-muşdur.

Dram əsərlərimiz xarici ölkə tamaşaçılarına tanış idi. S.Vurğunun «Vaqif» əsəri 1948-ci ildə Berlində alman dilində nəfis şəkildə çap olunmuşdu. Alman ədəbiyyatşünası doktor D.Şults bu əsərindən çıxış edərək S.Vurğunun ümumdünya ədəbiyyatının layiqli nümayəndəsi olduğunu söyləmişdir və özünün «Dünya ədəbiyyatının leksikonunda» əsərində S.Vurğunun dramaturgiyasına xeyli yer ayırmışdır.

Sovet dövründə Azərbaycan ədəbiyyatı öz istedadlı insanları, qiymətli əsərləri ilə dünya ədəbiyyatşünaslarının diqqət mərkəzində olmuşdur. Polşa ədəbiyyatşünası, professoru A.Zayançkovski yazır: «Azərbaycan Sovet İttifaqı Respublikaları içərisində nisbətən fəxri bir yer tutur. Çoxəsrlik mədəniyyətə malik olan bu ölkənin ədəbiyyat xadimlərinin adı bütün dünyada məşhurdur. Bunların içərisində Nizami, Füzuli və başqaları kimi ədəbiyyat korifeyləri və xüsusən Şərq poeziyası nəğməkarları vardır.

Azərbaycan şairlərinin şöhrəti Asiyada, Hindistandan uzaqlarda, Yaxın və Orta Şərqdə geniş yayılmışdır».

Azərbaycan ədəbiyyatına, o cümlədən S.Vurğun dramaturgiyasına rəğbət bəsləyən alim qızı M.Zayançkovskayaya S. Vurğun dramaturgiyasını tədqiq etməyi məsləhət bilmiş və o, «Səməd Vurğunun «Fərhad və Şirin» draması»

mövzusunda magistrlik dissertasiyasını müdafiə etmişdir. Alman alim V.Brands «Vaqif» pyesini tədqiq etmişdir.

1968-ci ildə C.Cabbarlının «Solğun çiçəklər» pyesi Bolqarıstanın Şumen şəhərində tamaşaya qoyulmuşdur. Dramaturqun «Almaz» əsəri də bolqar dilinə tərcümə olunub kitab şəklində nəşr olunmuşdur. Onun «Sevil» dramı İranda tamaşaya qoyulmuş, İran qadınları üçün yeni həyat simvoluna çevrilmişdi (N. Axundov).

Mirzə Fətəli Axundovun «Komediyalar» məcmuəsi 1962-ci ildə Yuneskonun təşəbbüsü ilə tərcümə olunmuş və «Qafqaz kolleksiyası» seriyasından Parisdə nəşr olunmuşdur. N.Nərimanovun «Bahadır və Sona» əsəri haqqında türk, ingilis, alman dillərində buraxılmış «İslam ensiklopedi»sində məlumat verildiyi və əsər haqqında dəyərli fikirlər söylənildiyi bildirilir.

Dramaturq Məcid Şamxalovun «Qayınana» komediyası bolqar, türk, əfqan teatrlarında tamaşaya qoyulmuşdu. Azərbaycan teatr səhnələrində də Şekispir kimi dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri səhnəyə qoyulurdu, dilimizə tərcümə edilirdi.

Bolqarıstan səhnələrində bolqar dilinə tərcümə edilmiş M.İbrahimovun. S.Rəhmanın, A.Məmmədovun əsərləri geniş tamaşaçı kütlələrinin marağına səbəb olmuşdur. Ü.Hacıbəyovun «Arşın mal alan», «O olmasın, bu olsun» əsərləri 66-cı ildə Şumen teatrında tamaşaya qoyulmuş, müəllifinə şöhrət qazandırmışdır. Bütün bunlar Azərbaycan ədəbiyyatının müvəffəqiyyəti idi. Azərbaycan ədəbiyyatını çox dərinlərdə kök salan milli-ədəbi ənənələrinin davamı idi. Azərbaycan ədəbiyyatı öz inkişafını davam etdirmək, bir-birindən qüdrətli əsərlər vermək, bunları bəşəriyyətin əsərlərinə çevirmək istedadını nümayiş etdirirdi.

Zəngin bədii təfəkkürə malik xalqımızın laylası nəğməylə, musiqiylə, şeirlə yoğrulmuşdur. Azərbaycan möhtəşəm folkloruna, Nizami dühasına, Nəsimi təfəkküründə, Füzuli dünyasına, Xətayi milliliyinə sahib idi. Azərbaycan 75 ildə 12 min illik bir ədəbiyyatın sahibi olduğunu sübut etdi. Azərbaycan dili yasaq edilmiş bir zamanda fars, ərəb dilində yazılmağa məcbur edilmiş, oğurlanmış əsərlərimiz, tarixi abidələrimiz var. Azərbaycan poemalar, qüdrətli dram əsərləri yaradan Səmədlər, Rzalar, Süleymanlar, Vaqiflər yetirdi. Dünayaya sübut etdi ki, elmi, ədəbi məntiqi təfəkkürü güclüdür, zaman-zaman, əsr-əsr yaşamış, tək-tək fəaliyyət göstərmiş, zülmət aləmdə bir nur kimi parlamış istedad sahibləri var, milyonlarla ulduzu qara buludlar arxasında qalmışlar var, tarixin üstünü örtdüyü, zamanın unutdurduğu, amma hardansa bir işıq ucu kimi görünüb, hansısa dünya mədəniyyət xəzinələrinin köşklərində yatıb qalmış, təsadüfi bir əl dəydikdə, göz toxunduqda diqqəti cəlb edib üzə çıxmış, möhtəşəm bir ədəbi düşüncə sahibləri var. Onlar Azərbaycan ədəbiyatının yetirməsidir. Onlar Şahilərin, Sultanların, Yunis Əmrələrin-kökü dərinliklərdə olan böyük bir ədəbi irsin nümayəndəsi olduğunu sübut etmiş, bəşəriyyəti heyrətə gətirmişdir və bu gün də gətirir. Dünyanı fəth etmək istəyən isgəndərlərin, batıların, teymurların, yadellilərin zaman-zaman talanına, dəhşətli müharibələrinə düçar olmuş, mədəniyyəti, tarixi torpaqlara gömülmüş, yandırılmış, daşınmış, talanmış Azərbaycanın ədəbiyyatı ölümsüzlük sahibi olduğundandır ki, düşmən onun bədii təfəkküründü, elmini, əqlini, ziyasını məhv etməkdə çətinlik çəkir. Qolu güclülərini çarmıxa çəkib, şaqqalayıb, düşünənlərinin dərisini diri-diri soydurub, amma istədiyinə nail ola bilmə-

yib. Bu torpaq öz ruhunu özündən sonra gələnlərə vəsiyyət edən Nəimilər məkanıdır.

Azərbaycan ədəbiyyatı 80 ildə qadasız-bəlasız yaşayıb-yaratmayıb. İynə ilə gor qazıb. Özünü yaşatmaq üçün mübarizə aparıb, qurbanlar verib. Bir vətən üçün min can qurban verməyə hazır Əhməd Cavad, M.Müşfiqləri, H. Cavidləri... qurban verib. Onların içərisində qara saçları bir gündə ağ, bəyaz qara dönənlərimiz olub, qəzəbindən içində partlayan, çatlayan olub, sabaha ümidlərə inanıb, səbrini basanlar olub, xalq düşməni, vətən xaini damğasından qorxub yolundan səkənlər olub, amma vətən, torpaq, yurd satan çox şükürlər olsun ki, Azərbaycan şairi, yazıçısı olmayıb. Bu da bir xoşbəxtlikdir, bu da bir səadətdir. 80 illik bir ittifaqda birləşib, öz əqidəsi, öz düşüncəsi, öz fərdi, orijinal üslubu olub. Qayəsi, amalı vətənə, Azərbaycana, onun ədəbiyyatına xidmətdə birləşib, şairlərimiz, yazıçılarımız, dramaturqlarımız dünyanı heyrətdə qoyan ədəbiyyatımızı möhtəşəm bir zirvəyə qaldırıb və bu ədəbiyyatı öz məcrasında, öz amalında saxlayan, onu bəşərilik, humanizm prinsiplərinə sadiq saxlayan, qeyri-insani sifətlərə nifrət ruhunda tərbiyələndirən, istiqamətləndirən ədəbi tənqid, ədəbiyyatşünaslarımız olub. Onların 90 faizi ədəbi əsərləri ilə bu sahəyə gəlib. Azərbaycan ədəbiyyatının tarixinin, qədimliyinin və bəşəriliyinin qorunub saxlanması, bu əqidənin yaşaması üçün çalışıb, vuruşub, sağlam tənqidləriylə yol göstərib, mayak olub şairinə, ədibinə və qazandığı möhtəşəm bir ədəbi qala olub.

Azərbaycan ədəbiyyatının 80 illik fəaliyyətini nəzərdən keçirdikdə çox möhtəşəm bir ədəbiyyatımız olduğunu görürük. 50 il, 70 il Sovetlər birliyinin tərkibində on beş respublika ilə birlikdə elmini, mədəniyyətini inkişaf etdirən Azərbaycan həm iqtisadi cəhətdən inkişaf etdi, böyük sə-

naye mərkəzinə çevrildi, möhtəşəm şəhərlər yaratdı, ölkənin hər yerində qüdrətli quruculuq işləri ədəbiyyatımızın mövzusunu, ideyasını təşkil etdi, Sovet Azərbaycanının geniş qurub yaratmaq sahəsindəki xarüqalə müvəffəqiyyətlərini ədəbiyyatımız əsərlərinin mövzusuna çevirdi. Vətənə, torpağa, onun yeni düşüncəli insanına abidə yaratdı. Torpağının, təbiətinin gözəlliklərini vəsf etdi. Xətayinin «Bahariyyəsi», Saib Təbrizinin «Bahariyyəsi» kimi Azərbaycan ədəbiyyatında elə möhtəşəm bahariyyələr yaradıldı ki, orada mövzuların qoyuluşu, ideya, süjet orijinallıqları Azərbaycan bədii təfəkkürünün yeni bir mərhələyə qədəm qoyduğunu göstərdi. Bəşəriyyətə Nizami kimi dühalar bəxş etmiş Azərbaycan ədəbiyyatının nələr qazandığını, nələrə qadir olduğunu Azərbaycan ədəbiyyatının müasir nəsli də sübut etməkdədir. Bir-birindən maraqlı əsərlər yaradılır, internet, kompüter əsri olsa da, artıq oxucu ordusu yenidən yetişməkdədir. Ədəbiyyatımız onların diqqətini cəlb edəcək əsərləri ilə söz meydanındadır.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN FƏALİYYƏTİ

Sovetlər İttifaqı dağılandan, Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra-bu keçid dövrü ərzində hər sahədə olduğu kimi ədəbi mühiti özündə birləşdirən Azərbaycan Yazıçılar İttifaqının da fəaliyyətində də gərgin dövrlər yaşandı. 1993-cü ilə qədər ciddi maliyyə çətinlikləri ilə üzləşən birlik sonradan dövlətin qayğısı ilə yaxşı yönümdə fəaliyyətini davam etdirməyə başladı. Birlik və onun ədəbi orqanlarının büdcədən maliyyələşdirilməsi ədəbi problemlərin və yaradıcı qüvvələrin qayğılarına diqqəti artırmağa imkan yaratmış oldu.

90-cı illərdə Yazıçılar Birliyində yubileylər, təqdimatlar, müşavirələr, yaradıcılıq hesabatları, ədəbi-bədii və xatirə gecələri, ədəbi işçilərlə görüşlər, dəyirmi masalar keçirilirdi və bu müntəzəm şəkildə keçirilən tədbirlər söz sənətinin bu günü və gələcəyi üçün əhəmiyyət kəsb edirdi. Yazıçılar Birliyinin fəaliyyəti media tərəfindən işıqlandırılırdı. 1999-cu ilin yanvarın 15-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda türk dünyasının görkəmli simalarından biri doktor Məmməd Tağı Zehtabinin xatirə gecəsi keçirildi. Azərbaycan Yazıçılar Birliyi, «Güney Azərbaycan» dərgisi və Xaricdəki Kültür dərnəklərinin təşəbbüsü ilə keçirilən bu gecəni AYB-nin sədri açaraq M.T.Zehtabi haqqında maraqlı görüşlərini, ömrü boyu xalqının tarixi, ədəbiyyatı ilə məşğul olduğunu, çətin, gərgin ictimai-siyasi şəraitdə fəaliyyət göstərdiyini qeyd edir və əsərlərinin Şimali Azərbaycanda da nəşrinin vacib olduğunu bildirir. Xatirə gecəsinin iştirakçıları, Yazıçılar Birliyinin beynəlxalq əlaqələr şöbəsi-

nin müdiri, «Ədəbiyyat qəzeti»nin baş redaktoru, təbrizli gənc ədiblərin çıxışları maraqla qarşılanırdı.

İstedadlı insanların yaradıcılığının qiymətləndirilməsi ilə bağlı bir sıra mükafatların təsis edilməsi təşəbbüsünü irəli sürən AYB-nin sədri Anarın və xalq yazıçısı Y.Səmədoğlunun təklifinə o dövrün Gənclər və İdman Naziri Əbülfəs Qarayev də dəstək verdi. Gənclər və İdman Nazirliyi ilə birlikdə AYB-nin təsis etdiyi mükafatlar (Yusif Səmədoğlu, İsi Məlikzadə, Əli Kərim, İsa İsmayılzadə, Aydın Məmmədov, Tofiq Bayram) «Azərbaycan», «Ulduz», «Qobus-tan», «Literaturnıy Azerbaydjan» jurnallarında və «Ədəbiyyat qəzeti»ndə dərc olunmuş müəlliflər arasından ən yaxşı əsərlərinə görə, Ülvi Bünyadzadə adına mükafat isə ilk dəfə mətbuatda çıxış edən gənclər üçün nəzərdə tutulurdu. Maraqlıdır ki, ədəbiyyatın inkişafına yönələn bu fəaliyyət zamanı istedadlı insanların Birliyin üzvü olub-olmaması nəzərə alınmırdı. Mükafat komissiyasına Fikrət Qoca (sədr), İntiqam Qasımzadə, Ələkbər Salahzadə, Mənsur Vəkilov, Ayaz Vəfalı, Nəriman Həsənzadə, Mövlud Süleymanlı, Şirindil Alışanov, Nemət Veysəlli, Çərkəz Qurbanlı, Musa Urud daxil idi.

Azərbaycan Yazıçılar Birliyinin tarixində 1997-ci ilin oktyabr ayında keçirilən X qurultayı ədəbi-mədəni həyatımızda ən yaddaqalan hadisə kimi dəyərləndirilir. Hələ o zaman sıralarında 600-yə yaxın üzvü birləşdirən AYB-nin X qurultayı müstəqillik dövründə ilk qurultay idi. Böyük bir nasir, şair, tənqidçi, ədəbiyyatşünas ordusunu özündə birləşdirən AYB müstəqillik, milli azadlıq və sərbəstlik şəraitində ilk qurultayı ərəfəsində dövlətin böyük qayğısını gördü. Ümummilli Lider Heydər Əliyev gərgin iş şəraitinə baxmayaraq qurultay ərəfəsində AYB-nin üzvləri ilə bir oldu-

ğunu işiylə sübut etdi. Dövlətin ədəbi ictimaiyyətə qayğısı böyük idi. «Qurultay günlərində dönə-dönə xatırlandığı kimi, prezident Heydər Əliyev 1971-ci ildən başlayaraq Azərbaycan yazıçılarının bütün ali məclislərində iştirak etmişdir. Onun iştirakı heç vaxt formal olmamışdır. Proqram xarakterli geniş və dolğun nitqlərində o, Yazıçılar Birliyinin qarşısında dayanan vəzifələr, xalqın və dövlətin taleyində ədəbiyyatın yeri və rolu barəsində dəyərli fikirlər söyləmiş, söz ustalarımızı respublikamızın həyatında, onun inkişafında fəal mövqe tutmağa çağırmışdır. Hətta hakimiyyətdə olmadığı, bir tərəfdən Qorbaçov güruhu, digər tərəfdən isə A.Mütəllibov və onun əlaltıları tərəfindən təqib edildiyi 1991-ci ildə də Heydər Əliyev yazıçıların dəvətini qəbul edərək onların IX qurultayının işində iştirak etmişdi. Bu, ölkənin rəhbəri ilə yaradıcı ziyalılar arasında yaranmış çoxillik işgüzar və səmimi münasibətlərin bariz ifadəsi idi» (Ramiz Mehdiyev).

Prezident X qurultay ərəfəsində də bu səmimi və qayğıkeş xarakteri ilə nəinki təkcə onunla daima ünsiyyətdə olan yaşlı və orta nəslin yazarlarına, eləcə də yetişməkdə olan gənc yazarlara da diqqət və qayğısını əsirgəmədi. Qurultaydan əvvəl onların hər bir nəslini ayrıca qəbul etdi, problemləri ilə tanış oldu, yerindəcə həll etdiyi problemlər də oldu. Prezident vaxtının az olmasına baxmayaraq qurultayda da iştirak etdi və öz işiylə yaradıcı qüvvələrlə daima bir olduğunu sübut etdi. Qurultaydan sonra «Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında» Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ədəbiyyata və incəsənətə dövlət qayğısının bir daha bariz nümunəsi idi. «Prezident Heydər Əliyevin söz adamları ilə üç günlük dialoqunda adi məişət məsələlərindən tutmuş qlobal siyasi problemlərə kimi ən

müxtəlif mövzulara toxunuldu. Bu görüşlərin əsas qayəsini ədəbiyyatla, onun dünəni və bu günü ilə, xalqın həyatında, bədii sözün azadlıq mübarizəsindəki yeri və rolu ilə bağlı məsələlər təşkil edirdi. Prezidentin Azərbaycan ədəbiyyatının mahir bilicisi, klassik ədəbi irsin ardıcıl mühafizəçisi, istedadlı sənət adamlarının yaxın dostu olduğu bir daha dönə-dönə təsdiqlənirdi. Bu görüşlər Prezidentin özünün yaradıcı ziyalılara həssas münasibətini, sənət problemlərinin mahiyyətinə varma məharətini dəfələrlə nümayiş etdirdi». Bu baxımdan qurultayı «Azərbaycanda Azərbaycan ədəbiyyatı günləri» kimi dəyərləndirən ölkə başçısının «Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir. Bu da təsadüfi deyildir. Çünki bizim xalqımız birincisi, öz istedadına görə şair, yazıçı, söz ustası olubdur. İkincisi, bizim xalqımız çox əsrlik tarixində böyük yazıçılar, mütəfəkkirlər yetişdiribdir»,-fikirləri prezidentin Azərbaycanda məsul işdə çalışdığı gündən bu ənənəyə sadiq qaldığını sübut edir.

Çünki Ümummilli Lider H.Əliyev ədəbiyyatı çox sevən adam, onu uşaqlığından sevən, insan kimi formalaşmasında, təhsilində, əxlaqında, mənəviyyatında ədəbiyyatın, mədəniyyətin böyük rolunu görən dahi şəxsiyyətdir. Həmişə ədəbi prosesə yaxın olan, 1971-ci il qurultayında Azərbaycan rəhbəri kimi çıxış edən dövlət başçısı başqa məsul vəzifələrdə işlədiyi vaxtlarda da yazıçıların qurultaylarını izləmiş, vaxt tapan kimi «salonda oturub yazıçıları» dinləmiş, onlarla daima görüşə getmiş, «bunu özüm üçün böyük bir hadisə hesab edirdim»,-deyir.

Azərbaycan yazıçılarının X qurultayı «fikir azadlığı və dövlət müstəqilliyi şəraitində keçən ilk ali məclis» kimi

tarixdə qalıb. Bu qurultay bir növ Azərbaycan Yazıçılar Birliyinin fəaliyyət proqramı kimi də dəyərləndirilməlidir. Keçid dövrünün bütün çətinlikləri ilə üz-üzə qalsa da öz varlığını qoruyub saxlayan bu birliyin böyük ideallar əsasında yarandığını, inkişaf etdiyini unutmamalıyıq, Azərbaycan ədəbiyyatı tarixinə adı əbədi yazılan qüdrətli qələm ustadlarını birləşdirən, müqəddəs amalları özündə yaşadan bir qurum kimi qorunub saxlanmasında rolu olan dövlətin və əlbəttə ki, o dövrdə bu quruma rəhbərlik edən şair və yazıçılarımızın əməyini də necə ki, tarix qiymətləndirib, biz də qiymətləndirməliyik.

Bu qurultay Azərbaycan Yazıçılar Birliyinin fəaliyyətinin genişləndirilməsi üçün böyük imkanlar açdı.

Azərbaycan Yazıçılar Birliyinin binasında sovet dövründə Sovet İttifaqında ilk dəfə olaraq 1937-ci il repressiya qurbanlarının-27 yazıçının barelyefi açıldı. Minlərlə repressiyaya məruz qalmış qələm sahiblərindən biri olan H.Cavidin nəşi Azərbaycana gətirilərək ana yurdunda torpağa tapşırıldı. Hörmətli Anar müəllim fikirlərində haqlıdır ki, «bu da prezidentimizin sovet dövründəki cəsarəti və xalqın mədəniyyəti, ədəbiyyatı qarşısında xidməti idi».

Dövlət başına qayıdandan sonra da Hüsryn Cavidin türbəsinin ucaldılması onun əməli fəaliyyətinin davamı idi. Azərbaycan yazıçıları daima prezidentin, dövlətin qayğılarını hiss edib.

1992, 1994-cü illərdə Türkiyədə türk dünyası yazarlarının birinci və ikinci qurultayı keçirildi. Həmin qurultayda növbəti qurultayın əlifba sırası ilə Azərbaycanda keçirilməsi nəzərdə tutulduğundan, bu məsələdə türk qardaşlarımız Azərbaycanın iqtisadi durumunu nəzərə alıb ona yardım etmək istədikləri bir zamanda AYB-nin rəhbərliyi dövlətinin qayğıkeşliyini bildiyindən «bu yardımdan» imtina edir və

Azərbaycan Respublikasının prezidenti hər cür şəraiti yaratdı ki, «Türk dünyası yazıçılarının üçüncü qurultayı Azərbaycanda layiqli səviyyədə keçsin».

Azərbaycan yazıçılarının X qurultayındakı nitqində prezident qeyd etdi ki, nə qədər nailiyyətlər əldə etmiş olsaq da, «mən hesab edirəm ki, bu qurultay indiyə qədər olan bütün qurultaylardan, yazıçıların toplantılarından, konqreslərindən-hamısından üstündür. Çünki müstəqil Azərbaycan respublikasının sərbəst yazıçıları müstəqil dövlətimizdə özlərinin ilk qurultayına toplaşmışlar» və bunu çox sevindirici hal kimi dəyərləndirən prezident «bu, müstəqilliyimizin bizə verdiyi töhfələrdir ki, biz indi artıq heç kəsdən, heç bir mərkəzdən, ideologiyadan asılı olmayaraq, özümüz sərbəst olaraq həyatımızın hər sahəsini araşdırırıq, o cümlədən öz ədəbiyyatımızı, mədəniyyətimizi istədiyimiz kimi müzakirə edirik və istədiyimiz istiqamətdə aparırıq. Bu azadlıq, sərbəstlik, müstəqillik əvəzsiz bir nemətdir. Ona görə də bu qurultay başqa qurultayların davamı olmaqla yanaşı, onuncu qurultaydır və əvvəlki doqquz qurultayın hamısından üstündür».

1999-cu ildən başlayaraq AYB və onun ədəbi orqanları Ülvi Bünyadzadə adına təsis etdikləri «Uğur» mükafatını hər il Bahar bayramı ərəfəsində mətbuatda ilk dəfə çıxış edən istedadlı gənclərə verir.

Azərbaycan Yazıçılar Birliyi, Gənclər və İdman Nazirliyi 1999-cu ildən etibarən ən yaxşı bədii, elmi-tənqidi yazılar və tərcümə əsərləri üçün mükafatlar təsis edir. Hər bir yer üçün ayrılan pul mükafatını mükafat Komissiyası (Nüsrət Kəsəmənli (sədr), Nizami Cəfərov, Çingiz Əlioğlu, Afaq Məsud, Vaqif Bəhmənli, Qönçə Əsədova, Tehran Vəliyev, Güllü Yoloğlu) təqdim edir.

AYB həmişə gənclərin mənəvi saflığı, intellektual səviyyəsinin yüksək olması, mənəvi-əxlaqi cəhətdən saflığı uğrunda aparılan mübarizənin öncüllərindəndir. Aprelin 1-də Natəvan klubunda AYB Respublika Gənclər Təşkilatları Milli şurasının Narkomaniya ilə mübarizə komissiyası ilə birlikdə «Narkomaniyanın yayılmasının qarşısının alınmasında bədii ədəbiyyatın rolu» mövzusunda keçirdiyi konfransda dünyanın ən ağır dərdi olan narkomaniya, bu problemlə bağlı məsələlər müzakirəyə çıxarıldı. AYB-nin sədri Anar fikirlərini söylədi, Respublika Gənclər və İdman naziri Əbülfəs Qarayev «bu bəla ilə mübarizə mövzusunda yazılacaq bədii əsərlərə görə rəhbərlik etdiyi Nazirliyin ədəbi mükafat təsis etdiyini», Gənclər Təşkilatları Milli Şurasının sədri Azad Quliyev, tanınmış detektiv əsərlər müəllifi yazıçı Çingiz Abdullayev və başqaları bu məsələlərlə bağlı yazarların üzərinə düşdüyü məsuliyyəti dilə gətirdilər.

1999-cu ilin aprelin 7-də Heydər Əliyevin 22 fevral 1998-ci il tarixli sərəncamı ilə fərdi təqaüd almış on gənc yazarın yeni nəşr olunmuş kitablarının təqdimatı keçirildi. Tədbiri Azərbaycan Yazıçılar Birliyinin sədri açaraq kitabların nəşrində Azərbaycan Respublikası Prezidenti icra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadənin əməyini yüksək dəyərləndirdi. Bir məsələni xüsusi ilə qeyd etmək lazımdır ki, Fatma Abdullazadə uzun illərdir ki, Azərbaycan yazıçı, şairə qadınlarını öz ətrafında birləşdirən «Azərbaycan qadını» jurnalının baş redaktorudur. Sovet dönəmində xüsusu nüfuzu olan «Azərbaycan qadını» jurnalının səhifələrində böyük sənətkar qadınlarımızın qiymətli əsərləri dərc olunurdu və bu gün də Azərbaycan qadını» jurnalı yaşayır, işıq üzü görür, onun hər bir nömrəsi bir-birindən maraqlı, məzmunca zəngindir.

Azərbaycan Yazıçılar Birliyi müstəqil Azərbaycan Respublikası yarandığı gündən keçmiş sovetlər birliyinin tərkibində olan, eləcə də dünya xalqlarının ədəbi mühiti ilə daima işgüzar əlaqələr saxlayır, ədəbi mühitlərin bir-birisini yaxından tanıması üçün öz işini səmərəli qurur. Azərbaycan xalqı həmişə digər xalqların mədəniyyətinə, ədəbiyyatına hörmət və ehtiramla yanaşıb.

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda keçirilən Leyla Eradzenin xatirə gecəsində Gürcüstan respublikasının Azərbaycandakı səfiri Zurab Qumbaridze, dövlət müşaviri Hidayət Orucov, Çingiz Abdullayev, AYB-nin sədri Anar xalqlarımız arasında tarixən mövcud olan dostluq ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi sahəsində ədib və şairlərin, o cümlədən Leyla Eradzenin Azərbaycan-gürcü xalqları arasındakı dostluq münasibətlərinin inkişafındakı diplomatik rolunu yüksək dəyərləndirdilər.

Fevral ayından başlayaraq Türkiyə ilə hər sahədə olduğu kimi ədəbi-mədəni əlaqələr daha da genişləndirilir. Bu əlaqələrin daha da gücləndirilməsi məqsədilə Azərbaycan Yazıçılar Biriliyi və Türkiyə Respublikasının Qara dəniz Yazarlar Birliyi birgə əməkdaşlıq haqqında müqavilə imzaladılar. Bu razılaşma əsasında ölkələrimiz bir-birinin ədəbi mühiti ilə yaxından əlaqə saxlamaq imkanları əldə etməklə yanaşı, elmi sessiyalara, konfranslara və digər tədbirlərə dəvət olunur, kitab mübadiləsi aparır, qarşılıqlı olaraq AYB və Qara dəniz Yazarlar Birliyinin təqdimatı ilə ən yaxşı ədəbi, bədii, elmi kitablar ölkələr arasında nəşr edilir.

1999-cu ilin martın 5-də görkəmli şair və ictimai xadim Oljas Süleymenovla Azərbaycan Yazıçılar Birliyində keçirilən görüşü Birliyin sədri Anar açdı. Xalqımızın sınanmış dostu, Oljas Süleymenov öz çıxışında ölkəmizdə baş verən gərgin, ictimai, siyasi hadisələrə biganə qala bilmədiyini,

xalqımızın dostu kimi onun sevincinə sevindiyini, kədərinə kədərləndiyini qeyd etdi. Eyni zamanda ölkənin aparıcı qüvvəsi olan yazıçı və şairlərin, ədəbiyyat aləmini birləşdirən AYB-nin fəaliyyətini təqdirəlayiq bildi: «Keçmiş sovet məkanındakı bütün respublikalarda Yazıçılar İttifaqları, təəssüf ki, əvvəlki kimi deyillər. Ancaq Birlik sizdə saxlanıla bilib. Allaha şükür. Siz sağ olun ki, qoruyub saxlaya bilibsiniz və Anar sağ olsun ki, neçə illərdir Birliyə ardıcıl başçılıq edir». Görüşdə Bəxtiyar Vahabzadə, Arif Məlikov, Qabil, Fikrət Qoca, Çingiz Abdullayev, Fərhad Bədəlbəyli, Fikrət Sadıq, Oqtay Mirqasımov və başqaları öz çıxışlarında O. Süleymenovun ümumtürk dünyasının ədəbiyyatının, mədəniyyətinin qarşılıqlı əlaqəsində xidmətlərini qeyd etdi. Yeni yaradılmış Azərbaycan-Qazaxıstan Dostluq Cəmiyyətinin idarə heyəti AYB-nin, xüsusilə onun sədrinin ölkələrimiz arasındakı ədəbi-mədəni əlaqələrinin inkişafında xidmətlərini yüksək qiymətləndirdi və Birliyin sədrinə yazılı təşəkkürünü bildirdi.

Aprelin 23-də AYB-nin Natəvan klubunda 1998-ci ilin sentyabr ayında Qazaxıstanda keçirilən Türk dünyası gənclərinin toplantısında təsis olunmuş Dünya Gənc Türk Yazarlar Birliyinin Bakıda ilk toplantısı keçirildi. Tədbirdə tanınmış şair və yazıçılar, Gənclər və İdman Nazirliyi ilə Gənclər təşkilatlarının nümayəndələri, Türkiyə səfirliyinin məsul işçiləri də iştirak edirdilər.

Azərbaycan Yazıçılar Birliyi may ayının 10-da YUNESKO-nun nümayəndələri ilə görüş keçirmiş və görüşün keçirilməsində əsas məqsəd Azərbaycan ədəbiyyatı antologiyasının fransız dilində nəşrinə YUNESKO-nun yardım göstərmək təşəbbüsü olmuşdur. YUNESKO-nun nəşriyyat şöbəsinin rəhbəri cənab Fernando Ainsa və ekspert xanım Anni Brisse ilə aparılan işgüzar söhbətdə Azərbaycan

yazıçılarının əsərlərinin fransız dilinə tərcüməsi, YUNESKO ilə AYB-nin arasında əməkdaşlığın genişlənməsi məsələləri də müzakirə edilmişdir.

Avqustun 19-da AYB-nin Natəvan klubunda Almaniyadan gəlmiş ədəbiyyatşünaslarla keçirilən görüşdə Azərbaycan Yazıçılar Birliyinin tarixindən söhbət açıldı. Birliyin nəzdində nəşr olunan qəzet və jurnallar haqqında, «milli haqların qorunmasında, ədəbiyyatın şüurlu fəaliyyətində «60-cılar» ədəbi nəslinin böyük rolu» haqqında görüş iştirakçılarına məlumat verildi. Azərbaycanda gedən ədəbi proseslərdə «Azərbaycan», «Qobustan», «Ulduz» jurnallarının rolunu xüsusilə qeyd edən İ.Hüseynov, Anar, F.Qoca, Ə.Əylisli, Y.Səmədoğlu, M.İbrahimbəyov, R.İbrahimbəyov, İ.İsmayılzadə, Ə.Salahzadə yaradıcılıqları haqqında danışdılar.

Sentyabrın 23-də Avstriya Federal Nazirliyinin Nümayəndəsi dr. H.Gürer və Avstriya Ədəbiyyat Cəmiyyətinin prezidenti M.Qruber ilə keçirilən görüşdə Azərbaycan Yazıçılar Birliyinin adından qonaqları salamlayan Anar yeni yaranacaq Avstriya-Azərbaycan ədəbi əlaqələrinin inkişafında bu görüşün mühüm rol oynayacağına ümidvar olduğunu bildirdi. Ədəbiyyat cəmiyyətinin prezidenti xanım M. Qruber Avstriyada Azərbaycan ədəbiyyat antologiyasının nəşrinin nəzərdə tutulduğunu və bu işdə Birliyin köməyinə duyduqları ehtiyacı söylədi. Görüşdə Mədəniyyət fondunun sədri Kamal Abdulla Mədəniyyət fondu ilə Avstriyada «oxşar ictimai qurumlar arasında mədəni əlaqələr yaratmaq və birgə tədbirlər keçirmək istəklərini» söylədi.

1998-ci ildə uşaq ədəbiyyatının problemlərinə dair keçirilən müşavirəni Anar açaraq Azərbaycan yazıçılarının bu sahənin son illərdə inkişafına xüsusi diqqət yetirdiyini, uşaq

ədəbiyyatı üzrə bölmənin fəallığını qeyd etdi. Bölmənin rəhbəri Əli Səmədli, Qara Namazov öz çıxışlarında uşaq ədəbiyyatının inkişafında yaranan mürəkkəb vəziyyəti, müstəqillik yoluna qədəm qoymuş ölkəmizin yazarlarının qarşısında qoyduğu vəzifələrin, problemlərin uşaq ədəbiyyatı yönümündə də aradan qaldırılması yollarını, qazandığımız uğurlarla yanaşı nöqsanlarımızı, çətinliklərimizi söylədilər.

Uşaqlar üçün yazıb-yaradan şair və nasirlərimizin vəfatı, bir qisminin ölkədən çıxıb getməsi, bir yandan əlifba islahatı, bütün bunlar 1998-ci ilə qədər 7-8 il ərzində uşaq ədəbiyyatını ağır vəziyyətə salmışdı. Uşaq ədəbiyyatının inkişafına mane olan səbəblərdən biri kimi kitab çapı probleminin olması, dövlətin kitab çapına maddi vəsait ayıra bilməməsi, özəl nəşriyyatlarda kitab çap etdirmə əngəlləri, imkanı olmayan yazıçı və şairlərin əsərlərinin yığılıb qalması, imkanlı istedadsız əsərlərin mətbuata yol alması, dəyərsiz bədii əsərlərin çoxalması məruzəçilərin məruzəsində əsas yer tuturdu. Məruzəçi Qara Namazov uşaq ədəbiyyatımızın tarixini, milli-bədii dəyərləri, çar müstəmləkəçiliyi dövründə yalnız səs üsulu ilə tədris imkanı olarkən el-el gəzib xalq ədəbiyyatı nümunləri toplayan, şərq kəlamlarını seçib uşaqlara çatdıran Abdulla Şaiq, Süleyman Sani Axundov, Mirzə Ələkbər Sabir, Firidun Köçərli, Rəşidbəy Əfəndiyev kimi sənətkar və ziyalıların fəaliyyətini yada saldı, bu işin sovet dövründə də davam etdirildiyini, uşaq ədəbiyyatının inkişafında və zənginləşməsində əhəmiyyətini vurğuladı, T.Elçinin, Z.Cabbarzadənin, X.Əlibəyli, E.Ağayev, M.Aslan, T.Mahmud, Ə.Kərim, Ə.Səmədli, M.Namaz və başqalarının rolunu qeyd etdi və buna da iradını bildirdi ki, feodalizm, kapitalizm dövründə yaranmış əsərləri çap etdirdiyimiz kimi, sovet dövrünün mütərəqqi ənənələrini özündə əks etdirən əsərlərin də nəşri mütləq lazımdır. Uşaq ədəbiyyatının

təkcə şeir və hekayələrdən ibarət olmadığını, tariximizi, milli-mənəvi dəyərlərimizi öyrənmək, dünyəvi bilikləri artırmaq üçün elmi-kütləvi və publisist kitabların da rolunu xüsusi olaraq qeyd etdi. Azərbaycan Ensiklopediyasının buraxdığı üç cildlik Uşaq Ensiklopediyasını, 23 adda latın qrafikası ilə kitabları, «Gənclik» nəşriyyatının «Sərkərdələr və xaqanlar» seriyasından buraxdığı bir sıra kitabların əhəmiyyətini xatırlatdı. Qara Namazov uşaq ədəbiyyatının elmi araşdırılması, tədrisi problemlərini, son illərdə bəzi yazıçıların yaradıcılığına dair yazılan dissertasiyaları, 8-ci sinfə qədər dərsliklərin tərtibində uşaq ədəbiyyatı materialları seçilərkən uyğun mətnlərin seçilməsi, aydın ideyalı, bədii keyfiyyəti yüksək dərsliklərin hazırlanması üçün AYB-nin Təhsil Nazirliyi və Prezident Aparatının nümayəndəsinin iştirakı ilə «Uşaq ədəbiyyatı və yeni nəslin tərbiyəsi» mövzusunda tədbirin keçirilməsinin vacibliyi təklifini irəli sürdü.

Əzizə Əhmədova uşaq ədəbiyyatı kitabxanasının vəziyyətini yada saldı, kiril-latın əlifbası məsələsinin yaratdığı çətinlikləri, kiril əlifbası ilə oxumağı uşaqların «yadırğaması», ingilis dili ilə yanaşı, rus dilinə də diqqəti bir qədər artırmağı, rusların zəngin uşaq ədəbiyyatının bir qisminin dilimizdə kiril əlifbası ilə mövcudluğunu, uşaqların bundan yararlanması üçün kiril əlifbalı rus dilinin tədrisini azaltmamağın məqsədə uyğun olduğunu bildirdi.

Digər iştirakçılar da uşaq ədəbiyyatıyla bağlı bir sıra məsələləri yada saldı. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar yekun nitqində yazıçılarla yanaşı onlardan asılı olmayan qlobal problemlərin də olduğunu, gənc nəslə münasibətdə valideynlərin də rolunu, televiziya, video, kompüter-»vizual mədəniyyətin» ədəbiyyatı getdikcə sıxışdırdığını, valideynlərin bu «labüd təsiri nəzarətdə saxlaya, tənzimlə-

yə» bilməsi, yazılı ədəbiyyata uşaqlarda marağı artırmalı olduqlarını, «bu baxımdan problemlərin ardıcıllığında dörd pillə «qeyd olunduğunu bildirdi: «Birinci yazmaqdır, bu, tam bizdən asılı problemdir. Uşaqlar üçün maraqlı, gərəkli, istedadla yazılmış ədəbiyyat yaratmaq gərəkdir. İkinci problem-çap olunmaqdır, bu, bizdən qismən asılıdır. Yazıçılar Birliyi əvvəlki kimi, kitab siyasətinə təsir imkanına malik deyil, nəşriyyatların fəaliyyəti azaddır. Amma bizim orqanlarımız, toplularımız var, burada uşaq səhifələri ayırmaqla biz bu sahənin qayğısına qala bilərik. Üçüncü kitab satışı problemidir. Bu artıq bizdən asılı deyil. Biz yaxın zamanlarda təhsil nazirimiz Misir Mərdanovu bura dəvət edə bilərik, problemlərimizi bölüşərik və yəqin ki, bu məsələdə də müəyyən nəticələr əldə etmək olar. Dördüncü problem oxutdurmaq, oxucu problemidir. Burada da müəllimlər və valideynlərlə səyləri birləşdirməklə fəaliyyət göstərə bilər, xüsusən keçid dövrü üçün tədbirlər planı hazırlamaq olar...». Bütün bu məsələləri qaldıran Azərbaycan Yazıçılar Birliyi uşaq ədəbiyyatının inkişafında qoyduğu problemlərin həlli üçün araşdırdığı yolları gündəmə gətirməklə ədəbiyyatın vətəndaşın, cəmiyyətin inkişafında oynadığı rolu düzgün qiymətləndirdiyi, öz fəaliyyəti ilə həm xalqımızın yüksək tarixi, milli-mənəvi dəyərlərini yaşatmaq, həm də dövlətimizin inkişaf etdirilməsi, yüksək elmi, bədii təfəkkürə malik gəncliyin inkişafı üçün üzərinə düşən məsuliyyəti hiss etmək, öz işi ilə xalqa, dövlətə xidmət yönümündə işinin qurduğunu sübut etmiş olur.

Azərbaycan Yazıçılar Birliyi həmişə dünyanın humanist sənətkarlarını hörmət və ehtiramla yad edib. 2000-ci ilin yanvar ayında Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Ruminiya-Moldova ədəbiyyatının klassiki Mixail Emineskunun 150 illiyi ilə bağlı keçirilən xatirə gecəsində

gecəni giriş sözü ilə açan Anar Emineskunun həyat və yaradıcılığını əks etdirən tədbirlərin YUNESKO-nun xətti ilə keçirildiyini, son dövr ədəbi əlaqələrimizin yaxşılaşmasında belə gecələrin əvəzsiz rolunu qeyd etdi. Rumıniyanın ölkəmizdəki səlahiyyətli səfiri Təhsin bəy Camal 39 il yaşamış, adı ölümündən sonra əbədiləşdirilmiş, Nizami, Füzuli, Nəsimi qədər M.Emineskunun da rumın-moldav xalqı üçün böyük ədəbi şəxsiyyət olduğunu xatırlatdı. AYB həmişə dünya xalqların ilə ədəbi-mədəni əlaqələr sahəsində müstəsna xidmətlər göstərmişdir. Rumıniya-Moldova əlaqələrinin inkişafında rolu da müstəsnadır.

İyulun 28-də AYB-nin üzvi, Almaniyada yaşayan, ədəbi-mədəni əlaqələrimizin inkişafında böyük xidmətləri olan Simax Şeyda ilə keçirilən görüşündə İsrail-Azərbaycan ədəbi-mədəni əlaqələrimizin inkişafındakı əhəmiyyətli rolu vurğulandı. Azərbaycan və Qafqazdan köçən dağ yəhudilərinin İsraildəki həyatı haqqında məlumat verən Simax Şeyda İsrail Yazıçılar İttifaqının nəzdində yazıçılar təşkilatı olduğunu, Dağ Yəhudiləri Yazıçılar Birliyinin katibi kimi fəaliyyət göstərdiyini bildirməklə yanaşı, Azərbaycan ədəbiyyatının İsraildə təbliği sahəsində əlindən gələni əsirgəməyəcəyini bildirdi. Nəşr etdirdiyi «Şirvanlı qız» kitabına Azərbaycan və dağ yəhudilərinin dilində yazdığı şeirləriylə yanaşı 22 qələm sahibimizin də əsərlərini daxil etmişdir. Simax Şeyda Azərbaycanda doğulmuş, ədəbi mühitimizdə yaxşı tanınmış şairdir. Onun uşaq şeirləri, mənzum nağılları, uşaqlar üçün yazdığı 5 mənzum pyesi rəğbətlə qarşılanmış, «Təyyarə» (1964), «Mən balaca kosmonavtam» (1967), «Yaxşı qız» (1979), «Tülkü, tülkü, tünbəki» (1989) kütləvi tirajlarla nəşr olunmuşdur. İsrailə, oradan da Almaniyaya gedən şair Azərbaycan ədəbi mühiti ilə daima əlaqə saxlayır.

Şairin «Qəzəllər» (2006), «Məndən istər hər gözəl yar qəzəllər»(2007), «Sevdalı gözlər» (2008), yəhudi dilində «Məhəbbət qəzəlləri», «Mahnılar» kitabları Azərbaycan oxucularına da yaxşı tanışdır.

2001-ci ilin martın 9-da Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda əslən İraqın türkman elindən, Kərkük bölgəsindən olan şair, yazar, araşdırıcı Dünya Gənc Türk Yazarlar Birliyinin başqan yardımçısı, Türkman Cəbhəsinin koordinatoru Şəmsəddin Kuzəçi ilə görüşdə respublikanın ədəbi-mədəni ictimaiyyəti, gənclər təşkilatının üzvləri, həmçinin kütləvi informasiya vasitələri nümayəndələri də iştirak edirdi. İraq-Azərbaycan ədəbi-mədəni əlaqələrinin yaradılmasında, möhkəmləndirilməsində R.Rza, B.Vahabzadə, Q.Payaşev kimi alim və yazarların rolunu yüksək dəyərləndirən Şəmsəddin Kuzəçi özünün fəaliyyətindən, gənc bir alim kimi «ərəb türkmanlarının kültürünün, sənətinin, ədəbiyyatının, dilinin, folklorunun, maarifinin qorunması və inkişafı yolunda» gördüyü işlərdən, son illər türkman, Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişafında Q. Paşayevin, Anarın, İntiqam Qasımzadənin, Abbas Abdullanın, Ayaz Vəfalının rolunu xüsusilə qeyd etdi.

2001-ci ilin oktyabr ayında Türk Törə Ocağı ilə birlikdə türk dünyasının böyük oğlu, alim, filosof Ziya Göyalpın anım günü keçirildi. Tədbiri şair Abbas Abdulla açaraq Ziya Göyalpın həyatı, mübarizəsi haqqında «milliyyətçilik tarixi və türklük şüurunun oyanmasında» onun rolundan, «böyük alim və ideoloqun Mustafa Kamal Atatürklə silahdaşlığından» söz açdı. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar öz çıxışında Ziya Göyalpın xatirəsinə həsr olunmuş bu əlamətdar gecəni dəyərləndirdi, qədim türk yazılı abidələrindən bu günə qədər «türk xalqında milli şüur əlamətləri-

nin bariz olduğuna diqqəti cəlb edərək, XIX əsrdən M.F. Axundov, Namiq Kamal, Şinasi və digər öndərlərin fəaliyyəti nəticəsində bunun milli hərəkata çevrilməsindən, türkçülüyün bir fikir cərəyanı kimi formalaşmasında Əlibəy Hüseynzadənin, Ziya Göyalpın əvəzsiz xidmətlərindən söz açdı. Ə. Hüseynzadənin ilk dəfə formulə edib, Ziya Göyalpın «Türkçülüyün əsasları»nda irəli sürdüyü məşhur «türkləşmək, islamlaşmaq, müasirləşmək» üçlü düsturunun digər iki tərəfini unutmadan bu gün məhz müasirləşmək məqamının xüsusən vacibliyini vurğuladı. Mustafa Kamal Atatürkün məhz bu yolla xalqını dünya xalqları sırasına çıxardığını, maarifçiliyin bu gün də vacib olaraq qaldığını söylədi. Ziya Göyalpın əsərlərinin nəşri və təbliğinin gərəkliyini, bu yolda bizə dəstək olacağını bildirdi». Elxan Qaraxanlı alimin keçdiyi yolu, nəzəriyyəsinin mahiyyətini, ümumi prinsiplərini şərh etdi, Ramiz Əsgər onun əsasını qoyduğu türkçülüyün bugünkü parametrlərindən danışdı. Alimlərimizdən E.Əlibəyzadə, Mürsəl Həkimov, gənc türkcü Nevzalı Əliyev çağdaş türkçülüyün aktual problemlərindən söhbət açdı.

2002-ci ilin fevralında Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Qarabağ müharibəsinin iştirakçısı, bu mövzuda çoxlu sayda məqalələr müəllifi, Latviya jurnalisti, «Həmdərd» («Sostradanie») kitabının müəllifi Tatyana Çaladze ilə keçirilən görüşdə birliyin sədri Anar Pribaltika-Latviyada yaşasa da, Azərbaycana gəlib Qarabağ döyüşlərində iştirak edib hər şeyi öz gözləri ilə görüb əsl həqiqətləri dünyaya bəyan etmək istəyən Tatyana Çaladzenin ermənilərin Qarabağla bağlı tarixi saxtalaşdırdıqlarına dair onlarla məqalələr həsr etmiş oduğunu, onun Latviya Xalq cəbhəsinin fəalı kimi humanist fəaliyyətini yüksək qiymətləndirdi. Onun faktlarla zəngin «Həmdərd» kitabının Avropa Şura-

sının tədbirlərində iştirakçılara paylanmasının vacibliyini qeyd etdi. «Qloballaşma dövründə Pribaltikadan gəlmiş, millətcə latış olan, gürcü soyadını daşıyan, rusca Ermənistan-Azərbaycan münaqişəsindən yazan jurnalistə daha çox inanarlar»-deyən Çingiz Abdullayev bir milyona yaxın qaçqın və köçkün adından Azərbaycan xalqının minnətdarlığını bildirdi.

AYB-nin Birinci katibi Fikrət Qoca müəllifə öz minnətdarlığını bildirdi və əksər mətbu orqanlarda Azərbaycan haqqında qərəzli yazıların baş alıb getdiyi bir vaxtda əsl həqiqəti işıqlandırmağı özünün vicdani borcu bilən Tatyana Çaladzenin «əsl həqiqət döyüşçüsü» olduğunu, «münaqişənin, hadisələrin kökünü taparaq» göstərdiyini dəyərləndirdi.

Tədbirdə iştirak edənlər-Milli Məclisin Beynəlxalq Əlaqələr Komissiyasının sədri Səməd Seyidov, Bakı Dövlət Universitetinin müəllimi Pərvanə Məmmədli, millət vəkili, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, şair Zahid Xəlil, Fəridə Əsgərova, Aygün Həsənoğlu, Elmira Axundova, Gennadi Salayev və başqaları Qarabağ müharibəsində iştirak etmiş, yaralanmış Tatyana Çaladzenin hünərindən, yazdığı obyektiv kitabların, məqalələrin dəyərindən söhbət açdı. Tatyana Çaladze Azərbaycan xalqının «sərhədsiz kədərinin bələdçisi» olduğunu, üzərində işlədiyi «Üçüncü minilliyin soyqırımı salnaməsi» adlı layihə üzərində çalışdığını, burada «bədənində güllə yarası gəzdirən qaçqın uşaqların Azərbaycanlılara qarşı soyqırımın aparılması faktını təsdiqləyən əsl canlı sübut olduğunu ürəkağrısı ilə» qeyd etdi və Avropa insan Haqları Məhkəməsinə ermənilərin vəhşilikləri ilə bağlı müraciət edəcəyini, əvvəl-axır həqiqətin qalib gələcəyini, ermənilərin Azərbaycan xalqına qarşı apardığı mənəvi, maddi, psixoloji zərbələrinə görə

dünya ictimaiyyəti qarşısında cavab verəcəklərinə inandığını bildirdi.

Fevralın 16-da Azərbaycan Yazıçılar Birliyinin MEA Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi türk dünyasının böyük sənətkarı Nazim Hikmətin 100 illik yubileyini qeyd etdi. Ədəbi-mədəni ictimaiyyəti, nazimsevərləri, Türkiyə respublikasından gəlmiş qonaqları muzeyin direktoru İsrafil İsrafilov salamladı, Nazim Hikmətin həm Türkiyə, eləcə də Azərbaycan ədəbiyyatında xüsusi yeri olduğunu vurğuladı: «Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza respublikamızın hər guşəsində oxunduğu, sevildiyi tək Nazim Hikmət də sevilir, şeirləri dillər əzbəridir».

Azərbaycan-Türkiyə Dostluq Cəmiyyətinin və Respublika Yazıçılar Birliyinin, Milli Məclisin Mədəniyyət Məsələləri daimi Komissiyasının sədri Anar YUNESKO-nun qərarı ilə bütün dünyada qeyd olunan Nazim Hikmətin yubileyinin Azərbaycanda da geniş şəkildə qeyd olunmasını türk dünyasının böyük sənətkarına xalqımızın hörmət və ehtiramı, onun böyük sənətkar kimi tanındığı ilə bağladı: «Mən Türk dünyasını Dədə Qorqudsuz, Füzulisiz, Yunis İmrəsiz təsəvvür edə bilmədiyim kimi, Nazim Hikmətsiz də təsəvvür edə bilmirəm».

Arif Məlikov, yazıçı-tədqiqatçı Aqşin Babayev, İstanbul Şəhər Bələdiyyəsi Kültür İşləri bakanı Şenal Dəmiröz, xalq yazıçısı H.Abbaszadə, AYB-nin katibi, xalq şairi F.Qoca, f.e. d. Fəridə Vəlixanlı, profesor Rəfael Hüseynov, N.Həsənzadə, Türkiyənin Azərbaycandakı səfiri Əhməd Ünal Çevikgöz çıxışlarında Nazim Hikmətin ədəbi-bədii yaradıcılığı haqqında danışdılar.

AYB- nin Gəncəbasar bölməsində də Nazim Hikmətin yubileyi geniş şəkildə qeyd edildi. Yazıçı Altay Məmmədo-

vun «Nazim Hikmət Gəncədə» adlı kitabı təqdim olundu. Nizami yurduna Nazim Hikmətin səfərlərini əks etdirən bu dəyərli xatirə-povestin məziyyətləri açıqlandı. Onunla Gəncədə görüşən Aydın Murovdağlı, Nüşabə Məmmədli Nazim Hikmətin Gəncəylə bağlı xatirələrindən söhbət açdılar, onun türk, eləcə də dünya ədəbiyyatının inkişafında xidmətlərini dəyərləndirdilər.

Noyabrın 27-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda şairin 100 illiyi münasibəti ilə «Günəşi içənlərin türküsü» (tərtib edən Qədir İsmayıl, «Azərbaycan», 2002) adlı kitabın təqdimat mərasimi keçirildi. Kitaba ön söz yazan Anar 2002-ci ilin YUNESKO tərəfindən «Nazim Hikmət» ili elan olunduğunu, bununla bağlı Azərbaycanda da Nazim Hikmət irsinin təbliği ilə bağlı komissiyanın çox işlər gördüyünü, şairin öz əsərlərindən seçmələrin, eləcə də ona həsr olunmuş şeir, poema və məqalələrin toplusundan ibarət kitabın işıq üzü görməsini, Nazimsevərlərə yeni bir ərmağan kimi dəyərləndirdi. Türkiyə Respublikasında Nazim Hikmətlə bağlı keçirilən tədbirlərin iştirakçısı Anar onun həm Türkiyə, həm də Azərbaycanda sevilən böyük sənətkar olduğunu bildirdi. Eyni zamanda şairin kitabının nəşr problemlərini öz üzərinə götürən «Azərbaycan» nəşriyyatının direktoru Nazim İbrahimova öz təşəkkürünü bildirdi. Türkiyənin Azərbaycandakı böyük elçisi Əhməd Ünal Çeviköz özünü öz doğmaları içərisində hiss etdiyini, kitabını türk dünyası üçün çox dəyərli olduğu bildirdi. Nazim Hikmətlə bağlı keçirilən tədbirlərin iştirakçısı Aqşin Babayev N. Hikmətlə bağlı xatirələrini, mərasimin əvvəlində səsləndirilən lent yazılarının da onun şəxsi fonotekasından götürüldüyünü söylədi. F.Qoca, N.Həsənzadə, Qabil, F.Sadıq, V.Səmədoğlu, R.Rövşən, A.Abdulla, N.Kəsəmənli, N. Gün şairlə bağlı xatirələrini söylədilər. Maraqlı keçən təqdimat mərasimi AYB-nin sədri Anarın N.Hikmətlə bağlı Türkiyə Cümhuriyyətinin prezidentinə və Böyük Millət Məclisinə ünvanlanmış müraciəti ilə yekunlaşdırıldı. Müraciətin mətni tarixi bir sənəd kimi dəyərlidir: «Sayın Əhməd Necdət Sezər.

Türkiyə Cümhuriyyəti Cümhürbaşkanı,
Sayın Rəcəb Teyyub Ərdoğan,
Ədalət və İnkişaf Partiyası Başkanı,
Sayın Abdulla Gül
Türkiyə Başkanı.

Sayın Cümhurbaşkanı,
Sayın Ədalət və İnkişaf Partiyası Başkanı,
Sayın Başbakan.

Türkiyə cümhuriyyəti vətəndaşlarının səs çoxluğuyla iqtidara gəlmiş 58-ci hökumətin qurulmasını ürəkdən, candan təbrik edirik. Böyük Atatürkün təməl prinsiplərinə dayanan, milli və dini dəyərlərimizi qoruyan, demokratiya və dünyəvilik yolunda dönmədən irəliləyən Türkiyə-Azərbaycan qardaşlığının daha da möhkəmlənməsini uca Tanrıdan təmənna edirik.

Yüksək şəxslərinizə də bəllidir ki, 2002-ci ildə dünya xalqları XX yüzilin ən böyük şairlərindən biri olan Nazim Hikmətin 100-cü doğum ilini bayram edir. «Günəşi içənlərin türküsü» adlı ilk şeirlər kitabı 1928-ci ildə Bakıda basılan Nazim Hikməti məmləkətimizin, yeni Azərbaycanımızın ən uzaq guşələrində belə sevirlər, sayğıyla, rəhmətlə anırlar. Bu sevincin, sayğının səbəbləri var, şübhəsiz. Sovet dönəmində türklüyümüz yasaq edildiyi bir zamanda Bakıya gələrkən böyük şair «ben türküm, sizler de türksünüz, dilimiz bir, geleneklerimiz birdir» deyirdi. O zamanlar Sovetlər Bir-

liyində bir kimsə Nazim qədər türklüyün, türk birliyinin, türk dilinin təbliğini aparmırdı və aparmazdı da. Belə ki, Moskva bir yandan Sovetlərdə türklərin varlığını inkar edirdi, o biri yandan Türkiyənin təbliğini, bir sözlə, Türkiyəyə sevgini, simpatiyanı yasaq etmişdi. Belə bir zamanda Nazim Hikmət biz sovet türkləri üçün Türkiyənin simvolu idi, rəmziydi. Türkiyə həsrəti içində çırpınan insanlarımıza qucaq açan canlı bir Türkiyə idi.

Nazim Hikmətin məmləkətdən fərar edib Moskvaya sığınması və kommunistliyi onun Türkiyə Vətəndaşlığından çıxarılmasına səbəb olmuşdur. Tarixdən bəllidir ki, Ziya Paşalar, Namiq Kamallar da bir çox nədənlər üzündən məmləkəti tərk etmişlər, mühacir olmuşlar. Onların bu gün Türkiyədə sayğıyla anılmasını sizlərə xatırlatmağa gərək yox. Digər tərəfdən, bu gün Türkiyədə Kommunist partiyası yasaq deyildir, bu partiya seçimlərə belə qatılır, az da olsa, səs qazanır...

Mühacir Nazim, kommunist Nazim Türkiyə vətəndaşlığından çıxarılmış. Bəli, yanılmayan bir Allahdır, Nazimin yanlış yolda olduğunu bu və ya digər şeirini örnək göstərərək, isbatlayırlar Türkiyəli sənət dostlarımız. Bizim-yəni əski Sovet mühitində dünyaya gəlmiş yazarların qəti qənaəti budur ki, Türk Nazim, Türkiyəli Nazim Kommunist Nazimdən çox-çox yüksəkdə idi və o, yurdunu, millətini sevən bir sənətçi idi. Qurtuluş savaşının tərənnümçüsü idi. Bizlər onu belə sevdik.

Bu gün adında ədalət kəlməsi olan bir partiyanın iqtidarda bulunduğu bir zamanda Nazim Hikmətin Türkiyə vətəndaşı olduğunu etiraf etmək, dünya ictimaiyyətinə elan etmək yalnız böyük şairin ruhuna deyil, bütün Nazimsevərlərə sayğının təzahürü olar, Türkiyə Cümhuriyyətində gerçəkdən də ədalətin zəfər çaldığını təsdiqləyərdi.

Azərbaycan yazarlarının bu istəyinə diqqətlə yanaşacağınıza və onu gerçəkləşdirəcəyinizə ümid edirik.

Dərin sayğılarımızla.

Azərbaycan yazarları adından Yazıçılar Birliyinin sədri, millət vəkili, Milli məclisin Azərbaycan-Türkiyə qrupunun başçısı, Azərbaycan-Türkiyə Dostluq Cəmiyyətinin sədri Anar Rəsuloğlu».

Fevralın 11-də Azərbaycan Yazıçılar Birliyi və Yeni Yazarlar və Sənətçilər Qurumu Natəvan klubunda 21 fevral Beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbirdə ana dili və cəmiyyət, milli-mənəvi problemlərə toxunuldu. Dilimizin-Azərbaycan türkcəsinin qarşılaşdığı maneələri xatırladan Abbas Abdulla dilimizin yad təsirlərdən qorunmasının vacibliyini söylədi. Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri Aydın Əbilov, AYB-nin əməkdaşı Fikrət Sadıq, Əli Səmədli, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Azər Həsrət, Oqtay Rza və başqaları çıxışlarında dilimizin müasir durumu ilə bağlı fikirlərini, ekran və efirlərdə, bir sıra reklamlarda əcnəbi dillərdən gələn yadmənşəli sözlərin dilimizdə gen-bol işlənməsinin ziyanlarını vurğuladılar, bir sıra təkliflər irəli sürdülər. Fikrət Sadıq çıxışında qeyd etdi ki «ana dilimizin taleyi hamımızı düşündürməlidir. İmperiya dövründə ruscanın, indi isə ingiliscənin Azərbaycan türkcəsinin inkişafına mane olduğunu, qəzet və jurnalların, aparıcı KİV orqanlarının adının ana dilimizdə olmadığını» xatırlatdı və bildirdi ki, «Bakı şəhərinin küçələrindəki reklam və elanların çoxunun mətni əcnəbi dillərdədir. Elektron informasiya vasitələrinin əksəriyyətinin adlarının ingiliscə olduğunu, oradakı aparıcıların nitqlərində dilimizin korlandığını, mahnı mətnlərindəki ifadələrin mənasızlığını söyləyən natiq ana dilimizin işlənməsi və qorunmasının vacibliyini iştirakçıların nəzərinə çatdırdı».

2002-ci ildə martın 22-də Güney Azərbaycanı Milli Oyanış Hərəkatının lideri doktor Mahmudəli Çöhrəqani ilə keçirilən görüş Novruz bayramı ərəfəsinə təsadüf edir. Və Azərbaycan Yazıçılar Birliyinin sədri Anar güneyli-quzeyli Azərbaycanın bir-birindən həm mənən, həm də cismən heç zaman ayrılmadığını, hər iki tərəfin ziyalılarının-bötöv Azərbaycan amalına xidmət edənlərin qəlbində Vahid bir Azərbaycan yaşadığını, onların birliyi ideyasını tərənnüm etdiklərini, AYB-nin bu sahədəki məqsədyönlü fəaliyyətini, ölkədə gedən mədəni quruculuq işləri, prezident Heydər Əliyev başda olmaqla hakimiyyətin ədəbiyyata qayğısını dilə gətirən yazıçı bu sahədə əldə edilməkdə olan müvəffəqiyyətlərimizlə qürur duyduğunu bildirdi. Doktor Çöhrəqani Azərbaycanın tarix, mədəniyyət, kültür, ədəbiyyat sahəsində millətlər içində öz yeri olduğunu söyləməklə yanaşı, iran, rus imperiyalarının «türklərin tədqiq edilməli, çapa getməli min illik ədəbi-bədii, elmi-mədəni irsini dəyişməyə, məhv etməyə» imkan tapdıqlarını təəssüf hissi ilə bildirir: «nə cür istəyirlərsə, o cür də bizim tariximizi yazırlar, nə cür bəyənirlərsə, o cür də bizim coğrafi vəziyyətimizi dəyişirlər. Adımızı dandılar, dilimizi dandılar, dandılar. Bizi çöldə qalmış, məramsız, proqramsız, savadsız bir millət kimi tanıtdırmaq istədilər. İran ədəbiyyat tarixi kitablarında dilimiz, ədəbiyyatımız türk şair və yazıçıları barədə bir kəlmə də olsa yazmırlar. Amma bizimkilər sənədli sübut və tarixi dəlillərlə onlara cavab verir ki, Azərbaycanın tarixi min millərlə ölçülür, deməli, azərbaycanlıların dili, ədəbiyyatı, mədəniyyəti də qədimdir, uludur». Hüseyn Abbaszadə, Qabil, Vaqif Səmədoğlu, Zəlimxan Yaqub, Atatürk mərkəzinin rəhbəri prof. Nizami Cəfərov, YB-nin katibi Fikrət Qoca, Arif Əmrahoğlu, Ayaz Vəfalı, İsveçrədə fəaliyyət göstərən «Savalan» cəmiyyətinin sədri Mahmud Bilgin çıxış edərək o

taylı bu taylı Azırbaycan arasındakı mədəni, ədəbi əlaqələrə, xalqın mənən bütövlüyünə, mədəniyyət, dil, təfəkkür, milli şüur və ümummilli məsələlərlə bağlı problemlərə toxundular. Dil və düşüncə birliyinin möhkəmləndirilməsi üçün Güney Azərbaycanında ana dilimizdə qəzet və jurnalların nəşrinin genişləndirilməsi, ana dilmizin məktəblərdə tədrisinə nail olmaq üçün mühüm işlər görülməsinin vacibliyi diqqətə çatdırıldı.

Dünyanın hər yerində olduğu kimi aprelin 2-də Azərbaycan Yazıçılar Birliyində Beynəlxalq Uşaq Ədəbiyyatı günlərinə həsr olunmuş tədbir keçirildi. Tədbirdə uşaqlar üçün yazıb yaradan şairlər, nasirlər, gənc yazarlar, nəşriyyat və kitabxana işçiləri, KİV nümayəndələri də iştirak edirdi. Məclisi xalq şairi, AYB-nin Birinci katibi Fikrət Qoca açdı. O, yazıçılar Birliyin sıralarında çox istedadlı uşaq ədəbiyyatı yaradıcılarının olduğunu bildirdi: «Bizim ən istedadlı yazıçılarımız, klassiklərdən başlamış bu məclisdə iştirak edən qələm sahiblərinə qədər hamısı balacalar üçün gözəl, dəyərli əsərlər yazmışlar»-deyən şair uşaq ədəbiyyatının qarşılaşdığı problemlərin müzakirəsini də aktual bildi.

Uşaq ədəbiyyatı bölməsinin rəhbəri Əli Səmədli YUNESKO-nun qərarı ilə qeyd edilən bu yaddaqalan günün tarixi əhəmiyyətindən danışdı. O gün uşaq evləri, məktəblərə, balacalarla görüşə gedən şair və nasirlərin uşaqların maraqlı suallarına cavab verdiklərini, bu ənənənin nədənsə son illərdə unudulduğunu, balacalara diqqətin azaldığını bildirdi. Digər natiqlər də uşaq mətbuatının uğur və problemlərinə toxundu. Aydın Əbilov «uşaq ədəbiyyatının, ölkədəki dövlət büdcəsindən maliyyələşən uşaq mətbuatının uğur və problemləri barədə məlumat verdi. O, çağdaş dövrün texniki-intellektual nailiyyətlərindən bəhrələnərək, həl-

linə üstünlük verməyi məqsədəuyğun hesab etdiyini bildirdi. İnternetdə milli uşaq ədəbiyyatı səhifəsinin yaradılmasının, uşaqlar üçün ana dilimizdə kömpüter oyunlarını hazırlanmasının, yeni fantastik əsərlərin yazılmasının, yaşları nəzərə alınaraq uşaq kitablarının nəşrinin aktuallığından» danışdı və bu məsələlərin həllinin vaxtı gəlib çatdığını söylədi. İclasda iştirak edən natiqlər eyni zamanda uşaq ədəbiyyatı problemlərinin həlli ilə bağlı fikirlərini söylədilər. Çıxışlarda uşaq ədəbiyyatı əsərləri nəşr edən nəşriyyatlara güzəştlərin verilməsi, dövlət kreditlərinin ayrılması, latın əlifbasına keçidlə bağlı yaranan çətinlikləri aradan qaldırmaq üçün orta məktəblərdə kiril əlifbasının da öyrədilməsi, uşaqların kiril əlifbasıyla nəşr olunan kitabları oxuması imkanlarını artırmaq, klassik və yeni yazarların uşaq ədəbiyyatı nümunələrinin latın əlifbası ilə nəşri və bu kimi problemlərin həllinə kömək edən əlaqədar dövlət təşkilatlarının nümayəndələrinin iştirakı ilə dəyirmi masaların keçirilməsi və s. təkliflər irəli sürüldü.

Aprelin 11-də Türk Xalqları Folklor Araşdırmaları başçısı İrfan Nəsrəddinoğlu ilə keçirilən görüşdə türk dünyası mənəvi irsini toplamaq, tədqiq etmək və təbliği sahəsindəki xidmətlərini yüksək dəyərləndirən Azərbaycan Yazıçılar Birliyi onu fəxri üzv seçdi.

Aprelin 23-də ölkəmizdə keçirilən Rusiya Federasiyası mədəniyyəti günlərinin bir qrup iştirakçısı ilə görüş keçirildi. Məclisi Anar açaraq tanınmış rus yazıçı və şairlərini-«Aryon» poeziya jurnalının baş redaktoru Aleksey Alyoxin, «Voprosi Literaturı» jurnalı redaksiya heyətinin üzvü Tatyana Beki və «Antibuker» ədəbi mükafatı laureatı Maksim Amelini salamladı. Anar iki ölkə arasındakı ədəbiyyatın durumunu, ölkəmizin qarşılaşdığı mübaribə problemini, torpağımızın 20%-nin düşmən işğalına məruz qaldığını,

qaçqın və köçkünlərin ölkəmizdə yaratdığı problemləri, Rusiyada bazar iqtisadiyyatına keçidlə bağlı meydana çıxmış problemləri dilə gətirdi, ədəbiyyatımız arasında əlaqələrin yenidən güclənməsi məsələsinin vacibliyini qeyd etdi. Anar və A.Alyoxin ölkəmizin ədəbi təşkilatları, ədəbi nəşrləri barədə, ədəbiyyatlarımız arasındakı əlaqələri genişləndirmək, qarşılıqlı bədii tərcümə sahəsinə diqqəti artırmaq ehtiyaclarından danışdılar. Görüş iştirakçıları birgə ədəbi əməkdaşlıq barədə mülahizələrini söylədilər.

Azərbaycan Yazıçılar Birliyi məktəblərlə sıx əməkdaşlıq edir, görüşlər keçirir, uşaqlarla, idarə və müəssisələrindəki əmək adamları ilə keçirdikləri görüşlər vasitəsilə ədəbiyyatımızın inkişafı, yayılması sahəsində fəaliyyətlərini uğurla davam etdirirlər. 2002-ci il aprelin 24-də Hüseyn Cavid adına 132 saylı məktəbdə keçirilən «Hekayə günü» şagird və müəllim kollektivinin yaddaşında uzun illər qalacaq. Gülhüseyn Hüseynoğlu, Yusif Kərimov, Qılman İlkin, Əli Vəkil, Bahar Bərdəli, Atababa İsmayıloğlu yazdıqları hekayələrdən nümunələr oxudular. Məktəbin direktoru Aliyə Təhmasib məktəbin müəllim və şagird kollektivinin yazıçılarla görüşünün oyatdığı təsiri yüksək qiymətləndirdi. Adətən poeziya günləri həmişə keçirilir, gənc nəslin nəsr əsərlərinə də maraq oyatmaq cəhətdən belə görüşlərin əhəmiyyəti vardır.

Azərbaycan Yazıçılar Birliyi ədəbi prosesə yenicə qoşulan gənclərə xüsusi qayğıyla yanaşır. 2002-ci ilin aprelin 30-da bir qrup gənc yazarlarla Azərbaycan Yazıçılar Birliyində keçirilən görüşdə Birliyin sədri Anar, katibləri F.Qoca, A.Əmrahoğlu son illər ədəbiyyata gələn gənclərin yaradıcılığını ölkəmizin ədəbi-mədəni ictimaiyyətinə tanıtdırmaq, onların əsərləri ilə tanış etmək məqsədilə bir çox işlər

gördüyünü qeyd etdi: «Ölkə başçısı Prezident Heydər Əliyevin təşəbbüsü ilə gənc yazıçılara verilən altı aylıq Prezident təqaüdü, «Ulduz» gənclik dərgisində cavanların yaradıcılığına geniş yer ayrılması, Birliyin və onun ədəbi orqanlarının gənclər və uşaqlarla bağlı ədəbi mükafatları, həmçinin Respublika Gənclər İdman və Turizm Nazirliyi ilə müştərək illik mükafatların təsis olunması, «Natəvan» klubunda cavanların işıq üzü görmüş kitablarının müntəzəm təqdimatı və müzakirəsi, cavanlara edilən maddi yardımlar və s. işlər» bu sahədə atılan addımlar idi. Bu görüşdə mövcud ənənələrin dirçəldilməsiylə bağlı Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə olunan müraciəti dəstəkləyən Anar gənclərin keçiriləcək ümumrespublika toplantısına hazırlıq məqsədilə yaradılan təşkilat komitəsiylə müzakirələr apardı: «görüş iştirakçıları toplantının keçirilməsində məqsəd kimi, 1990-cı ildən bəri, ölkəmizin ikinci dəfə dövlət müstəqilliyini bərpa edəndən sonra ədəbiyyata gələn yeni nəslin yaradıcı problemlərini müzakirə etmək, ədəbi mühit və etik prinsiplər, əxlaq və milli dəyərləri, ictimai-mədəni durumu müzakirə etmək, yaşlı və cavan nəsillər arasındakı münasibətləri möhkəmləndirmək, eyni zamanda, milli söz sənətimizin inkişafına təkan vermək, sənətə yeni istedadların gəlməsinə şərait yaratmaq» məqsədi daşıyırdı. Gənclərin yaradıcılığını əks etdirəcək illik ədəbiyyat almanaxlarının nəşrinin gərəkliyi barədə irəli sürülən fikirləri dəstəkləyən YB-nin sədri Anar dedi: «O topluda bir sıra ədəbi qurumların, qrupların sənət prinsiplərini əks etdirən manifestlər və üzvlərin yaradıcılıqlarından nümunələr verilsə də, mənə də, ədəbi-mədəni ictimaiyyətə, sıravi oxuculara da bəlli olacaq ki, sizlər arasında, gənclərin içində hansı prinsipial sənət, etik fərqlər var. Yaradıcılığınızı toplu, cəm şəkildə ortalığa qoyulmasının tərəfdarıyam. Həmin kitaba sizinlə həmyaşıd rəssamlar tərtibat

versələr, daha yaxşı olar. Lazım gəlsə, o almanaxa ön söz də yazarıq».

Təkliflər əsasında «Yeni ədəbi nəsil: axtarışlar, problemlər» mövzusunda toplantının mayın 16-da keçirilməsi qərara alındı və keçirildi. Tədbiri giriş sözü ilə Arif Əmrahoğlu açdı.Tənqidçi Tehran Əlişanoğlu son illərin nəsri və dramaturgiyası, tənqidçi Əsəd Cahangir poeziya, Nərgiz Cabbarova ədəbi tənqid və publisistika mövzusunda məruzələr etdilər. Tədbirə Azərbaycan Yazıçılar Birliyinin rəhbəri Anar yekun vurdu.

Aprelin 24-də Azərbaycan Yazıçılar Birliyi Ədəbiyyat İnstitutu ilə birlikdə Bakı milyonçusu Murtuza Muxtarovun bağı-MEA-nın dendrarisində didərgin şair Almas İldırımın 95 illik Respublika Elmi konfransını keçirdilər. Muzeyin direktoru İsrafil İsrafilov, AMEA-nın həqiqi üzvü Bəkir Nəbiyev Almas İldırımın həyat və yaradıcılığı, qürbətdə yaranan əsərləri ilə bağlı məruzə etdi. Yazıçılar Birliyinin və Azərbaycan-Türkiyə Dostluq Cəmiyyətinin sədri, xalq yazıçısı Anar, Azərbaycan Jurnalistlər Birliyinin sədri Hacı Hacıyev, Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin müdiri Maarif Teymur, AMEA-nın həqiqi üzvü, akademik Fuad Qasımzadə, Gülrüx Əlibəyli, Almas İldırımın yaradıcılığı ilə bağlı müxtəlif aspektlərdən söz açdılar.

Konfransın sonunda Türkiyədən gəlmiş Almas İldırımın nəvəsi ailəsi adından konfrans iştirakçılarına öz dərin minnətdarlığını bildirdi. Tədbir boyu aktyor Ağalar Bayramovun ifasında şairin şeirləri dinlənildi.

İyunun 17-də Ümumçin Xalq nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədr müavini cənab Timur Davamatın başçılıq etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə

AYB-nin sədri, millət vəkili Anar Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı mədəni əlaqələrdən, eləcə də Azərbaycan ədəbiyyatının, mədəniyyətinin qədimliyindən Azərbaycan Yazıçılar Birliyinin tarixindən, Azərbaycan ədəbi prosesinin müasir inkişaf prosesindən, AYB-nin gördüyü işlərdən, ədəbiyyata dövlət qayğısından danışdı. Timur Davamat beş min il yaşı olan Çin mədəniyyətinin qədimliyindən, dövlət təşkilatı kimi fəaliyyət göstərən Çin Yazıçılar Birliyinin strukturundan, Birliyin üzvü kimi özünün də ədəbi yaradıcılıqla məşğul olmasından söz açdı. Türk xalqlarının ümumi dəyərləri, Kaşğarlının «Divanı»nın və Yusif Xas Hacib Balasaqunlunun «Qutadqu-bilik» kitablarının dilimizə tərcüməsi ilə bağlı söhbət əsnasında Timur Davamatın «Qutadqu-bilik» əsərini Çin dilinə çevirdiyini, «Divani-lüğət-it-Türk» əsərin tərcüməsini hazırladığını bildirdi. Çin parlamentinin nümayəndə heyəti adından cənab Timur Davamat xəttatlıq nümunəsini, uyğur musiqisindən ibarət dərslikləri və öz kitabını AYB-nə, Anar da «1500 ilin Oğuz şeiri» kitabını AYB-nin adından qonaqlara təqdim etdi, səmimi keçən görüş ədiblərimiz arasında sıx əlaqələr qurulmasının vacib olduğunu da bildirdi.

Yaponiyanın Azərbaycandakı səfiri cənab Toşiyuki Fudjivara Yazıçılar Birliyində olmuş, görüş səmimi şəraitdə keçmiş, Azərbaycan-Yaponiya ədəbi-mədəni əlaqələri müzakirə olunmuş, respublikamızda yapon xalqına, onun ədəbiyyatına, mədəniyyətinə və incəsənətinə xüsusi maraq olmuş, «Görüşdə qərara alınmışdır ki, Yaponiyada Azərbaycan, Azərbaycanda yapon ədəbiyyatı antologiyasının çapı imkanları araşdırılsın, xalqları bir-birinə tanıtmağın ən optimal yolu kimi qarşılıqlı ədəbi əlaqələr gücləndirilsin».

Azərbaycan Yazıçılar Birliyi həmişə ordu ilə, döyüşçülərlə əlaqə saxlayır, görüşlər keçirilir. Azərbaycan Silahlı

Qüvvələrinin 10 illiyi münasibəti ilə Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Qarabağ müharibəsinin iştirakçısı olmuş 172-ci briqadanın üzvlərini və Azərbaycanın Milli Qəhrəmanı Fəxrəddin Cəbrayılovu qəbul etdi. Qonaqlar haqqında Yazıçılar Birliyinin üzvü V.T.Tatarenko «Biz hamımız vətənin müdafiəsinə cavabdehik»-dedi və dövlətçiliyin qorunub saxlanmasında Milli Qəhrəman F. Cəbrayılovun rolu haqqında danışdı. Azərbaycanın Milli Qəhrəmanı polkovnik Fəxrəddin Cəbrayılov dəvət üçün Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə öz təşəkkürünü bildirdi, 1994-cü il 21 yanvarda yaradılan 172-ci briqadanın döyüş fəaliyyətindən, bu briqadaya prezidentin «xeyir-dua» verdiyini, müharibə zamanı Gəncə istiqamətində, Kəlbəcərin müdafiəsinə göndərildiyini, Murovda gedən döyüşlərdə göstərdiyi fəallığı xatırladı.

Kapitan Əlibəyov briqadanın «dövlətçiliyin möhkəmlənməsindəki rolunu», mayor Tahir Axundov, rota komandiri Teymur Piriyev Fəxrəddin Cəbrayılovun fəaliyyətini yüksək qiymətləndirərək ondan çox şey öyrəndiklərini söylədi.

Hərbçilərin çıxışından sonra Qabil «Ümid sənədir ancaq, Azərbaycan əsgəri» şeirindən bir parçanı oxudu. Fikrət Sadıq onların başladığı işi uğurla başa çatdırmağı arzuladı. «Ulduz» jurnalının baş redaktoru Ələkbər Salahzadə «Elə bilməyin ki, biz sizi izləmirik, maraqlanmırıq. İnanın ki, bayram günü mətin addımlarla şəhərin küçələrində yürüş edən ordumuzu görəndə adamın ürəyi dağa dönürdü. Biz də vaxtaşırı jurnalımızda ordumuzun milli qəhrəmanları haqqında publisistik yazılar dərc edir, şəhidlik və qəhrəmanlıq haqqında müxtəlif bədii əsərlərin işıq üzü görməsinə çalışırıq...».

Yazıçılar, şairlər orduyla, gənclərlə əlaqələrin bundan sonra da genişləndiriləcəyini bildirdilər. Tədbirin sonunda Anar «sizin haqqınızda onsuz da təsəvvürümüz vardı və bir daha təsdiqləndi. Yaxanıza asdığınız ulduz sizə halaldı... Çox dəqiq bir deyim var ki, müharibə istəmirsənsə, müharibəyə hazır ol. Biz də hər zaman müharibəyə hazır olmalıyıq. O ki, qaldı yazıçılarımıza, əmin edirik ki, bizim hərbi hissələrlə əlaqəmiz var və hər zaman da mövcudluğuna çalışırıq» dedi və qonaqlara birliyin simvolik hədiyyələrini təqdim etdi.

Azərbaycan Yazıçılar Birliyinin hər ili görüşlər, xatirə gecələri, kitab təqdimatları, yubileylər, konfranslar, xarici qonaqların qəbulu ilə yadda qalandır.

AYB təkcə Azərbaycan ədəbiyyatına deyil, eləcə də, dünya xalqlarının ədəbi- mədəni irsinə hörmət və ehtiramla yanaşır. 2004-cü ildə noyabrın 1-də AYB-də dünya ədəbiyyatının böyük klassikləri, fransız yazıçıları Aleksandr Düma, Viktor Hüqonun 200 illiyi münasibəti ilə keçirdiyi tədbirdə bu iki böyük sənətkarın həm də Azərbaycanla bağlı məqamları dilə gətirildi.

Aleksandr Düma Qafqazda olarkən Azərbaycana gəlişi, şairə Xurşud banu Natəvanla, onun həyat yoldaşı Usmiyevlə görüşü, onun «bizim torpaq və xalq haqqında xoş təəssüratlarını» yazdığı kitabda təsvir etdiyi xatırlandı.

Dünya ədəbiyyatında romantizmin banisi sayılan Viktor Hüqonun siyasi fəaliyyəti ilə bağlı Anar fransız xalqına xidmətlərini də vurğuladı.

Çıxış edənlər Azərbaycan dilinə əsərləri tərcümə edilən, Azərbaycan oxucularının yaxşı tanıdığı Aleksandr Düma və Viktor Hüqonun 200 illik yubileyinin YUNESKO-nun qərarı ilə bütün dünyada qeyd edildiyini qeyd etdi. Tərcüməçi Hamlet Qoca A.Dümanın Azərbaycanla tanışlığının

1877-1878 -ci illərdə ölkəmizdə olmuş səyyah Kaina Serena vasitəsilə olduğunu, Aleksandr Dümanın «Qafqaz səfəri» əsərində xalqımız haqqında müsbət rəy formalaşdırdığını, eləcə də digər fransız yazıçısı Viktor Hüqonun həm yazıçı, həm də siyasi xadim kimi fransız xalqına və ədəbiyyatına etdiyi xidmətlərindən danışdı. Bu iki böyük sənətkarların əsərlərinə çəkilən filmlərlə bağlı kinorejissor Gülbəniz Əlizadə «Qavroş» filmini xüsusilə vurğuladı və Azərbaycan gənclərinin tərbiyəsində oynadığı rolu vurğuladı. Millət vəkili, xalq şairi V.Səmədoğlu, professor Həsən Quliyev, Azərbaycanın YUNESKO-dakı təmsilçisi Ramiz Abutalıbov, «Ədəbiyyat qəzeti»nin baş redaktoru Ayaz Vəfalı, Qəzənfər Paşayev, Çingiz Abdullayev və b. böyük yazıçılara Azərbaycan ədəbiyyatında böyük maraq olduğunu, AYB-nin dünyada tanınmış ədiblərin yaradıcılığının təbliği sahəsində apardığı məqsədyönlü fəaliyyətindən danışdılar. Fransanın Azərbaycandakı səfirliyinin nümayəndəsi İv Berqrand Azərbaycan Yazıçılar Birliyinə öz təşəkkürünü bildirdi və Azərbaycan ədəbiyyatının Fransada təbliği ilə bağlı görülən işlər barədə məlumat verdi: «Azərbaycan ədəbiyyatı ilə maraqlanan tədqiqatçılar bizdə də çoxdur və onlar bu sahədə iş aparırlar. Artıq bu yaxınlarda o tədqiqatçılardan birinin Şəhriyar haqqında yazdığı kitab işıq üzü görüb və kitabın Bakıda da təqdimatı olacaq».

Hüseyn Abbaszadənin 80, Xalid Əlimirzəyevin 70, Yusif Həsənbəyin 70 illik yubileyləri AYB-də geniş şəkildə qeyd olundu.

2003-cü ilin yanvarın 17-də hər il olduğu kimi 20 yanvar şəhidləri anıldı. Natəvan klubunda 20 Yanvar faciəsinə həsr olunmuş tədbiri açan Anar o müdhiş gecəni ürəkağrısıyla xatırladı. Milli azadlıq və müstəqillik yolunda canından keçən Azərbaycan şəhidlərinin əbədiyyətə qovuşduğu

günü xatırlatdı. Şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi. Çıxış edən şairlər, yazıçılar o dəhşətli və dəhşətli olduğu qədər sabaha üzü açılacaq yeni tarixi səhifəmizi şeirləri ilə yada saldılar.

Yanvarın 29-da «Azərbaycan» jurnalının 80 illik yubileyi ilə bağlı Natəvan klubunda keçirilən yığıncaqda ədəbiyyatımızın inkişafında böyük xidmətləri olan jurnalın tarixi xidmətləri dilə gətirildi. Prezident Aparatının Humanitar Siyasət Şöbəsinin müdiri Fatma Abdullazadə «Azərbaycan», «Literaturnıy Azerbaydjan» jurnalının əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan prezidentinin fərmanını və dövlət başçısının «Azərbaycan» jurnalına təbrik məktubunu oxudu.

Şairlərimiz (Qabil, B.Vahabzadə, N.Həsənzadə, Z.Yaqub, «Ədəbiyyat qəzeti»nin baş redaktoru Ayaz Vəfalı və b) Azərbaycan ədəbi-fikir tarixində jurnalın rolunu yüksək qiymətləndirdilər, «ölkəmizdə mütərəqqi mətbuatın ənənələrini davam etdirən jurnalın ötən 80 ildə ədəbiyyatımızın yaradılmasında, söz sənətimizin daha da zənginləşməsində, oxucuların bədii-estetik zövqünün formalaşmasında böyük rolunu vurğuladılar». Azərbaycan jurnalının əməkdaşları (Mövlud Süleymanlı, Vaqif Yusifli), jurnalın sabiq baş redaktoru, qocaman sənətkarımız Qılman İlkin, «Litreaturnıy Azerbaydjan» jurnalının baş redaktoru Mənsur Vəkilov yaradıcı insanların əməyinə verdiyi yüksək qiymətə görə dövlətin başçısına öz minnətdarlıqlarını bildirdilər.

Jurnalın 80 illik fəaliyyəti dövründə rolu olan insanların xidmətlərini yüksək qiymətləndirən «Azərbaycan» jurnalının baş redaktoru İntiqam Qasımzadə bu jurnalın yaşamasında, ardıcıl çapında dövlətin qayğısını yüksək qiymətləndirdi və jurnalın bundan sonra da ədəbiyyatımızın inkişafına xidmət edəcəyini bildirdi.

AYB həmişə ölkədə və dünyada baş verən ictimai-siyasi hadisələrə öz münasibətini bildirib. Amerikanın İraqa qarşı başladığı hərbi əməliyyatda yüzlərlə dinc əhalinin də öldürüldüyünə qarşı AYB öz humanist bəyanatı ilə çıxış etdi. Bəyanatda deyilir: «İraqda gedən müharibə əsnasında dinc əhali arasında itkilərin olması, mədəniyyət abidələrinin dağıdılması bütün dünya ictimaiyyəti kimi bizi də çox təəssüfləndirir.

Müharibə bitəndən sonra gələcək İraqın taleyi ilə bağlı bir məsələ də bizi narahat edir. Məlum olduğu kimi, əsrlər boyu İraqın şimalında-Kərkük, Ərbil, Mosul dolaylarındadili dilimizdən, dini dinimizdən, folkloru, xalq şeiri, xoyratları bayatılarımızla, dastanlarımızla əkiz olan bir xalq-özlərini türkman adlandıran İraq türkləri yaşayır. XVI əsrin dahi Azərbaycan şairi Füzuli məhz bu mühitdə yetişmiş, yaşayıb-yaratmışdır. XX əsrin ortalarından başlayaraq Azərbaycan və İraq türükmanları arasında mədəni və ədəbi əlaqələr yenidən bərpa olunmuş və ardıcıl şəkildə inkişaf etməkdədir.

Sayı 3 milyondan artıq olan İraq türklərinin (türükmanlarının) aqibəti, onların hər hansı təzyiqlər, təqiblərə məruz qalması bizi təlaşlandırmaya bilməz. Azərbaycan yazıçıları adından demokratiya, insan haqları və xalqların qanuni prinsiplərini bəyan edən ABŞ dövlətinə müraciət edərək, ərazi bütövlüyü saxlanacaq gələcək İraqda soydaşlarımızın-türükmanların qorunması, hüquqlarının tam təmin olunması haqqında verdikləri təminatları həyata keçirməyə çağırırıq.

Bu bəyanat ABŞ-ın Azərbyacandakı səfirliyinə təqdim olunacaqdır.

Azərbaycan Yazıçılar Birliyinin sədri
ANAR. 8 aprel 2003-cü il».

2003-cü ilin mayın 8-də İkinci Dünya müharibəsi iştirakçılarıyla keçirilən görüşdə xalq yazıçısı Hüseyn Abbaszadənin müharibə iştirakçısı kimi faşizmə qarşı vuruşduğunu, BDU-nun professoru Seyfulla Əsədullayev faşizm üzərində qələbədə Azərbaycan döyüşçülərinin, Azərbaycan xalqının xidmətlərini xatırlatdı. Prezident təqaüdçüsü Fətəli Sahib, əməkdar incəsənət xadimi İvan Tretyakov, şair Ağəli Qasımov müharibə haqqında öz xatirələrini danışdılar. Yazarlar adından şairə, ədəbiyyatşünas Gülxani Pənah veteranlarımızı təbrik etdi, Əminə Tuncay ağsaqqal yazıçılarımız, müharibə veteranları Qılman İlkin və Hüseyn Abbaszadəni ədəbiyyatımızın «inciləri» adlandırdı, tədbirin sonunda AYB-nin rəhbərliyi Qələbə günü münasibətilə veteranlara pul mükafatı təqdim etdi.

Azərbaycan Yazıçılar Birliyi bir sıra gənclər qurumu ilə, ədəbi birliklərin rəhbərləri ilə keçirdikləri vaxtaşırı görüşlərdə çağdaş ədəbi proseslə bağlı məsələləri müzakirə etmiş, maraqlı fikir mübadiləsi etmişlər. Belə görüşlər ədəbiyyatımızın gənclər arasında yayılması, ədəbi prosesə marağın artmasına təkan verən amillərdir.

Azərbaycan Yazıçılar Birliyinin müxtəlif ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor nümayəndələri ilə görüşləri də fəaliyyətlərinin tərkib hissəsidir. Belə görüşlərdən biri qonşu Rusiya Federasiyasının Novosibirsk vilayətində fəaliyyət göstərən Azərbaycan diasporunun və Novosibirsk şəhər ictimaiyyətinin nümayəndələri ilə keçirilən görüşdür.

Tədbiri millət vəkili, Azərbaycan Yazıçılar Birliyinin sədri, Milli Məclisin Mədəniyyət Məsələləri daimi Komissiyasının sədri Anar açdı. Qonaqları salamlayan yazıçı Azərbaycan nümayəndə heyətinin Novosibirsk şəhərinə səfəri zamanı «yazarlarımızın orada gördüklərindən məmnun qaldıqlarını, milli diaspora təşkilatının fəal üzvləri ilə görüşlərdən, keçirilən tədbirlərdən xoş xatirələrlə qayıtdıqlarını söylədi». Bu sahədə xidmətlərini xüsusilə qeyd etdiyi diaspora təşkilatının-Azərbaycan Milli-Mədəni Muxtariyyəti Mərkəzinin vitse prezidenti, Mirkazım Seyidovun fəal ictimaiyyətçi olmaqla yanaşı, istedadlı şair kimi fəaliyyəti də vurğulandı və onun Novosibirsk şəhərində rusca və azərbaycanca nəşr olunmuş «Bir medalın iki üzü», «Sənə nəğmə qoşuram, mənim dağlı və günəşli ölkəm» adlı şeirlər və publisistik əsərləri olan kitablarına görə AYB-nin üzvlüyünə qəbul olunması münasibəti ilə qonağı təbrik etdi. Rusiyalı qonaq Vladimir Qriqoryev Novosibirskidə on minlərlə azərbaycanlının yaşadığını, ölkənin ictimai-siyasi, mədəni həyatında fəal oluqlarını, xalqlarımız arasındakı dostluğu, qarşılıqlı əlaqələri möhkəmləndirdiklərini bildirdi.

Mirkazım Seyidov yazdığı kitablarda nəsillərə örnək olan ümummilli liderimizi, onun layiqli davamçısı İlham Əliyevin-Azərbaycanı uğurlu gələcəyə aparan böyük insanın ölkələrimiz arasındakı ədəbi-mədəni, ictimai-iqtisadi əlaqələrin möhkəmlənməsi sahəsindəki rolunu yüksək qiymətləndirdi. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin idarə rəisi, şair Çingiz Əlioğlu, xalq şairi Qabil, Yazıçılar Birliyinin şöbə müdiri Ədalət Əsgəroğlu, «Palitra» qəzetinin baş redaktoru Namiq Əliyev, «Diaspora» dərgisinin redaktoru Xan Rəsuloğlu, Fikrət Qoca, Arif Əmrahoğlu qonşu ölkədə yaşayan azərbaycanlılarımızın ölkələrimiz arasındakı qarşılıq əlaqələrin inkişafındakı rolunu dəyərləndirdilər. Anar Azərbaycan diasporlarıyla əlaqələrin genişləndirilməsinin vacibliyini və belə tədbirlərin bundan sonra da keçiriləcəyini söylədi.

Sentyabrın 23-də Natəvan klubunda İranın şair və yazıçılarından ibarət nümayəndə heyəti ilə keçirilən görüş də

unudulmaz, yaddaqalandır. Sayid Baqiri, Mahmud Dəstpiş, İsmayıl Amini, Pərviz Veyqi, Rəfiqə Nuray, Firuzə Məmmədli, Nərgis Gənci, Gülxani Pənah, Əli Musəvi, İmran Səlahi şeirlərini oxudular və farsca oxunan şeirlərin məzmunu Azərbaycan dilinə, Azərbaycan dilində oxunan şeirlərin məzmunu farscaya tərcümə olunurdu. İran parlamentinin üzvü, nümayəndə heyətinin başçısı Fatimə xanım Rakeyi öz çıxışında ədəbi əlaqələrin genişlənməsini arzuladı, şeirlərini oxudu. Çox səmimi keçən şeir-sənət məclisini yekunlaşdıran Anar fikirlərini belə yekunlaşdırdı: «Əziz dostlar, bacılar, qardaşlar, çox gözəl tədbirin iştirakçısı olduq. Azərbaycan türkcəsində, fars dilində gözəl şeirlər eşitdik, gözəl çıxışlar dinlədik və məndə belə bir qənaət hasil oldu ki, biz düşündüyümüzdən də bir-birimizə daha yaxınıq: hisslərimiz, duyğularımız, amallarımız birdir və hər xalqın öz dilində yaratdığı ədəbiyyat onun qəlbinin səsidir. Mən çox sevinirəm ki, bu gün burada bizim Güney Azərbaycanın şairləri də, Quzey Azərbaycanın şairləri də öz ana dilində şeirlər oxudular; bizim fars qardaşlarımız da öz ana dillərində şeirlər oxudular. Və bu, bizim ədəbiyyatımızın qarşılıqlı inkişafına, qələm adamlarının bir-birini daha yaxından tanımasına səbəb olacaq!».

2003-cü ilin oktyabrın 25-də keçirilən toplantıda Moskvada yaşayan soydaşlarımız AYB-nin Moskva bölməsini yaratmaq təşəbbüsünü irəli sürdülər. Azərbaycanın Naxçıvan, Lənkəran, Aran, Gəncə, Qazax bölmələri olmasını xatırladan toplantı iştirakçıları bu fikri dəstəkləyərək bölmənin idarə heyətini (AYB-nin üzvü Tofiq Məlikli (sədr), AYB-nin üzvü İlham Bədəlbəyli və Rusiya Yazıçılar Birliyinin üzvü Nəsib Nəbioğlu (katiblər) seçdilər. İclas iştirakçılarının Azərbaycan Yazıçılar Birliyinə göndərilmiş, qəbul olunmuş qərarını AYB təsdiq etdi.

Azərbaycan Yazıçılarının XI qurultayı ərəfəsində bir sıra tədbirlər keçirildi, noyabrın 26-da keçirilən yaradıcılıq müşavirəsi bədii nəsr və dramaturgiyaya həsr olunmuşdu. Elçin Hüseynbəyli «Son beş üstəgəl bir il nəsrimiz ilə dramaturgiyamızın durumuna qısa baxış» mövzusunda ictimai xarakterli məruzə ilə çıxış etdi.

Qurultaylararası çağdaş bədii nəsrin və dramaturgiyanın ümümi mənzərəsi ilə bağlı dinlənilən məruzə ətrafında çıxışlar oldu. Nasir Xeyrəddin Qoca, Vidadi Babanlı, Yusif Kərimov, Aydın Əbilov, tənqidçi Əsəd Cahangir, «Azərbaycan» jurnalının baş redaktor müavini, tənqidçi Vaqif Yusifli, şair-tərcüməçi Səlim Babullaoğlu, «Avanqard» ədəbi birliyinin sədri Dəyanət Osmanlı, «YeniSi» qurumunun əlaqələndiricisi, tənqidçi Tehran Əlişanoğlu, AYB-nin katibi, tənqidçi Arif Əmrahoğlu, AYB-nin ədəbi orqanlarının baş redaktorları Ayaz Vəfalı («Ədəbiyyat qəzeti»), İntiqam Qasımzadə («Azərbaycan») fikirlərini söylədilər. AYB-nin sədri Anar müşavirəyə yekun vurdu. Dekabrın 5-də keçirilən iclasda son illərin poeziyası haqqında Əsəd Cahangir məruzə etdi. Ətraflı və dolğun məruzə etdi. Məruzə ətrafında maraqlı çıxışlar oldu. AYB-nin katibi, xalq şairi Fikrət Qoca çıxışında bildirdi ki, «altı ilin şeirini bir məruzədə təhlil etmək mümkün olmasa da, Ə.Cahangir öz qarşısına qoyduğu məqsədə nail olub. Azərbaycan Yazıçılar Birliyinin gənclərə xüsusi diqqət ayırmaqla ədəbiyyatımızın gələcəyini öyrənməyə çalışdığını söyləyən Fikrət Qoca yeni nəslin milli söz sənətinin inkişafındakı məsuliyyətini də qabartdı».

Azərbaycan Yazıçılar Birliyinin XI qurultayı ərəfəsində qurultaya hazırlıq işləri aparılır, müxtəlif janrlar üzrə müşavirələr keçirilir, bölmələrdə fəaliyyət göstərən filialların, ədəbi orqanların hesabat məruzələri dinlənir və zama-

nın tələbindən asılı olaraq Azərbaycan Yazıçılar Birliyinin Nizamnaməsində də düzəlişlər və əlavələrə ehtiyac nəzərdən keçirilirdi. Bu məqsədlə katiblik tərəfindən yaradılan işçi qrupların bir sıra təklifləri müzakirə olunur və ümumi razılıq əldə edilir: «Həmin düzəliş və əlavələr əsasən aşağıdakı məqsədlərə xidmət edir:

Birincisi-YB-nin rəhbər strukturlarının daha da demokratik əsaslarla qurulması, formalaşması və işləməsi.

İkincisi-YB-nə qəbul məsələsinin tənzimlənməsi, bu məsələyə daha tələbkar yanaşılması üçün xüsusi ekspertlər qrupu yaradılması.

Üçüncüsü-Azərbaycan ədəbiyyatının ölkəmizdən kənarda daha geniş təbliğ olunması üçün yeni formaların müəyyənləşməsi, o cümlədən yeni tərcümə dərgisinin yaradılması.

Dördüncüsü-YB-nin işində gənc ədəbi qüvvələrin daha geniş təmsil olunması və fəaliyyət göstərməsi. YB-nin üzvlərinin yaratdıqları müxtəlif ədəbi qurumların, dərgilərin fəaliyyətinə şərait yaradılması, bu məsələlərlə yaxından məşğul olmaq üçün katiblik yanında Gənclər Şurasının yaradılması və gənclərlə iş üzrə katibin seçilməsi.

Beşinci-YB üzvlərinin xeyli artdığına görə əvvəlki qurultaylardan fərqli olaraq növbəti qurultayda iştirak edəcək nümayəndələrin seçilmə prinsiplərinin müəyyənləşməsi.

2004-cü ilin yanvarın 14-də Azərbaycan Yazıçılar Birliyində «Azərbaycan ədəbiyyatının təbliği» mövzusunda dəyirmi masa keçirildi. Müxtəlif nəslin yazıçı, şair, tənqidçi, ədəbiyyatla bağlı insanları, ədəbi qurumların rəhbərləri, KİV nümayəndələrinin qatıldığı bu tədbir də qurultayqabağı keçirilən silsilə görüşlərin davamı idi. Dəyirmi masanın «əsas məqsədinin milli söz sənətinin təbliği və inkişafı olduğunu xatırladan Anar bu günlərdə ölkə Prezidenti cə-

nab İlham Əliyevin latın qrafikalı kitabların nəşri ilə bağlı imzaladığı sərəncamı çox yüksək qiymətləndirdi. 2004-2008-ci illər ərzində hər il 150 kitabın dövlət tərəfindən nəşri nəzərdə tutulduğunu söyləyən AYB-nin sədri builki siyahıya düşməyən yazıçıların növbəti illərdə əsərlərinin işıq üzü görəcəyi ilə bağlı açıqlama verdi.

Aydın Xan beynəlxalq təcrübədən, AYB-nin tarixi fəaliyyətindən, YUNESKO-nun üzvü olan ölkələrin tövsiyələrindən faydalanaraq yeni nəsil yaradıcı şəxslərin təklifləri barədə məlumat verdi. Ədəbiyyatın təbliği ilə bağlı Arif Əmrahoğlu görülən işlərdən danışdı, bununla bağlı Azərbaycan Yazıçılar Birliyinin xüsusi proqram hazırladığını, eyni zamanda bir sıra ölkələrdə fəaliyyət göstərən yaradıcı qurumlarla birlikdə işlədiklərini, milli söz sənəti nümunələrindən ibarət almanaxlar hazırlayaraq nəşr etdirdiklərini tədbir iştirakçılarına çatdırdı və bundan sonra da bu yöndə işlər görüləcəyini bildirdi. Hərbi mövzuda yazılmış əsərlərin təbliğinə xüsusi yer ayırmaq lazım gəldiyini söyləyən Respublika Veteranlar Şurasının katibi, hərb tarixi elmləri namizədi Seyfəddin Şıxlı, Ədəbiyyat qəzetinin səhifələrinin azlığından da şikayətləndi.

Azərbaycan Yazıçılar Birliyinin Bədii Ədəbiyyatı Təbliği Bürosunun direktoru, şair Nazim Əhmədli gördükləri işlər barəsində geniş məlumat verdi. Respublikanın, eləcə də paytaxtın müxtəlif müəssisə və təşkilatlarının əmək kollektivi ilə müxtəlif nəsil qələm sahibləri ilə görüşlərin keçirildiyini, Qarabağ mövzusunda ən yaxşı bədii əsərlərin müsabiqəsini keçirdiyini, «Yaddaş» milli mükafatını təsis etdiyini, bir sıra yazıçıların əsərlərinin qardaş Türkiyədə nəşri ilə bağlı danışıqlar apardığını, istedadlı qələm sahiblərini bölgələrə yaradıcılıq ezamiyyətlərinə göndərdiklərini, bundan sonra da ardıcıl olaraq bu qəbil tədbirləri həyata keçirə-

cəkləri barədə məlumat verdi. Mühacirət və diaspor ədəbiyyatı antologiyalarının nəşrini, Azərbaycandan kənarda yaşayan soydaşlarımızla birlikdə əlaqələrin möhkəmləndirilməsini, Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi ilə birgə fəaliyyətdən yararlanmaqla ədəbiyyatımızın həm ölkə daxilində, həm də beynəlxalq aləmdə təbliğinin artırılmasını (Səlim Babullaoğlu), 2005-2008-ci illər arasında dövlət hesabına nəşr olunacaq kitabların siyahısına dünya və milli uşaq ədəbiyyatı nümunələrinin də daxil edilməsi (Q. Nəcəfzadə), dünyada yaşayan, yazıb-yaradan istedadlı qələm sahibləri ilə AYB-nin görüşlərini təşkil etməklə həm milli söz sənətinin, həm diaspora ədəbiyyatının, həm də dövlətçiliyimizin güclənməsinə kömək edəcəyini, bu sahədə xeyli işlər görən AYB-nin rəhbərliyinin fəaliyyətini (M. Seyidov), Güney Azərbaycanında anadilli ədəbiyyatın inkişafındakı çətinlikləri nəzərə alaraq, Güney Azərbaycanın qələm sahiblərinin yaradıcılığına diqqət artırmağı, onların yaradıcılığının qayğısına da qalmağın vacibliyini, əsərlərinin latın qrafikası ilə nəşrini (f.e.d. Sabir Nəbioğlu) və digər təklifləri irəli sürən qələm sahibləri Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyi tərəfindən diqqətlə dinlənildi.

Yanvarın 28-də ədəbi tənqidin son altı illik durumu təhlil edildi. Tədbirdə KİV nümayəndələri, müxtəlif nəsli təmsil edən yaradıcı insanlar, tənqidçi və ədəbiyyatünaslar iştirak edirdi. Müşavirədə «qurultaylararası ədəbi tənqid» mövzusunda Aydın Əbilovun məruzəsi dinlənildi. Çıxış edənlər ədəbi tənqidin ədəbi prosesin inkişafında rolunu diqqətə çatdırdılar. Məruzə ətrafında yürüdülən fikirlər birmənalı olmayıb müxtəlif mübahisələrə səbəb oldu. «Tənqidçi Əsəd Cahangir tənqid terminin anlamını verərək ədəbi tənqid kimi çətin sahə barədə məruzənin Aydın Xana tapşırılmasını, məruzədə çoxlu sayda imza və əsərlərin adlarının

sadalandığını tənqid edərək məruzəçinin hansı elmi «prinsipi əsas götürdüyünü aydınlaşdıra bilmədiyini xüsusi vurğuladı. Məruzənin təqdirəlayiq cəhəti kimi nəzəriyyəçi filoloqların yaradıcılığına ayrılmış yerlər olduğunu» göstərməklə yanaşı tədbirin təşkilini alqışladı və Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə minnətdarlığını bildirdi, ədəbi prosesdə baş verən hadisələrlə bağlı fikirlərini söylədi. Köhnə sovet tipli tənqidə ehtiyac olmadığını bildirən Kamal Abdulla Dünya və çağdaş filoloji elmlərdə baş verən proseslərdən çıxış etdi. Məruzədə qoyulan məsələlər barədə fikirlər yürütməyi təklif etdi, «ədəbi tənqidin fəlsəfə ilə bağlılığını göstərən çıxışçı dünya elmi-mədəni filoloji-fəlsəfi fikirdəki yeniliklərdən danışdı. Ədəbiyyat haqqında yazıçıların fikirlərinə üstünlük verən K.Abdulla cəmiyyətdə baş verən proseslərin ədəbiyyata təsirini göstərdi, ədəbi tənqidin get-gedə ədəbiyyatşünaslıqla əvəzlənməsinin vacibliyinin vurğuladı». Tədbir iştirakçılarının ayrı-ayrı məqamlar haqqında söylənmiş fikir və mülahizələrini yekunlaşdıran sədr ədəbiyyatın uğurları kimi problemlərinin də mövcud olduğunu, bu cür tədbirləri də məhz o məsələlərin müzakirəsi baxımından təşkil etdikləri fikrini söylədi.

Fevralın 4-də keçirilən növbəti yaradıcılıq müşavirəsi uşaq ədəbiyyatı mövzusuna həsr edilmişdi. Ədəbi-mədəni ictimaiyyətin nümayəndələri, tənqidçilər, ədəbiyyatşünaslar, jurnalistlər toplaşan müşavirədə müasir uşaq ədəbiyyatı problemləri ilə «Pərvanə» ədəbi məclisinin rəhbəri Q.Nəcəfzadə çıxış etdi. Uşaq ədəbiyyatı bölməsinin rəhbəri Əli Səmədli məruzəçiyə təşəkkürünü bildirdi və bu mövzuyla bağlı fikirlərini yaradıcı insanlarla bölüşdü. Bu sahənin həmişə dövlət qayğısına ehtiyacı olduğunu vurğuladı. «Göyərçin» jurnalının baş redaktoru, yazıçı Rafiq Yusifoğlu uşaq ədə-

biyyatına dair bir sıra kitabların müəllifi kimi Qəşəm Nəcəfzadənin məruzəsindəki sistemsizlikdən gileyləndi: «Uşaq ədəbiyyatının predmeti, məqsədi olmalıdır. Məruzə problemlər, mövzular ətrafında qurulsaydı, daha sanballı, dəyərli alınardı». Tənqidçi Ə.Cahangir məruzənin dəyərli tərəflərini sadaladı və aparılan təsnifatın sistemli alınmadığını söylədi. Azərbaycan, rus, və türk ədəbiyyatlarındakı oxşar cəhətləri qabartdığına görə məruzəni təriflədi. Onun təbiət fəlsəfəsindən cəmiyyət fəlsəfəsinə keçid məsələsinə toxunduğunu, uşaq ədəbiyyatı problemlərini sistemləşdirdiyini xüsusi qiymətləndirdi.

Zahid Xəlil dövri mətbuatda uşaq ədəbiyyatına dair əsərlərin çap olunmadığına toxundu və bu sahədə ciddi addımlar atılmasının zəruriliyini bildirdi. Uşaq ədəbiyyatı ilə bağlı fikirlərini söyləyərkən balaca uşaqlar üçün dərsliklərə salınmış ədəbi nümunələrin səviyyəsiylə bağlı məsələlərə toxunan Respublika Təhsil Şurasının sədri Ə. Ağayev «Yazıçılar Birliyində dərsliklərə salınmış uşaq ədəbiyyatı nümunələrinin bədii dəyərini müəyyənləşdirən ekspert şurasının yaradılmasını, uşaqlar üçün nəzərdə tutulmuş dərgi və qəzetlərin nəşri, həmçinin yayımı sahəsindəki çətinliklərin tezliklə aradan qaldırılmasından ötrü ciddi işlərin həyata keçirilməsini təklif etdi». Tədbir iştirakçıları hər biri öz çıxışında bu və ya digər dərəcədə uşaq ədəbiyyatıyla bağlı məsələləri gündəmə gətirdi.

Azərbaycan Yazıçılar Birliyinin Bədii tərcümə məsələlərinə həsr olunmuş müşavirəsində şair-tərcüməçi Səlim Babullaoğlunun keçən altı ilə ərzində bədii tərcümə sənətinin ümumi mənzərəsinə həsr olunmuş «Kənar gözlə» adlı məruzəsi dinlənildi. Məruzə ətrafında Azərbaycan Dövlət Dillər Universitetinin prorektoru, f.e.d. professor Zeydulla Ağayev, «Ədəbiyyat qəzeti»nin baş redaktoru Ayaz Vəfalı, şair

Sərvaz Hüseynoğlu, YB-nin katibi, tənqidçi Arif Əmrahoğlu, tənqidçi Əsəd Cahangir, şairə, ədəbiyyatşünas Gülxani Pənah «Mütərcim» jurnalının baş redaktoru Telman Vəlixanlı, şair-publisist Tofiq Abdin, «Azərbaycan» jurnalının baş redaktoru İ.Qasımzadə, şair-tərcüməçi Eyvaz Borçalı, Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin rəhbəri, yazıçı-tərcüməçi Afaq Məsud bədii tərcümə mədəniyyətimizin müasir durum və problemləri ilə bağlı məsələləri müzakirə etdilər. Anar qarşılaşdıqları problemlərin həlli ilə bağlı görüləcək işlər haqqında danışdı.

XI qurultayqabağı Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanlarının («Azərbaycan», «Qobustan», «Ulduz», «Literaturnıy Azerbaydjan» jurnalları və «Ədəbiyyat qəzeti») fəaliyyətləri ilə bağlı keçirilən müşavirələrdə görülən işlər, ədəbi prosesin inkişafında bu mətbu orqanların rolu təhlil edildi.

2000-2004-cü illər arasında AYB-nin işi ədəbi prosesin məqsədyönlü şəkildə inkişafıyla yanaşı, onlara qarşı aparılan mübarizələri də dəf etmək olub. Müxtəlif mətbu orqanlarda AYB-nin əleyhinə yazılan yazıların bir səbəbi kim keçid dövrünün çətinliklərini görürük. Sovet dönəmində şair, yazıçı, tənqidçi dövlət tərəfindən maliyyələşdirilir, əsərləri dövlət hesabına nəşr olunur, qonorar alır, evlə təmin olunur, sosial-iqtisadi şəraiti yetərincə təmin edilirdi. Müstəqillik dövrünə qədəm qoyduğumuz ilk illərdə ölkənin ağır sosial, iqtisadi, siyasi, ictimai durumu milli söz sənətinin sahiblərinin taleyində də ağır izlər buraxdı. Ölkədə gedən proseslər, dəyişikliyə uğrayan ictimai formasiyalar bir sıra məsələlərin həllində çətinlikləri ortaya qoydu. Sovet dövründə senzura ilə idarə olunan ədəbi prosesə verilən siyasi, mənəvi azadlıq bəzi məsələlərin həllində yanlış yolların da baş

alıb getməsinə səbəb oldu. Ədəbiyyata gələn yeni gənc ədəbi nəslin ədəbi prosesə yanaşma tərzi, bədii düşüncə məsələsində, qələmə alınan əsərlərin ideya-bədii keyfiyyətlərində bir-birini tamamlamayan qeyri-sənətkarlıq keyfiyyətləri ziddiyyətli fikirlər dolaylarında müxtəlif məfkurə sahiblərini birləşdirməyə başladı. Bu sahədə ən böyük zərbələri Azərbaycan Yazıçılar Birliyi və onun rəhbərliyi aldı. Azərbaycan Yazıçılar Birliyinin bir qurum kimi fəaliyyətinin dayandırılmasını istəyən qüvvələr əslində milli ədəbiyyatımızın inkişafına əngəl törətdiklərini bilmirdilər. Müxtəlif şayiələr, böhtanlar düşmənlərimizin xeyrinə idi. İlk illərdən mətbuatda yayılan yalan, böhtan qərəzli yazılar qurultay ərəfəsində daha da çoxaldı, sərtləşdi, Yazıçılar Birliyinin dağıdılması, buraxılması israrla tələb edilirdi. Belə bir dövrdə 50-60 ildən çox fəaliyyət göstərən bir qurumun dağılmasının qarşısını alan, milli ənənələrə sadiq istedadlı qələm sahibləri min bir təhqirlərə məruz qalsalar da, sübut edə bildilər ki, bir şeyi qurmaq çox çətin, dağıtmaq isə çox asandır. Böyük zəhmətlə, məsuliyyətlə, şərəfli bir həyat sürən, fəaliyyət göstərən, dünya ədəbiyyatına qüdrətli sənətkarlar bəxş edən, yarım əsrdən çox fəaliyyəti dövründə xalqının ədəbi-mədəni, mənəvi xəzinəsini zənginləşdirən Azərbaycan Yazıçılar Birliyinin yaşaması, fəaliyyəti ədəbiyyatımızın yaşaması, fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir. Yeni yaradıcı nəslin adından istifadə edən bir qrup «dağıdıcılar» milli dəyərlərimizə qarşı çıxır, klassik sənətkarlarımıza qarşı xoşagəlməz ifadələr söyləyir, son 60-70-ci illər ədəbiyyatına qarşı çıxır, onun nümayəndələrinə qarşı xüsusi amansızlıqla ideyavi zərbələr vururdular. Belə bir zamanda belə böhtançılara, məsuliyyətsiz insanlara qarşı türk dünyasının ən peşəkar yaradıcılarını öz sıralarında birləşdirən Azərbaycan Yazıçılar Birliyinin müdafiəsinə qalxanlar, onun yoxluğunu istəyənlərdən qat-qat çox idi.

Son zamanlar baş alıb gedən böhtan və məsuliyyətsiz çıxışlara qarşı yaradıcı qurumların birgə bəyanatında deyilir: «Müstəqil Respublikamızda fəaliyyət göstərən yaradıcı Qeyri-Hökumət Təşkilatlarının-ədəbiyyatla bağlı gənclər qurumlarının, ədəbi məclislərin, mədəniyyət yönümlü birliklərin çoxsaylı üzvləri olaraq, son zamanlar ölkəmizin peşəkar qələm sahiblərini öz sıralarında birləşdirən AYB-nin təşkilatçılığı ilə yazıçılarımızın qarşıdakı XI Qurultayı ərəfəsində bəzi aztirajlı mətbuat orqanlarında yeni yaradıcı nəsil adından yalan və şayiələr yayanlara, eyni zamanda milli dəyərlərimizə, ziyalılarımıza böhtan atanlara qarşı öz qəti etirazımızı bildiririk. Üzvlərimizin böyük əksəriyyəti, eyni zamanda ölkəmizin və Türk Dünyamızın ən mötəbər peşəkar yaradıcı qurumlarından sayılan AYB-nin sıralarında birləşərək, dövlətimizin yeni mədəniyyət-ədəbiyyat quruculuğu prosesində fəal iştirak edir.

Milli əhəmiyyətli bu böyük missiyanı yerinə yetirənlərə isə Milli Məclisin Mədəniyyət Məsələləri daimi Komissiyasının sədri, türksoylu yazarları birləşdirən bir çox beynəlxalq qurumların başqanı, AYB-nin sədri xalq yazıçısı Anar rəhbərlik edir. Məhz Anar müəllimin sədrliyi dövründə Azərbaycan Yazıçılar Birliyi postsovet məkanında yeganə yaradıcı qurumdur ki, parçalanma və dağılma prosesinə tab gətirib, müstəqillik dönəmində müxtəlif nəsil yazarlar ilə dövlət arasında münasibətlərin inkişafına yardımçı olub.

Azərbaycan Yazıçılar Birliyi və onun ədəbi orqanlarının, bu ildən isə Yazıçılar Birliyinin Bədii tərcümə və Ədəbi Əlaqələr Mərkəzi dövlət büdcəsindən maliyyələşdirilməsi, həmçinin, dövlət hesabına latın qrafikası ilə kitabların nəşri,

müxtəlif nəsil yaradıcı insanlara Prezident təqaüdlərinin ayrılması, dövlət təltifləri, Azərbaycan yazıçılarının yubileylərini ən yüksək səviyyədə qeyd edilməsi kimi çoxsaylı addımlar ölkə rəsmilərimizin Anar müəllimin şəxsində mədəniyyətimizə-çağdaş söz sənətimizə, milli dəyərlərimizə, intellektual zəhmətə və yaradıcı ziyalılarımıza diqqət və qayğının ən bariz nümunələridir.

Lakin son aylar zamanın və dövrün tələblərinə uyğun Anar müəlimin rəhbərliyi ilə AYB-də gedən təşkilati, texnoloji və başqa islahatlar ədəbiyyata az dəxli olan-biz hələ onu demirik ki, onların əksəriyyəti ya Yazıçılar Birliyinin üzvü deyil, ya da sadəcə jurnalistika ilə ədəbiyyatı səhv salırlar-bəzi «yazarlar» qarşıdakı qurultayla bağlı qeyri-real «təkliflər» irəli sürürlər. Ədəbi-mədəni ictimaiyyət, istedadlı qələm sahibləri bu dedi-qodu yayanların cavabını verib, yerini göstərmədiyindəndir ki, onlar daha da həvəslənir, ağızlarına və ağıllarına gələnləri informasiya qıtlığından əziyyət çəkən bir para aztirajlı mətbuat orqanlarının səhifələrinə çıxarır, ölkə ictimaiyyətini çaşdırmaqla məşğuldurlar.

AYB-nin aşkarlıq şəraitində keçiriləcək XI qurultayında demokratik seçkilərdə qurumun hər bir üzvünün seçib-seçilmək hüququna hörmətlə yanaşaraq, bəyan edirik ki, Birliyin sıralarında birləşənlərin, eyni zamanda bizim təmsil etdiyimiz yaradıcı qurumların əksər üzvlərinin Azərbaycan Yazıçılar Birliyinin sədrliyinə vahid namizədi millətimizin tanınmış ziyalı övladı, xalq yazıçısı Anardır.

Biz inanırıq ki, qloballaşan və informasiya əsrini yaşayan çağdaş dünyada dəyərlərimizi və intellektual sərvətimizi qorumaq, inkişaf etdirmək, demokratik vətəndaş cəmiyyəti, o cümlədən yeni mədəniyyət-ədəbiyyat quruculuğu prosesini davamlı olaraq gücləndirmək istiqamətində müstəqil ölkəmizdə aparılan irimiqyaslı işlərə yazarlarımız məhz Anar müəllimin rəhbərliyi ilə öz töhfələrini verəcəklər.

Doğru seçimimizin cəmiyyətimiz və ədəbi-mədəni ictimaiyyətimiz tərəfindən müdafiə ediləcəyinə inanaraq, ədəbiyyatsevər xalqımızı, milli ziyalılarımızı «yalançı qəhrəmanlar»dan qorumağa səsləyirik.

Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri.
Yazıçı-tənqidçi Aydın Xan (Əbilov).

Dünya Gənc Türk Yazarlar Birliyinin sədri,
Şair-publisist Əkbər Qoşalı.

«Avanqard» Yaradıcılıq Forumunun sədri,
Şair-publisist Dəyanət Osmanlı.

«Pərvanə» Ədəbi Məclisinin sədri,
Şair-publisist Qəşəm Nəcəfzadə.

«Nigar» Elmi-Ədəbi Məclisinin sədri,
şair-tədqiqatçı Sona Xəyal.

Gənc Yazarlara Yardım Cəmiyyətinin sədri,
Şair-publisist Faiq Balabəyli.

«Gənclər Pen-klubu»nun əlaqələndiricisi,
Şair-publisist Əyyub Qiyas.

«Şam» ədəbi məclisinin sədr müavini,
Şair-publisist Xatirə Əzizqızı.

Bakı şəhəri, 26.01.2004»

Bu bəyanata digər təşkilatlar da qoşuldu.

Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayevin bəyanatı daha kəsərli bir bəyanat kimi tarixdə qalacaq. Bəyanatda deyilir: «Uzun illərdir ki, Yazıçılar Birliyində işləyirəm, ancaq yaradıcı ziyalıların bir qisminin hərəkətinə hələ də təəccüblənirəm.

Hər dəfə qurultaydan əvvəl bir çoxlarında xüsusi qurultayqabağı sindrom yaranır və intriqa, şayiə, dedi-qodu ilə dolu məqalələr qəzet və jurnallarda dərc olunur.

Uydurulmuş ittihamlar, mənasız yalanlar, ləyaqətsiz hərəkətlər ədəbiyyatdan uzaq insanların əsas əməlləridir... Dəqiq bilirəm ki, Yazıçılar Birliyinin sədri ölkədə mədəni və ədəbi siyasətlə yanaşı mənəvi-əxlaqi siyasəti də müəyyənləşdirən şəxs olmalıdır. Mənim fikrimcə, belə bir namizəd ancaq Anardır. Onun XX əsr Azərbaycan mədəniyyətinə verdiyi töhfələri, ədəbiyyatımız üçün etdiklərini qiymətləndirməmək mümkün deyil.

Mənim də qurultayda müdafiə edəcəyim yeganə şəxs Anar olacaq.

Mənim qırx beş yaşım var və heç kimdən asılacağım yoxdur. Dünyada on yeddi dilə tərcümə olunmuş 20 milyon kitabım nəşr edilib. Elə buna görə də tam müstəqil bir insan kimi hesab edirəm ki, Yazıçılar Birliyinin sədri ancaq Anar ola bilər...

Yazıçılar Birliyində işlədiyimə, burada Azərbaycanı ürəkdən sevən vətənpərvər, gözəl insanlarla rastlaşdığıma görə taleyimə minnətdaram.....».

Azərbaycan Yazıçılar Birliyi ölkəmizin milli-ədəbi prosesinin inkişafına əngəl olan qüvvələrə qarşı mübarizə aparmaqla yanaşı, dövlətimizin siyasətini dəstəkləyən, tariximizə, mədəniyyətimizə qarşı çıxan qüvvələri yerində oturtmağı bacaran, kəsərli dəlilləriylə düşmənlərimizin iç simasını açmağı bacaran qüvvətli və qüdrətli təşkilatdır.

Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvanın hüquqi statusunun təsbit edildiyi Qars müqaviləsinin etibarsız sayılması haqqında Ermənistan Yazıçılar İttifaqı parlament qarşısında məsələ qaldıraraq Rusiya Dövlət Dumasının bu müqaviləni etibarsız sayması üçün parlament qarşısında məsələ qaldırmaq istəyəndə Azərbaycan Yazıçılar Birliyi kütləvi informasiya vasitələrinin yaydığı xəbərin fitnəkar ermənilərin növbəti çirkin siyasəti olduğunu bildiyindən dərhal ona qarşı çıxdılar. Rusiya Federasiyası Federal Məclisin Dövlət Dumasına aşağıdakı mövzuda bəyanatını bildirdi: «Moskva (16 mart 1921-ci il) və Qars (13 mart 1921-ci il) müqavilələrinə uyğun olaraq Naxçıvan vilayəti Azərbaycanın tərkibində muxtar ərazi kimi tanınmışdır. Üstəlik, hər iki müqavilənin 5-ci maddələrinə uyğun olaraq Azərbaycanın qarşısında belə bir şərt qoyulmuşdur ki, o, «həmin protektoratı üçüncü dövlətə güzəştə getməyəcəkdir». Qars müqaviləsini bir tərəfdən Türkiyə, digər tərəfdən də RSFSR-in iştirakı ilə Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikaları imzalamışlar.

Ermənistanın həmin müqavilələrin müddəalarını təftiş etmək üçün göstərdiyi bütün cəhdlər beynəlxalq birlik tərəfindən birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünə qəsd kimi qarşılanacaqdır. Yeri gəlmişkən, buna Qars müqaviləsinin 2-ci maddəsi də əyani surətdə sübutdur. Bu maddədə deyilir: «Razılığa gələn tərəflər onlardan birinin qəbul etməyə məcbur ediləcəyi heç bir sülh müqaviləsini və ya digər beynəlxalq aktları tanımamaq barədə razılığa gəlirlər». Qars müqaviləsini imzalamaqla Ermənistan həmin müqavilələrin maddələrini, o cümlədən Naxçıvan dövlət-ərazi statusuna dair maddələri pozmamaq haqqında öz üzərinə öhdəlik götürmüşdür.

Azərbaycan Yazıçılar Birliyi hesab edir ki, Ermənistandakı müəyyən qurumların Naxçıvan məsələsini gündəliyə çıxarmaq niyyəti Ermənistanın bir çox illər ərzində regionda yeritdiyi və təkcə Azərbaycan xalqına deyil, erməni xalqına da böyük ziyan vurmuş ekspansionist siyasətin davam etdirilməsinə sübutdur.

Biz erməni yazıçılarına müraciət edərək xatırlatmaq istərdik ki, qondarma «Qarabağ münaqişəsi»nin əvvəlində də söz oynadılmışdır. Yerli məhəlli toqquşmadan, sonra isə daha geniş miqyasda hərbi toqquşmadan əvvəl informasiya müharibəsi olmuşdur.

Erməni ideoloqları öz qonşularına qarşı təbliğat müharibəsində ikili standartlara əl atmışlar: cuşa gətirilmiş jurnalistlərin həmavaz xoru ittifaq ictimaiyyəti və dünya ictimaiyyəti üçün nəzərdə tutulan materiallardan belə bir fikri qətiyyətlə təlqin edirdi ki, DQMV-də erməni xalqının milli azadlıq mübarizəsi gedir. «Daxili istifadə» üçün materiallarda milli müstəsnalıq və dözümlülük təbliğatı ön sıraya çıxarılırdı. Azərbaycanla bağlı olan hər şeyə qarşı nifrət ab-havası süni və məqsədyönlü şəkildə qızışdırılırdı. Rusiyadakı nüfuzlu erməni lobbisi bu işdə olduqca fəal rol oynayırdı. Bu lobbi Moskvanın kütləvi nəşrlərində azərbaycanlıları «təcavüzkarlar» kimi qələmə verən informasiya təbliğatını, Rusiyada «dəstək qrupları»nın fəaliyyətini, moskvalıların Ermənistanda deputat seçilməsini, müxtəlif nümayəndə heyətlərinin Yerevanda təmtəraqla qəbul edilməsini, Moskvada ermənipərəst qəzetlərin nəşrini, televiziyada çıxışları, hüquq müdafiəçilərinin fəaliyyətini səxavətlə maliyyələşdirirdi. Zəhmətkeş Azərbaycan və erməni kəndlilərinin qanı bahasına Balayan, Bonner, ər-arvad Nuykinlər, Starovoytova kimi «ideoloqlar»ın əsərlərinin haqqı ödənilir. «Krunk» və «Qarabağ» kimi «komitələr» saxlanırdı, saxtakarlıqla müvafiq videofilmlər hazırlanır, şayiələr buraxılırdı. «Əzəli erməni hüquqları» barədə növbəti tarixi uydurmalar yayılırdı.

Bu gün biz soruşmaq istərdik: bu yorucu «Qarabağ marafonu»nu uydurub ortaya atanlar nəyə gəlib çıxdılar?

Onlar DQMV probleminin «ədalətli həllini», yəni onun Ermənistana birləşdirilməsini və sərhədlərin dəyişdirilməsini tələb edirdilər. Amma bu «ədalətli qərar» Qarabağın yalnız erməni icmasının mənafelərini nəzərdə tuturdu, regionda yaşayan digər millət və xalqların rəy və mənafeləri nəzərə alınmırdı. Öz problemlərini dərhal və nəyin bahasına olursa olsun həll etmək kimi bu ifrat müstəsna niyyət erməni xalqının özü üçün fəlakətli nəticələrə gətirib çıxarmışdır.

Onlar Dağlıq Qarabağın sosial iqtisadi geriliyindən danışdılar. Təbiətin öz naz-nemətinin əsirgəmədiyi bu diyar indi yandırılıb külə dönmüş, səhraya çevrilmişdir. Onlar həyasızcasına mübahisə edirdilər ki, Qarabağın maddi mədəniyyət abidələri ermənilərə məxsusdur. İndi mübahisə mövzusu hər cür mənasını itirmişdir, çünki abidələrin özləri məhv edilmişdir.

Ermənistan rəhbərliyinin təcridçilik siyasəti ölkəni çıxılmaz iqtisadi böhrana salaraq onu geniş miqyaslı energetika və nəqliyyat layihələrinin tam hüquqlu üzvü olmaq imkanından məhrum etmişdir. Taktiki üstünlüyə malik olan Ermənistan sabit və dinamik inkişaf edən respublikaya çevrilmiş, beynəlxalq birlik tərəfindən bütün regionun coğrafi-iqtisadi mərkəzi kimi tanınan səkkiz milyonluq Azərbaycana strateji cəhətdən uduzmuşdur.

Qarabağ avantürasının nəyin naminə, hansı məqsədlər naminə ortaya atıldığı o günü Ermənistan rəhbərləri öz xalqına və beynəlxalq tərəfdaşlarına izah etməkdə çətinlik

çəkirlər. Dağlıq Qarabağ münaqişəsinin həqiqi və gizlin səbəblərinin başa düşülməsi, Azərbaycanın öz ərazi bütövlüyünün bərpa edilməsi barədə haqlı tələblərinin dəstəklənməsi mötəbər beynəlxalq təşkilatların özündə getdikcə daha çox tərəfdarlar tapır. Ermənistanın təcavüzkar ölkə adlandırıldığı Avropa Şurasının qəbul etdiyi qətnamə buna sübutdur.

Erməni separatizminin ideoloqları zamanın gedişinin onların əleyhinə işlədiyini başa düşərək və öz xalqının diqqətini çoxsaylı problemlərindən yayındırmağa çalışaraq yeni təbliğat hay-küyünə başlayır: «Naxçıvan məsələsi» deyilən qondarma məsələ qaldırılır.

Biz öz tərəfimizdən bəyan edirik: belə bir məsələ yoxdur! Azərbaycan dövlətçiliyinin meydana gəldiyi Naxçıvan diyarı Azərbaycanın tərkibində olmuş, tərkibindədir və tərkibində olacaqdır! Biz erməni millətçilərinin regionda hərbi-siyasi gərginliyin yeni dövrəsini qızışdırmaq cəhdlərinə, Dağlıq Qarabağ münaqişəsinin hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə həllinə əngəl törətmək cəhdlərinə qarşı etirazımızı bildiririk.

Bu gün bütün sivilizasiyalı dünya «XX əsrin taunu» beynəlxalq terrorizmlə mübarizədə birləşir. Belə bir şəraitdə Ermənistanın öz qonşularının torpaqları barədə aşkar surətdə iddialar irəli sürməsi regionun xalqlarına ancaq yeni bəlalar və müsibətlər gətirən sərsəm anaxronizmdir. Aravuranlıq kifayətdir, qan tökülməsi kifayətdir! Yeni avantüra niyyətinə düşənlərə isə xatırlatmaq istərdik ki, tarix iki dəfə təkrar olunur: əvvəlcə faciə kimi, sonra isə hoqqabazlıq kimi. Cənab ədiblər, özünüzü gülünc vəziyyətə qonmayın» UNUTMAYIN Kİ, QUYU QAZANIN ÖZÜ QUYUYA DÜŞƏR!

Azərbaycan Yazıçılar Birliyi.

22 mart 2004-cü il».

Azərbaycan öz müstəqilliyini elan edəndən, bir dövlət kimi müstəqil fəaliyyətə başlayan gündən saxtalaşdırılmış, təhrif olunmuş tarixinin yenidən yazılması üçün böyük əməli fəaliyyətə başladı. Başımıza erməni millətçilərin gətirdiyi faciələr, xüsusilə erməni daşnaklarının 1918-ci ildə Bakıda, Şamaxıda, Qubada, eləcə də Azərbaycanın digər bölgələrində törətdikləri qırğınlar, talanlar, vəhşilik və vandalizmlər barədə məlumatlar tarixin səhifələrinə, qan yaddaşımıza həkk olunub. O günlərin ən dəhşətli günlərindən biri olan Martın 31-i tarixə erməni yırtıcılarının vəhşi əməlləri kimi düşdü. «31 Mart azərbaycanlıların soyqırımı günü» elan ediləndən bəri AzərbaycanYazıçılar Birliyi bu günü daima yad edir. Hər il Soyqırım günü birliyin üzvləri bir yerə toplaşır, xalqımızın başına gətirilən müsibətlər ürək ağrısıyla qeyd edilir, şairlərimiz, yazıçılarımız yazdıqları əsərləri oxuyur, düşmənin çirkin, vəhşi simalarını ifşa edən əsərlərində onların məkrli siyasətini unutmağa haqqımız olmadığını bir daha bəyan edirlər. Tariximizin qanlı səhifələrini unutmağa haqqı olmayan ədiblərimiz, qələm sahibləri bu dəhşətli faciələri xatırlatmaqla gəncliyimizi hərbi yurddaşlıq və qisasçılıq yönündə, düşmən tapdağı altında qalan torpaqlarımızın, girov saxlanan insanlarımızın geri qaytarılması uğrunda mübarizə aparmaq ruhunda tərbiyə etməliyik. Hər an xalqımızı bədnam qonşularımıza qarşı münasibətdə ayıqsayıq olmağa alışdırmalıyıq. Tarixi yaşantılarımızdan ibrət dərsi götürməli, nəticə çıxarmalı, milli borc, vətəndaş həmrəyliyi, etnik-mənəvi bütövlük naminə qüvvələrimizi birləşdirməli, Azərbaycanın ərazi bütövlüyünə qovuşmalıyıq.

Azərbaycan həmişə türk dünyasına bağlı olub, işiylə, əməliylə, saflığıyla türk dünyasına, kökünə, soyuna hörmət

və ehtiramla yanaşıb. Dünyanın bütün nöqtələrində yaşayan türklərlə əlaqə qurmaq, türk birliyi arzusunda olanlarla əlaqə saxlamaq, şeir-sənət mühitiylə əlaqə saxlamaq ürəyindən keçir.

«Elazığ Türkiyənin Şərqində yerləşir. Yanından Firat çayı axır. Bizim Araz kimi ona da gah sevinc dolu, gah qəmli şeirlər yazılıb. Elazığın yaxınlığında, dağlar başında Narput yerləşir. Uzun Həsən xeyli vaxt burada hökmdarlıq etmiş, anası Sara xatın üçün cami tikdirmişdi. Cami bu gün də sağ-salamatdır. Hər cümə günü elazığlılar Narputa-Sara xatun camisinə gəlib namaz qılırlar. Narputun qədim evlərinə, abidələrinə baxmaqla doymursan. Elazığ düzənlikdə salınıb. Adət-ənənələr eynilə bizdəki kimidir. Danışıqları da bizə çox bənzəyir. Elazığı dünyaya tanıdan burada məşhur «Firat» universitetinin olmasıdır. Elazığda məşhur Xəzər gölü var. Bu göl təmiz suyuna görə dünyada birinci yeri tutur. Hər il Elağızda Xəzər şeir axşamı keçirilir. Hər dəfə şeir şöləni olanda dünyanın hər yerindən gələn qonaqlar şeir şölənini Azərbaycanda, böyük Xəzərin sahilində keçirməyi arzulayırlar».

Bu arzuları gerçəkləşdi. Azərbaycan Yazıçılar Birliyində «Saman TV, «TRT 1» televiziya proqramları, jurnalistlər qatılaraq keçirilən mətbuat konfransını açan sədr Anar qonaqları salamladı, onları öz evlərində gördüyünə sevindiklərini bildirdi. Dünyanın müxtəlif yerlərindən-Türkiyə, Qazaxıstan, Quzey Kipr Cümhuriyyətindən, Makedoniya və digər yerlərdən gələn şairlərin Musiqili Komediya Teatrında aprelin 10-da keçirilən tədbirində onların şeirləri dinlənildi, Yavuz Bülənt Bakilər, İsa Koçakaplan, Abbas Abdulla, Gülxani Pənah, Əsəd Cahangir «Türk şeirinin dünəni və bu günü» haqda danışdılar. AYB-nin Birinci katibi F.Qoca, Birliyin şeir bölməsinin rəhbəri Ç.Əlioğlu, «Ədəbiyyat qəzeti»nin baş redaktoru A.Vəfalı belə türk ədəbi əlaqələrinin daha da genişləndirilməsinin, mətbuatda ardıcıl işıqlandırılmasının vacibliyini bildirdilər.

TUSİAB başqanı iş adamı Əkrəm Duan öz çıxışında «dünyanın hər yerindən gələn şairləri qoynuna alıb bu qədər diqqət göstərdikləri üçün» Azərbaycan Yazıçılar Birliyinə, şəxsən Anar müəllimə, Azərbaycan Mədəniyyət Nazirliyinə, Bakı Dövlət Universitetinin rəhbərliyinə, «Vektor» beynəlxalq elmi mərkəzinin rəhbəri Elçin İsgəndərzadəyə, azərbaycanlı ədiblərə öz təşəkkürünü bildirdi.

Aprelin 30-da Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda «Dünya ədəbiyyatı» jurnalının ilk nömrəsinin təqdimat mərasimi keçirildi. Orijinaldan və ruscadan edilən tərcümələrdən ibarət sanballı dərginin işıq üzü görməsi ədəbi-mədəni həyatımızda maraqlı hadisə kimi qarşılandı. Dərgiyə maliyyə dəstəyi verdiyinə görə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm nazirinə təşəkkürünü bildirən Birliyin sədri Anar müəllim gələcəkdə də bu istiqamətdə birlikdə səylərin birləşdiriləcəyinə, jurnalın nəşrinin davamı olacağına inamını ifadə etdi. Sözü Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayevə verdi. «Azərbaycan dövlətinin gənclərlə bağlı siyasətinin hələ ümumilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirildiyini xatırladan Ə.Qarayev başçılıq etdiyi nazirliyin yeni nəsil istedadlı yaradıcı gənclərlə bağlı gördüyü işləri yada saldı, keçirdikləri sənət və yaradıcılıq müsabiqələrinin əhəmiyyətindən danışdı. Yazıçılar Birliyi ilə birgə bir sıra layihələrin gerçəkləşdirilməsi ilə bağlı təklifləri məmuniyyətlə qarşıladıqlarını deyən Nazir çağdaş dünyada tərcümənin rolunu xatırlatdı, gənc oxucuların həm Qərb, həm də Şərq ədəbi-mədəni söz abidələri ilə tanışlığının vacibliyini

vurğuladı. Oxşar dərgilərin Azərbaycanın ümumi intellektual səviyyəsinin yüksəlməsindəki əhəmiyyətini vurğulayan Ə.Qarayev bundan sonra da nazirlik tərəfindən bu qəbil layihələri dəstəkləyəcəklərini, habelə yazarlarla bağlı işləri gücləndirəcəklərini söylədi. Jurnalı ədəbi gəncliklə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinin səmərəli əməkdaşlığının məntiqi nəticəsi kimi dəyərləndirən S.Babullaoğlu milli tərcümə sahəsindəki boşluqlara, ortaya çıxan problemlərin həlli məsələlərinə toxundu. Sonda Anar çıxışını «Dünya ədəbiyyatı» dərgisinin ilk sayı bu yöndə uğurlu başlanğıcdır. Lakin uğurla kifayətlənməməliyik, yeni-yeni işlərlə bu işi davam etdirməli, qarşılıqlı tərcümə sənətini inkişaf etdirməliyik»,-fikriylə yekunlaşdırdı.

Azərbaycan tarixin çox dolanbac yolları ilə irəliləyib. Həyatında XX əsrin ən böyük inqilabi hadisələri ilə yadda qalıb. Xalq Cümhuriyyəti, Oktyabr inqilabı və bir də Xalq Cümhuriyyətinin bərpa edilməsi. Bir əsrdə üç inqilabi, tarixi hadisənin şahidi olan Azərbaycan ədəbiyyatının itirdikləri də çox olub, qazandıqları da. Xalq Cümhuriyyəti ilə müasir Müstəqil Azərbaycan dövləti bərqərar olan illər arasında 70 il Azərbayan ədəbiyyatı öz inkişafını davam etdirib. O illərdə qazandığımız nailiyyətlərimizi kürüyüb çölə ata bilmərik. Heydər Əliyev bir çox tarixi əhəmiyyətli fikrində haqlıdır ki, «biz bu quruluşda, bu həyatda, bu dövlətdə, bu şəraitdə yaşamışıq, təhsil almışıq, böyümüşük və respublikamızı, xalqımızı yaşatmışıq. Ona görə də o dövrlərdə əldə olunan nailiyyətləri inkar etmək olmaz-bu, cinayət olardı. Onu unutmaq da olmaz».

O dövrlərdə görülən çox işlərin bir nəticəsi kimi Azərbaycan Yazıçılar Birliyinin sıralarındakı yüzlərlə insanın məhz sovet dövründən öz inkişaf istiqamətini tapdığını qeyd edən Prezident inkişaf etmiş ölkələrin heç birində bu qədər

yazıçı, qurultay nümayəndəsi olmadığını və bunun da «boş yerdən əmələ gəlmədiyini» deyir: «Bəli, bunu o dövr, dövrün imkanları yaradıbdır. İnsanlar, bizim Azərbaycan yazıçıları, şairləri də öz istedadlarına, aldıqları təhsilə və bu sənətə sadiqliklərinə görə bu yolu seçiblər. Yazıçılıqla məşğuldurlar və böyük işlər görüblər.

Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi Sərhəd Qoşunları komandanlığının əmrilə 2002-ci ildən başlayaraq keçirilən müsabiqədə məqsəd Azərbaycan sərhədlərinin müha-fizəsi tarixinin səhifələrini işıqlandırmaq, ordumuzun, əsgərlərimizin milli vətənpərvərlik hisslərini yüksəltmək uğrunda yazılan ən yaxşı əsərlərin müəlliflərini mükafatlandırmaq, ədəbi irslə ordu arasındakı əlaqələri gücləndirmək məqsədi daşıyır. Bədii ədəbiyyat üzrə 1-ci dərəcəli diploma layiq görülən Sərvaz Hüseynoğlunun «Haqq» silsilə şeirləri, Gülxani Pənahın «Bizim sərhədçilər» poeması, 2-ci dərəcəli diploma layiq görülən vətənə, sərhədə həsr olunmuş Fikrət Əsədin şeirləri, Məcnun Göyçəlinin şeirləri, 3-cü dərəcəli diploma layiq görülən «Ruhumuzun sərhədinə doğru» bədii oçerklərinə görə şairlərimizə fəxri fərmanları Dövlət Sərhəd Xidməti idarəsinin təntənəli yığıncağında təqdim edən sərhəd qoşunları komandanı general-mayor Elçin Quliyev qalibləri təbrik etdi. Müsabiqədə yer tutmuş əsərləri vətənpərvərlik ruhunda yazılmış ən gözəl əsərlər kimi dəyərləndirdi.

Azərbaycan Yazıçılar Birliyinin bölmələrindən Gəncə bölməsi uzun illərdir fəaliyyət göstərir. Burada müxtəlif dövrlərdə şairlərimizin, sənətkarlarımızın yubileylərinin (Rəsul Rza-90, Sabit Rəhman-90, Süleyman Rəhimov-100) keçirilməsi, unudulmaz poeziya axşamları, Nizami poeziya günləri yaddaqalandır, Nizami-860 poeziya bayramı öz

əlvan proqramı ilə bədii sənətə xalq məhəbbətinin ifadəsi idi.

Mingəçevir bölməsinin «İlham pərisi», «Mingəçevir qönçələri» ədəbi məclisləri ilə birlikdə keçirdiyi görüşlər, yubiley tədbirləri, xatirə gecələri, ədəbi-bədii gecələr, şairlərlə, yazıçılarla keçirilən yaradıcılıq görüşləri, Azərbaycan Yazıçılar Birliyinin rəhbərləri ilə mingəçevirli oxucuların görüşü bölgələrdə fəaliyyət göstərən bölmələrin fəallığından xəbər verir.

Aprelin 12-də Yazıçılar Birliyində görkəmli nasir, dramaturq, tənqidçi, ictimai xadim Mehdi Hüseynin 90 illiyinə həsr olunmuş konfrans keçirildi. Onun Azərbaycan Yazıçılar Birliyinin katibi, ədəbiyyatımızın inkişafındakı rolu, «Azərbaycan» jurnalının baş redaktoru kimi fəaliyyəti yüksək dəyərləndirildi. Nizami adına ədəbiyyat institutunun direktoru Yaşar Qarayev XX əsr «Azərbaycan ədəbiyyatında, mədəniyyətində və mənəviyyatında öz şəxsiyyəti, eyni zamanda yaradıcılığı ilə böyük ziyalılardan olan Mehdi Hüseynin dövrü üçün aktual əsərlərindən bəhs etdi, Şamil Salmanov yazıçının bədii nəsri, dram və tənqidi əsərləri haqqında fikirlərini söylədi, «yazıçının yaradıcılığını mərhələlər üzrə səciyyələndirən məruzəçi Mehdi Hüseynin bir çox romanlarının istər Azərbaycan bədii nəsrinin inkişafındakı rolunu, istərsə də keçmiş ümumittifaq ədəbiyyatındakı yerini xüsusi qiymətləndirdi». Hüseyn Abbaszadə, Balaş Azəroğlu, Həmid Abbas, Gülhüseyn Hüseynoğlu, Teyyub Qurban yazıçı haqqında xatirələrini danışdı.

Müxtəlif illərdə Qazax bölməsində S. Vurğunun 95, 100, Mehdi Hüseynin 100, M.V.Vidadinin 300 illik yubileylərinin təntənəli şəkildə respublika səviyyəsində bayrama çevrilməsi, Molla Pənah Vaqifin, Molla Vəli Vidadinin, digər görkəmli sənət adamlarının Qazaxda keçirilən yubileylə-

ri, poeziya bayramları, yubileylər, yaradıcılıq gecələri, anım günləri, Naxçıvan bölməsində S.Vurğunun 95 illiyinə həsr olunmuş C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyində keçirilən «Böyük nəğməkar» adlı xatirə gecəsi, müstəqilliyimizin 10 ili münasibətiylə «Müstəqilliyimiz əbədidir» devizi altında keçirilən şeir müsabiqəsi yaddaqalandır.

Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar, Neftçala rayonlarını əhatə edən 1978-ci ildən fəaliyyət göstərən Lənkəran bölməsində şair və yazıçılarla keçirilən görüşlər, yubiley tədbirləri, xatirə gecələri AYB-nin fəaliyyətinin tərkib hissəsidir.

Sumqayıt bölməsi 1996-cı ildə yaradılıb. Orada bir sıra ədəbi qruplar («Dəniz» ədəbi birliyi, «Turan» ədəbi məclisi, «Yeni yazarlar və sənətçilər qurumunun şəhər bölməsi», «Tumurcuq» ədəbi dərnəyi və s.) fəaliyyət göstərir. Bu qurumlar Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt bölməsi ilə sıx əlaqə saxlayır. 2001-ci ilin noyabrın 15-də «Turan» ədəbi məclisində alman şairi Eberhard Kirxhoffla keçirilən görüşdə birliyin sədri Sabir Sarvan Azərbaycan-Almaniya dostluğuna, bu xalqların talelərindəki oxşar məqamlara toxundu. Ədəbi əlaqələrin xalqların dostluğuna təsirini söylədi. Eberhard jurnalist, 12 kitab müəllifi, 60 kitabda, xeyli qəzet və jurnallarda yazıları dərc olunan şairdir. 1987-ci ildən Almaniya Yazarlar Birliyinin üzvü E. Kirxhoff Azərbaycan-Almaniya ədəbi əlaqələrinin inkişaf etdirilməsi istəyini vurğuladı, «Azərbaycan haqqında poema»sını və lirik şeirlərini oxudu. Bölgələrdə də müxtəlif ölkə ədəbi ictimaiyyəti ilə saxlanan əlaqələr Azərbaycan ədəbiyyatının dünya arenasında təbliğinə dəstək kimi qiymətləndirilməlidir.

Azərbaycan Yazıçılar Birliyi və onun bölmələri ölkəmizin milli bayramları ilə bağlı silsilə tədbirlər keçirir, oxu-

cularla görüşlər təşkil edir, milli-mənəvi dəyərlərimizə sədaqətini işi, fəaliyyəti ilə yaşadır. Novruz bayramı ilə bağlı hər il Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda keçirilən tədbirlər, şairlərimizin, yazıçılarımızın kollektivlərlə, tələbə və müəllim heyətləri ilə görüşü, Novruz ənənələrinin qorunub saxlanması, Novruz bayramı ilə bağlı yazılan ən yaxşı əsərlər üçün ayrılan mükafatlar diqqətəlayiqdir.

Azərbaycan Yazıçılar Birliyinin ən böyük ağrısı, Şuşa, Laçın..., Qarabağ acıları, Xocalı fəryadı yazıçıların əsərlərində aparıcı mövzulardır. Xalqın başına gətirilən müsibətlər, erməni işğalçılarının törətdiyi faciələr əsərlərimizdə əsas mövzu olmaqla yanaşı, düşmənə nifrət motivləri ilə də güclüdür. Azərbaycan Yazıçılar Birliyi və Dövlət Qarabağ mövzusunda yazılmış ən yaxşı əsərləri mükafatlara layiq görmüşdür.

Azərbaycan Yazıçılar Birliyi müntəzəm olaraq mətbuat orqanları ilə görüşlər keçirir, dəyirmi masa təşkil edir. Milli Məclisin və Prezident tədbirlərini geniş işıqlandıran, qəbul olunmuş dövlət qanunlarının mətnini dərc edən, ictimai-siyasi, beynəlxalq əlaqələrə, iqtisadi məsələlərə səhifələrində geniş yer verən «Azərbaycan» qəzeti ilə görüşü buna nümunədir.

AYB-nin bölgələrdə keçirilən ədəbi məclislərin bir araya gəlməsi üçün apardığı məqsədyönlü fəaliyyəti təqdirə layiqdir. Qubada fəaliyyət göstərən «Ay işığı» əvvəlki ənənələrin bir növ davamı kimi dəyərləndirilməlidir. Hələ ötən əsrdə Abbasqulu ağa Bakıxanov Qubada «Gülüstan» ədəbi məclisi yaratmışdı.

2007 ci il 21-25 oktyabr günləri «Mövlana Cəlaləddin Rumi» günləri kimi ədəbiyyat tariximizdə də qaldı.

Mövlana Ruminin anadan olmasının 800 illiyinin YUNESKO çərçivəsində qeyd olunması ilə əlaqədar olaraq

Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə Azərbaycanda Mövlana Rumi günləri keçirildi.

Mövlana Ruminin anadan olmasının 800 illiyinin YUNESKO çərçivəsində qeyd olunması, Mövlana Ruminin bədii-fəlsəfi irsinin milli mənsubiyyətindən, irqindən, cinsindən, dinindən asılı olmayaraq bütün insanlar üçün böyük dəyər daşımasından irəli gəldiyini Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev onun insanlar arasında sevgi, məhəbbət, qardaşlıq hisslərini tərənnüm etdiyini, «bu gün-milli, dini, siyasi, irqi zəmində silahlı toqquşmaların və münaqişələrin artdığı bir dövrdə Mövlana irsinə «ehtiyac» duyulduğunu xüsusilə qeyd etdi: «Əgər insanlar bu dahi mütəfəkkir şairin təkcə «Ya olduğun kimi görün, ya da göründüyün kimi ol» kəlamına əməl etmiş olsaydılar, dünya indikindən qat-qat gözəl olar, insanlar daha xoşbəxt, sülh, əmin-amanlıq içərisində yaşayardılar».

«Mövlana Rumi günləri çərçivəsində «Çağdaşımız Mövlana» (22-23 oktyabr) simpoziumu keçirildi. Bu simpoziumda Anar «Çağdaşımız Mövlana», Arif Əmrahoğlu «C. Rumi sufizmində model», Teymur Kərimli «Mövlana və müasirlik» mövzusunda çıxış etdilər. Simpoziumda Türkiyədən Dok. Dr. Gülşen Seyhan Alışık, Prof. Dr. Azmi Bilgin, Dok. dr. Ömür Seylan, İrandan Əsgər Şahi, Behruz Sərvəti, Həsən Rüstəmzadə, şəxsiyyəti sərhəd tanımayan cərrah, türkoloq-ədib, Fransa Cərrahiyyə Akademiyasının üzvü Dr. Cavad Heyət, prof. Nizami Cəfərov və başqaları çıxış etdilər. Türkiyə və Azərbaycan Yazıçılar Birliyinin Mövlana Rumi günləri münasibətiylə təsis etdiyi ən yaxşı şeir, nəsr, ədəbiyyatşünaslıq üzrə keçirilən müsabiqədə Ə. Cahangir, Ə.Əsgəroğlu, E.Quliyev, G.Pənah, Ş.Ana, M.Abdul-

layeva və başqaları fəxri fərman və mükafatlarla təltif edildilər. «Hər öyüdü bir kəlam, hər əsəri bir elm dəryası olan», dünya alimlərini düşündürən, heyrətləndirən Mövlana fəlsəfəsinə həm elmi prizmadan, həm ədəbi-bədii prizmadan nəzər salındı. Azərbaycan Yazıçılar Birliyinin Türkiyənin Konya Böyükşəhər Bələdiyyəsinin Mövlana ödülüylə təltif edilməsi, Türkiyədə keçirilən Mövlana günlərinə qatılması bir daha Türkiyə-Azərbaycan ədəbi, mədəni əlaqələrinin möhkəmləndirilməsində AYB-nin fəallığından xəbər verir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Türkiyə Respublikasının rəhbərliyi Mövlana Rumi günlərinin ölkədə yüksək səviyyədə keçirilməsində dəstək oldu.

2008-ci ilin 13-15 noyabr günlərində Azərbaycan Yazıçılar Birliyi, Türkiyə Yazarlar Birliyi, TÜRKSOY-Türk Kültür ve Sanatları Ortaq Yönetimi, Qafqaz Universiteti ilə birlikdə «Türk xalqları ədəbiyyatı» çərçivəsində Beynəlxalq Uşaq Ədəbiyyatı Konqresi keçirildi. Bütün türk dövlətlərinin iştirak etdiyi bu konqres Bakıda keçirildi və uşaq ədəbiyyatı problemlərinə həsr olunmuş tarixi konqres kimi yadda qaldı.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Yazıçılar Birliyi ilə birgə 2008-ci ildə Gənc Ədiblər Məktəbi yaratdı. Məktəbin yaradılmasında əsas məqsəd bu layihə çərçivəsində yaradıcı gənclərin ilk kitablarının nəşrinə, əsərlərinin mətbuatda işıqlandırılmasına, televiziya və radioda onlara efir vaxtının ayrılmasına və istedadı ilə seçilən gənclərin mükafatlandırılmasına yol açmaq idi. Gənc Ədiblər Məktəbinin məşğələləri ayda bir dəfə Rəşad Məcidin rəhbərliyi ilə aparılırdı. Böyük uğular əldə edildi. Rəşad Məcid yazır: «GƏM-dəki yazarlarla ünsiyyət zamanı apardığım müşahidələr, gənclərin yaradıcılığını davamlı izləməyim, təbii ki, məndə bu barədə müəyyən bir qənaət formalaşdırdı. Həmin qənaətə əsaslanaraq cəsarətlə deyə bilərəm ki, Məktəb üzvlərindən 10 nəfərə qədər gəncin yüksək ədəbi istedadı var və mən onların yaxın gələcəkdə Azərbaycan ədəbiyyatının inkişafında əhəmiyyətli rol oynayacaqlarına əminəm. Artıq həmin gənclərin bu istiqamətdə ilk uğurlu addımlarını atdıqlarını da deməyə əsas verir». Xəyal Rza, Zərdüşt Şəfi, Elxan Zeynallı, Fərid Hüseyn, Tural İsayev, Vüsal Nuri, Elşad Ərşad oğlu, Sevinc Mürvətqızı, Ələmdar Cabbarlı, Şəhanə Şükür, Habil Yaşar… Onların bir çoxu Prezident təqaüdünə layiq görüldü.

Ədəbiyyatımızın təbliğini, oxucu kütləsinin marağını nəzərə alaraq Yazıçılar Birliyində «Bayatı» kitab mağazası açıldı. Xarici ölkələrdə olduğu kimi «Bayatı» kitab mağazasında da imza günləri keçirilir. Azərbaycan Mədəniyyət və Turizm nazirliyinin xətti ilə keçirilən kitab yarmarkaları kitabların, ədəbiyyatımızın təbliği sahəsində aparılan uğurlu işlərdən xəbər verir.

AYB müstəqillik dövrünün ilk illərindən üzü bəri həmişə ictimai-siyasi hadisələrdən, ölkəmizdə baş verən qlobal məsələlərdən kənarda qalmayıb. Xüsusilə Qarabağla bağlı məsələlər ətrafında həm ölkə daxilində, həm beynəlxalq səviyyədə gedən proseslərə diqqətlə yanaşmış, xalqla dövlət arasında bir körpü rolu oynamışdır, desək yanılmarıq. AYB xalq mənafeyinin, milli heysiyyətin, xalqının dilinin qoruyucusu olub.

Qarabağla bağlı məsələlər, yalanlar, şayiələr xalq arasında yayılıb, xalq arasında çaşqınlıq törədilən illərdə AYB-nin bir qrup yazıçısı Prezident Heydər Əliyevə bu mövzuda müraciətini çatdırdı.

«Hörmətli Prezident!

Nə vaxtdır ki, Azərbaycan xalqı çox gərgin günlərini yaşayır. Ölkədəki iqtisadi çətinliklərə, keçid dövrünün ağırlıqlarına səbirlə sinə gərir. Siz Azərbaycana qayıtdıqdan və Prezident seçildikdən sonra bizdə gələcəyə inam və Qarabağ münaqişəsinin ədalətli həllinə böyük ümid yarandı. Siz bütün çıxışlarınızla bəyan etmisiniz ki, əgər torpaqlarımızı danışıqlar yolu ilə azad etmək mümkün olmasa, Azərbaycan xalqı hərb yoluna müraciət etmək məcburiyyətində qalacaq.

Son vaxtlar məsələnin sülh yolu ilə həll olunması üçün kompromisin vacibliyini bəyan edirsiniz. Ancaq Azərbaycan ictimaiyyəti bu güzəştin nədən ibarət olmasından xəbərsizdir.

Azərbaycandan kənardakı bəzi mənbələrdən belə məlumatlar yayılır ki, Minsk qrupunun yeni təkliflərində Azərbaycanın ilkin şərti hesab olunan ərazi bütövlüyü prinsipi qoyulmayıb. Şübhəsiz ki, biz Sizin Azərbaycan üçün şərəfsiz sülh müqaviləsinə qol çəkə biləcəyinizə inanmırıq. Lakin ölkədə gəzən bu söz-söhbətlərə son qoyulması üçün Sizin Qarabağ münaqişəsinin nizamlanması barədə mümkün qədər geniş açıqlama vermənizi və xalqın narahatlığına, həyəcanına son qoymanızı xahiş edirik.

«Anar, Fikrət Qoca, B.Vazabzadə, Qabil, Hüseyn Abbaszadə»

Heydər Əliyev AYB-nin ziyalılarının bir qrupunu qəbul etdi, onlara hörmət və ehtiramını bildirdi, dövlətin Qarabağla bağlı danışıq prosesləri haqqında ətraflı söhbət açdı, o cümlədən ilk növbədə ərazi bütövlüyümüzün əsas şərt olması məsələsinə aydınlıq gətirdi. Bu görüş televiziya ilə yayımlandı, müəyyən qədər xalq da gedən proseslərlə bağlı məsələlər haqqında məlumatlandı. İctimai rəyin sakitləşməsi baxımından dəyərli oldu. Zaman şayiələrin, uydurmaların deyil, həqiqətin qələbə çaldığını göstərdi.

Azərbaycan xalqı, onun yazarları ümumilli liderimiz Heydər Əliyevin sağlığında olduğu kimi, bu gün də xatirəsini həmişə əziz tuturlar.

Yazıçılar Birliyi tərəfindən dövlət başçısının fəaliyyətini, ədəbiyyatımıza, mədəniyyətmizə misilsiz xidmətini ifadə edən Ümummilli liderin 85 illik yubileyinə həsr edilmiş «Bir ömrün salnaməsi» bədii sərgisinin keçirilməsi, onun ədəbiyyata, mədəniyyətə qayğısının təzahürü idi. 2008-ci ilin mayın 7-də AYB-nin rəhbərliyi Ulu öndərin 85 illiyi ilə əlaqədar olaraq Fəxri xiyabanı ziyarət etdi, onun məzarı önünə əklil qoydu. Sonra Azərbaycan Yazıçılar Birliyində Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbirini giriş sözü ilə açan Anar onun «ədəbiyyatımızın, sənətimizin dostu, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü» kimi dəyərli olduğunu qeyd etdi: «Heydər Əliyevin Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi qarşısında böyük xidmətlərini hamımız bilirik.. Amma bu xidmətlərin sırasında onun bizim ədəbiyyata olan qayğısı, mədəniyyətə olan diqqəti, sənətimizə olan mehriban münasibəti xüsusi yer tutur. O, döğrudan da, bizim ədəbiyyatı, çağdaş yazıçıları da, klassikləri də yüksək qiymətləndirirdi. Onların xatirəsini əbədiləşdirmək üçün muzeylərin yaradılması, heykəllərin qoyulması, yubiley tədbirlərinin keçirilməsi üçün çox işlər görürdü. Sovet dövründə gənc müəllifləri (mən də onların arasında idim) cürbəcür hücumlardan müdafiə etmək üçün böyük fədakarlıqlar edirdi, müstəqillik dövründə isə yazıçılarımızın güzəranını yaxşılaşdırmaq üçün onlara təqaüdlər təyin edirdi, mükafatlar, yüksək adlar verirdi, ümumiyyətlə, yazıçılarımız, sənət adamlarımız onun diqqət mərkəzində idi».

Onun işıqlı xatirəsini xoş sözlərlə anan, rəhmət diləyən şairlərimiz bir azərbaycanlı kimi fəaliyyətini, əqlini, zəkası-

nı, istedad və qabiliyyətini yada saldı. Fikrət Qoca onun 100, 200 ... neçə belə yüzilliklərinin xalqı tərəfindən daima təmtəraqla bayram ediləcəyinə inamını ifadə etdi: «O, həqiqətən də müasir tariximizin ən mürəkkəb çağlarında Azərbaycana rəhbərlik edib. Xalqın xaos içində çabaladığı vaxtlarda H.Əliyev silahsız, dəstəsiz, qoşunsuz millətin təkidi ilə ikinci dəfə ölkəmizin hakimiyyətinə qayıtdı, respublikamıza rəhbərlik edərək Vətəni parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etdi. Böyük Öndərin ağlı, zəkası onu sovet dövründə Siyasi Büroya aparıb çıxartmışdı. Bir türk oğlunun heç bir kömək, dəstək almadan belə mövqeyə yüksəlməsi onun öz bacarıq və istedadının nəticəsi idi. Heydər Əliyev neçə ildir cismən bizimlə deyil, ancaq onun ağlı, zəkası ilə qurulan relsin üzərində Azərbaycan idarə olunur. Ulu öndərin oğlu, siyasi varisi cənab İlham Əliyev bu idarəçiliyi ləyaqətlə, şərəflə davam etdirir».

Fikrət Qocanın fikirlərinə şərik olan Nazim İbrahimov böyük liderlə 70-ci illərdən tanış olduğunu, onun yazıçılara, ədəbiyyatımıza qayğısını, haqqında yazılan əsərlərin bədii dəyərini, yazılan əsərlərdə onun dahi şəxsiyyət kimi fəaliyyətinin təsvir və tərənnümünün reallıqlara əsaslandığını dedi: «O, hər iki dəfə Azərbaycana rəhbərlik etdiyi vaxt, eyni zamanda keçmiş SSRİ-nin ali rəhbər orqanlarında fəaliyyət göstərdiyi çağlarda əməlləri ilə sübut etdi ki, tarixi şəxsiyyətlər yaradır. Tarixi şəxsiyyətlər isə hər zaman millətin uğurlu gələcəyi üçün böyük işlər görürlər. Heydər Əliyev də məhz belə tarixi şəxsiyyətlərdəndir. Heydər Əliyevin həyatında elə hadisələr, faktlar var ki, bunlar barədə hələ çox yazılacaq. Belə əsərlər, kitablar hələ çox yaradılacaq, yazıçılarımız Heydər Əliyevə olan borclarını layiqincə qaytaracaqlar».

Azərbaycan Yazıçılar Birliyi daima millətinə, xalqına xidmət edən yüksək elmi, mədəni, bədii təfəkkürə malik şəx-

siyyətləri öz ətrafında birləşdirmişdir. Fəaliyyət göstərdiyi 80 illik dövrdə ədəbiyyatımızı elə möhtəşəm bir zirvəyə qaldırmışdır ki, bir əsrdən 25 il az müddətdə Azərbaycan ədəbi prosesinin tarixi salnaməsini yaratmış, bəşəriyyətə, gələcək nəsillərə humanist ideyalarla zəngin bir mədəni irs qoyub getmək şərəfi qazanmışlar. Böyük daşqınlar dövrü yaşamış bəşəriyyətin elə abidələri vardır ki, onlar öz bəşəri keyfiyyətləri ilə bu gün də yaşayır. Azərbaycan Yazıçılar Birliyi 80 illik dövrünün 22 ilini müstəqillik qazandığı dövrdə, 73 ilini sovet dönəmində inkişaf etdirib. Sovet ədəbiyyatının ən mütərəqqi ideyaları ilə köklənmiş sənət əsərləri yaratmışlar. Sovet postməkanında deyil, eyni zamanda dünyanın odlu nöqtələrində yaşayan, azadlıq, müstəqillik eşqi ilə çırpınan ürəklərin istək və arzularını qələmə almışlar, onlar üçün dünyada azad, xoşbəxt, firavan dövlətlərin vətəndaşı olması istəklərini ifadə etmişlər. Müəyyən bir senzura çərçivəsində yaratmağa məcbur olduqları dövrdə də əsərlərində əsas ideya humanizm, bəşərilik, dostluq, insani münasibətlər ön planda olub. İmperialist qüvvələrin vəhşiliklərinə qarşı amansız olan, onların çirkin siyasətlərini ifşa edən, müharibə, faşist Almaniyasının bəşər tarixində törətdiyi faciələrə nifrət fonunda yazılan əsərlərin də ən əsas qayəsi sülh, əmin-amanlıq, humanizmdir.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

Azərbaycan ədəbiyyatının inkişafında misilsiz xidmətləri olan böyük bir şəxsiyyət var. O, bu gün xalqımızın Ümummilli Lider kimi yüksək ada layiq gördüyü tarixi şəxsiyyət, Azərbaycan dövlətinin mahir sərkərdəsi, dövlət başçısı, mənəvi sirdaşı, qardaşı olmuş Heydər Əliyevdir. Azərbaycan mədəniyyəti, ədəbiyyatı onun misli görünməmiş qayğıları ilə əhatə olunmuşdu. 1969-cu ildən üzübəri müəyyən fasilələrlə Azərbaycan dövlətinə rəhbərlik edən H.Əliyev Azərbaycan ədəbiyyatına-onun şair və yazıçılarına, alim, tənqidçi və dramaturqlarına arxa, dayaq olub.

Onun sayəsində Bakı həmişə ədəbiyyat və mədəniyyət günlərinin keçirildiyi mərkəzə çevrilmişdi. O nəinki xalq ədəbi irsinə, eləcə də klassik ədəbi irsimizə daima bağlı olmuşdur. Sovet dövründə «Yazıçıların Ümumittifaq konfransı»ndakı nitqində deyir: «Azərbaycan poeziyası, bədii ədəbiyyatı uzaq keçmişə dərin köklərlə bağlıdır. Onun tarixi xalqın bədii şüurunun yaranması və inkişafı tarixidir. Öz dahi yaradıcılarının şəxsində ədəbiyyat xalqın istək və arzularının ən mühüm ifadə forması, azadlıq və istiqlaliyyət uğrunda açıq və «üstüörtülü» mübarizənin başlıca vasitələrindən biri idi. Xalqın həyatının bədii salnaməsi olan, öz dövrünün mütərəqqi və humanist ideyalarından qidalanan Azərbaycan klassikası həmişə nəcib və pak mənəvi ideyalar, ideya-fəlsəfi axtarışlar ədəbiyyatı olmuşdur».

Heydər Əliyev Azərbaycan klassik ədəbiyyatına dərindən bələd bir alim kimi XII əsr Nizaminin, Xaqaninin timasalında intibah dövrünü keçirən Azərbaycan ədəbiyyatının

sonrakı əsrlərdə Nəsiminin, Füzulinin, Vaqifin, M.F.Axundovun, Sabirin timsalında dünya şöhrəti qazandığını, dünya ədəbi prosesinə təsirini, «Avropa ədəbiyyatını ideyalar, mövzular və süjetlərlə zənginləşdirdiyini» gözəl bilirdi. Ömrünün böyük bir hissəsini Azərbaycan dövlətçiliyinin inkişafına həsr edən dövlət başçısı Azərbyacan ədəbiyyatına da daima diqqət göstərmişdir.

Heydər Əliyevin ədəbiyyatla bağlı fikir və mülahizələrini nəzərdən keçirdikdə onun bir alim, tənqidçi, ədəbiyyatşünas kimi yüksək elmi-nəzəri düşüncələrinin, fikirlərinin şahidi oluruq. «Kitabi-Dədə Qorqud» ensiklopediyasının 1-ci cildinə yazdığı ön sözü gözdən keçirərkən dediklərimizin faktlarla sübütunu gördük. Onun ədəbiyyatşünaslığında Qazi Bürhanəddin, Şah İsmayıl Xətayi duyumlarını gördük. Dövlətçilik prinsipləri içində ədəbiyyatın yerini görür. 1300 illik yubileyi qeyd olunan «Kitabi-Dədə Qorqud»u «gənc nəslə ünvanlanan bir kitab» kimi dəyərləndirərkən narahat olduğu məqamları dilə gətirir. Ona tarixi reallıqlarla yanaşır: «müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu çox mühüm məsələdir. Məhz bu baxımdan «Kitabi-Dədə Qorqud ensiklopediyası» ilk növbədə gənc nəslə ünvanlanan kitabdır».

Böyük tarixi şəxsiyyət taleyüklü məsələlərin həyata keçirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi üçün tariximizi yaxşı bilməyimizi, milli köklərdən qaynaqlanmaqla, öz tarixi keçmişimizin dəyərli tarixini öyrənməklə, varisi olduğumuz mədəni irsimizi dərindən mənimsəməklə, ondan böyük qürur duymaqla qazanacağımız müvəffəqiyyətləri uzaqgörənliklə dilə gətirir: «Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli dəyərlərimiz «Kitabi-Dədə Qorqud» eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu bizim ana kitabımızdır.... dünya qorqudşünaslığı «Kitabi-Dədə Qorqud»un istər etnik, mənşə, istər tarixi-coğrafi, ərazi, istərsə də dil və məfkurə baxımından Azərbaycan xalqına mənsub olması fikrini qəti şəkildə təsdiq edir. «Kitabi-Dədə Qorqud»un Azərbaycan tarixi üçün ən böyük, ən əsas və ən birinci xidməti bundan ibarətdir».

Bir ədəbiyyatşünas kimi dastanı «qəhrəmanlıq eposu», «bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir epos» adlandırır, əsərin əsas ideyasının «baş sərkərdədən tutmuş böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə hazır olduqlarını göstərməkdir»-deyir və əsas fikrini bildirir ki, « ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır».

Dastanın etik, estetik keyfiyyətləri haqqında, Dədə Qorqud fəlsəfəsi haqqında, dastanın dilimiz, mənəviyyatımızla bağlı kəsb etdiyi mədəni estetik əhəmiyyəti haqqında söylədiyi dəyərli fikirlər, dastanın yaranma, inkişaf prosesi, tədqiqi tarixi ilə bağlı mühakimələri maraq doğurur. XX əsr tarixində dastanın təqiblərə məruz qaldığını, onu üzə çıxaran Əmin Abid, B.Çobanzadə kimi tədqiqatçıların repressiyaya məruz qaldığını, müharibə dövründə xalqın düşmənə qarşı mübarizə ruhunu artırmaq üçün «Koroğlu, «Dədə Qorqud» kimi dastanlardan istifadə etməyə cəhd göstərildiyini, müharibədən sonra dinc quruculuq illərində «gənc nəslin «Kitabi-Dədə Qorqud» ruhunda tərbiyə edilməsinə yasaq qoyulmasını, «ədəbiyyata və incəsənətə qarşı yönəldilmiş məşhur «Jdanov qərarları»nın ab-havasına uyğun olaraq «Kitabi-Dədə Qorqud»a qarşı hücumlar»ın başlandığını unutmur: «Əgər 1949-cu ildə akademik Heydər Hüseynovun «XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən» əsəri tənqid atəşinə tutularaq Azərbaycan xalqının tarixinə yanlış, elmə zidd qiymət verməkdə ittiham olunurdusa, bundan sonra «Kitabi-Dədə Qorqud» eposunun ümumən xalq eposu olmadığı bildirilirdi və bu eposu «yayanları amansızlıqla ifşa etmək və onlara divan tutmaq» şüarları səsləndi».

H.Araslının, M.Təhmasibin, Bartoldun ruscaya çevirib çap etdirdiyi «Kniqa moeqo Deda Korquda» kitabının sovet rejiminin sərt reaksiyasına məruz qaldığını xatırladan dövlət başçısı «sonrakı dövrlərdə bu eposun xalqa zidd olduğu, Azərbaycan xalqına məxsus olmadığı haqqında dövlət səviyyəsində işlərin davam etdirildi»yini bildirir. H. Əliyev 1950-ci il partiya yığıncağında deyilən fikirləri diqqətə çatdırır. Həmin partiya yığıncağının hesabatında deyilirdi:

«Pantürkistlər tərəfindən Azərbaycan ədəbiyyatının qədim abidəsi kimi qələmə verilən «Dədə Qorqud» eposunun mürtəce burjua millətçilik mahiyyəti son zamanlaradək ifşa edilməmişdir. «Dədə Qorqud» eposunun Azərbaycan xalqı ilə, onun tarixi, folkloru və dili ilə heç bir əlaqəsi yoxdur. «Dədə Qorqud»da Azərbaycan xalqı üçün yabançı olan həyat tərzi, adət və ənənələr təsvir edilmişdir... Dədə Qorqud»un mətnini nəşr edən Həmid Araslı eposun yalnız ideyasını deyil, onun dilini də saxtalaşdırmış və Azərbaycan dilinə süni surətdə uyğunlaşdırmışdır. Dəmirçizadə bununla kifayətlənməyərək uşaqlar üçün «Dədə Qorqud» mövzuları əsasında «Qaraca Çoban» adlı zərərli pyes yazmış və Azərbaycan Dövlət Filarmoniyası üçün xüsusi konsert proqramı tərtib etmişdir».

Heydər Əliyev eposun əleyhinə, alimlərin əleyhinə dövlət səviyyəsində ittihamların uzun müddət davam etdiyini, başqa türkdilli respublikalarda, Türkmənistanda xüsusilə «dəhşətli təbliğat» aparıldığı, bununla «eposa qadağa damğası» vurulduğunu, onun dərslik və proqramlardan çıxarıldığını, bununla belə prinsipial əqidə sahiblərinin mübarizəsinin davam etdiyini, 1957-ci ildə «Kommunist» qəzetində H.Araslı, Ə.Dəmirçizadə, M.Arif, M.Təhmasibin yazdığı «Dədə Qorqud dastanları» məqaləsi ilə eposun «Azərbaycandakı yasağına son qoyuldu»ğunu açıqlayır, dastanla bağlı çoxlu sayda məqalələr, əsərlər əsərlər yazılsa da, ona dövlət himayəsinin olmamasından, Dədə Qorqudla bağlı yüksək səviyyədə tədbirin təşkil edilməməsindən təəssüflənir. Eyni zamanda bunun səbəblərini də dilə gətirir, xalqımıza vurulan pantürkist damğasını, alimlərimizin, ictimai xadimətlərimizin, həbs olunduğunu, repressiyaya məruz qaldığını, yazılan əsərlərin məhv edildiyini nəzərə alıb cəsarət edə bilmədiklərini deyir.

Lakin xalqımızın tədqiqatçı alimlərinin, sənət adamlarının belə bir çətin şəraitdə də işlədiklərini, fədakarlıq göstərdiklərini qeyd edir. Ü.Hacıbəyovun «Koroğlu»su ilə xalqımızın Koroğlunu daha dərindən dərk etdiyini, S.Vurğunun «Vaqif» dramı ilə şairin həm əsərləri, həm də tarixi şəxsiyyət kimi tərcümeyi-halı, Ələsgər Ələkbərovun ifasında yaradılan Vaqif obrazının yaddaşlara həkk olmasını diqqətəlayiq bilir. «Dədə Qorqud» dastanlarının təbliğində Anarın rolunu xüsusilə qeyd edir: «Məhz «Kitabi-Dədə Qorqud»un təbliği baxımından Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Bəlkə də Anar uşaqlar üçün Dədə Qorqud haqqında kitab yazanda, yaxud Qorqudla bağlı başqa kitablarını yazanda çoxları bunun nə qədər əhəmiyyətli olduğunu o dərəcədə dərk edə bilmirdilər. Amma indi biz artıq öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyə çalışarkən vaxtilə atılmış belə addımların nə qədər qiymətli olduğunu dərk edirik. Mən Anarın bu münasibətlə yaratdığı filmi də qiymətləndirirəm. Təqdirəlayiqdir ki, «Kitabi-Dədə Qorqud» ensiklopediyasının yaranma ideyası da məhz Anara məxsusdur». Bu böyük dastanın «Azərbaycan xalqının, bütün türk xalqlarının qədim və zəngin mədəniyyətinin təbliğinə xidmət edən beynəlxalq hadisə olduğunu nəzərə alaraq dastanın «1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi məqsədilə 1997-ci il aprelin 20-də» imzaladığı fərmanın böyük tarixi əhəmiyyətini vurğuladı: «Bu fərmanla biz bildirdik ki, «Kitabi-Dədə Qorqud» dastanı bütün türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir». Dastanın yubileyinin keçirilməsi, hazırlanan, keçirilən tədbirlərlə yanaşı prezident onun ensiklopediyasının yaranmasının böyük əhəmiyyətini xüsusilə

qeyd etdi: «Ensiklopediya gənc qorqudşünas alimlər nəslinin yetişdirilməsi üçün əsas ilkin mənbələrdən biri olacaqdır. O, geniş oxucu kütlələrinin faydalana biləcəyi məlumatları da əhatə etdiyinə görə «Kitabi-Dədə Qorqud»un xalq arasında geniş təbliğ olunmasına imkan yaradacaqdır. Ensiklopediya Azərbaycanın dövlət müstəqilliyinin bəhrələrindəndir. Onun məhz müstəqillik dövründə yaranması da olduqca önəmlidir. Biz indi sərbəstik, azadıq, müstəqilik, biz tariximizi olduğu kimi tədqiq edirik və bundan sonra da edəcəyik. Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Həqiqətən də, «Kitabi-Dədə Qorqud» dastanı kimi böyük elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər».

2000-ci ildə Bakıda bu təntənəli yubileydə türkdilli dövlət və məclis başçıları, türkdilli xalqların görkəmli şair, nasir, ədəbiyyatşünas, qorqudşünas alimləri, incəsənət xadimləri, beynəlxalq təşkilatların nümayəndələri qatılmaqla həm xalqımızın milli sərvətinə, həm də Heydər Əliyev şəxsiyyətinə bəslənən hörmət və ehtiramı gördük. Eyni zamanda 1300 illik yubileydə öz çıxışında dövlət başçısı türk xalqlarının birliyi, inkişafı məsələlərinə də toxundu. Bakıda keçirilən Türkdilli Dövlətlər Birliyinin IV Bakı zirvə görü-şündə bu birliyin yarandığı vaxtdan keçmiş 8 il ərzində görülmüş işlərin nəzərdən keçirildiyini, bu birliyin yaranmasının xalqlarımızın hər birinin həyatında böyük hadisə olduğunu və bunun gələcək üçün də gərəkli olacağını vurğuladı. IV zirvə toplantısından sonra «Kitabi-Dədə Qorqud»un yubileyinə toplaşmış qonaqları salamladı: «mən bu yubileydə iştirak edənlərin, bizim dəvətimizi qəbul edib Azərbaycana gələnlərin hamısına təşəkkürümü bildirirəm və onların hamısını salamlayıram.

Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım Süleyman Dəmirəli salamlayıram.

Qazaxıstan Respublikasının Prezidenti, hörmətli qonağımız, əziz dostum, qardaşım Nursultan Nazarbayevi salamlayıram!

Qırğızıstan Respublikasının Prezidenti, əziz dostum, qardaşım Əsgər Akayevi salamlayıram!

Özbəkistan respublikasının nümayəndə heyətinin başçısı, Özbəkistan Milli Məclisinin sədri hörmətli Erkin Xəlilovu salamlayıram!

Türkmənistan Respublikasının nümayəndə heyətinin başçısı, Türkmənistan Məclisinin sədri hörmətli Səhhət Muradovu salamlayıram!

YUNESKO təşkilatının baş direktoru, hörmətli qonağımız cənab Koisuro Matsuranı salamlayıram!

Azərbaycan xalqının qocaman üzvü, veteranı cənab Jak Bomeli salamlayıram! Məmnuniyyət hissi ilə qeyd edirəm ki, «Kitabi-Dədə Qorqud»un yubileyinə dünyanın bir çox ölkələrindən ictimai-siyasi xadimlər, alimlər, yazıçılar qonaq gəlmişlər, Azərbaycanda keçirilən elmi konfranslarda iştirak etmişlər. Onlar bizimlə bərabər buradadırlar. «Kitabi-Dədə Qorqud» xalqları, millətləri daim birliyə, sülhə dəvət edibdir. 1992-ci ildə Türkdilli Dövlətlər Birliyinin yaranması Dədə Qorqud vəsiyyətlərinin yerinə yetirilməsinin parlaq nümunəsidir».

Dövlət başçısının xalqımızın sülhsevər siyasət yeritdiyini, Dədə Qorqud vəsiyyətlərinə sadiq qaldığını, Ermənistanın 20 faizini işğal etdiyi Azərbaycan torpaqlarında törətdiyi vəhşilikləri, yerindən-yurdundan didərgin salınmış xalqımızın qan tökməklə yox, sülhsevərlik nümayiş etdirdiyini,

bu münaqişənin sülh yolu ilə həllini istədiyini, sülh, əmin-amanlıq ideyaları ilə yaşadığını, əcdadlarımızın qoyduğu ənənələrə sadiq qaldığını, Dədə Qorqud vəsiyyətlərinə sadiq qaldığını bəyan etdi. Dövlət başçısı bu fikirləri ilə bütün Azərbaycan ziyalılarının, qələm sahiblərinin fikir və iradəsini ifadə etmiş oldu: «Biz bu gün böyük iftixar hissi keçiririk. Çünki bizim «Kitabi-Dədə Qorqud» kimi böyük tarixi abidəmiz vardır. Çünki bu gün biz sərbəstik, azadıq, müstəqilik və öz tarixi keçmişimizi, öz mənəvi dəyərlərimizi, öz mədəniyyətimizi olduğu kimi təhlil edib xalqımıza, millətimizə və gələcək nəsillərə çatdırmağa qadirik».

Heydər Əliyev xalq ədəbiyyatına, onun zəngin mənəvi irsinə qayğıyla yanaşdığı kimi, klassik sənətkarlarımızın da yaradıcılığının təbliğinə, onların müasir gənclik üçün təbliğinə də həmişə diqqətlə yanaşıb. Əsərlərinin nəşri, yaradıcılığının tədqiqi ilə yanaşı onların Bakının, şairlərin doğulduğu bölgələrin mərkəzi yerlərində möhtəşəm abidələrini ucaltdırdı. Nizaminin, Füzulinin, Nəsiminin, N.Nərimanovun, C.Cabbarlının, S.Vurğunun, Ə.Vahidin, M.Ə.Sabirin, M.F.Axundovun, M.Müşfiqin və adını çəkmədiyim onlarca sənətkarımızın heykəlləri qoyulub, adlarına küçələr, bağlar, parklar salınıb. Ölkədən kənarda da adları əbədiləşdirilir. Dünya şöhrətli dahi sənətkar Nizaminin Heydər Əliyevin təşəbbüsü ilə Sankt-Peterburqda abidəsi qoyuldu və təntənəli açılışı oldu. Onun Nizami haqqında dəyərli fikirləri ədəbiyyatımızın klassik dövrünə dəyəri kimi də qiymətləndirilə bilər: «Bütün Azərbaycan xalqı Nizami ilə fəxr edir. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq! Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır. Özü də yaşayır». Şəhərin mərkəzində abidəsi ucaldılan Nizami Azərbaycan ədəbiyyatının dahi ustadıdır.

Heydər Əliyev Məhəmməd Füzulinin irsinin tədqiqi, nəşri sahəsində çox iş görüb, onun qüdrətli bir sənətkar kimi dünyada tanınmasıyla fəxr edən dövlət başçısı idi. 1994-cü ildə Füzulinin 500 illik yubileyi təkcə Azərbaycanda deyil, dünyanın çox yerində keçirildi, İranda, İraqda keçirilən, Bağdad və Kərbəlada keçirilən yubiley tədbirlərində Ədəbiyyat və İncəsənət xadimlərimizin böyük bir qrupu və prezident Heydər Əliyev Rusiyada, Türkiyədə keçirilən tədbirlərdə şəxsən özü iştirak etdi. Orta Asiya respublikalarında, Avropanın bir sıra ölkələrində, Danimarkada, Kanadada keçirilən şairin 500 illik yubileyində xaricdə yaşayan soydaşlarımız da yaxından iştirak edirdi. YUNESKO-nun xətti ilə keçirilən Füzulinin əsərlərinin sərgisi dünya xalqlarına Azərbaycan ədəbiyyatının nələrə qadir olduğunu sübut edən faktlar idi.

Yubileyin təşkilat komissiyasının iclasında Heydər Əliyev böyük sənətkarın layiqli qiymətini verdi: «...Məhəmməd Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən bir mənbədir... Biz Məhəmməd Füzuli ilə fəxr edirik. ... biz millətimizdən danışarkən deyirik ki, 500 il bundan öncə yaşamış azərbaycanlı Məhəmməd Füzuli dünya mədəniyyətinə öz böyük töhfəsini veribdir. Məhz Füzulinin yaradıcılığı və əsərləri ilə göstəririk ki, xalqımız hansı zənginliyə, hansı mədəniyyətə, hansı mənəviyyata, hansı elmə malikdir».

Heydər Əliyev şairin 500 illik yubileyi ilə bağlı «Füzuli adına Beynəlxalq Mükafatın təsis edilməsi haqqında», «Füzuli ensiklopediyasının yaradılması haqqında», «Azərbay-

can Respublikası Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adının verilməsi haqqında çox mühüm sənədləri imzalamaqla ədbiyyatımıza, klassik irsimizə öz hörmət və ehtiramını ifadə etmiş oldu.

Böyük tarixi şəxsiyyət Azərbaycan elminin, mədəniyyətinin, maarifinin, eləcə də ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan C.Məmmədquluzadə kimi xadimlərimizin ədəbi irsinə, həyatına, fəaliyyətinə yüksək dəyər verir. Cəlil Məmmədquluzadənin Bakıda böyük təntənə ilə qeyd olunan 125 illik yubileyində çıxış edərkən dövlət başçısı fəxrlə «C.Məməmdquluzadə Azərbyacan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır»,-deyir. Onun «Molla Nəsrəddin» jurnalı ilə bağlı fəaliyyətini, bu jurnalın dünyada məşhurluğunu, yaratdığı ölməz səhnə əsərlərinin kamil ideya-məzmun keyfiyyətlərinin bir ədəbiyyatşünas kimi də düzgün təhlilini verən prezident H.Əliyev onun ev muzeyinin açılmasıyla bağlı verdiyi fərmanın yerinə yetirildiyini, heykəltaraş Mirqasımovun yaratdığı abidəsini layiqincə dəyərləndirdi və Bakıda da onun heykəlinin qoyulmasının vacibliyini söylədi.

Əliağa Vahidin-Füzuli ədəbi irsinin əsrimizdə davamçısı qəzəlxan şairin, qüdrətli qəzəl ustası kimi tanınmış sənətkarın 1996-cı ilin avqustunda 100 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. «Vahid böyük xəzinədir. Xalqımız Vahidi həmişə sevibdir. Onun sağlığında da, o, həyatdan gedəndən sonra da Vahidin qəzəllərinə çox gözəl mahnılar bəstələnibdir» sözlərini hörmətli prezident yubiley gecəsində çıxışında söyləyirdi

H.Əliyevin əsrimizin böyük dramaturqu C.Cabbarlının 1982-ci ildə abidəsinin açılışında dediyi dəyərli fikirlər C.Cabbarlı haqqında yazılmış cild-cild kitablara bərabərdir: «Cəfər Cabbarlının simasında Azərbaycan mədəniyyəti elə bir yeni sənətkar tapdı ki, onun üçün ədəbiyyat və sənət yalnız real həyatı əks etdirmək vasitəsi deyildi. Həm də həyatın mürəkkəb inkişafına fəal müdaxilə etmək vasitəsi idi. Şair, nasir və dramaturq C.Cabbarlının yaradıcılığı çoxşaxəlidir. Onun gördüyü işlər sözün əsl mənasında yorulmaz əmək fədaisinin hünəridir».

Nəriman Nərimanovun, Nəsiminin, Vaqifin Şuşadakı məqbərəsinin, Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılışında şəxsən özü də iştirak edən dövlət başçısı həmişə ədəbi mühitlə sıx əlaqə yaratmış, Azərbaycan mədəniyyətinə, ədəbiyyatına bağlı olduğunu işiylə, fəaliyyətiylə sübut etmişdir.

XX əsrin böyük ədibi, repressiyaya məruz qalmış Sibirdə vəfat etmiş, böyük irsi talanmış, məhv edilmiş, böyük sənətkar Hüseyn Cavid irsinə, şəxsiyyətinə prezidentin göstərdiyi qayğı və diqqət repressiyaya məruz qalmış yüzlərcə ədib və şairlərimizə hörmət və ehtiram kimi dəyərləndirilməlidir. Sovet imperiyasının qılıncının kəskin dövründə belə ədəbi irsimizə, mədəniyyətimizə, ədəbiyyatımıza çətinliklə də olsa öz qayğı və köməyini əsirgəməyən Prezident müstəqil Azərbaycan dövlətinin rəhbəri kimi yenidən hakimiyyətə gələndə sanki illərlə ürəyində yatıb qalmış arzularını həyata keçirmək üçün yorulmadan işə girişdi. Hələ 1982-ci ildə Cavidin cənazəsini Azərbaycana gətirdən, onun Naxçıvan-

da da dəfnini məsləhət bilən prezident H. Əliyev 1981-ci ildə onun 100 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul etmişdi. Şairin məzarı üstündə tikiləcək məqbərənin kağız üstündə qalmasına səbəb ölkə başçısının 1982-ci ildə Moskvaya aparılması, orada işləməsi oldu. Dəfələrlə bu məsələylə bağlı müəyyən işlər görsə də, Azərbaycanda rəhbərlik edən kəslər «bunun mahiyyətini, əhəmiyyətini dərk edə bilmədiyindən» məsələni yubatdılar. Bunu təəssüflə qeyd edən dövlət başçısı 1996-cı ildə özünün fəaliyyəti dövründə Hüseyn Cavidə qoyulan məqbərənin açılışında iştirak etdi, bu böyük sənətkarın XX əsr ədəbiyyatının inkişafında xidmətlərini dilə gətirdi, onun Azərbaycan xalqını, mədəniyyətini, ədəbiyyatını, elmini «yüksəklərə qaldıran böyük şəsiyyətlərdən biri» kimi amal və məqsədini yaratdığı əsərlərdə yaşatdığını söylədi: «Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbyacan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur».

Nizaminin, Füzulinin, Nəsiminin yaradıcılığının tədqiqi, nəşri, adlarının əbədiləşdirilməsi sahəsində tarixi qərarlar imzalamış Heydər Əliyev müasiri olduğu çağdaş ədəbi prosesinə də eyni diqqət və qayğıyla yanaşıb. Zəmanəsinin ədəbi prosesini düzgün və yüksək qiymətləndirib: «Müasir Azərbaycan ədəbiyyatında cərəyan edən proseslər mühüm və diqqətəlayiq proseslərdir. Onlar özləri ilə yenilik gətirir, bütövlükdə ədəbiyyat üçün ümumi olan inkişaf qanunlarını bu və ya digər yollarla təsdiq edirlər. Bədii söz sənətkarlarının gerçəkliyi tam əhatə etməyə, həyatı daha dolğun şəkildə

təsvir etməyə, adamlar və zaman haqqında həqiqəti bər-bəzəksiz deməyə səy göstərdiklərini xüsusilə nəzər çarpdırmaq istəyirəm. Azərbaycan xalqının ən əsas, ümdə arzu və istəkləri, ən nəcib əməlləri bədii əsərlərdə getdikcə daha tez-tez və daha dərindən təsvir olunur».

S.Vurğunun 95 illik yubileyinə həsr olunmuş tədbirdə şairin yaşadığı dövrün «həddindən artıq mürəkkəb, qarışıq, çətin» dövr olduğunu söyləyir: «XX əsr bəşər tarixində çox ziddiyyətli, mürəkkəb proseslər dövrüdür... Birinci dünya müharibəsi dünyaya nə qədər ziyanlar vurubdur. Ondan sonra yer kürəsinin altıda bir hissəsində yeni bir quruluş, yeni bir ideologiya hökm sürməyə başlayıbdır. Çonra bəşəriyyət üçün ən təhlükəli olan faşizm meydana çıxıb, İkinci Dünya müharibəsi başlanıb, nə qədər insanlar qurban gedib. İkinci dünya müharibəsindən sonra «soyuq müharibə» başlayıb, yer üzündə yenə də gərginlik yaranıb, eyni zamanda sülhü müdafiə etmək üçün qüvvələr yaranıbdır. Bunlar o dövrün ən böyük tarixi hadisələridir. Belə bir dövrdə yaşamaq, yaratmaq və yüksək yaradıcılıq səviyyəsinə çatmaq hər insana nəsib ola bilməzdi». Belə bir dövrdə yazıb-yaradan S.Vurğunun Azərbaycaq ədəbiyyatını, mədəniyyətini, eləcə də dünya ədəbiyyatını zənginləşdirən yaradıcılığının böyüklüyünü, onun öz dövrünün «şairlərinin şairi» olduğunu söyləyən Heydər Əliyev yaradıcılığında ən mühüm bir məqama tarixi qiymət verir: «Səməd Vurğun Azərbaycan şeirinə çox böyük yeniliklər gətiribdir... Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm də qavraya bildi, həm də sevdi. Beləliklə, o, Azərbaycan şeirində yeni bir yol açdı. Səməd Vurğun Azərbaycan klassiklərinin ənənələrini davam etdirərək,

bizim dövrümüzdə-məhz 20-ci, 30-cu, 40-cı illərdə Azərbaycan şeirini daha da yüksəklərə qaldırdı. S. Vurğu-nun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdirib-dir. Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edibdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərdən biridir». Şairin yaradıcılığının geniş təhlilini verən, «Vaqif» pyesi üzərində xüsusilə dayanır, onun poema yaradıcılığını, böyük alim, filosof kimi fəaliyyətini yada salır: «Səməd Vurğun Azər-baycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biridir. Səməd Vurğun Elmlər Akademiyasının yaradılmasının təşəbbüsçülərindən biridir. O, sadəcə akademik seçilmiş bir adam deyil. S.Vurğun və məhz onun kimi Ü.Hacıbəyov, H.Hüseynov, Y.Məmmədəliyev, M.Topçubaşov, M. İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycanın Milli Akademiyası yaranıbdır. Bu, böyük tarixi hadisədir. Burada S.Vurğunun xidmətləri böyükdür. Ən böyük xidməti ondadır ki, S.Vurğun ömrünün son illərində həmin akademiyanın vitse-prezidenti vəzifəsini daşımışdır və Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafında çox əvəzsiz xidmətlər göstərmişdir».

Heydər Əliyev bir dövlət başçısı kimi fəaliyyəti dövründə yazıçılarımızı Sovet İttifaqının ən yüksək fəxri adı olan Sosialist Əməyi Qəhrəmanı adına (Süleyman Rəhimov, Süleyman Rüstəm, Mirzə İbrahimov, Rəsul Rza) layiq görmüşdür. Süleyman Rüstəmi «nadir insan», Tanrının verdiyi «fitri istedad sahibi», onun yaradıcılığının nəsillərin «təhsilinə, mənəviyyatına, formalaşmasına böyük təsir» etmiş olduğunun danılmaz həqiqət olduğunu qeyd edir.

Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza kimi böyük sənətkarların, o dövrdə repressiyaya məruz qalmış nəslin nümayəndələri kimi ədəbiyyatımızı, mədəniyyətimizi

inkişaf etdirmələrini təqdirəlayiq bilən prezident «əgər 30-cu illərdə o itirdiklərimizlə yanaşı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsildən olan görkəmli başqa şairlərimiz olmasaydı, onlar yazıb-yaratmasaydılar, o əsərlərimiz olmasaydı, indi bizim o dövr tariximizin, ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmirəm»,-deyir, «əgər kimsə 80-ci illərin axırları, 90-cı illərin əvvəllərində tariximizin böyük bir hissəsini cırıb atmaq istəyirdisə və bəzən onlar buna nail olurdusa, özləri heç bir xidmət etməmiş adamlar xalqa sədaqətlə xidmət etmiş insanları aradan çıxarmağa çalışırdılarsa, bunlar keçici bir şeydir. Gördünüz ki, onlar keçdilər, getdilər. Bu gün onu deyə bilərəm ki, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bugünkü uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır. Belə adamların özləri xalq, millət, ölkə üçün heç nə etməyiblər, əgər bizim xalq dili ilə desək, onlar nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə Süleyman Rüstəmin dırnağı belə ola bilməzlər».

Ölkə prezidentini belə qəzəbləndirən amillər var idi. Ömrü boyu tariximizin təhrif olunduğunu, düşmənlərimizin çoxluğunu, bizi bir millət, xalq kimi qiymətdən salmaq istəyənlərin olduğu bir vaxtda düşmən dəyirmanına su tökənlərin içimizdə olmasından narahatlığını gizlətmir, «biz tariximizi, millətimizi, xalqımızı belə adamlardan qorumalıyıq»-deyir.

1975-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş ilk nasir Süleyman Rəhimovun 90 illik yubileyi ilə bağlı kitablarının yenidən çap olunması, Azərbaycan ədəbi prosesində novator şair kimi tanınan, poeziyada yeni

bir yol açan, onu zənginləşdirən R.Rzanın 90 illik yubileyinin təntənə ilə qeyd olunması, əsərlərin yenidən çapı haqqında verdiyi qərarlar, yazıçı, dramaturq kimi sevilən, tanınan, yüksək sənətkarlıqla yazılmış əsərləri ilə sevilən İlyas Əfəndiyevin müstəqil Azərbaycan respublikasının «Şöhrət» ordeninə layiq görülməsi, qadın yazarlarımıza hörmət və ehtiramı, Məhsəti, Ağabəyim, Heyran xanım, Natəvan kimi sənətkarlarımızla yanaşı Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Mədinə Gülgün, Hökümə Bülluri sənətinə, yaradıcılığına verilən yüksək qiymət dövlət başçısının nəcib keyfiyyətlərlə zəngin xarakterindən xəbər verir. Bir dövlət başçısı kimi qadın əməyinə, istedadına verilən yüksək qiyməti görürük. M.Dilbazinin 85 illik yubileyində: «Şair olmaq asan deyil. Təkcə bizim xalqın tarixində yox, bütün dünya xalqlarının tarixində şairlər, yazıçılar, alimlər adətən kişilərdən olubdur. Ancaq qadın şairlər xüsusi hörmətə malikdirlər. Onlar gərək nə qədər yüksək istedada malik olsunlar ki, kişilərlə bərabər səviyyədə, bəlkə onlardan da üstün səviyyəyə qalxaraq, şeirlər yazaraq, böyük şairlər dəstəsinə qoşula bilsinlər», deyir,-qadın yazarlarımıza, onların istedadına, qabiliyyətinə olan heyranlığını ifadə edir.

1991-ci ilin fevralında dünyasını dəyişən Mədinə Gülgünün hakimiyyətdə olmasa da dəfn mərasimində fəxri qarovulunda duran şəxsiyyətlərdən biri Heydər Əliyev oldu. Naxçıvanda yaşasa da, özünə mənəvi borc bilib baş sağlığına gələn Prezident Balaş Azəroğlunu bağrına basıb ona təsəlli verdi. Ədəbiyyat xadimləri ilə görüşdü və bu, onun daima qəlbində ədəbi mühitə bəslədiyi hörmət və ehtiramın nəticəsi idi.

Hakimyyətə dönüşündən sonra da Heydər Əliyev Azərbaycan ədəbiyyatına, mədəniyyətinə qayğısını əsirgəmədi. 90-cı illərin əvvəllərində ölkədə hökm sürən özbaşınalıq, hərc-mərclik hər sahədə olduğu kimi YB-nin fəaliyyətinə də böyük təsir göstərdi. Dövlətdən gələn vəsaitin kəsilməsi ədəbi orqanların fəaliyyətini iflic vəziyyətinə saldı. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının prezidenti seçilən H.Əliyevin köməyi ilə yenidən Yazıçılar Birliyi fəaliyyətə başladı, mətbu orqanları öz himayəsinə götürdü. Həm Yazıçılar Birliyinin, onun yaşlı üzvlərinin, eləcə də gənc ədəbi nəslin qayğısına qaldı, Prezident təqaüdləri ayırdı, Xəlil Rza, Məmməd Araz kimi istiqlal şairlərinə xüsusi qayğı və diqqət göstərdi.

1996-cı ildə keçirilən Türk dünyası yazıçılarının III qurultayının işində iştirak etdi və bu qurultayın Azərbaycanda keçirilməsini əlamətdar bir hadisə, Azərbaycan dövlətinə və xalqına ehtiramın təzahürü kimi qiymətləndirdi. Çoxəsrlik tarixə malik xalqlarımızın bəşər mədəniyyətinə verdiyi töhfələri xatırlatdı, əsrlərin sınağında çox müharibələrdən, təcavüzlərdən üzüağ çıxmış, bu gün böyük mədəniyyəti ilə dünya tarixinə adını yazmış türkdilli xalqları birləşdirən kökə, soya, milli-mənəvi bağlılıqlara, ən böyük milli sərvət olan dil məsələsinə, onu yaşadan yazıçıların, şairlərin bu sahədəki böyük roluna diqqəti yönəldən dövlət başçısı bununla öz tariximizi, mədəniyyətimizi təbliğ etdiyimizi xatırladır. «Dədə Qorqud», «Manas», «Alpamış», «Koroğlu» kimi qüdrətli dastanlarımızı, ortaq türk yazarlarımız Nizami, Yunis İmrə, Əlişir Nəvai, Füzuli, Məhtimqulu, Abay və s. kimi böyük dühaların yaratdığı, bəşər mədəniyyətinin zəngin sərvəti olan türk ədəbiyyatının möhtəşəmliyini, türk ədəbi irsinin zamanın dolaylarında uğradığı əzabları, müharibələri, lakin bütün sınaqlardan keçib gəlib, dünyada özünəməxsus yer tutduğunu xatırladır. Həmişə, hər dövrdə ədəbiyyatımızın Avropa, Rusiya ilə ədəbi, mədəni əlaqələr

saxladığını, Qərbin də həmişə Şərq, «xüsusən türkdilli xalqların, müsəlman Şərqinin yaratdığı böyük tarixi əsərlərdən istifadə etmiş» olduqlarını, Şərq-Qərb mədəniyyətinin müsbət nəticələrini qeyd etməklə yanaşı müasir siyasi durumu, müstəqilliyini əldə etmiş respublikamızın uğurları ilə fəxr etdiyini görürük: «Milli azadlığın, sərbəstliyin, müstəqilliyin xalqlarımıza bəxş etdiyi töhfələr göz qabağındadır. Ancaq biz bunun böyük gələcəyini də görürük. Bunlardan da biri ondan ibarətdir ki, biz sərbəst, müstəqil olaraq heç bir kəsdən, heç bir dövlətdən asılı olmayaraq, öz istədiyimiz kimi əlaqələrimizi qururuq və əməkdaşlıq edirik, milli ənənələrimizi, milli dəyərlərimizi, mədəniyyətimizi birlikdə inkişaf etdirməyə çalışırıq. Türk dünyası yazıçılarının III qurultayı da ümumiyyətlə, belə bir qurultayın yaranması, ənənəyə çevrilməsi də əldə etdiyimiz azadlığın, müstəqilliyin bəhrələridir».

Müstəqilliyin əldə edilməsi uğrunda mübarizədə şair və yazıçılarımızın rolunu yüksək qiymətləndirən dövlət başçısı Məmməd Araz poeziyasına həsr olunmuş gecədə öz çıxışında bu zəhməti, əməyi yetərincə qiymətləndirdi: «Dövlətimiz müstəqil dövlətdir, formalaşır. Onun özünün yüksək mükafatları var. Ən yüksək mükafat təsis olunub-bu, «İstiqlal» ordenidir. Kimə birinci çatmalıdır bu orden? Mən bir neçə aydır bu haqda düşünürəm. Çox götür-qoy eləmişəm və xeyli müddət bundan qabaq belə qərara gəlmişəm ki, bu orden bizim şəxsiyyətlərimizə çatmalıdır. Şəxsiyyətlərimiz birinci növbədə buna layiq görülməlidirlər... Azərbaycan xalqının milli azadlığı uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə hörmətli şairimiz Bəxtiyar Vahabzadə, hörmətli şairimiz Məmməd Araz və çox hörmətli şairimiz mərhum Xəlil Rza bu ordenlə təltif edildilər... ona görə də sizi təbrik eləyirəm, Məmməd Araz, səni təbrik edirəm, Bəxtiyar, səni təbrik eləyirəm. Sizin uzun illər həqiqətən xırdaxırda, misra-misra, damcı-damcı yaratdığınız əhvali-ruhiyyə Azərbaycan xalqını gətirib bugünkü vəziyyətə çıxartdı».

Heydər Əliyev hər bir istedadlı sənətkarın yaralıcılığı haqqında geniş məlumata malik şəxsiyyətdir. Müasir poeziyanın görkəmli nümayəndəsi N.Xəzri yaradıcılığı haqqında «Xalq şairi N.Xəzri ədəbiyyatımızda öz layiqli yerini tutmuşdur. N.Xəzri öz şeirlərində xalqımızın həm qəhrəman keçmişini, həm də bugünkü həyatını və sabahını yüksək ustalıqla, fitri sənətkarlıqla tərənnüm edir. Öz şeirlərində və poemalarında şair cəmiyyətimizin inkişafı üçün, indiki nəslin tərbiyəsi üçün birinci dərəcəli əhəmiyyəti olan problemlər qaldırır. Nəbi Xəzrinin lirikası, poemaları, bütün bədii əsərləri, publisistik çıxışları ictimaiyyətimiz tərəfindən, xalqımız tərəfindən sevilir. Onun əsərləri dillərdə əzbər olub, bir çox şeirlərinə musiqilər bəstələnib, incəsənətimizi bəzəyən mahnılar yaranıb» fikirləri onun hər bir sənət adamının ədəbi prosesimizdə gördüyü işi, onun fəaliyyətinin qiymətləndirmək baxımından yetərlidir, layiq gördüyü Müstəqil Azərbaycanın «Şöhrət» ordeni ilə təltif etməsi dediyimizə əyani sübutdur.

60 illik yubileyi ilə bağlı xalq yazıçısı Anarı «İstiqlal» ordeni ilə təltif etməklə onun həm yazıçı, həm dramaturq, həm publisist kimi fəaliyyətinə, ölkəmizin inkişafında ictimai xadim kimi fəaliyyətinə verilən yüksək qiymətdir. Bu münasibətlə yazıçıya ünvanlanmış fikirləri 60-cılar nəslinə, onların ədəbi-bədii yaradıcılığına hörmətin bariz ifadəsidir: «Siz 60-cı illərdə ədəbiyyatımıza yeni ab-hava gətirmiş yazıçılar nəslinin görkəmli nümayəndələrindən birisiniz. Müasirlərimizin zəngin mənəvi aləmini, qayğı və problemlərini yüksək bədii səviyyədə əks etdirən əsərləriniz daim ədəbiy-

yat həvəskarlarının diqqət mərkəzində olmuşdur. Bəşəriliklə milliliyin üzvi vəhdətini təşkil edən çoxcəhətli yaradıcılığınız cəmiyyətimizdə milli şüurun aşılanmasına və xalqımızın bir çox ölkələrdə tanınmasına xidmət etmişdir».

60-cılar nəslinin görkəmli nümayəndələri Rüstəm və Maqsud İbrahimbəyov qardaşlarının yaradıcılığı, R.İbrahimbəyovun 60 illik yubileyindəki çıxışında dövlət başçısı 60-cı illərin əvvəllərində ədəbiyyata gəlmiş R.İbrahimbəyovun «nəsr əsərləri, kino əsərləri, səhnə əsərləri ilə Azərbaycan mədəniyyətini» zənginləşdirməklə yanaşı «dünya mədəniyyətinə layiqli töhfələr» verdiyi, çox məhsuldar yazıçı, dramaturq, kinossenarist olduğu, böyük oxucu auditoriyasına malik olduğu, təkcə keçmiş Sovetlər ölkəsində deyil, dünyada tanındığı, əsərlərinin dünya dillərinə tərcümə edildiyini, bu əsərlərdə oxuculara «Azərbaycan həqiqətləri haqqında və ümumiyyətlə, müasir həyatımızın həqiqətləri haqqında çox gözəl məlumatlar vermiş» olduğunu, bu gün də yazıb-yaratdığını, Azərbaycan mədəniyyətini yüksəklərə qaldırdığını söyləyir: «Rüstəm İbrahimbəyovun bütün əsərlərində əsas məzmunu, mənanı təşkil edən budur ki, o, həmişə həyatın reallığını təsvir edibdir. Amma o dövrdə, Sovet ideologiyası çərçivəsində bu o qədər də asan deyildi. Çünki bəzən bu istiqamətdə yazanlar bir az da kənara çıxanda dissident olurdular. Ancan R.İbrahimbəyovun həyatı olduğu kimi təsvir etməsi və həyatın hər tərəfini-həm müsbət tərəfini, həm mənfi tərəfini olduğu kim göstərməsi onun yaradıcılığının ən gözəl cəhətidir və əsərlərinə böyük şöhrət gətirən amildir».

Dövlət başçısı Qabili, Hüseyn Abbaszadəni, Əzizə Cəfərzadəni, İsmayıl Şıxlını, İsa Hüseynovu, Yusif Səmədoğlunu, B.Azəroğlunu, Zəlimxan Yaqubu, ədəbiyyatşünas alim-

lərimiz Seyfulla Əsədullayevi, A.Axundovu, B.Nəbiyevi də «Şöhrət» ordeni ilə təltif etmişdir.

Azərbaycan Yazıçılar Birliyinin birləşdirdiyi böyük bir ədəbi qüvvə məhz qüdrətli şəxsiyyət, dövlətimizin ideal rəhbəri Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə misli görünməmiş bir qüdrətlə inkişaf etmişdir. Dövləti olan xalq xoşbəxtdir. O xalqın ki, dövləti var, nəsibi səadətdir. Qüdrətli dövlət meyarı olmayan sərvətdir. O sərvəti əldə edən qüdrətli sərkərdəsi olan xalqdır. Qüdrətli sərkərdə dövləti, dövlətçiliyi qoruyub saxlamağı bacarandır. Millətinə, xalqına layiq sərkərdə Ümummilli Liderimiz Heydər Əliyev dövlətçiliyimizin, demokratik dəyərlərimizin qoruyucusu, tarixi şəxsiyyət, xalqın, millətin dahi oğludur. «Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam». Bu sözlər onun həyat devizi idi. Ölkəni vətəndaş müharibəsindən xilas edən, müstəqilliyinin başı üzərini alan təhlükədən qurtaran, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasında əvəzsiz rolu olan Heydər Əliyev böyük siyasətçi, xalqının qarşısında olan borcunu sona qədər həyata keçirməyə çalışan, bunu dəfələrlə öz çıxışlarında bəyan edən, qüdrətli dövlət xadimi, Azərbaycan ədəbiyyatının sədaqətli dostu idi...

Bu gün böyük sərkərdənin daxili və xarici siyasətini birmənalı şəkildə davam etdirən İlham Əliyevin Azərbaycan dövlətini müasir, zəngin, qüdrətli bir dövlətə çevirmək üçün gördüyü misilsiz işlər göz qabağındadır. Sosial, iqtisadi sahələrdə olduğu kimi mədəniyyətimizin inkişafı sahəsində də uğurlu fəaliyyəti onun səriştəli bir dövlət rəhbəri olduğunu sübut edir. Elmin, təhsilin, mədəniyyətin, ədəbiyyatın in-

kişafı sahəsində apardığı islahatlar, görülən işlər ürəklərdən xəbər verir. Dövlətin qayğısını ədəbi mühit də çox gözəl hiss edir. Yaradıcı insanlara dövlət qayğısının artırılması, bu qurumların yerləşdiyi binaların əsaslı təmiri, yüksək səviyyədə müasir avadanlıqlarla təmin edilməsi, yaradıcı insanlara ayrılan təqaüdlər, kitabların latın qrafikası ilə yenidən nəşrinin təmin edilməsi, sənət adamlarına verilən fəxri adlar... dövlət başçısının ədəbiyyatımıza, mədəniyyətimizə, yaradıcı insanlara qayğısının təzahürüdür. Dövlətçiliyimizin möhkəmləndirilməsi, hərbi, sosial, iqtisadi, mədəni, hərbi sahələrdə sürətlə inkişafımız onun gərgin əməyinin, yüksək təşkilatçılıq qabiliyyətinin nəticəsidir.

İlham Əliyevin ölkəmizin həm xarici, həm daxili, sosial-iqtisadi və mədəni sahələrində apardığı uğurlu islahatlar məqsədyönlü siyasətinin nəticəsidir ki, Azərbaycan dünyada sürətlə inkişaf edən bir ölkə kimi tanınmaqdadır. Hər sahədə uğurlarımız artır. Heydər Əliyevin yaratdığı dövlətçilik məktəbi, müstəqil Azərbaycanımızın sabahı etibarlı əllərdədir.

Sosial, iqtisadi, siyasi, mədəni sahələrdə böyük müvəffəqiyyətlərin qazanılmasında Heydər Əliyev fondunun, onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti böyükdür. O, mədəniyyətimizin, ədəbiyyatımızın səmimi dostu olmaqla bərabər, onun qayğılarına diqqətlə yanaşan ədəbiyyatsevərdir. Böyük sənətkarımız Mir Cəlalın ailəsində dünyaya gələn, ədəbi mühitə yaxın olan bir insan kimi ədəbiyyata qarşı daima diqqətlidir. Heydər Əliyev fondunun dəstəyi ilə nəşr olunan saysız-hesabsız həm Azərbaycan, həm dünya ədəbiyyatından seçmələrin nəşri dediklərimizə əyani sübutdur.

NƏTİCƏ

Bu gün dövlətimizin qayğısı ilə təmin olunan Azərbaycan Yazıçılar Birliyinin yaranması və inkişafı prosesi 80 ilə yaxın dövrü əhatə edir. Bu 80 ildə Azərbaycan Yazıçılar Birliyinin bir çox lüzumsuz təsir və meyllərlə mübarizə apara-apara fəaliyyətini davam etdirmiş, tam şəkildə formalaşa bilmiş, bütöv Azərbaycan ədəbi prosesinin bir birlik tərkibində formalaşmasına nail olmuşdur. Onun keçdiyi çətin və şərəfli yola nəzər saldıqda hansı vasitələrlə inkişaf etdiyini, böyük inkişaf yoluna çıxdığını müşahidə etmək o qədər də çətin deyildir.

80 illik fəaliyyətinin yarım əsrindən çoxunu xalqımızın sosializm quruculuğundakı fəaliyyətini, bu tarixi prosesdəki rolunu bədii şəkildə əks etdirən əsərlər yaratmaqla yanaşı, onun daha geniş, vətənimizdən uzaqlarda da tanıtmaq, Azərbaycan ədəbi prosesini təbliğ etmək, təmsil etmək vasitəsinə çevrilməsinə də nail olmuşdur. İndi 80 illik ədəbi fəaliyyəti dövründə yaranan əsərlərimiz dünyanın bir çox ölkələrində məlumdur. Azərbaycan Yazıçılar Birliyi hər biri fərdi yaradıcılığı ilə tanınan, orijinal sənət əsərləri yaradan, bu yolda istəklərinə nail olmaq üçün öz üzərində işləyən mindən çox ədəbi qüvvəni birləşdirir. Mədəniyyətimizin, incəsənətimizin bütün sahələrində olduğu kimi ədəbiyyatımızın da 80 illik inkişafı dövründə haqqında iftixarla danışa biləcək nümayəndələri yetişmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvləri arasında dünya miqyasında, keçmiş SSRİ ölkələrində, dünyanın bir sıra ölkələrində ədəbiyyatımızı təmsil edən, ona şöhrət qazandıran şair və yazıçılarımız

vardır. Onların fərdi bədii üslubları, orijinal yaradıcılıq keyfiyyətləri, sənətkarlıq imkanları, ədəbiyyatımızın həm mövzu, həm məzmun, həm forma cəhətdən zənginləşməsində ədəbiyyata gətirdikləri yeniliklər, özünəməxsus orijinal fərdi cəhətləri ilə ümumi ədəbi prsosesin inkişafında oynadıqları rol bunların hər biri haqqında, onun yaradıcılığı haqqında söz demək imkanı verir.

80 illik fəaliyyəti və inkişafı dövründə Azərbaycan Yazıçılar Birliyinin üzvlərinin yaratdığı sovet ədəbiyyatı janr və sahələrinə görə tədqiq edilmiş, bu ədəbiyyatın nümayəndələrinin həyat və yaradıcılığı öyrənilmiş, ədəbi tənqidin, ədəbiyyatşünaslığın diqqət mərkəzində olmuşdur. Bu tədqiqat işlərində quruluşa uyğun olaraq yaranan əsərlərin sosioloji mahiyyəti, mövzu və məzmun xüsusiyyətləri, ideoloji mahiyyəti məsələlərinə toxunulmuşdur. Bir çox əsərlərin müəlliflərinin yaradıcılığı müstəqillik dövründə ayrı-ayrı aspektlərdən də tədqiq edilir və maraqlı tədqiqat işləri aparılır.

Yetmiş illik Azərbaycan sovet ədəbiyyatının ümumi yaradıcılıq metodu sosializm realizmi olmuşdur. Bu ədəbi metodun məhdud cəhətləri ilə yanaşı özünəməxsus mütərəqqi cəhətləri də var. Onun demokratik mahiyyəti, hər bir sovet yazıçı və şairinin öz müstəqil yaradıcılığı və fərdi üslubu ilə ümumi ədəbi prosesi tamamladığı haqqında tənqidçilər sovet ideologiyasına əsasən fikirlərini bildirmişlər. Azərbaycan Yazıçılar Birliyinin tərkibində -

Naxçıvan Yazıçılar Birliyi;

- Qazax bölməsi;
- Qarabağ bölməsi;
- Quba bölməsi;
- Gəncə bölməsi;
- Lənkəran bölməsi;
- Sumqayıt bölməsi;

- Şirvan bölməsi;
- Şəki bölməsi;
- Mingəçevir bölməsi;
- Aran bölməsi;
- Moskva bölməsi;
- Borçalı bölməsi;
- Göyçə-Zəngəzur bolməsi,
- Türkiyə bölməsi

fəaliyyət göstərir. Azərbaycan Yazıçılar Birliyinin tərkibində olan zona bölmələri, Ədəbiyyat Fondu, Tərcümə Mərkəzi, Ədəbiyyatı Təbliğ və Müəllif Hüquqları Bürosu, Şüvəlan Yaradıcılıq Evi, redaksiyalar və digər idarə və müəssisələr Azərbaycan Yazıçılar Birliyinin rəhbər orqanlarına öz fəaliyyəti barədə hesabat verir.

Azərbaycan Yazıçılar Birliyi katibliyinin bölmələri, digər yaradıcı təşkilatları, yeni ədəbi orqanları və sair yaratmaq, tərkibində olan dərgiləri, qəzetləri və qurumları bağlamaq hüququ var.

XX əsr Azərbaycan xalqının həyatında ən yüksək mərhələ təşkil edən əsrdir. Bu əsrdə baş verən tarixi hadisələrin məngənəsində Azərbaycan xalqı ən çətin, ən şərəfli illərini yaşadı. Dünyanı məhvərindən tərpədən sosializm quruculuğu ideyaları dünyanın bir çox ölkələrini tufan kimi qoynuna aldıqda Azərbaycanın da qismətinə 70 il sosialist ideologiyasına xidmət etmək düşdü. Nə qədər çətinlik içərisində yaşamış olsaq da, yenə qazandıqlarımızı da unuda bilmərik. Heç vaxt unutmamalıyıq ki, Azərbaycan 70 ildə böyük nailiyyətlər əldə etmişdir. Bu əsrdə Azərbaycanda boyük bir ziyalı ordusu yetişmişdir. Onun yüksək ixtisaslı kadrlarının səsi dünyanın beynəlxalq konqreslərindən gəlir.

Əvvəlki əsrlərdə biz tariximizin çox şanlı və eyni zamanda acınacaqlı taleyinin üstündən sükutla ötüb keçmişik. XX əsr isə bütün varlığıyla gözümüzün önündədir. Onun tarixini tarixçilər yazacaq. Özü də bu şərəfli işin öhdəsindən inanırıq ki, ləyaqətlə gələcəklər.

Bəşər tarixində XX əsr Sovet ədəbiyyatı deyilən bir ədəbiyyatın yaradıcılarının öz fikir və duyğularını ifadə etməkdə çəkdikləri çətinliklər göz qabağındadır. Lakin sovet ədəbiyyatı deyilən ədəbiyyatın yaradıcılarının gərgin əməkləri sayəsində yaratdıqları qüdrətli sənət əsərləri bir daha sübut edir ki, bu ədəbiyyatın nümayəndələri psixoloji və cismani gərginliklər içərisində yaşayıb-yaratmışsalar da, ədəbiyyat aləmində öz sözlərini deməyi bacarmışlar. Milli-mənəvi sərvətlərimizin ən nadir nümunələrini yaratmış, yüksək bəşəri ideyaları tərənnüm etmiş və mənsub olduqları xalqlara da azadlıq, müstəqillik ideyalarının nə qədər şirin olduğunu anlada bilmişlər.

Bu kitabda XX əsrdə yazıb-yaratmış şair, yazıçı və ədəbiyyatşünaslarımızın həyatından, sənətindən çox az miqdarda olsa da söhbət açdıq. Bir əsr ərzində yazılan əsərləri tərəzinin bir gözünə qoysaq, onların bu sənət əsərlərini yazarkən başlarına gətirilən müsibətləri də bir gözünə qoysaq tərəzi öz tarazlığını itirməz. Hamımızın böyük hörmət və məhəbbətlə əsərlərini oxuduğumuz, tamaşalarına baxdığımız şairlərimiz, yazıçılarımız, tənqidçilərimizin bu əsrdə onların başına gətirilən əzablara, işgəncələrə mətanətlə dözərək ədəbiyyatımızın inkişafı üçün nələr etdiyi göz qabağındadır. Onlar ləyaqətlə sübut etmişlər ki, Nizami, Füzuli, Vaqif, Ələsgər kimi sənət dahilərindən dərs almışlar. Onlar böyük əqidə sahibləridir. Onlar qürbətin də acısını dadıblar, Onlar haqq sözünə görə Nəsimi tək diri-diri soyulublar, gördükləri dəhşətlər içərisində dəmir kimi döyülüblər, bərkiyiblər.

Dünya ədəbiyyatında ən aparıcı mövzu olan bəşəri duyğuları tərənnüm ediblər, ədəbiyyat, sənət aləmində layiqli yerlərini tutublar, xalq içərisində seviliblər, sevilirlər. Azərbaycan ədəbiyyatı özündən əvvəlki sənətin özülü üzərində qurulub. Bunlar ədəbiyyatın, sənətin təməl daşını şifahi şəkildə qoyan Azərbaycan xalqının övladlarıdır.

Onlar özlərindən əvvəlki irsi qoruyub saxlayan, bu irsə hörmətlə yanaşan, öz sələfləri olan Dədə Qorqud, Nizami, Füzuli, Vaqif irsini dünya xalqlarına çatdıran, bu irsə böyük hörmətlə yanaşan, onların yubileylərinin dünya dövlətlərinin mədəniyyəti səviyyəsində təntənəli şəkildə qeyd edilməsinin təşkilatçılarıdırlar. Bu insanlar öz yaradıcılıqlarında dönə-dönə qələmiylə dünya mədəniyyətinə əvəzsiz töhfələr verən Nizami, Füzuli, Sabir sənətinə bağlı olan, bu yolda canını qurban verən Almaz İldırım, Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq kimi şəhid sənətkarların sənəti, sözü, əqidəsi qarşısında baş əyən oğullardır.

Azərbaycanın qüdrətli qələm sahibləri Azərbaycan ədəbiyyatını XX əsrdə elə bir zirvəyə qaldırmışlar ki, artıq dünya onun bu əsrdə yetişmiş neçə-neçə sənətkarlarını tanıyır, sevir. Bu da bir daha sübut edir ki, bu millətin qələmi güclü, bədii təfəkkürü zəngin, ürəyi bütün azadlıq sevən insanlara açıqdır.

İllər ötəcək, nə vaxtsa XXI əsrə də beləcə ötəri nəzər salınacaq, bu dövrdə yazıb-yaradan şəxsiyyətlərdən, onların yaradıcılıq yolundan söhbət açacaq və fəxrlə deyəcəklər ki, XX əsr sənətinin davamçılarının belə uğurlu yolu olmalıydı. Hər kəs öz fikrini azad surətdə ifadə etmək, könlü istəyəni yazmaq uğrunda ən çox qurbanlarını məhz XX əsrdə verib və onu da unutmayacaqlar ki, məhz elə bu əsrdə də söz azadlığı uğrunda mübarizədə əziliblər, təhqir olunublar,

həm cismən, həm də mənəvi zərbələr alıblar və yenə bu yoldan çəkinməyərək qələbələr əldə ediblər. Azərbaycan Demokratik Respublikasının azadlıq, müstəqillik uğrunda apardığı mübarizəni tərənnüm edən ilk sənət əsərlərini də onlar yazıblar. Buna görə də onlar unutmayacaqlar ki, onlar da milli müstəqillik uğrunda mübarizə aparan sənət sahiblərinin bu yolda çəkdikləri əzab-əziyyətləri qiymətləndirməli, onların irsini gələcək nəsillərə çatdırmaq üçün göz bəbəyi kimi qoruyub saxlamalıdır.

Zaman öz axarındadır, onu geri qaytarmaq, tutub saxlamaq olmur. Ancaq zaman insan həyatında, taleyində elə şırımlar açır ki, tarix bunu özü də bilmədən öz dəftərinə qeyd edir. XX əsrin şair, yazıçı, sənətkar taleyi də tarixin dəftərindədir. Bu da bir yazı, qismət idi. Yazıya isə pozu yoxdur. Bu gün sənətinə hörmət etdiyimiz, ideyalarını özümüzə doğma bildiyimiz şairlərimiz, sənətkarlarımız dönə-dönə yad edilir, dövlət onların əməyini yüksək qiymətləndirir, xalq onları sevir. Gələcəyə ümidlə baxa bilərik. XXI əsrin yazarlarının da bu gün dövlət qayğısına böyük ehtiyacı vardır. Keçid dövrünün çətinliklərini yaşayan orta nəsil sənətkarlarının əsərlərinin işıq üzü görməsi üçün, onların az da olsa yaşayış imkanlarının yaxşılaşdırılması üçün görülə biləcək hər bir xeyirxah iş də tarixdə qalandır, unudulmayandır. Yazıçının, şairin, sənətkarın düşünən beyni, yazan qələmi ancaq xalqına, vətəninə xidmət edir.

Əlində yazan qələmi, ürəyində ilham olan insanın bu torpağa, bu vətənə, bu xalqa ancaq xoş məramlı niyyəti ola bilər. Azad, müstəqil Azərbaycan Respublikasının parlaq gələcəyi naminə yazıb-yaratmaq, qələmiylə, sözüylə bir ordu gücünə malik olduğunu unutmamaq! Öz vəzifəsini şərəflə, ləyaqətlə davam etdirmək, yüksək bəşəri ideyaları tərənnüm

etmək, dünyanın əşrəfi insanın xoşbəxt gələcəyini düşünmək borcumuzdur!

Bu gün yazıçı, sənətkar, ziyalı Azərbaycan xalqının milli təfəkkürünün inkişafı yolunda əvəsiz xidmətləri olan qüvvədir. Zamanın o çətin anlarında da, bu gün də onlar zülmət qaranlığa nur ələyən işıqdırlar, gələcəyə doğru gedən yolda ömürlərini şama döndərən insanlardır.

Azərbaycan ziyalısı, alimi, şairi, yazıçısı heç bir zaman öz əqidəsini, amalını nəyəsə qurban verməməlidir.

Bir halda ki, Allah yanında şair-sənətkar, alim yeri bu qədər müqəddəsdir, hər birimiz öz milli-mənəvi keçmişimizin saflığını qoruyub saxlamaqla, onları yaşatmaqla, əlli milyonluq Azərbaycan xalqının mənafeyini müdafiə edən ideyalarla köklənək və belə də yaşayaq, yaradaq! Qoy göylər dayağımız olsun, qüvvətli dövlətimiz, xoşbəxt xalqımız da ümid çırağımızı şöləndirsin. İlhamı elimizdən-obamızdan, xalqımızdan alaq. Dönə-dönə böyük sənət dühalarının parlaq həyat yoluna nəzər salaq, yaxşı insanları, xalq üçün ürəyi yananları, sənətimizi yaşadaq, əsl vətəndaş missiyasından çıxış edək, gələcəyə alnıaçıq gedək ki, sabah kimsə bizi əqidəsini nəyəsə satan bir naxələf insan kimi ikrahla xatırlamasın. İnanırıq ki, alimi, sənətkarı göndərən uca Xalıqdır. O da heç vaxt öz dərgahında yanında oturtduğu sənətkarın-şairin, alimin əqidəsinə, nuruna saflıq, düzlükdən başqa heç nə verməz.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi, üç cilddə, I cild, (ən qədim dövrdən XVIII əsrin sonuna qədər), Az. SSR EA Nəşriyyatı. Bakı. 1960.

2. Abbas Abdulla. Ağlı-qaralı dünya. Bakı. Gənclik. 1980.

3. Abbas Abdulla. Üzü dan yerinə (şeirlər və poemalar). Bakı. Yazıçı. 1984.

4. Abbas Hacıyev. Bədii əsərin strukturu. Bakı. ADPİ. 1992.

5. Abbas Hacıyev. Mirzə İbrahimov. Bakı. Yazıçı. 1982.

6. Abbas Zamanov. İrəli (cəbhə qeydləri). Bakı. Azərnəşr.

7. Abdulla Qurbani. Şəhidlər dastanı. Bakı. Gənclik. 1992.

8. Abdulla Qurbani. Ana, Murovdan gəlirəm. Bakı. Azərbaycan. 1994.

9. Adil Babayev. Ürək nəğməsi (poema). Baki. Uşaqgəncnəşr. 1949.

10. Adil Babayev. Təzədən doğulur şair ölən gün. Bakı. Gənclik. 1981.

11. Adil Cəmil. Gündoğandan günbatana. Bakı. Yazıçı. 1982.

12. Adil Cəmil. El üçün ağlayan gözüm (publisistika). Bakı. Azərnəşr. 1997.

13. Afaq Məsud. Keçid (povest və hekayələr). Bakı. Yazıçı. 1982.

14. Afaq Məsud. Azadlıq (roman, esse, hekayə). Bakı. Azərbaycan Tərcümə Mərkəzi. 1997.

15. Ağa Laçınlı. Alın yazımız. Bakı. Yazıçı. 1992.

16. Ağamusa Axundov. Dil və mədəniyyət. Bakı. Yazıçı. 1992.

17. Aida İmanquliyeva. Cübran Xəlil Cübran (həyat və yaradıcılığı). Bakı. Elm.1975.

18. Aida İmanquliyeva. Yeni ərəb ədəbiyyatının korifeyləri. Bak. Elm. 2003.

19. Aqil Abbas. Ən xoşbəxt adam (povestlər və hekayələr). Bakı. Yazıçı. 1987.

20. Aqil Abbas. Batmanqılınc (roman). Bakı. Gənclik. 1994.

21. Aqşin Babayev. Başımıza gələnlər. Bakı. Azərnəşr. 1995.

22. Ayaz Vəfalı. Ürək və od. Bakı. Gənclik. 1964.

23. Aydın Abdullayev. Dağlar o dağlar deyil. Bakı. Gənclik. 1984.

24. Azər Abdulla. Qəmərlidən keçən qatar (povest, hekayələr, sorğu, esselər). Bakı. Gənclik. 2000.

25. Bağır Ulduz. Səməd Vurğun-70. Bakı. Işıq. 1976.

26. Bahar Bərdəli. Qarabağın maralı (povest və hekayələr). Bakı. Gənclik. 1995.

27. Bahar Bərdəli. Bənövşələr açanda (şeirlər). Bakı. Gənclık. 1996.

28. Balaş Azəroğlu. Seçilmiş əsərləri (iki cilddə). Bakı. Yazıçı. 1982. 1983.

29. Barat Vüsal. Ürəyimdən bir çay axır. Bakı. Yazıçı. 1991.

30. Bayram Bayramov. Yarpaqlar (roman). Bakı. Uşaqgəncnəşr. 1961.

31. Bayram Bayramov. Seçilmiş əsərləri (iki cilddə). Bakı. Azərnəşr. 1968.

32. A.Düma. Üç muşketyor. (tərcümə edən: Beydulla Musayev). Bakı. Uçaqgəncnəşr. 1949.

33. Viktor Hüqo. Qavroş (tərcümə edən: Beydulla Musayev). Bakı. Gənclik. 1976.

34. Bəhlul Orucoğlu. Öndə Qarabağdı (şeirlər). Bakı. Borçalı. 2004.

35. Bəxtiyar Vahabzadə. Əsərləri (5 cilddə). I c. Bakı. Azərbaycan. 2001.

36. Bəxtiyar Vahabzadə. Əsərləri. II c. Bakı. Azərbaycan. 2002.

37. Bəxtiyar Vahabzadə. Əsərləri. III c. Bakı. Azərbaycan. 2002.

38. Bəxtiyar Vahabzadə. Əsərləri. IV c. Bakı. Azərbaycan. 2001. 2002.

39. Bəxtiyar Vahabzadə. Əsərləri. V c. Bakı. Azərbaycan. 2001. 2002.

40. Bəkir Çobanzadə. Türk dili və ədəbiyyatının tədrisi üsulu. I, II hissə. Bakı. Azərnəşr. 1926. 1927.

41. Bəkir Nəbiyev. Tənqid və ədəbi proses. Bakı. Azərnəşr. 1976.

42. Bəkir Nəbiyev. Təzə izlər sorağında. Bakı. Yazıçı. 1979.

43. Bəkir Nəbiyev. Əhməd Cavad. Bakı. Gəncə nəşriyyatı. 1993.

44. Bəkir Nəbiyev. Almaz İldırım. Bakı. Sabah. 1994.

45. Bəkir Nəbiyev. Müasirlərimiz bədii ədəbiyyatda. Bakı. Bilik. 1983.

46. Cabir Novruz. Özünü qoru, xalqım. Bakı. Şirvannəşr. 1996.

47. Cabir Novruz. Seçilmiş əsərləri (2 cilddə). I, II c. Bakı. Yazıçı. 1982; 1983

48. Cəfər Cabbarlı. Əsərləri (üç cilddə). I c. Bakı. Azərnəşr. 1968.

49. Cəfər Cabbarlı. Əsərləri (üç cilddə). II c. Bakı. Azərnəşr. 1969.

50. Cəfər Cabbarlı. Əsərləri (üç cilddə). III c. Bakı. Azərnəşr. 1969.

51. Cəfər Xəndan. Seçilmiş əsərləri. 3 cilddə. Bakı. Çaşıoğlu nəşriyatı. 2010. I cild.

52. Cəlal Abdullayev.Səməd Vurğunun poetikası. Bakı. Gənclik. 1976.

53. Məmməd Cəfər Cəfərov. Ədəbi düşüncələr. Azərnəşr. Bakı. 1958.

54. M. Arif. Seçilmiş əsərləri. Üç cilddə. Üçüncü cild. «Elm» nəşriyyatı. Bakı. 1970.

55. C. Məmmədquluzadə. Əsərləri (altı cilddə). I c. Bakı. Azərnəşr. 1983.

56. C. Məmmədquluzadə. Əsərləri (altı cilddə). II c. Bakı. Azərnəşr. 1984.

57. C. Məmmədquluzadə. Əsərləri (altı cilddə). III c. Bakı. Azərnəşr. 1984.

58.C. Məmmədquluzadə. Əsərləri (altı cilddə). IV c. Bakı. Azərnəşr. 1985.

59.C. Məmmədquluzadə. Əsərləri (altı cilddə). V c. Bakı. Azərnəşr. 1985.

60.C. Məmmədquluzadə. Əsərləri (altı cilddə). VI c. Bakı. Azərnəşr. 1985.

61. Cəmil Əlibəyov. Mənim analı dünyam (romanlar). Bakı. Yazıçı. 1988.

62. Çingiz Abdullayev. Əclafın qanunu. Bakı. Zaman. 1997.

63. Çingiz Abdullayev. Mavi mələklər. Bakı. Yazıçı. 1993.

64. Çingiz Əlioğlu. Ömür ağacı. Bakı. Yazıçı. 1980.

65. Çingiz Əlioğlu. Tanrını tanı (şeirlər və poemalar). Bakı. Yazıçı. 1991.

66. Çingiz Hüseynov. Novruzgülü. Bakı. Gənclik. 1969.

67. H. Araslı. Nizami Gəncəvi. «Sirlər xəzinəsi», filoloji tərcümə. Giriş. «Elm» nəşriyyatı. Bakı. 1981.

68. N.Gəncəvi. Xosrov və Şirin. Filoloji tərcümə. «Elm» nəşriyyatı. Bakı. 1981.

69. Nizami Gəncəvi. «Yeddi gözəl». Filoloji tərcümə. «Elm» nəşriyyatı. Bakı. 1983.

70. Nüşabə Araslı. N.Gəncəvi və türk ədəbiyyatı. «Elm» nəşriyyatı. Bakı. 1980.

71. F.Köçərli. Azərbaycan ədəbiyyatı tarixi materialları. I cild. I hissə. 1978.

72. F. Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı. «Maarif» nəşriyyatı. 1966.

73. Məmməd Arif, Seçilmiş əsərləri I cild. Az. SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı 1967.

74. Cəfər Xəndan. Seçilmiş əsərləri. Üç cilddə. 2 cild. Ədəbiyyatımızın şah budağı. Bakı. Çaşıoğlu. 2010.

75. Azərbaycan Sovet Ensiklopediyası. 1 cild. Azərbaycan Sovet Ensiklopediyası. Bakı. 1976.

76. Mirzə Fətəli Axundov. Əsərləri. Bakı. Azərnəşr.1938. III cild.

77.Gülxani Pənah. Mir Cəlalın elmi-nəzəri görüşləri. «Böyük nəşrlər evi». Bakı. 2009.

78. Abdulla Şaiq. Əsərləri. Beş cilddə. Beşinci cild. Yazıçı. Bakı. 1978.

79. Müasir Azərbaycan ədəbiyyatı (dərslik). II cilddə, I cild. Bakı Universiteti nəşriyyatı. 2007.

80. Cəfər Xəndan Hacıyev. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Azərbaycan Universiteti nəşriyyatı. Bakı. 1955.

81. Kamal Talıbzadə. Ədəbi irs və varislər. Azərbaycan dövlət nəşriyyatı. Bakı. 1974.

82. M.C.Cəfərov. Ədəbi düşüncələr. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. 1958.

83. M.Cəlal. P. Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Çaşıoğlu. nəşriyyatı. Bakı. 2005.

84. M.Arif. Seçilmiş əsərləri. Üç cilddə. Üçüncü cild. «Elm» nəşriyyatı. Bakı. 1970.

85. Elçin. Klassiklər və müasirlər. Bakı. Yazıçı. 1987.

86. Elçin. Seçilmış əsərləri (iki cilddə). I c. Bakı. Azərnəşr. 1987.

87. Elçin. Seçilmış əsərləri (iki cilddə). II c. Bakı. Azərnəşr. 1987.

88. Elçin. Ölüm hokum (roman). Bakı. Yazıçı. 1989.

89. Elçin. Ömrün son səhəri (hekayələr və povestlər). Bakı. Gənclik. 1993.

90. Elçin. Məmmədəmin Rəsulzadə (oçerk). Bakı. Şərq - Qərb. 1994.

91. Elçin. Dəlixanadan dəli qaçıb. Bakı. Gənclik. 1996.

92. Elçin. Humayın yuxusu (hekayələr). Bakı. Gənclik. 1989.

93. Jan Batist Molyer. Komediyalar. (tərcümə edən: Elçin). Bakı. Gənclik. 1995.

94. Kamal Talıbzadə. Seçilmiş əsərləri.II cilddə. I cild. Az. döv. Nəşriyyatı. Bakı.1991.

95. Məmməd Cəfər Cəfərov. Sənət yollarında. Gənclik. Bakı. 1975.

96. Kamal Talıbzadə. Seçilmiş əsərləri. İki cilddə. II cild, Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. 1994.

97. Mir Cəlal. C.Məmmədquluzadə yaradıcılığının məfkurəvi mənbələri haqqında. «Ədəbiyyat» qəzeti, 27 dekabr, 1947-ci il. №36.

98. Y.Qarayev. Tənqid, problemlər, portretlər. Az. Döv. Nəşriyyatı. Bakı. 1976.

99. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. «Elm» nəşriyyatı. Bakı. 1979.

100. Ə.Haqverdiyev. Seçilmiş əsərləri. 2-ci cild. Bakı. Azərnəşr.1971.

101. Şamil Qurbanov. M.Ə.Rəsulzadə. Bakı. Nurlan. 2001.

102. Mir Cəlal. F.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. «Maarif» nəşriyyatı. Bakı.1982.

103. M.F.Axundov. Əsərləri. II cild, Azərnəşr. Bakı. 1938.

104. Xeyrulla Məmmədov. «Əkinçi»dən «Molla Nəsrəddin»ə qədər. Bakı. Yazıçı. 1987.

105. M.Cəfər. Həmişə bizimlə. Bakı. Yazıçı. 1980.

106. Müasir Azərbaycan ədəbiyyatı (ali məktəblər üçün dərslik). Bakı. Bakı universiteti. 2007.

107. Mir Cəlal, P. Xəlilov «Ədəbiyyatşünaslığın əsasları» «Maarif» nəşriyyatı, Bakı, 1972.

108. M.Hüseyn. əsərləri. 10 cilddə. 9-cu cild. (ədəbi-tənqidi məqalələri). Bakı. Yazıçı. 1979.

109. C.Xəndan. Seçilmiş əsərləri. Az. Dövlət Nəşriyyatı. Bakı. 1972.

110. C. Xəndan. Sabir (həyat və yaradıcılığı). Azərb SSR EA Nəşriyyatı. Bakı.1940.

111. Abbas Zamanov. Sabir və müasirləri. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. 1973.

112. Məmmədkazım Ələkbərli. Azərbaycan ədəbiyyatı. Bakı. Azərnəşr. 1935.

113. F. Hüseynov. Əli Nəzmi. Bakı.Gənclik. 1970.

114. C.Məmmədquluzadə. Əsərləri. 2-ci cild. Azərb. SSR EA nəşriyyatı. Bakı.1967.

115. Əkbər Ağayev. Sənətkarlıq məsələləri (ədəbi–tənqidi məqalələr). Bakı. Azərnəşr. 1962.

116. Xasay Cabbarov. Bədii ədəbiyyatda obrazlılıq. Bakı. Yazıçı. 1986.

117. C.Xəndan. Seçilmiş əsərləri. Üç cilddə. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. III cild. Çaşıoğlu. Nəşriyyatı. 2010.

118. Y.Qarayev. Realizm: sənət, həqiqət. Bakı. 1980.

119. Feyzulla Qasımzadə. X1X əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı. Maarif. 1974.

120. «Azərbaycan tarixi. 2-ci cild. Azərb. SSR Elmlər Akademiyası nəşriyyatı, Bakı. 1964.

121. Əlfi Qasımov. Qızılburunda tək məzar (sənədli povest). Bakı. Gənclik. 1970.

122. Əlfi Qasımov. Qağayı fəryadı (povestlər və hekayələr). Bakı. Yazıçı. 1979.

123. Ələviyyə Babayeva. Əlvida (roman). Bədii Tərcümə mərkəzi. Bakı. 1994.

124. F. Köçərli. Azərbaycan ədəbiyyatı. İki cilddə. Birinci cild. «Elm» nəşriyyatı. Bakı. 1978.

125. Mir Cəlal «Azərbaycanda ədəbi məktəblər». «Ziya-Nurlan», Bakı, 2004.

126. Əli Səmədli. Bənövşə-bəndə düşə. Bakı. Yazıçı. 1989.

127. Əli Səmədli. Generalın uşaqlığı. Bakı. Gənclik. 1991.

128. Yaqub İsmayılov. M.Cəlalın yaradıcılığı. «Elm» nəşriyyatı. Bakı. 1975.

129.Əli Tudə. Seçilmiş əsərləri. Bakı. Azərnəşr. 1968.

130. Əli Tudə. Mühacir qeyrəti. Bakı. Azərbaycan. 1998.

131. Əli Vəkil.Yeddi dağ (şeirlər və poemalar). Bakı. Yazıçı. 1984.

132. Əli Vəkil. Ədəbi dünya (poema). Bakı. Nurlan.

133. Əli Saləddin. Bir kərə yüksələn bayraq. Bakı. Yazıçı. 1993.

134. C.Xəndan. M.Müşfiq. Azərbaycan universiteti nəşriyyatı. Bakı. 1956.

135. M.Müşfiq. «Günün səsləri». Azərnəşr. Bakı.1932.

136. M.Müşfiq. «Şeirlər». Azərnəşr. 1934.

137. M. Müşfiq. «Küləklər», Azərnəşr. 1930.

138. Əli Vəliyev. Əsərləri (altı cilddə). I c. Bakı. Azərnəşr. 1968.

139. Əli Vəliyev. Əsərləri (altı cilddə). II c. Bakı. Azərnəşr. 1968.

140. Əli Vəliyev. Əsərləri (altı cilddə). III c. Bakı. Azərnəşr. 1969.

141. Əli Vəliyev.Əsərləri (altı cilddə). IV c. Bakı. Azərnəşr. 1970.

142. Əli Vəliyev.Əsərləri (altı cilddə). V c. Bakı. Azərnəşr. 11970.

143. Əli Vəliyev.Əsərləri (altı cilddə). VI c. Bakı. Azərnəşr. 1971.

144. Əliağa Kürçaylı. Qəlbin sıxılsa əgər…(şeirlər və poemalar). Bakı. Yazıçı. 1987.

145. Əliağa Kürçaylı. Seçilmiş əsərləri. Bakı. Azərnəşr. 1989.

146. Məsud Əlioğlu. Tənqidçinin düşüncələri. Azərbaycan dövlət nəşriyyatı. Bakı. 1968. 174 səh.

147. Əliağa Vahid. Seçilmiş əsərləri (iki cilddə), I c. Bakı. Azərnəşr. 1975.

148. Əliağa Vahid. Seçilmiş əsərləri (iki cilddə), II c. Bakı. Azərnəşr. 1975.

149. 147. Əliağa Vahid. Qəzəllər. Bakı. Azərnəşr. 1964.

150. K. Talıbzadə. «XX əsr Azərbaycan tənqidi». Birinci hissə. «Elm». Bakı. 1966. 540 səh.

151. Əlibala Hacızadə. Əsərləri (10 cilddə). I c. Bakı. Nafta-Press. 2004.

152. Əlibala Hacızadə. İtkin gəlin (roman trilogiya) I kitab. Bakı. Azərnəşr.1992.

153. Əlibala Hacızadə. İtkin gəlin (roman trilogiya) II kitab. Bakı. Azərnəşr.1992.

154. Əlibala Hacızadə. İtkin gəlin (roman trilogiya) III kitab. Bakı. Azərnəşr.1992.

155. Azərbaycan ədəbiyyatı məsələləri. Bakı. Azərb. EA nəşri. 1964.

156. Azərbaycan sovet ədəbiyyatı. Bakı. Maarif. 1988.

157. Cəfər Xəndan. Bəyaz gecələr. Azərnəşr. 1936.

158. Cəfər Xəndan. İki ayrılıq. Azərnəşr. 1944.

159. Cəfər Xəndan. Cəbhə şeirləri. Bakı. Azərnəşr. 1942.

160. Cəfər Xəndan. Qafqaz. Bakı. Uşaqgəncnəşr. 1942.

161. Cəfər Xəndan. Mübarizə yollarında. Bakı. Uşaq-gəncnəşr. 1946.

162. Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi. Bakı. Azərnəşr. 1968.

163. Cəfər Xəndan. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı. ADU nəşriyyatı. 1951.

164. Cəfər Xəndan. Sovet ədəbiyyatı (1 hissə). Bakı. Azərnəşr. 1952.

165. Əlisa Nicat. Qızılbaşlar (roman). Bakı. Yazıçı. 1983.

166. Əlisa Nicat. Gəncəli müdrik (roman). Bakı. Yazıçı. 1990

167.Əlisəmid Kür. Rəngli kölgələr. Bakı. Yazıçı. 1989.

168.Əmir Mustafayev. Səndən ötrü (roman). Bakı. Gənclik. 1985.

169. Ənvər Əhməd. Kəfənim qandan biçilər. Bakı. Qorqud nəşriyyatı.1995.

170. Cəfər Xəndan. Sovet ədəbiyyatı (II hissə). Bakı. Azərnəşr. 1952.

171. Cəfər Xəndan. C.Cabbarlının həyat və yaradıcılığı. Bakı. Birləşmiş Nəşriyyat. 1954.

172. Cəfər Xəndan. XX əsr Azərbaycan ədəbiyyatı tarixi oçerkləri. Bakı. ADU nəşriyyatı.1955..

173. Ənvər Məmmədxanlı. Seçilmiş əsərləri (iki cilddə), I c. Bakı. Yazıçı. 1985.

174. Ənvər Məmmədxanlı. Seçilmiş əsərləri (iki cilddə), I c. Bakı. Yazıçı. 1985.

175. Ənvər Rza. Könlümə bahar düşüb. Bakı. Gənclik. 1985.

176. Ənvər Yusifoğlu. Hekayələr. Bakı. Azərnəşr. 1984.

177. Əvəz Sadıq. Mingəçevir (roman). Bakı. Azərnəşr. 1951.

178. Əziz Mirəhmədov. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı. Maarif. 1983.

179. Əzizə Türkan. Mavi gözlərin işığı. Bakı. Gənclik. 1984.

180. Faiq Balabəyli. Sənə yazılan şeirlər. Bakı. Vektor. 2004.

181. Famil Mehdi. Əyilmə, dünyam. Bakı. Yazıçı. 1985.

182. Fərman Kərimzadə. Qarlı aşırım. Bakı. Gənclik. 1971.

183. Fərman Kərimzadə. Xudafərin körpüsü. Bakı. Yazıçı. 1982.

184. Fikrət Qoca. Mavi dünyanın adamları. Bakı. Gənclik. 1978.

185. Fikrət Qoca. Taleyin ağır taleyi (roman). Bakı. Azərnəşr. 1988.

186. Fikrət Qoca. Seçilmiş əsərlər. Bakı. Yurd. 2000.

187. Fikrət Qoca. Ömürdən damlalar. Bakı. Yurd. 2000.

188. Fikrət Sadıq. Taleyin acığına. Bakı. "Qapp-Poliqraf" nəşriyyatı. 2003.

189. Firuz Mustafa. Teatr meydanı (roman). Bakı. Çaşıoğlu. 2001.

190. Gülhüseyn Hüseynoğlu. Mücrü (mənsur şeirlər). bakı. Gənclik. 1972.

191. Gülhüseyn Hüseynoğlu. Seçilmiş əsərləri (iki cilddə), I c. Bakı. Azərnəşr. 1993.

192. Gülhüseyn Hüseynoğlu. Seçilmiş əsərləri (iki cilddə), II c. Bakı. Azərnəşr. 1993.

193. Gülhüseyn Hüseynoğlu. Müşfiq (həyat və yaradıcılığı). Bakı. Azərnəşr. 1968.

194. Əfəndiyev İ. Sən ey böyük Yaradan. Bakı, Şərq-Qərb, 1997.

195. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, I cild, Bakı, Yazıçı, 1984.

196. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, II cild, Bakı, Yazıçı, 1984.

197. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, III cild, Bakı, Yazıçı, 1984.

198. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, IV cild, Bakı, Yazıçı, 1984, 380s.

199. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, V cild, Bakı, Yazıçı, 1985, 343s.

200. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, VI cild, Bakı, Yazıçı, 1985, 300s.

201. Əfəndiyev İ. Üç roman. Bakı, Gənjlik, 1987, 534s.

202. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1992.

203. Əfəndiyev İ. Bizim qəribə taleyimiz. Bakı, Yazıçı, 1989.

204. M.İbrahimov. Xəlqilik və realizm cəbhəsindən (məqalələr). Bakı. Azərnəşr. 1961.

205. M.İbrahimov. Böyük şairimiz Sabir. Bakı. Azərb. SSR EA Nəşriyyatı. Bakı. 1962. 38 səh.

206. M.Cəfər. klassiklərimiz haqqında. Bakı. Uşaqgəncnəşr. 1948.

207. M.Cəfər. M.F. Axundovun ədəbi-tənqidi görüşləri. Bakı. Azərnəşr. 1950.

208. M.S. Ordubadi. Gizli Bakı. Bakı. Azərnəşr. 1972..

209. M.S. Ordubadi. Əsərləri (səkkiz cildlik). I c. Bakı. Azərnəşr. 1964.

210. M.S. Ordubadi. Əsərləri (səkkiz cildlik). II c. Bakı. Azərnəşr. 1964.

211. M.S. Ordubadi. Əsərləri (səkkiz cildlik). III c. Bakı. Azərnəşr. 1964.

212. M.S. Ordubadi. Əsərləri (səkkiz cildlik).IV c. Bakı. Azərnəşr. 1965.

213. M.S. Ordubadi. Əsərləri (səkkiz cildlik). V c. Bakı. Azərnəşr. 1965.

214. M.S. Ordubadi. Əsərləri (səkkiz cildlik).VIc. Bakı. Azərnəşr. 1965.

215. M.S. Ordubadi. Əsərləri (səkkiz cildlik). VII c. bakı. Azərnəşr. 1966.

216. M.S. Ordubadi. Əsərləri (səkkiz cildlik). VIII c. bakı. Azərnəşr. 1967.

217. M.S. Ordubadi. Qılınc və qələm. Bakı. Azərnəşr. 1883.

218. Kamal Talıbzadə.Qorki və Azərbaycan. Bakı. Azərb. SSR EA nəşriyyatı. Bakı. 1959.

219. Kamal Talıbzadə. Abbas Səhhət. Bakı. Azərb. SSR EA nəşriyyatı. Bakı. 1955.

220. Kamal Talıbzadə. XX əsr Azərbaycan ədəbi tənqidi. Bakı. Azərb. SSR EA nəşriyyatı. Bakı. 1966.

221. Kamal Talıbzadə. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı. Maarif. 1984.

222. Kamal Talıbzadə. Sənətkarın şəxsiyyəti. Bakı. Yazıçı. 1978.

223.Kamran Məmmədov. Ə.Haqverdiyev. Bakı. Uşaqgəncnəşr. 1955.

224. Kamran Məmmədov. XIX əsr Azəbaycan şeirində satira. Bakı. Elm. 1975.

225. Kamran Məmmədov. XX Azərbaycan gülüşü. Bakı. Yazıçı. 1989.

226. Qara Namazov. Azərbaycan sovet ədəbiyyatı. Bakı. Maarif. 1987.

227. Qəzənfər Kazımov. Komik bədii vasitələr. Bakı. Yazıçı. 1983.

228. Qəzənfər Paşayev. İraq-Türkman folkloru. Bakı. Yazıçı. 1982.

229. Qulam Məmmədli. Molla Nəsrəddin (salnamə). Bakı. Azərnəşr. 1966.

230. Qulam Məmmədli. N.Nərimanov (salnamə). Bakı. Yazıçı. 1987.

231. Qulu Xəlilov. Sənət və sənətkar. Bakı. Azərnəşr. 1966.

232. Mehdi Hüseyn. Ədəbiyyat və sənət məsələləri. Bakı. Azərnəşr. 1958.

233. Mehdi Hüseyn. Əsərləri (on cilddə).I c. Bakı. Azərnəşr. 1966.

234. Mehdi Hüseyn. Əsərləri (on cilddə). II c. Bakı. Azərnəşr. 1966.

235. Mehdi Hüseyn. Əsərləri (on cilddə). III c.Bakı. Azərnəşr. 1968.

236. Mehdi Hüseyn. Əsərləri (on cilddə). IV c.Bakı. Azərnəşr. 1969.

237. Mehdi Hüseyn. Əsərləri (on cilddə). Vc. Bakı. Azərnəşr. 1971.

238. Mehdi Hüseyn. Əsərləri (on cilddə). VI c.Bakı. Azərnəşr. 1974.

239. Mehdi Hüseyn. Əsərləri (on cilddə). VII c.Bakı. Azərnəşr. 1976.

240. Mehdi Hüseyn. Əsərləri (on cilddə). VIII c. Bakı. Azərnəşr. 1978.

241. Mehdi Hüseyn. Əsərləri (on cilddə). IX c. Bakı. Azərnəşr. 1979.

242. Mehdi Hüseyn. Əsərləri (on cilddə). X c. Bakı. Azərnəşr. 1979.

243. Məsud Əlioğlu. C.Məmmədquluzadə dramaturgiyası. Bakı. Azərnəşr. 1955.

244. Məsud Əlioğlu. S.S. Axundovun həyat və yaradıcılığı. Bakı. Uşaqgəncnəşr. 1956.

245. Məsud Əlioğlu. Amal və sənət. Bakı. Yazıçı. 1980.

246. Mir Cəlal. Füzulinin poetik xüsusiyyətləri. Bakı. Azərb. SSR EA nəşriyyatı. 1940.

247. Mir Cəlal. C.Məmmədquluzadənin realizmi haqqında. Bakı. ADU Nəşriyyatı. 1966.

248. Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı (dərslik). Bakı. Maarif. 1969.

249. Mir Cəlal. Klassiklər və müasirlər. Bakı azərnəşr. 1973. Bakı.

250. Əli Nəzmi. Seçilmiş şeirlər, felyetonlar, məqalələr. Bakı. Yazıçı. 1979.

251. Əli Sultanlı. M.F. Axundovun dramturgiyası. Bakı. Azərb. EA nəşriyyatı. 1938.

252. Əli Sultanlı. Nizami və Qərbi Avropa ədəbiyyatı. Bakı. Azərnəşr. 1947.

253. Əli Sultanlı. Məqalələr. Bakı. Azərnəşr. 1971.

254. Feyzulla Qasımzadə. Tənqidi realizm. Bakı. ADU nəşriyyatı. 1952.

255. Nəriman Nərimanov. Seçilmiş əsərləri. Bakı. Elm. 1973.

256. Nəriman Nərimanov. Seçilmiş əsərləri. Bakı. Azərnəşr. 1985. 388 səh.

257. Abdulla Şaiq. Seçilmiş əsərləri (üç cilddə). I c. bakı. Azərnəşr. 1955. 444 səh.

258. Abdulla Şaiq. Seçilmiş əsərləri (üç cilddə). II c. Bakı. Azərnəşr. 1957.

259. Abdulla Şaiq. Seçilmiş əsərləri (üç cilddə). III c. Bakı. Azərnəşr. 1959.

260. Abdulla Şaiq. Xatirələrim. Bakı. Gənclik. 1973

261. Vaqif Yusifli. Tənqid və bədii söz. Bakı. Mütərcim. 2002.

262. Z.Göyüşov. Azərbaycan maarifçilərinin etik görüşləri. Azərbaycan SSR EA Nəşriyyatı. Bakı. 1960,

262. F.Köçərli. M.F.Axundov. Tiflis. 1911;

263. F.Köçərli Azərbaycan ədəbiyyatı tarixi materialları. c.1. h.2. Bakı. 1925,

264. Abdulla Şaiq. «Mirzə Fətəli haqqında mülahizələrim» «Maarif və mədəniyyət», 1924. №4,

265. Ə. Dəmirçizadə. «M.F.Axundov dili haqqında və M.F.Axundovun dili» Bakı. 1940;

266. M.C.Cəfərov. M.F.Axundovun ədəbi-tənqidi görüşləri». Bakı. 1950,

267. B.Abdullayev. Azərbaycan şifahi ədəbiyyatının qədim janrları. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VI kitab, Bakı, Elm, 1983,

268. B.Abdullayev. Xalq yaradıcılığında alqış və qarğış. «Azərbaycan» jurnalı, 1981. № 10.

269. B.Abdullayev. Yusif Vəzir Cəmənzəminli və folklor. Filologiya elm. nami. diss., Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu, 1974.

270. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I cild, Bakı, Azərbaycan EA nəşri, 1960..

271. Azərbaycan tarixi. I cild, Bakı, Azərnəşr, 1994,

272. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, I cild, Bakı, Elm, 1984.

273. Azərbaycan etnoqrafiyası. 3 cilddə, I cild, Bakı, Elm, 1988.

274. Azərbaycan məhəbbət dastanları. Bakı, Elm, 1979, 501s.

275. Azərbaycan folklorşünaslığı məsələləri. Bakı, Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu, 1983, 73s.

277. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. I kitab, Bakı, Azərbaycan EA nəşri, 1961.

278. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. II kitab, Bakı, Azərbaycan EA nəşri, 1966.

279. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. III kitab, Bakı, Azərbaycan EA nəşri, 1968,

280. Anar. Əsərləri. I cild. Bakı. Nurlan. 2003.

281. Anar. Əsərləri. II cild. Bakı. Nurlan. 2003.

282. Anar. Əsərləri. III cild. Bakı. Nurlan. 2004.

283. Anar. Əsərləri. IV cild. Bakı. Nurlan. 2004.

284. Anar. Əsərləri.V cild. Bakı. Nurlan. 2005.

285. Anar. Əsərləri. VI cild. Bakı. Nurlan. 2006.

286. Bahaəddin Ö. Böyük Hun imperiyası. I kitab, Bakı, Gənclik, 1992.

287. Bahaəddin Ö. Türk mifolojisi. I cild, Ankara, 1969.

288. Nizami Cəfərov N. Eposdan kitaba. Bakı, Maarif, 1999.

290. Nizami Cəfərov. Füzulidən Vaqifə qədər. Bakı. Yazıçı. 1991.

291. Nizami Cəfərov. Qədim türk ədəbiyyatı. Bakı. Atatürk mərkəzi. 2004.

292. Nizami Cəfərov. Klassiklərdən müasirlərə. Bakı. Çaşıoğlu. 2004.

293. Heyət Cavad. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Azərnəşr, 1990,

295. P.Xəlilov. «Kitabi-Dədə Qorqud-İntibah abidəsi». Bakı, Gənclik, 1993,

296. Mehdi Hüseyn. Ədəbiyyat və sənət məsələləri. Bakı, Azərnəşr, 1958.

297. Q.Namazov. Azərbaycan aşıq sənəti. Bakı, Yazıçı, 1984.

298. A.Nəbiyev. Azərbaycan xalq nağılları. Bakı, Gənclik, 1988.

299. A.Nəbiyev Azərbaycan xalq ədəbiyyatı. I hissə. Bakı, Turan, 2002.

300. M.Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, Yazıçı, 1989.

301. M.Seyidov.Azərbaycan mifik təfəkküründün qaynaqları. Bakı, Yazıçı, 1983.

302. M.Seyidov. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış. Bakı, Gənclik, 1994.

303. N. Seyidov. Bəhlul Danəndə lətifələri. Bakı, Yazıçı, 1979.

304. M.Təhmasib. Azərbaycan xalq dastanları. (Orta əsrlər). Bakı, Elm, 1972.

305. Vəli Həbiboğlu. Türk Dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri. I kitab, Bakı, Örnək, 1995, 324s.

306. Yunis İmrə, Aşıq Veysəl. İki zirvə. Bakı, Yazıçı, 1982, 140s.

307. İsa Həbibbəyli. Əsrin dörddə biri. Bakı. APİ-nin nəşri. 1992.

308. İsa Hüseynov. Məşhər (roman). Bakı. Gənclik. 1979.

309. İsa Hüseynov. İdeal (roman). Bakı. Yazıçı. 1985.

MÜNDƏRİCAT

Ön söz (Q. Namazov).....3

Giriş.....7

Xalq Cümhuriyyəti dövründə ədəbiyyat 43

1920-1940 -cı illərdə Azərbaycan ədəbiyyatı.....58

Söz müharibə meydanında qüdrətli silahdır» (1941-1945)100

1946-1960-ci illərdə Azərbaycan ədəbiyyatı.....119

XX əsrin 60-80-cı illər ədəbiyyatı, senzura 210

1920-ci illərdən sonra uşaq ədəbiyyatı.....288

Müstəqillik dövründə ədəbiyyat 350

Aşıq ədəbiyyatı Azərbaycan ədəbiyyatının tərkib hissəsidir.438

Mətbu orqanlar və ədəbi proses 459

Azərbaycan ədəbiyyatı xarici ölkələrdə 480

Azərbaycan Yazıçılar Birliyinin fəaliyyəti.....501

Heydər Əliyev və Azərbaycan ədəbiyyatı.....569

Hətiçə.....592

Ədəbiyyat.....599

Mündəricat.....620

GÜLXANİ (PƏNAH) VAQİF QIZI ŞÜKÜROVA

Şükürova Gülxani (Pənah) Vaqif qızı şair, ədəbiyyatşünas, publisist, 1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1958-ci ilin iyul ayının 1-də Oğuz rayonunun Kərimli kəndində qulluqçu ailəsində anadan olmuşdur. Oğuz rayonunun Kərimli kənd orta məktəbini bitirdikdən sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, fərqlənmə diplomu ilə oranı bitirmişdir (1979-1985).

1974-cü ildən mətbuatda şeir, hekayə, poema və elmi-publisist yazılarla çıxış edir. Hələ tələbəlik illərindən şeirləri müxtəlif illərdə çap olunmuş almanaxlara daxil edilmişdir.

Otuzdan çox bədii, elmi, tənqidi, publisist kitabların müəllifidir. «Göydən ulduzları gözlə dərərdik», «Yurd yanğısı», «Oğuz şəhidləri, itkinləri», «Bura Vətəndir», «Qarabağ dərdi», «Dədə Şəmşir harayı», «Fələk belə qismət yazmaz, Xocalı», «Killer», «Ümidinə qəm çilənənlər», «Tanrının unutduğu Xocalılar», «Bu Vətən dünyanın şah əsəridir», «Kəndim mənim, Ana yurdum mənim» və s. kitablarında toplanan milli vətənpərvərlik ruhunda yazdığı şeirlər, poemalar, hekayələr və dram əsərləri onun istedadlı qələm sahibi olduğunu göstərir.

Gülxani Pənah Bakı Dövlət Universitetinin aspiranturasını bitirmiş və «İlyas Əfəndiyevin yaradıcılığında folklor motivləri» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Hal-hazırda doktorluq işi üzərində çalışır.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşayıb-yaratmış Mücrim Kərim Vardaninin həyat və yaradıcılığını ilk dəfə geniş şəkildə tədqiq etmiş və «Mücrim Kərim Vardaninin həyat və yaradıcılığı» monoqrafiyasını yazmışdır.

Eyni zamanda o, folklorşünaslıq və ədəbiyyatşünaslıq sahəsində bir sıra elmi monoqrafiyaların müəllifidir. «Sənətkar və poeziya», «Fikrət Qocanın yaradıcılıq yolu», «Yazıçı və folklor», «Alim, vətəndaş E. Əlibəyzadə-80», «Fikrət Sadığın poetikası», «Tədqiqatçı alim, folklorşünas Rüstəm Rüstəmzadə», «Mir Cəlalın elmi-nəzəri görüşləri», «Sənətkar və zaman», «Söhrab Tahir-AzərAzərin lirikası», «Azərbaycan ədəbiyyatında detektiv janr», «Saz-söz ustadları-Dədə Şəmşir», «Könül rübabının səsi» və s. monoqrafiyaları nəşr olunmuşdur.

Bir sıra folklorşünasların elmi-ədəbi fəaliyyətini araşdırmış, üzə çıxarmışdır. «Xalq ədəbiyyatına dair araşdırmalar», «Xalq ədəbiyyatının tədqiqinə dair» kitabları tərtib etmiş, geniş ön söz yazmış və nəşr etdirmişdir.

Ədəbiyyatşünaslıq və ədəbi tənqid sahəsində çoxlu sayda məqalələri müxtəlif qəzet və jurnallarda dərc edilmişdir. «Ədəbi mühit və müasirlərimiz» II cildlik kitabları nəşr olunmuşdur.

«Xocalı, ay Xocalı», «El bir olsa…», «Sınaq» dram əsərləri tarixi mövzuda yazılmış dəyərli əsərlərdir. Gülxani Pənah respublikanın ictimai həyatında yaxından iştirak edir, respublika Ziyalı Qadınlar Birliyinin idarə heyətinin üzvü olmuş, Müstəqil Azərbaycan Respublikası ilk qadınlar qurultayına, Yazıçılar Birliyinin qurultaylarına, Müəllimlər qurultaylarına nümayəndə seçilmişdir. Bir çox elmi simpoziumların, konfransların iştirakçısıdır.

Təhsilin müasir problemləri ilə bağlı metodik məqalələrlə, bədii-publisistik yazılarla mətbuatda tez-tez çıxış edir. Respublikada «Təhsilin hümanistləşdirilməsi ili», «Təhsildə keyfiyyət ili» çərçivəsində keçirilən «Pedaqoji mühazirələr»də fəal iştirak etdiyinə, təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı bir sıra əhəmiyyətli ideya və təkliflər irəli sürdüyünə, müasir təlim metodlarının təcrübədə tətbiqinə, bu baxımdan elmi-nəzəri və praktik əhəmiyyətli məruzələrinə və fəaliyyətinə görə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Birinci dərəcəli Diplomuna, Bakı şəhər Baş Təhsil İdarəsinin Diplomuna və bir sıra Fəxri fərmanlara layiq görülmüşdür.

Kitabları «Qızıl qələm», «Rəsul Rza», «Cəlaləddin Rumi» «İlin nüfuzlu ziyalısı» (2009) mükafatlarına, «Zərif qələm», İdeal Sülhün Təbliği Fondunun «Qalib Sultan», Milli Mətbuatın 138-ci il dönümü münasibətilə «Cəsarətli qələm», «Sənət, sənətkar və zaman» kitabına görə «Qızıl kitab» diplomlarına, Azərbaycan Müdafiə Nazirliyinin fəxri fərmanlarına, «Bizim sərhədçilər» pomasına görə Dövlət Sərhəd Xidmətinin Birinci dərəcəli diplom və mükafatlarına və s. layiq görülmüşdür.

«İskit» Beynəlxalq İctimai Birliyinin prezidenti, «İs-kit» jurnalının baş redaktorudur.

Əsərləri ölkə daxilində, türk, rus, fars, ingilis, alman və s. dillərində nəşr olunub.

SALATIN ALI QIZI ƏHMƏDOVA (ƏHMƏDLİ)

Salatın Alı qızı Əhmədova 1956-cı ildə Ağstafa rayonunun Poylu qəsəbəsində anadan olmuşdur. 1974-1980-ci illərdə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq və biblioqrafiya fakultəsini bitirib. Azərbaycan Memarlıq və İnşaat Universitetində və Xətai adına kütləvi kitabxanada müxtəlif vəzifələrdə çalışıb.

Salatın Əhmədli Azərbaycan Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili və peda-qogikası kafedrasının müdiri və dosentidir. Universitetin YAP-nın Qadınlar Şurasının sədridir. Eyni zamanda, «İşıq» qadın jurnalında baş redaktorun müavinidir. «Yada düşdü» jurna-lının və «Kredo» qəzetinin redaksiya heyətinin, «Turan» Qa-dınlar Mərkəzinin, «Bura Vətəndir», DAMM-ın Qadın şurası və idarə heyətinin üzvüdür. Dünyanın 30-dan çox ölkəsində olub-dur.

«Xalq şairi N.Həsənzadəyə Poylu beşiyindən məktub» (I-II nəşr), «Səfərnamə» (I-II kitab), «Ömrünü Qazaxda yaşayan şair», «Həcc ziyarəti», «Hüseyn Cavidin ev muzeyi», «Sənsiz» (tərtibçi), «Azərbaycan poeziya çələngi» (tərtibçilərindən biri), «Məhsəti». Ensiklopedik toplu (2 müəlliflə), «XIX əsr Azərbaycan ədəbiyyatı. Poeziya» (tərtibçilərdən biri), XIX-XX əsr Azərbaycan ədəbiyyatı. Nəsr (tərtibçilərdən biri), «İncilər» Ensiklopedik toplu (tərtibçilərdən biri), «Bura vətəndir» (iki

müəlliflə), «İlqarsız dünya» (iki müəlliflə), «Şairlər vətəni bizim tərəflər» (tərtibçilərdən biri), «Şərəfli ömür yolu» (tərtibçilərdən biri), «Şama bənzəyən ömür» (tərtibçi), «Şeirimizin Nərimanı» (iki müəlliflə), «Hər kim yüz il unutmasa» (iki müəlliflə), «Analar köç edəndə», «Yol gedir Naxçıvana», «Bir elatın dastanı», «Heydər Əliyevin dil siyasəti» (Rəsmi sənədlər) kitabları, «Heydər Əliyevin dil siyasəti» və «Heydər Əliyev və ədəbi-tarixi proses» monoqrafiyaları işıq üzü görmüşdür.

«Heydər Əliyevin dil siyasəti» və «Analar köç edəndə» kitabları türkçəyə uyğunlaşdırılaraq Türkiyədə çap olunub. «Hər kim yüz il unutmasa», «Bir elatın dastanı», «Analar köç edəndə» və «Hekayələr» kitabı əski əlifba ilə İranda Azərbaycan dilində çap olunub. Xeyli sayda elmi və publisistik məqalələri xaricdə və respublikanın dövrü mətbuatında çap edilmişdir. Eyni zamanda xalq şairi N.Həsənzadənin «Poylu-beşiyim mənim» və F.Ləmanın «Onu zaman seçib» poemasını bədii qiraətlə diskə yazdırmışdır. «Poylu-beşiyim mənim» diski Tehranda üzü köçürülərək, orada azərbaycanca çap edilən «Xu-dafərin» jurnalına əlavə kimi jurnalın abunəçilərinə göndə-rilmişdir.

2010-cu ildə «Heydər Əliyevin dil siyasəti» mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru adını almışdır. Yaradıcılıq xidmətlərinə görə «Qızıl Qələm», «Cəfər Cabbarlı», QXC-nin «Əliağa Şıxlinski» və bir sıra İB-in fəxri diplomlarına və mükafatlarına layiq görülmüşdür. Qardaş Türkiyə, İran, Gürcüstan Yazarlar Birliyinin və Almaniyanın Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyət İnstitutunun fəxri diplom və ödüllərinə layiq görülüb. Ukrayna-Azərbaycan mədəniyyətinin inkişaf etməsində göstərdiyi xidmətlərinə görə Ukraynadakı Azərbaycan konqresinin fəxri fərmanı ilə

mükafatlandırılıb. Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqının «Ustad sənətkar» və «Azərbaycan bayrağı» Ali Media mükafatına layiq görülmüşdür.

2014-cü ildə Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və yayılması, gənclərin tolerantlıq və qarşılıqlı hörmət ruhunda tərbiyə olunmasında göstərdiyi xidmətlərinə görə Kiyev və bütün Ukraynanın Apostol Pravoslav kilsəsinin metropoliti tərəfindən «Apostol Andrey Pervozvannıy» ordenin ilə təltif olunmuşdur. AYB-nin və AJB-nin üzvüdür. Rəsul Rza Beynəlxalq Ədəbi mükafatının laureatıdır. Ədəbiyyatımızın təbliği sahəsində böyük fəaliyyətinə görə Səməd Vurğun adına mükafata layiq görülmüşdür. «Kitab evi» İB-nin sədridir.

Redaktorlar : Arifə Arifqızı
Gülnar Zakir qızı Osmanova

***Korrektorlar*:** Bahar İsayeva
Tural Məzahiroğlu

Dizayn: Şəmsiyyə Əliyeva

Gülxani Vaqif qızı Şükürova (Pənah),
Salatın Alı qızı Əhmədova (Əhmədli), 2014.

Azərbaycan ədəbiyyatı məsələləri
(Müasir ədəbi mühitə ümumi baxış)

Çapa imzalanmışdır: 12.04.2014.
Kağız formatı 60x84$^{1}/_{16}$
Çap vərəqi 39.25. Sifariş 22.
Tiraj: 5000
Qiyməti müqavilə ilə.